Müqayisəli təhlil. Azərbaycan, rus və ingilis dillərindəki atalar sözlərinin müqayisəsi göstərir ki, hər üç xalq qonaqpərvərliyi müsbət dəyər kimi qəbul edir. Lakin yanaşma fərqlidir. Azərbaycan atalar sözlərində qonaq müqəddəs və toxunulmazdır. Rus atalar sözlərində qonaqpərvərliklə yanaşı, praktiklik və ölçü hissi nəzərə çarpır. İngilis atalar sözlərində isə qonağa hörmət nəzakət və şəxsi azadlıq çərçivəsində ifadə olunur.

Praktiki əhəmiyyəti. Qonaqpərvərliklə bağlı atalar sözlərinin müqayisəli təhlili dilçilik və filologiya sahəsində tədris prosesində, xüsusilə xarici dil və mədəniyyətlərarası kommunikasiya dərslərində faydalı material kimi istifadə oluna bilər. Bu tədqiqat tərcüməçilik fəaliyyətində atalar sözlərinin mədəni kontekstə uyğun və adekvat çevrilməsinə kömək edir. Eyni zamanda, müxtəlif xalqların mədəni dəyərlərinin daha yaxşı anlaşılmasına şərait yaradır və milli-mədəni irsin qorunması baxımından əhəmiyyət daşıyır.

Elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi qonaqpərvərlik anlayışının Azərbaycan, rus və ingilis dillərində atalar sözləri əsasında müqayisəli-linqvokulturoloji aspektdə araşdırılmasından ibarətdir. İlk dəfə olaraq bu dillərdə qonaqpərvərliklə bağlı atalar sözləri semantik, praqmatik və mədəni xüsusiyyətlərinə görə sistemləşdirilir, oxşar və fərqli cəhətləri kompleks şəkildə təhlil olunur. Araşdırma nəticəsində qonaqpərvərlik anlayışının milli mentalitetdən asılı olaraq müxtəlif məna çalarları qazandığı elmi əsaslarla göstərilir ki, bu da dil və mədəniyyət əlaqələrinin öyrənilməsinə yeni baxış bucağı gətirir.

Aktuallıq. Müasir dövrdə qloballaşma və mədəniyyətlərarası əlaqələrin genişlənməsi müxtəlif xalqların dil və mədəniyyətinin müqayisəli şəkildə öyrənilməsini zəruri edir. Bu baxımdan qonaqpərvərlik kimi ümumbəşəri dəyərin atalar sözlərində əks olunmasının Azərbaycan, rus və ingilis dilləri əsasında araşdırılması xüsusi aktuallıq kəsb edir. Tədqiqat mədəniyyətlərarası ünsiyyətdə yaranan fərqlərin və oxşarlıqların daha dərindən anlaşılmasına, milli mentalitetlərin dil vasitəsilə üzə çıxarılmasına xidmət edir. Eyni zamanda, folklor nümunələrinin qorunması və elmi dövriyyəyə cəlb olunması baxımından da mövzu günümüz üçün əhəmiyyətlidir.

Nəticə. Qonaqpərvərliklə bağlı atalar sözləri xalqların dünyagörüşünü, mədəni dəyərlər sistemini və gündəlik həyat tərzini əks etdirən mühüm dil vahidləridir. Bu atalar sözləri xalqın tarixi təcrübəsinin, sosial münasibətlərinin və mənəvi normalarının dil müstəvisində formalaşmış ifadəsidir. Azərbaycan, rus və ingilis dillərində mövcud olan nümunələrin müqayisəli təhlili göstərir ki, qonaqpərvərlik anlayışı hər üç mədəniyyətdə müsbət dəyər kimi qəbul edilsə də, onun semantik çalarları və ifadə formaları milli mentalitetdən asılı olaraq dəyişir.

Azərbaycan dilində qonaqpərvərliklə bağlı atalar sözlərində qonaq müqəddəs və toxunulmaz varlıq kimi təqdim olunur, ona göstərilən hörmət ilahi və mənəvi borc səviyyəsinə yüksəldilir. Rus dilindəki nümunələrdə qonaqpərvərlik sə-

mimiyyət və səxavətlə yanaşı, həyatın real imkanları və ölçü prinsipi ilə tarazlaşdırılır. İngilis dilində isə bu anlayış daha çox nəzakət, rasional yanaşma və fərdi sərhədlərin qorunması çərçivəsində ifadə olunur. Bu fərqlər hər bir xalqın sosial davranış modellərini və mədəni prioritetlərini aydın şəkildə ortaya qoyur.

Beləliklə, aparılan müqayisə sübut edir ki, atalar sözləri yalnız dil faktı kimi deyil, həm də xalqların mədəni irsinin, milli kimliyinin və kollektiv yaddaşının daşıyıcısı kimi çıxış edir. Onlar müxtəlif mədəniyyətlər arasında oxşar və fərqli cəhətlərin müəyyənləşdirilməsində mühüm mənbə rolunu oynayır, eyni zamanda dil, mədəniyyət və təfəkkür arasındakı ayrılmaz əlaqəni bir daha təsdiqləyir. Bu baxımdan qonaqpərvərliklə bağlı atalar sözlərinin tədqiqi həm dilçilik, həm də mədəniyyətşünaslıq baxımından aktual və əhəmiyyətli hesab olunur.

Ədəbiyyat:

1. Axundov, A.A. (2005). Azerbaijan Folklore and Proverbs. Baku: Elm.
2. Hajiyev, T. (2008). Phraseology of the Azerbaijani Language. Baku: Maarif.
3. Kazimov, Q. (2010). Modern Azerbaijani Language. Baku: Elm və Təhsil.
4. Dal, V. (2004). Proverbs of the Russian People. Moscow: Eksmo.
5. Ozhegov, S.I. (2006). Dictionary of the Russian Language. Moscow: Russkiy Yazyk.
6. Maslova, V.A. (2001). Linguoculturology. Moscow: Akademiya.
7. Mieder, W. (2004). Proverbs: A Handbook. Westport: Greenwood Press.
8. Norrick, N.R. (1985). How Proverbs Mean: Semantic Studies in English Proverbs. Berlin: Mouton de Gruyter.
9. Crystal, D. (2003). The Cambridge Encyclopedia of the English Language. Cambridge: Cambridge University Press.
10. Samovar, L.A., Porter, R.E., & McDaniel, E.R. (2010). Intercultural Communication: A Reader. Boston: Cengage Learning.

Anara Mammadova

Summary

A COMPARATIVE ANALYSIS OF PROVERBS RELATED TO HOSPITALITY IN AZERBAIJANI, RUSSIAN, AND ENGLISH

This article presents a comparative analysis of proverbs related to hospitality in Azerbaijani, Russian, and English. Hospitality is examined as a universal cultural value that reflects the worldview, moral principles, and social behavior of different nations. The study shows that while hospitality is positively perceived in all three cultures, it is expressed with different semantic and cultural nuances. In Azerbaijani culture, hospitality is regarded as a sacred moral duty; in Russian culture, it is associated with sincerity and generosity balanced with practicality; and in English culture, it is shaped by politeness, rationality, and respect for personal boundaries. The analysis demonstrates that proverbs function not only as linguistic units but also as carriers of cultural heritage, revealing the close relationship between language, culture, and national mentality.

Анара Мамедова

Резюме

СРАВНЕНИЕ ПОСЛОВИЦ О ГОСТЕПРИИМСТВЕ В АЗЕРБАЙДЖАНСКОМ, РУССКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

В данной статье представлен сравнительный анализ пословиц, связанных с гостеприимством, в азербайджанском, русском и английском языках. Гостеприимство

рассматривается как универсальная культурная ценность, отражающая мировоззрение, нравственные принципы и социальное поведение различных народов. Исследование показывает, что, несмотря на положительное восприятие гостеприимства во всех трёх культурах, оно выражается с различными семантическими и культурными оттенками. В азербайджанской культуре гостеприимство воспринимается как священный нравственный долг; в русской культуре оно связано с искренностью и щедростью, уравновешенными практичностью; в английской культуре – с вежливостью, рациональностью и уважением к личным границам. Анализ доказывает, что пословицы функционируют не только как языковые единицы, но и как носители культурного наследия, раскрывая тесную связь между языком, культурой и национальным менталитетом.

Rəyçi: b/m. M.Şirinova

Aynur Cəlilova
AMEA Folklor İnstitutu

10.30546/2518-752X.1.601.04

OVÇU JARQONU

Açar sözlər: *ovçu jarqonu, leksem, evfemizm, ovçuluq terminologiyası*
Keywords: *hunter jargon, lexeme, euphemism, hunting terminology*
Ключевые слова: *охотничий жаргон, лексемы, эвфемизм, охотничья терминология*

Giriş. Sivil cəmiyyətin formalaşmasının əsasında dil faktoru dayanır. Dil insanları bir-birinə bağlayan fikirlərin, məlumatların, ideyaların başqalarına ötürülməsində ən vacib təbii vasitə, eyni zamanda mifoloji hadisədir. Dünyada hamının bir-birilə ünsiyyət qurduğu ümumi danışıq dilindən başqa gizli dillər də olmuşdur, burada hamının yox, yalnız kiçik bir zümrənin, bir qrup adamın istifadə etdiyi dil nəzərdə tutulur, dilçilikdə jarqon adlanın xüsusi dil formasının ilk örnəyi ovçuluq peşəsi ilə əlaqədar olaraq meydana çıxmışdır. Ovçu jarqonu yarandığı vaxtdan min illər keçsə də, bir hərfi belə dəyişilmədən varlığını qoruyub saxlaya bilmişdir.

Mifoloji təfəkkürdə heyvanların ayrıca dilinin olması inancı var, amma onu yalnız seçilmiş insanlar bilir, heyvanların dili müqəddəs, qeyb aləminə məxsus qorunan sakral dil hesab olunur, bu mənada vəhşi heyvanlar sakral aləmi təmsil edir, onların ovlanması, dili tabu sayılır. Heyvanlara aid daha bir spesifik cəhət qeyb dünyasının sirlərini, həmçinin insanların dilini bilməsidir. Qədim dünya ovçusu bu inancı yaratmaqla təbiətdə dili olan yeganə irq olmadığını göstərməyə çalışmış, ən əsası heyvanla özü arasında rabitə yaratmaqla maddi tələbatını ödəməyə nail olmuşdur. Ovçu jarqonu dediyimiz tabu leksika yalnız inancdan doğan ov rituallarından biridir, buna ad tabusu, tabu leksika da deyə bilərik. Tədqiqatçılar ad tabunu "ovçu dili", "ovçu leksikası" kimi təqdim etmişlər, biz burada dilçilik elmi üçün uyğun gələn ovçu jarqonu terminindən istifadə etməyi məqsədəuyğun hesab edirik. Amerikalı folklorşünas S.Tompsonun folklor motivlərinin indeksi kataloqunda C430 indeksi [Name tabu: prohibition against uttering the name of a person or thing – Ad tabu: bir şəxsin yaxud əşyanın adının çəkilməsinin qadağan edilməsi] ilə qeydə alınmışdır [23]

Ovçu jarqonu. Ovçu jarqonu nədir və necə yaranmışdır?

Ovçu jarqonu dediyimiz kimi ilk ovçuların keçirdikləri ov ritualları əsasında yaranmışdır, ovçu meşədə danışdığı sözləri heyvan donunda olan əcdad ruhun anladığını düşünürdü, inanca görə ovçunun dilindən adını eşidən heyvan ovçudan uzaqlaşır, bunun nəticəsində isə ovçu ruzisiz qalırdı. Ovçular inancdan doğan bu çatışmazlığı aradan qaldırmaq üçün simvolik dil icad etmişdilər: onlar ov zamanı heyvanların, ov silahının adını çəkmirdilər, başqa adla adlandırırdılar. Ovçular ov heyvanlarına qondarma bir ad yox, heyvanın görünüşünə, ya da hansısa əlamətinə

görə: tutaq ki, heyvanın uzun quyruğu varsa, quyruğu, uzun qulağı varsa qulağı, yaxud pəncəsi, ağzı, burnu, dimdiyi, dili, qanadı, gözünün quruluşu, rəngi və s. uyğun yeni ad verirdilər. Struktur-semantik formasına görə ovçu jarqonu dilin söz bazasından kənara çıxmır. Tədqiqatçıların fikrincə, ovçu jarqonundan istifadə edən ovçular ovun uğurlu keçməsindən başqa magik ritual da yerinə yetirirdilər [8, s.7]. Ovçular öz aralarında jarqon sözlərdən istifadə edərək həm öz məqsədlərini gizlədir, həm də ov əyəsinə hörmət, ehtiram saxlayırdılar. Freyzerin fikrincə, ovçular ov vaxtı adi sözləri komplimentlərlə, xoş sözlərlə, tapmaca sözlərlə əvəz edirdi ki, heyvanlarda qəzəb hissi oyanmasın, rahat gəzsinlər[13, s.61]. Sivil dünyada ilk dəfə dil maskasından istifadə edən ovçular olmuşdur, ovçu jarqonu maskalanmanın ən geniş yayılmış ibtidai formalarından biridir.

Toplanan materiallardan ovçu jarqonunu təşkil edən sözlərin leksik, morfoloji və sintaktik yolla yarandığını müşahidə edirik. İlk olaraq Sayan-Altay xalqlarının ov inanclarına və ovçu jarqonuna nəzər salaq: Tuva ovçularının inancına görə heyvanlar insan dilini başa düşür, ovçunun tayqaya nə məqsədlə gəldiyini anlayırlar, eyni inanc xakaslarda da olmuşdur, onlar dağ əyəsinin ovçuların danışığını başa düşdüyünə inanır, ov zamanı, xüsusən ayı, maral, əlik ovunda ad tabusundan istifadə etməyi vacib sayırdılar [3, s. 1365]. Tuvalı ovçular maralı *sarıqan* adlandırırdılar, sarıqan "sarı+an", sarı ov anlamında işlənir, birillik marala isə *saradak* adı vermişdilər. Sarı rəng Altay türklərinin mifologiyasında ov tanrısının və günəşin rəngi sayılırdı, ovçular ova çıxmazdan qabaq ov tanrısı Kudaya sarı heyvan qurban kəsib dua edirdilər [20, s.144]. Altay xalqlarında maral, ayı, qurd, dovşan, pars tabulaşmış heyvanlar sinfinə aid edilir və ovçular ov vaxtı bu heyvanları başqa adla adlanıdırırdılar. Məsələn, tuva, xakas, tofa türkləri ayını *adıq, aba* – baba, ağa, *ire an* – iri ov, *çer kulaktıq* – yer qulaqlı, *çir xulax* – yer qulaq, kişi heyvan adlandırırlar, qurdu *uzun kuduruktuq* – uzun quyruq, *pürü* – börü, *dağ ıtı* – dağ iti, *tayqa ıdı* – tayqa iti, dələni *söök baş* – sümük baş, samuru *qara yügürük* – qara yüyürük adlandırmaqla ovçu evfemizmi düzəltmişlər [7, s.176; 13, s.62]. Altay ovçuları yalnız totemləşdirdiyi heyvanları qohumluq evfemizmi ilə adlandırırdılar, ayıya *baba, dayı*, qurda *uzunquyruq dayı* adını vermişdilər, qalan heyvanlar bu kateqoriyaya aid deyildi. Altay türklərinin ov adət-ənənələrini tədqiq edən F.Türker "ad tabusu"na daxil olan ovlanan və ovlanmayan heyvanların adları və ovlama qaydaları haqqında bilgilər vermişdir [24, s.261]. Yakutlar ayını tayqanın ağası və müqəddəs heyvan sayırdılar, ovçular ayının insan dilindən anladığını düşünür, ad tabusundan istifadə edirdilər: *tıa toyona* – meşə bəyi, *kırdıağas* – qoca, *tıataağı* – tayqaçı. Onlar ayı ovunda istifadə olunan silahların da adlarını evfemistik leksikaya daxil etmişlər [10, s.321]. Buryat ovçuları totem gözündə gördükləri qurdu bir neçə jarqon adla adlandırmışlar: *xudeeqey taabay* – meşə babası, *xudooqey ubqen* – meşə qocası, *saqaan taabay* – boz baba, *abqay* – başçı, *naqasay taabay* – ana baba, *tenqeriyn noxoy* – göy iti və s. Tədqiqatçılar qurdun bu qədər tabulaşmış adla adlanmasını iki səbəblə izah edirlər: birinci heyvanın fiziki xüsusiyyətlərinə, ikinci etnosun mənşəyinin səmavi sakral heyvana bağlanmasına görə [11, s.124]. Fikrimizcə çoxvariantlı ad tabusu millətin etnik mənşəyi ilə izah oluna bilməz, çünki, Qafqazın qeyri-türk xalqlarında vəhşi heyvanların bir yox, bir neçə ad altında tabulaşmasını, belə demək mümkünsə totem olmayan heyvanlara da bir neçə ad verildiyini görürük (cədvəl 1). Deməli, burada heyvanın totem rolunda çıxış

edib etməməsindən asılı olmayaraq, evfemizm qazanması tamamilə heyvanların insan dilini anlaması inancına bağlıdır, qohumluq bildirən ata, baba, dayı, nənə, ana və s. sözlər totem heyvana sayğı hissindən meydana çıxmış, fiziki əlaməti üstələmişdir. İbtidai şüurlu ovçu totem saydığı heyvanı o birilərdən fərqləndirmək üçün qohumluq evfemizmindən istifadə etmişdir, amma onun nəzərində ov ovdur, özünü yaşatmaq üçün ovlamalıdır. Ovçu jarqonu bütün xalqlarda demək olar ki, eyni məzmun və semantik yükü daşıyır, totem heyvanları çıxmaq şərtilə fiziki əlamətlərinə görə adlandırılmışlar.

Türk dilində ovçu jarqonunun ilk yazılı nümunələrinə Kaşğarlının "Divanilüğət it türk" əsərində rast gəlirik. Türkoloq alimin topladığı heyvan adları ovçu evfemizminin əski türk örnəklərini ortaya çıxarır: *yabaqulaq* – bayquş, *dovşancıl* – şahin, *soğur* – dovşan, *balıqçın* – balıq yeyən quş və s. Kaşğarlının lüğətində ağ əlamətli heyvanların tabu adla adlanması nəzərdən qaçmır, burada ak[2], l sonluğu qutsallıq və fərqlənməni bildirir, məs: *sukak* – ağ maral, *adhğırak* – qulaqları ağ, hər yeri qara erkək keyik, *başğıl* – başı ağ heyvan, *tarğıl* – beli ağ-qara zolaqlı heyvan, *boymul* – boynu ağ heyvan, *bögrül* – böyrü ağ heyvan və s. [12].

Folklorşünas Ə. Cəfəroğlu Anadolunun "gizli dil"indən bir neçə ad misal verməklə türk ovçuluq ənənələrinə bağlı ritual olduğunu qeyd edir [6, s.171]. Ov etmək Osmanlı sultanlarının əsas məşğuliyyətlərindən olmuşdur. Onlar ovçuluğu dövlət səviyyəsində himayə etmiş, ov qanunları qəbul etmişlər. Osmanlı baznamələrinin dili indiki türkcədən fərqli ərəb-fars izafətləri ilə ağırlaşmış formadadır, amma bununla belə ovçu jarqonuna aid edilə biləcək heyvan adlarına rast gəlirik: *gözsüz sebek* – köstəbək, *havkara* – ov heyvanı, *karnoş* – quş növü, *kehli* – sürməli (quş), *dumdum kurşunu* – güllə, *yılancıl* – ov quşu, *tavşancıl* – şahin, *karakura* – şahin növü [9, s.196]. Əski Anadolu türkcəsi və çağdaş Türkiyə türkcəsi lüğətində heyvan adlarının əksəriyyətinin ovcu jarqonundan götürüldüyünü müşahidə edirik. M.Özden əski Oğuz türkcəsindəki heyvan adlarının Anadolu ağzındakı variantları ilə cüzi fonetik fərqliliklə indi də istifadə olunduğunu bildirir. Bu adlar Azərbaycan türkcəsi ilə daha doğrusu, Azərbaycanda qəbul olunmuş zoonimlərlə demək olar ki, eynidir: *kesegen* – kəsəyən, *kılkuyruk* – qılquyruq, *balıkcın* – balıqcıl, *kırkayaklu* – qırxayaq, *tana burnu* – danaburnu, *balaban, bağrı kara* – bağrıqara, *erkeç* – erkəc, *töpel* – təpəl, *alıcı* – alıcı quş və s. [17, s.53-60]. Başqa bir tədqiqatçı M.Y.Özezen türk lüğətində olan əsil və mifoloji heyvan növlərini təsnifləndirmiş və əlifba sırası ilə sadalamışdır. Özezenin araşdırmasında çox sayda morfoloji, sintaktik və leksik yolla yaranmış evfemizmlərə rast gəlirik: *Ağaçdelen, akbaş, akkuyruk, alabacak, baldırsokan, beşpençe, boynueğri, buğdaycıl, büyükbaş, cırcır, çobanaldatan, dalkurutan, dikkuyruk, elmabaş, elöpen, kamçıkuyruk, kamışkulak, karagöz, kulağakaçan, kocaoğlan, sarıgöz, sarıkanat, sinekkapan, sivrikuyruk, tokmakbaş, vakvak, yalıngöz, yerdegezen, yılancıl, yusufçuk* və b. [18, s.1444]. Bu adlar, əsasən, heyvanın görünüşünə və xasiyyətinə uyğun verilmiş isim+isim, isim+fel, sifət+isim, say+isim, isim+zərf, zərf+fel kombinasiyalı birləşmələrdir.

Ovçu jarqonu slavyan xalqlarının ov rituallarında əsaslı yer tutur. Rus tədqiqatçı Qonçarov ovçuluq leksikasını terminologiyadan ayırır, ovçu leksikasının peşə ilə bağlı leksemlərdən ibarət xüsusi danışıq forması olduğunu bildirir (Гончаров, 1983:9). Rus dilində ovçuluq və balıqçılıqla bağlı bir qrup sözlər meydana çıxmışdır, bu sözlər ayrı-ayrılıqda rus ədəbi dilində fərqli məna ifadə edir və

müasir slavyan dillərinin hamısında vardır. Məsələn, *поезд* (qatar) sözü hazırda bildiyimiz dəmiryol nəqliyyatı vasitəsi yox, balıq tutmaq üçün işlənən alət mənasında işlənir. Balıq ovunda işlənən evfemizmlərin sayı istənilən qədərdir: *связка – əlaqə, перемет* – daşıma, *костыль* – qoltuqağacı, *крылачь* – qanadlı, *костечь* – sümük, *сено* – ot və s. Buradan çıxış edərək deyə bilərik ki, dildəki ilk sistemli polisemiya hadisəsi ovçuluq peşəsi ilə əlaqədar olaraq meydana çıxmışdır. Qonçarov ovçuluq peşəsi ilə əlaqədar olaraq türk dilindən rus dilinə keçən leksemlərin [*ахан, илым, тагас, атаман, ватага, балабан* və s.] rus ovçu leksikasını zənginləşdirdiyinə və hazırda da işləndiyinə diqqət çəkir [15, s.17]. Rus dilindəki türk sözlərini araşdıran M.Təkləli türk dilindən slavyan dillərinə keçən sözlərin ikinci məna kəsb etməsini arxaikləşmə ilə əlaqələndirir[22, s.52], amma qeyd etdiyimiz kimi bu növ polisemantik sözlər ov inancları ilə bağlı meydana çıxmış ritual, peşəkar ovçuların dilində işlənən evfemizmlərdir. Orta əsr slavyan-rus ovçuluğunun formalaşmasında türk ov ənənələri mühüm yer tutur, bunu həm ov adət-ənənələrində, həm də ov rituallarının bir növü olan ovçu leksikasına daxil olan türk sözlərindən görmək olur.

Qafqaz bölgəsi vəhşi heyvanlarla zəngin dağlıq ərazidir, burada yaşayan xalqlarının əsas məşğuliyyəti ovçuluq olmuşdur. Qafqazlılar qədim ov adət-ənənələrini bu gün də qoruyur və yaşadırlar, həmin adətlərdən biri də ov zamanı istifadə etdikləri jarqon dildir. Osetinlər inanırdılar ki, bütün dağlıq və meşəlik ərazilər ov əyəsi Afsatın ixtiyarındadır, həmin yerlərdə ovçular ancaq ovçu dilində danışmalıdırlar [4, s.29]. Osetinlərin ov zamanı danışdıqları *çuanon avzaq* (ovçu dili) leksikasından bir neçə örnək verək: *çuanon* – ovçu (it), *sekadzun (sardzun)* – buynuzlu (maral), *darqdım* – uzunquyruq (qurd), *tapenkax* – yastıayaq (ayı), *targus* – uzunqulaq (dovşan), *kaxaq* – yerqazan (donuz), *xilaq* – sürünən (ilan), *kobor* – böyük, güclü (öküz) və s. [5, s.62]. Abxazların inancına görə ovçu ov zamanı ovçu dilindən istifadə edərsə ov əyəsi Ajveypşa onu səxavətlə mükafatlandırar [19, s.200]. Abxaz ovçu jarqonunda vəhşi heyvanlarla yanaşı ev heyvanları da ad tabusu qazanmışdır: ayı – *şapaş* (kökayaq), at – *şapaqa* (ayaqlı), eşşək – *amhaçdu* (uzunqulaq), dovşan – *axopşka* (yumşaqpəncə uzunqulaq), cüyür – *aşabsta* (qanı quru) və s. [8, s.11; 16, s.17]. Avar-andalallar ovçu dilinin ovçuların məqsədlərini gizlətməyə xidmət etdiklərini düşünür uğurlu ov etmək üçün jarqon sözlərdən istifadə edirdilər: ayı – *xlepab* (qoca), tülkü – *sixirab* (hiyləgər), qurd – *qündul kök* (uzun qulaq), kəl – *lürdul kodo* (böyük buynuz) və s.[2, s.134]. Çərkəzlər ova çıxanda *şakobze* (*şako* ovçu+*bze* dil) və *farşipse* adlanan jarqonla danışır, ad tabusunun ovçuya uğur gətirəcəyinə inanırdılar. Çərkəzlərin ovçu jarqonu elit təbəqənin dili sayılırdı, rəiyyətin bu dildə danışmağı qadağan olmuşdu [21]. Qafqaz xalqlarının demək olar ki, hamısında, o cümlədən Azərbaycanda ovçu jarqonu işlənmişdir, müqayisə üçün evfemizmlərin semantik yaxınlığına nəzər salmaq məqsədəuyğundur: Cədvəl 1

Heyvan, silah adları	Evfemizmlər						
	Qaraçay-malkar	Avar-andalal	Abxaz	Osetin	Tabasaran	Kabardin	Azərb. türkləri
Ayı	Dayı, uludaban	Qoca	Qoca, baba, ata	Yastıayaq Tüklü	Qoca, baba, nənə, kişi	Tüklü	Yastıdaban, əyripəncə

Qurd	Dikqulaq	Qısaqulaq	Qorxudan	Uzun-quyruq	Böyük-qulaq Baba	Boz	Yalquzaq, dikqulaq
Tülkü	Hiyləçi	Hiyləgər	Aldadan	Hiyləgər	Aldadan	Andiçən	Şələquyruq, hiyləgər
Dovşan	Çəpgöz	Böyük-qulaq	Uzunqulaq, yumşaqpəncə	Çəpgöz uzunqulaq	Uzunqulaq, çəpgöz	Üçdodaq	Çəpgöz, haçaqulaq
Maral	Budaqlı	Buynuzlu	Buynuzlu	Buynuzlu	buynuzlu, quyruqsuz	Çoxbuynuz	Buynuzlu
Qaban	Çamçıqulaq, başdaban		Uzunağız	Yerqazan	Dişli		
İt	Ovçu	Ovçu	Ovçu	Ovçu	Ovçu	Ovçu	Alabaş
Tüfəng	Altınlı Dəmir boyunluq			Tapp			Aynalı, dayan doldurum, Qoşalülə

Azərbaycan ovçu jarqonu.

Ovçu jarqonu Azərbaycan türklərinin ov leksikasının əsas kütləsini təşkil edir. Yuxarıdakı cədvəldən göründüyü kimi Azərbaycan ovçu jarqonunda qohumluq bildirən evfemizmlər yoxdur, heyvanlar yalnız xasiyyətinə və görünüşünə görə adlandırılmışlar və bu adlar Qafqazın başqa xalqları ilə oxşarlıq təşkil edir. Azərbaycan mif və əfsanələrində ayının, qurdun sakral totem heyvan rolunda çıxış etdiyini görə bilirik, amma jarqon dildə hər hansı qohumluq evfemizminə rast gəlmirik. Ov nəğmələrində, oyunlarda, düzgülərdə, heyvanlar haqqında nağıllarda, qaravəllilərdə, lətifələrdə, bayatılarda, atalar sözlərində kifayət qədər jarqon nümunələr yer almışdır. Uşaq folkloruna aid edilən "Tülkü tülkü tünbəki" sicilləməsi buna nümunə sayıla bilər [1, s.314]. Burada heyvanların əsil adlarıyla bərabər evfemizmlər də verilmişdir: hiyləgərlik mənasında işlənən *tənbəki* sözünə uyğunlaşdırılmış *tünbəki* və *lünbəki* törəmə jarqon sözdür. Şeirdə ayı, tülkü, qurd, xoruz, ala qarğa, sağsağan, çaqqal, toyuq xasiyyətinə və mövqeyinə görə, aslan, qaplan, ilan, donuz, tısbağa isə görünüşünə görə adlandırılmışdır. Bu nəğmədə *ağa, qağa***,** *molla, çavuş, carçı, çərçi, xəbərçi, qəmçi*, *axmaq, toxmaq, ulavuş*, *çanaq* sözləri ilə ovçu evfemizmi yaradılmışdır. Bədii ədəbiyyatlarda, folklor mətnlərində *qarapaça* (əlik), *qaraqulaq* (vəhşi pişik), *haçaquyruq* (qaranquş), *qaçağan* (at), *goreşən* (kaftar), *gəlincik* (dələ), *toyuqoğrusu* (dələ cinsi), *hərşeyyeyən* (çaqqal cinsi) və başqa bir çox heyvan isimlərinə rast gəlirik, bunlar milli evfemizmlər sırasındadır.

Azərbaycanda təkcə vəhşi heyvanları yox, ev heyvanlarını da evfemizmlə adlandırmaq ənənəsi olmuşdur, bu həm də yumşaq danışıq forması sayılır, məsələn, eşşək yerinə *uzunqulaq*, pişik yerinə *məstan,* it yerinə *toplan* adı çağırmaq adət halını almışdır, eləcə də *Kərəm, Kəraməddin ağa* adı keçi kultuna bağlı evfemizm nümunəsi sırasındadır. Zamanla insanlar ev heyvanlarına da tabulaşmış ad vermişlər, heyvanları əhilləşdirdikdən sonra inanclar artıq arxa plana keçmiş, lakin ənənə saxlanmışdır. Yeri gəlmişkən qeyd edək ki, ad sonluğunda olan an şəkilçisi sakrallıq bildirir və türk xalqlarının ov leksikasında ən çox vəhşi heyvan adlarında rast gəlinir: aslan, qaplan, bulan (ov heyvanı), burslan (bəbir növü), dovşan, sağsağan, qulan, qutan, ilan, çayan və s.

Müasir elmi ədəbiyyatda heyvan növlərinin xarakteristikası ovçu jarqonu hesabına qruplaşdırılmışdır. Əsasən, sintaktik yolla yaranan zoonimlərdən bir neçə nümunəyə baxaq: Gəmiricilər: *kəsəyən, sünbülqıran.* Qırğılar: *leşyeyən, toğlu-*

götürən, keçisağan. Quşlar: *arıyeyən, sahildəyişən, daşçevirən, ilanyeyən, bildirçinçalan, quzuqapan, çalağan, çaydaçapan, susüpürən, cırıldayan, milçəkqapan, itqapan, ağacdələn.* Bu heyvan və quş adları təbii xüsusiyyətlərinə görə adlandırılmış birinci tərəfi isim, sifət, fel, ikinci tərəfi isə fel olan düzəltmə sözlərdir. Heyvan, balıq, quş növlərini bir-birindən fərqləndirmək üçün heyvanların görünüşünü əsas götürərək yaradılmış zoonimlər dilin bioloji söz fondunu zənginləşdirmək məqsədi güdür: Kərtənkələ: *uzunayaq, girdəbaş, çılpaqgöz, ilanbaş*. Qırğı: *göydimdik, pazdimdik, çivdimdik, düymədimdik, əyridimdik, belibağlı, bağrıqara.* Quş: *sarıköynək, alaçöhrə, pırtlaşıqlələk, ərsindimdik, bizquyruq*. Yarasa: *yalançıbuynuz, enliqulaq, böyükdodaq, nalburun*. Balıq: *pərttəgöz, qılquyruq, qısaqanaq, qırmızıburun, sivriburun, qalınalın, gümüşdaban, qızıldaban, qızılüzgəc, qıjovçu, şişqarın* və s.

Ad tabusu ənənəsi bu gün də ovçuların ov rituallarında saxlanmaqdadır. Ovçular ov vaxtı nəinki heyvan adlarını, öz adlarını da başqasıyla əvəz edirmişlər. Söyləyicinin verdiyi məlumata görə Kəlbəcər ovçuları ov zamanı bir-birini adla çağırmazdılar, ad yerinə Keçəl, Çəvəl, Axsaq, Çaş ayamaları işlədərdilər, bu onlarda qayda hesab olunurdu [14, s.364]. Şübhəsiz ki, ovçuların öz adlarını əvəzləməsi ad tabusu inancından qaynaqlanır, heyvanların onları tanımaması üçün fiziki nöqsanlı insan (mifoloji varlıqların əlamətlərini götürən insan) görünüşü yaradaraq ovun uğurlu olacağına inanmışlar.

Bu gün müxtəlif peşə sahələri var ki, orada dil xüsusi aparıcı rol oynayır. Ticarət, musiqi, aşıq sənəti, hərbi, həbsxana, təhlükəsizlik və b. peşə və sosial sahələrdə jarqon dil olmuşdur. Bu dillər ovçu jarqonunun törəmələri, varisləridir, burada da məqsəd danışığın gizli saxlanmasına xidmət edir. Jarqon dillər istifadə olunan sahələrdə ovçuluqda olduğu kimi başçının sözü hökmlü sayılır, xüsusi danışığı icra edənlər qoyulmuş qaydalara əməl etməyə məcburdur.

Nəticə. Ov rituallarının bir forması olan ovçu jarqonuna dünyanın bir çox xalqlarının – Sibir, Orta Asiya, Qafqaz, slavyan, Anadolu xalqlarının ov leksikasında rast gəlinir. Ovçu jarqonu şüurlu insanın yaratdığı ilk dil maskası, ilk polisemantik dil hadisəsi, ilk evfemizmdir, eyni zamanda magik əhəmiyyət daşıyır. Ovçu jarqonu ovçuluq peşəsi ilə məşğul olmuş bütün xalqlar tərəfindən qəbul olunmuş, min illər əvvəl yaranmasına baxmayaraq bugün də varlığını qoruyub saxlayan, folklorda, elmi ədəbiyyatlarda, bədii əsərlərdə, xalq arasında işlənən mifoloji dil ünsürüdür. Məqalədə ilk dəfə olaraq Azərbaycan ov leksikasının bir hissəsi olan ovçu jarqonuna aydınlıq gətirilmiş, başqa xalqlarla müqayisəli araşdırma aparılmışdır. Ovçu jarqonu sonradan bir çox sənət və peşə sahələrində sekret dillərin yaranmasında öncül rol oynamışdır. Müasir dövlət mexanizminin genezisində ovçuluğun əsas atributları iştirak edir, onlardan biri də ovçu jarqonudur ki, burada onun struktur-semantik formasına və törəmələrinə aydınlıq gətirildi.

Ədəbiyyat:

1. Azərbaycan folkloru antologiyası, XXIII kitab (Naxçıvan örnəkləri) (2-ci cild). (2012). Bakı: Elm və Təhsil.
2. Aligadzhieva, Z.A., & Seferbekov, M.R. (2013). Iz okhotnich'ikh obryadov i verovaniy avartsev-andalaltsev. Vestnik Dagestanskogo Gosudarstvennogo Universiteta, 4, 134–139.

3. Aiyjy, E.V., & Mongush, A.M. (2020). Okhotnich'i traditsii tuvintsev: etnograficheskiy aspekt. Etnologiya i Antropologiya / Oriental Studies, 13(5), 1359–1370.
4. Bagaev, A.B. (2019). Religioznye predstavleniya ob Afsati i ikh evolyutsiya v osetinskoy okhotnich'ey subkul'ture. Istoricheskie Nauki, 27–31.
5. Butaeva, M.B. (2018). O verbal'nom tabu v osetinskom yazyke (na primere nazvaniy zhivotnogo mira). Filologicheskie Nauki. Voprosy Teorii i Praktiki, 9(87), 60–65.
6. Caferoğlu, A. (1970). Türklerde av kültü ve müessesesi. VII Türk Tarih Kongresi, 25–29 Eylül, I c., Ankara, 169–175.
7. Dambaa, Sh.B., & Suvandi, N.D. (2021). Okhotnich'ya leksika v yazykovoy kartine mira narodov Sayano-Altaya (na materiale tuvinskogo, tofalorskogo, altayskogo i hakasskogo yazykov). Novye Issledovaniya Tuvy, 4, 172–185.
8. Dirr, A.M. (1915). Bozhestva okhoty i okhotnichiy yazyk u kavkaztsev. Sbornik Materialov dlya Opisaniya Mestnostey i Plemen Kavkaza, 44, Otd. IV, Tiflis.
9. Ergüzel, M. (2009). Kitab-ı Baz-Name-i Padişahi. Ankara: Türk Dil Kurumu.
10. Efimova, L.S., Shkurko, N.S., Afanas'ev, N.V., Antonova, V.N., Baishev, I.I., & Pavlova, O.K. (2019). Okhotnich'ya kultura naroda Sakha: chelovek i mir taygi. Culture and Civilization, 9(6A), 315–327.
11. Zhambalova, S.G. (1991). Traditsionnaya okhota buryat. Novosibirsk: Nauka.
12. Kaşgari, M. (2006). Divanü lügət-it-türk (IV cild). Bakı: Ozan.
13. Katash, S.S. (1978). Mify, legendy Gornogo Altaya. Gorno-Altaysk: Altayskoye knizhnoe izd.
14. Qarabağ: Folklor da bir tarixdir, VIII kitab (Kəlbəcər rayonundan toplanmış folklor örnəkləri). (2014). Bakı: Zərdabi LTD MMC.
15. Goncharov, V.I. (1983). Leksika promyslov v russkom yazyke XVII v. (rybnaya lovlya, okhota). Avtoreferat. Kiev.
16. Gulia, D.I. (1926). Bozhestva okhoty i okhotnichiy yazyk u abkhazov. Sukhumi-Aqya.
17. Özden, M. (2020). Eski Oğuz Türkçesinde kullanılan hayvan adlarının Türkiye Türkçesi ağızlarındaki durumları. TÜRÜK Uluslararası Dil, Edebiyat ve HalkBilimi Araştırmaları Dergisi, 8, 44–74.
18. Özezen, Y.M. (2021). Türkçede hayvan adları 1: Türkçe sözlükteki temel sözlükbirimler bağlamında Türkçenin hayvan evreni. Littera Turca: Journal of Turkish Language and Literature, 7(4), 1439–1275.
19. Playeva, Z.K. (2017). Okhotnich'i bozhestva i obychai Kavkaza: paralleli s osetinami. NARTAMONGA, XII(1–2), 189–204.
20. Potapov, L.P. (1929). Okhotnich'i pover'ya i obryady u altayskikh turkov. Kultura i Pismennost' Vostoka, V, 123–149.
21. Taynyye yazyki cherkesov. (2021, October 5). https://dzen.ru/a/YVvttAbiC27KS5PW
22. Təkləli, M.N. (2022). Şərqi slavyan dillərindəki türk mənşəli sözlərdə semantik diferensiallaşmanın təzahürləri. Türkologiya, 2, 50–59.
23. Thompson, S. (n.d.). Motif – Index of Folk-Literature. https://ia800408.us.archive.org/30/items/Thompson2016MotifIndex/Thompson_2016_Motif-Index.pdf
24. Türker, F. (2018). Altay Türklerinde avcılıkla ilgili praktikler ve efsanelerdeki yeri. Türk Dünyası: Dil ve Edebiyat Dergisi, 45, 255–267

Aynur Jalilova

Summary
HUNTER JARGON

Hunter jargon, which is a part of the ancient world hunting rituals, stands out with its unique structure. It is not correct to name the lexemes created by researchers as a hunter language, because the words and word combinations that arise from the ritual are only used by hunters as a way of speaking to maintain secrecy during the hunt. We observe a morphological, syntactic, and lexical hunter jargon that appears in Caucasian peoples, Central Asian Turks, Anatolia, Azerbaijan, and Slavic peoples. Many of the terms related to hunting terminology in Azerbaijani Turkish are remnants of the hunting jargon. Additionally, animal, bird, and fish names accepted in modern zoology have been created thanks to the hunter jargon. The article focuses on the structure, semantics, ritual-mythological character, and linguistic importance of the hunter jargon.

Айнур Джалилова

Резюме
ОХОТНИЧИЙ ЖАРГОН

Охотничий жаргон, входящий в состав охотничьих обрядов древнего мира, отличается своей специфической структурой. Неправильно называть лексемы, которые исследователи на самом деле называют языком охотника, поскольку слова и словосочетания, рожденные в результате ритуала, являются лишь способом речи, используемым охотниками для защиты их таинства во время охоты. У многих народов мира есть охотничий жаргон и охотничья лексика. Мы наблюдаем, что существует охотничий жаргон, возникший фонетическим, морфологическим и синтаксическим путем у кавказских народов, среднеазиатских тюрков, Анатолии, Азербайджана и славянских народов. Многие слова, относящиеся к охотничьей терминологии в азербайджанском языке, являются остатками охотничьего жаргона. Кроме того, за счет охотничьего жаргона были созданы названия животных, птиц и рыб, принятые в современной зоологии. В статье рассматриваются структура, семантика, ритуально-мифологический характер охотничьему жаргону, а так же уделяется внимание его значению с точки зрения языкознания.

Rəyçi: dos. A.Hacıyeva

Aynur Sadıqova
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.038

MÜSTƏQİLLİKDƏN SONRA SÖZYARATMADA MÜRƏKKƏB NEOLOGİZMLƏR

Açar sözlər: *söz yaradıcılığı, lüğət tərkibi, termin, neologizm, yeni sözlər*
Keywords: *word formation, vocabulary, term, neologism,new words*
Ключевые слова: *создание слова, словарный состав, термин, неологизм, новые слова*

Giriş. XX əsrdən Azərbaycan ədəbi dilinin lüğət tərkibinin zənginləşməsində əsasən iki mənbədən istifadə edilir: birincisi, dilimizin daxili imkanları və ümumxalq dili hesabına, ikincisi isə başqa dillərdən alınaraq dilimizin qaydalarına uyğunlaşaraq. Azərbaycan ədəbi dilinin söz ehtiyat fondu, tərkibi həm əcnəbi, həm də öz dilimizin imkanları hesabına bir neçə üsulla zənginləşir. Onlardan ikisini nümunə olaraq göstəririk:

1) Yeni söz və ifadələrin yaranması ilə;

2) Dialektlərdən sözlər, həm də birləşmələr almaqla.

Azərbaycan dilində sözyaratmanın nəzəri məsələləri müəyyən mənada işlənmişdir. Lakin dilimizdəki söz yaradan amillər və hadisələr hər bir sahələri demək olar ki, tam şəkildə, elmi cəhətdən əhatə etməmişdir.

Dilçilikdə bir çox alimlər hər bir dilin özünə uyğun söz yarandığını söyləyirlər. Sözlərin mahiyyəti və onların hamısı eyni xüsusiyyətə malik deyildir. *"Söz hər bir dilin öz daxili qayda-qanunları əsasında yaranıb, müəyyən səs, yaxud da səs kompleksinə və mənaya malik olan dil vahididir"* [2, s. 433].

Hər bir dildəki sözlərin yaranışı və var olma potensialı iki mövqedə özünü göstərir: bu, səslərdən və müxtəlif mənaya məxsusluq cəhətdən baş verir. Bunlardan biri olmasa, məfhumu necə ifadə etmək olar, sual altındadır. Hər bir şəxs onu əhatə edən ətraf aləmə aid hər bir şeyin nominativliyini bilmək üçün hər zaman öz fikirlərini ümumiləşdirməli olur. Məsələn, yaşayışı, oxuması, fəaliyyəti, müdafiə, inkişaf və s. anlayışlarını mənimsəmək üçün bunlara dair olan bir sıra əşya və hadisə haqqındakı təəssüratları ümumiləşdirmək lazım gəlir.

Ancaq məsələ burasındadır ki, sözləri ümumi və xüsusi olaraq adlandırmaq, müxtəlif formada təzahür etdirmək üçün yeni fikirlərə, yeni ifadələrə ehtiyac duyulur. Amma söz və ifadələrin ümumiliyi, müxtəliflik diqqəti çəkir. Məsələn, Azərbaycan dilində ümumilik bildirən sözlər də var: *o, bu, elə, belə* və s.

Dili daha çox özünün imkanları hesabına yaratmaq, zənginləşdirmək ən faydalı yollardan sayılır.

Cəmiyyətin inkişafı, elmi-tərəqqi inkişaf, dünyaya açılma və iş birliyi, dilimizin yeni sözlərlə, müxtəlif dil vahidləri ilə zənginləşməsinə şərait yaradan ün-

sürlərdəndir. Çağdaş dövrümüzdə hər bir sahəyə, hər bir keyfiyyət və xüsusiyyətlərə aid yenilənmə prosesi baş qaldırdı. Həyatda baş verən dəyişmələr ictimai proseslərdə olan dilə bu və ya başqa cəhətdən birbaşa təsir etmişdir. Dəyişmələrin miqyasına uyğun dilə yeni sözlərin daxil olması da müxtəlif mənbə və üsullarla bağlıdır. Başqa dillərdə olduğu kimi, müasir Azərbaycan dilində də söz yaradıcılığı prosesi davam edir. Dilimizin öz hesabına neologizmlərin əmələ gəlməsi hadisəsi həm də beynəlxalq sözlərin hesabına, mənşəcə ingilis, fransız və yunan sözlərinin təsiri ilə əmələ gəlir.

Dilçiliyin başqa sahələrində olduğu kimi, terminoloji sistemdə də dolğunlaşma, dəyişmə və mükəlləşmə hadisəsi baş verməkdədir. Belə hadisənin baş verməsi də yeni sözlərin yaranmasını fərqli tərəflərdən və yollardan aydınlaşdırır.

"Adi sözlərin mənası tarixi inkişaf prosesində formalaşır və dəyişir. Bu prosesdə sözün daxil olduğu müxtəlif-leksik semantik kontekstlər həlledici rol oynayır [4, s. 124].

Müasir Azərbaycan dilinə tarixi inkişafın qanunauyğunluğunu özündə əks etdirən dilin lüğət tərkibi müxtəlif mənbələrdən alınan sözlər hesabına daha da zənginləşir. Belə təməllərin fərqliliyi və keyfiyyətini müxtəlif məsələlərlə izah etmək mümkündür. İndiyədək sözyaratmada bu mənbələrlə bağlı bir sıra fikirlər söylənmişdir. Bir çox tədqiqatçılar qeyd edirlər ki, "*heç bir dil digərinə zorakılıqla söz qəbul etdirmir. Müxtəlif şərait millətlər arasında elmi, texniki əlaqələr, mədəniyyətlərin inteqrasiyası bir dildən başqa dilə neologizmlərin keçməsinə imkan yaradır*" [3, s. 221].

Elmi sistem dilsiz ifadə oluna bilmədiyi üçün müasir elmi-texniki tərəqqi və ictimai inkişaf dildə öz əksini tapır. Terminologiya elmi anlayışların ifadəsi olduğundan dəqiqlik, təkmənalılıq, konkret olmalıdır. Termin elə bir dil vahididir ki, o yalnız səs tərkibindən ibarət olan leksem çərçivəsindən çıxaraq müəyyən elmi anlayışı hərtərəfli, dəqiq və birmənalı ifadə edir. Dilin lüğət tərkibi digər sahələrə nisbətən terminologiyada daha çox yeniləşməyə məruz qalır. S.Sadıqova bu məsələ ilə bağlı yazır: *"Elm inkişaf etdikcə isə hər hansı bir proseslə bağlı təsəvvür yaranır. Elm və texnikanın inkişafı ilə əlaqədar müvafiq terminlər yaranır. Məfhum isə anlayışın əmələ gəlməsinə təkan verir. Lakin həmin terminlərin mənası dəqiq, dürüst müəyyənləşdikcə onları əmələ gətirən elm və texnika sahəsinin özü də inkişaf edir. Anlayışın, məfhumun əmələ gəlməsinə şərait yaradır* [8, s.15].

Müstəqilliyimizi qazandıqdan sonra bazar iqtisadiyyatının irəliləməsi, yeni neft sektorundakı vəziyyətin dəyişməsi, ictimai-mədəni həyatımızın müxtəlif sahələrində təzahür edən novatorluq terminologiya sahələrinə fərqli yanaşma, qayğı tələb edir. Yeni yaranan, başqa dillərdən alınan neologizmlərə, söz yaradıcılığına xüsusi həssaslıqla yanaşılmalıdır. Biz cəhd etməliyik ki, imkan daxilində öz dilimizin hesabına yeni termin-neologizmlər yaradaq.

Yeni termin və neologizmlər həm dilin öz hesabına, həm də əcnəbi dillərdən sözlər hesabına yaranır. Bu səbəbdən neologizmlərin əmələgəlmə səbəbini iki qrupa ayırmaq olar:

1. Azərbaycan dilinin öz hesabına əmələ gələn sözlər;
2. Əcnəbi dillərdən alınmış sözlər əsasında yarananlar.

Müstəqillik dövründə neologizm və termin yaradıcılığı məhz bu mənbələrlə bağlıdır. Dilimizin öz imkanları hesabına əmələ gələn sözlər terminoloji bazanın

özəyini təşkil edir. Bununla yanaşı, terminologiyanın formalaşdığı dövrdən müstəqillik illərinə qədərki dövrdə termin yaradıcılığında alınmaların rolu danılmazdır. Bu, elmlərin beynəlmiləl səciyyə daşıması ilə bağlıdır. Buna görə də, dünya dillərinin çoxunda işlənən terminlər çox vaxt dilə tərcüməsiz daxil olur. Bütün elm sahələrində alınma mənşəli terminlərə rast gəlmək olar. Məsələn, *kvota, menecer, kvorum, tender, monitorinq* və s.

Dilin ifadə imkanları geniş olduqda müəyyən məfhumu ifadə etmək üçün sözlərdən yerində bəhrələnmək asanlaşmışdır. Azərbaycan dilinin qrammatik quruluşunun lüğət tərkibinin formalaşmasından uzun bir tarixi dövr keçdiyindən elmi anlayışların ifadə imkanlarıda geniş və əhatəlidir. Dilimizin öz hesabına əmələ gələn terminlər, əsasən bu cür özünü göstərmişdir:

1. Lüğət tərkibindəki ümumişlək sözlərin omonimliyi vasitəsilə;
2. Milli sözlərə öz şəkilçilərimizi artırmaqla;
3. Əcnəbi köklü sözlərə öz şəkilçilərimizi artırmaqla;
4. İki və bir neçə sözün sözün birləşməsi ilə;
5. Əcnəbi sözlərin öz sözlərimizlə əvəz olunması ilə;
6. Köhnəlmiş sözlərdən istifadə etməklə;
7. Dialekt sözlərdən istifadə etmək yolu ilə.

Müstəqillik illərində doğma dilimizə yüksək səviyyədə münasibət əcnəbi sözlərə xüsusi yanaşmağı tələb etmişdir.

Cəmiyyət, elm və texnika dayanmadan inkişaf edir. Bizi əhatə edən dünya daim qloballaşır, xalqların, ictimai quruluşların, müxtəlif sənət sahələrinin bir-birinə inteqrasiyası günün tələbinə çevrilir. Baş verən bu yenilənmələr, insan ağlının belə kifayət etmədiyi sürətli inkişaf nəticəsində öz əksini dildə də tapır. Bütün dillərdə olduğu kimi, Azərbaycan dilində də yeni söz və ifadələr meydana çıxır. Bunlara neologizmlər deyilir. Bu sözlər ya qohum dillərin, xüsusən, Türkiyə türkcəsinin təsiri ilə yaranır, ya da dilin özündə "dəyişiklik" baş verir.

Neologizmlər sözlər elmin, iqtisadiyyatın, istehsalatın, mədəniyyətin, incəsənətin inkişafı ilə, eyni zamanda fərdi-üslubi xüsusiyyətlər əsasında əməl gəlir. Dilimizdə son dövrlərdə işlənən *form, kreativ, ekstrasens, biznesmen, mesaj, sayt, özəl* və s. kimi külli miqdarda yeni sözlər yaranmış və yaranmaqdadır.

Yeni yaranmış sözlər də arxaizmlər kimi dilin passiv fonduna daxildir, çünki onlardan hamı istifadə etmir, həmin sözlər cəmiyyətin bütün sferalarında eyni işləkliyə malik deyil. Digər tərəfdən, neologizmlərin bir qismi elmin, texnikanın, həyatın inkişafı ilə bağlı yaranırsa, bir qismi arxaikləşmiş sözlərin vətəndaşlıq hüququ qazanaraq yenidən dilə qayıtması ilə meydana çıxır. Belə sözlərə dirilən sözlər deyilir. Vaxtilə dilimizdə ümumişlək sözlər olmuş *çavuş, yarlıq, ulu, ulus, dürlü, araşdırma* kimi sözlər özləşmə prosesinin təsiri ilə yenidən dilimizə qayıtmışdır.

Həmin sözlər dilin lüğət tərkibinə daxil olan yeni sözlərin yaranmasında fəal iştirak etdiyi kimi, müstəqillik illərində bir sıra terminlərin yaranmasında da mühüm rol oynadı. *"Yeni sözləri hər hansı bir dilin öz hesabına yaratmaq mümkündürsə, bu vaxt mütləq həmin dilin öz imkanları hesabına düzəlməlidir"* [1, s. 122].

Qeyd edək ki, təkcə sözdüzəldici şəkilçilər deyil, həmçinin sözdəyişdirici şəkilçilər də sözyaratmada iştirak edir: *"Bütün sözdəyişdirici şəkilçilər mənşəcə millidir. Sözün ahənginə uygun olaraq ona qoşulub mürəkkəb terminlərin ikinci tərəfi ola bilirlər"* [6, s.125]. Feli sifət -an, -ən şəkilçiləri söz birləşmələri şəklində olan

terminlərin yaranmasında fəal olduğu kimi, mürəkkəb terminlərin də formalaşmasında mühüm rol oynayır. Son dövrlərdə yaranan *sözönü, yubileyqabağı, saniyəölçən, yolayrıcı* kimi terminlərin ikinci tərəfi mənsubiyyət, feili sifət şəkilçiləri qəbul etsə də, birinci tərəfi şəkilçisizdir, lakin *söz, yubiley, yol* sözləri ismin qeyri-müəyyən yiyəlik halında, saniyə isə qeyri-müəyyən təsirlik halda işlənmişdir.

Hər iki tərəfi morfoloji əlamət qəbul edən terminlərin yaranmasında dilimizin daxili imkanları mühüm rol oynayır. Termin yaradıcılığında dilin daxili imkanlarından bəhrələnmənin üstünlük təşkil etdiyini nəzərə alaraq, deyə bilərik ki, bu yolla termin yaranması məhsuldar üsullardan biridir: *Özünüyükləmə, ölkələrarası, parlamentlərarası, seçkiqabağı, sınaqdankeçirmə, özüsazlanan, siyahıyaalma, özünüqiymətləndirmə, yenidənqurma, topdansatış* kimi terminlər bu gün həm texniki, həm ictimai, həm də siyasi sahədə işlənməkdədir. Qeyd etmək lazımdır ki, bu terminlərin tərəfləri ümumişlək sözlərdən və ya milli şəkillərdən ibarətdir.

Neologizmlərdən bəzilərinin digər tərəfi eyni zamanda bir neçə leksik və morfoloji şəkilçi də qəbul edə bilər. Məsələn, "*özünütənzimləmə*" termininin birinci tərəfi mənsubiyyət və təsirlik hal, ikinci təərəfi isə -lə və -mə şəkilçilərini mənimsəmişdir. Digər bir mürəkkəb sözə diqqət yetirək. "*Özünüqiymətləndirmə*" termininin birinci tərəfi iki sözdəyişdirici – "ü" mənsubiyyət və "ü" təsirlik hal qəbul etdiyi halda, digər tərəfi -lən, -dir, -mə leksik şəkilçiləri ilə düzəlmişdir.

"*Parlamentlərarası*", "*sözügedən*" kimi yeni sözlərin yaranmasında yalnız sözdəyişdirici şəkilçilərdən istifadə olunmuşdur. Belə ki, *"parlamentlərarası"* siyasi terminində -lar cəm, -sı mənsubiyyət, *"sözügedən"* mürəkkəb termində isə -ü mənsubiyyət, -ən feili sifət şəkilçisinin termin yaradıcılığında rolunu görürük. *"Topdansatış"* termininin birinci tərəfi -dan, - dən çıxışlıq hal, ikinci tərəfi isə feildən isim düzəldən – iş dörd variantda şəkilçisini qəbul etmişdir.

Terminlərin yaranmasında son dövrlərdə elmə *verici, edici* və s. bu kimi sözlər terminlərin ikinci tərəfi olaraq yeni anlayışları ifadə edirlər. *Təşkiletmə, idarəetmə, qeydetmə, icraetmə, qanunverici, icraedici* və digər sözlər bu yolla yaranan sözlərdəndir. Məsələn, *"vermək"* feili müstəqil işlənsə də, *"etmək"* köməkçi feili, əsasən, ayrılıqda leksik məna daşımadığından müstəqil işlənə bilmir və tərkibi feillərin ikinci tərəfi olur.

Qeyd etmək lazımdır ki, morfoloji-sintaktik üsulla yaranan mürəkkəb terminlər həmin üsulla yaranan söz birləşməsi şəklində olan terminlərə nisbətən azlıq təşkil edirlər. Bu, yəqin ki, hər hansı elmi, ictimai və ya siyasi anlayışın iki yox, daha çox sözlə ifadə etmək ehtiyacı ilə bağlıdır.

Mürəkkəb sözlər, yəni Azərbaycan dilində olan söz kökləri əsasən, iki və bəzən də üç kökdən ibarət olur. Hətta üç kökdən olan mürəkkəb sözlər çox azlıq təşkil edir.

Dilin lüğət tərkibində sözün fəaliyyəti və müstəqil inkişaf yolu ilə onun mürəkkəb sözün komponenti olaraq inkişafı bir-birinə uyğun gəlmir. Mürəkkəb sözün komponentini təşkil edən söz ayrılıqda fəaliyyətdən düşərək arxaikləşsə də, mürəkkəb sözün tərkibi dəyişməz qalır.

Azərbaycan dilində vaxtilə işlənmiş bir çox sözlər, eləcə də, bir sıra ərəb və fars sözləri müasir dilimizdə işlənmədiyi halda, ayrı-ayrı leksik vahidlərin tərkibində qalmaqdadır; məsələn, *abqora, kitabxana, qiraətxana, xəstəxana və s.* Sözün söz birləşməsinin komponenti olması isə müvəqqəti xarakter daşıdığından, o,

öz əsl inkişaf yolundan kənara çıxmır. Belə hal ola bilməz ki, söz ayrı-ayrılıqda işlənməsin, müasir dildə heç bir məna verməsin, lakin söz birləşməsinin komponenti olaraq birləşmə yaratmağı bacarsın.

Termin – söz birləşmələrinin komponentləri həm sözdüzəldici, həm də sözdəyişdiricilər baxımdan bir-biri ilə əlaqəlidir. Termin birləşmələri təşkil edən sözlərin kəmiyyətinə əsasən bu birləşmələr quruluşca iki yerə bölünür. Sayalı Sadıqova mürəkkəb terminləri iki cür qruplaşdırır:

1. Sadə termin – neologizmlər;
2. Mürəkkəb termin – neologizmlər [7, s.40].

Müstəqillik illərində yaranmış sadə terminlər – birləşmələr iki sözdən ibarət olaraq ayrılıqda müstəqil leksik mənaya malikdir və əsas nitq hissəsi ilə ifadə olunmuşlar, məsələn, *neft bazası, münaqişə ocağı, terror siyasəti, ticarət partnyorları, durğunluq dövrü* və s.

Üç və daha artıq sözdən ibarət olan birləşmələr mürəkkəb olur. Mürəkkəb termin birləşmələrin komponentləri kəmiyyətcə müxtəlif olur:

1. Üç və daha artıq sözdən ibarət olanlar: *strateji obyektlərin özəlləşdirilməsi, minimum alış məbləği, icra hakimiyyəti strukturlatı, yaddaş qurğusunun tutumu, sensasiya doğrudan xəbər* və s.

2. Dörd sözdən ibarət olanlar: *fərdi elektron hesablama maşını, mütləq kəsilməz təsadüfi qanun, ayrılmış əsas xətlə birləşmə* və s.

3. Beş sözdən ibarət olanlar: *daşınmaz əmlak üzərindəki əşya hüququ, texnoloji problemlərin avtomatlaşdırılmış idarəetmə sistemi, güclü normal təsadüfi kəmiyyətlər ailəsi* və s.

4. Altı sözdən ibarət olanlar: *İntensivlik funksiyası orta mənada azalan paylanma, müxtəlif maliyyə və informasiya sisteminə girişin təmini, provayderlərin sorğuları və informasiyaları sürətli ötürmə imkanı* və s.

5. Yeddi sözdən ibarət olanlar: *abonentin ona göstərilən xidməti satmaq hüququ məsələsi, provayderin xarici rabitə kanallarının növləri və buraxılış qabiliyyəti*.

Sözsüz ki, termin-birləşmələri təşkil edən sözlərin miqdarı nə qədər az olarsa, işlənmə imkanı bir o qədər çoxdur. Bəzən nominativ funksiya daşıyan söz yaradıcılığındakı birləşmələrin tərəflərini təşkil edən sözlərin kəmiyyətcə çoxluğu ondan istifadəni və yadda saxlamanı çətinləşdirir.

Elmi anlayışların ifadəsi üçün lazım olan termin-birləşmələrə ehtiyacın artması, onu təşkil edən tərəflərin kəmiyyətcə çoxalması bir tərəfdən dildə baş verən dəyişikliklərlə, digər tərəfdən elmin müxtəlif sahələrinin inkişafı ilə bağlıdır. Dörd, beş, altı, hətta yeddi sözdən ibarət termin-neologizmlər dili ağırlaşdırır.

Sintaktik yolla yaranan terminlər müstəqillik illərində mənşəcə milli sözlərdən yaransa da, onların təşkilində Avropa dillərindən, o cümlədən ingilis və ya fransız, alman dillərindən ingilis dilinə keçən və onun vasitəsilə alınan sözlərdən istifadənin olduğuna da təsadüf olunur. Bu baxımdan sintaktik üsulla yaranan termin-birləşmələri üç qrupa bölmək olar:

1. Milli sözlər vasitəsilə yarananlar;
2. Həm milli, həm də alınma sözlərdən yarananlar;
3. Yalnız alınma sözlərdən yarananlar.

Birinci qrupa daxil olan termin-neologizmlərin, yeni yaranmış söz birləşmələrinin tarixən işlənməsi mövcud idi, qədim mənbələrdən mədəni tarixi abidəmiz

sayılan "Kitabi-Dədə Qorqud" dastanlarının yarandığı dövrdən müasir dövrə kimi bir çox elm və peşə sahələrində, xüsusilə ədəbiyyatşünaslıq, hüquq, tarixşünaslıqda istifadə olunan yeni termin və neologizmlərin milli sözlərdən təşkil olunmasına çox təsadüf olunur. Məsələn: *ox ucluğu, əkin yeri* və s. Müstəqillik illərində də bu kimi işlər aparılmalıdır. Dilin öz imkanları hesabına əmələ gələn yeni yaranmış neologizmlərin varlığı dəyərli hesab olunur.

Qeyd edək ki, neologizmlər-terminlər, yeni yaranmış söz birləşmələri, mürəkkəb terminlər formasında istifadə olunan və müxtəlif elm sahələrində işlək olan elmi anlayışların ifadəsinə çevrilən terminlərin, neologizmlərin tərəflərinin, əsasən, milli sözlərlə ifadəsini söyləmək olmaz. Bir çox elm sahələri vardır ki, onlar Avropa ölkələrində yaranaraq təşəkkül tapmış və müəyyən tarixi dövr ərzində öz terminologiyasını formalaşdırmışdır. Bu da elm sahələrinə məxsus terminlər də məhz həmin elm sahələrinin meydana gəldiyi coğrafi məkanın dilinin lüğət tərkibi əsasında yaranır.

Bu tipli elm sahələrinə məxsus terminlərin alınıb işlənməsi təbiidir. Ancaq elə elmi anlayışlar var ki, onları ifadə etmək üçün tələffüzü və yazılışı çətin olan termini və ya termin – birləşmələrinin tərəfini milli və ya ümumişlək sözlə əvəz etmək olar. Yalançı sözyaratmada yol vermədən bu terminlərin həm istifadə edilməsi, həm də dilimizin qanunauyğunluğunu qorumaq baxımından dəyişilməsi həyata keçirilə bilər. Son vaxtlarda bir çox terminologiya hissələrində bu yön təzahür etməkdədir.

Ancaq milli sözlərdən ibarət olan yeni mürəkkəb termin və neologizmlər müxtəlif dil normalarına uyğun olub birləşərək Azərbaycan dilinin qayda-qanunlarına uyğun olaraq yaranır. Quruluşuna görə mürəkkəb olan "*topdansatış*", "*soyqırım*", "*yetərsay*", "*kökalma*", "*özünüyükləmə*", "*özüsazlanan*" kimi neologizmlərin tərəfləri müəyyən hal, mənsubiyyət, sözdüzəldici şəkilçilər qəbul edib birləşərək hər hansı elmi anlayışı ifadə edir. Terminologiya ilə məşğul olan bir çox alim və mütəxəssislərin "*termin asan tələffüz olunmalıdır*" ifadəsinin tələbinə uyğun olaraq bu cür termin və ya mürəkkəb neologizmlər tez anlaşılır. Son dövrlər alınma terminlərin sayı artsa da, dilimizin daxili imkanlarından istifadə etməklə termin yaratma prosesi daha da məhdudlaşır.

Tədqiqatçı-alim T.Quliyev yazaraq bildirirdi ki, *"Azərbaycan dilində yaranmış terminoloji terminlərin demək olar ki, əksəriyyəti ilk olaraq, öz dilimizin hesabına yaranmalıdır. Çünki bir dil daha qədimdirsə, onun dilçilik baxımdan səviyyəsi çox yüksəkdir. Bu halda müxtəlif sahələrə aid olan neologizmlər ana dilinin hesabına əmələ gəlməlidir. Daha sonra başqa dillərdən söz alaraq ya leksik yolla, ya da morfoloji yolla düzələcəkdir"* [5, s.346].

Məlum olduğu kimi, terminlər nominativ funksiya daşıdığından daha çox isim, isimləşmiş nitq hissələri və ismi birləşmələr şəklində olur. Fikrimizcə, müxtəlif lüğətlərdə xüsusilə hüquq terminləri lüğətində verilən mürəkkəb və ya termin birləşmələr elmi dilə xas olan yığcamlıq, dəqiqlik və konkretlik kimi xüsusiyyətləri özündə əks etdirə bilmir, yalnız müəyyən vəziyyət və prosesləri göstərməklə kifayətlənir. Qeyd etmək lazımdır ki, bu tipli neologizm-terminləri ismi birləşmə şəklində vermək mümkün olduğu halda, feili birləşmələrə ehtiyac qalmır. Məsələn, *istintaq aparılması, blokadaya son qoyulması, şahidin təkrar dindirilməsi, qərardadın verilməsi, vəsatətin yenidən qaldırılması* və s.

Həmçinin hüquq terminlərində *texnoloji tərəqqi, gizli saziş, hüquqi əsas* və s. bu kimi terminoloji birləşmələr birinci növ təyini söz birləşmələrdir.

İkinci və üçüncü növ təyini söz birləşmələri də hüquq terminlərinin yaranmasına xidmət edir. Məsələn, *toplaşma hüquqi, söz azadlığı, təfəkkürün modelləşdirilməsi, təsvirin dəqiqliyi, gizli saziş* və s.

Demək olar ki, əsas tərəfi feili bağlama ilə ifadə olunan feili birləşmələr şəklində olan termin-birləşmələr təsadüf olunmur. Bu, feili sifət və məsdərdən fərqli olaraq feili bağlamanın isimləşə bilməməsi və buna görə də adlandırma vəzifəsini ortaya qoya bilməməsi idi.

Feili birləşmələrdən başqa ismi birləşmələr də terminlər və neologizmlər yaradır. Tərəflər arasındakı sintaktik əlaqələr vasitəsilə əmələ gələ bilər. Tərəflər arasındakı sintaktik əlaqənin növü baxımından termin-birləşmələri aşağıdakı qruplara bölmək olar:

1. Yanaşma əlaqəsi ilə bağlananlar. Məsələn, *yenidən seçilən, onluq vurma, dərin kəsik* və s.

2. İdarə və uzlaşma əlaqələri ilə bağlananlar. Məsələn, *verilənlərin ötürülməsi, keçirmə qurğusu, dil uyğunluğu, yaddaş qurğusunun tutumu* və s.

3. Yanaşma və idarə əlaqəsi ilə olanlar. Məsələn, *cəld hərəkət edən yaddaş qurğusu, ipək yolu, böyük tutumlu yaddaş qurğusu* və s.

4. Tabesizlik və tabelilik əlaqəsi ilə bağlananlar. Məsələn, *sağlamlığı və təmizliyi qoruma tədbirləri* və s.

Tərəfləri həm milli, həm də alınmalardan ibarət olan terminlər də bu əlaqələrlə bağlanır.

Birinci tərəfi həm müəyyən, həm də qeyri-müəyyən yiyəlik və ya təsirlik hallarda ola bilər, ikinci tərəf tərəf isə yanaşma əlaqəsinin göstəricisi olan mənsubiyyət şəkilçisi qəbul edir. Bəzən ikiqat, idarə əlaqəsi ilə bağlanan çoxtərəfli termin-birləşmələr də yaranır. Məsələn, *sınaqdankeçirmə sistemi* termininin birinci tərəfi çıxışlıq, digəri qeyri-müəyyənlik bildirən yiyəlik halda işlənərək digər sözlə "*sistem*" sözünə bağlanmışdır.

Yəni "*sınaqdan*" sözü birbaşa deyil, "*keçirmə*" sözü ilə əlaqəyə girərək onunla birlikdə "*sistemi*" sözü ilə bağlanmışdır.

Mürəkkəb yeni yaranmış terminlər həm feili birləşmələrlə, həm də ismi birləşmələrlə yaranır və yaranmaqdadır.

Sintaktik yolla yaranan ismi termin birləşmələrin ən çox yayılmış formaları, əsasən, morfologiya ilə ifadə olunur:

İsimlə ifadə olunanlar: *rəqəm kodu, neft sektoru, ticarət dövriyyəsi* və s.

Sifətlə ifadə olunanlar: *milli bank, ikili standart, ümumi maraq, xarici investisiya* və s.

Sayla ifadə olunanlar: *ikinci dərəcəli yaddaş, birinci səsvermə* və s.

Feili sifətlə ifadə olunanlar: *daşınmaz əmlak, verilənlər formatı* və s.

Müxtəlif nitq hissələri ilə ifadə olunan feili birləşmələr: *təkrar sığorta etmək, hüququndan imtina etmək, intensiv dəyişmək, standartlardan çıxmaq, yenidən səsvermədə iştirak etmək* və s.

Qeyd etmək lazımdır ki, bütün nitq hissələri terminyaratmada iştirak edir. Hər bir yeni yaranmış termin və neologizmlər lüğət tərkibinə daxil olmadan mətbu orqanlarda, eləcə də internet resurslarında və digər etibarlı mənbələrdə iştirak edir.

Elmi yeniliyi. Müstəqillikdən sonra dilimizin hesabına qrammatik üsullarla müxtəlif elm sahələrinə aid yeni mürəkkəb söz-terminlər yaranmışdır. Onlar lüğət tərkibinin zənginləşməsinə xidmət edir.

Nəticə. Yeni yaranmış sözlər də, yəni neologizmlər arxaizmlər kimi dilin passiv fonduna daxildir, çünki onlardan hamı istifadə etmir, həmin sözlər cəmiyyətin bütün sferalarında eyni işləkliyə malik deyil. Digər tərəfdən, neologizmlərin bir qismi elmin, texnikanın, həyatın inkişafı ilə bağlı yaranırsa, bir qismi arxaikləşmiş sözlərin vətəndaşlıq hüququ qazanaraq yenidən dilə qayıtması ilə meydana çıxır. Belə sözlərə dirilən sözlər deyilir. Vaxtilə dilimizdə ümumişlək sözlər kimi işlənmiş *çavuş, yarlıq, ulu, ulus, dürlü, araşdırma* kimi sözlər özləşmə prosesinin təsiri ilə yenidən dilimizə qayıtmışdır. Bütün nitq hissələri terminyaratmada iştirak edir. Hər bir yeni yaranmış termin və neologizmlər lüğət tərkibinə daxil olmadan mətbu orqanlarda, eləcə də internet resurslarında və digər etibarlı mənbələrdə iştirak edir: *sınaqdankeçirmə, özüsazlanan, siyahıyaalma, özünüqiymətləndirmə, yenidənqurma, topdansatış* və s. Azərbaycan dilində 100-ə yaxın düzəltmə şəkilçilər var. Bu şəkilçilərdən bir çoxu dildaxili zənginləşmədə iştirak edir: *dönəm, durum, qurum, baxım, yayım, duyum, kəsim, toplum* və s. Bu sözlər feillərdən düzələn isimlərdir. Öz dilimizin hesabına yaranmış termin və neologizmlər daha çox morfoloji-sintaktik yolla düzəlmişdir: *parlamentlərarası, cangüdən, soyqırım, sözügedən, soydaş* və s. Bunlar müxtəlif şəkilçi qəbul etmiş mürəkkəb sözlər sayılır. Müstəqillikdən sonra dilimizdə yaranmış termin və neologizmlər əsasən, Avropa mənşəlidir. Bu da dünyadakı tərəqqi, inkişaf, yeni texnologiyaların yaradılması ilə bağlıdır.

Ədəbiyyat:

1. Abdullayeva-Nəbiyeva, V. (2020). Müasir Azərbaycan dilində termin leksikasının inkişafı. Bakı: AzMİU, Nəşriyyat-Poliqrafiya Mərkəzi.
2. Axundov, A. A. (2003). Dil və ədəbiyyat (2 cilddə, c. 2). Bakı: Gənclik.
3. Kərimova, Y. (2004). Azərbaycan idman terminlərinin inkişaf tarixindən. Elmi Xəbərlər, 1, 409 s. Bakı: Elm.
4. Qasımov, İ. (2002). Azərbaycan dilində hərbi leksika (təşəkkül, inkişafı, sabitləşməsi). Bakı: ADU.
5. Quliyev, T. (2004). Kalka üsulu ilə leksik-terminoloji yeniləşmə. Pedaqoji Universitetin Xəbərləri, 597 s. Bakı: ADPU.
6. Qurbanov, A. M. (2004). Azərbaycan onomalogiyasının əsasları (2 cilddə, c.1). Bakı: Nurlan.
7. Sadıqova, S. (2011). Azərbaycan dilinin terminologiyası. Bakı: Elm.
8. Sadıqova, S. (2002). Azərbaycan dilinin terminologiyasının nəzəri problemləri. Bakı: Elm və Təhsil.

Aynur Sadiqova

Summary

COMPLEX NEOLOGISMS IN WORD FORMATION IN THE POST-INDEPENDENCE PERIOD

As society, science, and technology rapidly develop, and globalization accelerates, the integration of various fields of art is becoming a necessity of the day. This renewal has influenced the vocabulary of the Azerbaijani language – both through internal means and by borrowing from different languages, leading to the emergence of new terms and

neologisms. These words arise with the development of science, economics, production, culture, and art, and also due to stylistic features. After gaining independence, many complex words related to various fields developing in Azerbaijan have emerged in the Azerbaijani language – such as wholesale, aforementioned, interparliamentary, prelection, genocide, quorum, obesity, self-loading, bodyguard, testing, self-adjusting, and others. These words have found their place in the terminology dictionaries related to various fields.

Айнур Садыгова

Резюме

СЛОЖНЫЕ НЕОЛОГИЗМЫ В СЛОВООБРАЗОВАНИИ В ПЕРИОД ПОСЛЕ ОБРЕТЕНИЯ НЕЗАВИСИМОСТИ

Общество, наука и техника стремительно развиваются, происходит глобализация, интеграция различных сфер искусства становится требованием времени. Это обновление повлияло на словарный состав азербайджанского языка как за счёт собственных ресурсов, так и за счёт заимствований из различных языков, вследствие чего появились новые термины и неологизмы. Эти слова возникают в связи с развитием науки, экономики, производства, культуры, искусства, а также в силу стилистических особенностей. После обретения независимости в азербайджанском языке начали формироваться новые сложные термины, связанные со многими сферами, развивающимися в Азербайджане – такие, как *оптоваяпродажа, упомянутый, межпарламентский, предвыборный, геноцид, кворум, ожирение, самонагрузка, телохранитель, тестирование, самонастраивающийся* и др. Эти слова нашли своё отражение в терминологических словарях, охватывающих различные области.

Rəyçi: fil.f.d. A.Bədəlova

Aynurə Eminova
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.0187

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ "VƏTƏN" KONSEPTİNƏ BAXIŞ
(Azərbaycan, rus və ingilis dillərinin materialı əsasında)

Açar sözlər: *konsept, anlayış, leksem, vətən, dil mənzərəsi, freymlər, sub-konsept*
Keywords: *concept, notion, lexem, homeland, language landscape, frames, sub-concept*
Ключевые слова: *концепция, понятие, лексем, родина, языковой ландшафт, рамки, суб-концепция*

Giriş. Müxtəlif mütəxəssislər tərəfindən dünyanın dil mənzərəsi müəyyən dil cəmiyyətinin mədəniyyət və təfəkkürünü müəyyənləşdirən ruhi məzmun və dilin özünü də funksionallaşdıran dil ünsürlərindən ibarət system kimi qəbul edilir.

Bundan savayı dünyanın dil mənzərəsi bütöv bir "canlı orqanizm" kimi dəqiq strukturlaşmış və dil vasitəsilə ifadə olunduqda çoxsəviyyəli xarakterə malik bir fenomen kimi də dəyərləndirilir.

Artıq XX əsrdə "dünyanın dil mənzərəsi" termini geniş yayılmağa başlamışdı. Rus dilçisi V.A.Maslova bu xüsusda yazırdı:

"*Dünyanın dil mənzərəsi* xalqın ümummədəni sərvətidir, struktur etibarilə bu fenomen çoxsəviyyəli xüsusiyyətə malikdir. Bu məfhum özündə iki mühüm amili birləşdirir: insanın daxili dünyasını və onu əhatə edən ətraf aləmi. Dünyanın dil mənzərəsi bu və ya digər xalqın ruhi, mədəni, milli dəyərlərini səciyyələndirərək danışığı formalaşdırır [7, s. 173].

Artıq qəbul edilmiş bir faktdır ki, dünyada hər bir dilin öz xüsusi dünya mənzərəsi vardır. Dünyanın dil mənzərəsi dedikdə, dil və onun daşıyıcılarının əsrlər boyu yaranıb inkişaf edən milli dəyərlərini, adət-ənənələrini əks etdirən linqvokulturoloji konseptlər nəzərdə tutulur. Dünyadakı linqvokulturoloji konseptlər dilə və xalqa görə dəyişən elementlər hesab edilir. Məsələn, Azərbaycan, ingilis, fransız, alman və s. xalqları müqayisə etdikdə bu xalqların dillərinin, mədəni irslərinin tam fərqli olduğunu görə bilərik.

Müasir dilçilik anlayışları arasında özünəməxsus yer tutan müasir anlayışlardan biri də yuxarıda qeyd edilən "konsept" anlayışıdır. Dilçilikdə "konsept" dedikdə söz işarəsinin məzmun tərəfi başa düşülür və bu işarənin arxasında əqli, mənəvi və ya material sferaya aid olan anlayışlar durur və bu anlayışlar xalqın ictimai təcrübəsində möhkəmlənən, insanın həyatında tarixi köklərə malik olan və sosial və subyektiv mənalara malik olur [11, s. 279]. Qeyd edək ki, konsept konseptual dilçiliyin anlayışlarından biri hesab edilir və onun üç istiqaməti vardır:

1. Məntiqi istiqamət;
2. Koqnitiv istiqamət;
3. Koqnitiv-diskursiv istiqamət.

Konsept anlayışı ilə bağlı bir çox dilçilərin təsnifatları ərsəyə gəlmişdir. Onlara nəzər salaq.

İlk olaraq, S.A.Askoldov (Alekseyev) konsept anlayışına münasibət göstərmişdir. O, maarifləndirici və bədii konseptləri fərqləndirmiş və onların xüsusiyyətlərini müəyyənləşdirməyə müvəffəq olmuşdur. Müəllifin fikrincə maarifləndirici konsept "ümumiliyi" ilə xarakterizə edilir, belə ki, bu bir çox oxşar predmetlərin sxematik qrafikini təşkil edir. Sxematik qrafiklər dedikdə fərdi şüurlar tərəfindən obyektlərə aid edilən bu və ya digər konkret detallardan məhrum edilmiş sxematik baxışlar başa düşülür [4, s. 267-279].

V.A.Maslovanın fikrincə isə konsepti müəyyən etnomədəniyyət daşıyıcılarını xarakterizə edən bu və ya digər obraz və ya lonqvokulturoloji spesifika ilə qeyd edilmiş semantik quruluşdur [7, s. 107].

V.İ.Krasik konseptlərin aşağıdakı tiplərini ayrıd edir:

1. Mədəniyyətin xüsusiyyətlərini ifadə edən xüsusiləşdirilmiş etnomədəni və sosiomədəni konseptlər;

2. Mədəni spesifikası daha az ifadə edilən və gizli mədəni dəyərləri olan assosiasiyaların axtarışını tələb edən xüsusiləşdirilməmiş konseptlər;

3. Mədəni spesifikası olmayan universal konseptlər [6, s. 3-16].

Müəllifin fikrincə bu qeyd edilənləri iki sinfə ayırmaq olar: insan davranışını müəyyən və requlyasiya edən requlyativ konseptlər (tərkibində əsas yeri dəyər komponentləri tutan mental quruluşlar (misal üçün, xoşbəxtlik, borc, səxavət və s.); müxtəlif xarakterli sinkretik mental quruluşları təqdim edən qeyri-requlyativ konseptlər (misal üçün, səyahət, hədiyyə, sağlamlıq və s.).

Digər dilçi A.P.Babuşkin digər bölgünü təqdim edir: təfəkkür tabloları (konkret insan həyat təcrübəsinə əsaslanan sırf fərdi tablolar), sxemlər, freymlər (kompleks situasiyanı implisitləşdirənlər), senarilər (A.P.Babuşkin dinamikada aydınlaşmış konsept), kaleydoskopik (koqnitiv metaforalarla zəngin olan və onların vasitəsilə mücərrəd adların mahiyyətinin əldə edilməsi) və məntiqi-strukturlaşdırılmış konseptlər (hissi insan təcrübəsindən uzaq olan, obrazlı başlanğıcdan tamamilə məhrum edilmiş konsept [5, s. 67-69].

M.V.Pimenova isə özünəməxsus bir təsnifat irəli sürmüşdür:

1) dilin fundamentini və dünya xəritəsinin təşkil edən baza konseptləri (kosmik, sosial və psixi (mənəvi);

2) baza konseptləri kvalifikasiya edən deskriptor-konseptlər: bunlar özləri də aşağıdakı hissələrə bölünür: dimensional konseptlər (ölçü bildirənlər: ölçü, en, dərinlik, hündürlük, çəki və s.); kvolitativ konseptlər (isti-soyuq, bərklik-yumşaqlıq, bütövlük-hissəlik); kvantitativ konseptlər (bir, çox, az, kifayət qədər-qeyri-kifayət qədər);

3) münasibət tiplərini reallaşdıran relyativ-konseptlər isə aşağıdakı növlərə ayrılır: dəyərləndirmə (yaxşı – pis, düz – qeyri-düz, zərərli – faydalı); pozisiya (əksinə, birlikdə, yaxında, yaxın-uzaq, müasir-qeyri-müasir); privat konseptlər (doğma – yad, almaq – qaytarmaq, malik olmaq – itirmək, daxil etmək – xaric etmək) [9, s. 127-130].

Linqvokulturologiyada konseptl tədqiqini araşdırarkən, aşağıdakı konseptlərə rast gəlinmişdir: Sevgi konsepti, vətən konsepti, sağlamlıq konsepti, təhsil konsepti, emosiya konsepti və s.

Araşdırılan konseptlərdən biri də "Vətən" konseptidir. "Vətən" konseptinin cari məqalə çərçivəsində araşdırılması zamanı Azərbaycan, rus, ingilis və fransız dilləri materiallarından istifadə nəzərdə tutulmuşdur.

Azərbaycandilli, ingilisdilli və rusdilli mədəniyyətlərdə "Vətən" linqvomədəni anlayışının oxşar və fərqli xüsusiyyətlərinin nəzərəçarpan tərəflərini qeyd etmək vacibdir. İlk olaraq, tədqiqata cəlb edilmiş "Vətən" anlayışını əks etdirən əsas leksemlərə nəzər yetirək:

Azərbaycan mədəniyyətində – *VƏTƏN*

Rus mədəniyyətində – *РОДИНА*

İngilis mədəniyyətində – *MOTHERLAND*

Azərbaycan mədəniyyətində "Vətən" konsepti (leksemi) əsasən insanın anadan olduğu, dədə-babaların, qohum-əqrəbalarının yaşadığı, soykökü ilə bağlı olduğu ölkə və fərdi inkişaf zamanı bu ölkə ilə əlaqəli olan emosional məfhum kimi xarakterizə edilir. Ölkəmizdə vətənə bağlılıq insanlarda vətənpərvərlik hissi ilə səciyyələndirilir. "Vətən" anlayışını xarakterizə etmək üçün, Azərbaycan dilinin izahlı lüğətində bu sözün leksik mənasına (və ya mənalarına) nəzər yetirmək vacibdir. Leksik məna baxımından bu leksem iki əsas mənada işlənə bilir [1].

1. Bir adamın doğulub böyüdüyü və vətəndaşı olduğu ölkə, məmləkət; doğma yurd;

2. Bir şeyin törədiyi, meydana gəldiyi yer.

Qeyd edək ki, "Vətən" anlayışına aid olan ikinci məna dilimizdə məcazi məna kimi işlənilir.

Göründüyü kimi, "Vətən" konseptinə bu mənalar çərçivəsində dilimizdə mövcud olan aşağıdakı leksemləri aid etmək olar.

- *Vətəndaş;*
- *Ölkə;*
- *Məmləkət;*
- *Doğma yurd;*
- *Yer* və s.

Azərbaycan dilində mövcud olan bədii əsərlərdə, şeirlərdə, poemalarda və s. də də bu leksemlər öz əksini tapmış və tapmaqdadır. Misal üçün,

Nizaminin vətəni Gəncədir.

Azərbaycan balaca olsa da, böyük ədiblərin, dahi şairlərin vətənidir.

"Vətən" konseptini aydınlaşdırmaq üçün dilimizdə təkçə leksik mənaya deyil, eyni zamanda da həmin sözün sinonimlərinə də nəzər salmaq lazımdır. Məsələn, Azərbaycan dilinin izahlı lüğətində "Vətən" konseptinin aşağıdakı sinonimlərinə rast gəlinir.

- *Yurd;*
- *Yuva;*
- *Məskən;*
- *Ölkə;*
- *Məmləkət.*

Sinonimlərlə yanaşı, dilin lüğət tərkibində mövcud olan antonimlər də bu leksemin mövcudluğunu sübut etmək üçün yetərli ola bilər. Məsələn,

VƏTƏN – QÜRBƏT.

Yuxarıda qeyd edilən vasitələrin hamısı "Vətən" konseptini əhatə etmək iqtidarında olan dil elementləridir və onların sırasını genişləndirmək mümkündür. Belə ki, şair, yazıçının üslubundan asılı olaraq, "Vətən" konsepti ilə bağlı digər sözlərin geniş istifadəsini reallaşdırmaq mümkündür.

Rus dilçiliyində də tədqiqatçıların geniş araşdırdığı konseptlərdən sayılan "Vətən" konseptinin rus dilində qarşılığı "РОДИНА" sözüdür. Rus dilinin izahlı lüğətinə müraciət etsək, bu konseptin rus dilində aşağıdakı mənalarının əks olduğunu görərik [8].

1) место, страна, где человек родился; где впервые сложился, возник этнос;

2) Место возникновения, открытия или изобретения чего-либо.

Azərbaycan dilinə xas lüğətlərdə bu konseptin dilimizdəki aşağıdakı izahlarına rast gəlinir.

1. İnsanın doğulduğu və vətəndaşı olduğu ölkə;

2. Nəyinsə yarandığı, böyüdüyü yer;

3. Kiminsə doğulduğu yer, diyar;

4. Kiminsə kökü və mənşəyi baş qaldıran yer;

5. Nəyinsə baş qaldırdığı, vüsət aldığı yer.

Rus dilinin sinonimlər lüğətində isə "РОДИНА" konseptinin aşağıdakı sinonimləri əks olunmuşdur.

1. отечество, отчизна (vətən);

2. колыбель (beşik);

3. прародина (ata yurdu).

"РОДИНА" linqvomədəni konseptinin rus dilinin nominativ sahəsində «патриотизм» (*vətənpərvərlik* kimi bir alt anlayış (yəni sub-konsept) da fərqlənir və bu konsept rus linqvokulturoloji konseptinin nominativ sahəsində ən əhəmiyyətlisi hesab edilir. Rus mədəniyyətində «патриотизм» (vətənpərvərlik) bir çox əsrlər boyu çoxsaylı xarici düşmənlərə qarşı mübarizə zamanı formalaşmışdır, buna görə də rus xalqının öz "Vətən"ini qorumaq üçün milli təhlükə qarşısında birləşmək bacarığı rus mentalitetinin ayrılmaz xüsusiyyətinə çevrilmişdir.

Lakin bir faktı da qeyd edək ki, *"РОДИНА"* linqvomədəni konsepsiyası rus dilinin nominativ sahəsində "патриотизм", Azərbaycan dilinin nominativ sahəsində isə "vətənpərvərlik" kimi bir alt anlayış (sub-kontekst) olaraq fərqlənir [10, s. 159-163]

"РОДИНА" linqvokulturaloji konseptinin nominativ sahəsində vətənpərvərlik anlayışının sub-konsept kimi çıxış etməsinin iki səbəbi vardır:

1) Əsas leksem kimi o qədər də dərin məna kəsb. etmir;

2) Rusdilli mədəniyyətdəki kimi emosional qavrayışlar doğurmur.

Rus xalqı arasında sadalanan mənalara əlavə olaraq, "ev" anlayışı daha geniş məna daşıyır. "Ev" anlayışı bütün ölkə ilə, yəni lazım gələrsə, rusların canları bahasına belə müdafiə etməyə hazır olduqları "Vətən" ilə eyniləşdirilir.

Müasir ingilis dilinin izahlı lüğətinə nəzər saldıqda "Vətən" (Motherland) sözünün aşağıdakı mənalarına rast gəlirik [2: 3].

1. One's native land (kiminsə dogma torpağı);

2. The land of one's ancestors (əcdadların torpağı);

3. A country considered as the origin of something (Nəyinsə mənşəyi hesab edilən ölkə);

4. The country of one's birth (kiminsə doğulduğu torpaq);

5. The country from which a group of settlers in another part of the world originally came (Mənşəcə dünyanın digər tərəfinə yayılmış sakinlərin gəldiyi ilkin ölkə).

İngilis dilinin sinonimlər lüğətinə nəzər saldıqda, görmək mümkündür ki, ingilis dili sinonimlərlə zəngin bir dildir və bu hal özünü "Vətən" (Motherland) konseptinin izahında da göstərir. "Motherland" lekseminin ingilis dilində mövcud sinonimlərinə nəzər salaq.

God's country (İlahi ölkə);
Birthplace (doğulduğun/doğum yer);
country of origin (mənşə ölkəsi);
fatherland (ata ölkə/torpağı);
home/homeland (ev/yurd);
mother country (ana ölkə/torpağı);
motherland (ana vətən);
native soil (dogma torpaq);
old country/the old country (qədim ölkə);
old world (köhnə dünya).

Yalnız "doğma torpaq" semi ilə birləşmiş yuxarıda verilmiş sinonimlər arasında fərq "Vətən" sözünü göstərən elementlərdədir: *İlahi, millət, ata, torpaq, dünya.*

Müasir ingilis dilində "Motherland" öz reallığını "home" və "country" leksemlərinin simasında tapır. Qeyd etmək lazımdır ki, hər iki leksemə ingilis atalaq sözləri tərkibində də rast gəlinir.

East or West home is best – Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı.

You can take the boy out of the country, but you can't take the country out of the boy – Oğlanı ölkədən çıxarda bilərsiniz, amma ğlkəni oğlandan çıxarda bilməzsiniz.

Rus dilində olduğu kimi, ingilis vdilində də "MOTERLAND" anlayışının nominativ sahəsində əsas alt anlayış (sub-kontekst) mövcuddur.

Mənəvi nöqteyi-nəzərdən müqayisə etsək, ingilislərin mentaliteti üçün yerli "ölkə" deyil, "ev", "ailə", "ənənə" anlayışları daha əhəmiyyətlidir.

İngilislər əsasən yalnız nüvə ailələrinin, yəni yalnız iki gənc nəslin (valideynlər) və uşaqların mövcud olduğu ailələrin meydana gəlməsinə diqqət yetirir. Ruslarda isə "ailə" dedikdə valideynlərdən savayı, nənə, baba, xala və digərləri də nəzərdə tutulur.

Təkcə rus və ingilis deyil, eləcə də Azərbaycan linqvokulturologiyasında belə "ənənə" alt anlayışı praktiki olaraq müqayisə edilməzdir. Buna da səbəb, hər bir xalqın öz mədəni milli dəyərlərini əks etdirən öz adət-ənənələrinin mövcudluğudur.

Azərbaycan adət və ənənələri din, milli dəyərlər, mehribanlıq, qonaqpərvərlik, tolerantlıq və s. kimi xüsusiyyətləri özündə birləşdirir. Rus adət və ənənələri din, bütpərəstlik, mehribanlıq, mərhəmət, şəfqət, alicənablıq və sadəlik kimi parlaq keyfiyyətləri özündə cəmləşdirir.

İngilis mentalitetinə xas olan xüsusiyyətlər isə rasionallıq, təmkinlilik, soyuqqanlılıq və maddilikdir. Mühafizəkarlar xüsusiyyəti ilə seçilən ingilislər hər şeydə sabitliyi və stabilliyi sevirlər, ona görə də onlar həmişə mövcudluqları boyu faktiki olaraq dəyişməz qalmış adət-ənənələrə və adətlərə ciddi riayət edirlər. İngi-

lislər üçün öz ölkələrinin əhəmiyyətini vurğulamaq, onun tarixini və ənənələrini sevmək, dünya çapında ən yüksək yerlərdən birini tutmaq məsələsi vacibdir.

Azərbaycan və rus insanları üçün "Vətən" konsepti hər iki millətə xas mədəniyyətin, adət-ənənələrin və xalqın məcmusudur və "Vətənə" məhəbbət Azərbaycanlı və rus xarakterinin ayrılmaz xüsusiyyəti hesab edilir. "Vətənə" bu iki millət üçün hər şeydir: ana, namus, qeyrəti simvolizə edir.

İngilis mədəniyyətində insanlar üçün "Vətən" anlayışı bizim və rus mədəniyyətindəki kimi o qədər də güclü emosiyalar doğurmur. İngilislər, demək olar ki, öz ölkələrini nə hökumətlə, nə də dövlətlə eyniləşdirmirlər. Onlar üçün bu qeyd edilənlər dəyişən anlayışlardır və bir ingilis üçün daimilik (sabitlik) digər dəyərlərdən daha vacibdir. Ona görə də ingilis linqvokulturologiyasında "Vətən" konseptinin subkonteksti kimi ən dəyərli və önəmli hesab olunan "ev" anlayışıdır.

"Vətən" konseptinin «дом» ("ev") sub-konsepti tədqiq olunan hər üç mədəniyyətdə (rus, ingilis) demək olar ki, eyni şəkildə şərh olunur. Öz evində həm Azərbaycanlılar, həm ingilislər, həm də ruslar "öz evlərini", "ailələrini" və "həyat tərzini" başa düşürlər. Bu konsepsiya ilə əlaqədar olaraq hər üç millət sevgi və məhəbbət kimi hissləri açıq şəkildə nümayiş etdirirlər. Ancaq qeyd olunan oxşarlıqlara baxmayaraq, "vətən" konsepti ilə дом» ("ev") sub-konsepti arasında əhəmiyyətli fərqlər də vardır.

Bununla belə, rus dilində "РОДИНА" leksemi ilə sinonim olan "vətən", "ata vətən", "ana vətən" sözləri ingilis dilində danışıq dilində praktiki olaraq işlənmir.

Burada bir məqamı da qeyd edək ki, rus və ingilis dillərinə xas olan subkontekstləri müqayisə etdikdə, onların əksəriyyətinin hər iki mədəniyyətdə sinonimik cütlük təşkil etdiyini görmək olar:

"РОДИНА" – "MOTERLAND" – ev, ailə, ənənələr.

Elmi yenilik. Məqalənin elmi yeniliyi onadan ibarətdir ki, cari məqalədə ilk dəfə olaraq "Vətən" konsepti müxtəlif sistemlərə malik olan 3 dil (ingilis, Azərbaycan, rus) materialı əsasında araşdırılaraq təqdim edilmişdir. Cari məqalədə qeyd edilən dillərdən gətirilmiş nümunələr üzərində müqayisələr aparılmış, oxşar və fərqli xüsusiyyətlər aşkarlanmışdır.

Aktuallıq. Təqdim edilmiş bu məqalə üçün seçilmiş mövzunun müasir dövrlə ayaqlaşan bir mövzu olması və məhz bu formatda ("Vətən" konseptinin üçdilli müqayisə şəklində) tədqiqata cəlb edilməsi məqalənin aktuallığını təşkil edir. Bundan savayı, mövzuya müasir yanaşmaların da təhlili məqalənin aktuallığını şərtləndirir.

Nəticə. Sonda onu da qeyd etmək lazımdır ki, hər üç dildə gerçəklik frazeoloji olaraq da konseptuallaşır. Məfhumların quruluşunu, onların konsepsiya sferası çərçivəsində əlaqələrini aydınlaşdırarkən linqvo-konseptoloji tədqiqat çərçivəsində frazeoloji söz birləşmələri və idiomlar xüsusi önəm daşıyır. Bu baxımdan tədqiq edilən hər üç dildə "Vətən" konseptinin frazeoloji birləşmələrdə işləndiyi hallara da rast gəlinir.

Ədəbiyyat:

1. Azərbaycan dilinin izahlı lüğəti. (2006). Bakı: Şərq-Qərb.
2. Dictionary of English Language and Culture. (2005). Edinburgh: Pearson Education Limited.
3. Explanatory English Dictionary. (2006). Merriam Webster.

4. Аскольдов, С. А. (1997). Концепт и слово. // Русская словесность. От теории словесности к структуре текста. Антология (с. 267–279). Москва.
5. Бабушкин, А. П. (1996). Типы концептов в лексико-фразеологической семантике языка. Воронеж: Изд-во ВГУ.
6. Карасик, В. И. (1996). Культурные концепты: проблема ценностей. // Языковая личность: культурные концепты (с. 3–16). Волгоград: Перемена.
7. Маслова, В. А. (2001). Лингвокультурология. Москва: Академия.
8. Ожегов, С. И. (1999). Словарь русского языка. Москва: Азбуковник.
9. Пименова, М. В. (2013). Типы концептов и этапы концептуального исследования. Вестник КемГУ, №2(54), Т.2, 127–130.
10. Приорова, Е. М., Савченко, Е. П., & Фильчакова, Е. М. (n.d.). Концепт «родина» в английской и русской лингвокультурах (с. 159–163).
11. Степанов, Ю. С. (1998). Язык и метод. К современной философии языка. Москва: Языки русской культуры.

Aynura Eminova

Summary

ON THE CONCEPT OF "MOTHERLAND" IN THE LANGUAGES WITH DIFFERENT SYSTEMS
(based on the material of Azerbaijani, Russian, and English)

The linguo-cultural concepts of the world are considered to be elements that change according to the language and the people. For example, when comparing Azerbaijan, English, French, German, and other peoples, we can see that their languages and cultural heritage are completely different.

The following lexemes of our language, which are the object of our investigation, can be included in the concept of "Vətən": v*ətəndaş; ölkə; məmləkət; doğma yurd; yer, etc.*

"Motherland" lexeme has the following synonyms in English: *God's country; Birthplace; Country of Origin; Fatherland; Home / Homeland; Mother Country; Motherland; Native Soil; Old Country / The Old Country; Old World.*

It is possible to see the following meanings of the "Родина" concept, which is widely investigated by researchers in Russian linguistics.

1) место, страна, где человек родился; где впервые сложился, возник этнос; 2) Место возникновения, открытия или изобретения чего-либо.

It should be noted that in all three languages, there are cases where the "Vatan" concept is used in phraseological combinations.

Айнура Эминова

Резюме

О КОНЦЕПЦИИ «РОДИНА» В РАЗНОСИСТЕМНЫХ ЯЗЫКАХ
(на основе материала азербайджанского, русского и английского)

Лингвокультурные концепции мира считаются элементами, которые меняются в соответствии с языком и людьми. Например, при сравнении азербайджанского, английского, французского, немецкого и других народов мы видим, что их языки и культурное наследие совершенно разные.

Следующие лексемы нашего языка, которые являются объектом нашего исследования, могут быть включены в концепцию "Vətən": v*ətəndaş; ölkə; məmləkət; doğma yurd; yer* и т. д.

Лексема "Motherland" имеет следующие синонимы на английском языке: *God's country; Birthplace; Country of Origin; Fatherland; Motherland; Home/ Homeland; Mother Country; Native Soil; Old Country/The Old Country; Old World.*

Можно увидеть следующие значения концепции "Родина", которая широко изучена исследователями в российской лингвистике.

1) место, страна, где человек родился; где впервые сложился, возник этнос; 2) Место возникновения, открытия или изобретения чего-либо.

Следует отметить, что на всех трех языках есть случаи, когда концепция "Vatan" используется в составе фразеологических оборотов.

Rəyçi: prof. F.F.Cahangirov

Гюльбениз Наджафова
Азербайджанский университет языков

10.30546/2518-752X.1.601.07

ФРАЗЕОЛОГИЧЕСКАЯ НОМИНАЦИЯ И ЯЗЫКОВАЯ КОММУНИКАЦИЯ
(на материале немецкого языка)

Ключевые слова: *фразеологизмы; способ номинации; коммуникация; устойчивый словесный комплекс; коннотация; прагматика; семантическое преобразование*

Açar sözlər: *frazeologizmlər; nominasiya üsulu; kommunikasiya; sabit söz birləşməsi; konnotasiya; praqmatika; semantik çevrilmə*

Keywords: *phraseological units; nomination method; communication; stable verbal complex; connotation; pragmatics; semantic transformation*

Введение. Фразеологическая номинация понимается как номинационная деятельность языка, создающая устойчивые словесные комплексы. Только рассмотрение всего корпуса устойчивых словесных комплексов (УСК) позволяет видеть деятельность языка над совершенствованием его семантического инвентаря, происходящего в процессе функционирования. В этом плане представляются правомерными лингвистические концепции, согласно которым предметом фразеологии как раздела языкознания является изучение всех видов УСК. Однако данное предположение не означает, что любой тип УСК является фразеологизмом, так как в корпусе УСК целесообразно дифференцировать различные типы УСК [6; 7; 9].

Изучение лексикона в аспекте языковой номинации, основы которой были сформулированы в трудах известных лингвистов [8], делают возможным проникновение в очень важную сферу деятельности языка. Этой сферой является установление определенных регулярных процессов в номинационной языковой технике, позволяющих создавать языковые знаки, адекватные для данного вида коммуникации. Но комплексные языковые знаки сравнительно недавно стали предметом изучения теории языкознания. Между тем, совершенно очевидно, что ограничение рассмотрения лексикона только уровнем лексики без учета комплексных знаков, то есть фразеологии, не отражает реальной картины того, при помощи каких средств язык выполняет все свойственные ему функции, каковыми являются функция обозначения (репрезентативная), обобщающая (гносеологическая), коммуникативная и прагматическая функции [6].

Именно современная лингвистическая теория подошла вплотную к проблеме структурно-семантической целенаправленности языкового знака в отношении его функционально-коммуникативной и прагматической эффек-

тивности на коммуникативно-текстовом уровне. Органическая взаимосвязь парадигматических и синтагматических характеристик языковых единиц является в настоящее время актуальной проблемой не только лексикологии, но и лексикографии. Сравним, например, пробный проект словаря, предложенный известным ученым и лексикографом Э.Агриколой «Модельный словарь» [1, с. 9-22], а также дальнейшее развитие этой лексикографической теории на основе достижений современной лингвистической теории (особенно в области семантики и словарного состава языка), где среди прочих вопросов в терминах семантических микро-, медио- и макроструктур делается попытка рассмотреть вопрос диалектической связи, взаимной зависимости семантических микроструктур, понимаемых как семантические структуры языковых единиц в лексико-семантической системе и их обусловленные парадигматическими связями синтагматические потенции на уровне текста.

Следует отметить, что в последнее время интенсивно развивающиеся исследования в области теории семантики, текста, теории языковой деятельности, психолингвистики и других дисциплин позволяют рассмотреть соотношение минимальных и комплексных языковых знаков в новом ракурсе. Последний связан с фактом различной структурной организации данных единиц, что закономерно выдвигает перед лингвистической наукой решение следующих вопросов.

Во-первых, с чем связано появление многокомпонентных комплексов, поскольку они по своей структуре как языковые знаки вторичны, во-вторых, что дает многокомпонентная структура и, в-третьих, как распределяются функциональные нагрузки тех или других единиц на коммуникативно-текстовом уровне.

Общей причиной появления вторичных языковых знаков в широком понимании является расширение номинационных средств языка. Поэтому языковые единицы вторичной номинации представляют собой закономерное явление в каждом естественном языке. Через вторичную номинацию в лексиконе появляются единицы, которые охватывают значительный диапазон лексики и устойчивых словесных комплексов.

В настоящей статье предметом рассмотрения являются вторичные языковые знаки, возникающие на многокомпонентной основе через прямую и косвенную номинации, то есть УСК фразеологического и нефразеологического классов. УСК нефразеологического типа в специальной литературе имеют также параллельный термин «фразеоматические единицы», что подчеркивает их принадлежность к комплексным языковым знакам, изучаемым в рамках лингвистической дисциплины − фразеологии. Среди нефразеологических УСК прозрачностью структуры и семантики на парадигматическом и синтагматическом уровнях выделяются составные названия, известные в специальной литературе как лексические единства. Они пока еще очень мало освещены в специальной литературе. Однако их рассмотрение в указанном аспекте весьма любопытно, поскольку «лексические единства весьма четко позволяют проследить взаимозависимость структурно-семантической организации языка и его прагматических свойств в языковой коммуника-

ции» [3, с. 289]. Их синтаксическая структура и способ номинации органически связаны с их коммуникативно-прагматической функцией.

Лексические единства как комплексные знаки строятся на основе описания объекта реальной действительности, вследствие чего лексические компоненты словосочетаний выступают в своих прямых значениях. Номинация осуществляется на базе атрибутивных синтаксических моделей, среди которых наиболее частотными являются следующие: Adj + Sn, например, *schulische Leistungen* («успеваемость /в школе/»); S + Sg, например, *Erforschung des Weltalls* («исследование космоса»); S + Adj + Sg, например, *Das Prinzip materieller Interessiertheit* («принцип материальной заинтересованности»); Adj + S + Präp + Sob1, например, *gesellschaftliches Eigentum an Produktionsmitteln* («общественная собственность на средства производства»). Синтаксическая модель и ее лексическое наполнение определяют семантико-функциональную специфику образующихся единиц. Это – географические названия, названия различных политических и общественных организаций и другие виды номенклатурного обозначения новых реалий. Кроме этого, атрибутивная синтаксическая модель словосочетаний предопределяет их чрезвычайную продуктивность в терминологических системах для номинации и дифференциации видовых значений по отношению к родовым понятиям. Немецкий язык показывает здесь по сравнению с другими европейскими языками то отклонение, что атрибутивной модели в немецком языке как правило соответствует модель словосложения. Ср.: нем. *Feldblume* и русск. «полевой цветок». Однако и в этом случае в немецком языке в терминологических словосочетаниях данного структурного типа прослеживается очень интересная закономерность, связанная с целенаправленностью языковых знаков на их коммуникативно-прагматическую эффективность: терминологическое атрибутивное устойчивое словосочетание бывает предпочтительным однословному термину в том случае, если последний сам уже сложное слово. Тенденция к коммуникативной четкости языковых единиц сказывается в данном случае в том, что при наличии центрального (однословного) термина дальнейшие детерминирующие элементы более четко выделяются через компонент-прилагательное, а не через дальнейшее словосложение определительного сложного существительного. Ср.: *der Baustahl* («конструкционная сталь») − родовое понятие и *der legierte Baustahl* («легированная конструкционная сталь») − видовое понятие [2, с. 15]. Помимо более четкой дифференцирующей функции терминологического устойчивого комплекса, его предпочтительность в ряде случаев определяется также отсутствием у него полисемии, поскольку полисемия не соответствует прагматической функции термина, тогда как у терминов-слов полисемия может наблюдаться [2, с. 20].

Практическое значение

Целенаправленность языкового знака на его коммуникативно-прагматическую эффективность можно далее проследить на структурно-семантической разновидности УСК, предполагающей серийную, но узуально ограниченную сочетаемость одного семантически трансформированного компонента слова с компонентами-словами в их собственном значении. Для каж-

дой коммуникативной ситуации эти двухкомпонентные реализации определенного арсенала наборов узуальных сочетаний известны в специальной литературе в различных терминологических обозначениях, как-то «фразеологические сочетания», «фразеологизированные сочетания» или «узуально ограниченные сочетания». В германистике они исследованы лишь фрагментарно. Вместе с тем, сфера номинации объектов реального мира, покрываемая данными образованиями, весьма существенна. Они, как это показано в фундаментальной работе, посвященной данному типу языковых значений, в основном на материале русского языка [9], обслуживают сферу психической деятельности человека (чувства, желания, мыслительные акции), отвлеченные понятия морально-этического порядка (типа добро, зло, долг, честь и т. п.), понятия, отображающие деятельность социального типа (право, власть, авторитет и др.), аспекты личности и др.

В данной работе В.Н.Телия на большом эмпирическом материале установлена также причина узуальной ограниченности серийной сочетаемости компонентов. Этой причиной является требование согласования коннотаций сочетающихся компонентов-слов соответствующих синтагм. Данное условие сочетаемости весьма четко прослеживается на немецких единицах этого же типа. Сравним фразеологизованные сочетания немецкого языка на основе переносного значения глагольных компонентов *genießen, sollen* в др. В настоящее время невозможно судить о преимущественных сферах употребления данных сочетаний, равным образом и о количественных показателях их категориально-семантической принадлежности. Тем не менее, ряд известных работ, изучавших текстообразующие потенции устойчивых словесных комплексов, и особенно в современной немецкоязычной прессе и публицистике, установили продуктивность этих образований, в частности в языке аналитических жанров прессы вследствие их серийности, что позволяет им выступать как готовые блоки стандартизированных средств языка газеты.

Целеустановка языкового знака на эго коммуникативно- прагматическую эффективность особенно четко прослеживается в той области номинационной деятельности языка, которая связана с коннотативной сферой, то есть с отраженном субъективной оценки явлений объективной действительности (к объекту высказывания, к партнеру коммуникативной ситуации и т. п.). Многокомпонентная материальная основа таких языковых знаков в сочетании с многообразной техникой косвенной номинации создает языковые единицы, которые в большинстве современных концепций называются фразеологизмами или УСК фразеологического типа, а также фраземами. Их семантическая структура включает обязательный коннотативный компонент, являющийся следствием семантического преобразования [5, с. 29]. В типологическом плане семантическая структура также и лексических единиц, претерпевающих семантическое преобразование (перенос наименования), имеет аналогичное построение. Однако, несмотря на одну языковую технику (косвенная номинация, метафорический, метонимический и др. переносы наименования) и кажущийся одинаковый семантический результат, различная базисная структура преобразования создает языковые знаки различной степени функционально-прагматической эффективности.

Во-первых, многокомплексная база обладает большими фразообразовательными потенциями, так как многокомпонентность создает большие потенциальные условия создания образности, на основе которой возникает коннотативный компонент семантической структуры языковых единиц. Об этом убедительно свидетельствуют исследования лексико-фразеологических полей, в которых фразеологизмы представлены значительно большим количеством единиц, нежели лексемы с переносными значениями [4].

Вторым преимуществом фразеологизмов по сравнению с лексикой вторичной номинации является их более значительная контекстуальная мобильность или способность к контекстуальным прагматическим преобразованиям, что основательно исследовано в специальной литературе последних лет.

Следующим отличием фразеологизмов от лексем вторичной номинации является способность многокомпонентных языковых единиц осуществлять полипризнаковую номинацию, что имеет своим результатом денотативно-референциальную комплексность значения, которая присуща значительному числу фразеологических единиц современного немецкого языка и исключает взаимозаменяемость фразеологизма лексемой соответственного значения. Фразеологизмы данного типа семантизируются в лексикографии и фразеографии развернутой характеристикой, потому что их семантика включает несколько семантических признаков. Так, примером максимальной сложности денотативно-референциального аспекта значения фразеологизма может служить единица *sich mit fremden Federn schmücken* («одеваться в чужие наряды», букв., украшать себя чужими перьями), в дефиниции которой содержится несколько опорных слов и ряд уточнителей: «выдавать чужие успехи за свои и хвалиться этим».

Сопоставительный анализ разнооформленных языковых знаков вторичной номинации и вторичной функции показывает, что номинационная деятельность языка осуществляется на основе принципа дополнительности. Дифференцированная система языковых знаков для обозначения языковых действий в коннотативной сфере коммуникации: (то есть субъективной, оценочной, эмоциональной, экспрессивной) строятся с учетом функционально-прагматического потенциала многокомпонентных комплексов, с чем связана их предпочтительность при передаче различных аспектов психической деятельности человека и межличностных, социальных отношений.

Заключение

Результаты исследования показывают, что структурная усложненность или многокомпонентность комплексных знаков расширяет номинационные средства языка не только количественно, но она вместе с тем является базой создания единиц языка, адекватных коммуникативной необходимости.

Научная новизна исследования состоит в том, что синтаксическая структура и способ номинации устойчивых словесных комплексов рассматриваются с точки зрения их органической связи с коммуникативно-прагматической функцией.

Практическая ценность работы заключается в том, что изучение особенностей фразеологической номинации в аспекте языковой коммуникации

может способствовать активизации познавательной деятельности студентов и развитию их речи на немецком языке.

Литература:

1. Агрикола, Э. (1984). Микро-, мелио- и макроструктура как содержательная основа словаря. Вопросы языкознания, (2), 72–82.
2. Алефиренко, Н. Ф. (2008). Фразеология в свете лингвистических парадигм. Москва: Элпис.
3. Гамидов, И., & Гусейнова, У. (2024). Фразеология как трансъязыковая система. Баку: Elm və təhsil.
4. Мелерович, А. М. (1979). Семантический анализ фразеологических единиц. Филологические науки, (5), 63–69.
5. Наджафова, Г. К. (2016). Фразеологические единицы в немецком и русском языках. Баку: Elm və təhsil.
6. Общее языкознание. Внутренняя структура языка. (1972). Москва: Наука.
7. Райхштейн, А. Д. (1978). Фразообразовательные модели в немецком и русском языках. Вопросы фразеологии, 182–190. Москва.
8. Серебренников, Б. А. (1977). Номинация и проблема выбора. In Языковая номинация. Общие вопросы (с. 147–187). Москва: Наука.
9. Телия, В. Н. (1981). Типы языковых значений. Связанное значение слова в языке. Москва: Наука.
10. Чернышева, Г. И. (1970). Фразеология современного немецкого языка. Москва: Высшая школа.

Gülbəniz Nəcəfova

Xülasə

FRAZEOLOJİ NOMİNASİYA VƏ DİL KOMMUNİKASİYASI
(alman dili materialı əsasında)

Frazeoloji nominasiyanın dil kommunikasiyası aspektində öyrənilməsi nominasiyalı dil sistemində bir sıra müntəzəm prosesləri müəyyən etməyə imkan verir. Bu mənada birbaşa və dolayı nominasiya yolu ilə çoxkomponentli əsasda yaranan ikinci dərəcəli linqvistik işarələr xüsusi əhəmiyyət kəsb edir. Frazeoloji və qeyri-frazeoloji tipli sabit söz birləşmələri müqayisə edilir. Qeyri-frazeoloji tipli sabit söz birləşmələrinin leksik vəhdətləri linqvistik kommunikasiyada dilin struktur-semantik təşkili ilə onun praqmatik xüsusiyyətlərinin qarşılıqlı asılılığını aydın şəkildə nümayiş etdirməyə imkan verir. Onların sintaktik quruluşu və nominasiya üsulu kommunikativ-praqmatik funksiyaları ilə üzvi surətdə bağlıdır. Frazeoloji tipli sabit söz birləşmələrinin məna strukturuna semantik çevrilmənin nəticəsi olan məcburi konnotativ komponent daxildir. Fərqli əsas çevrilmə strukturları müxtəlif dərəcədə funksional və praqmatik effektivliyə malik linqvistik işarələr yaradır. Frazeologizmlərin ikinci dərəcəli nominasiya leksikası ilə müqayisədə üstünlükləri təsvir edilmişdir.

Gulbaniz Nadzhafova

Summary

PHRASEOLOGICAL NOMINATION AND LINGUISTIC COMMUNICATION
(Based on the German Language)

The study of phraseological nomination in the context of linguistic communication allows us to identify certain regular processes in the nominative linguistic system. In this

sense, secondary linguistic signs, arising from a multicomponent basis through direct and indirect nomination, are of particular importance. Phraseological and non-phraseological set phrases are compared. The lexical unities of non-phraseological set phrases clearly demonstrate the interdependence of the structural-semantic organization of language and its pragmatic properties in linguistic communication. Their syntactic structure and method of nomination are organically linked to their communicative-pragmatic function. The semantic structure of phraseological set phrases includes an obligatory connotative component, which is a consequence of semantic transformation. Different basic transformation structures create linguistic signs with varying degrees of functional and pragmatic effectiveness. The advantages of phraseological units over secondary nomination vocabulary are described.

Rəyçi: dos. N.Camalzadə

Gülyaz Zeynallı
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.010

MÜASİR İNGİLİS DİLİNDƏ ELLİPTİK KONSTRUKSİYALARA DAİR

Açar sözlər: *ellipsis, natamam, başlanğıc, orta, son, ixtisar*
Keywords: *ellipsis, incomplete, initial, medial, final, reduction*
Ключевые слова: *эллипсис, неполный, начальный, серединный, последний, редукция*

Giriş.Cümlə – bitmiş fikri ifadə edən söz və ya söz birləşməsidir. O, ünsiyyət prosesində əsas kommunikativ vahid kimi çıxış edir. İnsanlar ünsiyyət zamanı müxtəlif struktur və məzmun xüsusiyyətlərinə malik cümlələrdən istifadə edərək fikirlərini ifadə edirlər. Ünsiyyət prosesində işlədilən cümlələr fikri ifadə etmək məqsədinə və eləcə də qrammatik quruluşuna görə müxtəlif olur. Danışanın kommunikativ niyyətindən, eləcə də ünsiyyətin məkan və zaman kontekstindən asılı olaraq ingilis dilində tez-tez istifadə olunan cümlə tiplərindən biri də yarımçıq və ya elliptik cümlələrdir. Elliptik cümlələrə daha çox şifahi nitqdə və dialoji diskursda rast gəlinir. Müasir dilçilikdə bu cür cümlələrin struktur və funksional xüsusiyyətləri xüsusi tədqiqat predmetinə çevrilmişdir. Elliptik cümlələr o cümlədən, bədii ədəbiyyat nümunələrində geniş şəkildə istifadə edilir. Bu cür cümlələrin əsas xüsusiyyəti ondan ibarətdir ki, müəyyən sintaktik üzvlər, əsasən təkrar olunan və ya mənası kontekstdən aydın olan komponentlər, danışanların ünsiyyətindən asılı olaraq, həmin cümlə üzvünə ehtiyac hiss olmadığı zaman buraxılır.

Ellipsis nitqi daha yığcam və təsirli edən bədii ifadə vasitəsidir və yunanca– çatışmazlıq, əskiklik deməkdir. Ellipsisin əsas mahiyyəti ondan ibarətdir ki, buraxılan söz və ya ifadə cümlənin mənasını pozmur, əksinə, nitqi daha yığcam, ifadəli və təbii edir. Məsələn:

Coming? (= Are you coming?)
Hands up! (= Put your hands up!)
Back in five. (= I'll be back in five minutes.)

İ.F.Vardul qeyd edir; "Əgər ellipsis haqqında ən geniş yayılmış anlayışdan çıxış etsək, bu hadisəni izah etmək üçün, fikrimizcə, qəbul etmək lazımdır ki, bütün təbii dil sistemləri informasiyanın ötürülməsinin iki əsas fərqli üsuluna malikdir. Onlardan biri informasiyanın dil vahidlərinin, sintaksem və frazemlərin, birbaşa istifadəsi yolu ilə ötürülməsidir, yəni mesajın bütün komponentləri (tema və rema) müvafiq frazemlərlə təmsil olunmaq yolu ilə. İkinci üsul isə sintaksem və frazemlərdəki informasiyanın dolayı yolla, bu vahidlərin özləri istifadə olunmadan ötürülməsindən ibarətdir. [2, s. 301]

Kontekst və situasiya cümlənin (informasiya aktının) üzvlərinin məzmununu dəqiqləşdirmək qabiliyyətinə malikdir; xüsusilə, sintaksem (fraza) şəklində

təqdim olunmamış, lakin digər cümlə, informasiya və ya desiqnat üzvləri tərəfindən dəyişən (var olan) kimi proqnozlaşdırılan üzvləri konkret informasiyalarla doldura bilir. Beləliklə, sintaksemin (fraza) məzmunu onların birbaşa işlədilməsi olmadan da ifadə oluna bilər. [2, s.302]

K.M.Abdullayev ellipsisin cümlənin mövqeyi vasitəsilə reallaşa bildiyini və mətn və situasiyanın köməyi ilə üzə çıxa bildiyini yazır. Bu vasitə ilə ellipsis *"xatırladılır",* yaxud *"doldurulur"*.

M.G. Kobel qeyd edir: "Ünsiyyət zamanı biz adətən tam strukturlu cümlələrlə danışmırıq" faktı, "cümlə" anlayışını, ... eləcə də cümlənin xətti quruluşu ilə bağlı mövcud fərziyyələri zəiflədərək əsas nəzəri prinsipləri şübhə altına alır. [4, s. 284]

Natamam cümlələrin mövcudluğu, onların tam cümlələrlə müqayisəsində əksini tapır. Məsələn, *"Thouhgt so"* deyərkən bu, həmin cümlənin tam modelinin (*I thought so*) olması ilə əlaqədardır. Bu cür cümlələr məna baxımından natamam deyil, çünki onlar ifadə etmək istədikləri fikri tam şəkildə çatdırır. Onlar yalnız qrammatik quruluş baxımından natamam sayılır. Yəni "natamam cümlə" anlayışı yalnız qrammatik kateqoriyadır və fikrin tamlığına, yəni məzmun planına aid deyil. Tam və elliptik cümlələr üzərində araşdırma aparan dilçilər həm tam cümlə anlayışının tərifində, həm də elliptik cümlə növlərinin təsnifatında müxtəlif yanaşmalar irəli sürmüşlər. Bu sahədəki mülahizələr fərqli nəzəri baxış bucaqlarına əsaslandığı üçün tədqiqatçılar arasında yekdil fikir formalaşmamışdır. Məsələnin müzakirəsində əsas fikir ayrılığı "tamlıq" və "natamamlıq" anlayışlarının müəyyən edilməsində hansı meyarın əsas götürülməsindən ibarətdir: cümlənin semantik və ya struktur tamlığı. Əgər natamamlığın meyarı kimi cümlənin məna baxımından natamamlığı qəbul edilərsə, onda bizim nitqimizin çox hissəsi məna baxımından tamamlanmamış cümlələrdən ibarət ola bilər. Hətta quruluşca tam olan əlaqəli nitqin əhəmiyyətli hissəsi də, kontekstdə fikir tamlığını ifadə etməyə bilir. Şəxs və işarə əvəzlikləri, "*da, də*", "*həmçinin*" bağlayıcı ədatları, əvvəlki nitqə münasibət bildirmək üçün işlədilən "*yuxarıda göstərilən*", "*adlanan"* kimi ifadələrin işləndiyi cümlələr struktur cəhətdən tam olsa da, kontekst xaricində semantik cəhətdən natamamdır, və baxmayaraq ki, belə cümlələr qrammatik olaraq tamdır, bu tamlıq formal və nisbi xarakter daşıyır, çünki mesajın həqiqi mənası yalnız kontekstdən aydın olur.

Dilçilikdə elliptik cümlələr müstəqil sintaktik quruluşlar kimi təsvir olunur və onlar funksional statusu konstituativ dəstək nəticəsində əldə edir. Kommunikativ yanaşma ilə baxıldıqda, elliptik cümlələrin semantik strukturunun formalaşmasında onların linqvistik və ekstralinqvistik kontekstdən asılılığı üzə çıxır.

XX əsrin ikinci yarısında dilçilər "elliptik cümlə" anlayışından geniş şəkildə istifadə etmiş, lakin bu anlayışı fərqli mənalarda izah etmişlər. Bu termin "natamam cümlə" ilə eyni məna daşıyan sinonim kimi istifadə olunmuşdur. Bu yanaşma çərçivəsində "elliptik cümlə" terminindən V.Q. Admoni, S.Q. Barxudarov, V.A. Beloşapkova, N.S. Valgina və A.A. Reformatski kimi dilçilərin elmi əsərlərində rast gəlmək mümkündür.

Qərb dilçilik məktəbinin nümayəndələri elliptik cümlələri formal olaraq natamam cümlələrə aid edərək bura bəzi ifadələri, mübtədası olmayan əmr cümlələrini, həmcins üzvləri olan bəzi cümlə növlərini aid edirlər.

H.P.Stokou elliptik cümlələrə bitkin bir fikrin ifadəsi üçün bir və ya bir neçə sözün çatışmadığı cümlələri aid edir (məsələn: *You and I can lift this, I don't know what to do*) [10, s. 118]

H.Poutsma elliptik cümlələrə mübtəda, xəbər və ya hər ikisinin iştirak etmədiyi, həmçinin kontekstdən bərpa oluna bilməyən cümlələri aid edir. O, elliptik cümlələrin beş müxtəlif növünü ayırd edir: faktı ifadə edən cümlələr (*No pains, no gains*), duyğuları bildirən ifadələr (*All right!*), sual cümlələri (*What about her?*), ritorik suallar və nida cümlələri (*One knows the value of freedom, what then?*), əmr cümlələri (*Your passport, please*) [7]

B.A. İliş "məntiqi və ya qrammatik baxımdan zəruri hesab olunan, lakin kontekst vasitəsilə bərpa oluna bilən hər hansı cümlə üzvünün buraxıldığı ifadəni" elliptik ifadə adlandırır. [3, s. 262]

Yuxarıda deyilənlərdən göründüyü kimi, ingilis dilində "elliptik cümlə" anlayışı qrammatik mahiyyəti və struktur quruluşuna görə tamamilə fərqli cümlə tiplərini əhatə edir. Bir qayda olaraq, bu cümlələr kontekstdə asanlıqla bərpa oluna bilən hər hansı bir elementin buraxıldığı natamam cümlələrlə eyniləşdirilir. Azərbaycan dilində elliptik cümlələr ingilis dilinə nisbətən daha geniş istifadə olunur. Azərbaycan dilində şəkilçilərin zənginliyi feil formalarının buraxılmasına şərait yaratdığı halda, ingilis dilinin analitik quruluşu buna imkan vermir. Bu səbəbdən də, Azərbaycan dilindəki elliptik cümlələrin (xüsusi anlamda) ingilis dilində tam qarşılığını tapmaq çətindir.

Ellipsis, dil vahidinin struktur baxımından sıxılmasıdır və bu, cümlənin və ya ifadənin hər hansı bir hissəsinin sintaktik olaraq ixtisara uğramasıdır. Elliptik strukturlar bir qayda olaraq dialoji nitqdə geniş istifadə olunur. Dialoqda duyğuların ifadəsi çox vaxt elliptik cümlələrin ustalıqla və təbii şəkildə istifadə olunması ilə əlaqəlidir, belə ki, tamamlanmamış (elliptik) cümlələr dialoji nitqin ifadəliliyinə təsir göstərir. Dialoq zamanı cümlənin müəyyən hissələri atılır və ya bu hissənin ixtisarı ünsiyyətə mane olmur və qarşı tərəfin öncəki sözlərindən reduksiya olunmuş hissə aydın olur. Ellipsisdən rəsmi yazı üslubunda və mətbuat başlıqlarında ifadənin qısaldılması və ya müəyyən məqamların qeyri-müəyyən saxlanılması məqsədilə də istifadə oluna bilər.

Elliptik cümlələri natamam cümlələrin müstəqil bir tipi kimi ilk dəfə fərqləndirən A.M. Peşkovski olmuşdur. Müəllif cümlənin natamamlığına səbəb olan amilləri müəyyənləşdirmiş və bu amillərə əsaslanaraq "stasionar elliptik cümlələr" termini ilə adlandırdığı cümlə növlərini təhlil etmişdir. [6, s. 362].

Müasir dilçilikdə formal-qrammatik yanaşmanı dəstəkləyən alimlər ellipsisi sadə cümlənin strukturunda bəzi elementlərin ixtisarı kimi görürlər, kommunikativ istiqamətin nümayəndələri isə elliptik cümlələri dialoji nitqin əsas strukturları kimi qəbul edir, onları müəyyən kontekstə uyğun formalaşmış hesab edirlər. Bu baxımdan, onlar kommunikativ tamlığa malikdirlər və buna görə də onların natamamlığı barədə danışmaq olmaz. Görünür, məhz bu səbəbdən son dövrlərdə geniş istifadə olunan "elliptik cümlələr" termini kifayət qədər əsaslı sayılır. Lakin bəzən elliptik quruluşların mənasını kontekst olmadan anlamaq çətinləşir, hətta mümkünsüz olur. Dialoqun düzgün qurulması üçün hər dilin qrammatik quruluşu əsasında elliptik cümlələrin məqsədəuyğun və düzgün istifadəsi vacibdir. Məsələn,

ingilis dilində geniş istifadə olunan bəzi elliptik strukturlar Azərbaycan dili kontekstində sintaktik və ya üslubi baxımdan uyğun gəlməyə bilər.

Sintaktik strukturda müəyyən komponentlərin kontekstdən çıxarılaraq ixtisar edilməsi hadisəsi olan ellipsis, cümlədəki mövqeyinə görə üç qrupa ayrılır. Bu təsnifat ellipsisin cümlənin strukturundakı mövqeyinə əsaslanır.

I Başlanğıc mövqeyin ellipsisi (initial ellipsis) – cümlənin əvvəlində kontekstdən aydın olan və təkrar edilməsinə ehtiyac duyulmayan söz və ya ifadələrin ixtisar edilməsidir. Əksər hallarda başlanğıc mövqedə baş verən ellipsis situativ olur və daha çox şifahi danışıqda və qeyri-rəsmi ünsiyyətdə istifadə olunur. Elliptik konstruksiyalarda ilkin mövqedə reduksiyaya uğrayan sintaktik element, bir qayda olaraq, mübtəda funksiyasında işlənmiş birinci və ya üçüncü şəxsin təkində olan əvəzlik olur. Məsələn:

Turned out he had a serious illness.

R.Kverk başlanğıc mövqedəki ellipsisin əsas nümunələrindən biri kimi, əsasən sabit ifadələr və ya idiomatik konstruksiyaların tərkibində müşahidə olunan artikl və ya sözönlərinin reduksiyası hadisəsini göstərir və buna aid nümunələr təqdim edir. Məsələn:

(The) Point is, we need to act fast.

(Of) Course he's there. [8, s. 899]

Bu kimi nümunələrin təhlili göstərir ki, ilkin situativ ellipsis daha çox qrammatik deyil, fonoloji xarakter daşıyan bir proses kimi çıxış edir.

Pity he won't help. (*Təəssüf ki, o, kömək etməyəcək*)

Car still not working? (*Maşın hələ də işləmir?)* kimi nümunələrdən də aydın olur ki, ellipsis qrammatik vahidlərin sərhədlərini aşır və cümlənin tam ifadə olunmuş hissəsində ilk vurğulu hecaya qədər davam edir. "*Of course*" ifadəsində reduksiya da buna nümunədir. Bu cür ixtisarlar, ellipsisə məruz qalan hecaların müəyyən hallarda aşağı informasiya dəyərinə malik olması ilə bağlıdır [8, s. 899].

Qeyri-rəsmi, sərbəst ünsiyyət tərzi ifadənin ixtisarla verilməsinə şərait yaradır – yəni, fikrin mənasının başa düşülməsi üçün zəruri olan hissələr saxlanılır, qalan strukturlar isə buraxılır. Nəticə etibarilə, ellipsisli cümlələr ingilis danışıq dilinin spesifik konstituentlərinin əsasını təşkil edir və bu tip cümlələri təsvir etmək üçün onların semantik və struktur fərqləndirici xüsusiyyətlərini müəyyənləşdirmək zəruridir.

2. Orta mövqeyin ellipsisi (medial ellipsis)

Bu, cümlənin orta mövqeyində müəyyən qrammatik elementlərin, xüsusilə təkrarlanan sözlərin, feillərin və ya ifadələrin, ixtisar edilməsi deməkdir. Məqsəd ünsiyyəti daha yığcam və səmərəli etməkdir. Məsələn:

John can speak French, and Mary can (speak French) too.

Xəbərin orta mövqedəki reduksiyası hallarına natamam mürəkkəb cümlələrdə ikinci tərəfin xəbərinin, eləcə də bəzi hallarda hər iki tərəfinin xəbərinin reduksiyası misal göstərilə bilər. Məsələn:

1) *Some students prepared well; others, not so much. (Some students prepared well; others did not prepare well.)*

2) *The night silent, the stars above. (The night was silent, and the stars were above.)*

Bəzi hallarda xüsusi sual cümlələrində xəbər funksiyasını yerinə yetirən köməkçi feil (məsələn, *are, do, can* və s.*)* orta mövqedə ixtisar olunur:

Where you going? What you want?

Digər dilçi alimlər kimi, R.Kverk də bu tip reduksiya hallarının əsasən qeyri-rəsmi danışıq nitqinə xas olduğunu və yazılı nitqdə isə norma xarici (nonstandard) dil vahidləri kimi qiymətləndirildiyini qeyd edir. Belə sual konstruksiyalarında "*you*" əvəzliyi fonoloji baxımdan asanlıqla zəifləyərək /ja/ formasına düşür. Həmçinin "*What"* sual əvəzliyindən sonra gələn fonemlərin fonoloji sadələşməsi və assimilyasiyası nəticəsində "*Whatcha"*, "*Wotcher"* kimi qeyri-standart yazılış formaları ilə təmsil olunan affrikasiya olunmuş tələffüz formaları meydana çıxır. [8, s. 899]

3. Son mövqeyin ellipsisi (final ellipsis)

Ellipsis cümlənin sonunda baş verir. Yəni cümlənin son hissəsindəki informasiya buraxılır və cümlənin əvvəlində verilmiş struktura istinad edliir.

– Are they going to join us later?

– They might. (= They might join us later.)

Cümlənin son mövqeyində baş verən ellipsis hallarına dair digər nümunələrin də təhlilinə nəzər salaq. *"I'll tell you what"* və *"Say when"* kimi ifadələrdə struktur baxımından zəruri olan sintaktik komponentlər kontekstdən asılı olaraq reduksiya olunmuşdur. Bu tip ifadələr, adətən, qeyri-rəsmi ünsiyyətdə istifadə olunan, situativ kontekstə əsaslanan və idiomatik xarakter daşıyan xüsusi sual cümlələrinin nümunələridir. Məsələn, *"I'll tell you what"* ifadəsi struktur baxımından *"I'll tell you what we can/should do."* və ya *"Say when"* ifadəsi "*Say when you want me to stop."* daha geniş sintaktik konstruksiyalarla tamamlanmağa imkan versə də, danışıq kontekstində bu cür sonluqlar tez-tez buraxılır. Bu kimi hallarda müşahidə olunan ellipsis, əsasən danışanın praqmatik niyyətindən irəli gəlir və kontekstual qənaətlilik prinsiplərinə uyğun olaraq, kommunikativ məqsədlərlə əsaslandırılır.

Mürəkkəb sintaktik vahidlərin elliptik formaları, strukturda baş və ya budaq cümlənin yer almadığı, lakin bunun nəticəsində heç bir struktur və ya semantik natamamlıq müşahidə olunmayan sintaktik konstruksiyalardır. Belə hallarda reduksiya olunmuş hissə kontekstin köməyilə asanlıqla bərpa oluna bilir və bu, kommunikativ məqsədlərə heç bir maneə törətmir. Son mövqedə ellipsisin müşahidə olunduğu konstruksiyalardan biri də tamamlıq budaq cümləli mürəkkəb sintaktik vahidlərdir. Bu hal xüsusilə baş cümləsinin xəbəri semantik baxımdan tamamlıq tələb edən feillərlə (məsələn, *know, ask, tell*) ifadə olunan budaq cümlələrdə müşahidə olunur. Belə feillər sintaktik baxımdan tamamlıq tələb etsələr də, budaq cümlə strukturda açıq şəkildə verilməyə bilər. Bu zaman kontekst bu boşluğu kompensasiya edir və bağlayıcı əvəzlik və ya zərf (məsələn, *who, what, where* və s.) qorunub saxlanılsa da, həmin elementlərdən sonra işlədilən sintaktik strukturlar (yəni feil və ya digər cümlə üzvləri) aydın şəkildə müəyyən olunduğu üçün kontekstdən ixtisar edilir və anaforik olaraq əvvəlki mətnə əsasən rekonstruksiya olunur.

Someone is knocking at the door, but I don't know who.

The meeting will be held somewhere, but they haven't told us where.

C.Merçant bu tip sintaktik konstruksiyaların xüsusiyyətlərini təhlil edərək yazır: "Bağlayıcı vasitədən ayrılma ilə müşayiət olunan konstruksiyalar (preposition stranding) ilə ellipsisə uğramayan strukturlar arasında nəzərəçarpacaq sintaktik paralellik müşahidə olunur. Ümumi şəkildə ifadə etsək, əgər bir dilin sintaktik sistemi

adi "wh" – strukturları kontekstində bağlayıcının ayrılmasına imkan verirsə, həmin dil bu konstruksiyalar daxilində də bağlayıcıdan ayrılmanı qrammatik olaraq qəbul edir." [5, s. 291]

Bəzi hallarda bu cür reduksiya olunmuş budaq cümlələr ambiqivitliyə səbəb olur. Məsələn, aşağıdakı cümlədə *"which"* bağlayıcı əvəzliyinin hansı ismə aid olduğu açıq şəkildə göstərilmir, belə ki, *"which"* həm *"quote"* (sitat), həm də *"book"* (kitab) isimlərinə aid edilə bilər. Bu isə sintaktik və semantik baxımdan çoxmənalılıq yaradır və kontekstdən asılı olaraq müxtəlif şəkildə başa düşülə bilər.

He said he used the quote from the book, but didn't say which.

Cümlənin son mövqeyində baş verən ellipsisin daha bir nümunəsi müqayisə konstruksiyalarında müşahidə olunur. Belə hallarda, müqayisəyə cəlb olunan iki obyektə aid olan identik elementlər (feil və ya sifət) kontekstdə artıq məlum olduğundan reduksiyaya uğrayır. Bu elementlər sintaktik səviyyədə ixtisar olunur, lakin semantik interpretasiya baxımından hələ də mövcud sayılır. Məsələn:

This car is as expensive as that one.

Tom is more intelligent than Jack.

Bu cür ellipsis, sintaktik və qrammatik struktura əsaslanan, qaydalı və formal xarakter daşıyan ellipsis növünə aiddir. Formal ellipsis – struktur baxımından dilin sintaktik sisteminə əsaslanan və əvvəlcədən müəyyən edilmiş qaydalar çərçivəsində həyata keçirilən ixtisar formasıdır. Bəzi strukturlarda ellipsisə məruz qalmış budaq cümlənin tam şəkildə bərpası tələb olunmur. Məsələn:

If I am going too fast, please warn me (that I am going too fast).

Bu kimi reduksiya hallarının tam ellipsis hesab edilib-edilməməsi mübahisəlidir, çünki budaq cümlənin tam bərpası sintaktik baxımdan zəruri sayılmır. Nəticə etibarilə, burada zəif ellipsis (weak ellipsis) və ya struktur əsasında yaranan ixtisar prosesindən danışmaq mümkündür.

Paradiqmatik baxımdan elliptik cümlələr ümumi bir invariantın variantı kimi təqdim olunmalıdır ki, bu da transformasiya metodundan istifadəni zəruri edir. Cümlədə atılmış üzvlər haqqında tam təsəvvür yalnız müəyyən dil sistemində həmin cümlənin bütün mümkün quruluşlarda olan digər cümlələrlə əlaqəsinin araşdırılması əsasında yaradıla bilər. Bunu iki elliptik cümlənin təhlilində görə bilərik:

1. She can't sing tonight, so she won't ..

2. If they fix the car, we won't need to....

Birinci cümlədə ixtisar olunmuş komponent kontekstdən aydın şəkildə müəyyən olunduğuna görə, onun bərpası ambiqivitlik yaratmır. İkinci nümunədə isə eyni sintaktik quruluş çərçivəsində müxtəlif semantik interpretasiyalar mümkün olduğundan, ixtisar olunmuş hissənin konkret şəkildə bərpası qeyri-müəyyənlik doğura bilir. Məsələn, *If they fix the car, we won't need to...* cümləsi *...fix it ourselves /take a taxi,* və ya digər ehtimallarla tamamlanaraq müxtəlif mənalar daşıya bilər. Bu kimi hallar ellipsis konstruksiyalarında kontekstin və praqmatik biliklərin nə qədər mühüm rol oynadığını göstərir.

İşin elmi yeniliyi

Ellipsisin mövqeyinə əsaslanan təsnifat dilçilikdə nisbətən az araşdırılmış yanaşmalardandır. Bu yanaşma vasitəsilə ellipsisin funksional imkanlarını daha dəqiq müəyyənləşdirmək mümkündür. Tədqiqatda natamamlıq meyarları semantik və qrammatik əsaslara görə fərqləndirilərək sistemləşdirilmişdir. Araşdırma

məhz bu aspektlərdən ellipsisin dil sistemindəki funksional yerini və rolunu yeni prizmadan təhlil edir.

İşin praktik əhəmiyyəti

Tədqiqat nəticələri praktiki dilçilikdə – xüsusilə ünsiyyətin analizi, nitq təhlili və tərcümə sahələrində tətbiq oluna bilər. Ellipsisin kontekstdən asılı şəkildə müəyyənləşdirilməsi, mətnlərin düzgün anlaşılması və interpretasiyası üçün mühüm baza yaradır. Bu yanaşma həm də dilin tədrisində natamam cümlələrin öyrədilməsinə və funksional təhlilinə yeni baxış qazandırır.

Nəticə

Elliptik cümlələr haqqında danışarkən biz onun ünsiyyət vahidi kimi funksiyasına və tərkibinə diqqət yetirdik. Bu cümlələrin ən vacib xüsusiyyətlərindən biri də intonasiyadır. Şifahi nitqdə emosional çalarları ifadə etməyin əsas vasitələrindən biri və cümlələrin sintaktik vahid kimi birləşməsinin mənaca göstəricisi intonasiya olduğu halda, yazılı nitqdə bu rolu durğu işarələri oynayır. Ünsiyyətin təbii və qeyri-rəsmi olması ifadələrin qısaldılmasına şərait yaradır və bu zaman mənanın anlaşılması üçün yalnız vacib olan hissələr cümlədə saxlanılır. Buna görə də, dil vasitələrinin qənaətli istifadəsini anlamaq üçün elliptik cümlələrin tədqiqi olduqca önəmlidir.

Ədəbiyyat:

1. Abdullayev, K. M., Məmmədov, A. Y., Musayev, M. M., & başqaları. (2012). Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim.
2. Вардуль, И. Ф. (2006). Основы описательной лингвистики: синтаксис и супрасинтаксис (2-е изд., предисл. В. М. Алпатова). Москва: URSS.
3. Ilyish, B. A. (1965). The structure of modern English. Moscow: Prosveshenie.
4. Kobele, M. G. (2016). Actual language use and competence grammars. Theoretical Linguistics, 42, 277–290.
5. Merchant, C. (2002). Swiping in Germanic. In C. J.-W. Zwart & W. Abraham (Eds.), Studies in Germanic Syntax (pp. 289–315). Amsterdam: John Benjamins.
6. Пешковский, А. М. (2001). Русский синтаксис в научном освещении. Москва: УРСС.
7. Poutsma, H. (1926). Grammar of Late Modern English (Vol. II). Groningen.
8. Quirk, R., Greenbaum, S., & Leech, G. (1985). A comprehensive grammar of the English language. London & New York: Longman.
9. Show, G. B. (1977). A fearless champion of the truth. Moscow: Progress Publishers.
10. Stokoe, H. P. (1937). The understanding of syntax. London: Linguistics Press.

Gulyaz Zeynalli

Summary

ON ELLIPTICAL CONSTRUCTIONS IN MODERN ENGLISH

The article deals with three main types of ellipsis, classified according to their position within the sentence. It is noted that elliptical elements can be restored based on context, with reference to the preceding, current, or following sentence, or situationally. The study also emphasizes that ellipsis occurs more frequently in dialogic speech, which is attributed to its emergence as a result of natural patterns in language development. The role of the principle of linguistic economy, as well as various linguistic and extra-

linguistic factors, in the formation of this phenomenon is analyzed. The article also summarizes the scientific approaches of various researchers to the phenomenon of ellipsis and supports them with relevant examples.

Гюльяз Зейналлы

Резюме

ОБ ЭЛЛИПТИЧЕСКИХ КОНСТРУКЦИЯХ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

В статье рассматриваются три основные типа эллипсиса в зависимости от его позиции в предложении. Отмечается, что эллиптические элементы могут восстанавливаться на основе контекста с опорой на предыдущее, текущее или последующее предложение, либо ситуативно. Также подчеркивается, что эллипсис чаще встречается в диалогической речи, что объясняется его возникновением как результатом естественных закономерностей развития языка. Анализируется роль принципа языковой экономии, а также различных лингвистических и экстралингвистических факторов в формировании данного явления. В статье обобщены научные подходы различных исследователей к феномену эллипсиса и обоснованы соответствующими языковыми фактами.

Rəyçi: dos. A.Y.Hacızadə

Günay Süleymanova
Bakı Slavyan Universiteti

10.30546/2518-752X.1.601.011

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ *HARD, STRONG* SİFƏTLƏRİNİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *çoxmənalı sifətlər, semantika, müqayisəli təhlil, keyfiyyət, əlamət*
Keywords: *polysemantic adjectives, semantics, comparative analysis, quality, sign*
Ключевые слова: *многозначные прилагательные, семантика, сравнительный анализ, качество, признак*

Giriş. Müasir Azərbaycan dilində "sifət", ingilis dilində "adjective", rus dilində "прилагательное" termini ilə adlandırılan söz kateqoriyasının mənşəyi problemi müasir dilçilikdə qəti həllini tapmadığı səbəbindən hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Tədqiqatçılar arasında sifət kateqoriyasının mənbələri və diaxroniyası ilə bağlı fikir birliyi yoxdur. Məsələn, rus nəzəri dilçiliyində hələlik az və ya çox dərəcədə qəbul edilmiş ümumi fikir bundan ibarətdir ki, sifətlər isimdən törəmişdir (S.D.Katsnelson, A.A.Potebnya, L.P.Yakubinski, V.M.Jirmunski və s.).

Sifət nitq hissəsi keyfiyyət və əlamət bildirən söz qrupu kimi dilçilik tarixində uzun müddət xüsusi bir adla göstərilməyib, semantik və sintaktik cəhətdən ayrıca bir nitq hissəsi şəklində fərqləndirilməmişdir. Əsrlər boyu digər sözlərlə birlikdə, müasir təsnifat meyarları üzrə isim statusu almaqla, onlar substantiv (əşyavi) mənaya malik olmuş, ad sinfinə aid edilmiş və sadəcə adlar adlandırılmışdır. İngilis dilində sifətin nitq hissəsi kimi müəyyənləşdirilməsi çətinlik törədir, çünki bu söz kateqoriyasının yeganə morfoloji əlaməti müqayisə dərəcəsinin olmasıdır ki, o da bütün sifətləri əhatə etmir. Xarici germanşünaslıqda sifət nitq hissəsinə yanaşmada funksional parametrlər üstünlük təşkil etdiyi halda, keçmiş sovet germanşünaslığında, o cümlədən Azərbaycan sovet germanşünaslığında əsas üstünlük məzmun meyarlarına verilirdi.

Dilçilik elmində keyfiyyət kateqoriyasının və onun ifadə vasitəsi olan sifətlərin tədqiqi tarixi xüsusi əhəmiyyətə malikdir. Qədim zamanlardan son dövrlərə qədər sifətlərin müxtəlif bölgüləri verilsə, bu nitq hissəsinin xüsusiyyətləri, fərqli keyfiyyətləri araşdırılsa da bu problemin tədqiqinə həsr edilmiş xüsusi nəzəri əsərlər nisbətən sonralar, əsasən XX əsrdə meydana çıxmışdır. Azərbaycan dilçiliyində sifət A.Axundov, A.Eyvazov, Ə.Rəcəbli, Ə.Şükürlü, Y.Məmmədov, M. Hüseynzadə, Ə.Dəmirçizadə, H.Mirzəzadə, Ə.Cavadov və b. tərəfindən araşdırılmışdır.

Ə.Dəmirçizadə mənanı, sualları, sifət düzəldən şəkilçiləri, sintaktik mövqeyi sifət üçün qrammatik əlamətlər hesab edir [1, s.58-60]. M.Hüseynzadənin və S.Cəfərovun əsərlərində də sifət müstəqil leksik-qrammatik kateqoriya kimi təqdim olunur.

Dildə sifət obyektin keyfiyyətini, xassəsini və daimi atributunu və obyektiv bir şey kimi qəbul edilən mücərrəd anlayışları ifadə edən nitq hissəsidir. Sifətlərin semantik əsasını keyfiyyət anlayışı təşkil edir.

Sifətin nitq hissələri arasında yeri ilə bağlı V.V. Vinoqradov qeyd edir ki, bu nitq hissəsi "... isimlərdən sonra ən çoxlu söz ordusudur" [6, s.152].

Sifət keyfiyyət, xassə, xüsusiyyətin ümumi kateqoriyalı mənası ilə səciyyələnən nitq hissəsidir. Atributun bu mənası sifətdə və onun sintaktik istifadəsində, morfoloji xüsusiyyətlərində aydın ifadə olunur. "Sifətlər cisimlərin atributunu bilavasitə və ya bu obyektlərin münasibəti ilə bildirir" [7, s.37].

Sifət formasında bu xüsusiyyətin zamanla, hərəkət kimi inkişaf etdiyinə işarə yoxdur və əlamətin şərti sabitliyindən danışarkən məhz bu nəzərdə tutulur. Müqayisə üçün *a fast train* (sürətli qatar) və *an approaching train* (qarşıdan gələn qatar) kimi söz birləşmələrində əlamət zamanla inkişaf edən kimi ifadə edilir [8, s.34].

Qeyd edə bilərik ki, sifətlər qrammatik kateqoriya olmaqla leksik-qrammatik məna, morfoloji əlamət və sintaktik mövqeyinə görə fərqlənən söz qruplarından biridir. Hər hansı bir sözün bir nitq hissəsindən başqa nitq hissəsinə keçməsi qrammatik kateqoriyaların dəyişməsinə səbəb olmur. Sifət substantivləşərək isim xüsusiyyəti qazana bilər, lakin bu heç də sifətin bütünlüklə hər cür dil situasiyalarında isimləşdiyini sübut etmir. Yalnız müəyyən kontekstdə, müəyyən sintaktik qurum daxilində sifət isimləşir. Kontekstdən kənarda eyni söz yenə də sifət olaraq qalır.

Leksik vahidlərin çoxtərəfliliyi, struktur, funksional, semantik özünəməxsusluğu – onların təsnifatında, müvafiq siniflərin təbiətinin müəyyənləşdirilməsində leksik, sintaktik və morfoloji, sözdüzəltmə və digər müxtəlif kriteriyaların tətbiqinin mümkünlüyünü şərtləndirir. Yuxarıda deyilənləri sifətlərə də aid etmək olar. Adyektiv leksikanın ayrıca bir sinif kimi təsvirinin hətta ilk qrammatiklər üçün xarakter olmasına baxmayaraq, müxtəlif linqvistik və bəzən də eyni linqvistik ənənədə onun mahiyyətinin müəyyənləşdirilməsi üçün kriteriyaların seçilməsi üst-üstə düşmür. Seçdikləri prinsip əsasında ardıcıl olaraq, sözlərin təsnifatını aparmağa səy göstərərkən, dilçilər müvafiq olaraq, müəyyən leksik vahidlərin hüdudlarını müxtəlif cür təyin edirlər. Təbii olaraq da, sonrakı mərhələdə müxtəlif cür təsvir olunan bu qrupların daxilindəki kateqoriyalara bölünmə prosesi də müxtəlif konsepsiyalarda spesifik xüsusiyyətlər kəsb edir. Xüsusilə, ingilis dilində sifətlərin müəyyən olunması daha çətindir. Çünki burada yeganə morfoloji əlamət müqayisə dərəcəsinin olmasıdır və bu da bütün adyektiv sözlərə xas deyil. Sözlərin nitq hissələrinə görə təsnifatında əsasən funksional (xarici dilçilikdə) və məzmun kriteriyalarının tətbiqi ingilis dilində sifətin müəyyənləşdirilməsində ciddi fikir ayrılığına səbəb olur.

İngilis dilində sifətlər aşağıdakı əsas kateqoriyalara bölünürlər: keyfiyyət bildirən sifətlər və nisbi sifətlər. Keyfiyyət sifətləri bir obyektin digərindən ölçüsünə (big – böyük), formasına (square – kvadrat), xassəsinə (hard – sərt), dadına (bitter – acı), rənginə görə (green – yaşıl), çəkisinə görə (light – yüngül) fərqlənən xüsusiyyətlərini bildirir.

Nisbi sifətlərdə bir cismin əlamətləri az və ya çox dərəcədə özünü göstərə bilməz. Onlar adətən fəaliyyət sahəsini (*rural* – kənd), obyektin hazırlandığı materialı (*woolen* – yun), bilik sahəsini (*scientific* – elmi) və digərlərini ifadə edirlər.

Ona görə də nisbi sifətlərin müqayisə dərəcələrini formalaşdırmaq mümkün deyil. Onlar 'very' (çox) zərflə birləşdirilə bilməz.

Məlumdur ki, sifət bu mövzunu əhatə edən nəzəri əsərlərdə müxtəlif cəhətlərlə səciyyələnən müstəqil nitq hissələrindən biridir. İlk növbədə, yerli və xarici dilçilərin bu nitq hissəsini necə təyin etdiklərini öyrənməliyik.

Məşhur rus dilçisi V.V. Vinoqradov sifətin aşağıdakı tərifini verir: "Sifət obyektin, hadisənin və ya adı ilə göstərilən digər atributun qeyri-prosessual atributunu (xüsusiyyətini) bildirən predikativ sözlərin leksik-semantik sinfidir." [3, s.326].

Digər rus dilçi P. A. Lekant da öz növbəsində aşağıdakı tərifi təklif edir: "Sifət obyektin atributunun kateqoriyalı qrammatik mənasını isimdən qrammatik asılılıq şəklində ifadə edən nitq hissəsidir." [9, s.137].

İngilis qrammatikası çərçivəsində sifət anlayışı üzrə ixtisaslaşan bir qrup rus dilçi I.P.İvanova, V.V.Burlakova, G.G. Poçeptsov bu sözlər sinfini aşağıdakı kimi müəyyən etmişdir: "Sifət obyektin məlum şərt sabitliyinə malik olan əlamətini adlandıran nitq hissəsidir." [8, s.105].

D. Beyber, S. Konrad və D. Liç sifətə "obyekt və ya şəxsin keyfiyyətinin ümumi semantikasını ifadə edən mənalı sözlər sinfi" kimi baxırlar [10, s.183].

Beləliklə, sifətin yuxarıda yerli və xarici dilçilikdə verilmiş müxtəlif şərhlərinə əsaslanaraq bu nitq hissəsinin mahiyyəti haqqında ümumi bir anlayış əldə etmək olar. Deməli, sifət predmetin atributunun mənası ilə sözləri birləşdirən nitq hissəsidir. Buna görə də nitqdə sifət isimlə birləşərək cümlədə ya tərif rolunu, ya da mürəkkəb nominal predikatın nominal hissəsini yerinə yetirir.

İngilis dilində keyfiyyət sifətləri kimi izah olunan məhz bu qrup sözlər öz xüsusiyyətlərinə görə sadə və eynicinsli görünsələr də, adyektiv leksikanın onoma-sioloji mahiyyətinin (bu mahiyyət əksər alimlərin rəyinə görə bütün sözlərin nitq hissələrinə görə təsnif olunmasında əsas prinsip kimi çıxış edir.) açılmasında əsas rol oynayır. Dilçilər sifətlərin ilkin semantik, funksional, morfoloji və struktur xüsusiyyətlərinin öyrənilməsində məhz bu qrup sözlərə əsaslanırlar. Bu qrup sifətlərin birinci dərəcəli əhəmiyyət kəsb etməsini nəzərə alaraq, adyekiv leksikaya aid edilməsi mübahisələr doğuran digər qrup sözləri kənara qoyub, (amma heç də onların təhlilinin aktuallığı və vacibliyi inkar olunmur) diqqəti keyfiyyət və nisbi sifətlərin təsvirinə yönəltmək olar. Müvafiq olaraq da, sonrakı mərhələlərdə adyektiv leksikanın bu və ya digər xüsusiyyətlərindən danışarkən, ümumi sifət sistemində əsas bu iki qrupu nəzərdən keçirtmək də olar. Güman etmək olar ki, bu qrupların dərin analizi adyektiv leksika ilə bağlı mübahisəli məsələlərin araşdırılmasında səmərəli ola bilər.

İngilis dilində sifətlərdən bəhs edərkən məşhur rus dilçisi V.V.Vinoqradov belə qeyd edir: "Sifətin semantik əsasını keyfiyyət təşkil edir." [5, s.151]. Qeyd etmək lazımdır ki, mövcud ədəbiyyatda sifətin kateqoriyalarını təyin edərkən, müxtəlif dayaq anlayışlarından istifadə olunur: keyfiyyət, xassə, əlamət, atribut. Müvafiq olaraq da, adyektiv söz-lər kateqoriyası keyfiyyət, xassə, əlamət, atribut bildirməklə xarakterizə olunur. Bu anlayışlar mahiyyətcə sinonimdir və ziddiyət yaratmır. Analoji olaraq da, fəlsəfi ədəbiyyatda keyfiyyət terminə qarşı dura bilən və həmçinin ona sinonim olan keyfiyyət, xassə, əlamət və atribut terminləri fərqləndirilmir.

Azərbaycan dilçiliyində nitq hissəsi kimi sifətə yanaşma müxtəlif olmuşdur. Belə müxtəliflik hətta sifətin bir nitq hissəsi olaraq məna tutumunun müəyyənləş-

dirilməsində özünü göstərmişdir. Dilçiliyimizdə sifət həm əşyanın əlamət və (ya) keyfiyyətini bildirən sözlər kimi, həm də ümumən əlamət və keyfiyyət bildirən nitq hissəsi olaraq göstərilir. Hətta dilçiliyimizdə sifətin yalnız "əlamət" bildirən söz kimi təqdim olunduğu da müşahidə olunur. Azərbaycan dilçiliyində akademik və monoqrafik nəşrlərdə sifətin tərifində işlədilən "əlamət" və "keyfiyyət" və ya yalnız "əlamət" terminindən istifadə edilməsi müəyyən izahat tələb edir. Bu məsələyə münasibət bildirən Y.Seyidov yazır ki, ".... əlamət və keyfiyyət müxtəlif anlayışlar kimi qəbul edilir. Əlamət deyəndə əşyanın zahiri görünüşü (*gözəl, uca, geniş, ağ, qara*), keyfiyyət deyəndə əşyanın daxili xüsusiyyətləri (*yaxşı, ağıllı, mərd, paxıl*) nəzərdə tutulur. Əlamət termini təkcə işlədiləndə bu xüsusiyyətlərin hamısı (həm zahiri, həm də daxili) anlaşılır." [2]

Sifət hər zaman ismin önündə işlənir.Türk dillərində tarixən sifətin əsas nitq hissəsi olması mübahisə yaratmışdır. Bu da qədimdə sifətin xüsusi şəkilçisinin olmaması ilə əlaqədardır. A.Şerbakın fikrincə, "sifətin müəyyən olunması isimlərin semantik – funksional çevrilməsinin nəticəsidir".

İngilis dilinin lüğəti ingilis dilinin inkişafının müxtəlif mərhələlərində əsasların əlavə edilməsi ilə formalaşan çoxlu sayda sifətləri ehtiva edir. Müasir ingilis dilində mürəkkəb qədim ingilis sifətləri qorunub saxlanılmışdır ki, bu da nitqin bu hissəsində bu sözyaratma modelinin əhəmiyyətli dərəcədə qədimliyini vurğulayır. Məsələn, *ice-cold, iron-grey, half-empty, milk-white, silver-hilted* [11, s.202].

Orta ingilis dövründən ingilis dilinin lüğət tərkibinə *hard-faced, grey-haired, light-hearted, dark-blue, ill-disposed, moth-eaten, well- informed, well-known* və başqa sözlər daxil edilmişdir [10, s.275]. Yeni İngilis dilinin formalaşması dövrünün əvvəlində söz yaradıcılığı fəal inkişaf etməyə davam etdi, bu dövrün neoplazmalarının sayı ingilis dilinin aktiv lüğətinin və dil sisteminin canlı elementlərinin bir hissəsidir. Məsələn, *brand-new, homesick, red-brown, able-bodied, round-faced, grey-eyed, bare-headed, flat-footed, middle- aged, red-cheeked, good-natured, time-honored, well-bred, heartbroken* [4, s.199].

Sifətlər isim təyin etmək funksiyasını yerinə yetirərək onlarla atributiv-prepozitiv tipli ifadələr əmələ gətirir, lakin eyni zamanda müxtəlif sintaktik əlaqə yollarına malikdir.

Buraxılış işinin bu yarımfəsli "hard", "strong" polisemantik sifətlərin timsalında sinxron və diaxroniyada dil vahidlərinin sistem və nitq mənalarının korrelyasiya probleminin tədqiqinə həsr edilmişdir. Xüsusilə, "hard", "strong" sifətlərinin dil (sistem) mənalarının və mexanizmlərinin xüsusiyyətlərinin təhlili təqdim olunur.

Təhlil üçün sifətlərin seçilməsi insan orqanizminin fizioloji xüsusiyyətlərini ("strong") və xarici aləmin konkret obyektlərinin ("hard") xassələrini bildirən dil vahidlərinin semantikasının və funksiyalarının müqayisəli təhlilinə maraqla bağlıdır.

Bu mövzunun yerli və xarici dilçilikdə kifayət qədər nəzəri işlənməsinə baxmayaraq, dilçilər, xüsusən də dil və nitq sistemi səviyyələri arasındakı əlaqənin xarakteri, daha dəqiq desək, hansı məzmun vahidlərinin sistem səviyyəsini təşkil etməsi ilə bağlı yekdil fikrə gələ bilmirlər.

Baxışları Sokratın elmi irsinə əsaslanan başqa bir istiqamətin tərəfdarları isə əksinə, hər hansı nitq ifadəsinin mənasını yaratmaqda insanın şəxsi amilini və yaradıcı rolunu nəzərə almaqda israrlıdırlar (A.A. Potebnya, G. Guillaume, G. Paul, E. Coseriou, M.V. Nikitin, A.B. Kravçenko və başqaları). Bu nöqteyi-nəzərdən

məna hər dəfə yeni bir insanın dünya haqqında biliyi əsasında və onun ünsiyyət vəziyyətinin bütün xarici amillərini qiymətləndirməsi əsasında yaranır. Polisemantik sözə gəlincə, onun semantikasının formalaşması və dərk edilməsi onun bu leksemin ifadə etdiyi məfhumun ən mühüm xüsusiyyətlərini özündə ehtiva edən "mənalı özəyi" (intensivliyi) ilə müəyyən edilir.

Tədqiqatın aktuallığı dil səviyyəsinin məzmun vahidlərinin xarakteri və nitq səviyyəsində fəaliyyət göstərməsinin ətraflı təhlili ehtiyacı ilə müəyyən edilir.

Sinxroniya və diaxroniyada sifətlərin dil və nitq mənalarının öyrənilməsi də vacibdir. Diaxronik materialın öyrənilməsində müasir dilin təhlili üçün işlənmiş üsullardan istifadə etmək lazımdır.

Lüğətlərin məlumatlarına görə *"hard"* sifətinin ilk leksik-semantik variantlarının mənalarının təhlili aşağıda göstərilmişdir. Mənalar ümumi, təkrarlanan məna komponentlərini vurğulayır, üçüncü sütunda inteqral simvollar, dördüncü sütunda isə differensial əlamətlər əks olunur. Diferensial – bir fonemi digərindən ayırmağa imkan verən əlamətlərdir. Fonemlərin diferensial xüsusiyyətləri ziddiyyətlərin köməyi ilə müəyyən edilir.

...when I have to be, but for me it comes from years of ***hard*** *practice.*

He's got to bear the fruits of his father's misconduct and bring his mind to fare ***hard*** *and to work* ***hard***

..... I got it all by ***hard*** *work, and paid for it out of my own earnings*

Here's the truth: I can't claim that it was ***hard*** *to imagine why some women would go for Thomas Seymour*

I'm probably as at home now on horseback when I have to be, but for me it comes from years of ***hard*** *practice*

He is such a good boy and works ***hard*** *all the time and never run around or make any trouble*

Owing to the intense cold the ground was ***as hard as a bone*** (daş kimi bərk).

It's not much use your expecting any generosity or kindliness from him. He's ***as hard as a bone*** *in anything that concerns his own interests.*

"Ana elm dəryadır, onu tamam-kamal qurtarmaq çox ***çətindir.*** *Mən hələ indi o dəryaya girmək üçün hazırlaşmışam!"*

İşimiz ***çətindir.*** *Bizim Həmidə şəhərlərdən, gur həyatdan uzağa düşüb.*

Anam olmayan yerdə atamın kefi ***çətin*** *açılır*

İngilis dilində "hard" sifəti ilə bir neçə söz birləşmələri də mövcuddur. Bəzilərinə nəzər yetirək:

hard feelings – acı, pis hisslər

Even though my sister and I quarreled I don't have any hard feelings toward her.//Bacımla mübahisə etsək də, ona qarşı heç bir inciklik hiss etmirəm).

hard nut to crack – çətin vəzifə; öhdəsindən gəlməkdə çətin olan bir insan, "sərt qoz"

Felix is a hard nut to crack that's why he hasn't any friends at the University // (Felik çətin adamdır, ona görə də Universitetdə heç bir dostu yoxdur.)

hard on (someone's) heels – kiminsə arxasınca (yaxından) izləmək.

My dog is a bit of a coward, and he is always hard on my heels. – Köpəyim bir az qorxaqdır və həmişə dabanlarıma basır.

Hard sell – alış-veriş etmək

The sales person gave us a hard sell on the new computer so we decided not to buy it from him. Satıcı israrla bizə yeni bir kompüter təklif etdi, ona görə də ondan almamağa qərar verdik.

"Strong" sifətinin leksik-semantik variantları aşağıda daha aydın görə bilərik.

İngilis dilində strong sifətinin mənası aşağıdakı lüğətlərdə təqribən yaxınmənalı şəklində verilir:

Oxford English Dictionary – physically powerful, able to exert great muscular force (fiziki cəhətdən güclü), inteqral əlamətləri – physically powerful; able to exert great musculai force;

CED – involving or possessing physical or mental strength (fiziki və ya əqli gücə malik olan); inteqral əlamətləri – possessing physical strength; differensial əlamətləri – or possessing considerable mental abilities;

COBUILD – people or animals that are strong have well-developed muscles anc great physical ability so that, e.g. they can work hard, carry heavy;

W3 – having great muscular power:capable of exerting great bodily force;

İnteqral əlamətləri – having great muscularpower; capable of exertinggreat bodily force;

CIDE – Powerful; having or using great force or control; inteqral əlamətləri powerful; having or using; differensial əlamətləri – powerful; having or using

Lüğətlər inteqral semələrin aşağıdakı qruplarını fərqləndirirlər: (1) physically powerful; having great muscular power; possessing physical strength; having well-developed muscles; physically vigorous; robust – fiziki cəhətdən güclü; böyük əzələ gücünə sahib olmaq; fiziki gücə sahib olmaq; yaxşı inkişaf etmiş əzələlərə sahib olmaq; fiziki cəhətdən güclü; möhkəm; (2) able to exert (use) great muscular (bodily, physical) force (power); having great physical ability; having the power to perform physically demanding tasks. – böyük əzələ (bədən, fiziki) qüvvə (güc) göstərə (istifadə edə bilər); böyük fiziki qabiliyyətə malik olmaq; fiziki cəhətdən tələb olunan işləri yerinə yetirmək gücünə malik olmaq. Bədii əsərlərdən gətirilmiş nümunələrə nəzər salaq:

*He leaped over the years in this way, and in the haste of **strong** purpose and **strong** desire, did not see how they would be made up of slow days, hours and minutes.*

*Perhaps there was something in that sound more than the mere fact of the **strong** vibration that produced the instantaneous effects on the frame of the prostrate man*

*"Who is the **strongest**... sturdiest ... stubbornest boy in your class?"*

*...and here you are, the three of you, young and **strong** as horses...* (J.B. Priestley).

Presently as the sun grew stronger, the snow went away, and his bad dreams passed with it.

*According to research from Everytown for Gun Safety, a nonprofit that advocates for gun control, **strong** gun control laws are correlated with fewer gun deaths.*

*This results in a charge imbalance that builds up an electric field **strong** enough to trigger flashes of lightning* (National Geographic, 13 Jan. 2023)

*Züleyxanın canlı və **möhkəm** qolu Mehmanın əlində özünü hiss etdirirdi.*

*..... elə bilirsən ki, qollu körüyün üfürməyinə nəhəng bir insan nəfəs verir, həmin **güclü** nəfəslə alov arasında ahəng-ülfət əmələ gəlir, bu ahəng-ülfət birləşib göyə boy çəkir.....*

– *Ancaq **güclü** bir barmaq da oldu!*

– ***Güclü**, ya gücsüz, barmaqsız şey olarmı, – Kamilov iri gövdəsini çəkdi. – O bizə ling qoymaq istəyirdi, deyirsən, yəni biz ona heç bir cecələ barmaq da uzatmıyaydıq?..*

İngilis və Azərbaycan dillərində keyfiyyət bildirən sifətlərin semantik strukturunun müqayisəsi aşkar şəkildə göstərir ki, iki dilin mənaca oxşar sözləri heç də həmişə məna etibarilə tam şəkildə üst-üstə düşmür. Bu isə keyfiyyət bildirən leksik vahidlərin semantikasının milli spesifikasının təzahürü hesab edilə bilər.

Elmi yenilik. "Hard" və "strong" sifətlərinin semantik strukturu ilk dəfə olaraq sinxron və diaxron aspektdə təhlil edilmiş, onların polisemiyasının formalaşmasında inteqral və differensial semələrin rolu müəyyənləşdirilmişdir. Müqayisəli təhlil əsasında keyfiyyət bildirən sifətlərin semantikasında milli-mədəni fərqlər elmi cəhətdən əsaslandırılmışdır.

Praktiki əhəmiyyəti. Tədqiqatın nəticələri ingilis dilinin leksikologiyası və müqayisəli dilçilik fənlərinin tədrisində, tərcümə praktikasında və ikidilli lüğətlərin tərtibində istifadə oluna bilər.

Nəticə. Tədqiqat göstərdi ki, sifət nitq hissəsi leksik-qrammatik və semantik baxımdan mürəkkəb kateqoriyadır. "Hard" və "strong" sifətlərinin sinxron və diaxron təhlili bu leksik vahidlərin fiziki keyfiyyət bildirən ilkin mənalardan mücərrəd və qiymətləndirici məna çalarlarına doğru inkişaf etdiyini sübut edir. Dil və nitq mənaları arasında qarşılıqlı əlaqə mövcuddur və bu əlaqə kontekstdən asılı olaraq reallaşır. İngilis və Azərbaycan dillərində mənaca oxşar sifətlərin tam semantik uyğunluq təşkil etməməsi onların milli-mədəni spesifikasını əks etdirir.

Ədəbiyyat:

1. Dəmirçizadə, Ə. (2007). Müasir Azərbaycan dili (s. 58–60). Bakı: Maarif.
2. Seyidov, Y. (2002). Azərbaycan dilinin qrammatikası: Morfologiya (2-ci nəşr). Bakı: Bakı Universiteti Nəşriyyatı.
3. Вердиева, З. Н. (1986). Семантические поля в современном английском языке: Учебное пособие для пед. ин-тов. Москва: Высшая школа.
4. Виноградов, В. В. (1953). Основные типы лексических значений слова. Вопросы языкознания, (5), 3–30.
5. Виноградов, В. В. (1972). Английский язык (грамматическое учение о слове). Москва: Просвещение.
6. Виноградов, В. В. (2001). Русский язык (Грамматическое учение о слове) (4-е изд., под ред. Г. А. Золотовой). Москва: Русский язык.
7. Жигадло, В. Н., Иванова, И. П., & Иофик, Л. Л. (1956). Современный английский язык. Теоретический курс грамматики. Москва: Изд-во лит. на иностр. яз.
8. Иванова, И. П., Бурлакова, В. В., & Почепцов, Г. Г. (1981). Теоретическая грамматика современного английского языка. Москва.
9. Лекант, П. А. (1982). Современный русский литературный язык. Учебник для студентов филологических специальностей педагогических институтов. Москва: Высшая школа.

10. Biber, D., Conrad, S., & Leech, G. (2003). Student grammar of spoken and written English. Harlow: Longman.
11. Curme, G. O., & Kurrath, H. (1931). A grammar of the English language: Syntax. New York: Heath and Co.

Gunay Suleymanova

Summary

LEXICAL AND SEMANTIC FEATURES OF THE ADJECTIVES "HARD" AND "STRONG" IN ENGLISH AND AZERBAIJANI

According to data obtained from the most authoritative English dictionaries, adjectives rank second after verbs among the main lexico-grammatical classes in terms of the number of polysemous units and the average number of meanings. The selection of adjectives for analysis is related to the interest in the comparative analysis of the semantics and functions of linguistic units that express the physiological characteristics of the human body (such as “strong” and “hard”). The study explores the synchronic and diachronic analysis of the ratio between semantic units in the language and speech systems of the polysemous adjectives “strong” and “hard”.

Гюнай Сулейманова

Резюме

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРИЛАГАТЕЛЬНЫХ "HARD" И "STRONG" В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Согласно данным, полученным на основе наиболее авторитетных словарей английского языка, прилагательные занимают второе место после глаголов среди основных лексико-грамматических классов по количеству многозначных единиц и среднему числу значений. Выбор прилагательных для анализа связан с интересом к сравнительному анализу семантики и функций языковых единиц, обозначающих физиологические особенности человеческого организма (таких как “strong” и “hard”). Исследование представляет синхронный и диахронный анализ соотношения смысловых единиц в системе языка и речи многозначных прилагательных “strong” и “hard”.

Rəyçi: prof. A.Məmmədov

Həqiqət Hüseynova
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.043

DİLÇİLİKDƏ "EMOSİYA" ANLAYIŞININ TƏDQİQİ BARƏDƏ

Açar sözlər: *emosiya, hisslər, emosionallıq, mətn, ünsiyyət, konsept*
Keywords: *emotion, feelings, emotionality, text, communication, concept*
Ключевые слова: *эмоция, чувства, эмоциональность, текст, общение, концепция*

Giriş. Emosiya müxtəlif elm sahələrində öyrənilən anlayış olsa da, ilk növbədə psixologiya ilə bağlıdır. Bununla belə, emosiya haqqında ilk məlumatlar fəlsəfədə verilmişdir. Platon, Arsitotel, Spinoza, Kant və digər filosofların əsərlərində emosiya məsələsinə geniş yer verilmişdir. "*Emosiya*" latın dilindən "*emovere*" sözündən olub *"həyəcanlanmaq, həyəcanlandırmaq"* mənasındadır. Bu anlayışın təyininə müxtəlif aspektlərdən yanaşılır.

Hal-hazırda elm adamları emosiyaların insan təfəkküründə və müxtəlif linqvo-mədəniyyətlərə malik insanların linqvistik şüurunun ayrılmaz hissəsi olduğuna inanırlar. "Emotiologiya" digər elm sahələri ilə birgə emosiyaların öyrənilməsinə də diqqət yetirir. Onun aktual problemlərindən biri dildə, mətnlərdə və ünsiyyətdə duyğuların öyrənilməsidir. Alimlər emosional davranış standartları, ümumən anlayışların emosional sferasında emosional/emotiv boşluq ideyasını formalaşdırmaqla bu məsələnin öyrənilməsində böyük irəliləyiş əldə etmişlər.

Emosiyalar dünya ilə onun insanın dilində əks olunması arasında bir növ "vasitəçi" olmaqla çox mühüm rol oynayır. Ancaq bu düşüncə seçicidir, çünki insanlar daha çox onlar üçün həyati olanı əks etdirirlər. Emosiyalar psixoloji hadisə kimi insanın dünyaya emosional münasibətini təkrarlayır [10, s. 5].

Emosiya bir sözdə fikir şəklində olur. Beləliklə, duyğular sözə daxil olur, onlarda saxlanılır və zərurət yarandıqda bu sözlərlə ifadə edilir və zahiri şəkildə ifadə olunur. Beləliklə, duyğular dilçiliyin tədqiqat obyektidir, lakin onlar, daha az dərəcədə psixologiya, fəlsəfə və fiziologiyadan elm adamlarına duyğuların linqvistik problemlərinə baxmağa kömək edən bir növ fondur. Mövcud emosiya anlayışları tam deyildir, lakin işin müsbət tərəfi odur ki, onlar bir-birinə zidd deyil, bir-birini tamamlayır [3, s. 5].

Emosiyalar hər bir xalqın dilində konseptuallaşdırılır və sözlə ifadə olunur. Əsas duyğular fərqlənir, lakin müxtəlif mədəniyyətlərdə onların xüsusi emosional təcrübəsini müşahidə etmək mümkündür. Həmçinin, emosiyaların ifadə normaları sabit deyildir. Onlar bir mədəniyyət daxilində mədəniyyətdən mədəniyyətə, dövrdən epoxaya, bir sosial təbəqədən digərinə dəyişirlər. Lakin emosiyaların dildə nominasiya, ifadə və təsvir yolu ilə aktuallaşması ilə yanaşı, müxtəlif fizioloji eksteriorizasiya formaları (titrəmək, gülmək, göz yaşları və s.) da mövcuddur [8,

s. 47-58]. Üstəlik, emosiyaları üz ifadəsindən də tanıya bilərik. Beləliklə, biz ən azı iki semiotik sistemlə məşğul oluruq: bədən dili və şifahi dil. Elmin üzərinə düşən isə onların əlaqəsini öyrənmək və təsvir etməkdir.

Dildə emosiya anlayış şəklində mövcuddur. Linqvistik araşdırmalarda emosiya probleminə daha geniş planda yanaşma A.A.Leontyevin nitqin emosional xüsusiyyətləri haqqında tədqiqatlarından sonra başlanmışdır [5, s. 31].

Dilin emosional məsələləri ümumi planda T.K.Fomina və T.İ.Verbitskayanın işlərində qaldırılmışdır. Emosionallıq və ekspressivlik Ş.Ballinin tədqiqatında da özünə yer almışdır. O göstərir ki, "canlı nitqdə danışanın daxili vəziyyəti konkret şərait və sosial mühitdən asılı olaraq müxtəlif nisbətlərdə üzə çıxır" [2, s. 29].

V.İ.Şaxovski bu fikri bir qədər fərqli şəkildə söyləmişdir. O, belə hesab edir ki, "emosiya dildə bu və ya digər dərəcədə adekvat ifadəsini tapır və ünsiyyət prosesinə daxil edilir" [9, s. 16].

Ümumiyyətlə, dilçilərin böyük bir qismi emosionallığı psixoloji kateqoriya hesab edir. Konsepsiyaların mahiyyətinin xüsusiyyətlərini nəzərə alaraq "emosional anlayış" anlayışı aşağıdakı kimi müəyyən edilir:

Emosional anlayış etnik və mədəni cəhətdən müəyyən edilmiş mürəkkəb struktur-semantik psixi və bir qayda olaraq leksik və frazeoloji cəhətdən konseptual əsaslara söykənən verballaşmış formalaşmadır. O, ideyanı, mədəni dəyərləri və düşüncə və ünsiyyət prosesində dünyanın (geniş mənada) obyektlərini (insanların subyektiv yanaşdıqları) əvəz edənləri ehtiva edir [10, s. 49].

Komponental təhlil metodunun tətbiqi hər bir dilin leksikasının sistem xarakteri daşıması fərziyyəsinə əsaslanır. Bu sistem müxtəlif mikrosistemlərə, məsələn, leksik dəstələrə, sinonimik sıralara və ya antonimik cütlərə bölünür. Bu mikrosistemlərin tədqiqi bizə bu və ya digər dilin semantik xüsusiyyətlərini aşkar etməyə imkan verir. Lakin dilin özünəməxsusluğu "semantik məkan" təşkil edən semlərin sayından deyil, leksika və qrammatika çərçivəsində semlərin qruplaşdırılmasının xüsusiyyətlərindən asılıdır. Məhz buna görə də iki və ya daha çox dilə əsaslanan mikrosistemləri müqayisə etsək, komponental analiz sinonimik cərgələrlə bağlı maraqlı nəticələr verə bilər [4, s. 115].

Dilçilər tərəfindən emosiyanın reallaşmasının üç tipi fərqləndirilir:

1) emosiyanın translyasiyası;

2) emosiyanın ifadəsi;

3) emosiyanın təsviri [1; 7, s. 71-75].

Fikrimizcə, tədqiqatçıların qeyd etdiyi translyasiya mahiyyətcə emosiyanın ötürülməsini nəzərdə tutur. Emosiyanın ifadəsi və təsvirində də eyni hadisə, yəni ötürmə baş verir. Emosiya əsasən insandan asılı olmayaraq verballaşır. Yəni hər hansı hadisə insanın halına təsir edərək onu dəyişir. Dəyişmə özünü müxtəlif şəkildə göstərir. İnsanın daxili aləmində, eləcə də nitqində dəyişmə baş verir. Bu hallar qarşılıqlı əlaqəlidir. İnsanın daxili aləmindəki dəyişmə bəzən zahiri olaraq aşkar görüntülər alır, insanın baxışlarında, gözündə, reaksiyasında iz buraxır.

Bir insanın gündəlik həyatda qarşılaşmalı olduğu tamamilə hər şey onda müəyyən münasibət oyadır. Bəzi cisim və hadisələr rəğbət, digərləri isə əksinə düşmənçilik və ikrah doğurur. Bəziləri maraq, digərləri – tam biganəlik doğura bilər.

Elmi psixoloji ədəbiyyatın təhlili prosesində belə məlum olmuşdur ki, emosiyalar müxtəlif ola bilər: modallıq, intensivlik, dərinlik, müddət, insanlara təsir, baş

vermə şəraiti, funksiyaya görə və s. (K.İzard, B.I.Dodonov, N.A.Krasavski, A.N.Leontyev, S.L.Rubinstein və s.). Psixoloq-alimlərin əsərlərində qeyd edilir ki, emosiyalar üç mühüm funksiyanı yerinə yetirir: koqnitiv, əks etdirici, tənzimləyici.

Konseptin strukturunu və məzmununu onun ifadə planını təhlil etməklə müəyyən etmək olar. Dil vahidi olaraq "emosiya", şübhəsiz ki, reallığı konseptuallaşdıran və təsnif edən mücərrəd bir ada istinad edir, bunun nəticəsində linqvistik vahidin semi semantik tamlığı və formal məzmunun bütövlüyünü formalaşdıran əlavə xüsusiyyətlər əldə edir [6, s. 138].

Emosiya anlayışları əsasən metaforik və metonimik olaraq qurulmuş və müəyyənləşdirilmişdir. Tədqiqatlara əsasən emosiya anlayışları dörd fərqli konseptual komponentdən ibarətdir: konseptual metaforalar, konseptual metonimiyalar, əlaqəli anlayışlar və idrak modelləri [17, s. 83].

Bütün bu işlərdə təklif ondan ibarət idi ki, konseptual metaforalar, konseptual metonimiyalar və əlaqəli anlayışlar koqnitiv modelləri təşkil edir. Xoşbəxtlik, qəzəb, sevgi, qorxu və bir çox başqaları kimi xüsusi duyğuların zehni təmsilçisi olduğunu güman etdiyimiz idrak modelləri və ya konseptual çərçivələrdir. Konseptual metafora ilə, daha çox fiziki mənbə domeni və daha mücərrəd hədəf domeni arasında yazışmalar toplusu nəzərdə tutulur [16, s. 102].

Emosiyalar sahəsində konseptual metonimiyalar iki cür ola bilər: emosiyalar üçün emosiyanın səbəbi və emosiyalar üçün emosiyanın təsiri. Qeyd edir ki, ikinci birincidən daha çox yayılmışdır [18, s. 38-40].

Konseptual metonimiyaların bu spesifik növləri müəyyən emosiyalarla əlaqəli fizioloji, davranış xarakterli və ifadəli cavablara uyğundur. Beləliklə, qəzəb üçün bədən istiliyinin və qorxu üçün bədən istiliyinin düşməsi fizioloji reaksiyaların konseptual ifadəsidir; qürur üçün sinəsini qabartmaq və qaçmaq üçün qorxu davranış reaksiyalarıdır.

Məlumdur ki, emosionallığın verbal leksik və qrammatik ifadə vasitələri vardır. Bu vasitələr hər bir dildə müəyyən sistem təşkil edir. Verbal ifadə vasitələri emosiyanın müxtəlif tiplərinin təyin olunması prosesində üzə çıxır. Emosiyanın sevinmə, əsəbiləşmə, kədərlənmə, iyrənmə, nifrət və s. tiplərinin mətndə təzahür vasitələrini aydınlaşdırarkən bu tiplərin hər birinin şəraitdən asılı olaraq öz qanunauyğunluqlarının olması nəzərə çarpır. Təbii ki, emosiyanın başqa tipləri də vardır. Hər bir emosiya tipi mətndə özünün fərqli verbal ifadə vasitələri ilə üzə çıxır. Məlumdur ki, verbal informasiya sözlə ifadə olunan, mənası olan informasiyadır.

"Emosiya" anlayışının təhlilində mədəniyyətlərarası anlayışlara müraciət mühüm bir addım kimi görünür. Dünyanın konseptual mənzərəsinin öyrənilməsi digər dil vahidləri ilə semantik yaxınlıq nümayiş etdirən emosiya kimi dil vahidinin diffuzluq faktı ilə daha da mürəkkəbləşir. Emosiya psixi vəziyyəti təmsil edir, şüurlu səy nəticəsində deyil, kortəbii olaraq yaranır və tez-tez fizioloji dəyişikliklərlə müşayiət olunur [11, s. 348].

Linqvokulturoloji konseptləri milli konseptlər də adlandırmaq olar. Milli konseptlər milli mədəniyyətdən doğur. Milli mədəniyyət nə qədər dinamik olsa da, həm daxili həm də xarici amillərin təsirilə dəyişikliklərə məruz qalsa da özünəməxsusluğunu həmişə qoruyub saxlamışdır. Qeyri-milli konseptlər isə başqa mədəniyyətlərin məhsuludur. Ümumiyyətlə, linqvokulturologiya və koqnitiv dilçilik bir-birinə zidd cərəyanlar hesab edilmir, əksinə bu istiqamətdə birlikdə irəlilə-

yirlər. Müəyyən məsələlərdə eyni yanaşmalara malikdirlər. Lakin onları fərqləndirən düşüncədən-mədəniyyətə, yaxud mədəniyyətdən-düşüncəyə məsələsidir. Koqnitivistlərə görə konsept düşüncədən-mədəniyyətə doğru hərəkət edir.

Eyni adlı anlayışın semantik quruluşu haqqında fikir yaratmaq üçün "emotion" lekseminin istifadəsinə nəzər salaq.

Aringarosa was surprised how little emotion he felt as he signed the document. The three men present, however, seemed to sigh in relief. – "Aringarosa təəccübləndi: sənədləri imzalayarkən heç bir emosiya hiss etmədi. Amma masa arxasında oturan üç kişi aydın idi ki, rahatladılar" [13, s. 167].

Nümunədə təqdim olunan vəziyyətdə tədqiq edilən konsept, sənədi imzalayan şəxs üçün yad bir hal kimi təsvir edilir. Müəllif personajların hər hansı birində heç bir duyğunun olmamasına diqqət yetirir və səhnədəki digər iştirakçıların davranışı fonunda bu daha cox müstəsna hal daşıyır.

Everywhere, hearts shuddered with spontaneous emotion. – "Bütün ürəklərdə eyni hisslər oyandı" [14, s. 89].

Verilən nümunədə "emotion" konsepsiyası ürəklərdə yaranan hissləri irəli sürür. Verilən nümunədə yalnız hisslərin varlığının qeyd edilməsi mümkün olur, lakin, onlar müsbət və ya mənfi kimi təsnif edilmirlər, buna baxmayaraq, biz emosiyanı müəyyən boşluq – ürək bölgəsinə aid edirik.

I tire myself with such emotion. – "Bütün bu narahatlıqlardan bezmişəm". [15, s. 162].

Yuxarıdakı nümunə "emotion" konseptini, reallığa darıxdırıcı və müvafiq olaraq mənfi şəkildə təqdim olunan münasibətin təzahürü kimi səciyyələndirir.

Such thoughts as these produced a new emotion in these torpid hearts as the young man entered. – "Beləliklə, yeni sensasiyaya səbəb olan məhz gəncin içəri daxil olması ilə bütün donmuş qəlbləri oyatması oldu" [12, s. 128].

Bu epizod sözügedən dil vahidinin donmuş qəlblərə təsir etmək qabiliyyətinə, yəni onları oyatmaq, adi vəziyyətdən çıxarmaq bacarığına fokuslanır. Verilən epizodda emosiya anlayışı toplanmış insanların ruh vəziyyətinin dəyişdirilməsi prosesini stimullaşdıran yeni bir hissi müəyyən edir. Cümlədə verilən situasiya ruh halının dəyişmələrinin motivatoru kimi bizə leksemin semantik məkanının bir parçasını vurğulamağa imkan verir.

Mrs. Brannigan and I want you to know how grateful we are. His voice was choked with emotion [19, s. 47].

"Xanım Branniqan və mənim nə qədər minnətdar olduğumuzu bilmənizi istərdik. Onun səsi həyacandan əsirdi". Bu nümunədə leksem, personajlardan birinin davranışını rəsmiləşdirən izahat formasında emosiya konseptinin funksiyasını təsvir edən əsas vahid kimi çıxış edir. Emosiya səsin titrəməsinə səbəb olur, həyəcandan xəbər verir.

Beləliklə, hər hansı bir xalqa xas olan dünyagörüş reallığı təsvir edən geniş sistemsiz mümkün deyildir. Nəsildən-nəslə dil özünüdərk və mədəni dəyərlər sisteminin milli spesifik xüsusiyyətlərini müəyyən edən varlığın invariantlarını ötürür. "Emosiya" anlayışı şübhəsiz elə linqvokulturoloji və psixolinqvistik vahidlərdən biridir və onsuz dünyanın istənilən linqvistik mənzərəsini tam başa düşmək mümkün deyil. Koqnitiv yanaşmanın nəzəri müddəaları nəzərdən keçirilən konsepsiyanın korrelyasiyasından təkcə hisslərlə deyil, həm də ağılla danışmağa im-

kan verir. Nitq davranışını formalaşdıran leksik vasitələrdən istifadə fenomeni ingilis dilli zehni məkanda insan şüuru tərəfindən müşahidə olunan müəyyən cəhətlərlə əlaqədar olaraq dildənkənar reallıq faktlarının müxtəlif şərhlərini qeydə alır. Dünyanın ingilis dilindəki mənzərəsində "emotion" – emosiya konsepti polisemantik quruluşunun aşağıda verilmiş formasiyalarında müşahidə olunur:

a) sənədləşmə prosesini müşayiət etmək vəziyyəti;
b) qrup üzvlərində yaranan hisslər;
c) baş verənlərə darıxdırıcı reaksiya;
d) zehni vəziyyətin dəyişməsini stimullaşdırabilən vasitə;
e) daxili narahatçılığı göstərən hadisə;
f) dərin narahatlığı xarakterizə edən davranış göstəricisi.

Təbii dili başa düşmək anlayışları əlaqəli nəzəriyyələrdə izah edən və leksik elementləri bu nəzəriyyələrlə əlaqələndirən böyük bir ümumi fikir bazası tələb edir. Ən mərkəzi anlayışlar və ən ümumi söz hissləri üçün edilən erkən səylər daha çox təsirə malik olar.

Nəticə. Beləliklə, aydın olur ki, psixoloji və fizioloji amillərdən irəli gələn emosionallıq və ekspressivlik insanın nitqində ifadəsini tapır. Nitq emosionallıqla bağlı dəyişmələrə məruz qalır. Daxili aləmdəki dəyişmələr nitqə təsir göstərir. Bütün bunlar insan nitqinin emosionallıq müstəvisində öyrənməyi aktuallaşdırır. Emosionallıq çoxtərəfli linqvistik xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlər həm emosionallığın verballaşdırılması üçün istifadə olunan vasitələr və bu vasitələrin nitqdə işlənməsində, həm də emosional vəziyyətin dil vasitələri ilə təsvirində üzə çıxır. Qeyd olunanlar emosionallığın mürəkkəb linqvistik statusa malik olduğunu təsdiq edir.

Elmi yenilik. Cari məqalədə "emosiya" anlayışının tədqiqi yer almışdır və bu tədqiqatda həm rus, həm də qərb mütəxəssislərinin araşdırmalarına əsaslanan təhlillər aparılmışdır. Məqalənin elmi yeniliyi onadan ibarətdir ki, burada müxtəlifsistemli dillərdə "emosiya" anlayışı tədqiqata cəlb edilmişdir.

Aktuallıq. Təqdim edilmiş məqalə üçün seçilmiş "emosiya" anlayışının təkcə ingilis dilində deyil, paralel olaraq həm də rus dilində tədqiqi məqalənin aktuallığını təşkil edir. Bundan savayı, mövzuya müasir yanaşmalara aid seçilmiş nümunələrin təhlili də məqalənin aktuallığını şərtləndirir.

Ədəbiyyat:

1. Бабенко, Л. Г. (1989). Лексические средства обозначения эмоции в русском языке. Свердловск: Изд-во Урал ун-та.
2. Балли, Ш. (1961). Французская стилистика. Москва: Иностранная литература.
3. Вилюнас, В. К. (1984). Основные проблемы психологической теории эмоций (вступительная статья). В Психология эмоций: Тексты (с. 1–288). Москва: Изд-во МГУ.
4. Кобозева, И. М. (2015). Лингвистическая семантика (6-е изд.). Москва: ЛЕНАНД.
5. Леонтьев, А. А. (1974). Факторы вариативности речевых высказываний. В Основы теории речевой деятельности (с. 29–35). Москва: Наука.
6. Никитин, М. В. (1974). Лексическое значение в слове и словосочетании: Спецкурс по общей и англ. лексикологии. Владимир: Владимир. гос. пед. ин-т им. П. И. Лебедева Полянского.

7. Самигулина, Ф. Г. (2013). Грамматическая антитеза как средство объективации эмоционального смысла в дискурсе. Вестник Балтийского федерального университета им. И. Канта, (2), 71–79.
8. Шаховский, В. И. (1994). Типы значений эмотивной лексики. Вопросы языкознания, (1), 15–23.
9. Шаховский, В. И. (1988). Категоризация эмоций в лексико-семантической системе (на материале английского языка) (дисс. д-ра филол. наук, с. 47–58). Москва.
10. Шаховский, В. И. (2008). Эмоциональные концепты в немецкой и русской лингвокультурах. Москва: Гнозис.
11. American Heritage Dictionary. (n.d.). Emotion. Retrieved June 15, 2023, from https://ahdictionary.com/word/search.html?q=emotion
12. Balzac, H. (n.d.). The magic skin. Retrieved June 15, 2023, from https://genius.com/Honore-de-balzac-the-magic-skin-1-the-talisman-annotated
13. Brown, D. (n.d.). The Da Vinci Code. Retrieved June 15, 2023, from https://davincicode.bib.bz/chapter-41
14. Brown, D. (n.d.). Angels & Demons. Retrieved June 15, 2023, from https://libcat.ru/knigi/detektivy-i-trillery/triller/321683-den-braun-angels-demons.html
15. Hemingway, E. (n.d.). For whom the bell tolls. Retrieved June 15, 2023, from https://libcat.ru/knigi/proza/klassicheskaya-proza/304002-ernest-heminguej-for-whom-the-bell-tolls.html
16. Johnson, G., & M. (1980). Metaphors we live by. Chicago: The University of Chicago Press.
17. Kövecses, Z. (1986). Metaphors of anger, pride and love: A lexical approach to the structure of concepts. Amsterdam/Philadelphia: John Benjamins.
18. Kövecses, Z., & Radden, G. (1998). Metonymy: Developing a cognitive linguistic view. Cognitive Linguistics, 9(7), 37–77.
19. Sheldon, S. (n.d.). If tomorrow comes. Retrieved June 15, 2023, from https://libcat.ru/knigi/proza/sovremennaya-proza/322783-sidney-sheldon-if-tomorrow-comes.html

Hagigat Huseynova

Summary

ON THE STUDY OF THE CONCEPT OF "EMOTION" IN LINGUISTICS

The article is dedicated to the study of the concept of "emotion". Emotion is also a concept used in psychology. Ancient philosophers Plato, Aristotle, Spinoza, cant and others gave a wide range of emotions in their works.

Emotions play a very important role in the world and are a kind of "mediator" between the reflection of human language. The emotions are conceptualized in the language of each nation and are expressed in words.

However, along with the urgency of emotions in language, expressions, and description, there are also various physiological extrateriorization forms (shivering, laughing, tears, etc.). In addition, it is possible to recognize emotions from the facial expression. It should be noted that emotion exists in the form of a notion in the language.

Хагигат Гусейнова

Резюме

ОБ ИЗУЧЕНИИ КОНЦЕПЦИИ «ЭМОЦИИ» В ЛИНГВИСТИКЕ

Статья посвящена изучению концепции «эмоций». Эмоция – это также концепция, используемая в психологии. Древние философы Платон, Арситотель, Спиноза, Кант и другие дали широкий спектр эмоций в своих работах.

Эмоции играют очень важную роль между миром и своего рода «посредником» между отражением его человеческого языка. Эмоции концептуализируются на языке каждой нации и выражены словами.

Однако, наряду со срочностью эмоций в языке, выражениях и описании, су¬щест¬вуют также различные физиологические формы экстериоризации (дрожь, смех, слезы и т. д.). Кроме того, можно распознать эмоции по выражению лица. Следует отметить, что эмоции существуют в форме понятия на языке.

Rəyçi: dos. S.B.Mustafayeva

Pərvanə İsmayılova
Azərbaycan Dillər Universiteti,
Xəzər Universiteti
https://orcid.org/0009-0000-4046-6452

10.30546/2518-752X.1.601.014

MÜASİR İNGİLİS DİLİNİN AFROAMERİKAN VARİANTINDA LEKSİK DƏYİŞİKLİKLƏRİN DİNAMİKASI

Açar sözlər: *İngilis dili, leksikologiya, proses dinamikası, dilin beynəlmiləlləşməsi, fonetika*

Keywords: *English, lexicology, process dynamics, internationalization of language, phonetics*

Ключевые слова: *английский язык, лексикология, динамика процесса, интернационализация языка, фонетика*

Giriş: İngilis dilinin afroamerikan variantı bu gün əksər dilçilər tərəfindən yalnız ingilislərin deyil, bütün dünyada danışılan ənənəvi klassik ingilis dilindən törənmiş standart dilin variantı kimi tanınır. Müasir dövrdə heç kim onun ümumbəşəri miqyasda əhəmiyyətini, eləcə də məşhur yazıçıların bu variantda yaratdığı bədii yaradıcılığını mübahisə etmir.

Məsələnin digər tərəfi ondan ibarətdir ki, dəqiq və ya humanitar sahədə çalışan alimlər müxtəlif texnika və üsullardan istifadə etdikləri kimi, filoloqların, dilçilərin, politoloqların və mədəniyyətşünasların maraqları da bir-birindən fərqlənir. Məhz, bu nöqteyi nəzərdən deyə bilərik ki ədəbiyyatşünaslar klassik ingilis dilində normaları bədii baxımdan, politoloqlar – müəyyən beynəlxalq (məsələn, miqrasiya) dəyişiklikləri əks etdirmək prizmasından, kulturoloqlar isə – ondan istifadə edən xalqın mədəniyyətini əks etdirmək mövqeyindən yanaşırlar. Lakin dilçilər bir tərəfdən milli dili qoruyub saxlayan, digər tərəfdən isə qısalma, kalkalaşma, müxtəlif illüziyalar, fonetik dəyişikliklər, qrammatik və fonetik normaların pozulması, son samitlərin karlaşması və ya cingiltiləşməsi prosesləri və s. kimi dil faktlarını qeydə alan konkret linqvistik dəyişikliklərlə maraqlanırlar.

Müzakirə: Istənilən dil mahiyyət etibarı ilə kifayət qədər sabit sistemdir və onda müxtəlif növ leksik dəyişikliklər çox ləng, bəzən onilliklər, hətta əsrlər boyu baş verir. Ancaq bir-birindən yalnız dialektlərdə fərqlənən yaxın qohum dilləri qarşılaşdırıb müqayisə etsək, bu qayda o qədər də fərqli və dəyişməz olmur. Üstəlik, belə hallarda istisnaların sayı o qədər çoxdur ki, qayda, qrammatik norma kimi nəyi qəbul etmək və ya üslub səhvlərini müəyyən etmək çətindir .

Bu hadisə bir dildə qəbul edilmiş tələffüz və orfoqrafiya normalarının digər yaxın qohum dildə assimilyasiyası kimi müşahidə olunur. Zaman keçdikcə standart ingilis dili dünya miqyasında o qədər tanındı ki, planetin bir çox bölgələrinə

də geniş yayıldı. XX əsrdə onun beynəlmiləl xarakter daşıması prosesi baş verdi və bəzi başqa ölkələrin sakinləri üçün ikinci, və daha dəqiq desək, digər başqa ölkələrin sakinləri üçün doğma dil oldu. Bu sakinlər arasında standart ingilis dilinin lüğətini, fonetikasını və qrammatikasını qismən mənimsəmiş, öz sözlərindən bir sıra əlavələr etməklə tərkibini dəyişdirən afrikalılar da var idi. Bu halda leksik variasiyanın dinamikası assosiativ olaraq uzaq keçmişi xatırladırdı. İngilislər Kelt adalarının ərazisində məskunlaşaraq öz mədəniyyətlərini yaratdılar. Hazırki mövcud standart ingilis dili dil elementləri ilə birgə vəhdət şəklində, anglo-sakson dili kimi tanınmağa başladı [7, s. 98].

İngilis dilinin afroamerikan variantı bəzi elementləri milli xüsusiyyətlərin və əlaqəli qrupun dilinin qarşılıqlı əlaqəsi nəticəsində variativliyə məruz qalmışdır. İngilis dilçiliyinin müxtəlif sahələrinin birgə əlaqəsi ilk növbədə etnoqrafik nüanslara səbəb oldu. F.Kuperin romanlarını xatırlamaq kifayətdir ki, XVIII əsrdə hindlilərin ata-baba torpaqlarında olan amerikalı kolonistlər fəal şəkildə (bəlkə də istəmədən) yad dil mədəniyyətinin bir hissəsini mənimsəmişdilər. XXI əsrdə ABŞ, demək olar ki, bütün əvvəlki dövrlərlə müqayisədə, ümumiyyətlə, çoxdilli sistemlərin geniş şəbəkəsi ilə seçilir. Bu öz aydın ifadəsini müxtəlif sosial-etnik qrupların əlaqəsində və eyni zamanda yenidən birləşməsində göstərir. Nəticədə yeni mədəni dəyərlərin mənimsənilməsi baş verir. Amma mədəniyyət, bildiyimiz kimi, çox geniş anlayışdır. Onda başqa bir dilin variantlarının və ya dialektlərinin bir-birinə nüfuz etməsi mütləq şəkildə baş verir. Bundan əlavə əgər başqa millətdən olan insanlar ABŞ-da yaşayırlarsa, lakin ingilis dilində danışmağa davam edirlərsə, bu özünü daha bariz şəklində göstərir. Dilçiliyin ümumi prosesinə bəzi sosial-tarixi amillər də təsir edir.

Xüsusilə, bu afroamerikan dialektindəki leksik modifikasiyaların variasiyasına təsir etmişdir. Və bu heç bir halda standart ingilis dilinin sərbəst inkişafına mane olan mənfi hadisə sayıla bilməz. Əksinə, bir çox əcnəbi dilçilərin qənaətinə görə, ingilis dilinin afroamerikan variantı sanki bütövlükdə sistemin inkişafına kömək edir, obrazlı desək, onu canlandırır və tamamlayır. İlk növbədə vurğulamaq lazımdır ki, istənilən leksik modifikasiyalar qloballaşma dövrünü əks etdirir. Bu, afrikalıların miqrasiya prosesi ilə sıx bağlıdır və bu ingilis dilində amerikanizmlərin genişlənməsinə və zənginləşməsinə simptomatik töhfə verir. Bu günlərdə Amerika Birləşmiş Ştatlarında ingilis dilinin afroamerikan variantının çox geniş yayılmasının səbəbi elə məhz budur.

Bu gün 50 ştatın istənilən regionunda dilçiliyin əsas bölmələrində - fonetika, leksika, qrammatika və s. afroamerikan variantının amerika aksentologiyası ilə birgə istifadə olunması bu gün qlobal olan ingilis dili üçün unikal nüansdır. Başqa sözlə, indiki "afroamerikan" variantı bütün dil səviyyələrinə nüfuz edir.

Yeri gəlmişkən, bu regional problemin demək olar ki, hədsiz dərəcədə genişlənməsi linqvistik tədqiqatın çərçivəsindən kənara çıxır. Mentalitetimizə yaxın tərzdə izah etsək, qədim zamanlardan Şərq xalqları, o cümlədən azərbaycanlılar öz mehribanlığı, qəlbi açıqlığı, tolerantlığı ilə seçilib. Buradan da immiqrantların, statistik cəhətdən azsaylı xalqların irqi müstəqilliyinə, özünü təmin etməsinə və nəhayət özünüidentikliyinə nail olmaq üçün kəskin və ağrılı bir problem ortaya çıxır. Afroamerikalılar məlum səbəblərə görə ştatlarda öz sosial-mədəni təbəqələrini

qoruyub saxlamağa çalışırlar. Bu yolla (yəni öz dilinin elementlərindən istifadə etməklə) onların linqvistik-mədəni paradiqmasının səviyyəsi yüksəkdir.

Alimlər ingilis dilinin afroamerikan variantının leksik-qrammatik normalarını sosial nizam fenomeni kimi araşdırırlar. Sosiolinqvistika isə buna uyğun olaraq öz norma və qaydalarını diktə edir. Beləliklə, dil baxımından Afrikadan olan amerikalıları ən azı iki istiqaməti özündə birləşdirir. Birincisi, ingilis dialektlərinin yayılma genişliyi və azadlığı; çünki Cənubi Afrika miqrasiya hərəkətləri əsas dilin milli elementlərinin qorunmasına mane olur. İkincisi, L.A.Şuljenkonun incəliklə qeyd etdiyi kimi, "Amerika millətinin sosial mobilliyi və sıxlığı afroamerikalıların axınının mənbəyidir" [3, s. 5; 4, s.2]. Eyni zamanda, ingilis dialektləri bütün Avropa və ABŞ-da o qədər geniş yayılmışdır ki, onları müəyyən bir ərazidə uzun müddət saxlamaq qeyri-mümkündür. Başqa sözlə, onlar Böyük Britaniya və hətta ABŞ-ın hüdudlarından çox-çox uzaqlara yayılaraq daha böyük ərazilərə məskunlaşırlar.

İngiltərə və Amerikadakı müasir afroamerikalılar yazılı və şifahi nitqlərində öz dil variantından nisbətən sərbəst surətdə istifadə edə bilirlər. Bundan əlavə, afroamerikalıların dil siyasəti onlara bütövlükdə standart ingilis dili sisteminə sadiq olmağa imkan verir. Vətən, necə deyərlər, hər şeydən əvvəl gəlir. Məsələnin mahiyyəti ondan ibarətdir ki, bəzi digər xalqların və millətlərin nümayəndələri (və bu gün ABŞ-da onların sıxlığı kifayət qədər böyükdür və əhalisi müxtəlifdir) milli dili, eləcə də onlara yad mədəniyyəti asanlıqla mənimsəyib istifadə etmək istəmirlər [6, s.290; 9, s.160].

Aydındır ki, ABŞ hakimiyyət orqanları və xalqı bu cür "yadellilərə" ən yaxşı halda sonsuz səbirlə, ən pis halda isə nifrətlə yanaşır. Bununla belə, bu, yeni mühitə və mədəniyyətə qoşularaq ingilis dilinin təbii inkişafına mane olmadan öz dil ənənələrinə yiyələnən əksər afroamerikalılar üçün xarakterik deyil, buna görə də onun variasiyası daha qabarıq şəkildə özünü büruzə verir.

L.V. Miloserdova məqalələrindən birində göstərdiyi statistik məlumata əsasən 2017-ci ilin məlumatları belədir: "ABŞ-ın əhalisi 299 417 504 nəfər idi. Onların arasında 40 mindən çox Afro-Amerikalı vardır" [2, s.44-45]. Təəssüf ki, göstərilən tarixdən sonra Covid pandemiyasının başlaması səbəbindən daha yeni məlumatımız yoxdur. Amma əmin ola bilərik ki, yuxarıda qeyd etdiyimiz səbəbdən bu günlərdə bu rəqəm sayı daha çoxdur. Statistikaya əsasən göstərilən rəqəm xaricdən nüfuz edən linqvistik komponentlərin Amerikanın bəzi etnomədəni birlikləri ilə qarşılıqlı əlaqəsini göstərir.

Tarixə qısa bir ekskursiya etsək, ekvatorial Afrika, XIX əsrdən bəri və uzun müddət kölelik dövrünü yaşamış olduğunun şahidi olarıq. XX əsrdə afroamerikalılar etnik kimliyin qalıqlarını və Avropa mədəniyyətindən kəskin şəkildə fərqlənən milli mədəniyyəti qoruyub saxlamağa sövq olundu. Bu, dil siyasətində də öz əksini tapdı. Bir sıra dilçilərin fikrincə, buna "Black English" adlı istiqamət kömək etdi. Antonimi, əlbəttə ki, "White English" olan adın simvolizmini deşifrə etmək çətin deyil. Afroamerikalılar tünd dərili irqə mənsubdurlar, lakin müstəmləkəçilik dövründə təcrid olunmuş, və ağ əhali tərəfindən faşist konsentrasiya düşərgələri kimi qurulmuş, müxtəlif qəbilələrin öz dillərini və anglo-afrika ləhcəsini qoruyub saxlaya bilmişlər.

XX və XXI afroamerikalılar Amerika və Böyük Britaniyada öz xalq dili olan "ibonika" variantını hazırladılar. Bəzi afrikalıların təxəyyülünün necə işlədiyi

heyrətamizdir. Dil vasitələrinin metonimik ötürülməsi musiqi və incəsənət fonunda baş vermişdir. İngilislər "twist" rəqsinin əcdadları idi, bir müddət sonra amerikalılar rok-n-roll yaratdılar və onun əsasında milli bədii "hip-hop" meydana çıxdı. Afroamerikalılar bunu müasir dillə desək, klipini yaratdılar və musiqi adından istifadə edərək onu linqvistik bir məcaza çevirdilər. Nəticədə "rəqs hərəkəti" metaforasına əsaslanan bir texnika meydana gəldi və ingilis danışıq dilinin (nitqinin) bir hissəsinə çevrildi.

Amma ayrı-ayrılıqda nəzərdən keçirilən istənilən məcaz, məlum olduğu kimi, dilin vahid bədii və vizual vasitəsidir. O, nitqi təsvir etmək üçün yaradılmışdır, məsələn: epitet, jarqon, slənq, müqayisə və s. Beləliklə, mübadilə şəklində ingilis dilində bir sıra məcazlar yaratdılar.

Afroamerikalılar ingilis dilinin dialektlərindən istifadə edərək ünsiyyətə yeni yaranmış məcazlar əlavə edirlər. Bununla belə afroamerikalılar aktiv şəkildə şifrələnmiş sözlərdən (semiotikadan) istifadə etməyə başladılar. Artıq Semiotika anlayışı Amerikanın şimal ştatlarının bəzi sakinləri tərəfindən qəbul edilmişdir. İngilis dilinin afroamerikan variantı, məsələn, "*boom-box"* – "portativ video magnitofon" (adətən böyük) kimi yenilənmiş slənqlərlə zənginləşdirilmişdir. Və ya: *to bounce*, yəni: ingilissayağı vidalaşmadan ayrılmaq. Bəzi jarqonlar mövzudan oyuna keçdi. Məsələn, "*bones"* əvvəlcə spesifikasiyası olmayan sümükləri (insan kəlləsi və ya heyvan sümükləri) nəzərdə tuturdu. Lakin Afrikalı-Amerikalılar domino oynamağı çox sevirdilər və oyun daşlarına sümük deyilir. Beləliklə, afroamerikan dialektindən simptomatik olaraq götürülmüş "domino"nun ingilis dilinin amerikan versiyası yaranmışdır [8, s.329; 10, s. 150].

Doğrudur, slənqin bir ləhcədən digər ləhcəyə bu cür keçidlərinin müəyyən təhriflərlə müşayiət olunmadığını qeyd etməyə bilmərik. Onlar afroamerikalılar üçün başa düşülən və qəbul olunandır, lakin ingilis dilinin fonetik sistemi və ya qrammatik normaları üçün heç də xarakterik deyil. Bunu P.D.Vatutina aydın şəkildə qeyd etmişdir. Aparıcı dilçilərin fikirlərini ümumiləşdirərək, o, ingilis dilinin afroamerikan variantının leksik xüsusiyyətlərinin öyrənilməsinə iki əsas yanaşma haqqında yazır: 1. dialekt və 2. qrup.

Birinci yanaşma, anladığımız kimi, leksikoloji çalarların fərdi tədqiqinə uyğun gəlir. Məhz, P.Vatutina birinci yanaşmanı "nitq subyektlərinin linqvistik davranışının irqi kateqoriya mövqeyindən, ikincisini isə etnik qrup nöqteyi-nəzərindən" araşdırma kimi təqdim edir [1, s.7-8; 5, s. 20] .

Məlumdur ki, dialekt yanaşmasına əsasən, afroamerikalılar 3-cü şəxsdəki son "-s"ləri tələffüz etmirlər. Onlar ingiliscə "th" səsini "f" kimi tələffüz edirlər. Həm də ingilis dilinin qrammatik qaydaları ilə iki və ya üç ardıcıl samitlərin qeyri-ixtiyari və əsassız ixtisarı da müşahidə olunur. İkinci yanaşma nitqin xırıltılı tonu kimi incəlikləri müşahidə etməyə imkan verir.. Və qrammatika baxımından birincilər yiyəlik halını qəbul etmirlər.

Böyük Britaniyanın məktəbliləri və təhsil müəssisələrinin tələbələri doğma ingilis dilinin bütün zamanın formalarını mükəmməl bilirlər, lakin demək olar ki, həmişə aktiv olaraq yalnız onlardan üçünü və ya dörd zamanı istifadə edirlər. Qalanları gündəlik nitqdən kənarda qalır, demək olar ki, müəllimlərin mühazirə kursuna daxil edilmir və çox vaxt yalnız bədii ədəbiyyatda olur. Və dogma dil daşıyı-

cıları bununla yanaşı yiyəlik halından da istifadə edirlər. Bu isə afroamerikalıların ciddi-cəhdlə yayındıqları qrammatik xüsusiyyətdir.

XXI əsrdə miqrasiya axınının geniş vüsət aldığı bir zamanda xalqların qarşılıqlı əlaqəsi iki və bəzən daha çox dilin elementlərindən, daha doğrusu, onların dialektlərindən istifadə etməyə imkan yaratdı. Nəticədə, həm standart ingilis dili, həm də əcnəbi afroamerikan variantı variasiyaya uğradı. Yəni, afroamerikan variantı (digər terminologiyada – sosiolekt) tədricən klassik ingilis dilinin müəyyən sayda fonetik normalarını və qrammatik qaydalarını özündə ehtiva etməyə başladı. Bu proses qarşılıqlı xarakter aldı. Afrikalıların Böyük Britaniya və ABŞ-da assimilyasiyası onlar arasında ünsiyyəti artırdı, daha da inkişaf edərək məhsuldar oldu. Afromerikalılar müəyyən çərçivələr daxilində işə cəlb olunmağa başlayanda dil faktorlarına sosial-mədəni amillər də əlavə olundu. Nəticədə ingilis dilinin afroamerikan variantı standart sistemini dəyişdi.

Ümumiyyətlə, hər hansısa xarici dili və ya dil variantını tədqiq edərkən ilk öncə həmin dilin bir sıra dil strukturlarını, belə ki, lüğət tərkibini, leksik, fonetik qanunauyğunluqlarını bilmək vacibdir. Dil anlayışı, ümumiyyətlə, tədqiqat, fərdin elmi fəaliyyətinin nəticəsi ilə bağlıdır. [11, s.90].

Mövzunun aktuallığı. Qloballaşma və miqrasiya proseslərinin sürətlənməsi müasir ingilis dilinin sosial və regional variantlarının aktiv inkişafına səbəb olmuşdur. Afroamerikan variantının leksik xüsusiyyətlərinin və dəyişmə dinamikasının öyrənilməsi dilin beynəlmiləlləşməsi, normativlik və variativlik problemlərinin araşdırılması baxımından xüsusi aktuallıq kəsb edir.

Tədqiqatın elmi yeniliyi. Məqalədə müasir ingilis dilinin afroamerikan variantında leksik dəyişikliklər ilk dəfə olaraq dinamik və kompleks şəkildə təhlil edilmişdir. Afroamerikan leksikasının formalaşmasına təsir edən sosial-mədəni amillər müəyyən edilmiş və bu variantın standart ingilis dili ilə qarşılıqlı əlaqəsi sosiolinqvistik aspektdən əsaslandırılmışdır.

Nəticə: Məqaləmizi yekunlaşdıraraq vurğulayırıq ki, müasir ingilis dilinin afroamerikan variantında leksik modifikasiyaların belə variasiyasının, fikrimizcə, həm üstünlükləri, həm də qeyri-üstünlükləri vardır. Üstünlükləri ondan ibarətdir ki, bir dil və yaxud dil variantı və onun dialektləri (ləhcələri) və ya variativləri birbirini qarşılıqlı zənginləşdirir. Fonetik quruluşun və leksik-qrammatik normaların təhrifləri olmadan mümkün olmur, elementlərin belə yenidən qurulması obyektiv olaraq müasir elm adamları tərəfindən qənaətbəxş hesab olunur.

Biz bu variantın mənfi cəhətlərini dialektlərin (variativliklərin) qeyri-ixtiyari qarışmasında görürük, bunun nəticəsində kök morfemlər, affikslər və ya şəkilçilər ilkin olaraq dəyişdirilir. Gələcəkdə bu cür variasiya avtomatik olaraq bəzi leksemlərin təhrif olunmasına gətirib çıxara bilər. Bu halda onların ilkin mənası itir. İndi artıq əminliklə demək olar ki, afroamerikalıların təxminən 75%-dən çoxu öz doğma dil variantından və ya yuxarıda qeyd etdiyimiz kimi, sosiolektdən istifadə edir. Digər tərəfdən, qara dərili miqrantların və yerli britaniyalıların müəyyən bir hissəsi üçün bu sosiolekt və ya dil variantı demək olar ki, yeganə ünsiyyət vasitəsinə çevrilir. Afroamerikalıların müəyyən təbəqəsi də var ki, onlar da öz doğma dil variantından çox az istifadə edirlər, ünsiyyət prosesində standart ingilis dilindən də istifadə edirlər.

Ədəbiyyat:

1. Ватутина, П. Д. (2020). Особенности лексики афроамериканского английского в фильме «PUTNEY SWOPE». Уральский гуманитарный институт.
2. Милосердова, Л. В. (2015). Социальный статус афро-американского английского языка. Ленинград: Ленинградский государственный университет имени А.С. Пушкина.
3. Шульженко, Л. А. (2018). Лексические особенности афроамериканского английского (на материале романа April Sinclair «Coffee will make you black»). Саратов: Саратовский национальный исследовательский государственный университет имени Н. Г. Чернышевского.
4. Ball, A. F. (1991). Organizational patterns in the oral and written expository language of African-American adolescents: Choice vs. ability. Paper presented at the annual meeting of the American Educational Research Association, Chicago, Illinois.
5. Howe, D., & Walker, J. (2003). Negating the Creole-Origins Hypothesis: Evidence from Early African American English. University of British Columbia & University of Ottawa.
6. King, S. (2020). From African American Vernacular English to African American Language: Rethinking the Study of Race and Language in African Americans' Speech. Annual Review of Linguistics, 6, 285–300.
7. Green, L. (2002). African American English: A linguistic introduction. Cambridge: Cambridge University Press.
8. Wolfram, W. (2009). African American English. In B. Kachru, Y. Kachru, & C. L. Nelson (Eds.), The Handbook of World Englishes (pp. 328–340). Hoboken, NJ: Wiley-Blackwell.
9. Thomas, E. R., & Wassink, A. B. (2010). Variation and Identity in African-American English. In C. Llamas & D. Watt (Eds.), Language and Identities (pp. 157–165). Edinburgh: Edinburgh University Press.
10. Trudgill, P. (2004). New-Dialect Formation: The Inevitability of Colonial Englishes. Edinburgh: Edinburgh University Press.
11. Veysəlli, F. Y. (2007). Dil. Bakı: Təhsil.

Parvana Ismayilova

Summary

THE DYNAMICS OF LEXICAL CHANGE IN THE AFRICAN AMERICAN VARIANT OF MODERN ENGLISH

The presented article discusses an interesting and topical issue from a linguistic perspective. Within the framework of a small volume of work, the author nevertheless succinctly and concisely reveals the roots of AfroAmerican English. It is correctly indicated that philologists, historians, political scientists, cultural scientists, and representatives of related professions were engaged in this problem in the 21st century. But the article analyzes the changes that, first of all, interest modern linguists of different nationalities. These are, in particular: epentheses, truncations, calcifications, allusions, a whole cascade of phonetic and lexicological changes, violations of grammatical and orthoepic norms, processes of stunning, ringing of final consonants, etc. The study actually shows that these and some other means indicate the variety of the lexical features of AfroAmerican English. The value of this article, in our opinion, is twofold. On the one hand, it is from a linguistic point of view that some novelty has been introduced into this topic. On the other hand, the author correctly believes that AfricanAmericans in the modern period of history literally flooded the United States and partly Great Britain. The nation assimilated and as a result,

some of their native words, expressions, and dialects became part of the English language. Slangs began to play a specific role, which was discussed in the article. Finally, we also see the modest advantage of the article in the fact that AfroAmerican dialects are mainly confined to modern ethnocultural situations. It follows from the conclusions and communications that the analyzed object of research is deeply rooted in modern English, although for the most part in colloquial.

Перване Исмаилова

Резюме

ДИНАМИКА ЛЕКСИЧЕСКИХ ИЗМЕНЕНИЙ В АФРОАМЕРИКАНСКОМ ВАРИАНТЕ СОВРЕМЕННОГО АНГЛИЙСКОГО ЯЗЫКА

Представленная статья посвящена интересной и достаточно острой с языковой точки зрения теме. В рамках небольшой по объёму работы автор тем не менее ёмко и лаконично вскрывает корни афроамериканского английского. Автор рассматривает вопрос о том, что данной проблемой в XXI веке занимались филологи, историки, политологи, культурологи и представители смежных профессий. В статье анализируются изменения, которые, в первую очередь, интересуют современных языковедов, причём, разных национальностей. Это, в частности: эпентезы, усечения, калькирования, аллюзий, целый каскад фонетико-лексикологических изменений, нарушения грамматических и орфоэпических норм, процессов оглушения, озвончения конечных согласных и т.д. В ходе исследования фактически показано, что эти и некоторые другие средства свидетельствуют о динамике лексических особенностей афроамериканского английского. Ценность настоящей статьи, на наш взгляд, носит двоякий характер. С одной стороны, именно с лингвистической позиции в эту тему внесена некоторая новизна. С другой стороны, автор правильно подчеркивает, что афроамериканцы в современный период истории в буквальном смысле слова наводнили США и отчасти Великобританию. Нация ассимилировалась, и как следствие – некоторые их исконные слова, выражения и диалекты стали частью английского языка. Специфическую роль стали играть сленги, о чём в статье шёл разговор особый. Наконец, скромное достоинство статьи нам также видится в том, что афроамериканские диалекты, главным образом, приурочены к современной этнокультурной ситуаций. Из выводов и обобщений автора следует, что анализируемый объект исследования глубоко укореняется в современном английском языке, правда, по большей части в разговорном.

Rəyçi: prof. Ç.Qaraşarlı

Lətifə Şirzadova
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0002-8842-1218

10.30546/2518-752X.1.601.015

SİNONİM PARADİQMLƏRİNİN METAFORLARIN YARANMASINDA ROLU

Açar sözlər: *sinonim paradiqmlər, metafor, koqnitiv linqvistika, leksik potensial, üslubi çalar*
Keywords: *synonym paradigm, metaphor, cognitive linguistics, lexical potential, stylistic nuance*
Ключевые слова: *синонимическая парадигма, метафора, когнитивная лингвистика, лексический потенциал, стилистический оттенок*

Giriş. Müasir dilçilikdə üslubi vasitələrin, xüsusilə metafor və sinonimliyin öyrənilməsi dilin semantik, koqnitiv və praqmatik mexanizmlərinin aydınlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bədii mətndə üslubi vasitələr yalnız estetik funksiya daşımır, eyni zamanda müəllifin dünyagörüşünü, emosional münasibətini və konseptual düşüncə tərzini əks etdirən əsas dil alətləri kimi çıxış edir. Bu baxımdan metafor və sinonimlik dilin leksik-semantik sistemində bir-biri ilə sıx əlaqədə fəaliyyət göstərən, qarşılıqlı şəkildə bir-birini tamamlayan fenomenlərdir.

Hər bir əsərin formasına uyğun olaraq yazıçı üslubi vasitələr seçir. Nəzm əsərlərində qafiyə, ritm əsasdırsa, nəsr əsərlərində də digər üslubi vasitələr əhəmiyyətlidir. Üslubi vasitələr bədii mətndə təsviri alətlər kimi qəbul edilir. Onlar sözlərin adi istifadədən də üstün tərəflərini ifadə edir. Bəzən yazıçı fikrini dolayı izah etmək istəyir. Bunun üçün o, ədəbi mənalarından daha dərin mənaları olan üslubi fiqurlardan istifadə edir. Üslubi vasitələr mətni daha canlı və maraqlı edir. Bu da oxucunun diqqətini cəmləməyə və öz üzərində saxlamağa imkan verir. Leksik üslubi vasitə kimi metafor konseptual köçürməyə əsaslanan koqnitiv mexanizmdir və dilin həm leksik, həm də praqmatik sistemində dominant rol oynayır. Sinonimlik isə dilin leksik sisteminin ən mürəkkəb və çoxplanlı sahələrindən biri olaraq semantik strukturların formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Müasir dilçilikdə sinonimlik yalnız eyni mənanı ifadə edən sözlər kimi qəbul edilmir, eyni zamanda, fərqli semantik çalarların, üslubi fərqlərin və koqnitiv strukturların daşıyıcısı olan vahidlər kimi şərh olunur. Bu iki fenomen – sinonimlik və metafor – bir-biri ilə sıx əlaqədə fəaliyyət göstərir. Çünki metaforların formalaşması zaman-məkan, hərəkət-hal, duyğu-idrak kimi konseptual sahələr arasında əlaqələr yaradarkən, çox vaxt həmin sahələr daxilində mövcud sinonim paradiqmlərindən semantik dəstək alır [4, s. 47].

Müasir semantika sinonimliyi müxtəlif parametr üzrə dəyərləndirir:

- denotativ yaxınlıq,
- konnotativ fərqlər,

- üslubi çalarlar,
- koqnitiv kateqoriyalarla əlaqə.

D.A. Kryuz sinonimlərin müəyyənləşdirilməsində və təsnifatında ən çox qəbul edilən sistemlərdən birini təklif etmişdir: *tam sinonimlik, yaxın sinonimlik və qismən sinonimlik* kimi mərhələlərə ayırır [2, s. 161].

Bu mərhələlilik metaforların yaranmasında əsas rol oynayır. Çünki metafor ən çox qismən sinonimlik əsasında yeni məna çalarları yaradır.

Sinonim paradiqmlər eyni leksik sahəyə aid olan, lakin müxtəlif funksional-semantik çalarlarla fərqlənən sözlərin sistemidir. Apresyan sinonim paradiqmi "dilin daxili leksik-sistem əlaqələrinin ən incə strukturlarından biri" kimi xarakterizə edir [1, s. 32].

Metaforların mənbə sahəsinin seçilməsi çox vaxt məhz bu paradiqmin daxilindəki semantik çalarların müxtəlifliyindən irəli gəlir.

Corc Lakoff və Mark Conson göstərir ki, metafor yalnız bədii dillə bağlı deyil, insan düşüncəsinin struktur mexanizmidir. Konseptual xəritələşmə bir anlayış sahəsinin strukturlarının başqa bir anlayış sahəsinə proyeksiyası ilə yaranır [5, s. 15].

Konseptual xəritələşmə sinonimlərin metaforik genişlənməsində, metafor yaratma potensialında, bir sinonim qrupunun digərinə keçidində mühüm rol oynayır. Məsələn, *"parlamaq"* və *"işıldamaq"* feili həm fiziki işıqlandırma, həm də metaforik xəritələşmə ilə *"uğur qazanmaq", "məşhurlaşmaq"* kimi hədəf sahələrinə keçə bilir. Bu metaforik nümunələr sinonim paradiqmlərindən geniş istifadə edir.

Metafor dilin leksik aktivliyini artırır və yeni söz birləşmələrinin yaranmasını təmin edir. V.Evans və M.Green bu funksiyanı "koqnitiv genişlənmə" kimi şərh edir [3, s. 292].

Sinonimlik konseptual sahədə müxtəlif metaforik yollar yaradır. Eyni konseptual sahəyə aid olan sinonimlər eyni mənbə sahəsinin müxtəlif aspektlərini daşıyır. Bu isə metaforik xəritələşmədə seçimin çoxalmasına səbəb olur. Bu fərqli semantik çalarlar fərqli metafor modelləri yaradır və dil istifadəçisinə daha incə, dəqiq və üslubi baxımdan zəngin seçim imkanı verir.

Hər sinonim yalnız denotativ deyil, həm də konnotativ yük daşıyır. Metafor isə məhz bu konnotativ yükün üzərində qurulur. Nümunəyə nəzər yetirək:

yanmaq – kəskin, dağıdıcı, nəzarətsiz enerji

alovlanmaq – başlanğıc, motivasiya, aktivləşmə

közərmək – sakit, daxili, gizli və davam edən emosional vəziyyət

Bu fərqlər metaforun emosional təsir gücünü artırır, çünki metafor yalnız məna deyil, emosional rəng də köçürür.

Z.Köveçesin nəzəriyyəsinə uyğun olaraq: sinonimlər metaforun üslublaşdırma potensialını artırır. O, bildirir ki, metafor yalnız konseptual struktur deyil, həm də stilistik resursdur.

Sinonimlik bu stilistik resursun genişlənməsinə aşağıdakı şəkildə təsir edir:

a) Eyni metaforun fərqli emosional dərəcələri yaranır:

qəzəbdən yanır – çox güclü emosional vəziyyət,

qəzəbi alovlandı – emosiyanın başlanması,

qəzəbi közərirdi – sakit, daxili gərginlik

b) Eyni metafor modelinin içində fərqli poetik təsir yarana bilir. Bu isə üslublaşdırma potensialı deməkdir.

Sinonimlər metaforun incə semantik seçimlər vasitəsilə dərinləşməsinə imkan verir. Metafor dilin yalnız mənanı köçürmək üçün deyil, həm də emosional ton yaratmaq, üslubi rəng formalaşdırmaq, konseptual nüansı vurğulamaq üçün istifadə olunur. Sinonimlər bu nüansları təmin edir. Bu fərqlər metaforun konkretləşməsi, hədəf sahənin daha incə təsvir edilməsi deməkdir. Bu proses üslublaşdırmanı gücləndirir. Çünki üslublaşdırma potensialı sözün emosional gücü, poetik təsir, konnotativ dərinlik kimi parametrləri ilə ölçülür. Sinonimlərin çoxluğu və semantik müxtəlifliyi həmin parametrlərin variativliyini artırır.

Sinonimlik dilin metaforik sisteminin dərinləşməsinə xidmət edir, çünki sinonimlər müxtəlif semantik, konnotativ və üslubi çalarlar daşıyır. Bu çalarlar eyni konseptual metafor modelinin müxtəlif formalarda təzahür etməsinə imkan verir. Köveçesin qeyd etdiyi kimi, sinonim vahidlər metaforun stilistik və ekspressiv potensialını artırır, çünki konseptual xəritələşmə prosesində mənbə sahəsinin müxtəlif aspektləri sinonimlər vasitəsilə hədəf sahəsinə daha zəngin formalarda köçürülə bilir.

Metaforun intensivliyi sinonim seçiminə bağlıdır. Metafor yalnız semantik deyil, həm də üslubi vahiddir və sinonimlər metaforun gücünü dəyişir.

Məsələn:

- *ürəyi titrədi* (zəif emosional metafor)
- *ürəyi parçalandı* (güclü metafor)
- *ürəyi dondular* (kəskin metafor)

Lyons bu fenomeni "üslubi sinonimlik" adlandırır [6, s. 89-93].

Metaforlar çox vaxt sinonim paradiqmlərinin daxilindəki çalarlara əsaslanır. Məsələn: "*ağıl, zəka, düşüncə, idrak"* bu paradiqmin hər bir vahidi *"işıq"* mənbə sahəsi ilə metaforlaşır:

- *düşüncəsi işıqlandı*
- *zəkası parladı*
- *ağlı açıldı*

V.Evans bunu "koqnitiv rezonans" adlandırır [3, s. 254].

Mənbə və hədəf sahələrinin uyğunluğu sinonimlər üzərindən qurulur. Metaforun təsir gücü seçilmiş sinonimin semantik çalarından asılıdır. Məsələn, "*soyuq"* sözü duyğu metaforlarında *soyuq baxış*, *soyuq münasibət* aşağıdakı kimi işlənsə də, *donuq, buz kimi* sinonimləri metaforu daha kəskin edir [2, s. 214].

Sinonimlik metaforun çoxmənalılığını artırır. Eyni mənbə sahəsi fərqli sinonimlərlə birləşərək müxtəlif metafor yaradır:

- *daş ürək*
- *buz ürək*
- *metal ürək*

Bu sinonim dəyişkənliyi metaforun semantik çoxqatlılığını qurur. Sinonimlər sadəcə eynimənalı sözlər toplusu deyil, leksik sistemin təşkilində funksional rol oynayan paradiqm təşkil edirlər. Paradiqmin özəyində dominant söz durur.

Paradiqm daxilindəki digər sözlər dominant sözlə ya tam bərabərlik, ya da çalar fərqlilikləri ilə fərqlənir. *Nümunə: gözəl (dominant, neytral) – cazibədar (emosional-ekspressiv çalar) - qəşəng (üslubi çalar).*

Sinonim paradiqm hər bir üzvün fərqli kontekstual, üslubi və assosiativ potensialına malik olması səbəbindən dilin zənginlik mənbəyi sayılır. Məhz bu fərqlilik, metaforik transformasiya üçün ilkin şərt rolunu oynayır. Sinonim paradiqm

daxilində sözlər mənadan çox, üslubi dəyərinə görə fərqlənirlər. Metafor yaranmasında əsas rol oynayan amil, neytral mənadan uzaqlaşaraq ekspressiv və ya arxaik bir sinonimin gözlənilməz kontekstdə işlədilməsidir.

Sinonimlik və metaforik transformasiya arasında əlaqə dilin leksik-semantik sisteminin dərin qatlarına söykənir. Sinonim paradiqm yalnız eyni denotativ məzmunu paylaşan sözlərin qruplaşdırılması deyil, həm də dilin metaforik potensialını formalaşdıran semantik və üslubi resurslar sistemidir. Bu baxımdan sinonim paradiqm metaforik transformasiyanın baş verməsində mühüm vasitəçi mexanizm rolunu oynayır.

Sinonimlər denotativ mənada eynilik təşkil etsələr də, onların üslubi, ekspressiv və konnotativ çalarları fərqlənir. Məhz bu konnotativ fərqlər dilin metafor yaratma prosesində əsas determinativ amillərdən biri kimi çıxış edir. Bu mənada sinonimlər metaforik transfer üçün yalnız alternativ leksik vahidlər deyil, fərqli emosional və koqnitiv çalarlı semantik vasitələrdir. Eyni konseptual metafor çərçivəsində müxtəlif sinonim vahidlərin istifadəsi metaforik obrazın gücünü və təsirini dəyişir.

Metaforik transformasiyanın tədqiqatında sinonim paradiqm tez-tez "semantik hovuz" kimi təsvir edilir. Bu metafor təsadüfi deyil, çünki sinonimlər müəllifə eyni konseptual sahəni müxtəlif istiqamətlərdən istifadəyə imkan verir. Paradiqmin mərkəzi üzvü daha neytral və ümumi məna daşıdığı halda, periferik üzvlər daha yüksək emosional yükə, üslubi fərdiliklərə və təsviri imkanlara malik olur.

Beləliklə, müəllif metaforik obraz yaratmaq üçün dominant vahidi deyil, məhz periferik sinonimi seçdikdə, həmin sözün daşıdığı xüsusi konnotativ yük metaforun bədii-estetik gücünü artırır. Bu proses nəticəsində metaforik model eyni qalır, lakin təsvirin intensivliyi və ekspressivliyi dəyişir.

Koqnitiv dilçilikdə metafor bir konseptual sahənin digər sahəyə proyeksiyası kimi izah olunur. Bu proyeksiya zamanı seçilən leksik vasitə, yəni konkret metaforik ifadə konseptual modelin yalnız texniki realizasiyası deyil, həm də onun emosional-psixoloji çalarlarını müəyyənləşdirən amildir. Məsələn, *"mübahisə – müharibədir"* konseptual metaforası çərçivəsində istifadə olunan sinonimlər *("vurmaq", "sındırmaq", "bombalamaq", "zərbə endirmək", "hücum etmək")* eyni konseptual xəritəyə əsaslanır, lakin hədəf sahədə yaratdığı emosional təsir və stilistik rəng tamamilə fərqlidir. Beləliklə, sinonim seçimi yalnız dilin bəzək elementi deyil, konseptual xəritənin hansı aspektinin aktuallaşdırılmasını müəyyən edən koqnitiv seçimdir.

Elmi yenilik. Tədqiqatda sinonimlik və metafor arasındakı əlaqə koqnitiv dilçilik baxımından sistemli şəkildə araşdırılmış, sinonim paradiqmlərin metaforik transformasiyanın formalaşmasında əsas semantik və üslubi baza rolunu oynadığı müəyyənləşdirilmişdir. Metaforun emosional intensivliyinin və stilistik təsir gücünün sinonim seçimi ilə birbaşa bağlı olduğu konkret dil faktları əsasında əsaslandırılmışdır. Araşdırma nəticəsində sinonimlərin yalnız leksik alternativ deyil, konseptual xəritələşmə prosesində aktiv koqnitiv mexanizm kimi çıxış etdiyi göstərilmişdir. Həmçinin metaforun üslublaşdırma potensialının sinonim vahidlərin konnotativ və ekspressiv çalarları hesabına genişləndiyi elmi cəhətdən sübuta yetirilmişdir.

Araşdırmanın analitik təhlili aşağıdakı **nəticələri** ortaya qoyur:

1. Sinonim paradiqmləri metaforların yaranması üçün mühüm semantik baza yaradır.

2. Sinonim vahidlər metaforların stilistik, semantik və emosional çalarlarını müəyyən edir.

3. Müasir koqnitiv dilçilik sinonimlik-metafor əlaqəsini beynin konseptual xəritələşmə mexanizmləri ilə izah edir.

4. Sinonimlik metaforların çoxqatlı semantikasını, üslubi gücünü və ekspressivliyini artırır.

Bu əlaqə dil sisteminin kreativliyini və inkişaf mexanizmini açıqlayan vacib tədqiqat sahəsidir.

Ədəbiyyat:

1. Apresjan, J. D. (1992). Lexical semantics: A handbook. Karoma Publishers.
2. Cruse, D. A. (2004). Meaning in language: An introduction to semantics and pragmatics. Oxford University Press.
3. Evans, V., & Green, M. (2006). Cognitive linguistics: An introduction. Routledge.
4. Kövecses, Z. (2010). Metaphor: A practical introduction. New York: Oxford University Press.
5. Lakoff, G., & Johnson, M. (1980). Metaphors we live by. University of Chicago Press.
6. Lyons, J. (1995). Linguistic semantics: An introduction. Cambridge University Press.

Latifa Shirzadova

Summary

THE ROLE OF SYNONYM PARADIGMS IN THE FORMATION OF METAPHORS

The present article explores the function of synonym paradigms (SPs) as a source of semantic and stylistic potential in the formation of original metaphors, focusing on materials from contemporary Azerbaijani prose. The research employs cognitive-semantic and contextual-stylistic analysis to investigate the underlying mechanisms. The study confirms that synonymy is not merely a lexical repetition but a structured paradigm where peripheral members possess crucial stylistic and expressive nuances. It is primarily these peripheral synonyms, rather than the neutral dominant word, that are instrumental in generating fresh metaphorical images. By utilizing a synonym with higher expressive load, the author successfully projects an abstract concept onto a concrete, often physical, conceptual domain.

Латифа Ширзадова

Резюме

РОЛЬ СИНОНИМИЧЕСКИХ ПАРАДИГМ В ОБРАЗОВАНИИ МЕТАФОР

Данная статья посвящена исследованию роли синонимических парадигм как источника семантического и стилистического потенциала в процессе формирования оригинальных метафор на материале современной азербайджанской прозы. В исследовании применены когнитивно-семантический и контекстуально-стилистический анализ для выявления ключевых механизмов. Исследование подтверждает, что синонимия представляет собой не просто набор равнозначных слов, а структурированную парадигму, в которой периферийные члены обладают решающими стилистическими и экспрессивными оттенками. Именно эти периферийные синонимы, а не нейтральный доминант, играют главную роль в генерации свежих метафорических образов. Используя синоним с более высокой экспрессивной нагрузкой, автор успешно проецирует абстрактное понятие на конкретную, часто физическую, концептуальную область.

Rəyçi: dos. İ.F.Şirinova-Dadaşova

Mehriban Abdullayeva
Bakı Slavyan Universiteti

AZƏRBAYCAN VƏ RUS DİLLƏRİNDƏ AZADLIQ KONSEPSİYASININ TRANSFORMASİYASI

Açar sözlər: *azadlıq, transformasiya, konsept, semantika, dil, mədəniyyət, Azərbaycan dili, rus dili*

Keywords: *freedom, transformation, concept, semantics, language, culture, Azerbaijani language, Russian language*

Ключевые слова: *свобода, трансформация, концепт, семантика, язык, культура, азербайджанский язык, русский язык*

Giriş. İnsan cəmiyyəti tarix boyu bir çox fundamental fəlsəfi və ictimai anlayışlar ətrafında formalaşmış, bu anlayışlar həm fərdlərin, həm də xalqların taleyinə yön verən ideoloji çərçivələri müəyyən etmişdir. Bu kimi anlayışlardan biri də "azadlıq" konsepsiyasıdır. Azadlıq təkcə hüquqi və siyasi müstəvi ilə məhdudlaşmayan, həm də mədəniyyət, dil və düşüncə sistemlərinin dərin qatlarına nüfuz etmiş çoxşaxəli bir fenomen kimi çıxış edir. Müxtəlif dillərdə və mədəni sistemlərdə azadlıq anlayışının mənalandırılması, ifadə formaları və semantik çalarları fərqli olmaqla yanaşı, tarixi və ideoloji şəraitdən də mühüm şəkildə təsirlənmişdir.

Azərbaycan və rus dilləri arasında azadlıq konsepsiyasının ifadəsindəki fərqliliklər və oxşarlıqlar həm dilçilik baxımından, həm də mədəniyyətlərarası münasibətlər kontekstində maraqlı araşdırma mövzusu kimi çıxış edir. Bu iki dilin daşıyıcılarının tarixi qarşılıqlı təsiri, eyni imperiya və daha sonra sovet ideoloji məkanında formalaşmaları, azadlıq kimi konseptual kateqoriyanın da müxtəlif zamanlarda fərqli semantik çalarlar qazanmasına səbəb olmuşdur. Məsələn, Azərbaycan dilində "azadlıq" sözü əsasən milli və şəxsi azadlıq, müstəqillik kontekstində işlədilirsə, rus dilindəki "свобода" termini zaman-zaman daha çox kollektiv rifah və dövlət ideologiyasına tabe olan bir məna çalarına malik olmuşdur.

Azadlıq anlayışının transformasiyası həm leksik səviyyədə, həm də konseptual-fəlsəfi müstəvidə baş verir. Bu dəyişikliklər dilin zamanla adaptasiya olunması, yeni ictimai-siyasi reallıqlara cavab verməsi və qlobal dəyərlərin lokal dillərdə ifadə olunması ilə sıx bağlıdır. Məsələn, Sovet dövründə "azadlıq" və "свобода" anlayışları daha çox ideallaşdırılmış, sosialist ideologiyanın çərçivəsində müəyyənləşdirilmiş məna yükünə malik olmuşdur. Lakin XX əsrin sonlarından başlayaraq, müstəqil Azərbaycanın formalaşması və Rusiyada siyasi sistemin dəyişməsi bu anlayışların məzmununda ciddi transformasiyalara səbəb olmuşdur. Bu dəyişikliklər öz əksini yalnız siyasi nitq və hüquqi sənədlərdə deyil, həm də gündəlik dil, ədəbiyyat, publisistika və kütləvi informasiya vasitələrinin dilində tapmışdır.

1. Azadlıq anlayışının tarixi və fəlsəfi əsasları

Azadlıq insanın və cəmiyyətin varoluş təməlini təşkil edən əsas anlayışlardan biridir. Tarix boyu bu anlayışın fəlsəfi, siyasi və sosial interpretasiyası müxtəlif sivilizasiyalar və mədəniyyətlərdə fərqli formada inkişaf etmişdir. Azadlığın nə

olduğu, onun sərhədlərinin necə müəyyənləşdirildiyi və azadlığın cəmiyyət üçün dəyər olub-olmaması haqqında mübahisələr antik dövrlərdən müasir dövrə qədər aktual olmuşdur.

Azadlıq anlayışı yalnız hüquqi və siyasi status deyil, eyni zamanda dərin ideoloji, fəlsəfi və psixoloji qatlara malik bir kateqoriyadır. Onun tarixi inkişafı konkret zaman və məkanla bağlı olmaqla yanaşı, həmin dövrün dominant mədəni və siyasi ideologiyalarından da təsirlənmişdir.

1.1. Azərbaycan kontekstində azadlıq anlayışının inkişafı

Azərbaycan mədəniyyətində azadlıq anlayışının formalaşması və inkişafı dərin tarixi köklərə malikdir. Qədim türk dünyagörüşündə və sufizm fəlsəfəsində "azad olmaq" anlayışı daha çox mənəvi və fərdi qurtuluşla assosiasiya olunurdu. Bu dövrlərdə azadlıq insanın iç dünyasında öz nəfsindən, maddi ehtiraslardan və dünya bağlılıqlarından xilas olması kimi başa düşülürdü. Orta əsr Azərbaycan ədəbiyyatında, xüsusilə Nizami Gəncəvi və Füzuli kimi klassiklərin əsərlərində azadlıq mənəvi və mənsubiyyətlə bağlı məqamlarda işlədilirdi.

Ərəb mənşəli "azad" və "azadlıq" sözləri isə daha sonrakı dövrlərdə Azərbaycan dilinə daxil olmuşdur. Bu anlayışın ictimai və siyasi çalarlara malik məzmunu XIX əsrdə, xüsusilə çar Rusiyasının tərkibində yaşayan Azərbaycan ziyalılarının maarifçilik fəaliyyəti ilə paralel olaraq genişlənmişdir. M.F. Axundzadə, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov kimi ziyalıların əsərlərində azadlıq artıq yalnız fərdi deyil, milli kontekstdə – xalqın mədəni və siyasi azadlığı çərçivəsində şərh olunurdu.

XX əsrin əvvəllərində yaranan Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrü isə azadlıq anlayışının ən yüksək dərəcədə ideallaşdırıldığı mərhələ kimi dəyərləndirilə bilər. Bu dövrdə azadlıq anlayışı müstəqillik, suverenlik, fərdi hüquq və hüquqi bərabərlik kimi dəyərlərlə vəhdətdə götürülürdü. Lakin 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının yaradılması ilə azadlıq anlayışı rəsmi ideologiyaya uyğun şəkildə yenidən formalaşdırıldı.

Sovet dövründə "azadlıq" konsepsiyası ideoloji məzmun daşıyan, müəyyən formalarda kollektiv rifah, sosial bərabərlik və sinifsiz cəmiyyətin qurulması ilə eyniləşdirilən bir anlayışa çevrildi. Bu dövrdə fərdi azadlıqdan çox, cəmiyyətə və partiyaya sədaqət, sosialist idealların həyata keçirilməsi ön plana çıxarılırdı. Fərdi azadlıq anlayışı isə, əksinə, "burjua ideologiyası" kimi qələmə verilirdi.

1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsi ilə azadlıq anlayışı özünün klassik və universal anlamına doğru dönüş etdi. Bu mərhələdən etibarən azadlıq daha çox hüquqi və siyasi müstəvidə fərdi hüquq və azadlıqlar, söz və mətbuat azadlığı, azad bazar iqtisadiyyatı və demokratik cəmiyyətin əsas elementi kimi təqdim olunmağa başladı.

1.2. Rus kontekstində azadlıq anlayışının fəlsəfi təkamülü

Rus mədəniyyətində və fəlsəfi fikrində "свобода" anlayışı çoxəsrlik tarixi təkamülə malikdir və slavyan dünyagörüşünün əsas fəlsəfi kateqoriyalarından biri kimi çıxış edir. Əvvəlki dövrlərdə bu anlayış daha çox "azad insan", "boyunduruqdan azad olmaq" mənasında işlədilirdi. Feodal dövrdə "свободный человек" – yəni torpaq sahibinə və ya knyaza tabe olmayan kəndli mənasında istifadə olunurdu.

Rus ədəbiyyatında azadlıq anlayışı geniş yer tutur. XIX əsr klassikləri – Dostoyevski, Tolstoy, Çernışevski və Belinski kimi yazıçılar və filosoflar azadlıq

ideyasını fərqli müstəvilərdə şərh etmişlər. Məsələn, Fyodor Dostoyevski "Böyük inkvizitor" mifində insanın azadlıqdan qorxması, onu məsuliyyətdən qaçış vasitəsi kimi görməsi ideyasını ön plana çəkirdi. Onun fikrincə, azadlıq insana seçim imkanı verir, lakin bu seçim insanın mənəvi yükünü artırır və o, çox zaman bu yükü daşımaq əvəzinə itaəti və təhlükəsizliyi seçir. [1]

Nikolay Berdyayev kimi rus din fəlsəfəçiləri isə azadlığı insanın tanrı ilə münasibətindəki əsas şərt kimi dəyərləndirmişdir. Berdyayevə görə, azadlıq – insanın Allahla yaradıcı əlaqə qurma qabiliyyətidir. Bu, həm mənəvi, həm də metafizik anlamda azadlıqdır və yalnız xarici maneələrin yoxluğu ilə deyil, daxili ruhani azadlıqla mümkün olur.

Sovet ideologiyası dövründə isə "свобода" anlayışı ciddi şəkildə ideoloji çərçivəyə salındı. Sovet konstitusiyalarında xalqın "azadlıq" içində yaşadığı qeyd olunsa da, bu azadlıq "sosialist sistemin sərhədləri daxilində" mümkün hesab olunurdu. Bu dövrdə fərdi hüquq və azadlıqlar ciddi şəkildə məhdudlaşdırılır, "azadlıq" isə daha çox dövlətin himayəsində olan vətəndaşın kollektiv rifahı ilə şərtləndirilirdi.

1991-ci ildən sonra Rusiyada baş verən sosial-siyasi dəyişikliklər azadlıq anlayışının yeni semantik məzmun qazanmasına səbəb oldu. Liberal iqtisadiyyat, siyasi plüralizm, fərdi hüquqlar və bazar münasibətləri "azadlıq" anlayışının yeni kontekstlərini yaratdı. Lakin bu keçid dövrü həm də azadlığın xaos və qeyri-sabitliklə eyniləşdirilməsi meyllərini artırdı. Bu səbəbdən, müasir Rusiya cəmiyyətində azadlıq anlayışı hələ də diskursiv mübarizə predmetidir – bir tərəfdə qərb tipli liberal azadlıq anlayışı, digər tərəfdə isə "milli dəyərlər" adı altında ictimai sabitlik və dövlət nəzarəti ideyası dayanır.

2. Leksik və semantik transformasiya

Dildəki konseptual anlayışlar zaman keçdikcə müxtəlif sosial, mədəni və ideoloji təsirlər altında leksik və semantik dəyişikliklərə məruz qalır. Bu baxımdan "azadlıq" (Azərbaycan dilində) və "свобода" (rus dilində) anlayışlarının da zamanla semantik spektri genişlənmiş, bəzən isə daralmışdır. Transformasiya prosesi təkcə sözün leksik sistemdə mövqeyinin dəyişməsi deyil, həm də onun ictimai şüurdakı mənasının, emosional dəyərinin və diskursiv funksiyalarının dəyişməsidir.

2.1. Azərbaycan dilində "azadlıq" sözünün leksik və semantik inkişafı

Azərbaycan dilində "azad" və "azadlıq" sözləri ərəb mənşəlidir və ilkin mərhələdə daha çox hüquqi və fərdi statusun ifadəsi kimi istifadə olunmuşdur. "Azad adam", "azad qadın", "azad torpaq" kimi ifadələr şəxsin hər hansı boyunduruqdan, məhdudiyyətdən azad olmasını bildirmişdir. Lakin bu anlayış XX əsrdə, xüsusilə sovet dövründə öz semantik yükünü dəyişmiş, ideoloji kontekstə uyğun olaraq spesifik mənalar qazanmışdır.

Sovet ideologiyasında "azadlıq" termini daha çox "azad əmək", "azad vətəndaş", "azad respublika" kimi ifadələrdə işlədilir və bunlar rəsmi, formal dildə müsbət emosional çalarda təqdim olunurdu. Əslində isə bu azadlıq reallıqda ciddi məhdudiyyətlər içində mövcud idi. Məsələn, "söz azadlığı" formal olaraq mövcud olsa da, praktiki olaraq senzura sisteminin nəzarətində idi.

Müstəqillikdən sonra (1991-ci ildən etibarən) "azadlıq" anlayışı Azərbaycan dilində yeni semantik çalarlar qazandı. Xüsusilə insan hüquqları, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı kimi sahələrdə "azadlıq" konsepti çoxşaxəli formada inkişaf etdi. Aşağıdakı yeni ifadə və terminlər leksik sistemə daxil oldu:

Söz azadlığı
Vicdan azadlığı
Seçki azadlığı
Azad bazar
Azad mətbuat
Azad vətəndaş cəmiyyəti

Bu ifadələrdə "azadlıq" artıq yalnız fiziki və ya hüquqi azadlıq deyil, həm də düşüncə, ifadə, iqtisadi fəaliyyət və siyasi iştirak azadlığı kontekstində işlədilməyə başladı. Müasir Azərbaycan mediasında, hüquqi sənədlərdə və akademik ədəbiyyatda "azadlıq" anlayışı Qərb dəyərləri ilə assosiasiya olunaraq liberal semantik çalarlarla yüklənmişdir. [3]

Bununla yanaşı, bəzi hallarda bu anlayışın "nisbi azadlıq", "şərti azadlıq", "idarə olunan azadlıq" kimi ifadələrlə birgə istifadəsi də müşahidə olunur. Bu isə göstərir ki, konseptin semantik sahəsi hələ də dinamikdir və siyasi kontekstdən asılı olaraq dəyişə bilir.

2.2. Rus dilində "свобода" anlayışının semantik təkamülü

Rus dilində "свобода" anlayışı qədim slavyan köklərinə malikdir və ilkin mərhələdə daha çox fiziki müstəqillik, hüquqi azadlıq mənalarını əhatə edirdi. Orta əsrlərdə "свободный человек" ifadəsi təhkimli kəndlidən fərqli olaraq hüquqi baxımdan sərbəst insanı bildirirdi. Bu anlayış rus xalq mədəniyyətində və ədəbiyyatında xüsusi yer tutmuşdur və müstəqillik, fərdi iradə ilə sıx bağlı olmuşdur.

XIX əsr rus ədəbiyyatında "свобода" konsepti romantik və ekzistensial məna daşımağa başlayır. Puşkinin "Свободы сеятель пустынный" (Azadlıq toxumunu səpən səhrada) misrası rus insanının azadlıq arzularının poetik simvoludur. Lakin bu azadlıq daha çox mənəvi, şəxsi azadlıq kimi təqdim olunur. Tolstoyda isə azadlıq mənəvi kamilliklə, dini inamla sıx bağlıdır.

Sovet dövründə bu anlayışın semantik spektri dəyişdi. "Сталинская конституция"da (1936) xalqın azad yaşadığı iddia olunurdu. Lakin bu "azadlıq" konsepti faktiki olaraq dövlətin və partiyanın nəzarəti altında mövcud olan bir "şərti azadlıq" idi. "Свобода" burada fərdi yox, kollektiv anlayış olaraq çıxış edirdi – "xalqın azadlığı", "sosialist vətənin azadlığı" kimi ifadələr ideoloji diskursun əsas elementləri oldu. [7]

1980-1990-cı illərdə SSRİ-nin dağılması ilə "свобода" anlayışı fundamental transformasiyaya uğradı. Yeni Rusiya cəmiyyətində azadlıq həm siyasi (söz, mətbuat, seçki), həm iqtisadi (azad bazar), həm də sosial sahədə (fərdi inkişaf) qlobal mənalar qazandı. Bu dövrdə "свобода" ilə bağlı aşağıdakı ifadələr geniş yayılmışdı:

Свобода слова
Свобода совести
Свободная экономика
Свободные выборы
Личная свобода

Lakin bu dövrdə yaşanan sosial və iqtisadi xaos səbəbindən "свобода" anlayışı bəzən "başsızlıq", "qanunsuzluq" və "anarxiya" ilə də eyniləşdirilirdi. Bu isə azadlıq ideyasına cəmiyyətdə bəzi skeptik yanaşmaların yaranmasına səbəb oldu.

XXI əsrdə Rusiya cəmiyyətində "свобода" anlayışı iki əsas istiqamətdə transformasiya olunur: bir tərəfdən liberal-demokratik dəyərlərlə assosiasiya olunur, digər tərəfdən isə dövlətçilik, sabitlik və "milli dəyərlər" fonunda məhdudlaş-

dırılmış azadlıq formasında təqdim olunur. Məsələn, dövlət mediasında "управляемая свобода" (idarə olunan azadlıq) və ya "ответственная свобода" (məsuliyyətli azadlıq) kimi ifadələr işlədilir ki, bu da azadlığın klassik mənasından uzaqlaşma tendensiyasının göstəricisidir. [8]

3. Mədəniyyət və ideologiyanın təsiri

Azadlıq anlayışı yalnız dilin semantik strukturu ilə məhdudlaşmır; o, həm də cəmiyyətin mədəni kodları, ideoloji sistemləri, tarixi təcrübələri və kollektiv yaddaşı ilə sıx bağlıdır. İctimai şüurda formalaşan azadlıq obrazı konkret cəmiyyətin dünyagörüşü, tarixə yanaşma tərzi və dominant ideoloji sistemlərin təsiri ilə müəyyən olunur. Bu səbəbdən, Azərbaycan və rus cəmiyyətlərində azadlıq anlayışının qavranması və təqdimat formaları fərqli mədəni və ideoloji çərçivələrdə inkişaf etmişdir.

3.1. Azərbaycan mədəniyyətində azadlığın mədəni və ideoloji təqdimatı

Azərbaycan xalqının azadlıqla bağlı təsəvvürləri tarixi olaraq həm milli-azadlıq hərəkatları, həm də mənəvi-mistik dünyagörüş üzərində formalaşmışdır. Qəhrəmanlıq dastanları (məsələn, "Koroğlu", "Dədə Qorqud") azadlıq ideyasını simvolizə edən əsas mədəni mənbələrdir. Bu əsərlərdə azadlıq yalnız fiziki və siyasi anlamda deyil, həm də ləyaqət, namus və haqq uğrunda mübarizə kontekstində təqdim olunur.

Sovet dövründə Azərbaycan ədəbi-mədəni mühitində azadlıq anlayışı ciddi ideoloji nəzarət altında təqdim olunurdu. Şeirlərdə və nəsr əsərlərində "azadlıq" anlayışı "sosialist vətən", "böyük xalq", "sosial ədalət" kimi ifadələrlə əvəz olunurdu. Bu dövrdə yazıçılar və şairlər azadlıq mövzusunu yalnız dolayı yollarla, metaforik formada işlədə bilərdi. Bunun tipik nümunəsi Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasında azadlıq ideyasının simvolik şəkildə təqdim olunmasıdır. [6]

1990-cı illərin əvvəllərində milli azadlıq hərəkatının güclənməsi ilə bu konsepsiya mədəniyyətin mərkəzinə keçdi. Bu dövrdə yazılan əsərlərdə, çəkilən filmlərdə və mətbuat materiallarında azadlıq artıq müstəqillik, milli kimlik, dil və suverenlik kimi dəyərlərlə eyniləşdirilirdi. Mədəniyyət bir növ "azadlıq diskursunun" daşıyıcısına çevrilmişdi.

Müasir dövrdə isə azadlıq mədəni kontekstdə həm ənənəvi dəyərlərlə, həm də qloballaşmanın təsiri ilə formalaşan yeni sosial mövqelərlə qarşılaşır. Bir tərəfdən, azadlıq fərdin öz fikrini açıq ifadə etməsi, seçimini sərbəst etməsi ilə əlaqələndirilir, digər tərəfdən isə bu azadlığın "əxlaq", "ailə dəyərləri" və "milli-mənəvi sərhədlər" çərçivəsində məhdudlaşdırılması barədə ictimai müzakirələr aparılır.

Bəzi ictimai təbəqələrdə azadlıq Qərb təsirinin bir elementi kimi qəbul edilir və milli-mədəni dəyərlərin təhlükəsi kimi təqdim olunur. Bu, azadlıq konsepsiyasının ideoloji səviyyədə yenidən mənalandırılması tendensiyasının bir hissəsidir və bu diskurs mədəniyyət vasitəsilə – televiziya, kino, ədəbiyyat və sosial media vasitəsilə ictimai şüura təsir göstərir.

3.2. Rus mədəniyyətində azadlıq anlayışının ideoloji və mədəni təqdimatı

Rus mədəniyyətində azadlıq anlayışı həmişə iki qarşı-qarşıya duran mövqenin toqquşması şəklində təqdim olunmuşdur: fərdi azadlıq və dövlət hakimiyyəti. Rus ədəbiyyatında və fəlsəfi fikrində bu qarşıdurma müxtəlif dövrlərdə fərqli formalarda ifadə olunmuşdur. Dostoyevskidən Tolstoya, Berdyayevdən Soljenitsına qədər azadlıq ya mənəvi məsuliyyətlə, ya da insanın tənhalığı və xaosu ilə assosiasiya edilmişdir.

XIX əsrin ortalarında rus ziyalıları arasında "zapadniklər" (Qərbpərəstlər) və "slavyanofilər" arasında gedən ideoloji mübahisələr azadlıq anlayışının iki fərqli interpretasiyasını ortaya qoymuşdur. Zapadniklər azadlığı Qərb cəmiyyətlərindəki kimi hüquqi və siyasi sərbəstlik kimi başa düşür və Rusiyanın bu dəyərlərə yönəlməsini təklif edirdilər. Slavyanofilər isə azadlığı "xüsusi rus ruhaniyyəti" və "kollektiv kimlik" çərçivəsində dəyərləndirir, fərdi azadlığı "egoist Qərb düşüncəsi" ilə assosiasiya edirdilər. [2]

Sovet dövründə rəsmi ideologiya azadlıq anlayışını tamamilə kollektiv maraqlar prizmasından təqdim etdi. Fərdi hüquqlar dövlətin və partiyanın maraqlarına tabe tutuldu. Mədəniyyət vasitəsilə bu model ictimai şüura yeridilirdi: sovet filmləri, ədəbiyyatı və sənət əsərlərində azadlıq yalnız əmək, mübarizə və vətənə xidmət kontekstində mövcud olurdu. Məsələn, azadlıq obrazı daha çox "işçi sinfinin burjua istismarından azad olması" kimi təqdim edilirdi.

1990-cı illərdən etibarən Rusiya mədəniyyətində azadlıq anlayışı yeni, çox zaman radikal formalarda ortaya çıxdı. Post-sovet dövrünün ilk illərində mətbuatda, filmlərdə və ədəbiyyatda azadlıq eyni zamanda həm ümid, həm də qorxu obyekti kimi təqdim olunurdu. "Azadlıq" bir tərəfdən istismar sistemindən qurtuluş, digər tərəfdən isə "milli dəyərlərin dağılması" kimi görülürdü.

Putin dövründə isə dövlət mədəniyyəti azadlıq anlayışını "nizam-intizam", "sabitlik", "məsuliyyət" və "ənənəvi dəyərlərlə uyğunluq" çərçivəsində yenidən formalaşdırmağa başladı. Rəsmi diskursda azadlıq tez-tez "Rusiya üçün unikal sivilizasiya yolu" ilə uyğunlaşdırılır və "xarici modellər" əsasında deyil, "milli maraqlara" əsaslanan bir dəyər kimi təqdim olunur. Dövlət tərəfindən dəstəklənən filmlər və ədəbiyyat bu mövzunu ideoloji kontekstdə gücləndirir. [9]

4. Müasir dil nümunələri ilə müqayisə

Konseptual anlayışların – xüsusilə azadlıq kimi mürəkkəb kateqoriyaların – ən aydın ifadə formalarından biri onların müasir dildə necə istifadə olunmasıdır. Müasir Azərbaycan və rus dillərində "azadlıq" və "свобода" sözlərinin işlənmə tezliyi, konteksti və sintaktik-struktur quruluşu bu anlayışın ictimai şüurdakı mövqeyini və semantik spektrini əks etdirir. Bu bölmədə müxtəlif sahələrdən – hüquq, media, siyasət, sosial media və gündəlik danışıq dilindən nümunələr üzərindən müqayisəli təhlil aparılacaq.

4.1. Terminoloji və ictimai-siyasi ifadələrdə müqayisə

Azərbaycan dili və rus dili arasında azadlıqla bağlı istifadə olunan terminlərin bir çoxu semantik baxımdan oxşar olsa da, ifadə forması və istifadə konteksti fərqli ola bilər. Aşağıdakı cədvəldə bəzi paralel ifadələr və onların fərqli mənalandırılması göstərilmişdir:

Söz azadlığı Свобода слова hər iki dildə əsas insan hüquqlarından biri kimi təqdim olunur, lakin Rusiya mediasında bu anlayış tez-tez "qərb təzyiqi" və "daxili sabitliyi pozan faktor" kimi təqdim olunur.

Vicdan azadlığı свобода совести dini inanclarla bağlıdır; Azərbaycanda tolerantlıqla assosiasiya olunur, Rusiyada isə daha çox pravoslav kilsəsinin dominantlığı ilə əlaqələndirilir.

Azad mətbuat Свободная пресса hər iki dildə mövcuddur, lakin istifadə tezliyi və konteksti fərqlidir. Azərbaycanda daha çox müstəqil media ilə bağlıdır, Rusiyada isə bu termin nadir hallarda dövlət mediası kontekstində istifadə olunur.

Azad bazar свободный рынок iqtisadi kontekstdə istifadə olunur; hər iki dildə bəzən "idarə olunan azadlıq" anlayışı ilə yanaşı işlədilir.

Azad vətəndaş cəmiyyəti свободное гражданское общество Azərbaycanda QHT-lərin və müstəqil təşkilatların fəaliyyəti ilə bağlıdır, Rusiyada isə son illərdə bu termin "xarici təsirli təşkilatlar" kontekstində tənqid olunur.

Bu terminoloji paralellər azadlıq anlayışının həm qlobal dəyərlərlə əlaqəsini, həm də lokal ideoloji sərhədlər içərisində necə dəyişdirildiyini göstərir. [4]

4.2. Kütləvi informasiya vasitələrində və mediada işlənmə nümunələri

Azərbaycan və rus KİV-lərində "azadlıq" və "свобода" sözləri tez-tez istifadə olunsa da, bu sözlərin emosional yüklənməsi və istifadə konteksti fərqli semantik niyyətlər daşıyır.

Azərbaycan mediasında:

"Azadlıq meydanında toplaşan minlərlə insan..."

"Söz və fikir azadlığı demokratik cəmiyyətin əsas sütunudur."

"Azad media dövlət üçün təhdid deyil, tərəfdaşdır."

Bu cümlələrdə "azadlıq" pozitiv konnotasiya daşıyır və əsasən demokratik dəyərlərlə əlaqələndirilir.

Rus mediasında:

"Свобода – это не вседозволенность." (Azadlıq – bu, hər şeyə icazə demək deyil.)

"Под видом свободы Запад разрушает традиционные ценности." (Qərb azadlıq adı altında ənənəvi dəyərləri məhv edir.)

"В России должна быть свобода, но с учетом наших исторических особенностей." (Rusiyada azadlıq olmalıdır, amma bizim tarixi xüsusiyyətlərimiz nəzərə alınmaqla.)

Bu tip ifadələr azadlıq anlayışının şərti, milli spesifikaya bağlı, bəzən isə qərb müdaxiləsi ilə əlaqəli təqdim olunduğunu göstərir. [5]

4.3. Sosial mediada və gündəlik dildə işlənmə nümunələri

Sosial media müasir cəmiyyətlərin emosional və ideoloji reflekslərini əks etdirən güzgü rolunu oynayır. Azərbaycan və rus sosial şəbəkələrində azadlıq anlayışının istifadəsi də maraqlı fərqləri ortaya qoyur.

Azərbaycan sosial mediasında:

"Azadlıq olmadan inkişaf mümkün deyil."

"Fikrimə hörmət istəyirəm – bu mənim azadlığımdır."

"Hər kəsin azad yaşamaq haqqı var, amma başqasının haqqına müdaxilə etmədən."

Rus sosial mediasında:

"Свобода – это ответственность, а не хаос."

"Не всякая свобода – во благо."

"Свобода заканчивается там, где начинается угроза стабильности."

Bu ifadələr göstərir ki, rusdilli istifadəçilər arasında azadlıq daha çox məsuliyyət, sabitlik və ictimai təhlükəsizliklə əlaqələndirilir, Azərbaycanda isə daha çox şəxsi hüquqlar və öz fikrini ifadə etmək azadlığı kontekstində işlədilir. [10]

4.4. Leqsikal çevikliyə dair müşahidələr

Azərbaycan dilində "azad" və "azadlıq" sözləri çox zaman müsbət konnotasiya daşıyır və müxtəlif kontekstlərdə çevik şəkildə istifadə olunur:

Azad insan
Azad seçim
Azad düşüncə
Azad qadın
Azad təhsil

Rus dilində isə "свобода" sözü bəzi hallarda daha neytral və ya mübahisəli çalarda təqdim olunur:

Личная свобода (fərdi azadlıq)
Свобода действий (hərəkət azadlığı)
Свобода от чего? (nədən azad?)
Свобода – миф? (azadlıq – mif?)

Bu nümunələr göstərir ki, rus dilində azadlıq anlayışı bəzən daha çox sual altına alınır, daha çox fəlsəfi və ideoloji diskurslarla əlaqələndirilir, Azərbaycan dilində isə bu anlayış daha çox normativ və universal dəyər kimi qəbul olunur.

Nəticə. Azərbaycan və rus dillərində azadlıq konsepsiyasının transformasiyası, həm tarixi, həm ideoloji, həm də mədəni faktorların təsiri ilə formalaşan çoxşaxəli bir prosesdir. Bu məqalə göstərdi ki, azadlıq (Azərbaycan dilində) və свобода (rus dilində) anlayışları leksik baxımdan bənzər olsa da, semantik yüklənmələri, ictimai qəbul formaları və diskursiv istifadə sahələri fərqlidir. Azərbaycan dilində azadlıq anlayışı daha çox milli mübarizə, hüquqi bərabərlik və mədəni özünütəsdiq kontekstində inkişaf edib. Rus dilində isə azadlıq anlayışı fərdi məsuliyyət, dövlət nəzarəti və ideoloji sabitlik kontekstində formalaşıb. Hər iki dildə sovet dövründə azadlıq anlayışı ideoloji çərçivəyə salınmış və fərdi hüquqlardan çox, kollektiv və sinfi azadlıqla assosiasiya olunmuşdur. Bu, anlayışın semantik strukturunda uzunmüddətli iz buraxmışdır. Azərbaycan mədəniyyətində azadlıq anlayışı əfsanə, dastan və milli kimliklə bağlı ikən, rus mədəniyyətində bu anlayış ədəbi-fəlsəfi, ekzistensial və dini kontekstlərdə təqdim olunmuşdur. Azərbaycan dilində "azadlıq" anlayışı daha çox pozitiv və normativ dəyər kimi qəbul olunur. Rus dilində isə "свобода" anlayışı tez-tez şərtləndirilmiş, diskutabel və bəzən təhlükəli bir anlayış kimi təqdim olunur. Azərbaycan sosial mediasında "azadlıq" fərdi hüquqlar və demokratik dəyərlərlə əlaqələndirilir. Rus sosial mediada isə bu anlayış daha çox məsuliyyət, sabitlik, və ənənəvi dəyərlərlə uyğunluq kontekstində ifadə olunur.

Ədəbiyyat:

1. Axundov, M. (1993). Azərbaycan fəlsəfəsi azadlığı. Bakı: Elm.
2. Bakhtin, M. (1975). Voprosy literatury i estetiki. Moskva: Khudozhestvennaya Literatura.
3. Berdyaev, N. (1990). Filosofiya svobody. Moskva: Respublika.
4. Solovyov, V. (1897). Opravdanie dobra. Sankt-Peterburg.
5. UNESCO. (2005). Freedom of Expression and Media Development. Paris: UNESCO.
6. Vahabzadə, B. (1980). Gülüstan. Bakı: Yazıçı.
7. Əlizadə, Ə. (2002). Azadlıq və şəxsiyyətin formalaşması. Bakı: Maarif.
8. Əliyeva, L. (2015). Azərbaycan dilində konseptual semantika. Bakı: Təhsil.
9. Saidov, A. (2010). Azərbaycan siyasi leksikonunda azadlıq anlayışı. Bakı Universiteti Jurnalı, 4, 75-82.
10. Azərbaycan Respublikasının Konstitusiyası. (1995). Bakı.

Mehriban Abdullayeva

Summary

TRANSFORMATION OF THE CONCEPT OF FREEDOM IN AZERBAIJANI AND RUSSIAN LANGUAGES

The article examines the semantic and conceptual transformation of the concept of "freedom" in the Azerbaijani and Russian languages. It shows how this concept has changed in historical, social and political contexts, and what lexical and cultural elements it has been enriched with. The place and influence of the concept of freedom in public consciousness in different periods are analyzed comparatively. The changing semantic areas of this concept are determined on the basis of modern language materials.

The aim of this article is to explore the historical development trajectory of the concept of freedom in the Azerbaijani and Russian languages, its lexical and semantic transformations, and the interaction of these changes with culture and ideology. The topic requires a multifaceted approach, relevant from the perspectives of linguistics, philosophy, and political science. Methodologically, the article will employ both diachronic and synchronic approaches, analyzing classical texts as well as contemporary language samples. The object of the study is the lexical-semantic structure of the concept of "freedom/svoboda" in both Azerbaijani and Russian, as well as its use in public discourse.

Furthermore, the findings of the research will provide deeper insights into the relationship between language and thought. Thus, it also reveals how the concept of freedom is ideologically charged and presented in different languages.

Мехрибан Абдуллаева

Резюме

ТРАНСФОРМАЦИЯ КОНЦЕПЦИИ СВОБОДЫ В АЗЕРБАЙДЖАНСКОМ И РУССКОМ ЯЗЫКАХ

В статье рассматривается процесс трансформации концепта «свобода» в азербайджанском и русском языках. Показано, как данный концепт изменялся в различные исторические периоды под влиянием социокультурных и политических факторов. Анализируются лексические, семантические и культурные аспекты понятия свободы, а также его отражение в общественном сознании и языке.

Цель данной статьи – исследовать историческую траекторию развития концепции свободы на азербайджанском и русском языках, её лексические и семантические трансформации, а также взаимосвязь этих изменений с культурой и идеологией. Тема актуальна и требует многопрофильного подхода — как с точки зрения лингвистики, так и философии и политических наук. С методологической точки зрения в статье будут применены диахронный и синхронный подходы, будет проведён анализ как классических текстов, так и современных языковых примеров. Объектом исследования статьи выступает лексико-семантическая структура понятия «азадлыг/свобода» на азербайджанском и русском языках, а также использование этого понятия в общественном дискурсе.

Кроме того, результаты исследования позволяют глубже понять взаимосвязь между языком и мышлением. Таким образом, становится очевидным, как понятие свободы в разных языках преподносится с определённой идеологической нагрузкой.

Rəyçi: prof. Azad Məmmədov

Sofiya Mirzəyeva
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.017

AZƏRBAYCAN DİLÇİLİYİNDƏ FRAZEOLOGİZMLƏRİN TƏDQİQİ

Açar sözlər: *frazeologiya, tədqiqat tarixi, sabit söz birləşmələri, frazeoloji ifadələr, məcazi məna*

Keywords: *phraseology, history of research, stable phrases, phraseological expressions, figurative meaning*

Ключевые слова: *фразеология, история исследования, устойчивые словосочетания, фразеологические выражения, переносное значение*

Giriş. Frazeologiyanın dil haqqında elmin ən yeni bölmələrindən biri olması onunla bağlı mübahisəli məqamların, həlli vacib məsələləri aktuallaşdırır. Bu, birinci növbədə, dildə frazeologiyanın sərhədlərinin dəqiq müəyyənləşdirilməməsi, onun işlənmə imkanlarının və dil qanunauyğunluqlarının üzə çıxarılmaması, həmçinin, ona aid kateqoriyaların müəyyən edilməməsi ilə əlaqədardır. Görkəmli Azərbaycan alimi M.Mirzəliyeva qeyd edir ki, türkoloqlar arasında, hər şeydən əvvəl, frazeologiyanın linqvistik təbiəti, bu və ya digər türk dilində malik olduğu mövqe və xüsusiyyətlərlə bağlı vahid fikir yoxdur. Məqalədə frazeologiyanın maraqlı dil hadisəsi kimi fundamental tədqiqi bir sıra problemlərin ardıcıl və ətraflı şəkildə öyrənilməsi, tarixi-müqayisəli fonda dərindən araşdırılması vəzifəsi qarşıya qoyulur. Söz və idiom, söz birləşməsi, frazeologizm, cümlə və frazeoloji vahid məsələsi, sözügedən problemdən yaranan mübahisələr dilçilikdə hər zaman diqqət mərkəzində olmuşdur. İlk öncə frazeologiya nədir, bu anlayış nəyi ifadə edir, sualına cavab axtaraq.

Frazeologiya yunan mənşəli söz olub, phrasis-ifadə və logos-məlum sözlərinin birləşməsindən yaranmışdır. Bu termin dilçilikdə iki mənada işlənir:

1. Dildə mövcud olan frazeoloji vahidlərin məcmusu;
2. Dilçilik elmində frazeologizmləri öyrənən fənnin adı.

Frazeologiyanın tədqiqat obyektinə birləşmələr, ifadə və ibarələr daxildir. Bunlar da müasir dövr dilçilik ədəbiyyatında müxtəlif adlarla təqdim olunur: frazeologizm, frazeoloji birləşmə, sabit söz birləşmələri, frazem, frazeoloji vahid, frazeoloji ifadələr, idiomlar, frazeoloji qrup, idiomik ifadələr, frazeoloji tərkib və s. Frzeologiya həmin dil vahidlərinin semantikasına və quruluşuna dair məsələləri, onların yaranma yollarını və s. öyrənir.

Azərbaycan dilçiliyində frazeologiya termini müxtəlif mənaları ifadə edir. XIX əsrin görkəmli alimi Mirzə Kazım bəy yaşadığı dövrün ənənəsinə sadiq qalaraq öz əsərində fraza sözünü cümlə termini əvəzində istifadə etmişdir. Dilçi-alim feil haqqında məlumat verərkən qüssə yemək, qəm yemək tipli dil faktlarını tərkibi feillər kimi nəzərdə tutmuşdur. Frazeoloq- alim H.Bayramova görə, müəyyən

bir əsərin yaxud müəyyən bir dil abidəsinin frazeoloji vahidlərindən bəhs etdikdə bu termindən istifadə olunur [1, s. 5]. N.N.Məmmədov qeyd edir ki, frazeologiya müəyyən bir dildə olan sabit söz birləşmələrindən bəhs edən dilçilik terminidir. A.Qurbanova görə isə, dildə olan bütün sabit söz birləşmələrinin, bölünməz ifadə və ibarələrin cəminə frazeologiya deyilir. Dilçilik elmində frazeologiyadan bəhs edən şöbə frazeologiya adlanır [5, s. 6-7].

Qeyd etmək lazımdır ki, dilimizin frazeologiyasının tarixi inkişafını, keçdiyi yolları öyrənmək üçün "Avesta" mətnlərinə, Orxon-Yenisey abidələrinin, "Kitabi Dədə Qorqud" un dilinə, Mahmud Kaşğarinin "Divan"ına, müxtəlif folklor materiallarına, "Oğuznamə" lərə nəzər yetirmək, müqayisə və tutuşdurmalar aparmaq lazımdır.

Ümumiyyətlə, dilçilik ədəbiyyatında frazeologiyaya geniş və dar mənada yanaşılır. Bu baxımdan frazeologiyanın tədqiqat obyektindən bəhs edən müəlliflər iki qrupa bölünür. Alimlərin bir qrupu dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını frazeologiya hesab edirlər. Bu qrupa A.A.Bulaxovski, N.M.Şanski, Q.Dementiyeva, A.İ.Yefimov, A.A.Reformatski, həmçinin, türk dillərinin, eləcə də Azərbaycan dilinin frazeologiyası sahəsində tədqiqatlar aparmış S.Cəfərov, Ə.Dəmirçizadə, S.Murtuzayev, N.Rəhimzadə, M.Hüseynzadə, A.Qurbanov, R.Həsənov, Q.Kazımov, M.Mirzəliyeva, H.Əliyev, M.Adilov kimi dilçi-alimlər daxildir. Bu qrupu təşkil edən dilçilər frazeologiyanı geniş mənada nəzərdə tuturlar. Onlar frazeoloji birləşmələri, həmçinin aforizmləri, atalar sözləri və məsəlləri, ibarələri də frazeologiyaya aid edirlər. Alimlərin əksər hissəsi isə dildəki sabit birləşmələrin hamısını deyil, onların müəyyən hissəsini, yəni komponentləri mənaca və quruluşca parçalanmayan qismini frazeoloji vahid hesab edirlər. Ferdinand de Sössür, N.N.Amosova, Ş.Balli, A.V.Kunin, V.V.Vinoqradov, A.İ.Şmirnitski, M.T.Tağıyev, V.L.Arxangelski, V.P.Jukov, A.M.Babkin, H.B.Bayramov, S.İ.Ojeqov kimi dilçilər bu qrupa daxildir. Onlar frazeologiyanın tədqiqat obyektinə dar mənada yanaşırlar. M.Tağıyev frazeologiya anlayışına dar mənada yanaşanlardan biri kimi müasir frazeologiyada yaranmış vəziyyətlə əlaqədar olaraq həmin anlayışın hədsiz dərəcədə genişləndirildiyini və buraya sözlərin, idiomların, tərkibi terminlərin, atalar sözlərinin, məsəllərin və s. daxil edildiyini qeyd edir. Alimin fikrinə görə, dilçilik elminin sahələrindən biri kimi frazeologiyanın vəzifəsi ancaq dil strukturuna daxil olan söz birləşmələrinin tədqiqi ilə məşğul olmaqdır. Qeyd etmək lazımdır ki, frazeologiya sahəsində aparılan çoxsaylı tədqiqatlar onun dar mənada götürülməsini tamamilə məqsədəuyğun sayır.

Dünya dilçiliyi tarixində frazeologiya termini tanınmış İsveçrə alimi, struktur dilçiliyin banisi Ferdinand de Sössürün adı ilə bağlıdır. Alimin fikrinə görə, elə ifadələr vardır ki, bunlar dildə hazır şəkildə işlənir. Bu ifadələrin daxilindəki fərqli mənalara malik sözləri dəyişmək mümkün olsa da, bu məqbul hesab edilmir. Çünki həmin ifadələrin daşıdığı məna tərəflərinin bütövlükdəki mənasından, eyni zamanda sintaktik quruluşundan asılıdır.

Frazeoloji vahidlərin təsnifi sahəsində sovet dilçilərindən V.V.Vinoqradov əhəmiyyətli işlər görmüşdür. O, rus dilində frazeoloji vahidlərin frazeoloji qovuşma, frazeoloji birlik və frazeoloji birləşmə kimi üç tipini göstərmişdir. Qeyd etmək lazımdır ki, bu bölgü müxtəlif dillərin, o cümlədən də Azərbaycan dilinin frazeologiyası barədə yazılmış bir çox əsərlərdə olduğu kimi götürülmüşdür. Böyük tədqiqatçı H.Bayramov Azərbaycan dilçiliyində ilk dəfə olaraq frazeoloji va-

hidləri V.V.Vinoqradovun bölgüsünə əsaslanaraq təsnif etmişdir. Dilçi-alim frazeoloji vahidə belə tərif vermişdir: "Frazeoloji vahid dilin inkişaf tarixinin ən son mərhələsində söz birləşmələrinin tam və sabit kombinasiyasıdır; ən azı müəyyən ardıcıllıqla gələn iki leksik səviyyədə sözün qəti olaraq müəyyənləşmiş birləşməsindən ibarətdir; qrammatik cəhətdən söz birləşməsi və ya cümlə modelləri əsasında dildə mövcud olmuş və ya mövcud olan qanunauyğunluqlara əsasən formalaşmışdır"[1, s. 91].

M.Hüseynzadə, Ə.Dəmirçizadə, H.Bayramov, F.Axundov, A.Qurbanov, S.Cəfərov, M.Adilov, M.Tağıyev, N.Məmmədov, Y.Seyidov, F.Hüseynov, Z.Budaqova kimi dilşünasların Azərbaycan dili frazeologiyası ilə bağlı elmi-nəzəri görüşləri vardır. Həmin klassiklərin fikirləri sonralar müasir dövrün frazeoloqları tərəfindən davam və inkişaf etdirilmişdir. M.Mirzəliyeva, Q.Mahmudova, T.Hacıyev, N.Seyidəliyev, Z.Əlizadə, İ.Həmidov, A.Məmmədli kimi tədqiqatçılar öz tədqiqat əsərlərində və monoqrafiyalarında milli frazeologiyadan bəhs etmişlər. Qeyd etmək doğru olar ki, bu alimlərin frazeologizmlərə yanaşmaları və onları tədqiqetmə istiqamətləri müxtəlif idi. Bu isə frazeologiyanın dilçilik elminin gənc sahəsi olmasına baxmayaraq, Azərbaycan dilçiliyində hərtərəfli inkişafını göstərirdi. Görkəmli alim M.Mirzəliyeva qeyd edir ki, frazeoloji vahidlər söz, söz birləşməsi və ya cümlənin məcazlaşma prosesinə məruz qalaraq semantik bütövlük qazanmış, dildə hazır şəkildə özünü göstərən dil vahidləridir. Alimin fikri onu göstərir ki, frazeoloji vahidlər söz birləşməsi və cümlə ilə yanaşı, tək sözdən də ibarət ola bilər. Digər bir alim Q.Ç.Mahmudova isə M.Mirzəliyevanın bu fikrinə əsasən bildirir ki, birləşmə səviyyəli frazeologizmlər tam şəkildə artıq dildə qəbul olunmuşdur. Söz səviyyəli frazemlərlə bağlı isə fikir ayrılıqları mövcuddur.

Azərbaycan dilçiliyində frazemlər, onların xüsusiyyətləri və növləri haqqında ilk məlumatı Muxtar Hüseynzadə 1954-cü ildə çap etdirdiyi "Müasir Azərbaycan dili" kitabında vermişdir. Müəllifin fikrinə görə, idiomlar hər bir dilin öz xüsusiyyətlərini əks etdirir. M. Hüseynzadə idiomların əksəriyyətinin bir dildən başqa dilə olduğu kimi tərcümə olunmadığını və idiomları təşkil edən sözlərin birlikdə bir məna ifadə etdiyini də söyləmişdir. Qeyd edək ki, müəllifin idiomlarla bağlı fikirləri müasir dövrümüz üçün də aktualdır. Professor Əbdüləzəl Dəmirçizadə müəllifi olduğu "Azərbaycan dilinin üslubiyyatı" kitabında idiomik vahidlərin üslubi cəhətlərini təhlil etmiş və onların ən çox bədii üslubda işləndiyini vurğulamışdır. O, idiomik vahidlərin idiomik sözlər, idiomik ifadələr və idiomik cümlələr kimi üç qrupunu qeyd etmişdir [3.s.170].

Azərbaycan dili frazeologiyasının ən uğurlu dövrünün keçən əsrin 60-70- ci illər olduğunu qeyd etməliyik. Bu dövrdə frazeologiya sahəsində əhəmiyyətli işlər görülmüş, bir sıra məqalə və dissertasiyalar yazılmışdır. Görkəmli alim Afad Qurbanov "S.Vurğunun Vaqif pyesinin dili və üslubu" namizədlik dissertasiyasında, "Müasir Azərbaycan ədəbi dili" adlı kitabında, qiyabi tələbələr üçün nəzərdə tutulmuş "Müasir Azərbaycan dilinin frazeologiyası" metodik vəsaitində frazeologiya məsələləri ilə bağlı dolğun məlumat vermiş, bu sahənin mövcud problemlərinə toxunmuşdur. Həmin əsərlərdə müəllifin frazeoloji vahidlər, onların xüsusiyyətləri, əmələgəlmə yolları, məna növləri, tipləri, semantik qrupları və bədii xüsusiyyətləri ilə əlaqədar fikirləri əksini tapmışdır.

Azərbaycan dilində frazeologizmlər ən çox üslubi istiqamətdə araşdırılmış, müxtəlif yazıçı və şairlərin dilində istifadə olunmuş fərdi-üslubi ifadələr müəyyənləşdirilmişdir. Bu baxımdan S.Murtuzayevin 1958-ci ildə çap olunmuş "M.F.Axundovun komediyalarının frazeologiyası", həmçinin, 1962-ci ilin nəşri olan "M.F.Axundovun komediyalarının dil və üslub xüsusiyyətləri" adlı tədqiqatları təqdirəlayiqdir.

Frazeologiyanın tədqiqi sahəsində Səlim Cəfərovun mühüm xidmətlərindən biri "Azərbaycan dilində idiomlar" adlı məqaləsidir. Dilçi-alim "Müasir Azərbaycan dilinin leksikası" kitabında da frazeologiyanın növləri və xüsusiyyətləri ilə bağlı geniş məlumat vermişdir. Əliheydər Orucovun "Azərbaycan dili filoloji izahlı lüğətinin nəzəri əsasları" monoqrafiyasında müasir ədəbi dilimizin frazeologiyası ilə bağlı fikirləri maraq doğurur. O yazır: "... onun (frazeologiyanın) əhatə dairəsi daha genişdir. Frazeologiya dedikdə, dildə olan sabit söz birləşmələrinin hamısı nəzərdə tutulur. Frazeologiyaya eyni zamanda, məsəllər, atalar sözləri, klişe halını almış tərkiblər, aforizmlər və s. də daxildir" [10, s.28-29]. Müəllif, həmçinin, kitabın müəyyən bir hissəsində verdiyi peşəkarlığa aid ifadələri, elmi məfhumlara dair sabit ifadələri, antik ədəbiyyat və əsatir ifadələri və s. bu cərgəyə daxil edir [10, s.54]. Belə nəticəyə gəlmək olar ki, Ə.Orucov bir çox dilçilərdən fərqli olaraq frazeologiyaya dar mənada deyil, geniş mənada yanaşır.

Ədəbi dilimizin frazeologiyasının elmi-nəzəri aspektdə araşdırılmasında Hüseyn Bayramovun böyük xidmətləri olmuşdur. Müəllifin "Sabit söz birləşmələri" adlı böyük həcmli məqaləsi onun bu sahədəki tədqiqatlarının başlanğıcıdır. Daha sonralar dilçi-alim "Azərbaycan dili frazeologiyasının əsasları" monoqrafiyasını yazmışdır. Bu əsəri ədəbi dilimizin frazeologiyasının tədqiqi və inkişafı tarixində irəliyə atılmış mühüm addım hesab etmək olar. H.A.Bayramov dilimizdəki frazeoloji vahidlərin struktur-semantik cəhətlərini araşdırmış, Orxon, Yenisey abidələrinin, Kaşğari "Divan" ının, "Kitabi Dədə Qorqud" un dili üzərində müşahidələr aparmışdır. O, belə nəticəyə gəlmişdir ki, qədimlərə doğru uzaqlaşdıqca frazeoloji vahidlərin kəmiyyəti azalır. H.A.Bayramov bunu dilin inkişafı və zənginləşməsi, həmçinin, dil materialının azlığı ilə əlaqələndirir. Tədqiqatçı-alim "Kitabi Dədə Qorqud" dastanlarının dilindəki türk mənşəli baş sözlər əsasında formalaşan frazemlərin quruluşuna, mənasına və komponentlərinə görə hər hansı bir dəyişikliyə məruz qalmadan müasir dilimizə qədər gəlib çıxanlar və müasir dilimizdə işlənən sabit söz birləşmələrindən yalnız komponentlərindən birinin arxaik səciyyəli olmasına görə fərqlənənlər kimi iki qrupunu göstərmişdir. H.Bayramov birinci qrupa aid ad qoymaq, and içmək, qan ağlamaq, əl vermək, ad qazanmaq, diz çökmək, ayağına düşmək, gözü tutmaq, könül almaq, yola düşmək, acı söz, ocağını söndürmək, könlü açılmaq və s. kimi birləşmələri qeyd etmişdir. Müəllif ikinci qrupa isə göz qaqmaq, üz bulmaq, barmağını ısırmaq, sözünü sımaq kimi birləşmələri aid etmişdir. O bildirmişdir ki, bu cür birləşmələrin komponentlərindən biri arxaikləşmiş və yeni sözlə əvəz olunmuşdur.

Frazeologizmlərlə bağlı məsələlərin tədqiqi baxımından dilçi-alim Məhəbbət Mərzəliyevanın müəllifi olduğu "Türk dillərinin frazeologiyası" əsəri də əhəmiyyətli mənbələrdən hesab olunur. Sözügedən əsərdə türk dillərinin frazeologiyası ilə bağlı nəzəri məsələlər araşdırılmışdır. Müəllif vurğulayır ki, frazeologiyanın mahiyyətini, onun qaranlıq qalan məqamlarını müəyyənləşdirmək üçün, ilk

olaraq, frazeologiyanın xalqın həyat tərzi və təfəkkürü ilə bağlılığını öyrənmək, bunların oğuz qrupu türk dillərində əks olunma imkanlarını aşkarlamaq lazımdır.

Məqalənin aktuallığı .Azərbaycan dilçiliyində frazeologizmlərin tədqiqi ilə bağlı müxtəlif fikirlər irəli sürülmüş, çoxsaylı və sanballı tədqiqat işləri aparılmışdır. Qeyd edək ki, dili zənginləşdirən vasitələrdən biri kimi frazeologizmlərin mövqeyi hər zaman diqqət mərkəzindədir.

Məqalənin elmi yeniliyi. Frazeologiyanın mahiyyətini, onun qaranlıq qalan məqamlarını müəyyənləşdirmək.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi. Məqalədə bəhs olunan məsələlər dil ixtisası üzrə təhsil alan tələbələr və bu sahədə araşdırma aparan tədqiqatçılar üçün faydalı ola bilər.

Ədəbiyyat:

1. Bayramov, H. A. (1978). Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: Maarif.
2. Cəfərov, S. Ə. (2007). Müasir Azərbaycan dilinin leksikası. Bakı: Şərq-Qərb.
3. Dəmirçizadə, Ə. M. (1962). Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr.
4. Hüseynzadə, M. H. (2007). Müasir Azərbaycan dili. Bakı: Şərq-Qərb.
5. Qurbanov, A. M. (1963). Müasir Azərbaycan dilinin frazeologiyası. Bakı.
6. Qurbanov, A. M. (2003). Müasir Azərbaycan ədəbi dili. Bakı: Nurlan.
7. Qurbanov, A. M. (1962). S. Vurğunun Vaqif pyesinin dili və üslubu (Namizədlik dissertasiyası).
8. Mahmudova, Q. Ç. (2009). Türk dillərinin frazeologiyası. Bakı: Nurlan.
9. Mirzəliyeva, M. M. (2009). Türk dillərinin frazeologiyası (I cild). Bakı: Nurlan.
10. Orucov, Ə. Ə. (1965). Azərbaycan dili filoloji izahlı lüğətinin nəzəri əsasları. Bakı.

Sofiya Mirzayeva

Summary

THE ISSUE OF STUDYING PHRASEOLOGICAL UNITS IN AZERBAIJANI LINGUISTICS

The article is devoted to the study of phraseological units that have a significant impact on the intensity and emotionality of the language. The linguistic science that studies phraseological units of language is called phraseology. The object of study in this branch of the science of language is various combinations, expressions and phrases. The article reflects largely similar and partially different opinions of researchers about phraseological units. According to most researchers, a phraseological unit is not all stable compounds, but that part whose components are not separable in meaning and structure. In addition, the other part of scientists classify phraseological combinations, proverbs and sayings, phrases, etc. as phraseology. The article is based on the works of our scientists in the field of studying the phraseology of the Azerbaijani language, their scientific activities.

София Мирзоева

Резюме

ВОПРОС ИЗУЧЕНИЯ ФРАЗЕОЛОГИЗМОВ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКОЗНАНИИ

Статья посвящена изучению фразеологизмов, оказывающих существенное влияние на интенсивность и эмоциональность языка. Лингвистическая наука, изучающая фразеологические единицы языка, называется фразеологией. Объектом иссле-

дования этой отрасли науки о языке являются различные сочетания, выражения и словосочетания. В статье отражены во многом схожие и частично разные мнения исследователей о фразеологизмах. По мнению большинства исследователей, фразеологической единицей является не все устойчивые соединения, а та часть, компоненты которой не разделены по смыслу и структуре. А другая часть учёных относят к фразеологии фразеологические сочетания, пословицы и поговорки, словосочетания и т. д. В основу статьи легли труды наших ученых в области исследования фразеологии азербайджанского языка, их научная деятельность.

Rəyçi: dos. Y.Hacıyeva

Nailə Hüseynova
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.040

ALMAN DİLİNDƏKİ METAFORALARIN VƏ FRAZEOLOGİZMLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİNDƏ SEMANTİK ÇƏTİNLİKLƏR

Açar sözləri: *Metafora, frazeologizm, semantik çətinlik, tərcümə, mədəniyyətlərarası ünsiyyət*

Keywords: *Metaphor, phraseology, semantic challenges, translation, intercultural communication*

Ключевые слова: *Метафора, фразеологизм, семантические трудности, перевод, межкультурная коммуникация*

Giriş. Dil yalnız kommunikasiya vasitəsi deyil, həm də xalqın dünyagörüşünü, mədəni təcrübəsini və tarixi yaddaşını əks etdirən mürəkkəb bir sistemdir. Bu baxımdan metaforalar və frazeoloji birləşmələr dilin ən obrazlı və mədəni yüklü vahidlərindən hesab olunur. Alman və Azərbaycan dilləri müxtəlif dil ailələrinə mənsub olmaqla yanaşı, fərqli mədəni və koqnitiv modellərə əsaslandığından bu dillər arasında tərcümə prosesi, xüsusilə metaforaların və frazeologizmlərin ötürülməsi zamanı ciddi semantik çətinliklər yaradır. Tərcüməçi yalnız leksik uyğunluq tapmaqla kifayətlənməməli, eyni zamanda mətnin arxasında dayanan məna qatlarını, mədəni assosiasiyaları və kontekstual çalarları da nəzərə almalıdır. Bu məqalədə alman dilindəki metaforaların və frazeologizmlərin Azərbaycan dilinə tərcüməsində ortaya çıxan əsas semantik problemlər və onların səbəbləri araşdırılır.

Metaforalar alman dilində abstrakt anlayışların konkret obrazlar vasitəsilə ifadəsinə xidmət edir və çox vaxt gündəlik həyat, təbiət, texnika və sosial münasibətlərlə bağlı təsəvvürlərə əsaslanır. Məsələn, alman dilində geniş istifadə olunan metaforalar müəyyən tarixi və mədəni təcrübənin məhsulu olduğundan, onların birbaşa tərcüməsi Azərbaycan dilində mənanın təhrif olunmasına səbəb ola bilər. Bu zaman tərcüməçi qarşısında duran əsas problem metaforik obrazın saxlanılması ilə məna adekvatlığı arasında balans yaratmaqdır. Bəzi hallarda metaforanın məzmununu qorumaq üçün onu Azərbaycan dilində ekvivalent obrazla əvəz etmək məqsədəuyğun sayılır, lakin bu da hər zaman mümkün olmur.

Frazeoloji birləşmələr isə dilin sabit və hazır vahidləri kimi metaforalardan daha mürəkkəb tərcümə problemləri yaradır. Onlar yalnız leksik elementlərdən ibarət deyil, həm də müəyyən bir mədəni, tarixi və sosial kontekstdə formalaşmış sabit ifadələrdir. Alman dilindəki frazeologizmlər çox vaxt məcazi məna daşıyır və komponentlərin sözbəsöz tərcüməsi real mənanı əks etdirmir. Məsələn, "jemandem die Daumen drücken" ifadəsi birbaşa "birinin barmaqlarını sıxmaq" kimi tərcümə olunarsa, mənası itirilir; əslində bu frazeologizm "kiməsə uğurlar arzula-

maq" mənasını daşıyır. Belə hallarda tərcüməçi yalnız leksik uyğunluğa əsaslanmaqla kifayətlənməməli, frazeoloji vahidin mənasını, kontekstini və istifadə sahəsini də nəzərə almalıdır.

Belə ifadələrin Azərbaycan dilinə çevrilməsi zamanı semantik uyğunsuzluq, mənanın itməsi və ya yanlış interpretasiya riski yüksək olur. Xüsusilə mədəni reallıqlara əsaslanan frazeologizmlər tərcümədə çətinlik yaradır, çünki hədəf dildə həmin mədəni fon və assosiasiyalar mövcud olmaya bilər. Məsələn, alman dilində istifadə olunan "ein Tropfen auf den heißen Stein" frazeologizmi sözbəsöz "isti daş üzərinə bir damcı" kimi tərcümə olunsa, onun əsl mənası – "çox kiçik bir hərəkətin böyük problemi həll edə bilməməsi" – çatdırılmamış olar. Bu zaman tərcüməçi ya funksional ekvivalent tapmalı, yəni hədəf dildə eyni məcazi mənanı ifadə edən uyğun frazeoloji birləşmədən istifadə etməli, ya da izahlı tərcümə üsuluna müraciət etməlidir ki, oxucu məcazi mənanı anlaya bilsin.

Semantik çətinliklərin digər mühüm səbəbi dillərin koqnitiv strukturundakı fərqlərlə bağlıdır. Hər bir dil, eyni zamanda mədəniyyət və düşüncə sistemini daşıyan koqnitiv çərçivədir; yəni insanlar müəyyən anlayışları, hadisələri və münasibətləri öz dil sistemləri və mədəniyyətləri əsasında qavrayır və ifadə edirlər. Alman dilində metaforik düşüncə sistemi çox vaxt məkan, mexanizm və hərəkət modellərinə əsaslanır. Bu, alman frazeologizmlərində və metaforalarında texnoloji və mexaniki təsvirlərin, strukturlara və hərəkətə yönəlik obrazların geniş yayılması ilə müşahidə olunur. Məsələn, alman dilində "etwas auf die Beine stellen" frazeologizmi sözbəsöz "bir şeyi ayaqlara qoymaq" mənasına gəlir, lakin əslində "bir işi təşkil etmək, həyata keçirmək" mənasını ifadə edir. Burada metaforik düşüncə mexanizm və hərəkət yönümlü obrazlar üzərində qurulub.

Azərbaycan dilində isə metaforik və frazeoloji ifadələr daha çox emosional və təbiətyönümlü obrazlara əsaslanır. Bu, dilin koqnitiv və mədəni çərçivəsi ilə bağlıdır; insanlar ətraf mühit, təbiət hadisələri və gündəlik həyat təcrübələrini nəzərə alaraq abstrakt anlayışları konkret, təsirli və oxucuya tanış olan obrazlarla ifadə etməyə meyllidirlər. Təbii proseslər, heyvanlar, insan duyğuları, fəsillərin dəyişməsi, bitki və heyvan aləmi, eləcə də gündəlik həyatın adi müşahidələri metaforik düşüncənin və frazeoloji yaradıcılığın əsas mənbəyini təşkil edir. Bu tip metaforlar yalnız mənanı deyil, həm də duyğu yükünü, estetik təsiri və sosial-mədəni çalarları ötürmə qabiliyyətinə malikdir.

Məsələn, "su kimi saf olmaq" ifadəsi emosiya və təbiət obrazlarını birləşdirərək insanın daxili təmizliyini və səmimiyyətini ifadə edir. Bundan başqa, "göz qamaşdıran işıq" və ya "qar kimi ağ olmaq" kimi ifadələr həm vizual, həm də emosional təsir yaratmaqla dilin obrazlılığını gücləndirir. Heyvan və təbiət obrazlarının istifadəsi də geniş yayılmışdır: məsələn, "aslan kimi cəsur" və ya "arı kimi çalışqan" kimi frazeologizmlər yalnız keyfiyyətləri ifadə etmir, həm də oxucuda müəyyən assosiasiyalar yaradır və dildəki mədəni yaddaşı əks etdirir.

Bu fərq nəticəsində eyni anlayış və ya hadisə alman və Azərbaycan dillərində tamamilə fərqli obrazlarla ifadə olunur. Alman dilində mexanizm və hərəkətyönümlü metaforlar üstünlük təşkil etdiyi halda, Azərbaycan dilində emosional və təbiət yönümlü obrazlar əsas rol oynayır. Bu, tərcümə prosesini daha da mürəkkəbləşdirir, çünki tərcüməçi qarşı tərəfin mədəni və koqnitiv kontekstini nəzərə almalı, həm mənanı, həm də ifadə olunan emosiyanı və estetik dəyəri qoruyaraq

adekvat ekvivalent yaratmalıdır. Beləliklə, Azərbaycan dilində metaforik və frazeoloji ifadələr yalnız semantik deyil, həm də mədəni və emosional zənginliyə malik kompleks bir sistem təşkil edir.

Alman dilindəki metaforik ifadənin Azərbaycan dilində adekvat qarşılığını tapmaq hər zaman mümkün olmur. Tərcüməçi qarşısında duran əsas problem yalnız sözlərin mənasını ötürmək deyil, həm də metaforik obrazın funksiyasını, emosional yükünü və kontekstual çalarlarını qorumaqdır. Bu isə yaradıcı yanaşma tələb edir: tərcüməçi bəzən yeni obrazlar yaratmalı, bəzən funksional ekvivalentlərdən və ya izahlı tərcümə üsullarından istifadə etməlidir. Eyni zamanda, tərcüməçi semantik uyğunluğu təmin etməklə yanaşı, mətnin ritmini, üslubunu və oxucuda yaratmaq istədiyi təsiri də nəzərə almalıdır. Beləliklə, koqnitiv struktur fərqləri metaforik ifadələrin tərcüməsini yalnız dilçilik problemi deyil, həm də mədəni və estetik kontekstdə kompleks bir prosesə çevirir.

Kontekst faktoru da metafora və frazeologizmlərin tərcüməsində həlledici rol oynayır. Eyni frazeoloji vahid müxtəlif kontekstlərdə fərqli məna çalarları qazana bilər ki, bu da tərcümə prosesini daha da mürəkkəbləşdirir. Kontekstdən kənar tərcümə semantik səhvlərə, mətnin üslubi və praqmatik xüsusiyyətlərinin pozulmasına səbəb ola bilər. Buna görə də tərcümə prosesində yalnız dil biliyi deyil, həm də mədəniyyətlərarası kompetensiya mühüm əhəmiyyət kəsb edir.

Elmi yenilik. Bu məqalə alman dilindəki metaforaların və frazeologizmlərin Azərbaycan dilinə tərcüməsində ortaya çıxan semantik çətinlikləri sistemli şəkildə araşdıraraq bir sıra elmi yeniliklər təqdim edir. Əvvəla, tədqiqat alman və Azərbaycan dillərinin koqnitiv və mədəni fərqlərini nəzərə alaraq tərcümə prosesində yaranan spesifik problemləri müəyyənləşdirir və təsnif edir. İkincisi, metafor və frazeologizmlərin adekvat tərcüməsi üçün kontekstual, funksional və izahlı yanaşmaların tətbiqinin elmi əsaslarını ortaya qoyur. Nəticədə, məqalə həm nəzəri, həm də praktik səviyyədə tərcüməçilərə və dilçilərə konkret metodoloji tövsiyələr təqdim edir, mədəniyyətlərarası ünsiyyətin daha səmərəli qurulmasına töhfə verir.

Praktik əhəmiyyət. Tədqiqatın nəticələri tərcümə prosesində yaranan real çətinlikləri aşkar etməklə yanaşı, praktiki səviyyədə bir sıra tövsiyələr təqdim edir. İlk növbədə, metaforaların və frazeologizmlərin Azərbaycan dilinə adekvat tərcüməsi üçün tərcüməçilərə kontekstual və mədəni yanaşmaları prioritetləşdirməyi tövsiyə edir. Eyni zamanda, frazeoloji vahidlərin və metaforik ifadələrin izahlı və funksional ekvivalentlər vasitəsilə tərcüməsi mətnin mənasını və üslubunu qorumağa imkan verir. Bu nəticələr həm tərcüməçilərin, həm də dil müəllimlərinin işində tətbiq oluna bilər, tədris prosesində praktiki məşğələlər və metodik materialların hazırlanmasında istifadə edilə bilər. Nəticədə, tədqiqat mədəniyyətlərarası ünsiyyətin səmərəliliyinin artırılmasına və tərcümə sahəsində peşəkar bacarıqların inkişafına töhfə verir.

İşin aktuallığı. Müasir dövrdə dilçilik və tərcümə sahəsində mədəniyyətlərarası ünsiyyətin rolu getdikcə artır. Alman dilindəki metaforalar və frazeologizmlər yalnız dilin özünəməxsus xüsusiyyətlərini əks etdirmir, həm də mədəni və koqnitiv modellərin ifadəsi kimi çıxış edir. Bu səbəbdən, onların Azərbaycan dilinə adekvat tərcüməsi həm elmi, həm də praktik baxımdan aktualdır. Tərcümə prosesində yaranan semantik çətinliklərin araşdırılması, mədəni fərqlərin və kontekstual xüsusiyyətlərin nəzərə alınması, tərcümə nəzəriyyəsinin inkişafına və mədəniyyət-

lərarası ünsiyyətin təkmilləşdirilməsinə əhəmiyyətli töhfə verir. İşin aktual olması həm də tərcüməçilər, dil müəllimləri və tədqiqatçılar üçün praktik metodik tövsiyələrin formalaşdırılmasını təmin edir.

Nəticə. Aparılan təhlil göstərir ki, alman dilindəki metaforaların və frazeologizmlərin Azərbaycan dilinə tərcüməsində semantik çətinliklər əsasən mədəni fərqlər, koqnitiv modellərin uyğunsuzluğu və dil vahidlərinin məcazi xarakteri ilə bağlıdır. Bu çətinliklərin aradan qaldırılması üçün tərcüməçi hər iki dilin semantik sistemini dərindən bilməli, kontekstual və mədəni faktorları nəzərə almalı, zərurət olduqda funksional və izahlı tərcümə üsullarına müraciət etməlidir. Metafora və frazeologizmlərin adekvat tərcüməsi yalnız mətnin mənasını deyil, həm də onun obrazlılığını və üslubi dəyərini qorumağa imkan verir. Nəticə etibarilə, bu sahədə aparılan tədqiqatlar tərcümə nəzəriyyəsinin inkişafına və mədəniyyətlərarası ünsiyyətin daha səmərəli qurulmasına mühüm töhfə verir.

Ədəbiyyat:

1. Əhmədov, T. (2018). Tərcümə nəzəriyyəsi və praktikası. Bakı: Elm.
2. Məmmədova, N. (2020). Dil və mədəniyyətlərarası ünsiyyət. Bakı: Qanun Nəşriyyatı.
3. Həsənov, R. (2017). Metaforaların tərcümə problemləri. Bakı: ADA Universiteti Nəşriyyatı.
4. Бахтин, М. (1996). Эстетика словесного творчества. Москва: Искусство.
5. Комиссаров, В.Н. (2000). Теория перевода. Москва: Высшая школа.
6. Щерба, Л.В. (1966). Семантика и перевод. Ленинград: Просвещение.
7. Newmark, P. (1988). A Textbook of Translation. London: Prentice Hall.
8. Larson, M. L. (1998). Meaning-Based Translation: A Guide to Cross-Language Equivalence. Lanham: University Press of America.
9. Baker, M. (2011). In Other Words: A Coursebook on Translation. London: Routledge.

Naila Huseynova

Summary

SEMANTIC DIFFICULTIES IN TRANSLATING GERMAN METAPHORS AND PHRASEOLOGICAL UNITS INTO AZERBAIJANI

The article addresses the challenges of translating German metaphors and phraseological units into Azerbaijani. The analysis reveals that the main difficulties arise from cultural differences, cognitive models, and the transfer of figurative meaning. Literal translation often leads to semantic distortion, so translators must consider context, cultural factors, and, when necessary, apply functional or explanatory translation methods. The findings emphasize the importance of a deep understanding of the semantic systems of both languages to ensure an accurate and expressive translation and contribute to the development of translation theory and intercultural communication.

Наиля Гусейнова

Резюме

СЕМАНТИЧЕСКИЕ ТРУДНОСТИ ПРИ ПЕРЕВОДЕ МЕТАФОР И ФРАЗЕОЛОГИЗМОВ НЕМЕЦКОГО ЯЗЫКА НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Статья посвящена проблемам семантического перевода немецких метафор и фразеологизмов на азербайджанский язык. Анализ показывает, что основные трудности связаны с культурными различиями, когнитивными моделями и переносом ме-

тафорического значения. Прямой перевод часто приводит к искажению смысла, поэтому переводчик должен учитывать контекст, культурные особенности и при необходимости использовать функциональные или пояснительные методы перевода. Результаты исследования подчеркивают важность глубокого знания семантических систем обоих языков для обеспечения адекватного и выразительного перевода, а также способствуют развитию теории перевода и межкультурной коммуникации.

Rəyçi: fil.f.d. S.Rəcəbova

Pərvin Musayeva
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.019

İNGİLİS DİLİNDƏ HECANIN FONETİK VƏ PROSODİK TƏBİƏTİ: NƏZƏRİ ƏSASLAR VƏ TƏTBİQİ MƏSƏLƏLƏR

Açar sözləri: *heca, fonetika, prosodiya, vurğu, intonasiya*
Keywords:*syllable,phonetics,prosody,stress,intonation*
Ключевые слова: *слог, фонетика, просодия, ударение, интонация*

Giriş. Heca dilin fonetik və fonoloji səviyyələrinin kəsişdiyi əsas vahidlərdən biri kimi çıxış edir. İngilis dilində hecanın struktur və funksional xüsusiyyətləri onun ritmik quruluşu, vurğu sistemi və intonasiya konturlarının təşkili ilə sıx bağlıdır. Bu dilin fonotaktik mürəkkəbliyi, sait uzunluğu, samit birləşmələrinin yerləşmə imkanları və vurğulu-vurğusuz hecaların dinamikası hecanın həm fonetik, həm də prosodik aspektlərini araşdırmağı zəruri edir.

Tədris baxımından heca anlayışı önəmlidir, çünki tələffüzün düzgün formalaşması, ritmin mənimsənilməsi və kommunikativ səlisliyin inkişafı hecanın başa düşülməsinə əsaslanır. Məqalədə İngilis dilində hecanın fonetik və prosodik təbiəti nəzəri baxımdan təhlil edilərək, onun tətbiqi imkanları və praktik əhəmiyyəti göstərilir.

İngilis dilində hecanın fonetik və prosodik təbiəti onun nitqin struktur və funksional tərkibində mərkəzi rol oynadığını göstərir. Heca fonetik baxımdan nucleus, onset və coda elementlərindən ibarət olub, hər bir komponent nitqin artikulyator və akustik xüsusiyyətlərini formalaşdırır. Nucleus, yəni hecanın mərkəzində yerləşən sait, hecanın uzunluğu və keyfiyyətinə görə sözün məna və vurğusuna təsir göstərir. Məsələn, ingilis dilində [iː] və [ɪ] saitləri arasında uzunluq fərqi sözün mənasını dəyişə bilir: *ship* və *sheep* sözlərində olduğu kimi. Onset və coda isə hecanın əvvəlində və sonunda yerləşən samitlərdən ibarət olub, hecanın artikulyator və akustik balansını təmin edir. İngilis fonotaktikasında onset və coda birləşmələrinin kompleksliyi hecanın ritmik quruluşunu və nitqin təbii axarını müəyyən edir.

Prosodik aspektlər hecanın nitqdə ritmik və intonasiyalı rolunu əks etdirir. İngilis dili stress-timed (vurğulu-vurğusuz) tipologiyasına aid olduğu üçün vurğulu və vurğusuz hecalar arasında zaman və intensivlik fərqləri müşahidə olunur. Bu fərqlər söz və cümlə səviyyəsində ritmin yaranmasına səbəb olur. Vurğulu hecalar uzunmüddətli, daha yüksək akustik enerji və aydın artikulyasiya ilə səslənir, vurğusuz hecalar isə qısadır və daha az enerji daşıyır. Bu dinamika nitqin axıcılığını və anlaşılmasını təmin edir, xüsusilə ikinci dil öyrənənlər üçün hecanın düzgün tanınması və istehsal olunması vacibdir.

Fonetik və prosodik təhlillər göstərir ki, hecanın ritmik və vurğu xüsusiyyətləri tələffüzün düzgün qurulmasına birbaşa təsir göstərir. Hecanın vurğulu və vur-

ğusuz formaları sözlərin mənasının dəqiqliklə təyin olunmasında və intonasiyanın formalaşmasında əsas rol oynayır. Məsələn, "record" sözü isim kimi vurğulu ilk heca ilə, fel kimi isə ikinci heca ilə səslənir. Bu nümunələr hecanın fonetik və prosodik xüsusiyyətlərinin nitqin semantik və funksional quruluşunu birbaşa müəyyən etdiyini göstərir. Beləliklə, hecanın düzgün təyini və istifadəsi təkcə sözlərin mənasını aydınlaşdırmaqla kifayətlənmir, həm də cümlə və nitqin bütövlükdə intonasiyasının formalaşmasına təsir edir.

Tədris kontekstində hecanın öyrənilməsi tələbələrin fonetik bacarıqlarının inkişafına, düzgün ritm və intonasiyanın mənimsənilməsinə xidmət edir. İngilis dili dərslərində heca əsaslı tələffüz məşqləri, vurğu və ritm təlimləri nitqin təbii axarını formalaşdırmaqla yanaşı, kommunikativ səlisliyi və nitqin anlaşıqlığını artırır. Tələbələr heca strukturunu düzgün mənimsədikdə, onlar sözlərin və ifadələrin vurğusunu və ritmini dəqiq qura bilir, bu da danışıq zamanı səhvsiz və inandırıcı ifadəyə gətirib çıxarır.

Hecanın fonetik və prosodik təhlili həmçinin intonasiya konturlarının qavranılmasını təmin edir. Məsələn, sual və ya xəbər cümlələrinin fərqli intonasiya modelləri hecanın yerləşməsi və vurğusu ilə birbaşa əlaqəlidir. Bu baxımdan, hecanın öyrənilməsi tələbələrə yalnız düzgün tələffüz bacarıqlarını deyil, həm də nitqin emosional və funksional tonlarını anlamağa imkan verir.

Bütün bunlar göstərir ki, İngilis dilində heca yalnız fonetik vahid deyil, həm də prosodik struktur kimi nitqin funksional, semantik və estetik xüsusiyyətlərini formalaşdırır. Hecanın öyrənilməsi və tədrisi müasir dil təhsilində mühüm rol oynayır, çünki o, tələbələrin tələffüz, vurğu, ritm və intonasiya bacarıqlarını sistemli şəkildə inkişaf etdirir. Bu baxımdan, hecanın fonetik və prosodik təbiətinə diqqətli və sistemli yanaşma tədris prosesində səmərəli nəticələrin əldə olunmasına, tələbələrin nitq qabiliyyətinin yüksək səviyyədə formalaşmasına, onların dil mühitində uğurlu kommunikasiya qurmasına imkan yaradır.

Elmi yenilik. İngilis dilində hecanın fonetik və prosodik aspektlərini birləşdirən inteqrativ yanaşma təqdim olunmuşdur. Hecanın tədrisdə funksional tətbiqi üçün nəzəri əsaslar müəyyən edilmişdir. Vurğu və ritm ilə heca arasındakı əlaqə sistematik şəkildə izah edilərək, tədrisdə effektiv metodların formalaşdırılmasına imkan yaradılmışdır.

Nəticə. İngilis dilində heca fonetik və prosodik quruluşun mərkəzində dayanır və nitqin həm struktur, həm də funksional aspektlərini müəyyən edən əsas vahid kimi çıxış edir. Hecanın struktur xüsusiyyətləri, o cümlədən nucleus, onset və coda komponentləri, sait və samitlərin qarşılıqlı təsiri nitqin düzgün tələffüzü və səlisliyi üçün fundamental əhəmiyyət kəsb edir. Fonetik quruluş hecanın ritmik ardıcıllığını və vurğu nümunələrini formalaşdırmaqla yanaşı, sözlərin və cümlələrin mənalı ifadəsinə də birbaşa təsir göstərir.

Hecanın prosodik funksiyaları, xüsusilə ritm, vurğu və intonasiya konturları nitqin təbii axarını təmin edir, məna fərqliliyini ortaya qoyur və dinləyicinin məlumatı daha düzgün qavramasına kömək edir. Fonetik və prosodik yanaşmaların sintezi tələbələrə tələffüzün dəqiq formalaşmasını, ritmik və intonasiyalı nümunələrin mənimsənilməsini, eləcə də danışıq bacarıqlarının inkişafını təmin edir. Bu yanaşma, ingilis dili tədrisində hecanın sistemli öyrənilməsini, nitqin anlaşıqlı, təbii

və kommunikativ baxımdan effektiv olmasını təmin edən əvəzsiz bir vasitə olduğunu göstərir.

Ədəbiyyat:

1. Ağayeva, F. M. (1978). Azerbaycan dilinin intonasiyası. Bakı: APİ nəşriyyatı.
2. Axundov, A. A. (1984). Azərbaycan dilinin fonetikası. Bakı: Maarif.
3. Axundov, A. A., Babayev, S. M., & Zeynalov, F. H. (1996). İngilis və Azərbaycan dillərində vurğunun ritmik-melodik xüsusiyyətləri. Bakı: BDU-nun nəşriyyatı.
4. Cəfərova, B. C. (2009). English [Dərslik, ali məktəblər üçün]. Bakı. s. 9-10.
5. Cəlilov, F. A. (1988). Azərbaycan dilinin morfonologiyası. Bakı: Maarif.
6. Dəmirçizadə, Ə. M. (1984). Müasir Azərbaycan dili (1-ci hissə, II nəşr). Bakı: Maarif.
7. Avazbəyev, H. P. (1986). Структура слога в языках различных типов. Ташкент: Фан.
8. Bondarko, L. V. (1975). Звуковой строй современного русского языка. Москва: Просвещение.
9. Humboldt, V. (1984). Избранные труды по языкознанию. Москва: Прогресс.
10. Zinder, L. R. (1979). Общая фонетика. Москва: Высшая школа.
11. Abercrombie, D. (1967). Elements of general phonetics. Edinburgh: Edinburgh University Press.
12. Babayev, S. M., & Qarayeva, M. G. (2005). English phonetics. Bakı.
13. BBC. (1990). Pronouncing dictionary of British names. London: Oxford University Press.
14. Cygan, G. (1971). Aspects of English syllable structure. Wroclaw.

Parvin Musayeva

Summary

THE PHONETIC AND PROSODIC NATURE OF THE SYLLABLE IN ENGLISH: THEORETICAL FOUNDATIONS AND APPLIED ISSUES

This article analyzes the phonetic and prosodic nature of the syllable in English from both theoretical and practical perspectives. The phonetic structure of the syllable, including the relationship between vowels and consonants, as well as the components of nucleus, onset, and coda, is thoroughly examined. These features play a crucial role in correct word pronunciation, intonation formation, and speech rhythm. The article also provides a detailed analysis of the prosodic functions of the syllable, particularly rhythm, stress, and intonation. Prosodic features ensure the natural flow of speech and precise conveyance of meaning. From a pedagogical perspective, the study and application of syllables contribute to the development of students' communicative skills and the proper use of stress and rhythm. Thus, the article integrates the theoretical and practical aspects of the syllable, emphasizing its importance in English language teaching.

Первин Мусаева

Резюме

ФОНЕТИЧЕСКАЯ И ПРОСОДИЧЕСКАЯ ПРИРОДА СЛОГА В АНГЛИЙСКОМ ЯЗЫКЕ: ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ И ПРИКЛАДНЫЕ ВОПРОСЫ

В данной статье фонетическая и просодическая природа слога в английском языке анализируется как с теоретической, так и с прикладной точки зрения. Фоне-

тическая структура слога, включая соотношение гласных и согласных, а также компоненты nucleus, onset и coda, подробно исследуется. Эти особенности играют важную роль в правильном произношении слов, формировании интонации и ритме речи. Также подробно анализируются просодические функции слога, особенно ритм, ударение и интонация. Просодические особенности обеспечивают естественный поток речи и точную передачу смысла. С педагогической точки зрения изучение и применение слога способствует развитию коммуникативных навыков учащихся и правильному использованию ударения и ритма. Таким образом, статья объединяет теоретические и практические аспекты слога, подчеркивая его значение в преподавании английского языка.

Rəyçi: dos. X.Qocayeva

Mədinə Rzayeva
Gəncə Dövlət Universiteti

10.30546/2518-752X.1.601.020

MƏTBUAT DİLİNDƏ BİRLƏŞMƏSİ ŞƏKLİNDƏ TERMİNLƏRDƏ NORMA

Açar sözlər: *Konfessional struktur, geostrateji perspektivlər, ekoloji bumeranq, sosial media*
Keywords: *Confessional structure, geostrategic perspectives, ecological boomerang, social media*
Ключевые слова: *конфессиональная структура, геостратегические перспективы, экологический бумеранг, социальные сети*

Giriş. Beynəlxalq aləmdə informasiya intensivliyi artdıqca və gücləndikcə terminoloji vahidlərin də potensialı inkişaf edir, artır və canlanır. Ona görə də tək sözlə ifadə olunan terminlilikdən mürəkkə sözlüyə, daha sonra isə söz birləşməsi vasitəsi ilə formalaşan terminliliyə keçid xüsusilə intensiv xarakter alır. Mətbuat dilində son vaxtlar söz birləşməsi şəklindəki terminlərin işlədilməsi üzrə nəzərə çarpan üstünlük bunun əyani göstəricisidir. Məmməd Qasımov termin-söz birləşmələrindən bəhs edərkən daha çox birinci və ikinci növ təyini söz birləşməsi şəklindəki nümunələrə dair misallar göstərir: *illik plan, aylıq balans, mütləq potensial, dəyişən kapital, fiziki metod, nisbi rütubət* (I növ); *istehsal vasitələri, torpaq rentası, mandat komissiyası, maqnit dedektoru* və s. [1, s.133]. Sayalı Sadıqova bu məsələ barəsində daha ətraflı izahat verərək termin-söz birləşmələrinin üçüncü növə dair nümunələrinin mövcudluğuna dair də misalları təqdim edir: *naqilin müqaviməti, səsin gücü, dairənin bölünməsi, çoxhədlinin dərəcəsi, tezliyin çevrilməsi* və s.

Azərbaycan mətbuat dilində termin-söz birləşmələrinin işlənməsinə xüsusi yer verilir. Mətbuatda söz birləşmələrinin hər üç növünə aid terminlərin işlədilməsinə rast gəlmək olur.

1) birinci növ təyini söz birləşməsi şəklindəki *termin-söz birləşmələri*

Birinci növ təyini söz birləşmələrində ümumiləşmə güclü olduğundan bu tipli birləşmə şəklindəki terminlərin işlədilməsi demək olar ki, başqalarından daha çox intensivləşir. Birinci növ təyini söz birləşmələri bir-biri ilə yanaşma əlaqəsi vasitəsi ilə birləşir. Yusif Seyidov yazır ki, "*Flektiv dillərə nisbətən iltisaqi dillərdə yanaşma əlaqəsinin əhatəsi genişdir. Bu xüsusiyyət Azərbaycan dilində də belədir. Azərbaycan dilində nitq hissələrinin qrammatik cəhətdən zəif formalaşması, təyin yerində işlənən sözlərin dəyişməzliyi, onların aid olduqları sözlərlə qrammatik cəhətdən uyğunlaşmaması nəticəsində yanaşma əlaqəsinin əhatə dairəsi genişlənir*" [2, s.108].

Mətbuat dilində işlədilən birinci növ təyini söz birləşməsi şəklindəki termin-söz birləşmələri məzmuna görə beynəlxalq terminlərə xas olan anlayışları bildirir. Yəni bu terminlər məzmun baxımından beynəlxalq informasiya məkanında yazıl-

mış anlayışların ifadə edilməsi üçün işlədilir. Belə birləşmələrdə anlayışın bildirilməsi üçün ifadə imkanları genişdir. Ona görə də onların bir qismində tərəflər Avropa mənşəli sözlərlə ifadə edildiyi halda bəzilərində tərəflərdən birinin ya Azərbaycan sözləri ilə, ya da Azərbaycan dilində normalaşmış ərəb mənşəli sözlərlə ifadə edilməsi müşahidə olunur.

Termin-söz birləşmələrinin bu qayda üzrə formalaşması o deməkdir ki, birincisi, əcnəbi sözlərin müqabilində Azərbaycan dili sözlərinin işlənməsi imkanları artmaqda davam edir, ikincisi, tərəflərdən birinin Azərbaycan dilində normalaşmış ərəb (eləcə də fars) mənşəli sözlərlə ifadə edilən variantları beynəlxalq informasiya məkanındakı anlayışları bildirmək imkanlarına malikdir. Beynəlxalq informasiya anlayışı üzrə formalaşan və mətbuat dilində işlənən termin-söz birləşmələrini quruluşuna görə aşağıdakı kimi səciyyələndirmək olar:

a) hər iki komponenti Avropa mənşəli sözlərlə ifadə olunanlar

Avropa mənşəli sözlərlə ifadə olunan termin-söz birləşmələrinin tərəfləri, birincisi beynəlxalq informasiyaların əsas daşıyıcı elementlərindən ibarətdir. İkincisi, bu cür termin-söz birləşmələrini təşkil edən tərəflər ya Azərbaycan dilində mənimsənilərək normalaşmış vahidlərlə ifadə olunur və ya söz birləşməsi daxilində onların mənası anlaşıqlılıq təsəvvürü yaradır. Üçüncüsü, hansı növdən ibarət olmasına baxmayaraq termin söz birləşmələri ana dilinin daxili qanunauyğunluqları əsasında formalaşır.

Bunlara dair aşağıdakı kimi nümunələri misal göstərmək olar:

Total terror

Termin-söz birləşməsinin birinci elementi olan *total* sözü *terror* sözünə nisbətən az işlənir. Ancaq *terror* sözünə görə *total* sözünün ümumi anlayışını başa düşmək olur. *Total* sözü ümumi anlayışa görə bütöv, tam, geniş əhatəli, böyük mənalarını özündə ümumiləşdirilir. Ona görə də cümlədə *total terror* termin-söz birləşməsinin böyük, geniş, hərtərəfli mənası bildirdiyi təsəvvürə gətirilir: "Onlar köklü islahatlar apararaq məmur özbaşınalığı, korrupsiya, hədsiz haqsız rəqabət, kiçik və orta sahibkarlığa qarşı aparılan *total terrora* son qoymayacağı təqdirdə ən azı 16 il sərf etməlidirlər".

Total telekom

Total telekom termin-söz birləşməsinə də *total* tərkibinin anlayışını mənimsəməklə telekommunikasiya mənasındakı telekom tərkibinin birlikdəki məzmununu aydınlaşdırmaq olur. Məlum olur ki, *total telekom* termin-söz birləşməsi böyük, əhatəli *telekommunikasiya* qovşağı mənasını bildirmək üçün işlədilir: *total telekom* təşkilatı tərəfindən təşkil olunan "Wold Communikation Awards" dünya telekommunikasiya sahəsində təşkil olunan ən nüfuzlu mükafatlardan biridir".

Qlobal birja

Qlobal termini son vaxtlar istər kütləvi informasiya vasitələrinin dilində və istərsə də danışıqda intensiv şəkildə işlədilir. Ona görə də *qlobal* termini, artıq terminlikdən ümumişlək sözə doğru inkişaf mərhələsi keçməkdədir. *Birja* termininə gəlincə bu terminin mənası demək olar ki, bütün dil istifadəçiləri üçün eyni dərəcədə anlaşıqlı deyildir. *Birja* termini mənşəcə latın dilinə məxsusdur. Hərfi mənası pul kisəsi deməkdir. Termin adı Vrüdde şəhərində yaşamış tacir Van der Bursenin adından götürülmüşdür. (Onun nəslinin şəcərə gerbində üç pul kisəsinin təsviri olub); [3, s.40].

Birja termini qiymətli kağızların satışı bazarı, topdansatış bazarında bağlanan alqı-satqı müqaviləsi mənasında işlədilir. *Qlobal birja* termin söz birləşməsində də böyük əhatəli alqı-satqı anlayışı mənası bildirilir: "Çində siyasətinə bağlı qeyri-müəyyənlik qlobal *birjada* pambığın qiymətini 63 sentə qədər salıb".

Geostrateji perspektivlər

Bu termin-söz birləşməsinin ikinci komponenti çoxişlənən dil vahidi olmaqla anlayış cəhətdən də başa düşüləndir. *Perspektiv* termini əslində mənzərə, görünüş, təsvir mənası bildirməklə ümumişlək sözlər qrupuna daxil olaraq məcazi mənada işlədilir. Bu məna üzrə ümid, gözlənilən nəticə, uğur, qarşıdakı uğur anlayışlarını bildirir. *Geostrateji* termini isə bütün dil istifadəçiləri üçün anlaşıqlı hesab edilmir. *Geostrateji* termini müəyyən ərazini əhatə edən strateji mənasındadır. *Geostrateji perspektivlər* buna müvafiq olaraq geniş ərazidə gözlənilən perspektivlər mənasında işlənir: "Avrasiyanın uğurlu ölkəsi Azərbaycanın *geostrateji perspektivləri* inkişaf edir".

Konfessional struktur

Bu termin-söz birləşməsinin ikinci tərəfində işlənən *struktur* sözü, artıq dar çərçivəli termin anlayışından ümumişlək söz mövqeyinə keçərək quruluş, tərtibat mənasında başa düşülür. *Konfessional* tərəfi isə, demək olar ki, anlayış cəhətdən kütləviləşməmişdir. *Konfessional* termini mənaca dini təriqət, məzhəb, dini icma mənası bildirir. *Konfessional struktur* termini isə mənaca *dini icmaya məxsus struktur* anlayışını özündə ümumiləşdirir: "Onlar bu ölkələrin demoqrafik, etnik və *konfessional strukturunu* dəyişirlər".

Termin-söz birləşmələrinin bu növündə tərəflərdən biri kütləviləşdiyi üçün onları qismən normalaşmış hesab etmək mümkündür. Belə terminlərin tam normalaşması üçün onların intensiv işlədilməsi vacib şərtdir. Bu isə terminin aid olduğu fəaliyyət sahəsinin özünün inkişaf perspektivləri ilə əlaqədardır. Bəzi hallarda mətbuatda elə termin-söz birləşmələrinin də işlədilməsinə rast gəlmək olur ki, onlar xarici dildən birbaşa alınıb işlədilir. Cümlədə isə belə terminlərin məzmunu aydın olmur. Bunları əlbəttə ki, norma baxımından məqbul saymaq olmaz. Çünki sözün, terminin və ya hər hansı dil elementinin mənası başa düşülmürsə, onun işlədilməsindən də heç bir fayda əldə edilmir. Bu cəhətdən, aşağıdakı cümlədə verilən *Data Center* termin-söz birləşməsini nümunə göstərmək olar: "Binada informasiya texnologiyalarının işini təmin etmək məqsədi ilə ən müasir standartlara cavab verən "*Data Center*" yaradılıb.

Termin-söz birləşmələrinin bir qismi isə artıq şifahi nitq səviyyəsində (yəni rəsmi tədirlərdə, konfranslarda, çıxışlarja, radio-televiziya dilində) anlaşıqlı olduğu üçün onlar, müəyyən mənada normalaşmış dil vahidləri sayıla bilərlər. Belə termin-söz birləşmələrinə dair mətbuat dilində intensivləşən *aqrar sektor, sosial media, intellektual potensial, alternativ enerji, mobil operator, biznes forum, qlobal forum, humanitar forum* kimi nümunələri misal göstərmək olar. Məsələn, *aqrar sektor* termininin komponentlərinə dair hər hansı konkret anlayış oxucuya tam şəkildə məlum olmasa da, belə söhbətin kənd təsərrüfatı işlərindən, əkinçilikdən, torpaqşünaslıqla bağlılıqdan getdiyi barədə təsəvvür yaradır: "Bir sıra ölkələr quraqlığın *aqrar sektora* göstərə biləcəyi təsiri azaltmaq üçün dəniz suyundan yararlanırlar" [4, s.172].

Sosial media termin-söz birləşməsi ictimai mətbuat anlayışı bildirir. Mətbuatda çox zaman ərəb mənşəli *ictimai* sözü əvəzinə *sosial* variantından istifadəyə

daha çox üstünlük verilir. Həmçinin, ərəb mənşəli mətbuat sözünü ingilis dilinə məxsus olan *media* sözü üstələdiyi üçün *sosial media* termin-söz birləşməsi daha çox işlədilir. Odur ki, ictimai mətbuat yerinə sosial media termin-söz birləşməsi artıq intensivləşməkdə və normalaşmaqdadır: "Sosial mediada yol verilən dil, üslub xətaları barədə kifayət qədər digər misallar da göstərmək olar". *İntellektual potensial* termin-söz birləşməsinin tərkib hissələri də yazılı və şifahi nitqdə, artıq normalaşmış dil vahidlərindən ibarətdir.

İntellekt termini *ağıl, idrak* mənasını, *potensial* tərkibi isə *təməl, bünövrə, əsas vasitə* mənasında başa düşülür. Mətbuatda işlənən *intellektual potensial* termin-söz birləşməsi əqli inkişaf, əqli inkişafla əldə edilməli olan nailiyyət kimi başa düşülür: "Azərbaycan qısa vaxt ərzində iqtisadi göstəricilərinə, *intellektual potensialına* görə SSRİ miqyasında ön sıralara çıxdı". *Alternativ enerji* termin-söz birləşməsinin tərəfləri də yazılı və şifahi nitqdə mənimsənilmiş dil vahidlərindən ibarətdir. *Alternativ* tərkibi əvəzedici mənasında başa düşülür. *Enerji* isə *qüvvə, qətiyyət, səy*, həmçinin, elektrik cərəyanı mənasındadır. Termin-söz birləşməsinin konkret ifadə etdiyi məna isə cümlə daxilində aydın başa düşülür: "Burada *alternativ enerjidən* istifadə məqsədi ilə günəş panelləri quraşdırılıb". *Mobil* operator termin-söz birləşməsini təşkil edən komponentlər də mətbuat dilində kütləviləşdirilmiş elementlərdən ibarətdir. *Mobil* sözü dildə səfərbər edən, sürətli hərəkət edən mənasındadır. *Operator* termini isə əməliyyatçı, qurğuları idarə edən, tənzimçi mənasındadır. Mətbuat dilində də *mobil operator* termini mənasında işlədilir: "Azərbaycanın ilk *mobil operatoru* və aparıcı *mobil internet* provayderi Baksel Şirkəti "Wold Communication Awords" (Ümumdünya Kommunikasiya Mükafatı) adlı mötəbər mükafata təqdim edilib"[5, s.167]. *Biznes forum* termin-söz birləşməsinin tərəfləri də mətbuat dilində kütləviləşərək mənimsənilmiş və həm yazılı, həm də şifahi nitqdə normalaşmışdır. *Biznes* termini işgüzarlıq, ticarətdə gəlir əldə etmək üçün işgühar fəaliyyət mənasında anlaşılır. *Forum* isə böyük toplantı, nüfuzlu yığıncaq mənasındadır. Mətbuatda işlənən *biznes* forum termin-söz birləşməsində də bu məna anlaşılır: "Bakıda Azərbaycan – Litva *biznes forumu* keçirilmişdir"; "*Biznes forumda* çıxış-edən prezident səfər çərçivəsində imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin əhəmiyyətindən danışıb". Mətbuatda ikinci tərəfi *forum* tərkib ilə ifadə olunan *qlobal forum, humanitar forum* kimi termin-söz birləşmələrinin işlədilməsi o deməkdir ki, *forum* termini, artıq böyük, nüfuzlu, geniş toplantı mənasında kütləviləşərək mənimsənilmişdir. *Qlobal* və *humanitar* terminləri də artıq ümumişlək səviyyədə normalaşmış dil vahidləri kimi işlədilir. *Qlobal* termini geniş ölçülü, dünya miqyaslı, *humanitar* termini isə *insanpərvər, ədalətli, bəşəri, dünyəvi* kimi mənalarla zənginləşmişdir. Mətbuat dilində belə terminlər publisistik anlayış qazandığı üçün mənaca tezliklə kütləviləşməyə meyilli olurlar. Odur ki, aşağıdakı cümlələrdəki *qlobal forum* və *humanitar* forum termin-söz birləşmələri mənaca elə cümlənin özündən anlaşılır: "Nazir bu il Bakıda gənclər siyasəti üzrə *Birinci Qlobal forumun* keçirilməsini xüsusi vurğuladı". Bakıda artıq, dördüncü dəfə keçirilən Beynəlxalq *humanitar forum* 60-dan çox ölkədən 500-dək nümayəndəni bir araya gətirib" [6, s.171].

b) komponentlərdən biri Azərbaycan dili sözləri ilə ifadə olunanlar

Beynəlxalq informasiya məkanında formalaşmış termin-söz birləşmələrinin bir qismində tərəflərdən biri Azərbaycan dili sözləri ilə ifadə edilən nümunələr də

mövcuddur. Belə termin-söz birləşmələri ya kalkaolunmuş variantdan ibarət olur və ya beynəlxalq informasiya anlayışına uyğun şəkildə formalaşdırılır. Belə termin-söz birləşmələrinin meydana gəlməsi o deməkdir ki, beynəlxalq səviyyəli anlayışların təkcə Avropa mənşəli sözlərlə ifadə edilə bilməsi stereotipini, artıq sıradan çıxmaq üzrədir. Belə anlayışların ortaya çıxmasında müstəqil bir ölkənin rəsmi dili olan Azərbaycan dilinin də potensialı vardır. Belə termin-söz birləşmələrinin tərkibində Avropa mənşəli dil vahidlərinin işlənməsi beynəlxalq informasiya anlayışının təmsilçisi rolunda çıxış edirsə, Azərbaycan dilindəki tərəf Azərbaycan məkanına xas olan koloriti canlandırır. Belə termin-söz birləşmələrinin formalaşması Azərbaycan dili mənbələrinin hesabına bəşəri anlayışların ifadə potensialının mövcudluğunun əyani göstəricisidir. Azərbaycan dilinin rəsmiyyəti onun beynəlxalq aləmdə təmsil olunmasına şərait yaratdığı kimi daxili enerjisinin də canlanmasının etibarlı təminatçısına çevrilmişdir. Mətbuat dilində işlənən belə termin-söz birləşmələrinin bir qisminin birinci tərəfi, bəzilərinin ikinci tərəfi Azərbaycan dilinə məxsus sözlərlə ifadə olunur. Birinci tərəfi Azərbaycan dili sözləri ilə ifadə olunan termin-söz birləşmələrinə dair aşağıdakı nümunələri misal göstərmək olar: *Azərsun holdinq, Yoluxucu agentlər, Qızıl depozit.*

Azərsun holdinq termininin ikinci komponenti ərəb mənşəli *şirkət* sözünün əvəzedicisidir. *Holdinq* termini ərəb mənşəli sözlərin Avropalaşdırılma meyili əsasında işlədilmiş olsa da terminin özü beynəlxalq informasiya məkanına yaxınlaşdırılması vasitəsinə çevrilir. Bununla da Azərbaycan məkanında beynəlxalq aləmə yayılma imkanına malik olan terminoloji vasitələr formalaşdırılır. Mətbuat dili isə onun kütləviləşdirilməsinə təminat yaradır: "*Azərsun Holdi*nq"ə məxsus Bakı Qida və Yağ fabriki də İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən çox yüksək qiymətləndirilib".

Ədəbiyyat:

1. Məmmədov İ.O. Azərbaycan dilinin etnoqrafik leksikası. Bakı, Elm, 2008, 292 s., s. 161-168.
2. Булаховский Л.А. Курс русского литературного языка. Харьков, Разяньска Школа, 1937, 328 с.
3. Məmmədova T.V. İngilis hüquq terminologiyasının tərcüməsi problemləri. Qərb Un-t., Elmi xəbərləri, Humanitar elmlər seriyası, 2017, №2, s. 123-127, s. 126.
4. "Bakı Xəbər" qəz., 17 iyul, 2005; 16 apr., 2007; 13 okt., 2013;
5. "Kredo" qəz., 25 may, 2013; 12 avq., 2002; 16 sent., 2004; 16 iyul, 2004;
6. "Demokratik cəmiyyət" qəz., 16 sent., 2014; 12 apr., 2014; 12 avq., 2014;

Madina Rzayeva

Summary

NORM IN TERMS IN THE FORM OF WORD COMBINATIONS IN THE PRESS LANGUAGE

International terms used in the language of the press as word combinations also occupy an important place. It is worth mentioning once again that such terms have also found their place in the language of the press due to the intensification of information. Since the tendency to such terms increases in the face of a strong flow of information, there is a delay in the formation of their equivalents. Therefore, as long as there are no corresponding

terminological equivalents in the native language, the terms of the type discussed can be used on the basis of mandatory normality. Of course, it is not impossible to find native language equivalents for terms such as total terror (great terror), ecological genocide (ecological genocide), and social media (social press) in the language of the press.

Медина Рзаева

Резюме

НОРМА В ТЕРМИНАХ В ВИДЕ СЛОВОСОЧЕТАНИЙ В ЯЗЫКЕ ПРЕССЫ

Важное место занимают международные термины, используемые в виде словосочетаний в языке прессы. Еще раз уместно сказать, что подобные термины нашли свое место в языке прессы благодаря интенсификации информации. В условиях сильного потока информации происходит задержка формирования их аналогов, поскольку склонность к таким терминам возрастает. Поэтому, пока в родном языке нет соответствующих терминологических эквивалентов, указанные типовые термины могут использоваться на основании обязательной нормальности. Конечно, на языке прессы не обязательно найти на родном языке эквиваленты таких терминов, как тотальный террор (большой террор), экологический геноцид, социальные сети (социальная пресса).

Rəyçi: prof. A.Məmmədov

Sevinc Hüseynova
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0003-2169-1106

10.30546/2518-752X.1.601.023

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN PRAQMATİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *Linqvopraqmatika, dilçilik, kontekst, frazeoloji birləşmələr, praqmatika*
Keywords: *Linguistics, linguistics, context, phraseological combinations, pragmatics*
Ключевые слова: *Языкознание, лингвистика, контекст, фразеологические сочетания, прагматика*

Giriş. Praqmatik linqvistika XX əsrin ikinci yarısından başlayaraq formalaşmağa başlamışdır. Dilçilikdə praqmalinqvistikanın tədqiqat obyekti haqqında fərqli fikirlər mövcuddur. Əksər dilçilərə görə, bədii mətnlərin praqmalinqvistikası dil işarələri ilə onu işlədənlər arasındakı münasibətləri öyrənən sahədir. Bu fikir ona əsaslanır ki, bədii mətnlərin praqmalinqvistikası situasiyaya görə işlənən sözlər müəllif ideyasının daşıyıcıları olmaqla kontekstlə şərtlənir. Bütün müəlliflər mətn praqmatikasının verilməsində dil vahidlərinin düzgün seçiminə çalışsalar da, bəzən buna nail ola bilmirlər. Qeyd olunan xüsusiyyət müəlliflərin intellektual səviyyəsindən, bədii yaradıcılıq sərişdəsindən asılıdır. Bu kontekstdə somatik frazeoloji birləşmələrin mətn praqmatikasına uyğun şəkildə istifadəsi, onların yenidən mənalandırılması deməkdir. Bu əlamətlər mikromətn səviyyəsində də müşahidə edilir.

Praqmatika semiotikanın bir bölməsi kimi inkişaf etməyə başlamışdır. Onun mahiyyətində dil işarələrindən istifadə edənlə dil işarəsi arasındakı münasibətlər dayanır. Linqvistik praqmatika isə danışanın dil işarələrindən istifadə etmə xüsusiyyətlərini öyrənir[3].

Linqvopraqmatikanın tədqiqat dairəsi çox genişdir. Danışan dil işarələrindən istifadə edərkən onun müəllif məramına nə qədər uyğun gəlməsinin seçimi və onlardan necə istifadə etmək praqmalinqvistikanın tədqiqat obyektinə aiddir. Dil vahidləri əsas olaraq nominativ vahidlərdir, köməkçi sözlər və şəkilçilər fikrin ifadəsinə şərait yaradan, onun dəqiq çatdırılmasını təmin edən köməkçi vasitələrdir. İltisaqi quruluşlu dillər üçün deyilən bu fikir nominativ vahidlərlə qrammatiklərin funksional fərqlərini göstərməyə istiqamətlənib. Danışanın məramından asılı olaraq dilin balansında olan sözlərin içərisində seçimi linqvistik-məntiqi və üslubi-ritorik fəaliyyətdir. İstənilən insan intellektual səviyyəsindən asılı olaraq kommunikasiya prosesində bu fəaliyyəti yerinə yetirir. Dilin leksik-semantik sistemini əhatə edən bu əqli fəaliyyət çatdırılacaq fikirlə nisbətdə dil işarələri ilə işarələnməni maksimum səviyyədə dəqiq həyata keçirtmək nitqin effektliliyinə güclü təsir

edir. Qeyd olunan faktor dilçilik elminin bir çox sahələri ilə bağlı olsa da, məntiq, psixologiya və sosiologiya ilə də bağlıdır. Ona görə də bu elmlər praqmatikanın bir sıra məsələlərinin öyrənilməsində mühüm rol oynayır [7].

Deməli, praqmatika dil işarələrinin kommunikasiya prosesindəki fəaliyyət xüsusiyyətlərini öyrənir. Praqmatikanın əsas anlayışı nitq aktı və kontekstdən ibarətdir. Nitq aktı nəzəriyyəsi Qraysın adı ilə bağlıdır [4 ,s.41-58]. Onun nəzəriyyəsində nitq aktı iki yerə bölünür: əsas informasiya və implikatorlar. İmplikatorlar informasiyanın içərisində nəyisə deyir və ya işarə edir. Dil işarələrində istifadənin də öz prinsipləri vardır. Qrays onlardan bəhs edərkən aşağıdakı faktlara çox böyük önəm verir:

1. Kəmiyyət postulatı. Elə danış ki, lazım olduğu qədər informasiya ver. Tələb olunanı danış.

2. Keyfiyyət postulatı. Həqiqəti danış. Elə danış ki, kifayət qədər arqumentin olsun, yoxsa danışma.

3. Relevantlıq postulatı. İşin mahiyyətini danış.

4. İfadə xüsusiyyəti postulat. Qeyri-müəyyənlikdən qaç, belə ifadələr işlətmə.[4]

Göründüyü kimi, praqmatika dil işarələrindən istifadə xüsusiyyətlərini postulatlaşdıraraq nitq aktı nəzəriyyəsi kontekstində kommunikasiya prosesində dil işarələrindən istifadə prinsiplərini müəyyənləşdirmişdir.

Praqmatikanın öyrənilməsi sahəsində T.A.Van Deykin mühüm xidmətləri vardır. Onun fikrincə, praqmatikanın baza komponentlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Praqmatika sintaksislə semantikanın müqayisəsi stasusuna malik linqvistik nəzəriyyənin tərkib hissəsidir. İllokutiv nitq aktı praqmatikanın kompetensiyasına daxildir.

Praqmatik interpretensiya nitq aktı nəzəriyyəsinə daxildir; burada sintaktik cəhətdən düzgün, semantik cəhətdən qəbulolunan və düzgün ifadələr təhlilini tapır [5, s. 27].

V.Deykin praqmatika nəzəriyyəsində ifadələrin quruluşu ilə semantikasının düzgün qurulması ilə yanaşı, illokutuv xüsusiyyətləri də əsas kimi qəbul edir. Ümumən, informasiya qeyd olunan üç kontur üzərində qurulur: ifadələrin sintaktik və semantik cəhətdən düzgün qurulması və müəllif məramı.Məsələnin praqmatikliyi mətnə müəllif məramının daxil olması və mətnin sosial funksiyasının daxil edilməsi ilə bağlıdır. Dil işarələrinin kontekstə görə mənalandırılması müəllif intensiyasının ifadəsidir, yəni nitqin illokutiv aktı ilə bağlıdır .

Məsələn: “Sadıqcan bir an ayaq saxlayıb, tərəddüd etdi. O, Gülsənubərin Xan qızı olduğunu bilirdi. Yalnız buna görə yox, ümumiyyətlə, gənc dinləyicilərin sözünü yerə salmamağı adət etmişdi. Bu dəfə də Fatimə xanımgilin həyətinə daxil olub pilləkənləri qalxdı və qonaq otağından keçib qızlar əyləşən eyvana çıxdı. Və ayağa qalxaraq onu qarşılayan qızlar oturandan sonra özü də əyləşdi. Görünür, Gülsənubər, doğrudan da, Allahın vəhy elədiyi haqq aşiqi idi. Ürəyi elə çırpınırdı ki, qız özünü ələ ala bilmirdi.” [6,s.302]

“Sözünü yerə salmamaq”, “ürəyi çırpınmaq”, “özünü ələ ala bilməmək” somatik frazeoloji birləşmələri mikromətn kontekstində praqmatik funksiyanın formalaşmasında mühüm rol oynayır. İ.Əfəndiyev bu frazeoloji birləşmələri konteks-

tə görə uğurlu seçim etməklə mətn praqmatikasını düzgün motivləşdirmişdir. C.Ostin də somatik frazeoloji birləşmələri bu cür motivləşdirmiş və mikromətn kontekstində frazeoloji birləşməni praqmatik cəhətdən mənalandırmışdır:

“ But to be sure, Lucy would not give ear to such kind of talking; so she told directly (with a great deal about sweet and love, you know, and all that- Oh la! One can’t repeat such kind of things you know)-she told him directly, she had not the least mind in the world to be off, for she could live with him upon a trifle, and how little so ever he might have, she should be very glad to have it all, you know, or something of the kind. [1, s.274]

V.Deykin qeyd etdiyi kimi, C.Ostin və İ.Əfəndiyev əsərlərində somatik frazeoloji birləşmələri praqmatik funksiyaya uyğun olaraq təkrarən mənalandırmışdır.

Mətnin praqmatik təhlilinin əsas məqsədi adresata təsirdən ibarətdir. Nitqin təsir effektinin və həmin effekti yaradan dil vahidlərinin bu aspektdəki rolunun öyrənilməsi praqmalinqvistikanın əsas vəzifələrindən biridir. Bundan əlavə, təsirin nəticələrinin öyrənilməsi də praqmalinqvistikanın əsas vəzifələri sırasına daxildir.

Bədii mətn digər mətn növlərindən fərqli olaraq, estetik funksiyaya malikdir. O, sadəcə olaraq ümumi bilik deyil, onda psixoloji və sosial maraqların mövcudluğu onu mətnin hüdudlarından kənara çıxarır. Sözün estetik mənası sözün mövcudluğu deməkdir. Mətndə mühüm söz olmaq mühüm mənanı ifadə etmək deməkdir. Burada söhbət adi şeylərdən deyil, bədii fəlsəfi düşüncə dünyasından gedir.

Digər tərəfdən, bədii mətnin qurulmasının unikal forması nəzərdə tutulur. Həmin forma anlamanın xüsusi aspektləri vardır. Mətnin sintaqmatik, paradiqmatik əlamətlərinin və funksiyalarının müəyyənləşməsi bədii diskurs üçün də əhəmiyyətlidir. Əgər mətnə diskursiv fraqment kimi baxsaq, paradiqmatik diskurs müəllifin şüurunda yarandığını görə bilərik; bədii janrın və bədii formanın seçimi beyində öz əksini tapar. Ona görə də poeziya forması, onun ölçü sistemi, digər tərəfdən, lirik janrın üsulu, motivasiya və xronotopik period gözlənilməlidir. Bütün bunların hamısı mətn paradiqması olaraq bədii mətnin praqmatikasının yaradılmasına gətirib çıxarır.

Mətn praqmatikası deyəndə mətndə məlum olan dil vahidlərinin xüsusi olaraq işlənilməsi nəticəsində əlavə məna çalarının yaranması nəzərdə tutulur. Bədii mətnin praqmatikası da qeyd olunan dil vahidlərinin emosional və ekspressiv və dəyərləndirici aspektlərinin formalaşması hesabına verilir.

Mətnin praqmatik münasibətləri danışanla dinləyən arasındakı münasibətlərə istiqamətlənir; danışanın illokasiyası dinləyənin reaksiyası və ya necə qəbul etməsi mətn praqmatikası ilə bağlıdır. Bütün mətnlər praqmatikaya malik olsalar da, onlarda praqmatik zənginlik eyni səviyyədə deyil, müəllif düşüncəsindən, onun intellektual səviyyəsindən asılı olaraq mətn praqmatikası formalaşır. Dil vahidlərinin çox aspektləri mətn praqmatikasının verilməsində mühüm rol oynayır. Ona görə də mətnin praqmatik potensialı müəllifin dil vahidlərini seçimi və onların ifadə xüsusiyyətləri ilə bağlıdır. Bu kontekstdə mətn praqmatikasının effekti dinləyicidə özünü göstərir. Deməli, praqmatik potensial praqmatik effektdə özünü göstərir.

Praqmatik implikasiya hadisələrlə birbaşa deyil, bilavasitə bağlı olur; verilən hadisədən əqli nəticə çıxarılır. Ümumi informativ semantika aparıcı olaraq qalır. Deməli, implikasiya ümumi informativ mənadan çıxarılır. Məsələn:

"Nazxanımla Səriyyə mədəniyyət evinin kölgəsində oturub məni gözləyirdilər. Biz köhnə dostlar kimi sevinclə görüşdük. Bütün günü kitabxananı səliqəyə salmaqla məşğul olduq. Arada məndən piano çalmağı xahiş etdilər. Həvəsim olmadığından çalmadım. Mən işləmək, yorulub əldən düşüncəyə qədər işləmək, heç bir şey barədə fikirləşməmək istəyirdim. Nazxanım isə, ağzında çalıb-oxuyur, məzəli əhvalatlar danışaraq, Səriyyəni gözləri yaşarıncaya qədər güldürürdü." [6, s.82]

Verilmiş mətndə "əldən düşüncəyə qədər işləmək" frazeoloji birləşməsi mikromətn daxilində nitq situasiyasını təyin edir, yorğunluğa işarə edir; mikromətn bu situasiya üzərində qurulub.

Göründüyü kimi, İ.Əfəndiyev sözlərin seçimində, somatik frazeoloji birləşmələrin işlədilməsində müəllif maraqlarından, mətn praqmatikasından çıxış edir və mikromətn kontekstində çox uğurlu praqmatik situasiya yaradır.

Praqmalinqvistika frazeoloji birləşmələrin yerli-yerində işlənilməsini tələb edir; mətndə praqmatik yüklənmiş sözlər kontekstə, müəllif məramına görə dəqiq işlənilməlidir.

Elmi yenilik. Tədqiqat somatik frazeoloji birləşmələrin mikromətn səviyyəsində illokutiv və praqmatik funksiyalarını sistemli şəkildə araşdırır. İlk dəfə olaraq onların həm semantik, həm də emosional-ekspressiv yük daşıdığı və müəllif məramı ilə kontekstual seçiminin praqmatik interpretasiyada rol oynadığı göstərilmişdir.

Nəticə. Somatik frazeoloji birləşmələr müəllif məramının çatdırılmasında, nitqin təsir gücünün artırılmasında və mikromətn kontekstində praqmatik situasiyanın formalaşmasında mühüm rol oynayır. Bu birləşmələrin seçimi müəllifin intellektual səviyyəsi, üslubi bacarığı və məqsədyönlü dil istifadəsi ilə bağlıdır.

Ədəbiyyat:

1. Austen, J. (2017). Sense and Sensibility. MK Publications. p. 383.
2. Арланова, Т. Л. (n.d.). Объект лингвистической прагматики и аспекты современных прагматических исследований.
3. Википедия. (n.d.). Прагматика. Retrieved January 26, 2026, from https://ru.wikipedia.org/wiki/Прагматика
4. Grice, H. P. (1975). Logic and conversation. In P. Cole & J. L. Morgan (Eds.), Syntax and semantics (Vol. 3, pp. 41–58). New York: Academic Press.
5. Dijk, T. A. (1981). Studies in the pragmatics of discourse. The Hague: Mouton. p. 27.
6. Əfəndiyev, İ. (2015). Seçilmiş əsərlər. Bakı. p. 531.
7. Прагматика текста: Studbook. (n.d.). Retrieved January 26, 2026, from https://studbooks.net/literature/pragmatikateksta

Sevinj Huseynova

Summary

PRAGMATIC FEATURES OF PHRASEOLOGICAL COMBINATIONS IN ENGLISH AND AZERBAIJANI LANGUAGES

The article deals with the pragmatic features of phraseological combinations in English and Azerbaijani languages. Linguistic pragmatics is one of the relatively new fields in linguistics. It studies the relationship between language signs and those who use them. Linguopragmatics includes communicative effectiveness, public relations and advertising, speech etiquette, translation theory and practice, etc. is of special interest to those dealing with the problems. Linguopragmatics studies taking into account the age, gender, social

status and professional characteristics of the speakers, as well as the specific conditions and goals of the speech act during the use of the language. In general, textual pragmatics emerges on the basis of the purposeful choice of words by the author. That is, between the author and text pragmatics, language signs are determined by the author.

Севиндж Гусейнова

Резюме

ПРАГМАТИЧЕСКИЕ ОСОБЕННОСТИ ФРАЗЕОЛОГИЧЕСКИХ СОЧЕТАНИЙ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

В статье рассматриваются прагматические особенности фразеологических сочетаний в английском и азербайджанском языках. Лингвистическая прагматика – одно из относительно новых направлений лингвистики. Он изучает взаимосвязь между языковыми знаками и теми, кто их использует. Лингвопрагматика включает коммуникативную эффективность, связи с общественностью и рекламу, речевой этикет, теорию и практику перевода и т.д. представляет особый интерес для тех, кто занимается этими проблемами. Лингвопрагматика изучает с учетом возраста, пола, социального положения и профессиональных характеристик говорящих, а также конкретных условий и целей речевого акта в процессе использования языка. В целом текстуальная прагматика возникает на основе целенаправленного выбора слов автором. То есть между автором и прагматикой текста языковые знаки определяются автором.

Rəyçi: prof. A.Məmmədov

Shahla Naghiyeva
Azerbaijan University of Languages

10.30546/2518-752X.1.601.026

CROSSING CULTURES THROUGH TRIPLE TRANSLATION

Açar sözlər: *Üçlü tərcümə, ədəbi mübadilə, birbaşa tərcümə, mədəniyyət körpüsü*
Keywords: *Triple translation, literary exchange, direct translation, cultural bridge*
Ключевые слова: *Тройной перевод, литературный обмен, прямой перевод, культурный мост*

Introduction. Since the dawn of nations, language – as a means of communication – has walked alongside the culture of each people, becoming part of their spiritual wealth. Through translation, these nations develop, enrich, and expand by sharing each other's cultural treasures. When it comes to translation, direct translation from one language to another is always preferred, as it minimizes meaning loss and better preserves the spirit of the original.

During the Soviet era, due to the lack of professional translators in Azerbaijan proficient in foreign languages, translations into and from Azerbaijani were typically done through Russian. In fact, there was little need for professional translators at the time, as – just like in all other fields – everything in literature happened with Moscow's "approval."

After Azerbaijan gained independence, the situation in this field improved significantly: previously closed doors to English-speaking countries were opened, and academic exchange programs enabled the direct translation of literary works from Azerbaijani into English and vice versa without relying on intermediary languages.

Фразеологизмы обогащают выразительные возможности языка. Они создают эмоционально-экспрессивные оттенки и усиливают художественное воздействие речи. Фразеологизмы помогают говорящему выражать мысль более образно, лаконично и выразительно. В статье анализируются происхождение, структура, семантические особенности и стилистические функции фразеологических сочетаний. Также рассматриваются особенности их употребления в литературном языке, в повседневной речи и в публицистическом стиле. Практическая значимость статьи заключается в том, что полученные результаты могут быть использованы в области языкознания, стилистики и преподавания. Включение фразеологических единиц в учебный процесс способствует развитию речевых навыков студентов, формирует у них образное и выразительное мышление. Согласно полученным результатам, правильное и уместное употребление фразеологических сочетаний обогащает содержание речи. В заключение подчеркивается, что фразеологизмы являются важным средством повышения эстетической ценности и выразительной силы речи.

Rəyçi: dos. A.Hacıyeva

Vəfa Eminova
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0004-0731-8385

10.30546/2518-752X.1.601.028

MÜASİR İNGİLİS DİLİNDƏ *-ISM* VƏ *-SHIP* ŞƏKİLÇİLƏRİLƏ DÜZƏLƏN ABSTRAKT İSİMLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sözdüzəltmə, leksik-semantik xüsusiyyətlər, affiks sistemi, morfemlər, polisemiya, törəmə sözlər*
Keywords: *word-building, lexico-semantic features, affixal system, morphemes, polysemy, derived words*
Ключевые слова: *словообразование, лексико-семантические особенности, аффиксальная система, морфема, полисемия, производные слова*

Giriş. Söz yaradıcılığı qrammatika və lüğətlə sıx bağlıdır. Sözlər bir tərəfdən mövcud qrammatik qaydalara uyğun düzəlirsə, digər tərəfdən isə lüğət tərkibini zənginləşdirir. Dilçilikdə sözyaradıcılığından bəhs edərkən üç əsas üsul qeyd olunur. Bunlar: *leksik, morfoloji* və *sintaktik* usullardır. Morfoloji üsul sözyaradıcılığında morfoloji vahidlər vasitəsilə yeni sözlərin yaranması kimi şərh edilir. Bu vahidlərdən şəkilçilərin, yəni affikslərin rolu danılmazdır. Affiksasiya lüğətin inkişafıdır. Müasir ingilis dilində yeni sözlərin əmələ gəlməsinin məhsuldar üsullarından biri affikslər vasitəsilə olan sözyaradıcılığıdır. İngilis dilində affiksiyanın əsas funksiyası nitqin bir hissəsini digərindən yaratmaqdır; ikinci dərəcəli funksiya eyni nitq hissəsinin leksik mənasını dəyişməkdir. İki növ affiks var; *törəmə* və *funksional* affikslər. Leksikologiya ilk növbədə törəmə affikslərlə məşğul olur, digər qrup funksional affikslər isə qrammatikanın sahəsidir. Affikslər yeni söz yarada, leksik-qrammatik funksiya daşıya bilər.

Bu məqalədə affiklər vasitəsilə, daha dəqiq desək ***-ism*** **və** ***-ship*** şəkilçilərilə düzələn leksik vahidlərin leksik-semantik xüsusiyyətləri araşdırılmışdır.

1. *-ism* şəkilçisilə düzələn abstrakt isimlərin leksik-semantik xüsusiyyətləri

Müzakirə. ***-ism*** şəkilçisi ingilis dilinə ***-isme*** şəkilçisi olan alınma fransız sözündən daxil olmuşdur. Müasir ingilis dilində ***-ism*** müxtəlif elmi, nəzəri, ictimai-siyasi, elmi baxış və təmayülləri bildirən mücərrəd isimlərin sözdüzəldici şəkilçisi kimi geniş yayılmışdır. Məs.: idealism, colonialism, fascism, symbolism, romanticism, Aristotelism, Platonism və s.

Bu şəkilçinin ən məhsuldar olduğu dövr elm və texnikanın inkişafı ilə əlaqədar XVIII-XIX əsrlərə təsadüf edir [1, 102].

-ism şəkilçisinin köməkliyi ilə mücərrəd isimlərin yaradılması həm isim və həm də sifət əsaslarından mümkündür. Bu zaman *-ism* şəkilçisi aşağıda verilmiş semantik siniflərlə birləşə bilir:

1. Müəyyən elmi təlimlər, ictimai-siyasi və fəlsəfi baxış və təmayüllərin müəlliflərini bildirən xüsusi adlar. Məsələn: Leninism, Marxism, Darvinism, Platonism, Tomism, Spinosism, Luterism, Calvinism [6].

2. Mənsubiyyət, sədaqət, elmi cərəyan, fəlsəfi, elmi, ictimai-siyasi təlim və təmayüllərə müəyyən şəxslərin münasibətini bildirən sifətlər. Bu cür sifətlər adətən ***-an, -ian, -ean*** şəkilçilərinin köməkliyi ilə xüsusi ad əsaslarından düzəldilir. Məsələn: Confucianism Konfusinin elmi təlimi; Epicureanism Epikürün elmi təlimi; Fabianism fabianlıq; Voltairianism Volterin elmi təlimi; Hegelianism, Leibnitzianism, Baconianizm, Kantianism, Vesleyanizm (Con Vesleyin öyrətdiyi ilahiyyat sistemi) [3].

3. Nəyəsə mənsub, aid olan, hansısa xassə, xüsusiyyət, eyniyyəti daşıyan, nəyəsə xaslıq, nədənsə ibarət olan, nə iləsə əlaqəli və ya aidiyyəti olan mənalı sifətlərin çoxsaylı semantik sinifləri. Bu cür sifətlər adətən ***-al, -ic, -ive, -ary*** şəkilçiləri ilə düzəlir. [4, s.184]

Bu semantik sinifdən olan və *-ism* şəkilçisi ilə bitən törəmə sözlərin 50%-i *-al* ilə bitən sifətlərdən düzələn sözlərin payına düşür.

Bu semantik sinfə aid sözlərdən düzəldilmiş və *-ism* ilə bitən isimlər əsasən, elm və ictimai-siyasi ədəbiyyatda işlədilərək mücərrəd keyfiyyət və nəzəriyyə, cərəyan, təlim və s. adlandırılır. Məsələn: conventionalism şərtilik, adilik (müq. conventional), departmentalism bürökratizm (müq. departmental); existentialism ekzistensializm (müq. existential); formalism formalizm (müq. formal); cynicism sinizm (müq. cynic); didacticism didaktizm (müq. didactic); lyricism lirizm (müq. lyric); pacifi(ci)sm pasifizm (müq. pacific); positivism pozitivizm (müq. positive); relativism (fəls.) relativizm (müq. relative); objectivism obyektivizm (müq. objective); militarism militarizm (müq. military); parliamentarism parlamentarizm (müq. parliamentary); revolutionarism inqilabilik (müq. revolutionary) [5].

4. Hər hansı millət, xalq, ölkə, müəyyən yer və s., dilini bildirən sifətlər. Bu halda *-ism* şəkilçisi dialektivzm və ya nitq xüsusiyyətini bildirir. Məsələn: Americanism, Anglicism, İtalicism, vulgarism, provincialism, foreignism, modernism, newspaperism və s. [2].

Bu cür isimlər həm də üslubun bildirilməsi üçün işlədilir və bu halda *-ism* şəkilçisi sözügedən müəllifin adına birləşir. Məsələn: Byronism, Pushkinism, Carlylism.

Dildə *-ism* şəkilçisi ilə düzəlmiş və üslubi çalar əlavə olunmuş bir sıra düzəltmə sözlər var. Bu cür sözləri düzəltməklə, *-ism* şəkilçisi hörmətsiz və alçaldıcı məna çaları ilə işlədilən isim və sifət kökləri ilə birləşir. Bu cür düzəldilən isimlər çox vaxt yarımsistem və ya doktrina anlayışını ifadə edir: egotism eqoizm; babyism uşaqlıq; blackguardism alçaqlıq, pislik; defeatism məğlub olmuşluq; gangsterism qansterlik; idiotism idiotçuluq; knownothingism 1) nadanlıq; 2) (fəlsəfi) agnosisizm; scoundrelism aşağılıq, alçaqlıq. [5, s.167]

Tibb sahəsində ***-ism*** ilə bitən sözlər çox vaxt anormal vəziyyət mənasını bildirir. Məsələn: alcoholism alkoqolizm; deafmutism kar-korluq; anomalism anomallıq, anormallıq və s. [1]

Əksər hallarda *-ism* ilə bitən isimlər *-ize* ilə bitən feil və *-ist* ilə bitən isimlərlə uzlaşır. Məsələn: realize – realizm – realist, secularize – secularism – secularist, idealize – idealism – idealist. Bu uzlaşma onunla izah olunur ki, ***-ize, -ism, -ist*** şəkilçiləri eyni semantik siniflərdən yeni sözlər düzəldir.

-ism, -ness, -ity şəkilçilərindən düzəldilmiş sözləri müqayisə etsək, bu şəkilçilərin mənalarındakı fərqləri asanlıqla görmək mümkündür. Yuxarıda da qeyd edildiyi kimi, *-ism* şəkilçisi elmi təlim, əqidə, nəyəsə sadiqlik, sistem, doktrina və s., göstərilməklə mürəkkəb isimlər düzəltdiyi halda, *-ness* və *-ity* şəkilçiləri keyfiyyət, əlamət, şərt, hal və s., mücərrəd mənalar verir. Müqayisə üçün aşağıda verilmiş isimlərin mənalarını nəzərdən keçirək: formalism formalizm, pedantlıq və formality təsbit olunmuş norma və qaydalara riayətkarlıq, formallıq; realism realizm və reality reallıq, həqiqət; opportunism opportunizm və opportunity əlverişli vəziyyət, imkan; simplism sadələşdirmə və simplicity sadəlik, sadəlövhlük; subjectivism (fəl.) subyektivizm və subjectivity subyektivlik.

-ism şəkilçisinin köməkliyi ilə mücərrəd isimlərin yaradarkən müəyyən morfoloji və fonetik dəyişikliklər baş verir. [3, s.142]

Birincisi, bəzi hallarda ***-ary, -ic, -ent*** şəkilçiləri ilə bitən sifət əsaslarının qısaldılması baş verir. Məsələn: exclusionism <exclusionary, somnolism < somnolent, cynicism <cynic.

İkincisi***, -ism*** şəkilçisinin köməkliyi ilə frazeologizm, dialektizm, nitq xüsusiyyəti mənalı şəkilçilər yaradıldığı halda *-ism* şəkilçisinin birləşdiyi sifət şəkilçisi (bir qayda olaraq, bu *-ish* şəkilçisidir) də atılır və mürəkkəb ***-icism*** şəkilçisi artırılır. Məsələn: Irish – Iricism, British – Briticism. [1]

Üçüncüsü, ***-ar*** ilə bitən sözlərdə söz kökünün son səsi (r) olur. Məsələn: secular dünyəvi; secularism kilsədən azad məktəb uğrunda mübarizə.

Dördüncüsü, *-ism* artırıldıqda ***-ic*** şəkilçisi ilə bitən sifətlərdə şəkilçinin **(k)** kar samiti **(s)**-ya keçir. Müqayisə edin: classic – classicism; attic – atticism; didactic – didacticism.

2. *-ship* şəkilçisilə düzələn abstrakt isimlərin leksik-semantik xüsusiyyətləri

Tarixi ***-ship*** şəkilçisi mürəkkəb isimlərin ikinci komponenti kimi çıxış edən **scipe** ismindən sözdüzəltmə prosesində yaranmış və inkişaf etmişdir (mənəvi-psixoloji vəziyyət, əqidə, ruhi halət; meyllilik, hal, ad, vəzifə). Qədim ingilis dövrünün sonuna yaxın **scipe** elementinin şəkilçiyə keçidi ona görə başa çatdı ki, o zamana qədər scipe müstəqil leksik vahid kimi əhəmiyyətini itirdi. İlkin mərhələdə *-ship* şəkilçisi mücərrəd isimləri yalnız qədimi əsaslardan düzəltdiyi halda, 12-ci əsrdən başlayaraq, roman əsaslarına da birləşməyə başladı [1, 89].

Qədim ingilis dilində -ship şəkilçisi həm isim və həm də sifət əsasları ilə eyni qaydada birləşə bilirdi. 13-cü əsrdə o əsasən, sifət əsasları ilə birləşirdi. Müasir ingilis dilində *-ship* şəkilçisi mücərrəd isimləri yalnız isim əsaslarından düzəldir. Əsası sifət olan *-ship* ilə bitən törəmə sözlər hələ qədim – orta ingilis dövrlərində düzəldilmişdi. Məsələn: falseship yalan, xainlik; hardship məhrumiyyət, ehtiyac; madship ağılsızlıq; swiftship cəldlik; wildship vəhşilik. Lakin bu cür sözlərin hamısı yerini eyni məna kəsb edən və dildə hal-hazırda işlədilməyən *-ness* şəkilçili sözlərə vermişdir [6, s.57].

Beləliklə, müasir ingilis dilində *-ship* şəkilçisi substantiv əsaslardan olan mücərrəd isimlərinin düzəldilməsi üçün işlədilir və birləşdikdə aşağıdakı mənaları bildirir:

1) hal və ya keyfiyyət mənası (birgəlik məna çaları ilə);

Bu halda *-ship* şəxsi bildirən isim köklərinə birləşir və onlara söz kökünün bildirdiyi hal, vəziyyət və ya keyfiyyət mənasını verir. Məsələn: authorship müəl-

liflik (müəllif olmaq hal və ya keyfiyyəti); directorship direktorluq (direktor olmaq halı); friendship dostluq (dost olmaq halı); membership üzvlük (üzv olmaq halı); companionship ünsiyyət, yoldaş münasibətləri (yoldaş olmaq hal və ya vəziyyəti); comradeship yoldaş münasibətləri (yoldaş olmaq halı) və s. [7]

2) vəzifə, peşə, ad, rütbə mənaları;

Bu mənanı ifadə edərkən, *-ship* şəkilçisi şəxsi bildirən isim köklərinə birləşsə də, birinci semantik sinifdən fərqli olaraq, bu qrupa aid isimlər müəyyən fəaliyyət növü ilə məşğul olan şəxsləri bildirir. Məsələn: championship çempion adı; clerkship katib vəzifəsi; generalship general adı, rütbəsi; ladyship ledi titulu, adı; mastership müəllim adı; pageship mürəttib vəzifəsi; readership mühaziraçi vəzifəsi; (birgəlik) oxucular; chancellorship kansler adı; (birgəlik) kargüzarlıq; chairmanship sədr vəzifəsi [7].

3) ***-man (-woman)*** şəkilçili isim sifətlərinə birləşərək *-ship* şəkilçisi ustalıq, zirəklik, bacarıq mənasını bildirir. Məsələn: horsemanship at sürmə ustalığı; draftmanship rəsm çəkmə ustalığı; markmanship dəqiq atıcılıq bacarığı; oarsmanship avarçəkmə ustalığı, bacarığı; penmanship yazı bacarığı, dəqiq yazı; ropemanship kanat üzərində hərəkət etmək ustalığı; alpinist ustalığı; salesmanship alıcı tapma ustalığı; mal təqdim etmək ustalığı; seamanship dənizdə üzmə ustalığı; statesmanship dövlət idarəçilik ustalığı və s. [4]

4) Bir sıra törəmə sözlərə rast gəlinir ki, onlarda *-ship* şəkilçisi birgəlik mənasını bildirir. Bu cür mücərrəd isimlərin düzəldilməsi üçün bu şəkilçi şəxs və ya (nadir hallarda) yaşayış məntəqələrini bildirən isim kökləri ilə birləşir. Məsələn: fellowship yoldaşlıq; qardaşlıq; korporasiya; partnership tərəfdaşlıq, kompaniya; trusteeship qəyyumluq; himayədarlıq; township (şəhər, icma sakinləri).

Müasir ingilis dilində *-ship* şəkilçisi az məhsuldardır. O, yalnız "ustalıq, zirəklik, bacarıq" mənalı mücərrəd isimləri düzəldir. Marçandın qeyd etdiyi kimi, *-ship* şəkilçisi hal-hazırda başqa mənalarda işlədilmir.

Nəticə. Dilin lüğət tərkibinin zənginləşməsində sözyaradıcılığı mühüm rol oynayır. Sözyaradıcılığının ən əsas üsullarından biri affikslər vasitəsilə olan sözyaradıcılığıdır. Suffikslər affikslərin elə növüdür ki, onları söz kökünün sonuna artırmaqla dildə yeni semantik sözlər əmələ gəlir.

Biz bu məqalədə ***-ism*** **və** ***-ship*** şəkilçilərilə düzələn abstrakt isimlərin leksik-semantik xüsusiyyətlərini ictimai, siyasi, texniki və bədii materiallardan götürülmüş nümunələr əsasında ətraflı şəkildə təhlil etdik və belə bir məntiqi nəticəyə gəldik:

1) ***-ism*** şəkilçisi ingilis dilinə fransız mənşəli ***-isme*** sözündən alınıb. ***-ism*** şəkilçisi elmi təlimlər, ictimai-siyasi və fəlsəfi baxış və təmayüllərin müəlliflərini bildirən mücərrəd isimləri, məs: Darwinism, pragmatism, nihilism; ***-an, -ian*** **və** ***-ean*** şəkilçilərilə bitən sifət əsaslarına birləşərək təlim və təmayüllərə münasibəti bildirən mücərrəd isimləri, məs: Americanism, Kantianism; ***-al, -ic, - ive*** **və** ***-ary*** şəkliçilərilə bitən sifətlərə birləşərək nəyəsə mənsub olan mücərrəd isimləri, məs: materialism, idealism, nationalism, romanticism, panicism, collectivism, aggressivism, missionaryism, honorraryism; hər hansı millət, ölkə və yerə mənsub olan dili ifadə edən sifətlərdən mücərrəd ismləri, məs: Cubanism, Britishism, Arabism; müəllif adına birləşərək üsubu ifadə edən mücərrəd isimləri, məs: Marxism, Freudianism, Nietzscheanism; hörmətsiz və alçaldıcı məna çalarlarını ifadə edən isim və sifət köklərinə birləşərək mücərrəd isimləri, məs: ableism, misanthropism,

ageism, sexism, racism; tibbi sözlərə birləşərək anormal hal və vəziyyəti ifadə edən mücərrəd sözləri əmələ gətirir, məs: autism, parkinsonism, dysmorphism və s. Tədqiqat prosesində belə bir qənaətə gəldik ki, müasir ingilis dilində **-ism** şəkilçisi kifayət qədər məhsuldar şəkilçidir.

Elmi məqalədə daha bir sözdüzəldici şəkilçi, ***-ship*** şəkilçisi ətraflı şəkildə tətqiq edilib. ***-ship*** sözdüzəldici şəkilçisi fransız mənşəli ***-scipe*** isimindən sözdüzəltmə prosesində yaranıb və inkişaf edib. Bu şəkilçi XII əsrdən başlayaraq roman əsaslarına birləşməyə başladı və ***-ship*** şəkilçisi hal və ya keyfiyyət mənasını bildirən mücərrəd isimləri, məs: athorship – müəllif olmaq hal və keyfiyyəti; vəzifə, peşə və rütbə mənalarını ifadə edən mücərrəd isimləri, məs: mastership – müəllim adı, chairmanship – sədrlik etmək qabiliyyəti; ***-man*** **(-woman)** şəkilçili isimlərə birləşərək ustalıq və bacarıq mənasını bildirən mücərrəd isimləri, məs: penmanship – yazı bacarığı, statesmanship – dövlət idarəçilik ustalığı; şəxs və ya yaşayış məntəqələrini bildirən isim köklərilə birləşərək mücərrəd isimləri düzəldib, məs: partnership – tərəfdaşlıq, township – şəhər və ya icma sakinləri və s.

Tədqiqat prosesində müəyyən etdik ki, müasir ingilis dilində ***-ship*** şəkilçisi məhsuldar sözdüzəldici şəkilçi deyil. O hazırda yalnız spesifik kontekstlətdə işlənir, məs: gamer-ship, blogger-ship və s. Nümunələrdən göründüyü kimi ***-ship*** suffiksilə düzələn leksik vahidlərin sayı ***-ism*** suffiksilə müqayisədə hədsiz dərəcədə azdır. Artıq ***-ship*** şəkilçisi Orta İngilis dili dövründən (1150-1500 A.D.) Müasir İngilis dili dövrünədək (1500-Present) (XV-XVII) olan zaman kəsiyində, yəni XII əsrdən – XVII əsrədək olduğu kimi məhsuldar deyil. Beləki, XVII əsr **-ship** şəkilçisinin çiçəklənən dövrü hesab edilir, çünki V.Şekispirin və İ.Nyutonun əsərlərində ***-ship*** şəkiliçili leksik vahidlər daha çox işlənib.

Ədəbiyyat:

1. Зятковская, Р. Г. (1971). Суффиксальная система современного английского языка. Москва: Высшая школа.
2. Леонтьева, С. Ф. (1974). Отрицательные аффиксы в современном английском языке. Москва: Высшая школа.
3. Мешков, О. Д. (1986). Словообразование современного английского языка. Москва. с. 187.
4. Карашук, П. М. (1977). Аффиксальное словообразование в английском языке. Москва, с. 186–187.
5. Arnold, I. V. (1986). The English word. Moscow.
6. Hajiyeva, A. (2011). English lexicology. Baku: Science and Education. 248 p.
7. Bauer, L. (1983). English word-formation. Cambridge: Cambridge University Press. 311 p.

İnternet saytları

8. https://www.bbc.co.uk/
9. https://www.bsu.by/upload/pdf/229523.pdf
10. http://www.dailymail.co.uk
11. http://www.express.co.uk
12. http://www.ft.com
13. http: www. words-ism .html
14. http: www. –ship –suffix.htlm

Vefa Eminova

Summary

LEXICAL-SEMANTIC FEATURES OF ABSTRACT NOUNS FORMED BY THE SUFFIXES *'-ISM'* AND *'-SHIP'* IN MODERN ENGLISH

The suffixes ***-ism*** and ***-ship*** are non-productive in modern English, though they played significant roles in forming abstract nouns. ***-ism***, borrowed from French ***-isme,*** was highly productive in the 18th and 19th centuries, driven by advancements in science and technology. It forms complex nouns from noun and adjective roots, expressing ideas related to scientific teachings, philosophical views, loyalty, and socio-political trends (e.g., *Lutherism, Fabianism*). It also conveys possession, style, derogatory connotations (e.g., *idiotism*), and abnormal medical conditions (e.g., *anomalism*).

The suffix ***-ship***, derived from the Old English noun ***-scipe***, developed from noun roots and began to merge with Roman roots by the 12th century. It forms complex nouns signifying abstract qualities (e.g., *authorship*), titles or ranks (e.g., *mastership*), and skills or mastery (e.g., *statesmanship*). Despite its historical importance, *-ship* now forms only limited terms related to mastery and skill.

Both suffixes have lost their productivity in modern English but still contribute to the language's lexical-semantic features.

Вэфа Эминова

Резюме

ЛЕКСИКО-СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ АБСТРАКТНЫХ СУЩЕСТВИТЕЛЬНЫХ, ОБРАЗОВАННЫХ С ПОМОЩЬЮ СУФФИКСОВ *'-ISM'* И *'-SHIP'* В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Суффиксы ***-ism*** и ***-ship*** являются непродуктивными в современном английском языке, хотя они сыграли значительную роль в образовании абстрактных существительных. Суффикс ***-ism***, заимствованный из французского ***-isme***, был особенно продуктивен в XVIII-XIX веках, чему способствовали достижения в науке и технике. Он образует сложные существительные от корней существительных и прилагательных, выражая идеи, связанные с научными учениями, философскими взглядами, верностью и социополитическими направлениями (например, *лютеранство, фабианизм*). Суффикс также передаёт значения обладания, стиля, уничижительных коннотаций (например, *идиотизм*) и аномальных медицинских состояний (например, *аномализм*).

Суффикс ***-ship***, происходящий от древнеанглийского существительного ***-scipe,*** развивался от корней существительных и начал сливаться с римскими корнями к XII веку. Он образует сложные существительные, обозначающие абстрактные качества (например, *авторство*), титулы или ранги (например, *мастерство*), а также умения и навыки (например, *государственное управление*). Несмотря на историческое значение, *-ship* теперь используется только для образования ограниченных терминов, связанных с мастерством и умениями. Оба суффикса утратили продуктивность в современном английском языке, однако продолжают вносить вклад в лексико-семантические особенности языка.

Rəyçi: dos. C.Babayev

Xədicə Heydərova
AMEA Nəsimi adına Dilçilik İnstitutu
https://orcid.org/0000-0002-1148-8326

NƏSİMİNİN POEZİYASINDA HÜRUFİ ANTROPOLOGİYAYA AİD TERMİNLƏRİN LEKSİK-QRAMMATİK, ETİMOLOJİ VƏ STATİSTİK TƏHLİLİ

Açar sözlər: *Nəsimi, hürufilik, antropologiya, əbcəd, bədən üzvləri, şeir dili, terminologiya, semantika*
Keywords: *Nasimi, Hurufism, anthropology, abjad, body parts, poetic language, terminology, semantics*
Ключевые слова: *Насими, хуруфизм, антропология, абджад, части тела, поэтический язык, терминология, семантика*

Giriş. Hürufilik XIV əsrdə Fəzlullah Nəimi tərəfindən yaradılan ezoterik-fəlsəfi cərayan olub, Quran ayələrinin, insan bədəninin və kainatın rəqəm-hərf sisteminə uyğun yozulması prinsipinə dayanır. Hürufi antropologiya bu sistem daxilində insan bədənini ilahi hikmətin təcəllisi kimi qavrayır. Nəsimi poeziyası bu baxışdan olduqca zəngindir. Bu məqalədə Nəsiminin şeirlərində istifadə olunan hürufi antropologiyaya dair terminlər leksik, qrammatik, etimoloji və statistik baxımdan araşdırılacaq.

Leksik Analiz: Terminologiya Sahələri

Nəsiminin poetikasında insan bədəninin hissələri konkret hərf-rəqəm simvolikası ilə izah olunur. İstifadə edilən terminlərin leksik kateqoriyalarına aşağıdakılar daxildir:

Anatomiya və bədən hissələri: üz, vəch, surət, rux, dodaq, ləb, dil, diş, qaş, zülf, göz, kirpik, sinə, ağız, dəhan, ciyər, öd, boy, tən, bədən, qamət, qədd, vücud, dalaq, bağırsaq, göbək, əmcək, ayaq

Hürufi anlayışlar: 32 hərf, otuz iki diş, kün-fəkan, Kə'bə, laməkan, hərf, xətt, nöqtə.

Qeyd edilməlidir ki, bəzi Qurani terminlər (ayət, surə, rəhmən, rəbbani, kəlamullah və s.) Nəsimi şeirində mütləq ilahi kəlamın insan simasında təcəllisi kimi məcazi şəkildə istifadə olunsa da, onlar bədən üzvləri kateqoriyasına daxil deyil, poetik paralellik və bənzətmə vasitələridir.

Nəsimi poeziyasında bəzən bədən üzvləri konkret planetlərlə və bürclərlə assosiasiya edilir. Məsələn:

Dalaq – Zühəl
Öd – Mərrix
Bağırsaq – Müştəri, Sünbülə
Göbək – Mizan
Sinə – Əsəd
Əmcək – Sərətan

Bu cür identifikasiyalar həm hürufi kosmologiyanı, həm təbii-təbiblərin semantik və hərfi sistemlərini bir araya gətirir. "Kimin ki, könlü dilədi ayağını öpmək, başını oynamaq ona mücərrər olmuşdur" [4, s. 144] beyti ayaq orqanının metafizik anlamda ucaldıldığını göstərsə də, ayaq bürc və ya planetlərlə assosiasiya olunmur.

Şairin əsərlərində əks olunmuş terminləri analiz etdikdə onun əqidə və yanaşmasını izləmək mümkündür. Məsələn:

"Kirpigin, qaşınla zülfün Həq kitabıdır, vəli
Ol kitabı kim bilir mən indəhü "Ümmül-kitab"" [3, s. 22]

Nəsimi birinci beytdə insanın kirpik, qaş və saçını Allahın kitabı adlandırır və həmin kitabı biləni "mən indəhu ümmül-kitab" (ər. o kəs ki, "Ümmül-kitab" onun yanındadır) adlandırır. Bu ifadə Rad surəsi, ayə 39-dan iqtibas edilmişdir. Hürufilər isə Quran ayələrini fərqli izah edirdilər və belə hesab edirdilər ki, batini mənanı görürlər. Onların fikrincə, ümmül kitab Fatihədir: "Ümmül-kitab olan Fatihə surəsində 21 hərf vardır. Ayrıca üzdə olan 21 xəttə də Fatihənin ayələri ilə olan bu uyğunluğa görə "Ümmül-kitab" deyilir" [6, s. 201]. "Həvvanın üzündə də 21 xətt vardır: 7 ümmi-xətt, bu 7 ümmi-xəttin məhəlli və 7 abavi-xəttin məhəlli" [5, s. 218]. Fəzlullah "Ümmül-kitab"ın Həvvanın üzündəki xətlərin sayı qədər hərflərdən ibarət Fatihə surəsi olduğunu söyləyir və "Ümmül-kitab"ın sahibi hz. Məhəmməddir" [5, s. 379].

Hürufilər Məhəmməd peyğəmbərin hədisinə ("Rəbbimi merac gecəsində əmrəd qətət olaraq gördüm") əsaslanaraq "əmrəd qətət"i ümmül-kitab surəti hesab edirlər: "Ümmi-xətlər saç, iki kaş, dört kirpik olmaq üzrə 7 xətdir" [5, s. 138]. "Fəzlullah isə ümmül kitabın Həvvanın üzündəki xətlərin sayı qədər hərflərdən ibarət Fatihə surəsi olduğunu söyləyir və ümmül-kitabın sahibi hz. Məhəmməddir" [5, s. 379].

Əbcəd hesabı da hürufi antropologiyanın əsas sütunlarından biri kimi insan bədəninə tətbiq olunurdu. Məsələn, "vücud" sözünün ərəb hərfləri ilə yazılışı (و ج و د) əbcədlə 6 + 3 + 6 + 4 = 19 edir. Bu da bəzi hurufi mənbələrdə 19 sayının ilahi tənasüb rəmzi kimi təqdim olunması ilə əlaqələndirilir. Habelə, "sinə" sözünün (ص ن ه) əbcəd qarşılığı 90 + 50 + 5 = 145-dir və bəzi rəmzi yozumlarda 145-ci ayə və ya surə ilə bağlantı axtarılır. Bənzər şəkildə "qaş" 300 + 1 + 100 – (ق ا ش) 401 =, "göz" 130 = 50 + 10 + 70 – (ع ی ن) kimi dəyərlərlə müəyyən kosmik və Quraniləşdirilmiş uyğunluqlar qurulurdu. Hurufilər bu hesablamalardan istifadə edərək bədənin hər bir üzvünü ilahi sistemin parçası kimi izah edirdilər.

"Həqdən oldu ümməti-Əhməd vəsət
Vəchinin lövhündədir sivü dü xət" [4, s. 279]

Burada "ümməti-vəsət" ifadəsi ilə orta ümmət – yəni hürufilər nəzərdə tutulur.

"Vücudum şəhrinin cəlladı dişdir
Nə ki loğma sunar çeynər dəhanım" [4, s. 135]

Bu beyt hürufi təlimin əsas elementlərindən olan bədən üzvlərinin funksional və rəmzi dəyərini əks etdirir. Diş – 32 ədəd olmaqla fars əlifbasının metaforudur. Hürufilər bu dişləri hərflərin daşıyıcısı, dəhanı isə kəlamın çıxış qapısı kimi görürlər. *Loğma* yalnız qida deyil, həm də ilahi hikmətin simvoludur. Diş onu çeynəməklə – yəni zahirdən batinə keçməklə – mənanı açır. Beləcə, "vücud şəhəri"ndə hökmü icra edən "cəllad" məhz hərfləri doğrayaraq mənanı ifadə edən dişdir.

"Büruc içrə əyaq Hutü, Həməl – baş,
Qəmər həm övkədir, bürcü zəbanım" [4, s. 203]

Bu beyt Nəsiminin hürufi sistemlə astro-tibbi və rəmzi semantikaları sintez etməsinin örnəyidir. Burada qədim astroloji təlimə əsasən bədən üzvləri bürclərlə əlaqələndirilir: ayaq – Hut (Balıq), baş – Həməl (Qoç), övkə – Qəmər (Ay) ilə, zəban – Əqrəb bürcünün ulduzu ilə. Zəban həm də farsca "dil" mənasında işlənir və burada Nəsimi öz dilini, yəni nitq və kəlamını ilahi ulduz nizamı ilə əlaqələndirir. Bu isə insanın mikrokozmos, bürclərin isə makrokozmos olması prinsipinə söykənir. Hurufi baxışa görə insanın bütün bədən üzvləri ulduzlar, saylar və hərflərlə birbaşa əlaqəli qurulmuşdur.

Orxan Mirqasımov hürufi təlimin həm şiə, həm də sufizm elementlərini birləşdirdiyini qeyd edir və Nəsiminin poetikasında bu elementlərin zahirdən batinə keçidi ifadə etdiyini göstərir [2, s. 113-115].

V. Çağla Karslı qeyd edir ki, "Hurufiliyə görə gözəllik mərkəzinin üz olması, ilahi xətlərin üzə işlənmiş olmasındandır. Üzdəki xətlər duyğularla qavranan, amma batini anlam daşıyan simvolik strukturlardır" [1, s. 146].

Qrammatik Strukturlar: Sintaktik Model

Bu terminlər Nəsimi poeziyasında adətən izafət birləşmələri şəklində təqdim olunur. Misal:

"Ləbin abi-həyatındandır, ey can" [4, s. 138]

Burada "ləbin abi-həyatı" konstruksiyasında isim + izafət + isim quruluşu insanın bir orqanını ilahi su (abi-həyat) ilə tən tutaraq hərfi simvola çevirir.

Digər struktur tipik misal:

"Vəchə yazdı otuz iki hüruf" [4, s. 135]

Burada feili söyləm ("yazdı") məcazlaşaraq simvolik bir aktı ifadə edir. Fel + obyekt + təyini söz birləşməsi quruluşu dominant sintaktik formuldur. Terminlər poetik dilin məcaziliyi daxilində simvolik-mistik yük daşıyır.

Etimoloji Təhlil

İstifadə olunan terminlərin mənşə baxımından təhlili hürufi anlayışların tarixi-mədəni qatlarını açmağa kömək edir:

Üz: qədim türk mənşəli söz olub, insan simasının bütöv mənzərəsini bildirir. Hürufi mənada "üz" Allahın zahiri təcəllası və Quran kəlamının daşıyıcısıdır.

Ləb / dodaq: fars mənşəlidir; danışığın çıxış nöqtəsi olduğu üçün ilahi nitqin metaforu kimi təqdim olunur.

Dil: həm türk, həm də fars mənşəli iki omonim sözdür. Farsca "ürək, qəlb" mənasında işlənilir. Türk dilində isə birbaşa "danışıq orqanı", məcaz olaraq isə "söz" anlamındadır. Nəsimi poeziyasında bu ikili semantika qorunur: həm kəlamın daşıyıcısı, həm də mənəvi duyğunun mərkəzi kimi işlənir. Bu da Nəsiminin eyni leksik vahiddə çoxqatlı mənalandırma bacarığını göstərir.

Zülf: sözü isə fars mənşəlidir (زلف) və klassik poeziyada əsasən saçın buruq telləri, alın və ya çiyin üzərinə düşən incə saç qıvrımları mənasında işlədilir. Nəsimi yaradıcılığında Məhəmməd peyğəmbər və Quranı assosiativ olaraq simvolizə edir.

Dəhan / ağız: fars mənşəli "dəhan" – "ağız" mənasında işlənir, ilahi sözün çıxdığı müqəddəs mərkəzdir.

Ciyər / öd / dalaq / bağırsaq: daxili orqan adlarının əksəriyyəti türk və ərəb mənşəli olub, metaforik dildə "eşq yanğısı", "ruhi ağrı" kimi işlədilir.

Bu etimoloji qatlar sözlərin yalnız anatomiya baxımından yox, həm də mənəvi və kosmik anlamlar daşıdığını göstərir.

Statistik Təhlil: Terminlərin Tezliyi

Kitabda qeyd olunan hürufi-antropoloji terminlər arasında statistik baxımdan ən çox təkrar olunanlar bunlardır:

Üz/vəch/surət/rux – 40+ istifadə (mənəvi Kəbə, rəhmən surəsi, sima)

Ləb/Dodaq/Dəhan/Ağız – 30+ (nitqin çıxış mənzili, abi-həyat)

Zülf – 20+ (Məhəmməd peyğəmbər↔Quran)

Dil – 15+ (ilahi nitqin daşıyıcısı)

Diş – 8+ (32 hərfin simvolu)

Kirpik/Göz – 10+ (idrak, nuru-kamilin vasitəsidir)

Sinə/Ciyər/Öd/Dalaq/Bağırsaq/Göbək/Əmcək – 20+ (eşq, yanğı, daxili orqanların kozmik metafora çevrilməsi)

Bu terminlərin tezliyi Nəsiminin poetik sistemində hürufi antropologiyanın aparıcı konsepsiya olduğunu göstərir.

Nəticə

Nəsimi yaradıcılığında hürufi antropologiya leksik, qrammatik, etimoloji və poetik sistemlə inşa olunmuş dərin konsepsiyadır. Bu poetikada insan bədəni rəqəm-hərf sisteminə tabedir və bütün üzvlər ilahi məna daşıyır. Qurani anlayışlarla qurulan poetik paralellər bu bədəni ilahi metafora çevirir. Terminlərin etimoloji və statistik təhlili bu sahənin poetik leksikonunun konturlarını aydınlaşdırır. Beləliklə, Nəsimi həm poetik, həm qrammatik, həm də ontoloji baxımdan hürufi bədən modelini quran şairdir.

Ədəbiyyat:

1. Karslı, V.Ç. (2014). *Hurufilik ve Sûfî Estetik: Nesîmî Örneği*. İstanbul: İnsan Yayınları.
2. Mir-Qasımov, O. (2015). *Words of Power: Hurufī Teachings between Shiʿism and Sufism in Medieval Islam*. Leiden: Brill.
3. Nəsimi, İ. (2021). *Seçilmiş əsərləri* (I cild). Bakı: Şərq-Qərb nəşriyyatı.
4. Nəsimi, İ. (2021). *Seçilmiş əsərləri* (II cild). Bakı: Şərq-Qərb nəşriyyatı.
5. Usluer, F. (2009). *Hurufilik: İlk Elden Kaynaklarla Doğuşundan İtibaren*. İstanbul: Kabalcı Yayınevi.
6. Usluer Fatih. Hurufilik (ilk Elden Kaynaklarla Doğuşundan itibaren). Kabalcı Yayınevi, İstanbul, 2009, 623 say.

Khadija Heydarova

Summary

LEXICAL-GRAMMATICAL, ETYMOLOGICAL, AND STATISTICAL ANALYSIS OF TERMS RELATED TO HURUFI ANTHROPOLOGY IN NASIMI'S POETRY

This article presents a lexical, grammatical, etymological, and abjad-based semantic analysis of terms related to Hurufi anthropology in the poetry of Imadaddin Nasimi. In Hurufism, the human body is seen as a manifestation of divine speech and a container of the mysteries of the Qur'an. Nasimi elaborates on these perspectives in his poetic language by linking bodily terms with cosmic symbols and numerological meanings. The study interprets these elements contextually and functionally within Nasimi's poetic system.

Хадидже Гейдарова

Резюме

ЛЕКСИКО-ГРАММАТИЧЕСКИЙ, ЭТИМОЛОГИЧЕСКИЙ И СТАТИСТИЧЕСКИЙ АНАЛИЗ ТЕРМИНОВ, ОТНОСЯЩИХСЯ К ХУРУФИЙСКОЙ АНТРОПОЛОГИИ В ПОЭЗИИ НАСИМИ

В статье представлен лексический, грамматический, этимологический и семантический анализ на основе абджада терминов, связанных с антропологией хуруфизма в поэзии Имададдина Насими. В хуруфизме человеческое тело рассматривается как проявление божественной речи и вместилище тайн Корана. Насими раскрывает эти взгляды в своем поэтическом языке, связывая термины, обозначающие тело, с космическими символами и нумерологическими значениями. Исследование интерпретирует эти элементы контекстуально и функционально в рамках поэтической системы Насими.

Rəyçi: prof. Ş.Nağıyeva

Elnarə Yəhyayeva
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0002-8054-458X

10.30546/2518-752X.1.601.032

KİTABİ-DƏDƏ QORQUD DASTANLARINDA NİTQ-MÜRACİƏT ETİKETLƏRİNİN SOSİOLİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *nitq-müraciət etiketləri, gender münasibətləri, sosial münasibətlər, nitq, epos*

Keywords: *speech etiquette, forms of address, gender relations, social relations, poetic structure, Oghuz society*

Ключевые слова: *речевой этикет, формы обращения, гендерные отношения, социальные отношения, поэтическая структура, огузское общество*

Giriş. “Kitabi-Dədə Qorqud” ən qədim eposlarından biri olaraq, türk dünyasının ədəbi və mədəni irsində müstəsna əhəmiyyətə malikdir. Bu dastan təkcə bədii əsər deyil, həm də türk xalqlarının qədim adət-ənənələrini, dəyərlərini, həyat tərzini və dünyagörüşünü əks etdirən müstəsna bir qaynaq, ədəbi dilin öyrənilməsində əvəzsiz mənbədir. Dastanda işlənmiş nitq etiketləri və müraciət formaları oğuz türklərinin sosial münasibətlərini, cəmiyyət daxilindəki ierarxiyanı və qarşılıqlı hörmət anlayışını göstərən əsas vasitələrdən biridir. “Kitabi-Dədə Qorqud” eposunda nitq etiketləri sadəcə söz və söz birləşmələri deyil, dərin mədəni məna daşıyan, oğuz cəmiyyətinin sosial quruluşunu və dəyərlərini əks etdirən mühüm ifadə vasitələridir. Nitq etiketləri dastanın bütövlüyünü və poetik sistemini formallaşdıran əsas elementlərdən biri kimi çıxış edir və mətnin sosial-mədəni kontekstini anlamaq üçün açar rolunu oynayır.

Aktuallıq. “Dədə Qorqud” dastanlarında nitq-müraciət etiketləri oğuz mədəniyyətinin dilə sirayət etməsinin göstəricisidir. Bu etiketlərin linqvokulturoloji təhlili sosial və mədəni iyerarxiyanın izlənməsinə şərait yaradır.

Elmi yenilik. Nitq-müraciət etiketləri sosial, mədəni, ictimai, eləcə də ailə və gender münasibətlərini, ifadə edən vasitədir. Məqalədə nitq-müraciət etiketləri sosiolinqvistik və psixolinqvistik aspektdən araşdırılmış və liqvokulturoloji təhlil edilmişdir.

Məqsəd və vəzifələri. Dastanın dilində nitq-müraciət etiketlərinin oğuz mədəniyyətinin, gender reprezentasiyasının, ailə və qohumluq əlaqələrinin ümumtürk mədəniyyəti fonunda araşdırılmasından ibarətdir.

“Kitabi-Dədə Qorqud” dastanlarındakı nitq və müraciət etiketlərinin təhlili göstərir ki, dastanda istifadə edilən müraciət formaları oğuzların sosial-mədəni mühiti, onların həyat tərzi, dünyagörüşü, sosial statusu, gender reprezentasiyası və dastandakı obrazların səciyyələndirilməsində xüsusi rola malikdir. Akademik

K.Abdullayev *"Təbiət və Mədəniyyət qarşılığının – xaotik, sonsuz və sərhədlərə bölünməmiş təsəvvürlərin nizamlanan ölçülü-biçili, dərkedilən və adlandırılan bir dünyaya keçid üzbəüzlüyünün Dastanda surətlərə, hadisələrə, situasiyalara paylaşdırılıb bədii bir təqdimatda verildiyini görməmək olmur"* [1, s.15].

Tofiq Hacıyev "Dədə Qorqud" eposunun dilini bədii özünüifadənin ən mükəmməl forması olduğunu, oğuzların mədəni və mənəvi dünyasının tam mənzərəsini yaratdığını qeyd edir [2, s.45]. Bu kontekstdə müraciət etiketləri dastanın dilində mühüm rol oynayan kulturoloji, sosioloji və linqvistik hadisə kimi nəzərdən keçirilir. Bu mənada "Kitabi-Dədə Qorqud" eposunda nitq etiketlərinin əhəmiyyəti həm linqvistik, həm də tarixi baxımdan mühüm əhəmiyyət kəsb edir. Nizami Cəfərov "Kitabi-Dədə Qorqud" eposunu müraciət formalarının zənginliyi və müxtəlifliyi ilə seçilən nadir abidələrdən hesab edərək onları türk təfəkkür və davranış mədəniyyətinin əsas göstəriciləri sayır. [3, s.76].

Dastanda nitq etiketləri aşağıdakı funksiyaları yerinə yetirir:

1. Sosial münasibətlərin ifadəsi: dastanda obrazların bir-birinə müraciət tərzi onların sosial statusunu və aralarındakı münasibətin xarakterini göstərir. Məsələn, xanların, bəylərin və adi insanların bir-birinə müraciət tərzi fərqlidir. Qazan xan ətrafındakılara "bəglər", bəylər isə ona "xanım" deyə müraciət edirlər. Sıravi insanların bir-birinə konkret müraciət forması, demək olar ki, yoxdur. Onların nitqi müraciətsiz başlayır.

2. Mənəvi dəyərlərin təcəssümü: müraciət formalarında hörmət, ehtiram, məhəbbət, sədaqət, inam kimi mənəvi keyfiyyətlər öz əksini tapır. Məsələn, dastanda Dirsə xanın xatunu, Banuçiçək, Burlaxatun öz ərlərinə "Göz açuban gördügim, könül verüb sevdügim" deyə müraciət edirlər. Bir yerdə isə Beyrək Banuçiçəyi bəzirganlardan bu müraciətlə soraqlayır: *"Göz açuban gördügim, könüllə sevdigim Baybican qızı Banıçiçək evdəmi, arğış, yoxsa gordamı, arğış?"* [4, s.63].

3. Etnik özünüdərkin ifadəsi: dastanda müraciət etiketləri oğuz türklərinin etnik kimlik və mənsubiyyət hissini əks etdirir. Oğuzlar özlərindən olmayanlara "mərə kafir", "tat əri" deyə müraciət edirlər.

4. Poetik vasitə: nitq etiketləri dastanın bədii-poetik dilinin zənginləşdirilməsinə və obrazların daha dolğun səciyyələndirilməsinə xidmət edir. Maraqlıdır ki, dastanda tanrıya müraciət formasında bir poetiklik və sevgi hiss olunur: *"Yucalardan yucasan, kimsə bilməz, necəsən. Görklü Tanrı"* [4, s.98]. Bu isə, islamaqədərki dini münasibətlərin təzahürü hesab oluna bilər. Sevənlərin müraciətində dərin məhəbbətin ifadəsi öz əksini tapır: "*Hey, yigidim, bəg yigidim! Alp yigitlər, yeg yigitlər görklüsine qıyarmı olur? Yigidim, bəg yigidim!"* [4, s.115]. Bu cür müraciətlər hisslərin ifadəsini kifayət qədər əks etdirir.

Dastanda müraciət formaları xüsusi formul şəklində ifadə edilir və bu formullar dastanın ümumi poetik sisteminin tərkib hissəsidir. Bu formullar obrazların statusunu, yaşını, cinsini, qohumluq əlaqələrini və sosial mövqeyini əks etdirir. Bu mənada nitq-müraciət etiketlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

Ailə və qohumluq münasibətlərində müraciət formaları. "Kitabi-Dədə Qorqud" dastanlarında ailə və qohumluq münasibətlərini əks etdirən müraciət formaları xüsusi yer tutur. Bu müraciətlər ailə daxilindəki iyerarxiyanı, hörmət prinsiplərini və emosional bağların xarakterini göstərir. Dastanda ailə münasibətləri müraciət formalarında reallaşdırılır və bu nitq-müraciət formaları oğuz ailəsinin daxi-

li nizamını əks etdirir. Ailə münasibətlərindəki müraciətləri valideyn-övlad, eləcə də qayınana, qayınbaba-gəlin, kürəkən, bacı-qardaş arasındakı müraciət olaraq qruplaşdırmaq olar.

Valideyn-övlad münasibətlərində müraciət formaları. Dastanda valideynlərin övladlarına və övladların valideynlərinə müraciət tərzi həm hörmət, həm də məhəbbət hisslərini ifadə edir. Valideynlər övladlarına, adətən, "canım oğul" (Qanlı qoca), "xanım oğul" (Dirsə xanın xatunu) kimi ifadələrlə müraciət edirlər. Burla xatunun oğluna müraciətində Uruzun bütün həyatı öz əksini tapır: *Dünlügi altun ban evimin qəbzəsi oğul, Qaza bənzər qızımın-gəlinimin çiçəgi oğul, Oğul, oğul, ay oğul, Doquz ay dar qarnımda götürdügüm oğul, On ay deyəndə dünyaya gətürdügim oğul, Dolması altun beşikdə bələdügim oğul* [4, s.45]. Dastanda analar qədər atalar da övlad məhəbbətini onlara müraciətdə ifadə edir. "Bəkil oğlu Əmranın boyu"nda Bəkil oğluna belə müraciət edir: *"Oğul, oğul, ay oğul! Qarannuluca gözlərim aydını oğul! Güclü belim qüvvəti oğul!"* [4, s.138]. Bu müraciətdə ata sevgisi ilə yanaşı, oğula olan etimad, onu özünün dayağı hesab etmək hissi də vardır. Baybörənin Bamsı Beyrəyə müraciətində onun atalıq hissləri öz ifadəsini tapır: *"Dünlügi altun ban evimin qəbzəsi oğul! Qaza bənzər qızımın-gəlinimin çiçəyi oğul! Görər gözümün aydını oğul! Tutar belim qüvvəti oğul. Qalın oğuz imrəncəsi oğul"* [4, s.76].

Övladların valideynlərinə müraciətində isə hörmət və itaət hissi daha qabarıq şəkildə özünü göstərir. Ataya "ağsaqqallı əziz baba", "bəg baba", "xanım baba"; anaya "qadın ana", "xatun ana", deyə müraciət edilir.

Dastanda "Salur Qazanın evinin yağmalanması" boyunda Uruzun anasına müraciəti fərqlidir: *Uruz aydır: "Ağzun qurısun, ana! Dilün çürisün, ana!" Ana haqqı-Tanrı haqqı" deiyilməsəydi, qalqubam yerimdən duraydım, yaqanla boğazından tutaydım, qaba ökcəm altına salaydım, ağ yüzüni qara yerə dəpəydim, ağzun ilə burnundan qan şorlaladaydım, can datlusın sana göstərəydim! Bu nə sözdür? Saqın, qadın ana!"* [4, s.45]. Nümunədən Uruzun anasını təhdid etdiyi görünür. Lakin bu nankor övladın hiddəti deyil, sevən övladın anasını və atasının namusunu qorumaq istəyidir.

Valideyn-övlad münasibətləri qədər gəlin qayınata-qayınana, kürəkən qayınata-qayınana münasibətləri də qarşılıqlı hörmət və məhəbbətə əsaslanır. Təsadüfi deyil ki, Qazan xanın keyfiyyətlərini sadalayarkən onu həm də Bayandur xanın köygüsü (kürəkəni) kimi təqdim edirlər. Dastanda Beyrəyin qayıtması xəbərini Banuçiçəyin qaynatası-qaynanasına vermək tələşı təsadüfi deyil, belə ki, gəlin gözü yolda qalan valideynləri sevindirməyə tələsir.

Ər-arvad münasibətlərində müraciət formaları. Dastanda ər-arvad münasibətlərində müraciət formaları onların bir-birinə olan məhəbbətini, hörmətini və sədaqətini ifadə edir. Kişilər həyat yoldaşlarına "xatun", "görklim", "sərv boylum" kimi ifadələrlə müraciət edirlər. Qadınlar öz həyat yoldaşlarına "bəgim", "şah igidim, şahbaz igidim" deyə müraciət edirlər. Təsadüfi deyil ki, bu müraciət formalarında qarşılıqlı hörmət və səmimiyyət öz əksini tapır. Məsələn, Bəkil oğlu Əmranın boyunda xatunu onu bikef görəndə belə müraciət edir: *"Yigidim, bəg yigidim! ... Ava bingil, könlün açılsun!"* [4, s.137], *"Bəg yigidim, qalabalıq yağı gəlsə, qayıtmaz idin"* [4, s.138]. Əmranın xatununa müraciətində də ona olan hörməti və məhəbbəti aydın görünür: *"Görklüm, atdan düşdüm, ayağım sındı"* [4, s.138].

Dirsə xanın öz xatununa müraciətində ona olan sevgisi öz əksini tapır: *"Bərü gəlgil, başum baxtı, evüm taxtı, Evdən çıqub yüriyəndə səlvi boylum! Topuğında sarmaşanda qara saçlum, Qurulu yaya bənzər çatma qaşlum! Qoşa badam sığmayan dar ağızlum, Güz almasına bənzər al yanaqlım"* [4, s.25]. Eyni zamanda xatunun ona müraciətində də bu sevgini görmək mümkündür: "*Bərü gəlgil, başım baxtı, evim taxtı. Xan babamın göygisi, Qadın anamın sevgisi. Atam-anam verdigi, Göz açuban gördügim, Könül verib sevdigim, Dirsə xan"* [4, s.30].

Kamil Vəliyevin də qeyd etdiyi kimi dastanda ər-arvad müraciəti məhəbbət və ehtiramla yanaşı, ailə məsuliyyətini və müştərək taleyi də əks etdirir [5, 71]. Ə.Tanrıverdi "yoldaş" sözünün həyat yoldaşı mənasında ilk dəfə "Kitab"da işləndiyini göstərir: *"Kitab"da "yoldaş" sözünün arvadı mənasında işlənməsi açıq-aydın şəkildə ifadə olunur: "Dəli Domrul yüz qırq yıl dəxi yoldaşıyla yaş yaşadı" (D-169)* [6, s.36].

Dastanda oğuz ailəsinin daha geniş miqyasa malik olduğu, qohumların da ailədən hesab olunduğu onlara müraciətdə öz əksini tapır: "*Qazan bəgün dayısı at ağızlu Aruz qoca çapar yetdi: "Çal qılıcını, bəgüm Qazan, yetdim!" – dedi* [4, 49]; Yaxud Yeynəyin dayısının ona müraciəti: *Məndən dəxi ər qopmayasan, Yegnəgüm, dön!* [4, s.121]. Nümunələrdə dayının öz bacısı oğluna doğma münasibəti onun müraciətindən hiss olunur.

Sosial iyerarxiyaya əsaslanan müraciət formaları. "Kitabi-Dədə Qorqud" dastanlarında sosial iyerarxiyanı əks etdirən müraciət formaları oğuz cəmiyyətinin siyasi və sosial strukturunu göstərir. Bu müraciətlər cəmiyyətin müxtəlif təbəqələri arasındakı münasibətləri və iyerarxik bağlılığı ifadə edir. Bu xüsusiyyət özünü xana və bəylərə müraciət formalarında**,** dini və mənəvi liderlərə müraciət formalarında, xalq nümayəndələrinə müraciət formalarında göstərir. Məsələn, Qazan xanın çobana müraciətinə nəzər salaq: *"Qaranqu axşam olanda qayğulu çoban! Qarla yağmur yağanda çaqmaqlu çoban!* " [4, s.42], *"Ağzın qurusun, çoban! Dilün çürisün, çoban! Qadir sənin alnına qada yazsın, çoban!"* [4, s.43]. Birinci nümunədə Qazan xan Qaraca çobanı tərənnüm edir, ikinci nümunədə isə qarğıyır, lakin bu qarğış çobana deyil, dolayısı ilə Qazan xanın düşdüyü vəziyyətədir. Maraqlıdır ki, dastanda həm oğuzlar, həm də kafərlər "bəglər" müraciətindən istifadə edir. Ümumiyyətlə, dastan oğuz bəylərinin həyatından bəhs etdiyinə görə burada sıravi insanların adı və onlara müraciət yox dərəcəsindədir. Yalnız, dadı - qısırca Yengə və boğazca Fatma kimi obrazları görmək mümkündür ki, onların da nitqi dastanın poetexnikasından kənara çıxmır. Qeyd edək ki, Dastanda Qaraca çobana həm Qazan xan, həm də kafirlər hörmətlə müraciət edirlər: *"Qaranqu axşam olanda qayğulu çoban, Qarla yağmur yağanda çaqmaqlu çoban, Südipeniri bol qaymaqlu çoban!"* [4, s. 38, 42].

Dastanda bir-birinə şəxsin adı ilə müraciət formasına az təsadüf olunur. Əsasən, Dədə Qorqud bəylərə öz adı ilə müraciət edir: "*Ünüm anla, sözüm dinlə, Baybörə bəg!"* [4, s.55]. Bununla belə, o da Bayandır xana müraciət edərkən, "xanım" deyə səslənir, Qazan xana "sultanım" deyə müraciət edir. Dastanda Qazan xana "bəgim", Sultanım", "xanım", "ağam" deyə müraciət olunur: *"Çal qılıncını, ağam Qazan, yetdim!"* [4, s.49]. Ozan – Beyrək Qazan xana müraciəti ilə onu belə səciyyələndirir: *"Alar sabah sapa yerdə dikiləndə ağ-ban evli, Atlasla yapılanda gög sayvanlu, Tavla-tavla çəkiləndə şahbaz atlu, Çağıruban dad verəndə yol ça-*

vuşlu, Yayqanduğında yağ dökülən bol nemətlü! Qalmış yigit arxası! Bizə miskin umudı! Bayındır xanın göygüsi! Tülü quşun yavrısı! Türkistanın dirəgi! Amit soyının aslanı, Qaraçuğun qaplanı! Qonur atın ayası, Xan Uruzun babası, Xanım Qazan, ünüm anla, sözüm dinlə [4, s.71]. Maraqlıdır ki, bu müraciət Yegnəyin Bayandır xana müraciəti ilə səsləşir. Yegnəyin Bayandur xana müraciətində Bayandur xanın fiziki gücü, səlahiyyətləri, mərhəməti, var-dövləti haqqında məlumat əldə etmək mümkündür, Beyrək kimi o da, Bayandır xana kömək üçün müraciət etməzdən əvvəl onun məziyyətlərini sadalayır [4, s.120]. Dastanda Bayandır xana müraciətlərdə, əsasən, xanın var-dövləti, onun əsil-nəcabəti, fiziki və siyasi gücü öz əksini tapır.

Gender aspektindən müraciət formaları. K.Əliyev Burla xatun, Banıçiçək, Selcan xatun kimi qadın obrazları ilə bağlı işlədilmiş təşbehlərin, təxminən, eyni məzmunlu olduğunu göstərir: *"Güz almasına bənzər al yanaqlım!" – bu, Dirsə xanın xanımına aiddir; "Güz alması kibi al yanağın tutdı, yırtdı" – bu, Burla xatuna aiddir; "Güz alması kibi al yanağın yırtdınmı, qız?!" – bu, Banıçiçəyə aiddir; "Qar üzərinə qan tammış kibi qızıl yanaqlım!" – bu, Selcan xatuna aiddir"* [5, s.71].

"Kitabi-Dədə Qorqud" dastanlarında kişi və qadınlara müraciət formalarındakı fərqlər Oğuz cəmiyyətindəki gender rollarını və münasibətlərini əks etdirir. Bu müraciətlər həm cinslərin cəmiyyətdəki mövqeyini, həm də onlara göstərilən hörmət və münasibətin xarakterini göstərir.

Dastanda kişilərə müraciət edilərkən onların cəsurluğu, qəhrəmanlığı, güclü olması kimi keyfiyyətlərə diqqət yetirilir. "Basat Dəpəgözi öldürdügi boyı"nda Basata belə müraciət edilir: *"Avcına sığmayan ələüklü oğlı, Ərdil təkə buynuzından qatı yaylı, İç Oğuzda, Daş Oğuzda adı bəllü, Aruz oğlı xamım Basat, mana mədəd!"* [4, s.127]. "Kitabi-Dədə Qorqud"da kişilərə müraciət zamanı onların fiziki gücü və cəsarəti, mərdliyi və qəhrəmanlığı önə çəkilir ki, bu da Oğuz cəmiyyətində fiziki güc və cəngavərliyin əsas kişi keyfiyyətləri kimi dəyərləndirilməsini göstərir.

Dastanda qadınlara müraciət formalarında onların gözəlliyi, analığı, sədaqəti və müdrikliyi vurğulanır. "Qanlı qoca oğlı Qanturalı boyı"nda Selcan xatuna belə müraciət edilir: *"Yalab-yalab yalabıyan incə donlum! Qar üzərinə qan dammış kibi qızıl yanaqlım! Qoşa badam sığmayan dar ağızlum! Qələmçilər çaldığı qara qaşlım! Qurması qırq tutam qara saçlım! Aslan uruğı, sultan qızı, öldürməgə mən səni qıyarmıydım?!"* [4, s.117]. Bu müraciətdə Selcan xatunun gözəlliyi, əsil-nəcabəti, sosial statusu öz əksini tapmışdır.

Poetik nitq etiketləri, alqışlar, mədhiyyə xarakterli müraciətlər və qarğışlar dastanın dilinin zənginliyini və bədii-estetik dəyərini artırır. Bu etiketlər həm də Oğuz türklərinin dini inanclarını və mənəvi dəyərlərini əks etdirir. Qazan xan yağmalanmış evini soraqlaşarkən suya, köpəyə, qurda, ağaca müraciət edir və onların səciyyəvi xüsusiyyətlərini ön plana çəkir: "*... Şahbaz atlar gəlüb içdigi su, Qızıl dəvələr gəlüb keçdigi su, Ağ qoyunlar gəlüb çevrəsində yatduğı su, Ordumun xəbərin bilürmisin, degil mana; Qar ilə yağmur yağanda ər kibi duran, Qaraquc atları gördügində kişnəşdirən, Qızıl dəvə gördügində bozlaşdıran, Ağca qoyun gördügində quyruq çırpub qamçılayan, Qarma-bükəc səmüzin alub tutan, Qanlu quyruq üzüb çap-çap yudan, Avazı qaba köpəklərə qavğa salan, Çaqmaqluca çobanları dünlə yügürdən, ordumun xəbərin bilürmisin, degil mana; Qaranqu axşam olanda vaf-vaf ürən, Acı ayran tökiləndə çap-çap içən, Gecə gələn xırsızları qor-*

qudan, Qorquduban şamatasıyla ürküdən, ordumun xəbərin bilürmisin, degil bana! Qara başım sağlığmda eyilüklər edəm, köpək, sana! [4, s.42].

Nitq etiketləri dedikdə insanların müxtəlif sosial situasiyalarda bir-biri ilə ünsiyyət zamanı istifadə etdikləri standart ifadələr, müraciət formaları və davranış qaydaları nəzərdə tutulur. Bu etiketlər cəmiyyətin mədəni kodunu təşkil edir və sosial münasibətlərin tənzimlənməsində mühüm rol oynayır. "Kitabi-Dədə Qorqud" dastanlarında işlənən nitq etiketləri Azərbaycan xalqının qədim mədəni irsinin və zəngin nitq mədəniyyətinin göstəricisidir. Bu etiketlər qədim oğuz türklərinin sosial münasibətlərini, dəyərlər sistemini və davranış normalarını əks etdirir. Dastanlarda işlənən salamlaşma və müraciət formaları, dua və alqışlar, qarğışlar və təhqirlər, məsləhət və öyüdlər dövrün sosial kontekstini və mədəni xüsusiyyətlərini anlamaq üçün qiymətli məlumatlardır. Bu nitq etiketləri vasitəsilə qədim oğuz cəmiyyətində hökm sürən sosial iyerarxiya, gender münasibətləri və əxlaqi dəyərlər haqqında təsəvvür yaratmaq mümkündür. "Kitabi-Dədə Qorqud" dastanlarında işlənən nitq etiketlərinin araşdırılması təkcə dilçilik və ədəbiyyatşünaslıq baxımından deyil, həm də tarix, etnoqrafiya və sosial antropologiya baxımından böyük əhəmiyyət kəsb edir. Bu etiketlər vasitəsilə qədim türk xalqlarının həyat tərzi, adət-ənənələri və dünyagörüşü haqqında dəyərli məlumatlar əldə etmək mümkündür. Belə ki, bu nitq etiketləri ilə dastanda cəmiyyətin ayrı-ayrı təbəqələrinə mənsub olan şəxslərin münasibətləri, övlad-valideyn münasibətləri, gənclərlə yaşlıların münasibətlərini müəyyənləşdirmək olar.

Dastanda məişət mövzusuna çox az yer verildiyindən nitq etiketlərindən geniş istifadə edilməmiş, onlar, əsasən, müraciətlərdə, alqış və qarğışlarda əksini tapmışdır.

Nəticə. "Kitabi-Dədə Qorqud" dastanlarında nitq-müraciət etiketlərinin araşdırılması türk dili və mədəniyyətinin tarixi inkişaf yolunu, türk xalqlarının etnik özünüdərkini və milli kimliyini anlamaq üçün böyük əhəmiyyətə malikdir. Bu etiketlər Oğuz türklərinin nitq mədəniyyətinin yüksək səviyyədə olduğunu və onların sosial münasibətlərdə incə etiket qaydalarına riayət etdiklərini göstərir. "Kitabi-Dədə Qorqud" dastanlarında nitq-müraciət etiketləri Oğuz türklərinin sosial həyatını, ailə münasibətlərini, gender rollarını və mənəvi dəyərlərini əks etdirən mühüm dil vahidləridir. Bu etiketlər dastanın dilinin zənginliyini göstərməklə yanaşı, Oğuz cəmiyyətinin strukturunu və bu struktur daxilindəki münasibətləri anlamaq üçün əhəmiyyətli mənbədir. Dədə Qorqud dastanının dili və nitq etiketləri oğuzların yalnız ictimai münasibətlərini deyil, həm də bədii təfəkkür tərzini və mifoloji dünyagörüşünü əks etdirir.

Ədəbiyyat:

1. Abdullayev, K. (2009). Mifdən yazıya və ya gizli Dədə Qorqud. Bakı: Mütərcim. 376 s.
2. Hacıyev, T. (1999). Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı: Elm. 216 s.
3. Cəfərov, N. (1999). Eposdan kitaba. Bakı: Maarif. 220 s.
4. Zeynalov, F., & Əlizadə, S. (2004). Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı.
5. Əliyev, K. (2019). Dədə Qorqud (Əsərləri, 10 cilddə, VII cild). Bakı: Elm və Təhsil. 384 s.
6. Tanrıverdi, Ə. (2015). "Dədə Qorqud"un möcüzələr dünyası. Bakı. 536 s.

Elnara Yahyayeva

Summary

SOCIOLINGUISTIC FEATURES OF ADDRESS ETIQUETTE IN THE EPICS OF "KITABI DEDE GORGUD"

This article examines the speech etiquette forms of address found in *Kitabi Dede Gorgud*, one of the ancient epics of the Azerbaijani people. These epics provide a rich source of material for tracing the historical development of the Azerbaijani language. Just like the phonetic, lexical, and grammatical structures, address forms have undergone a process of evolution. These speech units reflect national characteristics and reveal the nature of social and cultural relations between different social strata. The article analyzes how the forms of address in the epic language mirror social relations, express respect and reverence, and are used by heroes in communication with one another. It also explores gender aspects and the role of speech etiquette within the overall poetic structure of the work. The study demonstrates that speech etiquette reflects the social hierarchy, family relationships, and moral values of the Oghuz society.

Эльнара Яхьяева

Резюме

СОЦИОЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ РЕЧЕВОГО ЭТИКЕТА ОБРАЩЕНИЙ В ДАСТАНАХ «КИТАБИ-ДЕДЕ ГОРГУД»

В данной статье исследуются речевые этикетные формы обращения, представленные в одном из древнейших эпосов азербайджанского народа – «Китаби-Деде Горгуд». Эти дастаны предоставляют богатый материал для изучения истории развития азербайджанского языка. Как и фонетические, лексические и грамматические изменения, формы речевого обращения прошли определённый путь развития. Эти единицы речи отражают национальные особенности, а также помогают определить характер социальных и культурных отношений между различными слоями общества. В статье анализируется, как формы обращения в языке дастана отражают социальные отношения, выражают уважение и почтение, используются героями в общении друг с другом, а также рассматриваются гендерные аспекты и роль этикетных форм в поэтической структуре произведения. Исследование показывает, что речевые формы обращения отражают социальную иерархию общества огузов, семейные отношения и духовные ценности.

Rəyçi: dos. Y.Hacıyeva

ƏDƏBİYYAT

Esmira İsmayılova
Lənkəran Dövlət Universiteti

10.30546/2518-752X.1.601.056

MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN ANADİLLİ POEZİYASINDA BAKININ TƏSVİRİ VƏ TƏRƏNNÜMÜ

Açar sözlər: *Şəhriyar, anadilli poeziya, bütöv Azərbaycan, Bakı, millilik, müasirlik*
Keywords: *Shahriyar, native language poetry, whole Azerbaijan, Baku, nationality, modernity*
Ключевые слова: *Шахрияр, родноязычная поэзия, целый Азербайджан, Баку, национальность, современность*

Giriş

Böyük söz ustadı Seyid Məhəmmədhüseyn Şəhriyar XX əsrin Cənubi Azərbaycan ədəbiyyatına bəxş etdiyi elə nadir şəxsiyyətlərdəndir ki, yaradıcılığı zaman-məkan, dil, millət sərhədlərini aşaraq dünyanın hər yerinə yayılıb, əsərləri əksər dünya dillərində nəşr olunaraq geniş oxucu auditoriyası, məhəbbəti qazanıb. Şairin milli yaddaşa söykənən, tarixi adət-ənənələri özündə əks etdirən anadilli poeziyası bütün dövrlər üçün aktual məzmun kəsb edir, milli və bəşəri ideyaların təbliği baxımından hazırkı dövrdə də əhəmiyyətini saxlayır.

"Bəziləri şeirin ideyasını elə qaranlıq bir kölgə altında gizlədirlər ki, elə bil qatı duman onun üstünə pərdə çəkmişdir və ağlın ziyası da o qalın pərdəni yarıb keçə bilməz. Gərək əvvəlcə fikrin özü müəyyən və aydın olsun, mənanı götür-qoy edəsən, sonra yazasan" [2, s. 24]. Fransız tənqidçisi və nəzəriyyəçisi Nikola Bualonun "Poeziya sənəti" əsərindən məhz bu sitatı seçməyimiz təsadüfi deyil. Qənaətimiz belədir ki, bədii sözə dəyər verilməsi təkcə klassik poeziya sənəti üçün xarakterik deyil, mövzunun, fikrin, məqsədin aliliyi, səmimi deyim tərzi və həyat həqiqətinə sadiqlik, millilikl bəşəriliyin vəhdəti bütün dövrlər üçün aktuallığını saxlayır. Bədii əsər-fərqi yoxdur, nəzmdir, nəsrdir, xalqın ruhunu əks etdirmirsə, müəllif səmimi deyilsə, fikrini oxucuya tamlığı ilə çatdıra bilməyəcək, hiss və duyğularını oyandırmayacaq, müəllifinə uğur gətirməyəcək, zaman-məkan sərhədində ilişib qalacaq.

Vacib olan məqamlardan biri də söz sənətində milli yaddaş faktoruna önəm verilməsi, qloballaşma fonunda milli dəyərlərin diqqətdə saxlanılmasıdır. 28 aprel 2025-ci il tarixində Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-İran biznes-forumunda İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın çıxı-

şını ölməz söz ustadı Seyid Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması ilə bitirməsi və zalın buna duyğusal reaksiyası göstərdi ki, Azərbaycanın ikiyə bölünməsi zamanın sağalda bilməyəcəyi yaradır və bu yara zaman-məkan sərhədi tanımır. Belə mötəbər məclisdə M. Şəhriyarın xatırlanması, "Heydərbabaya salam" poemasından məhz Azərbaycanın ikiyə bölünməsi ilə bağlı bəndlərin səslənməsi bir daha göstərdi ki, M. Şəhriyar kimi sənətkarlar əbədiyaşardır, onun poeziyası Azərbaycan xalqının ürəyindəkilərini, arzusunu nəsildən- nəsilə ötürən söz bağıdır, ədəbi, əbədi yaddaş zənciridir, söz kəməndidir:

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?
Mən sənintək dağa saldım nəfəsi,
Sən də qeytər, göylərə sal bu səsi,
Bayquşun da dar olmasın qəfəsi,
Burda bir şir darda qalıb bağırır,
Mürüvvətsiz insanları çağırır [1].

Tədqiqatın mənbəyi və metodları. Tədqiqat işinin obyektini Seyid Məhəmmədhüseyn Şəhriyarın doğma ana dilində, Azərbaycan türkcəsində yazdığı şeir və poemaları təşkil edir. Tədqiqatın əhatəli olması üçün şəhriyarşünas alimlərin mövzu ilə bağlı araşdırmalarına da müraciət və istinad etmiş, sitatlar vermişik.

Qeyd edək ki, "Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında Bakının təsviri və tərənnümü" məqaləsi tarixi-müqayisəli metod əsasında yazılmış, tədqiqatın predmet və obyekti kimi seçilən nümunələr və onlara həsr olunan araşdırmaların meydana çıxdığı tarixi şərait araşdırma zamanı nəzərə alınmış, müqayisəli təhlil aparılmışdır.

Tədqiqat işi. Böyük söz ustadının mövzu ilə bağlı yazdıqlarını tədqiqat işində ətraflı araşdırmaq məqsədi ilə şairin anadilli irsini demək olar ki, bütünlüklə tədqiqata cəlb edərək təhlil etməyə cəhd etdik. Araşdırma zamanı belə qənaətə gəldik ki, ölməz söz ustadı ana dilində yazdığı şeirlərinin əksəriyyətində, o cümlədən, "Heydərbabaya salam" poemasında Bakını böyük sevgi ilə vəsf edib. Təsvir və tərənnümündə kövrək uşaqlıq xatirələrinə söykənən Şəhriyar üçün Bakı adi şəhər, coğrafi məkan deyil, bütöv Azərbaycanın mədəni paytaxtıdır, arzular şəhəridir:

Çox "Bakıdan fanar gəlir" oxurduq,
Son "Oduma yanar gəlir" oxurduq,
Gör "başıma nələr gəlir" oxurduq... [10, s.144].

M.Şəhriyarın əsərlərində oxucuya ötürdüyü mesaj budur ki, Bakıdakı mədəniyyət, burada baş verən hadisələr güney azərbaycanlılar üçün də önəmlidir, onların diqqət mərkəzindədir. Ölməz söz ustadının 1970-ci ildə qələmə aldığı, Bakıda yaşayan yaxın qohumu şair Əbülfəzl Hüseyniyə (Həsrət) həsr etdiyi "El bülbülü" şeirində Şəhriyarın toxunduğu məqamlar dediklərimizin sübutudur:

"Heydərbaba" üz Bakıya çöndərir,
Hey gül görür, dərib sizə göndərir,

Sözlərizi hey əndərir, döndərir...[10.s.146].

Seyid Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyası ilə yaxından tanış olanlar yaxşı bilir ki, şairin Şimali Azərbaycana, paytaxt Bakıya sevgi və ehtiramı sonsuzdur. Şairin Bakı sevgisinin inikası əsərlərində aydın sezilir. Arazın bu tayına, Şimali Azərbaycana, paytaxt Bakıya doğma münasibət M.Şəhriyarın yaradıcılığının ikinci dövründə daha bariz hiss olunur. Bu faktor şairin əsərlərinin həmin dövrdə Şimali Azərbaycanda ardıcıl nəşr edilməsi, yayılması, geniş oxucu auditoriyası toplaması, cəmiyyətdə yaratdığı rezonans ilə əlaqədardır. Nəzərə alaq ki, ötən XX əsrin ikinci yarısında – 60-70-ci illərdə "Heydərbabaya salam" poemasının hər iki hissəsi işıq üzü görmüşdü, təkcə şairin vətəni Cənubi Azərbaycanda yox, bütün türk dünyasında dillər əzbəri idi, türkdilli ölkələrdə böyük tirajlarla nəşr edilərək geniş oxucu kütləsi qazanmışdı.

M. Şəhriyarın Bakını xatırladığı əsərlərindən biri də 1346-cı ilin azər (1967-ci il, noyabr) ayında qələmə aldiğı, şair həmkarına ithaf etdiyi "Məmməd Rahim Həzrətlərinə cavab" şeiridir. Əsərin ilk bəndindən şairin Bakıya olan sevgisi duyulur:

Ağ göyərçin, ağ qanadın açarsan,
Dam-divardan bir qovzanıb uçarsan,
Ulduzlanıb, Bakı deyə, qaçarsan... [10, s.140].

Bu şeirin sonrakı bəndlərində də Bakının adı türk mədəniyyətinin mənəvi paytaxtı kimi hörmətlə çəkilir. Bu istiliyə, bu doğmalığa isinib ümid edirsən ki, nə vaxtsa iki əsr davam edən ayrılığa son qoyulacaq, qardaş-qardaşa, el-elə qovuşacaq, o taylı, bu taylı Azərbaycan birləşərək bütöv Vətən olacaq:

Bakıdan çox sovqat gəlib Təbrizə,
Sabiq zaman biz çox gələrdik sizə,
Siz də nolaydı bir gələydiz bizə,
Ayrılığın daşın birdən ataydıq,
Canı-cana, malı-mala qataydıq [10, s.141].

Şəhriyarşünas alim, professor Elman Quliyev şairin yaradıcılığını təhlil edərkən bu amili-Şəhriyarın vahid vətən arzusunu yüksək dəyərləndirir, ayrıca diqqət yetirir: "Vahid vətən problemi şairin poeziyasında daha böyük məna və ideya kəsb edir. Vətəninin faktik ictimai-siyasi və coğrafi vəziyyəti onda böyük narahatlıq yaradır. Nəticədə Azərbaycanın ikiyə parçalanması Şəhriyar yaradıcılığında ayrılıq, həsrət, kədər motivini nəinki yaradır, həm də bu motiv aparıcı xətt təşkil edir" [8, s. 100].

Ustad sənətkar üçün Bakı Kəbə müqəddəsliyindədir. "Şəhriyar Bakını görməsə də, onu Kəbə kimi müqəddəs sayır, bu şəhərdə yaşayanlara qibtə edir. Bakı, burada yaşayanlar, şeir-sənət adamları, incəsənət xadimləri şairə doğmadan doğma gəlir, bu şəhərin adamları, incəsənəti şairə özü kimi yaxındır. Şəhriyarın fikrincə, yaşadığı Güney Azərbaycanından fərqli olaraq Quzey Azərbaycanın paytaxtı Bakıda sənətkarlara daha çox dəyər verilir, onlara sərbəst yaradıcılıq mühiti yaradılır ki, bu da dünya şöhrətli sənət əsərlərinin yaradılmasına səbəb olur" [7, səh. 43.]. M. Şəhriyarın "Arşın mal alan" komediyasını xatırlaması şairin dahi Üzeyir Hacıbəyov irsinə olan bələdliyindən və sevgisindən xəbər verir:

Ora bizim qızıl Kəbə Bakıdı,
Şanlı bakıçılar xaki-pakıdı
İncəsənətlərin abu-xakıdı,

Orda hünər mədənlərtək qazılıb,
"Məşədi İbad", "Arşın malçı" yazılıb [10, s.150].

Bakını görmək, Arazın bu tayına səfər etmək M. Şəhriyarın ən böyük arzularından olub. Amma çox təəssüf ki, şair bu arzusunu heç vaxt gerçəkləşdirə bilməyib. Bakını, Şimali Azərbaycanı görmək istəyi xəbis insanların paxıllığı, pis xisləti üzündən arzu olaraq qalıb. Xatırladaq ki, 1967-ci ildə Azərbaycan ədəbiyyatının klassiklərindən olan M. Vaqifin anadan olmasının 250 illiyi ilə bağlı bayram tədbirinə dəvət olunanlar arasında Məhəmmədhüseyn Şəhriyar da olmalı idi. Tədqiqatçı alim dos. Zaur Əliyevin araşdırmasına görə "Dəvət olunan qonaqlar içərisində Cənubi Azərbaycanda tanınan şair Məmmədhüseyn Şəhriyar da var idi. O zaman onun bu siyahıya adının salınması üçün Məmməd Araz çox əziyyətlər çəkir. Bir neçə dəfə Moskvaya müraciət edir ki, Şəhriyar çox böyük şairdir və onun Azərbaycana gəlməsi sovetlərin İranda müsbət tanınmasına kömək olacaq. Hətta Şəhriyarın Azərbaycanda qalması xərcinin də öz cibindən çəkəcəyini məktubda qeyd edir. Moskvadan razılıq məktubu gələn kimi Məmməd Araz təşkilat komitəsindən rəsmi dəvətnamə göndərilməsinə də nail olur. Məktubu hazırlayan şəxslər onu Məmmədhüseyn Şəhriyarın adına yox, başqa adama yazır və tamam başqa ünvana göndərirlər. Məktubu bilərəkdən səhv hazırlayıb yola salırlar. Məktub Şəhriyara çatmır. Guya "poçtalyonun dəvətnaməni"səhvən" başqa bir "Məhəmmədhüseyn"ə çatdırması" bəhanəsilə) onun Bakıya gəlməsini əngəlləyirlər. Buna görə də Şəhriyarın Azərbaycana səfəri baş tutmur. Məmməd Araz neçə dəfə İran səfirliyinə zəng etsə da ona Şəhriyara məktub çatmadığını deyirlər. Beləliklə, Şəhriyar Bakıya gələ bilmir. Məktubu qəsdən səhv adama və səhv ünvana göndərənlər də Məmməd Araza belə izah verirlər ki, guya Şah rejimi onun gəlməsinə mane olub. Deyilənə görə Şəhriyarın Bakıya gəlməsinə mane olanlar içərisində qoca şairlərin adı hallanıb" [3].

Ustad şairin Bakıya səfər arzusu ilə qələmə aldığı "Qafqazlı qardaşlarla görüş" şeirində bu həsrətin bədii ifadəsinin təsvir və tərənnümü o qədər inandırıcıdır ki, nabələd oxucu şairin Bakıda olmasına inanır:

Gəlmişik doğma yurdumuz Bakıya,
Qoy bu tarixdə iftixar olsun,
Şəhriyardan da bu üfüqlərdə
Bu sınıq nəğmə yadigar olsun [10, s.191].

Şəhriyar Şimali Azərbaycandan olan dostu, prof. Rüstəm Əliyevə həsr etdiyi "Döyünmə-söyünmə" şeirində də Bakını sevgi ilə vəsf edir:

Qardaş, səni tapdıqda qəmi, qüssəni atdım,
Sanki Bakını, Gəncəni verdin mənə, qardaş,
Tapdım elimi, arxamı, qurban sənə, qardaş [10, s.198].

Bakıdan yeni xəbər sorağında olan Şəhriyarın bu istəyinə paytaxt Tehranı qurban deməsi yaşadığı dövrdə yazardan böyük cəsarət və hünər istəyirdi:

Rüstəm, Bakıdan söylə mənə, can sənə qurban,
Təbriz sənə layiq nədi? Tehran sənə qurban! [10, s.198].

M. Şəhriyarın dillərdə dastan olan "Heydərbabaya salam" poemasında da Bakının adı bir neçə bənddə böyük sevgi və hörmətlə çəkilir:

Bakıçının sözü-sovu, kağızı,
İnəklərin bulaması, ağızı,

Çərşənbənin girdəkanı, mövizi [10, s.237].
Və ya
Şuca xaloğlunun Bakı sovqatı,
Damda quran samovarı, söhbəti,
Yadımdadı şəstli qəddi, qaməti [10, s.239].

Türkiyəli alim-araşdırmaçı Yusif Gədikli M.Şəhriyarın anadilli poeziyasından yazarkən qeyd edir ki: "Şimal və cənubun qarşılıqlı sevgiləri, həsrətləri, birləşmə-qovuşma arzuları, Azərbaycan türklüyünün iki hissəyə bölündüyü 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay razılaşmalarından bəri azalmayıb, əksinə artıb. Şəhriyar bu həsrətin bir əsr yarımdan bəri davam etdiyini "Döyünmə və söyünmə" hissəsindəki "Həsrət qalalı biz sizə bir qərn yarımdır" misrasında söz açmışdır [4, s. 93].

Qeyd etmək istəyirik ki: "Ana dilində yazdığı əsərləri M.Şəhriyarın yaradıcılığının kiçik hissəsini təşkil etsə də, daşıdığı məna yükünə görə bədii çəkisi daha ağırdır və şairin sevilməsində, populyarlaşmasında əhəmiyyətli rol oynayıb" [6, s.13].

Akademik İsa Həbibbəyli Şəhriyarın anadilli poeziyasında vahid Azərbaycan arzusunu dilə gətirməsini, Bakıdan dəfələrlə, həm də böyük şövq və hörmətlə bəhs etməsini yüksək dəyərləndirərək yazır: "Şəhriyar vətənin bütövlüyü, qarşılıqlı əlaqələrin yaranması ideyasını da böyük cəsarətlə şeirə gətirmişdir. Azərbaycan mövzusunda yazılmış şeirlərində mövcud çətinliklərə baxmayaraq, şair həmişə özünün sərt və qəti poetik sözünü deməyi bacarmışdır" [5, s.22].

M.Şəhriyar vəfat edərkən onun köksündə o dünyaya apardığı bir çox arzu və nisgillərinin içərisində vətənin və millətin azadlığı, qüzey həsrəti dərdi də var idi. Şəhriyarın yaxın dostu Yusif Rəhimi Şəhriyarla bağlı xatirələrində yazır: "Şəhriyar öləndə Bakı torpağı və bakılının üz sildiyi dəsmalı istədi... O, son nəfəsdə: "Məni üzü Bakıya basdırın" – demişdi" [9, s.45].

Nəticə. "Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında Bakının təsviri və tərənnümü" məqaləsində şairin doğma dildə yazdığı əsərlərinin təhlili nəticəsində gəldiyimiz qənaət budur ki, Azərbaycanın bütövlüyü məsələsi, vahid vətən, millət anlayışı Şəhriyar yaradıcılığının aparıcı istiqamətlərindən olub. Ustad sənətkarın şeir və poemalarında Bakıdan böyük sevgi ilə bəhs etməsi, onu Kəbə müqəddəsliyində görməsi bu müqəddəs amala xidmət edib. Şairin əsərlərinin oxunaqlı olması, Bakıda təkrar-təkrar çap edilməsi bir daha sübut edir ki, ümumbəşəri duyğulara xidmət edən poeziya daim yaşarıdır, müəlliflərinə ölməzlik qazandırır. Ustad sənətkarın hələ sağlığında özünü "Əbədiyyət gülüyəm mən" adlandırması da bu inamdan irəli gəlirdi. Zaman göstərdi ki, Seyid Məhəmmədhüseyn Şəhriyar bu zənnində yanılmayıb. Söz sərrafının ömrü yaratdığı söz xəzinəsinin yaşarlılığı qədərdir!

Ədəbiyyat:

1. Bualo, N. D. (1969). Poeziya sənəti. Bakı: Şərq-Qərb.
2. Əliyev, Z. B. (2023). Şəhriyar Bakıya niyə gələ bilmədi? http://shahriyar.az/
3. Gədikli, Y. (2007). Şəhriyar və bütün türkcə şeirləri. Bakı: Yom.
4. Həbibbəyli, İ. Ə. (1993). Ustad Məhəmmədhüseyn Şəhriyar. Bakı: Elm.
5. İsmayılova, E. X. (2023). Məhəmmədhüseyn Şəhriyarın anadilli poeziyasında milli yaddaş və onun yaratdığı milli özünüifadə ənənəsi (Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası). https://literature.az

6. İsmayılova, E. X. (2024, September 17). Şəhriyar – söz mülkünün sultanı. 525-ci qəzet, 13.
7. Quliyev, E. H. (2004). Şəhriyar poeziyası və milli təkamül. Bakı: Elm.
8. Rəhimli, Ə. R. (2011). Milli oyanışda Şəhriyar poeziyasının rolu. Azərbaycan şərqşünaslığı, 2(6), 39-46.
9. Şəhriyar, M. M. (2017). Əbədiyyət gülüyəm mən. Bakı: Elm və Təhsil.
10. Prezident.az. (2025, April 28). Bakıda Azərbaycan-İran biznes forumu keçirilib. https://president.az

Esmira Ismayilova

Summary

DESCRIPTION AND PERSONIFICATION OF BAKU IN THE NATIVE LANGUAGE POETRY OF MUHAMMAD HUSEYN SHAHRIAR

In the article "Description and personification of Baku in the native language poetry of Muhammadhuseyn Shahriyar" as the main direction were taken and developed thoughts and ideas as a theme about the city of Baku in the native poetry of Seyid Muhammadhuseyn Shahriyar (1906-1988) – one of the famous figures of Azerbaijani literature, an immortal master of words. During the study, artistic fragments from poems and poems written by the poet in different years were used. The study refers to the native poetry of the master, as well as the thoughts and opinions of scientists specializing in poetry on this issue.

As a result of the research, it was concluded that Baku, the capital of Northern Azerbaijan, is not just a geographical place for M. Shahriyar, but has a symbolic meaning as a symbol of all of Azerbaijan, acquires the meaning of a single homeland, has Shahriyar, praising Baku, was not limited to describing its external beauty, but also spoke with great love about the material and spiritual history of this city, spoke about the national and spiritual values that arose and formed here over the centuries, and managed to create a literary panorama of Baku. In the artistic introduction of M. Shahriyar, Baku was developed, depicted and glorified as a separate artistic image. The main objective of the research work is to emphasize once again that the subject matter of Muhammadhuseyn Shahriyar's native poetry is very rich and relevant to our time in terms of content, to analyze the poet's thoughts about Northern Azerbaijan, in particular about the capital Baku, to emphasize the artistic and educational significance of this heritage today, to substantiate it with facts, to popularize and form the reader's opinion about Shahriyar's native work.

The research came to the conclusion that M. Shahriyar is a patriotic poet who is deeply and spiritually connected with his family roots, national and spiritual values and remains faithful to them. The theme of national memory is one of the main directions of the artist's artistic work, and what he wrote about Baku serves this high purpose.

Эсмира Исмаилова

Резюме

ОПИСАНИЕ И ОЛИЦЕТВОРЕНИЕ БАКУ В РОДНОЯЗЫЧНОЙ ПОЭЗИИ МУХАММАДА ГУСЕЙНА ШАХРИЯРА

В статье «Описание и олицетворение Баку в родноязычной поэзии Мухаммадгусейна Шахрияра» в качестве основного направления были взяты и разработаны мысли и идеи в качестве темы о городе Баку в родной поэзии Сеида Мухаммадгусейна Шахрияра (1906-1988) – одного из известных деятелей азербайджанской литературы, бессмертного мастера слова. В ходе исследования были использованы художественные фрагменты из стихотворений и поэм, написанных поэтом в

разные годы. Исследование ссылается родной поэзии мастера, а также мыслей и мнений ученых, специализирующихся на поэзии по этому вопросу.

В результате исследования был сделан вывод о том, что Баку, столица Северного Азербайджана, для М. Шахрияра является не просто географическим местом, а имеет символическое значение как символ всего Азербайджана, приобретает значение единой родины, имеет Шахрияр, восхваляя Баку, не ограничивался описанием его внешних красот, но и с большой любовью говорил о материальной и духовной истории этого города, говорил о национальных и духовных ценностях, которые здесь возникли и формировались на протяжении веков, и сумел создать литературную панораму Баку. В художественном вступлении М. Шахрияра Баку разрабатывался, изображался и воспевался как отдельный художественный образ.

Основная цель исследовательской работы – еще раз подчеркнуть, что тематика родной поэзии Мухаммедгусейна Шахрияра очень богата и актуальна для нашего времени по содержанию, проанализировать размышления поэта о Северном Азербайджане, в частности о столице Баку, подчеркнуть художественное и просветительское значение этого наследия сегодня, обосновать его фактами, популяризировать и сформировать у читателя мнение о родном творчестве Шахрияра.

Исследование пришло к выводу, что М. Шахрияр – поэт-патриот, который глубоко и духовно связан со своими семейными корнями, национальными и духовными ценностями и сохраняет им верность. Тема национальной памяти является одним из основных направлений художественного творчества художника, и то, что он писал о Баку, служит этой высокой цели.

Rəyçi: dos. R.Mürşüdova

Gilə Hüseynli
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.058

A.BAYETTİN "BÜLBÜLÜN GÖZÜNDƏKİ CİN" HEKAYƏSİNİN TƏHKİYƏ DİSKURSUNDA ANİMA ARXETİPİ (TƏRBİYƏ ROMANI KONTEKSTİNDƏ)

Açar sözlər: *metatəhkiyə, nağıl, çərçivə hekayə, tərbiyə romanı, arxetip*
Keywords: *metafiction, fairy tale, frame story, bildungsroman, archetype*
Ключевые слова: *метапроза, сказка, обрамление, роман воспитания, архетип*

Giriş. A.Bayettin yaradıcılığı postmodern ədəbiyyatın əsas xüsusiyyətləri ilə yanaşı klassik ədəbi ənənələrlə müasir düşüncə tərzinin qarşılıqlı əlaqəsini nümayiş etdirən bədii sistem kimi dəyərləndirilə bilər. Onun 1994-cü ildə nəşr olunan "Bülbülün gözündəki cin" hekayəsi bu mənada həm ədəbi forma, həm də ideya-fəlsəfi məzmun baxımından xüsusi maraq doğurur. Metatəhkiyəvi struktura əsaslanan hekayə baş obraz Cillianın mənəvi təkamülünü əks etdirən, tərbiyə romanı modelinin dekanstuksiyası kimi diqqət çəkir. "Mətn içində mətn" ("mise-en-abyme", "принцип матрёшки") strukturu və çoxqatlı təhkiyə sistemi vasitəsilə müəllif sadəcə hadisələrin ardıcıllığını deyil, həmçinin onların nəqledilmə prinsipini vurğulayır. Əsər ənənəvi nağıl janrının struktur çərçivələrini dekonstruksiya edərək, onu feminist və intertekstual kontekstdə yenidən qurur. Bu yenidənqurma prosesində isə Karl Yunqun analitik psixologiyasından qaynaqlanan anima arxetipi ideyası semantik açar funksiyasını daşıyır.

Həmçinin Bayettin hekayəsi yalnız arxetipik motivlərin bədii təzahürünü deyil, həm də qadın kimliyinin və fərdi şüurun inkişaf mərhələlərini bildunqsroman kontekstində izləməyə imkan verir. Cillianın daxili transformasiyası, onun öz mənliyini dərk etməsi, arxetipik simvollar vasitəsilə "özünü formalaşdırma" prosesləri anima arxetipinin həm psixoloji, həm də mifopoetik səviyyədə təzahür etdiyini nümayiş etdirir.

Əsas Hissə. 1. Antoniya Bayett ədəbi fəaliyyətinə 1960-cı illərdə başlamış və yaradıcılığının ilk mərhələsində daha çox realist nəsrin nümayəndəsi kimi tanınmışdır. Lakin onun sonrakı əsərləri tədricən realist estetikadan uzaqlaşaraq eksperimental və postmodern axtarışlara yönəlmişdir. Bayettin yaradıcılığı real və fantastik müstəvilər arasında keçidlər qurmaqla ədəbiyyatda realist təsvirinin mahiyyətini, tarixi şüurun bədii təcəssümünü və qadın subyektivliyinin ifadə imkanlarını tədqiq edir.

Yazıçının "Bülbülün gözündəki cin" hekayəsi 1994-cü ildə eyni adlı toplusunda dərc olunmuş hekayələr arasında ən uzunudur. Topludakı hekayələrin hər biri klassik nağıl motivlərinin yenidən işlənməsi və onların müasir interpretasiyası

kimi qurulmuşdur. Həcminə görə əsərin janrını povest və ya qısa roman kimi, nağıl elementlərini daşıdığına görə nağıl-hekayə kimi də dəyərləndirmək olar.

Postmodern təhkiyə, Linda Haçionun qeyd etdiyi kimi, "özünüreflektivdir; o, mənanı dağıtmaq üçün deyil, onun qurulduğunu göstərmək üçün parodiya və intertekstuallıqdan istifadə edir" [9, s. 1] "Bülbülün gözündəki cin" hekayəsində də müəllif oxucunun gözləntilərini alt-üst etmək, həmçinin mətnin qurama olduğunu vurğulamaq məqsədilə hekayə janrının ənənəvi qəliblərini pozur, mətnin metatəhkiyə diskursuna diqqət çəkir. Bu narrativ yanaşma, xüsusilə əsərin təhkiyəçisinin oxucuya xitabən dediyi fikirlər ədəbi mətnin formalaşmasında oxucunun funksiyasını ön plana çıxarır. Əsərdə kənar obraz haqqında qısa məlumat verən təhkiyəçi onun haqqında "... bu hekayədə çox yer tutmayacaq. 26 yaşındadır, başqa bir şey bilməyinizə ehtiyac yoxdur, yəqin siz də belə təxmin etmişdiniz, elə deyilmi?" [2, s. 45] deyərək oxucunun marağını cəlb etməyə çalışır.

Hekayənin baş obrazı britaniyalı qiraətçi, alim Cillian Perholt həyat yoldaşının onu başqa qadına görə tərk etməsindən sonra mənəvi boşluq yaşayır və şəxsiyyətini yenidən kəşf etməyə yönəlir. Türkiyəyə səfəri zamanı "Qadınların həyatından hekayələr" mövzusunda konfransda çıxış edərək həm şəxsi, həm də peşəkar təcrübəsini təqdim edir. Səfər zamanı İstanbulda köhnə çeşmibülbül qabı alan Cillian onu təmizlədiyi zaman içərisindən ona üç arzusunu yerinə yetirməyi təklif edən cin çıxır. Həm cin, həm də Cillianın arzuları gözlənilməz və qeyri-adi xarakter daşıdığından hekayənin süjeti ənənəvi ardıcıllığı pozur və oxucunun gözləntilərini alt-üst etməyə davam edir. Bu struktur vasitəsilə Bayett həm protaqonistin daxili transformasiyasını, həm də hekayənin postmodern təhkiyə strategiyasını vurğulayır və hekayədə çoxqatlı süjet quruluşunun tətbiqinə zəmin yaradır. Bu yanaşma, yəni bir hekayənin digər hekayələrin içində yerləşdirilməsi Jerar Jenet tərəfindən "Təhkiyə diskursu" (1980) əsərində tədqiq edilmişdir. O, üç əsas süjet səviyyəsini fərqləndirir:

1. Ekstradiegetik səviyyə – əsas süjet xəttindən üst səviyyədə yerləşən səviyyə; bu səviyyəyə əsas hekayəni nəql edən şəxsin perspektivi də daxildir;

2. İntradiegetik səviyyə – əsas hekayənin məkan və zaman çərçivəsini əhatə edən səviyyə;

3. Metadiegetik səviyyə – interpolyasiya olunmuş hekayələrdən ibarət səviyyə [7, s. 228–234].

Jerar Jenetin terminologiyası ilə desək, "narrativ səviyyələr iyerarxik şəkildə düzülür: ekstradiegetik nağılçı hekayə danışır, bu hekayə içində isə yeni bir danışan və yeni bir hekayə meydana çıxır" [7, s. 228].

Oxucu Bayettin "Bülbülün gözündəki cin" hekayəsində belə bir quruluşla qarşılaşır. Hekayədəki dörd qatlı səviyyəni belə ayırd etmək olar: Bayettin hekayəsi (I) Cillianın konfrans məruzəsindən sitat gətirir (II), məruzə isə "Kenterberi hekayələri"ndən sitat götürür (III), həmin əsər isə "Tələbənin hekayəsi"ni ehtiva edir (IV). Bir neçə qatlı yerləşdirmə strategiyası ədəbi nəzəriyyədə, sonralar postmodern ədəbiyyatda "mətn içində mətn" kimi istifadə olunan əsas üsullardan olan "çərçivə təhkiyəsi" adlandırılır. Bu çoxqatlı yerləşdirmə texnikasının xüsusi bir alt kateqoriyası isə fransız dilindən götürülmüş ifadə ilə "mise-en-abyme" effektidir – yəni mətn özünü içəridə əks etdirən güzgü sisteminə çevrilir. Lucien Dallenbax bu

strukturu belə izah edir: “Mise-en-abyme mətndə güzgü kimi fəaliyyət göstərir, hekayənin öz quruluşunu və ya temasını miniatür şəkildə təkrarlayır” [4, s.34].

Bayett hekayədə “mise-en-abyme” texnikasından istifadə edərək süjetin çoxqatlı quruluşunu gücləndirir və hadisələrin həm ədəbi, həm də simvolik səviyyədə oxucu tərəfindən qavranmasını təmin edir. Əsas süjetə daxil edilmiş konfrans məruzələri, Cillian və cinin bir-birinə danışdığı hekayələr, digər personajların danışdıqları və ya oxuduqları çoxsaylı mətnlərin hər biri baş obrazın daxili dünyasını və emosional transformasiyasını əks etdirir.

“Mise-en-abyme”in simvolik xarakterini vurğulayan B.Makheylə görə “İç-içə yerləşən strukturların mövcudluq səviyyəsini göstərmək üçün postmodern ədəbiyyat ən güclü vasitələrindən biridir” [12, s. 124]. “Mise-en-abyme”in ironik nümunəsi kimi Bayett hekayədə müxtəlif təhkiyəçiləri təqdim etməklə ədəbiyyatın dünyanı nəql etmə və duyma vasitəsi kimi mahiyyətini, bu proses vasitəsilə isə reallığın bədii təsvirlə yenidən qurulduğunu nümayiş etdirir. Hekayədə hadisələri nəql etməyə şüurlu şəkildə yanaşan bu personajlara ironik olaraq “ikinci dərəcəli varlıqlar” deyilir [2, s. 43], bu da onların metatəhkiyə statusunu daha da gücləndirir.

Bununla yanaşı, Bayettin “çərçivə” quruluşundan istifadəsi yalnız metatəhkiyə funksiyası daşımır, eyni zamanda digər məqsədlərə xidmət edir. Alfer və Edvards de Kampos qeyd edirlər ki, bu quruluş “süjetin davamlı inkişafını taleyin struktural ekvivalenti kimi vurğulayır” [1, s. 110]. Bu, xüsusilə “Bülbülün gözündəki cin” kimi klassik nağılları yenidən yazan və onların ənənəvi süjet strukturlarından yararlanan hekayələr üçün uyğundur. Hekayənin qəhrəmanları başa düşürlər ki, onların taleyi əvvəlcədən müəyyən edilmişdir və bu hekayənin süjeti kimi “artıq proqnozlaşdırıla bilən xətt üzrə qurulub”. Bundan əlavə, hekayələrin iç-içə yerləşdirilməsi reallığın çoxqatlı quruluşunu göstərir. Bu, İtalo Kalvinonun fikrində aydın şəkildə ifadə olunur: Ədəbiyyat reallığı dəyişməz və vahid bütöv kimi deyil, çoxqatlı və müxtəlif səviyyələrdən ibarət bir quruluş kimi dərk edir [3, s. 120-121]”. Mülahizəyə əsasən deyə bilərik ki, Bayett “mise-en-abyme” narrativ quruluşundan istifadə edərək postmodernist üslubda vahid reallığın mövcudluğunu şübhə altına alır.

Hekayənin baş qəhrəmanı Cillian Perholt narratoloqdur. O, hekayələri öz baxış bucağından yenidən izah edən və beləliklə “ikinci dərəcəli varlıqlar” qrupuna daxil olan bir fiqur kimi təqdim olunur. Onun fikrincə, ən yaxşı təhkiyəçilərin belə əsas funksiyası “hekayələri nəql etmək və onları yenidən şərh etməkdir. Bu, dinləyicinin ayıq saxlamağa və təhkiyəçiyə hekayənin içinə girməyə imkan verir” [2, s. 47]. Bayettin mətnində bu ideya daha geniş mənada inkişaf etdirilir: yalnız təhkiyəçilər, qirayətçilər deyil, ümumiyyətlə, bütün hekayə yazarları “ikinci dərəcəli varlıqlar” kimi təqdim olunur. Bunun səbəbi ondan ibarətdir ki, hekayəçilik mahiyyət etibarilə mövcud hekayələrin təkrar izahı və yenidən yazılması prosesidir. 2. A.Bayettin ənənəvi “çərçivə” elementlərini istifadə edərək köhnə mətnləri yenidən şərh etdiyi “Bülbülün gözündəki cin” hekayəsinin bu çoxsəviyyəli strukturu yalnız postmodern oyun deyil, həm də mifopoetik təfəkkürün yenidən qurulmasıdır. Meletinskinin qeyd etdiyi kimi, “mif poetik şüurun ilkin forması kimi insanın daxili arxetiplərinin simvolik ifadəsidir; ədəbiyyat bu arxetipləri fərdi təcrübə səviyyəsində yenidən canlandırır” [13, s. 27]

Bayettin mətni də psixoloji və mifoloji kontekstdə məhz bu funksiyanı yerinə yetirir: Cillianın hekayəsi həm qadının fərdi taleyini və özünü formalaşdırmasını, həm də universal anima arxetipinin təzahürünü birləşdirir. Belə ki, əsərdə diqqəti cəlb edən məsələlərdən biri bu mətnlər vasitəsilə obrazın metaforik baxımdan "özünü kəşf etməsi" və ya daxili inkişaf hekayəsinin olmasıdır. Ənənəvi klassik "tərbiyə romanı" modelində əsas diqqət gənc qəhrəmanın yetkinliyə doğru həqiqi və məcazi səyahətinə yönəlirsə, Bayettin hekayəsində bu, orta yaşlı bir qadının həyatını yenidən mənalandırmaq və öz subyektivliyini, bütövlüyünü bərpa etmək cəhdi kimi təqdim olunur. Hekayənin əsas hadisəsi – Cillianın üç arzusunu gerçəkləşdirən cinlə qarşılaşması onu həm şəxsi, həm də intellektual transformasiyaya təşviq edir. Bu qarşılaşma Cillianın həyat hekayəsini yenidən yazmasına, daxili dünyasının və özünüqavrayışının yenidən qurulmasına imkan yaradır.

Digər tərəfdən, ənənəvi olaraq kişi qəhrəmanın formalaşma prosesi üzərində qurulan tərbiyə romanı XX əsrdən etibarən qadın bildunqsromanı kimi yeni istiqamətdə inkişaf etmişdir. Bu əsərlərdə qadın qəhrəman öz fərdiyyətini və mənəvi səsini patriarxal məhdudiyyətlərə qarşı müəyyənləşdirməyə çalışır. Marian Hirş bu fenomeni belə izah edir: "Bildunqsroman fərdin cəmiyyət daxilində formalaşmasını izləyir; qadın üçünsə bu trayektoriya çox vaxt parçalanmış və ya yenidən yazılmış formada təqdim olunur" [8, s. 23] Əsrin ortalarında qadın obrazları daha sərt gender ayrıseçkiliyinin hökm sürdüyü dünyaya qarşı müqavimət göstərirlər; burada onların problemləri çox vaxt hüquqi və sosial müstəqilliyin olmaması ilə məhdudlaşır.

Suzan Freyman isə vurğulayır ki, "qadın tərbiyə romanında sosial inteqrasiyadan çox, daxili özünü tanıma və transformasiya ön plana çıxır" [6, s. 5] Cillianın obrazı da bu modelə uyğundur: onun inkişafı xarici, sosial müstəviyə deyil, mənəvi və arxetipik səviyyədə, qəhrəmanın ruhi bütövlüyə çatmaq uğrundakı daxili mübarizəsinə, "anima"nın tanınmasına yönəlmişdir. Cillian İstanbuldakı konfransdan başlayaraq Torontoya qədər uzanan səyahəti zamanı müxtəlif mədəniyyətlərlə, dünyagörüşləri ilə və ən əsası öz daxili aləmi ilə qarşılaşır. Bu qarşılaşmalar onun keçmiş travmalarını yenidən qiymətləndirməsinə və həyat prioritetlərini dəyişməsinə şərait yaradır. Bu baxımdan Cillianın transformasiyasını psixoanalitik yanaşmada Karl Yunqun arxetiplər nəzəriyyəsi ilə əlaqələndirmək mümkündür. Yunqun fikrincə, hər bir insanın şüuraltında həm kişi başlanğıcı (animus), həm də qadın başlanğıcı (anima) mövcuddur. Şəxsiyyətin bütövlüyə doğru inkişafı, yəni individuasiya prosesi bu iki başlanğıcın vəhdəti nəticəsində reallaşır.

Cillian Perholt əsərin əvvəlində animusla eyniləşmiş qadın obrazı kimi təqdim olunur. O, elmə, məntiqə və rasional düşüncəyə əsaslanan intellektual qadın olsa da, bu intellektual nizam və rasional həyat tərzi onun emosional və duyğusal baxımdan təcrid olunmasına, tənhalaşmasına səbəb olmuşdur. Əsərdə Cillian öz vəziyyətini ifadə etmək üçün Con Miltonun "İtirilmiş cənnət" əsərindən "üzən artıqlıq" (floating redundant) ifadəsini işlədir. "İndi isə qadın öz biliyini və istehzasını "artıqlığ"ın müasir mənasına qatırdı: "Yəni, artıqdan, istənməyən, gərəksiz, vaz keçilmiş... Dr. Perholtun istehzası cinsi və yaşı ilə bağlıydı. Çünki yaşı əllini ötmüşdü, dünyaya uşaq gətirmək çağı keçmiş qadındı. İki övladı da böyümüş, İngiltərəni tərk etmişdilər... Dr. Perholtun əri də evini və xanımını tərk etmişdi". [2, s. 45]

Cinlə qarşılaşma Cillian üçün anima başlanğıcının oyanışı deməkdir. Cin təxəyyülün, duyğunun, istək və azadlığın simvolu kimi qəhrəmanın şüurunun dərinliklərində gizlənmiş yaradıcı və duyğusal potensialı hərəkətə gətirir. Onunla münasibət Cillianın öz qadın təbiəti, bastırılmış duyğu və yaradıcılıq ehtirası ilə təmas qurmasına şərait yaradır. Cin onun üç arzusunu yerinə yetirəcəyini bildirdikdən sonra ilk arzusunun nə olacağını soruşduqda Cillianın "vücudumun, onu ən son həqiqətən bəyəndiyim halına dönməsini diləyirəm" [2, s. 80] deməsi buna ilk sübutdur. İkincisi, Cin tərəfindən sevilmək arzusunun çin olması Cillianda animanın sistemli oyanışının göstəricisidir.

Göründüyü kimi Cillianın arzuları da simvolik məna daşıyır. Ənənəvi nağıllarda arzular çox vaxt qəhrəmanın maddi rifahını və ya sosial statusunu dəyişmək məqsədi daşıdığı halda, Cillian arzular vasitəsilə xarici dünyanı dəyişməkdən çox, öz daxili reallığını transformasiya edir.

Karl Yunqun individuasiya nəzəriyyəsinə əsasən qadın şüuru öz şüursuz başlanğıcı ilə, yəni animanın əsaslandığı arxetipik enerji ilə birləşərək bütöv "mən"in formalaşmasını təmin edir [10, s. 216]. Bu baxımdan, Cillianın transformasiyası yalnız emosional və mənəvi azadlığa doğru deyil, həm də psixoloji bütövlüyə və daxili harmoniyaya yüksəlişi ifadə edir. Onun bilikdən duyğuya, məntiqdən təxəyyülə, rasionallıqdan idealizmə doğru hərəkəti əslində anima və animusun birləşməsi prosesini göstərir.

Əsas hekayənin struktur səviyyəsində bu proses bir növ "özünü yenidən yazma" aktı kimi təqdim olunur. Bayettin əsəri bu mənada "formalaşma hekayəsi" kimi dərk oluna bilər, lakin transformasiya gənclikdən yetkinliyə keçid kimi bioloji və sosial çərçivələrdə deyil, əksinə, yetkinlikdən gəncliyə qayıdaraq baş verir, sanki ekzistensial səviyyədə yenidən doğuluş prosesidir. Mirça Eliade yazırdı ki, "mifi yaşamaq insanın ilkin varlıq modelinə qayıdışı, müqəddəs başlanğıcı ilə birləşməsi deməkdir" [5, s. 68]. Bayettin hekayəsində də qəhrəmanın mənəvi yüksəlişi, öz mahiyyətinə dönüşü – bir növ "sakral mifin" yenidən canlanması kimi təqdim olunur. Digər tərəfdən cinin onu cavanlaşdırmasıyla baş tutan bu hadisə onu intellektual cəhətdən də geri atmır. Belə ki, əsərin əvvəlində narratoloq olan Cillianın dünyagörüşü Cinin hekayələri vasitəsilə daha da zənginləşir və özünün ekzistensial mahiyyətini tapmağa kömək edir.

Cin Cillianla söhbətində əsrlər boyu tanıdığı Səba məlikəsi Bilqeys, çərkəz qızı Gültən (Sultan Süleymanın oğlu Mustafanın sevgilisi), Şivəkar Sultan (Sultan İbrahimin erməni əsilli arvadı) və Zefir (İzmirli tacirinin arvadı) kimi qadınlardan danışır. Bu qadınlar sadəcə tarixi və mifoloji fiqurlar deyil, həm də qadınlığın arxetipik inkişaf mərhələlərinin simvolları kimi təqdim olunur. "Kollektiv şüursuzluğun məzmunu fərdi təcrübə ilə yox, bəşər tarixinin keşməkeşli yolları ilə bağlıdır" [11, s. 235] fikrinə əsaslanaraq tarixin müxtəlif anlarında zühur edən bu qadınların hekayələri vasitəsilə qadın taleyinin zamanla dəyişilməsinin, həmçinin anima arxetipinin mərhələlərinin təcəssümünün şahidi oluruq.

K.Yunq anima arxetipinin dörd əsas inkişaf mərhələsini fərqləndirir: Həvva – instinkt və bədən səviyyəsində qadınlıq; Yelena – sevgi və gözəllik idealı; Məryəm – mənəvi və fədakar qadınlıq; və Sofia – müdriklik və bütövlük mərhələsi. Cinin tarixin müxtəlif dövrlərində qulluğunda olduğu qadınların hər biri bu mər-

hələləri təcəssüm edir və bu hekayələri dinləyən qəhrəmanın ruhi yetkinliyə doğru irəliləyişini simvolizə edir.

Qadın gücünün və özünüdərkin oyanışını əks etdirən Həvva, yəni Səba məlikəsi Bilqeys, eyni zamanda ehtiras və emosionallığı əks etdirən Yelena, yəni Şivəkar Sultan obrazlarını Qədim Şərqdə qadın cazibəsinin və hakimiyyətinin simvolu kimi səciyyələndirmək mümkündür.

Qadın fədakarlığını, empatiya və mənəviyyatı səciyyələndirən Məryəm, yəni Gültən qadınlığın, analığın (hamiləlik zamanı öldürülməsinə baxmayaraq) mənəvi səviyyəyə yüksəlişini simvolizə edir. "Sən demə zavallı qızcığaz Şahzadə Mustafaya dəli kimi aşiq olmuşdu. Məndən ilk istəyi onun gözünə girmək oldu... Bu ərəfədə səfeh qız hamilə qalmağı dilədi." [2, s. 85]

İntellekt və duyğunun birləşməsini təcəssüm edən Sofia, yəni Zefir obrazı qadın şüurunun tam formalaşmasının göstəricisidir. "Ona Riyaziyyat, astronomiya və bir çox dil öyrətdim. Xoşbəxtlikdən uçurdu, mənimlə gizli çalışmaqdan böyük zövq alırdı. Şeir də oyrəndi, səba məlikəsinin səyahətləri haqqında birlikdə dastan yazdıq." [2, s. 88]

Lakin Zefir obrazının gənc olması bu xüsusiyyəti qismən əks etdirdiyini deməyə əsas verir. Əsərin əsas qəhrəmanı olan Cillianın həm yaşının çox olması, həm də intellektual, alim olması Sofianın müəyyən mənada onunla simvollaşması fikrini formalaşdırır. "Cox ağıllı qadın idi, sənin kimi, Cillian və tələskənliyin ağılsızlıq olduğunu bilirdi." [2, s. 89] Bu fikirlə yazıçının eyni mövqedə olduğunu demək olar.

Beləliklə, əsərdə Cin obrazı vasitəsilə təqdim olunan qadınların hekayələri onların qadınlığın kollektiv yaddaşını nümayiş etdirdiyini deməyə əsas verir. Cillian isə bu təcrübəni mənimsəyərək onların təkamül yolunun son mərhələsinə – Sofiya səviyyəsinə çatır. Əsərin ilk cümləsindən özünü belə istehzaya məruz qoyması obrazın özü ilə barışıq bir kişiliyə sahib olmasının göstəricisidir deyə oxucu düşünə bilər. Lakin sujet ilərlədikcə bu kamilləşmiş bilgə qadın öz həyat hekayəsini danışarkən təkamül prosesində buraxdığı səhvləri yadına salır, qadınlığını, incəliyini harada itirdiyini yada salaraq Cinin sehri vasitəsilə bunları aradan götürməyə çalışır. Bu səbəbdən əsərin baş qəhrəmanı Cillian Perholtun keçdiyi transformasiya ənənəvi bildunqsroman modelini dekonstruksiya edir və onun yerinə "özünü yenidən kəşf etmə", "bütövləşmə" motivini irəli sürür.

Bununla da, Bayett "Bülbülün gözündəki cin" hekayəsində həm ənənəvi nağıl kodlarını qoruyur, həm də onu müasir qadın təcrübəsinin psixoloji arxetipik dərinlikləri ilə zənginləşdirərək postmodern bildunqsroman nümunəsinə çevirir.

Nəticə. A.S. Bayettin "Bülbülün gözündəki cin" hekayəsi həm postmodern ədəbiyyatın formal xüsusiyyətlərini, həm də klassik ədəbi ənənələrin müasir kontekstdə yenidən işlənməsini birləşdirən mürəkkəb bədii sistem kimi dəyərləndirilə bilər. Əsər çoxqatlı təhkiyə strukturu, intertekstuallıq və "mise-en-abyme" strategiyaları vasitəsilə yalnız hadisələrin ardıcıllığını deyil, həm də onların nəqledilmə prinsipini oxucuya təqdim edir. Müəllifin bu texnikası hekayənin həm ədəbi, həm də simvolik səviyyədə qavranmasını təmin edərək, oxucunu mətndə aktiv iştirakçı kimi cəlb edir. Patrisia Vonun qeyd etdiyi kimi, "metafiksiya öz quruluşunu açıq şəkildə nümayiş etdirərək ədəbiyyatın öz-özünü düşünmə qabiliyyətini üzə çıxarır". [14, s. 2]

Bayett qadın formalaşmasını yalnız sosial uyğunlaşma və xarici dəyişiklik kimi deyil, həm də psixoloji bütövləşmə və arxetipik inteqrasiya prosesi kimi təqdim etməklə "Bülbülün gözündəki cin" hekayəsini klassik tərbiyə romanı modelinin sərhədlərini aşan, qadın kimliyinin mənəvi və simvolik təkamülünü əks etdirən müasir psixo-mifoloji hekayəyə çevirir.

Ədəbiyyat:

1. Alfer, A. (2012). A. S. Byatt: Critical storytelling. Manchester University Press.
2. Byatt, A. S. (1998). The djinn in the nightingale's eye: Five fairy stories. Knopf Doubleday Publishing Group.
3. Calvino, I. (1997). The literature machine. Random House UK.
4. Dällenbach, L. (1989). The mirror in the text. University of Chicago Press.
5. Eliade, M. (1959). The sacred and the profane. Harcourt.
6. Fraiman, S. (1993). Unbecoming women: British women writers and the novel of development. Columbia University Press.
7. Genette, G. (1983). Narrative discourse: An essay in method. Cornell University Press.
8. Hirsch, M. (1983). The mother/daughter plot. Indiana University Press.
9. Hutcheon, L. (2003). A poetics of postmodernism: History, theory, fiction. Routledge.
10. Jung, C. G. (1981). The archetypes and the collective unconscious. Princeton University Press.
11. Quliyev, Q. (2012). XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı.
12. McHale, B. (1987). Postmodernist fiction. Routledge.
13. Meletinski, E. M. (1998). Poetika mifa. Vostochnaya Literatura.
14. Waugh, P. (1984). Metafiction: The theory and practice of self-conscious fiction. Methuen.

Gila Huseynli

Summary

THE ANIMA ARCHETYPE IN THE NARRATIVE DISCOURSE OF A. BYATT'S STORY "THE DJINN IN THE NIGHTINGALE'S EYE" (IN THE CONTEXT OF THE BILDUNGSROMAN)

The article analyzes A.S. Byatt's short story "The Djinn in the Nightingale's Eye" as a complex artistic system, combining the formal features of postmodern literature and the traditions of classical fairy tales. The story employs a multilayered narrative, intertextuality, and mise-en-scène, allowing for an understanding of the plot on both literary and symbolic levels. The protagonist, Gillian Perholt, embarks on a journey to fill her inner emptiness and rediscover her identity; a genie, emerging from a glass bottle she finds in Istanbul, stimulates her spiritual transformation by fulfilling her wishes. The story depicts Gillian's transformation from a rational female figure identified with the animus into a holistic subject united with the anima. The female figures, represented through the genie, symbolize the archetypal stages of femininity. The work deconstructs the traditional model of the Bildungsroman and portrays a woman's development as an internal and psychological transformation. The symbolic content of desires serves to transform the protagonist's inner reality and achieve autonomy. A.Byatt presents the spiritual and symbolic evolution of female identity, synthesizing fairy-tale motifs, archetypes, and postmodern narrative techniques.

Гила Гусейнли

Резюме

АРХЕТИП АНИМЫ В НАРРАТИВНОМ ДИСКУРСЕ РАССКАЗА А. БАЙЕТТ «ДЖИН В ГЛАЗУ СОЛОВЬЯ» (В КОНТЕКСТЕ РОМАНА ВОСПИТАНИЯ)

В статье анализируется рассказ А.С. Байетта «Джинн в глазу соловья» как сложная художественная система, сочетающая формальные черты постмодернистской литературы и традиции классических сказок. В рассказе используются многослойное повествование, интертекстуальность и мизансцены, что обеспечивает понимание сюжета как на литературном, так и на символическом уровне. Главная героиня, Джиллиан Перхольт, отправляется в путешествие, чтобы заполнить свою внутреннюю пустоту и заново обрести свою идентичность; джинн, появляющийся из стеклянной бутылки, найденной ею в Стамбуле, инициирует её духовное преображение, исполняя её желания. В рассказе описывается трансформация Джиллиан из рациональной женской фигуры, отождествляемой с анимусом, в цельного субъекта, объединённого с анимой. Женские образы, представленные через джинна, символизируют архетипические стадии женственности. Произведение деконструирует традиционную модель романа воспитания и показывает становление женщины как внутренний и психологический процесс трансформации. Символическое содержание желаний служит изменению внутренней реальности главной героини и достижению свободной субъективности. А. Байетт представляет духовную и символическую эволюцию женской идентичности, синтезируя сказочные мотивы, архетипы и постмодернистские повествовательные приёмы.

Rəyçi: prof. Q.Quliyev

Leyla Əliyeva
Azərbaycan Dillər Universiteti
10.30546/2518-752X.1.601.079

MEMUAR JANRININ BƏDİİ PRİNSİPLƏRİ VƏ İSRAİL ƏDƏBİYYATINDA TƏZAHÜRÜ

Açar sözlər: *xatirə, avtobioqrafiya, İsrail ədəbiyyatı, subyektiv yaddaş, şəxsi hekayə*
Keywords: *memoir, autobiography, Israeli literature, subjective memory, personal narrative*
Ключевые слова: *мемуары, автобиография, израильская литература, субъективная память, личный рассказ*

Giriş. Memuar janrı ədəbiyyatda müəllifin şəxsi təcrübələrini, müşahidələrini və yaşadığı dövrün mühüm hadisələrini xatirə şəklində qələmə alması ilə xarakterizə olunur. Bu janrın əsas cəhəti hadisələrin müəllifin fərdi baxış bucağından təqdim edilməsidir. Ədəbiyyatşünas M.H.Abrams memuarı "müəyyən dövrün və hadisələrin müəllifin subyektiv baxış bucağından təsviri" [1, s. 22] kimi səciyyələndirir. Bu yanaşma memuar janrının ikili təbiətini ortaya qoyur. Bir tərəfdən o, sənədli xarakter daşıyır, çünki real faktlara və tarixi hadisələrə əsaslanır, digər tərəfdən isə bədii-estetik dəyərə malikdir. Müəllifin dil və üslub seçimi, hadisələrin təqdimat tərzi memuarı sadəcə xatirə deyil, həm də dərin ədəbi məna daşıyan sənət nümunəsinə çevirir.

Memuar janrının yaranması insanın özünüifadə ehtiyacından irəli gəlir. Yaddaşda qalan hadisələrin yazıya çevrilməsi bir tərəfdən şəxsi həyat yolunun mənalandırılmasına, digər tərəfdən isə tarixi proseslərin gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Memuarın tarixi kökləri çox qədim dövrlərə qədər uzanır. Antik Yunanıstanda yazılmış Ksenofontun "Anabasis" əsəri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Müəllif burada rəhbərlik etdiyi yunan əsgərlərinin yürüşünü təsvir edir, həm hadisələrin tarixi əsaslarını, həm də şəxsi təcrübəsini ön plana çıxarır ki, bu da memuar janrının ilkin xüsusiyyətlərini əks etdirir.

Eyni xüsusiyyətləri Yuli Sezarın "Qalliya müharibəsi haqqında qeydlər" əsərində də görmək mümkündür. Sezar burada yalnız hərbi əməliyyatları təsvir etmir, eyni zamanda öz siyasi baxışlarını və rəhbərlik təcrübəsini də təqdim edir. Sadə və subyektiv təhkiyə tərzi memuar janrına xas əsas xüsusiyyətlərdən biri kimi çıxış edir.

Orta əsrlərdə memuar ənənəsinin inkişafında mühüm mərhələ Avreli Avqustinin "Etiraflar" əsəri ilə bağlıdır. Bu mətn avtobioqrafik memuarın ən erkən nümunələrindən biri sayılır. Müəllif burada şəxsi həyat yolunu, günah və peşmanlıqlarını, dini dönüş nöqtəsini oxucuya təqdim edir. Əsərdə daxili aləmin dərin təhlili və fərdi hisslərin səmimi şəkildə ifadəsi memuar janrının sonrakı inkişafına güclü təsir göstərmişdir.

Bununla belə, bu dövrə aid yazılar memuar janrının hələ tam formalaşmadığını, yalnız ilkin cəhdlər və başlanğıc mərhələlər kimi təmsil olunduğunu göstərir.

Antik və orta əsr müəlliflərinin əsərlərində memuarın əsas xüsusiyyətləri nəzərə çarpsa da, onlar hələ sistemli və müstəqil ədəbi janr səviyyəsinə çatmamışdı.

Memuarın ayrıca ədəbi ənənə kimi formalaşması XVI-XVII əsrlərə təsadüf edir. Ədəbiyyat tarixçilərinin fikrincə, xüsusilə Fransa ədəbiyyatında bu dövrdə memuar artıq təsadüfi xatirə yazılarından uzaqlaşaraq müstəqil janr statusu qazanmış, ədəbi prosesdə sabit yer tutmağa başlamışdır.

Balkan və Birinci Dünya müharibələrinin şahidi olan Yovkov, insanın daxili sarsıntılarını, ölüm və həyat arasındakı ziddiyyətləri, müharibənin mənəvi izlərini dərin psixoloji səviyyədə təsvir etməyə başladı. O, qəhrəmanlıq və faciə, güc və zəiflik kimi əks qütbləri bir araya gətirərək insanın kompleks təbiətini göstərirdi. Onun hekayələrində qəhrəmanlar nə tam ideal, nə də tam günahkardır – hər biri insanın əzab, vicdan və bağışlanma kimi duyğularını təmsil edir. Yovkov üçün əsas məsələ hadisələrin yox, insanların mənəvi vəziyyətinin bədii ifadəsi idi.

1920-ci illərdə yazdığı "Axşamlar Antimovoda" ("Veçeri v Antimovo") silsiləsi Yovkov yaradıcılığının zirvəsi hesab olunur. Burada o, sadə kəndlilərin həyatını böyük poetik güclə təsvir etmiş, onların iç dünyasında mərhəmət, sevgi və əxlaqi dəyərlərin üstünlüyünü göstərmişdir. "Kənd hekayələri" ("Sel'ski razkazi") toplusunda isə o, Bolqar kəndinin mənəvi mənzərəsini yaradaraq xalqın ruhunu, folklor dilini və mənəvi gücünü əbədiləşdirmişdir. Hər bir hekayəsində insan taleyi bir simvola, bir mənəvi dərsə çevrilir.

Yovkovun üslubu sadəliyi və poetikliyi ilə fərqlənir. O, təmtəraqlı ifadələrdən qaçır, lakin hər cümləsi dərin mənalar daşıyır. Onun dili həm realist, həm də lirizmlə doludur. Bu xüsusiyyətlər onu təkcə Bolqar ədəbiyyatında deyil, bütövlükdə Avropa realizmində mühüm bir simaya çevirmişdir. Yovkovun əsərlərindəki qadın obrazları xüsusilə diqqətəlayiqdir. Onlar həm həyatın zərif, həm də dözümlü tərəfini təcəssüm etdirirlər. Yazıçı qadın ruhunun saf, eyni zamanda güclü mahiyyətini poetik dillə açır.

Yovkovun yaradıcılığında mənəviyyat, günah və bağışlanma anlayışları mərkəzi yer tutur. O, insanın ən çətin anlarda belə xeyirə yönəlmə qabiliyyətinə inanır. Onun qəhrəmanları çox zaman səhv edir, lakin vicdan əzabı və təmiz niyyətlə özlərini mənəvi cəhətdən ucaldırlar. Bu baxımdan Yovkov yaradıcılığı bir növ mənəvi katarsis nümunəsidir. O, oxucunu yalnız hadisələri izləməyə deyil, həm də düşünməyə, öz daxili dünyasına baxmağa sövq edir.

Yazıçının əsərlərində müharibə mövzusu sadəcə tarixi fakt deyil, həm də insan ruhunun sınaq meydanıdır. O, ölüm və qorxu qarşısında insanın mənəvi dayanıqlığını araşdırır. "Albena", "Borc", "Serafim" kimi hekayələrində insan ləyaqətinin, mərhəmətin və gözəlliyin gücünü ön plana çıxarır. Yovkov üçün gözəllik təkcə estetik anlayış deyil, həm də mənəvi dəyərdir – insanın içindəki işığın ifadəsidir.

Onun yaradıcılığında realizmlə romantika arasında incə bir harmoniya mövcuddur. O, həyatın sərt reallıqlarını göstərərkən belə, insan ruhunun təmizliyinə və xeyirxahlığa olan inamını itirmir. Yovkovun hekayələrində təbiət canlı bir varlıq kimi iştirak edir, insan duyğularına paralel bir simvolik məna daşıyır. Təbiət təsvirləri insanın daxili vəziyyətinin əks-sədası kimidir. Bu poetik yanaşma onun yazı tərzini bənzərsiz edir.

Yordan Yovkov həm də Bolqar xalq ədəbiyyatının motivlərini müasir ədəbi formalarla birləşdirən yazıçı idi. O, folklorun sadəliyini və müdrikliyini Avropa modern ədəbiyyatının dərin psixologiyası ilə birləşdirə bilmişdi. Bu baxımdan Yovkov həm milli, həm də universal dəyərləri ifadə edən sənətkar kimi dəyərləndirilir. Onun əsərləri təkcə bir xalqın deyil, bütün bəşəriyyətin mənəvi tarixi haqqında düşünməyə vadar edir.

Yovkovun ədəbi irsi bugünkü oxucu üçün də aktuallığını qoruyur. İnsan, vicdan, sevgi və mərhəmət kimi anlayışlar zaman keçsə də, dəyişmir. O, bəşəri dəyərləri sadə hekayələr vasitəsilə ifadə etməyi bacarmışdır. Yazıçının hər bir əsəri oxucunu həm təsirləndirir, həm də düşündürür. Yovkovun yaradıcılığı Bolqar ədəbiyyatının qızıl fonduna daxil olmuş, onun adı dünya realizminin böyük ustadları ilə bir sırada çəkilmişdir.

Beləliklə, Yordan Yovkov yalnız bir dövrün deyil, bütün insanlığın mənəvi dünyasını əks etdirən yazıçıdır. Onun hekayələrində insanın ağrısı, sevinci, tənhalığı və ümidləri əbədi bir bədii dildə danışır. Bu dərin humanizm ruhu Yovkovu Balkan ədəbiyyatının ən nəcib və ən təsirli səsini etmişdir.

Yovkov folkloru sadəcə bədii material kimi deyil, milli şüurun canlı təzahürü kimi təqdim edir. "Stara Planina əfsanələri" (1927) onun bu istiqamətdəki ən mühüm əsəridir. Burada dağlıq bölgənin həyat tərzi, təbiət və insan arasında mənəvi əlaqə əsas mövzuya çevrilir. Hekayələrdə xalq inamı, mifoloji elementlər və gündəlik reallıq birləşərək harmonik bir poetik sistem yaradır [4].

Yovkovun dili sadə, lakin simvolik məna ilə yüklüdür. O, kənd insanının həyatını bədii mif səviyyəsinə qaldırır."Millət-təbiət-insan" üçlüyü onun yaradıcılığının əsas fəlsəfi dayağıdır. Hər hekayədə insanın əxlaqi dayanma nöqtəsi, təbiətlə harmoniyası və xalq yaddaşına bağlılığı vurğulanır. Bu mənada Yovkov bolqar realizmini sadəcə sosial hadisələrin təsviri səviyyəsindən mənəvi-etik səviyyəyə yüksəldir.

"Antimovoda mehmanxana" hekayəsində Yovkov cəmiyyətin müxtəlif təbəqələri arasında baş verən psixoloji qarşıdurmaları əks etdirir. Mehmanxana burada yalnız fiziki məkan deyil, insan ruhunun "dayanacaq nöqtəsi" kimi təqdim olunur. İnsanlar bu məkanda bir-birləri ilə deyil, öz vicdanları ilə qarşılaşırlar. Müəllifin diqqət mərkəzində sosial gərginliklərdən çox, fərdin daxili sarsıntısı dayanır(4).

Yovkovun üslubunda təmkinli lirizm və dərin psixologizm hökm sürür. O, qəhrəmanlarının davranışını izah etmir, sadəcə göstərir; nəticəni oxucunun mənəvi təcrübəsinə buraxır. Mehmanxanadakı səssiz dialoqlar, baxışlar və simvollar müəllifin "sözsüz dil" adlandırıla biləcək bədii təhkiyə tərzini yaradır.

Yovkovun qadın obrazları Bolqar ədəbiyyatında xüsusi dönüş nöqtəsi hesab olunur. "Albena" (1930) hekayəsində qadın qəhrəman günah və saf niyyət arasında mübarizə aparan mürəkkəb şəxsiyyət kimi təqdim olunur. Albena həm zərif, həm də cəsarətlidir; onun günahı əslində insanın azadlıq axtarışının ifadəsidir. Müəllif cəmiyyətin sərt qınağını göstərərək qadının mənəvi dirənişini ön plana çəkir [5].

"Boryana" (1932) isə Yovkovun qadın azadlığı mövzusuna sosial-etik kontekstdə yanaşdığını göstərir. Burada qadın yalnız ailə daxilində deyil, bütövlükdə cəmiyyətdə öz yerini tapmaq uğrunda mübarizə aparır. Əsər sevgi və məsuliyyət, ənənə və modernlik, fərd və cəmiyyət qarşıdurmalarını poetik reallıqda birləşdirir. Müəllif romantik hisslərlə realist müşahidələri elə ustalıqla birləşdirir ki, qəhrəman həm milli tipaj, həm də universal qadın simvoluna çevrilir.

Yovkovun "Milionerut" (1930) əsəri onun yaradıcılığında sosial satiranın parlaq nümunəsidir. Əsərin mərkəzində varlanmaq arzusu ilə mənəvi boşluğa düşən bir insanın hekayəsi dayanır. Yazıçı bu personaj vasitəsilə cəmiyyətin dəyərlər sistemini tənqid edir. O göstərir ki, maddi uğur mənəvi ucalıqdan ayrıldıqda, insanın bütövlüyü itir [2].

Yovkov burada ironiyadan, bəzən yumordan istifadə edir, lakin məqsədi oxucunu güldürmək deyil – düşündürməkdir. "Milionerut" cəmiyyətin mənəvi böhranını güzgü kimi əks etdirir və müəllifin etik realizm anlayışını tam şəkildə ortaya qoyur.

"Chiflikut krai granitsata" ("Sərhəddəki təsərrüfat",1934) Yovkovun bədii dünyasının son mərhələsini təmsil edir. Burada sərhəd anlayışı həm coğrafi, həm də mənəvi anlam daşıyır. Torpaq, ailə və cəmiyyət arasındakı münasibətlər insanın mənəvi sərhədləri ilə paralel şəkildə təsvir olunur. Müəllif göstərir ki, cəmiyyətin sərhədləri dəyişdikcə insanın daxili sərhədləri də sarsılır.

Əsər eyni zamanda Bolqarıstanın kənd həyatında baş verən sosial transformasiyaların bədii salnaməsidir. Yovkovun dili burada daha lakonik, lakin simvolikdir; o, təbiəti və insanı vahid bir taleyin iki tərəfi kimi təqdim edir. "Sərhəddəki təsərrüfat" insanın öz mənəvi sərhədlərini qoruma mübarizəsini ümumiləşdirir.

Ədəbiyyat:

1. Йовков, Й. (1976). Овчарова жалба. Български писател.
2. Йовков, Й. (1930). Милионерът. Български писател.
3. Йовков, Й. (1927). Албена. In Старопланински легенди. Хемус.
4. https://bulgarianhistory.org/tag/
5. https://ru.wikipedia.org/wiki
6. https://homoludens.bg/wpcontent/uploads/2021/11/14_albena_by_yovkov.pdf?utm_source=chatgpt.com
7. https://chitanka.info/book/518-zhensko-syrtse
8. https://slavica.indiana.edu/anthology-of-bulgarian-literature/?utm_source=chatgpt.com
9. https://www.bloomsbury.com/uk/bulgarian-literature-as-world-literature-9781501369780/?utm_source=chatgpt.com&__cf_chl_tk=MnuIHiMrVKKuHyP9YPlzD3MHLU6FB7yR5TzPYhiBG4c-1762274947-1.0.1.1-yIIAfM66OjuCUBdISP_j_.KKii3h21zcdSaUKzDRBdc

Zulfiyya Alibeyova

Summary

REALISM AND THE REFLECTION OF NATIONAL AND MORAL VALUES IN THE WORKS OF YORDAN YOVKOV

This article examines the creative work of Yordan Yovkov, a prominent representative of twentieth-century Bulgarian literature. It analyzes his life path, stages of artistic development, and literary-aesthetic principles from a scholarly and theoretical perspective. In Yovkov's artistic heritage, the main subjects of study are rural life, moral values, human conscience and compassion, women's freedom, and the poetic expressions of national identity. The author's works – *Stara Planina Legends, Village Stories, Albena, Boryana,* and others – are interpreted through the symbolic structures of folklore and the ethics of Christianity. The article further explores Yovkov's artistic language, his style combining realism and lyricism, and his humanistic worldview, defining his role within Bulgarian national literature and European realism as a whole.

Зульфийя Алибейова

Резюме

РЕАЛИЗМ И ОТРАЖЕНИЕ НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ В ТВОРЧЕСТВЕ ЙОРДАНА ЙОВКОВА

В данной статье исследуется творчество выдающегося представителя болгарской литературы XX века Йордана Йовкова. Рассматриваются его жизненный путь, этапы творческой эволюции и литературно-эстетические принципы в научно-теоретическом аспекте. В художественном наследии Йовкова основными объектами исследования являются деревенская жизнь, духовные ценности, чувства совести и милосердия человека, женская свобода и поэтические формы национальной идентичности. Произведения автора – «Старопланинские легенды», «Деревенские рассказы», «Албена», «Боряна» и другие – интерпретируются через призму символических структур фольклора и христианской этики. В статье анализируются художественный язык Йовкова, его стиль, соединяющий реализм и лиризм, и гуманистическое мировоззрение, а также определяется его роль в болгарской национальной литературе и в контексте европейского реализма.

Rəyçi: dos. A.İsmayılova

Zülfiyyə Hüseynova
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.065

ÇAĞDAŞ AZƏRBAYCAN NƏSRİNDƏ MİFOLOJİ ZAMAN

Açar sözlər: *mifologiya, mifopoetika, zaman anlayışı, çağdaş Azərbaycan nəsri, mifoloji təfəkkür*
Keywords: *mythology, mythopoetics, concept of time, contemporary Azerbaijani prose, mythological thinking*
Ключевые слова: *мифология, мифопоэтика, категория времени, современная азербайджанская проза, мифологическое мышление*

Giriş. Mifologiya bədii düşüncənin formalaşmasında mühüm rol oynayan ən qədim mənəvi sistemlərdən biridir. Qədim mədəniyyətlərdə gerçəkliyin rəmzi-obrazlı şəkildə yeganə doğru bilinən izahı məhz mifdir. A.Losev mifi düşüncənin və həyatın ən vacib, ən zəruri kateqoriyası hesab edir və deyirdi ki, "Mifdə təsadüfi, uydurma və fantastik heç nə yoxdur, o, ən yüksək dərəcədə konkret və əsl gerçəklikdir" [8, s.18]. "Mifin poetikası" əsərində Y.M. Meletinski qədim və orta əsrlər mədəniyyətinin bütün sahələrində mifologiyanın hakim mövqeyindən danışarkən həmçinin vurğulayır ki, antik və orta əsrlər ədəbiyyatında ənənəvi miflərin bədiiləşdirilmiş, qeyri-iradi, tənqidi, ironik interpretasiyalar var. XX əsrdə mif nəzəriyyələri mif, onun funksiyaları və strukturu haqqında anlayışı, eləcə də fərdi və yaradıcılıq psixologiyaları ilə bağlılığına dair təsəvvürləri ölçüyəgəlməz dərəcədə genişləndirib dərinləşdirmiş, üstəlik bədii düşüncənin inkişaf qaynağı və bəlkə bütün zamanlarda qəlibi olduğu gerçəyini üzə çıxarmışdır. Etnik-mədəni ənənə çərçivəsində insan davranışının bütün mühüm paradiqmalarını yaradan mif mədəniyyətin fundamental əsasını təşkil edir. J.Le Qoff haqlı olaraq qeyd edir ki, "müasir dövrün insanının şüurunda qədimliyin çoxlu sayda özəlliklərini müşahidə etmək mümkündür" [6, s.206].

Ümumən, mifoloji düşüncədə gerçəkliyə özünə məxsus yanaşma tərzi vardır və bu düşüncə dünyanın təsnifində həmin gerçəklik faktlarının keyfiyyət səciyyəsinə əsaslanır. Mifoloji düşüncədə kollektivin psixologiyası, təcrübəsi, duyğu və düşüncəsi əksini tapır. Bu mənada mifoloji ənənə əsla fərdi duyğuların, düşüncə və təsəvvürlərin ifadəçisi deyil. Doğrudan da, məhz mifologiya ədəbiyyatın canına nə qədər çox hopursa, bir o qədər də çox özünəməxsus süjet və formalar meydana gətirir. Ayrı-ayrı xalqların ədəbiyyatı buna sübut olaraq göstərilə bilər.

Mif istər qədim mifologiyanın ənənəvi süjet və mövzularını yenidən mənalandıran, istərsə də mifin kateqoriyalarını düşünülmüş şəkildə və yaxud təhtəlşüurla istifadə edərək yeni mifoloji konstruksiyalar yaradan neçə-neçə qələm sahibini getdikcə daha çox özünün cazibə dairəsinə daxil etməkdədir. Həmin söz ustalarının adlarının tam olmayan və sistemsiz siyahısı belə müasir ədəbiyyatın mifə münasibəti problemi üzərində tam ciddiyyəti ilə düşünməyə məcbur edir.

Müxtəlif tarixi şəraitlərdə mifin təbiəti ilə bağlı bir sıra mücərrəd fəlsəfi mühakimələr və şərhlər mövcud olmuşdur. Mifin həqiqi gerçəklik kimi anlaşılması, alleqoriya olaraq qəbul edilməsi, təxəyyülün məhsulu olması və s. bunlardan yalnız bir neçəsidir. Mifin bir-birinə son dərəcə ziddiyyət təşkil edən şərhlərinə bu şərhlərin hətta ən erkən mərhələlərindən etibarən rast gəlinir. Əslində elə bu gün də "mif" istilahı elə bir çoxmənalılıq kəsb etmişdir ki, konkret hər bir halda onun məhz hansı anlamda işlədildiyi açıq-aydın dəqiqləşdirilməlidir.

XX əsrdə ədəbiyyatın bir çox istiqamətləri mifologiyaya düşünülmüş formada müraciət etmişdir. "Mif" anlayışında, etiraf olunmalıdır ki, müəyyən yayğınlıq və qeyri-konkretlik var. Bir sıra tədqiqatçıların gəldikləri ən ümumi qənaətlərə əsasən, mifologiya geniş mənada başa düşülərsə, o zaman məlum olar ki, yazılı ədəbiyyat yazıyaqədərki ədəbiyyatdan heç də az mifoloji deyildir. Eyni zamanda bədii düşüncənin köklərini araşdırarkən arxaik mərhələdə hansısa obrazlılıqdan və ya bədii düşüncə faktından da danışmaq olmur. Bədii-estetik düşüncənin həmin mərhələsindəki bütün ictimai şüur mifopoetik səciyyəli bir düşüncə tipi olaraq qiymətləndirilə bilər. Bir sıra müəlliflərin fikrinə görə, "mifopoetika" istilahı bədiiliyi: təhtəlşüurla gələn mifi ədəbi əsərin strukturuna onunla vəhdət təşkil edəcək şəkildə yeridilən mifdən ayırmaq istəyindən meydana gəlmişdir. Beləliklə, "mifopoetika" anlayışının ədəbi əsərdə mifoloji başlanğıcın bütün mümkün formalarını özündə təzahür etdirib, etdirməyəcəyi mübahisəli olaraq qalmaqdadır.

Y.Meletinskin təhlilinə əsasən mədəniyyətin zamandankənar əbədi canlı mahiyyəti kimi mifi ilk öncə arxaik söz sənətilə əlaqələndirərkən həmçinin "bədii obrazlılığın mifoloji təfəkkür tipi ilə, bədii sözün özünün mifolojiliklə genetik bağlılıqda olduğu" qeyd edilmişdir [9, s. 50]. Çağdaş ədəbiyyatdakı bədii mifologizm üçün, müasir mif yaradıcılığı üçün əlverişli zəmin də öz kökləri etibarilə həmin bağlılığa söykənir.

XX əsrdə mifoloji təfəkkür və mifin kateqoriyaları ilə bağlı humanitar elmin gəldiyi qənaətin ən ümumi ifadəsini mifdən ədəbiyyata yolu bütünlüklə izləyən Y. Meletinskinin: "Bəşər mədəniyyətinin təkamülü boyunca dəfələrlə yenidən canlanan mifin yaşamaq qabiliyyətini bir daha qeyd etmək istərdim... Mifin ali reallığı hər bir harmoniyanın mənbəyi və modelidir. Bax elə buna görə də mif daima canlı olaraq qalır və müəyyən intellektual səviyyədə həmişə özünə yer tapır" [9, s.31] sözlərindən görmək olur. Həqiqətən, XX əsrdə müasir dövrün insanının düşüncə və təcrübəsinin təsvirini vermək üçün "mif" fövqəladə əhəmiyyətli bir anlayış olaraq meydana çıxır.

Mifin müqayisəli-tarixi şəkildə öyrənilməsi, ayrı-ayrı dünya xalqlarında ən müxtəlif görüntülərinə baxmayaraq, başlıca mif süjet və motivlərinin bir-birini təkrarladığı faktını, yəni mif yaradıcılığında xalqların bir-birindən xəbərsiz eyni yollarla gedib, eyni simvollarla işlədiyi gerçəyini üzə çıxardığı kimi "dünya dinləri"nin elmi şəkildə araşdırılması onların da miflərlə dolu olduğu gerçəyini ortaya qoymuşdur.

Mif cəmiyyət həyatı və təbiət hadisələri haqqında təsəvvürdür. Yəni mif danışılan bir tarixçə deyil, yaşanılan bir gerçəklikdir. Mifdə bəşər mədəniyyətinin ən erkən şəkli kimi ilkin məlumatlar, dini inanclar öz əksini tapır. Mifdəki qavrayış anlayışı ənənəvi mənada başa düşülən bilgi qazanmaq deyil, bir dünya duyumudur. Mif süjetlərində insanın özünüdərkinin müxtəlif aspektləri öz ifadəsini tapır. İbtidai və

arxaik cəmiyyətlər üçün varlığı dərk anlamında hər şey demək olan mif zamanın başlanğıcındakı mütləq tarix, insan davranışlarının örnəyi olaraq qəbul edilirdi.

Mifin yüksək mədəni dəyər daşıdığını hələ XVII-XVIII əsrlərdə B.Fontenel, C. Viko, İ.Herder qeyd etmişlər. Bu mütəfəkkirlər mif haqda müxtəlif tədqiqatlar aparmışlar. Fransız B.Fontenel miflərin bünövrəsini intellektin ibtidai geridəqalmışlığında, qədim insanların "fəlsəfi" cəhalətində axtarırdı. Fontenel deyir ki, qədimdəkilər miflərlə əylənirdilər, çünki onlara inanırdılar, biz isə, baxmayaraq ki, inanmırıq, onlardan heç də az həzz almırıq. Fontenelin mif yaradıcılığı və poeziya ilə bağlı əsas fikirləri müasiri C.Viko tərəfindən dəstəklənmişdi. Qəhrəmanlıq miflərində qəhrəmanların gerçək tarixini görən Viko belə hesab edirdi ki, sonrakı dövrlərdə miflər getdikcə təhriflərə uğradılaraq hətta Homerə qədər bayağılaşdırılmış və əslindən uzaqlaşdırılmış olan şəkildə gəlib çatmışdır.

Mifoloji təsəvvürlər yaradılışın bütün məzmununu özündə ehtiva edərək bütöv halında "mifoloji dünya" mənzərəsinin əsasında dayanır. Həmin mənzərə isə mifoloji mətnlər, qədim yazılı ədəbi-mədəni abidələr, sənət yadigarları əsasında bərpa oluna bilir. Bu mətnlər içərisində mifoloji rəvayətlər, sınamalar, yasaqlar, əfsanələr və s. özlüyündə miflə qarışıq olan janrlardır. Lakin mif süjetləri qətiyyən dağınıq deyil, bəlli bir mövzu ətrafında birləşən informasiya xarakterli mətnlər silsiləsidir. Dünya xalqlarında mif mətnləri tipologiyasına görə eyni olub: kosmoqonik (kosmoloji) miflər, etnoqonik miflər və təqvim mifləri adı altında təsnif olunur. Araşdırmalar səciyyə etibarilə bu bölgünün inanc, tapınış və mərasimləri əks etdirən bütün mif mətnlərini əhatə etdiyini göstərir.

Mifin başlıca mövzusu xaosun dəf olunması, kosmosun bərpası, dünyanın nizama düşməsi, yaradılışın sahmana salınmasıdır. Onda olan nə varsa keçmişdədir və mifin də funksiyası bütün bunları izah etməkdir. Bu mənada ilkin yaradılış çağından danışan mif etioloji məzmun daşıyır; o, dünyanın, zamanın yaranmasını, daşqını, kainatın sonunu və eləcə də insan soyunun necə meydana gəlməsini, ölümü, mədəni sayılan nə varsa hamısını izah edir.

Mifoloji şüurun öyrənilməsində növbəti addım alman filosofu E.Kassirerin "Mifoloji düşüncə" əsəri olmuşdu. Əsər onun "Simvolik formaların fəlsəfəsi" kitabının 2-ci cildini təşkil edir. Bu əsərdə B. Malinovski, E.Dürkheym və L.Levi-Brülün, eləcə də R.Otto və H.Uzenerin antik mifologiya ilə bağlı tədqiqlərinə istinad etməklə E.Kassirer özünün mif fəlsəfəsi sistemini işləyib hazırlamışdı. Buradakı başlıca prinsip isə dil və incəsənətlə bərabər mifologiyanın da mədəniyyətin ayrıca simvolik forması kimi götürülməsindən ibarət idi. Kassirer mifoloji düşüncənin özünəməxsusluğunu onun gerçəklə idealı, əşya ilə obrazı və s. ayırd etməməsində görür. Kassirerin ən mühüm xidməti mifik düşüncənin və mifik simvolizmin bir çox fundamental strukturlarını üzə çıxarmasıdır.

Mif nəzəriyyəsində əhəmiyyətli irəliləyiş fransız etnoloqu Klod Levi-Strosun adı ilə bağlıdır. Mifi strukturalizm mövqeyindən araşdıran K.Levi-Stros fransız sosioloji məktəbinin yetirməsidir. Eyni zamanda amerikan mədəni antropologiyasının təsirini də öz üzərində hiss edən etnoloq bu ənənələrlə linqvistik strukturalizm və informasiya nəzəriyyəsindən gələn yeni təsəvvürləri calaşdıra bilmiş, struktur antropologiyanı və ona uyğun olaraq da özünün miflər nəzəriyyəsini yaratmışdır. İbtidai təfəkkürü K.Levi-Stros kollektiv təhtəlşüur kimi izah edirdi. Mifoloji təfəkkürün Levi-Stros tərəfindən işlənib hazırlanmış yeni struktur analizi

müəyyən mənada Levi-Brülün görüşləri ilə ziddiyyət təşkil edir. İbtidai təsnifat və ümumiləşdirmələrdə ikili qarşıdurmaların rolunu müəyyən edən K.Levi-Strosun bir mühüm xidməti də mifə köhnə baxışlarla yeni baxışları bir arada birləşdirə bilməyidir.

Arxaik ənənələrdən ötrü mifin gerçək gücü vardı və onun gerçəkliyinə inam mifoloji personajların həqiqətən var olduğu düşüncəsində də özünü göstərir. K.Levi-Strosa görə, mif eyni dərəcədə keçmişi, indini və gələcəyi izah edir [7, s.186]. Yəni mif özünün bütün variantları ilə bir arada götürüldükdə mövcud sayılır. Buna uyğun surətdə hər bir zaman istənilən mifdən bir başqa mif yarana bilir. Hər bir xalq özünün mifoloji dünyaduyumunu müxtəlif yollarla yaşatmaqdadır. Bəzən bu prosesin gedişi zamanı ilkin formulun bütövlüyü pozulsa belə, onun fərqləndirici əlamətlərini üzə çıxarmaq bir o qədər də çətinlik törətmir.

Mif mətnlərində qorunan mifoloji informasiyaların bilgilərin ötürücüləri təsviri sənət nümunələri, memarlıq abidələri, pir, ocaq kimi təbii obyektlər, rəmzlər və s. ola bilir. Ondakı informasiyanın realizə dərəcəsi də çoxplanlıdır. Həmin bilgilər mədəniyyətdə mövcud mətnlərin müxtəliflik dərəcəsindən asılıdır və ənənənin ən müxtəlif səviyyələrində ötürülə bilir. Y.Meletinskinin də qeyd etdiyi kimi mifologizm mifoloji simvolikanın yardımı sayəsində təhkiyənin qurulmasıdır. Beləliklə, ilk dövrlərdə insanların dünya, yaradılış haqqında düşüncələrini ehtiyacını ödəyən miflərə folklorun qaynağı, sonrakı dövrlərin nağılçılıq ənənəsi, söyləyicilik mədəniyyətində yer alacaq motiv və süjetlərin mənbəyi kimi baxmaq olar.

M.Eliadeyə görə, mifin ənənəvi anlamda başlıca funksiyası insan davranışının model-obrazlarını formalaşdırmaqdır. Mif ümumən insanların davranış qaydalarını, stereotipləri müəyyən edir, həmçinin ictimai dəyərlər sisteminin şərtləndirici amili kimi şəxsiyyətə təbiətdən, cəmiyyətdən və elə onun öz fərdiyyətindən gələn böhranlı anları yüngül keçirə bilməsində kömək olur. Şifahi ənənənin təbiətinin araşdırılması ilə bu cəhət də sübuta yetirilmiş sayıla bilər ki, miflərin dili rəmzləndirmə potensialı baxımından son dərəcə güclüdür. Lakin başlanğıcda onun məzmununda alleqoriyadan, mücərrəd anlayışlardan əsər-əlamət də yox idi.

Araşdırmalar göstərir ki, artıq inkişaf etmiş cəmiyyətlərdə mədəniyyətin hakim forması olmaqdan qalan mif istənilən halda yenə də tamamən yox olmur, insan şüurunun şüuraltı strukturlarında arxetiplər şəklində yaşamaqda davam edir. Bu isə dünyanın mifoloji dərkinin insan psixikası və bəşər mədəniyyətinin ayrılmaz parçası olduğundan gəlir. Miflər bu mənada təkcə yazısız ənənələrin uzaq keçmişdən bu günlərə qalan adi bir mirası, quru yadigarı deyil. O, mənəvi həyatın sadəcə bir parçası olmayıb, bütövlükdə mədəniyyətin canına, qanına hopmuşdur.

XX əsrin mütəfəkkirlərindən H.Qadamer 1954-cü ildə qələmə aldığı "Mif və zəka" yazısında mifləri unikal mədəni dəyərlər kimi nəzərdən keçirir qeyd edirdi ki, elmi və mifoloji dünya mənzərəsi bir-birinin zidd deyildir, mahiyyətcə onların biri digərini tamamlayır: "Mifə din adamlarının yalanı və yaxud nənələrin hekayətləridir deyərək rişxənd eləməyə gərək yox, onlarda müdriklik dolu keçmişin sədasını duymaq gərəkdir" [5, s.94].

Mifologizmi XX əsr ədəbiyyatının səciyyəvi hadisəsi sayan və XX əsr mif yaradıcılığının mədəniyyətin və insanın yenilənməsi vasitəsi olaraq istifadə edildiyini vurğulayan Y.Meletinski mifoloji təfəkkürün bu özəlliyinə də toxunaraq yazırdı ki, "ibtidai insan özünü onu əhatə edən təbiət dünyasından ayıra bilmir və

özünəməxsus olan xassələri təbiət obyektləri üzərinə köçürür. Bu isə insanın təbiətlə öz vəhdətini instinktiv duymasını, stixiyalı anlaşılmanı deyil, təbiəti özündən keyfiyyətcə ayıra bilməməsi üzündən idi" [10, s.164].

Mif sadəcə qədim insanların maraqlarını ödəmək üçün vasitə deyil, həm də onların kollektiv təsəvvürlərinin təhtəlşüurda ifadəsiydi. L.Levi-Brülün fikrincə, mifoloji təfəkkürün mühakiməsi formal məntiqin qanunauyğunluqlarına riayət etməməsidir. Arxaik insan öz kollektiv təsəvvürlərində dünyanı ayrı-ayrı hissələrə, durumlara ayırmır, onu bütöv olaraq obyektivliyin və subyektivliyin, təbiiliyin və fövqəltəbiiliyin, arzu olunanla gerçəkliyin vəhdətində qavrayır. Onun bütün kollektiv təsəvvürləri mifdə təcəssümünü tapıbdır. L.Levi-Brülün fikirləri bu gün də əhəmiyyətini qoruyub saxlamaqdadır. Ədəbiyyat və mif məsələlərindən danışarkən arxetip problemlərinə də toxunan müəlliflər onların təhtəlşüurun strukturlarında yerləşən mənatörədici mərkəzlər olduğunu, bəşəriyyətin mənəvi təcrübəsinin də onlarda toplandığını qeyd edir, məhz onların ilkin sosio-mədəni kodları, düşünən və fəaliyyət göstərən insanlığın universal simvollarım etibarlılıqla qoruduqlarını vurğulayırlar.

Müasir dünya ədəbiyyatının əsas xüsusiyyətlərindən biri mifopoetik şüur elementlərinə qayıdışla bağlıdır. Buna görə də XX əsr mifologiyaya yeni qayıdış dövrü, başqa sözlə, remifologizasiya dövrü adlandırılır. Bu proses antik ənənələri sadəcə davam etdirməmiş, hazır formalarla kifayətlənməmiş, yeni təhkiyə şəkli, məlum mif mətnlərinə dövrün problemləri fonunda bir başqa baxış bucağı əlavə etmişdir ki, nəticədə mif bədii ədəbiyyata ilkin forma və funksiyası ilə deyil, yeni neomifoloji təfəkkürün təzahürü kimi gəlmişdir. Dünya ədəbiyyatı, eləcə də Azərbaycan ədəbiyyatında mifoloji süjet və obrazlara gedərək daha çox üz tutulması, bir tərəfdən, XIX əsrdə reallığın ölçülərinin xeyli genişlənməsi və elmi-texniki inqilablarla, ictimai şüurda baş verən dəyişikliklərlə əlaqəli idi.

Mifoloji təfəkkür bəşər tarixinin bizə məlum olan ilkin inam və etiqadlarının məcmusudur. Müasir dövrdə sənətkarın mif mətnləri və süjetlərinə dönə-dönə üz tutması mənsub olduğu xalqın inam və etiqadlarını yalnız formal şəkildə yenidən yaratmaq məqsədi daşımır, həmçinin mənəviyyata təsir və yaşanılan tarixə yanaşma tərzini öyrədir. Mif və bədii ədəbiyyat arasında bütün dövrlərdə əlaqə olmuşdur. Bu proses həm təkamül, həm də tipoloji aspektlərdə öyrənilmişdir. Təkamül aspektinə görə, mif cəmiyyətin təşəkkül dövrünün məhsuludur və yazılı ədəbiyyatın formalaşmasına da təkan verən əsas prosesdir. Tədqiqatlarda da qeyd edilir ki, "70-80-ci illər nəsrinin mühüm keyfiyyət əlamətlərinin biri də xalqın ən qədim bədii təfəkkürünün məhsulu olan mifologiya və folklora yenidən qayıdışdır...Bu... lokal bir təzahür deyildi: mifologiyaya müraciət XX əsr dünya mədəniyyətinin xarakterik xüsusiyyətinə çevrildi" [2, s.94].

Müasir Azərbaycan ədəbiyyatının xüsusən də nəsr qanadı mifoloji süjet və mətnlərə daha çox üz tutur. Bu mənada xalq yazıçısı Mövlud Süleymanlının yaradıcılığında yer alan mifik obraz və motivlər müəllif ideyasının çatdırılmasında aparıcı vasitə olaraq fərqli üslubi strategiyaya çevrilir. Bir sıra tədqiqatlarda da qeyd olunduğu kimi, müasir Azərbaycan nəsrində mifik təfəkkürün təzahürü Mövlud Süleymanlının bir sıra əsərlərində – "Köç", "Şeytan" və s. qabarıq görünür. Mifoloji düşüncə onun yaradıcılığında sadəcə bir detal, ayrıca bir motiv, obraz, kompozisiya elementi səviyyəsində iştirak etmir, belə demək mümkünsə, bu

yaradıcılığın bütün mayasını təşkil edir: M.Süleymanlının həmin əsərləri başdan axıracan xalqın mifik və etnik psixoloji dünyaduyumu əsasında qurulmuş, mifoloji ruh, baxış bu əsərlərin, necə deyərlər, istisnasız bütün toxumalarına hopmuşdu.

Postmodern əsərlərdə zaman anlayışı xaotik, fraqmental məna kəsb edir. Hadisələr müntəzəm, müəyyən xronologiyaya əsasən inkişaf etmir, "səbəb-nəticə" bağlılığı qırılır. Bundan əlavə, zamanın "sıxlaşması" hallarına da təsadüf olunur. Bu haqda ədəbiyyatşünas Salidə Şərifova "Çağdaş Azərbaycan postmodern romanı" adlı monoqrafiyasında qeyd edir: "Romanda vahid zaman anlamının olmaması bizi hadisələrə əbədiyyət nöqtəsindən baxmağa sövq edir. "Yarımçıq əlyazma" da hadisələrin üç zaman axarında inkişafını müşahidə edirik. Romanda zamanın sıxılması səbəbindən hadisələrin müəllifin yaşadığı zamanda, yəni müasir zamanda, Oğuzların yaşadığı zaman və Şah İsmayıl Xətainin yaşadığı və onun ölümündən sonrakı zaman çərçivəsində istədiyi şəkildə sərbəst hərəkət etməsi və oxucunu fraqmentar şəkildə qısa zaman ərzində bu dövrlərə, daha doğrusu, bu zamandan o biri zamana aparması yazıçının istifadə etdiyi bədii üslubdur" [3, s.42]. Mifoloji yanaşmanın əsərdəki struktur və obrazlara verdiyi dərinlik, eyni zamanda zaman və məkan anlayışının postmodern təsviri ilə birləşərək oxucuda həm tarixi, həm də psixoloji qatları qavramağa imkan yaradır. Belə ki, postmodern poeziyada roman janrı özünəməxsus mövqe tutur. Ədəbiyyatımızdan da postmodernizm cərəyanı yan keçməmiş və öz təsirini göstərmişdir. Professor Nizami Tağısoy "Postmodernizmin bəzi xüsusiyyətlərinə fraqmentar baxış" adlı məqaləsinə nəzər salaq: "Azərbaycan postmodernizminin başlıca xüsusiyyətlərindən biri mifoloji mətnlərdən, motivlərdən, süjetlərdən, obraz və personajlardan yararlanma istəyidir. Mifoloji süjetlərə müraciət Anarın "Ağ qoç, qara qoç", K.Abdullamn "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", "Unutmağa kimsə yox" "Kədərli seçmələr" və başqa əsərlərdə nəzərə çarpmaqdadır. Mifoloji qavrayış mistik mahiyyətli olduğundan o, içində keçmişlə gələcək arasındakı münasibətləri qurur, körpü rolunu oynayır. Hər bir milli ədəbiyyatın nüvəsində mifoloji sistem dursa da, müasir dövr ədəbiyyatımızın postmodernist istiqaməti heç də ənənənin müasirliklə sintezindən yaranmır. Əksinə, burada ənənənin aparıcılığına sayğısızlıq nümayiş etdirilir"[4].

Müasir ədəbiyyatımızda postmodern romanın ən gözəl örnəklərindən biri də Sabir Rüstəmxanlının "Göy Tanrı" romanıdır.Bu əsərdə hadisələrin inkişaf xətti bizi türk xaqanlarının hökmranlıq etdiyi zamana, təkallahlığın din olaraq inkişafı dövrünə aparır. Baxmayaraq ki, türk xaqanlarının hökmranlığı inkişafında saysız zəhməti olan şəxsiyyətləri əks etdirmişdir, lakin bu roman klassik tarixi roman deyil. S. Rüstəmxanlı əski türk mifologiyasını və yazılı abidələrdən (o cümlədən, Orxon-Yenisey abidələri) istifadə etməklə, çağdaş türk dünyası önündə qoyulan mifik keçmişlə əlaqədar suallara cavab tapır. "Göy Tanrı" – neomifoloji bədii məkanda öz ifadəsini tapmış türkdilli xalqların çağdaş problemləri barədə olan bir əsərdir.

İlqar Fəhmi Koroğlu və Cəlalilər hərəkatı ilə bağlı qələmə aıdığı "Qarğa yuvası" əsərində mifoloji Koroğlu surətinə müraciət qabarıq halda nəzərə çarpır. İ.Fəhminin "Qarğa yuvası" əsərini təhlil edən bəzi tədqiqatçılar onu yarımtarixi roman adlandırır. Belə adlanmasının səbəbi nədir? "Qarğa yuvası"nda müəllif tərəfindən tarixi reallıqların ortaya çıxarılması cəhdi və Koroğlunun həqiqi obrazı deyil, Koroğluya və həmin dövrə yazıçı təxəyyülündən gələn səciyyəvi cəhətlərin əldə olunmasıdır. "Koroğlu" eposundakı qəhrəmanın əksinə, İ.Fəhminin romanın-

dakı Koroğlu obrazına yazıçının əlavə etdiyi qorxaqlıq və bu kimi cəhətlər ilə qarşımızda fərqli bir surət yaranır. Əsərdə Koroğlu islam dininə inanır,məscidi var, yanında molla gəzdiri, Ramazanı qeyd edir.Onun dəliləri də namaz qılır, cin-şeytandan özünü gözləmək üçün özləriylə dua gəzdirirlər,bundan başqa Koroğlunun hərəmxanası var. İ. Fəhmi Koroğlunu igidlik zirvəsindən aşağı endirir, "atan kor edilənə qədər niyə xalq üçün döyüşmürdün" sualını yönəltməklə Koroğlunun əhalini yox, özünü fikirləşdiyi fikrini şişirdir. Eposdan fərqli olaraq romanda Koroğlunun öz hünərinə yox, "Çənlibel tülküsü" adlandırdığı Həmzənin fəndlərinə inandığını görürük.

Nəticə. Azərbaycan ədəbiyyatı da bu baxımdan mifoloji təfəkkürdən, şamanizmdən gələn obrazlarla zəngindir. Klassik ədəbiyyat nümunələrindən tutmuş yeni dövrün ədəbiyyatına qədər ki bu uzun yolda bədii mətninin mövzu və problemləri müxtəlif ideoloji təsirlərə məruz qalsa da, daxili və çoxqatlı özəlliklərini qoruya bildi. Mifin özünüqoruma və bərpa etmə səriştəsi milli ədəbiyyatların alt qatdakı ənənəyə bağlılıq və onu nəsillərə ötürə bilmək funksiyası idi. Bu mənada bədii mətn hər hansı ideoloji və məhəlli xarakterindən asılı olmayaraq onu yaradan etnosun özəlliklərini daşıya bilmək xüsusiyyəti ilə seçilir.

Ədəbiyyat:

1. Abdullayev, K. (1985). Müəllif – əsər – oxucu.
2. Bəşirli, X., & Bayat, F. (2013). Azərbaycan folkloru və yazılı ədəbiyyat. Elm və Təhsil.
3. Şərifova, S. (2015). Çağdaş Azərbaycan posmodern romanı. Elm və Təhsil.
4. Tağısoy, N. (2018). Postmodernizmin bəzi xüsusiyyətlərinə fraqmentar baxış. eLibrary.az. https://www.elibrary.az/docs/JURNAL/jrn2018_213.pdf
5. Гадамер, Г. (1991). Актуальность прекрасного. Искусство.
6. Ле Гофф, Ж. (2002). Другое Средневековье: время, труд и культура Запада (пер. с фр.). Изд-во Урал. ун-та.
7. Леви-Строс, К. (1985). Структурная антропология. Наука.
8. Лосев, А. Ф. (2001). Диалектика мифа. Мысль.
9. Мелетинский, Е. М. (2001). От мифа к литературе. Изд. центр Российского гос. Гуманитарн. университета (РГГУ).
10. Мелетинский, Е. М. (1976). Поэтика мифа. Наука. Главная редакция восточной литературы.
11. Hüseynli, G. (2024, dekabr 26). Monomif: tərbiyə romanlarına mifoloji-nəzəri yanaşma [Tezis]. "Dədə Qorqud – 1325" Beynəlxalq elmi konfrans, Bakı Dövlət Universiteti, 28-31.

Zulfiya Huseynova

Summary

THE CONCEPT OF MYTHOLOGICAL TIME IN CONTEMPORARY AZERBAIJANI PROSE: A HISTORICAL-AESTHETIC AND GLOBAL CONTEXTUAL ANALYSIS

Mythology represents one of the earliest forms of human thought, shaping the initial perception of the world, and according to A. Losev, myth is a special mode of thinking that provides a symbolic interpretation of reality. The works of Meletinsky, Cassirer, Levy-Bruhl, and Levi-Strauss demonstrate that myth is a universal phenomenon

embedded in the structures of both archaic and modern cultures. Mythological thinking is not individual but is the product of collective experience and cultural memory, encompassing rituals, beliefs, and worldviews. Since the twentieth century, myth and mythopoetics have regained prominence in world literature, becoming one of the main vectors of remythologization. In this process, myth appears not merely as a traditional plot but as a comprehensive system of thought and a structural model of artistic narrative. Contemporary Azerbaijani prose also reflects this tendency, and the works of Movlud Suleymanli are particularly noteworthy in this regard. In his novels such as *"Köç"* and *"Şeytan"*, mythical time, archaic imagery, and symbolic narration function as the central poetic mechanisms that drive the text. The spiral structure of narration and the use of mythological codes allow for a deeper articulation of the author's worldview. The essential functions of myth explaining the origins of the world, shaping behavioral models, and preserving cultural memory remain relevant today. Therefore, the study of mythological systems in contemporary Azerbaijani prose is significant both for understanding artistic poetics and for exploring collective memory.

Зульфия Гусейнова

Резюме

МИФОЛОГИЧЕСКОЕ ПОНИМАНИЕ ВРЕМЕНИ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ: ИСТОРИКО-ЭСТЕТИЧЕСКИЙ И ГЛОБАЛЬНЫЙ КОНТЕКСТУАЛЬНЫЙ АНАЛИЗ

Мифология является одной из древнейших форм мышления, формирующей первоначальное восприятие мира, и, по мнению А. Лосева, миф представляет собой особый тип мышления, служащий символическому объяснению реальности. Исследования Мелетинского, Кассирера, Леви-Брюля и Леви-Стросса демонстрируют, что миф является универсальным феноменом, присутствующим как в архаических, так и в современных культурных структурах. Мифологическое мышление не является индивидуальным, но выступает продуктом коллективного опыта и народной памяти, объединяя в себе ритуалы, верования и мировоззрение. С XX века миф и мифопоэтика вновь актуализируются в мировой литературе, становясь одним из ключевых направлений ремифологизации. В этом процессе миф представляет собой не только традиционный сюжет, но и целостную систему мышления и структурную модель художественного текста. Современная азербайджанская проза также отражает данную тенденцию, и творчество Мовлуда Сулейманлы привлекает внимание именно в этом контексте. В его произведениях, таких как «Кёч» и «Шайтан», мифическое время, архаические образы и символическая нарративная организация функционируют как основополагающие поэтические механизмы. Спиралевидная структура повествования и мифологические коды позволяют более глубоко раскрыть авторское мировоззрение. Основные функции мифа – объяснение происхождения мира, формирование моделей поведения и сохранение культурной памяти – сохраняют свою актуальность и сегодня. Следовательно, изучение мифологической системы в современной азербайджанской прозе имеет важное значение как для анализа художественной поэтики, так и для понимания коллективной памяти.

Rəyçi: akad. M.İmanov

METODİKA

Aliyə Ağamirzəyeva
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.070

İNGİLİS DİLİNDƏ EŞİDİB ANLAMANIN ÇƏTİNLİKLƏRİ VƏ HƏLLİ YOLLARI

Açar sözlər: *təlim metodları, aktiv dinləmə, ümumi çətinliklər, psixoloji amillər, dinləmə bacarıqları, diqqətin yayılması*

Keywords: *teaching methods, active listening, common difficulties, psychological factors, listening skills, attention span.*

Ключевые слова: *активное слушание, распространенные трудности, психологические факторы, навыки слушания, устойчивость внимания*

Giriş. Dinləmək, xüsusən də ingilis dilini ikinci və ya birinci dildən fərqli bir xarici dil kimi təsnif edildikdə,bu bir çox insanın düşündüyü qədər sadə deyil. Xarici dil öyrənənlər müxtəlif səbəblərdən ingilis dilini dinləməkdə çətinlik çəkirlər. Bəzi dil öyrənənlər dinləməyi asan hesab etsələr də, dinləməyənlərə nisbətən dinləməkdə çətinlik çəkənlər daha çoxdur. Dinləyicilərin yaxşı bir iş görməsini çətinləşdirən müəyyən amillər olmalıdır. Eşitmə qabiliyyəti qəbuledici bir qabiliyyət kimi təsnif olunsa da, bu, fəal iştirak tələb edən bir prosesdir. Dinləyicilər eşitdiklərinə diqqətlə qulaq asmalıdırlar, çünki bu, beynin bir çox prosesini əhatə edir. Əgər kimsə soruşsa ki, "Yad dil şəraitində neçə tələbə çox yaxşı dinləyə bilər?" İlk baxışdan bu sualın cavabı "yox" kimi görünür. Ancaq bir çox təlim keçirildiyi zaman reaksiya fərqli olacaq. Bu araşdırma, ingilis dilində dinləmək üçün tələbələrin mübarizə apardığı bəzi səbəbləri müəyyən etdi ki, ingilis dilini öyrənənlərə strateji yardım göstərilsin.

Elmi yeniliyi. Bu araşdırma aşağıdakı məsələlərə yönəldiləcək:

1)Tələbələrin öz-özünə öyrənmə üsulu

2)Ən çox rast gəlinən problemlər

3)Dinləmədə uğur qazanmalarına kömək edən strategiyalar

Ümid edirəm ki, mənim tədqiqatım şagird və tələbələrdə dinləmə bacarıqlarının inkişafında öncəliklər gətirəcəkdir.

Praktiki əhəmiyyət. Tələbələr 11 il məktəb oxusalar da, onlarda dinləmə çox az istifadə olunub, buna görədir ki, indiki zamanda şagirdlər universitetə daxil olduqda onların dörd bacarıqdan ancaq ikisi inkişaf etmiş, dinləmə bacarığı isə

çox az şagirddə yaxşı olur, beləliklə tələbəlik zamanı onlar dinləmədə əziyyət çəkir, sözləri anlamaqda çətinlik çəkirlər. Bu, İngilis dili ixtisasına keçdikdə zəif dinləmə bacarığına səbəb olur. Digər dil bacarıqları ilə müqayisədə dinləmə ən çətin fənn hesab olunur. Buna görə də praktika etmək, daima yolda, dərsdə dinləmələrə qulaq asmaq lazımdır ki, dinləməmiz inkişaf etsin.

İngilis dilində danışılan sözləri başa düşməkdə çətinliklər arasında sürətli danışmaq, mürəkkəb sözlər, fərqli aksentlər, diqqət çatışmazlığı və əsas biliklərin olmaması var. Bu çətinlikləri aradan qaldırmaq üçün filmlər, podkastlar və söhbətlər vasitəsilə orijinal ingilis dilinə ardıcıl məruz qalmağı; diqqəti cəmləşdirmək, vizual ipuçları istifadə etmək və suallar verməklə aktiv dinləmə bacarıqlarını yaxşılaşdırmaq və təbii danışıqda azaldılmış formalar, ifadələr və cümlə vurğusu ilə tanışlığı inkişaf etdirmək lazımdır. Ümumi çətinliklər:

1) Oxucu və nitq xüsusiyyətləri: Oxucular çox sürətlə danışa bilər, mürəkkəb sözlər və ifadələr istifadə edə bilər və dinləyicilər üçün qeyri-adi aksentləri ola bilər.

Dinləyicilər faktorları:

Məhdud sözlər: Mesajı başa düşmək üçün kifayət qədər söz bilməmək.

Diqqət və Konsentrasiya: Diqqəti cəmləşdirməkdə çətinlik çəkir, asanlıqla diqqətini yayındırır və ya uzun dinləmələr zamanı diqqəti itirmək.

Əvvəlki məlumatın olmaması: Müzakirə olunan mövzunu anlamamaq.

Psixoloji amillər: Dinləmə tapşırığına qarşı əsəbi hiss etmək və ya mənfi münasibət bəsləmək.

Səsləri tanımaq qabiliyyətinin olmaması: Tək səsləri ayırd edə bilməmək, qısaldılmış formaları tanımaq və ya təbii ingilis dilindəki vurğu və intonasiyanı başa düşmək.

Ətraf mühit: Arxa planda səs-küy və digər əngəllər anlayışa mane ola bilər.

Çözümlər və strategiyalar

Təcrübə və təcrübəni artırın:

İngilis mediasını istehlak edin: Filmləri, TV şoularını izləyin və podkastları ingilis dilində dinləyin, əvvəllər təbii olaraq anlama bacarıqlarını inkişaf etdirmək üçün ideal olaraq altyazı olmadan. Söhbətə qoşulun: İngilis dilində danışanlarla mümkün qədər tez-tez danışın ki, real həyatda danışıq nümunələri ilə təcrübə əldə edəsiniz. Dil Mübadiləsi Proqramlarına qoşulun: Şəxsi təcrübə və rəy almaq üçün qrup dərslərində və ya tək dərslərdə iştirak edin. Aktiv dinləmə bacarıqlarını inkişaf etdirin: Danışana diqqət yetirin: Gözlərinizi bir-birinizə bağlayın və diqqəti yayındırmamaq üçün onun üzünə baxın.

Əsas fikirləri dinləyin: Hər bir sözü başa düşməyə çalışmayın; ümumi mesaj, mövzu və əsas siqnallara diqqət yetirin. Sözlə ifadə edilməyən işarələrdən istifadə edin: Nə demək istədiyinizi anlamaq üçün jestlərə, üz ifadələrinə və səs tonuna diqqət yetirin. Qısaca başa düşdüyünüzü qısaca xülasə edin və yaddan çıxdığınız hissələrə aydınlıq gətirilməsini xahiş edin.

Təbii İngilis dili biliklərini artırın:

1) Reduksiyanı öyrənin: Sözlərin necə qısaldıldığını və sürətli, təbii danışıqda bir-birinə necə bağlandığını öyrənin.

2) Stress və İntonasiyanı müəyyənləşdirin: İngilis dilində məna anlamaq üçün vacib olan cümlə stresini və intonasiyasını tanımağı öyrənin.

3) Sözlərinizi anlayın: Anlayışınızı artırmaq üçün yeni sözlər, o cümlədən ümumi ifadələr öyrənin.

Ətrafınızı və düşüncə tərzinizi idarə edin:

Diqqətinizi dağıda biləcək şeyləri minimuma endirin: Diqqətinizi cəmləşdirən bir dinləmə mühiti yaratmaq üçün fon səslərini və ya digər potensial diqqət dağıdıcı şeyləri söndürün. Müsbət bir münasibət edin: Dinləmə tapşırıqlarına inamla və müsbət bir düşüncə ilə yanaşın. Qısamüddətli məşqlər edin: Diqqətinizi bir yerə cəmləyə bilmirsinizsə, daha qısa müddət dinləməyə çalışın və beyninizi təmiz saxlamaq üçün fasilələr verin.

Dinləyərkən əsas sözləri tuta bilmirəm və ya dinləyərkən əsas məlumatları tuta bilmirəm. Lakin ingilis dilində bunu etmək olduqca asandır, çünki ən vacib yeni məlumatları olan açar sözlər daha güclü vurğulanır, yəni əvvəl və sonra daha zəif vurğulanmış sözləri əksər hallarda görməzdən gələ bilərsiniz. Əgər problem hər bir sözü tutmağa çalışmaqdırsa, diktə və kölgələmə kimi fəaliyyətləri dayandırmaq lazımdır, çünki bu cür dinləmə qeyri-real hesab olunur.Bunun əvəzinə, "Bu adam hara gedir?" kimi sadə anlayış sualları ilə tapşırıqlar etməlisiniz, bunun üçün yalnız açar sözlərlə qısa cavablar yaxşıdır. Bu cümləni oxumaq, hansı sözlərin daha çox vurğulanmasını təxmin etməyə çalışmaq, həqiqi vurğu nümunəsini dinləmək, sonra vacib sözlərin vurğulanmasını daha güclü şəkildə kopyalamağa çalışmaq da faydalı ola bilər.

Problemlər iki fərqli kateqoriyaya bölünür, yəni dinləyicilərin problemləri və dinləmə materialları və avadanlıqları. İlk növbədə tələbələrin problemi, natiqin nə deyəcəyini 68,3% ilə proqnozlaşdırmaqdır. Əslində, proqnoz dinləmə anlayışında şagirdlərə bir sıra üstünlüklər gətirir. Hasanın sözlərinə görə, əsas problem sözbəsöz dinləmək vərdişinin səbəb olduğu düşünülür. Nələrdən danışılacağını proqnozlaşdırmağa kömək edən xüsusi işarələrə diqqət yetirmirlər. Lakin, hər dinləmə tapşırığında, yaxşı hazırlanmış və ya təcrübəli dinləyicinin təbii olaraq tanıya biləcəyi birbaşa siqnallar verilir. Məsələn, tapşırığın adı öyrənənlərə növbəti nöqtələri təxmin etməyə kömək edə bilər. Bundan əlavə, proqnoz fotoşəkillər, xəritələr, cədvəllər və ya dinləmədə təqdim olunan hər şey tərəfindən edilə bilər. Bundan əlavə, dinləmə mövzusuna dair suallar vermək şagirdləri həvəsləndirəcək və anlayışlarını artıracaqdır.

İkinci problem söz ehtiyatının məhdudluğu ilə bağlıdır. İştirakçıların 89,4%-i tam başa düşmədə əziyyət çəkir. Bəzi dinləyicilər düşünmüşdülər ki, məna tanış olmayan sözlərdədir, buna görə də böyük bir söz ehtiyatına ehtiyacları var. Yeni bir sözlə qarşılaşdıqları zaman məzmunundan çıxmaq əvəzinə mənasını tapmağa meyllidirlər (Hasan, 2000). Burada istinadlar üçün bəzi texnikalar var:

Birinci və ən əsas strategiya, bilinməyən sözlərdən sonra gələn söz və ya ifadə olan ipuçlarından istifadə etməkdir. Buna baxmayaraq, şagirdlər tanış olmayan sözü təxmin etmək üçün çox vaxt sərf etməmələrinə əmin olmalıdırlar, əks halda natiqin növbəti nöqtəsini qaçırırlar. Bundan əlavə, danışanlar sözləri izah etmək üçün sinonim, antonim və ya appozitivlərdən istifadə edə bilərlər.

Üçüncü problem dinləmə anlayışının əsas nöqtələrini tanımaqdır. Əgər şagirdlər hər hansı bir əsas nöqtəni əldə edə bilmirlərsə, uğursuzluq qaçılmaz bir nəticə olacaqdır. Tələbələrin 73,6%-i dinləmədəki əsas məqamları tanıya bilmirlər, çünki söz-söhbət dinləməyə çox diqqət yetirirlər. Beləliklə, dinləmə tapşırıqlarının

açar sözlərini və ya məzmun sözlərini müəyyən edə bilmirlər. Bununla birlikdə, dinləmədə əsas nöqtələri müəyyən etmək üçün Berman tərəfindən təklif olunan ipuçları var (2000)

Problems	Never	Some times	often	always
Making prediction what the speaker talk about		36.8%	36.8%	26.4%
Guessing unknown words or phrases		15.8%	36.8%	47.4%
Recognizing main points	21.1%	10.5%	31.6%	36.8%

Tələbələrin qismən dinləmədən əvvəl etdikləri, dinləmə mətnini anlamalarına təsir göstərir. Toplanan məlumatlara görə, tələbələrin 84,2%-i sualları keçərək mövzunun nə olduğunu təxmin edəcəyini söylədi. Dinləməyin bu ilk mərhələsi üçün kifayət qədər ağlabatandır. Bununla birlikdə, tapşırıq təlimatı hər halda oxumaqdan əvvəl olmalıdır. Onları oxuyarkən, nə etməli olduqlarını və bununla necə məşğul olduqlarını bilirlər. Tələbələrin yalnız 42.1%-i bu addımı atır.

Bundan əlavə, yeni sözlər şagirdlərin mətni başa düşməsinə mane olur. Yeni bir sözlə qarşılaşdıqda, yalnız 10.5% sözə əhəmiyyət verməyi seçir və dinləməyə davam edir, 42.4% mənasını təxmin etməyə çalışır və 47.4% depressiyaya düşür və artıq dinləyə bilmir. Buradan görərik ki, söz ehtiyatının olmaması şagirdlər üçün manea ola bilər. Hedcinin (2000:237) qeyd etdiyi kimi, bir çox dil öyrənənlər ana dilindəki hər bir sözü dinləmək əvəzinə, mətni anlamaq üçün lingvistik bacarıqlarını, təcrübələrini və fon biliklərini birləşdirməyə meyllidirlər.

Dinləmə materialından yaranan problemlər

Problems	Never	Sometimes	Often	Always
Unfamiliar topics		63.2%	31.6%	5.2%
Different accents		21.1%	47.4%	31.5%
Authentic material		10.5%	68.4%	21.1%
Colloquial words	10.5%	36.8%	36.8%	15.9%
Speed of speech		31.6%	52.6%	15.8%
Linking words		10.5%	15.8%	73.7%
Ungrammatical sentences		52.6%	47.4%	
Hesitation	21.1%	47.4%	31.5%	
Long listening	15.8%	52.6%	31.6%	

Dinləmə anlayışında, yaxşı bir dinləyici dinləmə tapşırığının bütün sözlərini dinləməyəcəkdir. Onlar hər hansı bir hissəni atlaya bilər və yalnız cavab üçün lazım olan məlumatlara diqqət yetirirlər. Əksinə, araşdırma iştirakçılarının əksəriyyəti, yəni 73,6%-i söz-söhbətə qulaq asdıqlarını söylədi. Sözü-söhbəti dinləmək və ya detalları dinləmək, onların fikrincə, əsas fikirləri əldə etmək üçün çox vacibdir. Hər bir sözü başa düşməyə çalışdıqdan sonra, dinləmə mətnini başa düşmək üçün ipuçları verən açar sözləri tapmaq şansları azdır.

Ana dilimizdə mesajın bəzi hissələrini kənara atırıq və yalnız müvafiq hissələrə diqqət yetiririk. Beləliklə, cümlələr söz-sözə işlənmir və diqqət bu sözlərin

arxasında duran fikirlərə və bu fikirlərin nəticələr çıxarmaq üçün bir-biri ilə necə əlaqəli olduğuna yönəldilmişdir. Brown (1992).

Giriş. Süni intellekt sürətlə inkişaf edir və tədricən həyatımızın bütün sahələrinə, o cümlədən təhsil sisteminə daxil olmağa başlayır. Süni intellekt vasitələrindən xarici dillərin tədrisində də səmərəli və yaradıcı şəkildə istifadə etmək olar. Bu vasitələrdən biri – *ChatGPT* çatbotu təhsilalanların dil səviyyəsinə uyğun olaraq müxtəlif dil bacarıqları üzrə tədris materialı hazırlamaq potensialına malikdir. Mükəmməl texniki bacarıqlara malik olmadan belə, müəllim *ChatGPT* çatbotuna daxil etdiyi verilənlər əsasında çox qısa müddət ərzində müxtəlif növ tapşırıqlar tərtib edə bilər. Bu çatbotu müəyyən mənada müəllimin virtual köməkçisi kimi qiymətləndirmək olar.

İndoneziya dilinin əcnəbilərə tədrisi genişləndikcə tədris prosesinə texnologiyanın inteqrasiyası vacib şərtə çevrilmişdir. Bu məqalədə İndoneziya dilinin tədrisində *ChatGPT* çatbotunun mümkün tətbiqi yollarından bəhs edilir. Tədris materialının hazırlanması üçün burada GPT-4 dil modelinin optimallaşdırılmış turbo versiyası əsasında işləyən *ChatGPT* modelinin ödənişsiz versiyasından istifadə olunmuşdur.

1. *ChatGPT* çatbotu

ChatGPT çatbotu – söhbət robotu və ya süni intellekt robotunun ilk versiyası 2018-ci ildə hazırlanmışdır. O, 2022-ci ildə ictimaiyyətə təqdim edildikdən sonra sürətlə ən çox istifadə olunan süni intellekt vasitəsinə çevrilmişdir. Sonrakı illərdə bir sıra təkmilləşdirmələrdən sonra, o, dəqiq məlumat təqdim edə və müxtəlif əmrlər yerinə yetirə bilmə qabiliyyətinə görə daha da populyarlaşmışdır [1].

Bu çatbot akademik mühitdə ondan sui-istifadə edilə, tənqidi düşüncənin inkişafına mane ola və təhsilalanların tənbəlləşə bilməsi səbəbindən tez-tez tənqidlərə məruz qalır. Noam Xomski onu hətta "yüksək texnologiya plagiatı"nın bir növü adlandırmışdır [3]. Təhsil müəssisələrində onun qadağan olunması və ya elektron cihazlardan istifadə olunmasına icazə verilməməsi üçün təkliflər də edilir.

Məsələn, 2023-cü ilin əvvələrində Nyu-Yorkda dövlət məktəblərində *ChatGPT* çatbotunun bütün cihazlarda istifadəsinin qadağan edilməsi qərarı verilmişdi. Bunun ardınca onun yaradıcısı Open Aİ tədqiqat təşkilatı bu məsələyə münasibət bildirərək hər hansı mətnin bu çatbot vasitəsilə hazırlanıb-hazırlanmadığını müəyyənləşdirmək məqsədilə artıq bir sıra addımların atıldığını bildirmişdi [2].

ChatGPT çatbotu geniş imkanlara malikdir. O, suallara cavab vermək, elmi məqalə və şeir yazmaq, tərcümə etmək, cümləni parafraz etmək, mətni redaktə etmək, eləcə də xülasə hazırlamaq, şəkil yaratmaq, diaqram tərtib etmək kimi işlər görə bilir. Onun əsalandığı alqoritm milyardlarla məqaləyə istinad edir.

ChatGPT çatbotunun daha bir üstünlüyü onun müxtəlif dilləri dəstəkləyə bilmək bacarığıdır. O, suahili və benqal dili kimi regional, latın və sanskrit kimi klassik, esperanto və klinqon kimi süni dillər də daxil olmaqla yüzlərlə dildə ünsiyyətə girə və bu dillərdə mətn hazırlaya bilir. Geniş yayılmış dillərdə bu çatbot öz işini daha yaxşı icra edir. Digər dillərdə isə onun verdiyi informasiya qənaətbəxş olmaya bilər [4]. *ChatGPT* çatbotu bu dillərdə nəzakətlə danışır, müəyyən əmri yerinə yetirə bilmədiyi halda hətta üzr istəyir və istifadəçini başqa platformalara yönəldir.

Bu çatbotun işləmə mexanizmi aşağıdakı kimidir. Müəyyən məlumat əldə etmək üçün verilmiş pəncərədə ona müvafiq sualla müraciət edilir. Məlumatın qənaətbəxş olmasına nail olmaq üçün çatbotla dialoqa girərək ondan daha dolğun məlumat xahiş edilə bilər. Bunun üçün bir neçə açar söz daxil etmək də kifayətdir. Orfoqrafik səhvlər belə, çatbotun lazımi qaydada işləməsinə mane olmur. *ChatGPT* istifadəçisi bu platformada hesaba malik olduğu və vaxtaşırı çatbota müraciət etdiyi halda çatbot istifadəçisi barədə müəyyən məlumata sahib olur, yəni onu müəyyən qədər "tanıyır". Bu səbəbdən o, istifadəçisinə fərdi yanaşaraq ona daha uyğun məlumat təqdim edə bilir.

2. *ChatGPT* çatbotu tədris materialının hazırlanması vasitəsi kimi

İndoneziya dili üzrə kifayət qədər nəşr olunmuş və rəqəmsal formatda tədris materialı vardır. Bununla belə, təqdim edilmiş material dil öyrənənlərin ehtiyaclarını ödəyə bilmədiyi halda müəllim yeni material hazırlamalı olur, bu işə isə çox vaxt və əmək sərf etməli olur. Bu zaman problemin həlli üçün çatbotdan istifadə edilə bilər. Onun üstünlüklərindən biri internet istifadəçisi olan hər bir müəllim üçün əlçatan olmasıdır. Bu çatbot tələb olunan formatda müxtəlif dil bacarıqları üzrə bir neçə saniyə ərzində tədris materialı hazırlamaq qabiliyyətinə malikdir.

ChatGPT vasitəsilə hazırlanmış dərs tapşırıqları nümunələrini nəzərdən keçirək. Çatbota əvvəlcə tapşırığın hansi dil səviyyəsi üçün, hansı dil bacarığı üzrə və hansı formatda hazırlanması bildirilir. Bu komandalar istənilən dildə verilə bilər. Bu məqalədə təqdim edilmiş bütün tapşırıqlar İndoneziya dilində verilmiş komandalar əsasında tərtib edilmişdir.

Qrammatika üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda: *Buatkan tugas melengkapi kalimat untuk tingkat pemula, berdasarkan awalan meN-*! ('Başlanğıc dil səviyyəsi üçün *meN-* prefiksi əsasında cümlələrdə boşluqları tamamlamaqla yerinə yetirilə biləcək tapşırıq hazırla!'):

1. Ibu sedang _____ (masak) sayur di dapur. 2. Ayah _____ (baca) koran setiap pagi. 3. Siti _____ (tulis) surat untuk nenek. 4. Adik **_____ (bawa)** tas ke sekolah. 5. Kakak _____ (sapu) halaman rumah.

6. Guru _____ (panggil) siswa ke depan kelas. 7. Petani _____ (tanam) padi di sawah. 8. Dita _____ (buka) jendela setiap pagi. 9. Budi _____ (lempar) bola ke temannya. 10. Kami suka _____ (tonton) film di akhir pekan.

Bu tapşırıqda mötərizədə verilmiş sözə *meN-* prefiksinin lazımi variantını artırmaqla feil əmələ gətirmək tələb olunur. Tapşırıqda işlədilmiş sözlər və cümlələrin quruluşu başlanğıc dil səviyyəsinə uyğundur. Lakin çatbot *meN-* prefiksinin bütün formalarını işlətmək üçün kifayət qədər nümunələr verməmişdir. O, bu prefiksin altı variantından yalnız dordünün istifadə edilə biləcəyi cümlələr təqdim etmişdir. İstədiyimiz nəticəni əldə etmək üçün ona yeni komanda ilə müraciət edə bilərik. Məsələn, *Buatkan tugas melengkapi kalimat untuk tingkat pemula, berdasarkan semua variasi awalan meN-*! (‘Başlanğıc dil səviyyəsi üçün *meN-* prefiksinin bütün variantları əsasında cümlələrdə boşluqları tamamlamaqla yerinə yetirilə bilən tapşırıq hazırla!’).

Leksika üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda: *Susunlah daftar berisi 10 kata yang berkaitan dengan pariwisata*! (‘Turizmlə bağlı 10 sözdən ibarət siyahı tərtib et!’). Çatbotun ilk siyahıda təqdim etdiyi sözlərin bir qismi o qədər də işlək olmadığından ondan həmin sözləri daha işlək sözlərlə əvəz etməyi xahiş etdik və nəticədə turizmlə bağlı aşağıdakı siyahını əldə etdik:

1) *wisata*
2) *wisatawan*
3) *perjalanan*
4) *destinasi*
5) *tiket*
6) *hotel*
7) *transportasi*
8) *paket wisata*
9) *objek wisata*
10) *pemandu wisata*

Daha sonra bu siyahı əsasında tapşırıq hazırlamaq üçün növbəti komanda verdik: *Buatkan tugas mencocokkan 10 kata berikut dengan definisinya untuk tingkat pemula*! (‘Verilmiş 10 sözlə onların izahını uyğunlaşdırmaq üçün başlanğıc dil səviyyəsi üzrə tapşırıq hazırla!’):

1) *wisata*,	a) *kegiatan atau aktivitas berkunjung ke tempat wisata*,
2) *wisatawan*,	b) *orang yang pergi ke tempat wisata*,
3) *perjalanan*,	c) *proses berpindah dari satu tempat ke tempat lain*,
4) *destinasi*,	d*) tempat yang dituju dalam suatu perjalanan wisata*,
5) *tiket*,	e) *dokumen untuk masuk ke tempat wisata atau naik transportasi*,
6) *hotel*,	f) *tempat menginap selama berlibur*,
7) *transportasi*,	g) *alat untuk berpindah dari satu tempat ke tempat lain*,
8) *paket wisata*,	h) *rencana perjalanan wisata yang sudah disusun sebelumnya*,
9) *objek wisata*,	i) *tempat atau objek yang menarik bagi wisatawan*,
10) *pemandu wisata*,	j) *orang yang memandu wisatawan selama perjalanan*.

Eyni siyahı əsasında orta dil səviyyəsi üzrə tapşırıq hazırlamaq lazım gələrsə, sadəcə dil səviyyəsini qeyd etməklə əvvəlki komandanı təkrar etmək olar: *Buatkan tugas mencocokkan 10 kata berikut dengan definisinya untuk tingkat madya*! (‘Verilmiş 10 sözlə onların tərifini uyğunlaşdırmaq üçün orta dil səviyyəsi üzrə tapşırıq hazırla!’):

1. *wisata,*	a) *kegiatan bepergian ke suatu tempat untuk rekreasi, hiburan, atau tujuan budaya,*
2. *wisatawan,*	b) *individu yang melakukan perjalanan untuk tujuan berlibur, berwisata, atau rekreasi,*
3. *perjalanan,*	c) *kegiatan berpindah dari satu tempat ke tempat lain, baik untuk liburan maupun keperluan lain,*
4. *destinasi,*	d) *tempat tujuan yang ingin dikunjungi dalam sebuah perjalanan wisata*
5. *tiket,*	e) *bukti resmi yang digunakan untuk masuk ke suatu tempat atau menggunakan jasa transportasi,*
6. *hotel,*	f) *bangunan yang menyediakan jasa penginapan, makan, dan layanan lain untuk wisatawan atau pelancong,*
7. *transportasi,*	g) *sarana atau alat untuk memindahkan orang atau barang dari satu lokasi ke lokasi lain,*
8. *paket wisata,*	h) *penawaran perjalanan yang sudah mencakup berbagai layanan seperti transportasi, akomodasi, kunjungan objek wisata,*
9. *objek wisata,*	i) *tempat atau hal yang menjadi daya tarik untuk dikunjungi oleh wisatawan,*
10. *pemandu wisata.*	j) *orang yang memberikan penjelasan, informasi, serta memandu wisatawan selama perjalanan.*

Başlanğıc və orta dil səviyyəsi üçün təqdim edilmiş bu tapşırıqlar arasında fərqlər aydın şəkildə nəzərə çarpır. Başlanğıc dil səviyyəsi üzrə tapşırıqda sözlərin izahı sadə və qısadır. Burada gündəlik həyatda işlənən və *tempat, orang* kimi ümumi sözlərdən istifadə olunmuşdur. Orta dil səviyyəsi üzrə tapşırıqda isə sözlərin izahı daha mürəkkəb, həmin sözlərin köməyilə qurulmuş cümlələr daha uzundur. Bundan başqa cümlələrdə rəsmi üsluba üstünlük verilmiş, daha dəqiq və spesifik sözlər seçilmişdir.

Oxu bacarığı üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda: *Buatkan teks tentang pariwisata untuk tingkat pemula*! (‘Başlanğıc dil səviyyəsi üçün turizmlə bağlı mətn hazırla!’):

Liburan ke Bali

Minggu lalu, saya dan keluarga pergi ke Bali. Kami naik pesawat dari Jakarta. Di Bali, kami menginap di hotel dekat pantai. Setiap pagi, kami berjalan-jalan di pantai dan melihat matahari terbit. Kami juga mengunjungi Pura Tanah Lot dan makan makanan khas Bali. Liburan di Bali sangat menyenangkan.

Yuxarıdakı qısa mətni əldə etdikdən sonra növbəti komanda verilir: *Buatkan tugas pilihan ganda untuk tingkat pemula, berdasarkan teks* “*Liburan ke Bali*”!

(‘“Balidə tətil” mətni əsasında başlanğıc dil səviyyəsi üçün çoxvariantlı tapşırıq hazırla!’):

1. *Kapan penulis pergi ke Bali*?
a) *kemarin*,
b) *minggu lalu*,
c) *besok*,
d) *dua minggu lagi*,
2. *Siapa yang pergi bersama penulis*?
a) *teman*,
b) *guru*,
c) *keluarga*,
d) *sendiri*,
3. *Bagaimana cara penulis pergi ke Bali?*
a) *dengan mobil*,
b) *dengan kapal*,
c) *dengan kereta*,
d) *dengan pesawat*,
4. *Di mana penulis menginap*?
a) *di rumah teman*,
b) *di vila*,
c) *di hotel dekat pantai*,
d) *di penginapan murah*,
5. *Tempat wisata apa yang dikunjungi penulis di Bali*?
a) *Pantai Kuta*,
b) *Pura Tanah Lot*,
c) *Danau Toba*,
d) *Taman Safari*.

Çatbotun yaratdığı mətndəki sözlər və cümlələrin quruluşu başlanğıc dil səviyyəsinə uyğundur. Mətn qısa olmasına baxmayaraq, tətil barədə kifayət qədər və maraqlı məlumat ehtiva edir. Mətnin əsasında tərtib edilmiş tapşırıq da onu tam əhatə edir.

Şifahi nitq bacarığı üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda: *Buatkan tugas berbicara untuk tingkat pemula tentang pariwisata*! (‘Başlanğıc dil səviyyəsi üçün turizmlə bağlı şifahi nitq materialı hazırla!’)

Çatbotun təqdim etdiyi tapşırıqda aşağıdakılar təklif olunur: *Bicaralah selama 1–2 menit tentang satu tempat wisata yang kamu sukai atau ingin kunjungi*! (‘Xoşladığın və ya ziyarət etmək istədiyin görməli yer haqqında 1-2 dəqiqəlik çıxış hazırla!’).

Hal yang perlu kamu ceritakan (‘Aşağıdakı məsələləri əhatə et’):

1) nama tempat wisata (‘görməli yerin adı’),
2) lokasinya di mana (‘onun yerləşdiyi yer’),
3) apa yang menarik dari tempat itu (‘orada maraqlı nə vardır?’),
4) apa yang bisa dilakukan di sana (‘orada nə edə bilərsiniz?’),
5) mengapa kamu suka tempat itu (oranı niyə xoşladığını izah et).

***Contoh* (‘nümunə’):**

Tempat wisata favorit saya adalah Danau Toba. Danau Toba ada di Sumatra Utara. Danau ini sangat besar dan indah. Di tengah danau ada Pulau

Samosir. Saya ingin naik perahu dan melihat pemandangan. Saya suka Danau Toba karena alamnya cantik dan udaranya sejuk.

Dinləmə bacarığı üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda: *Buatkan tugas simakan untuk tingkat pemula tentang pariwisata*! ('Başlanğıc dil səviyyəsi üçün turizmlə bağlı dinləmə materialı hazırla!').

Çatbot aşağıdakı dinləmə materialını və ona aid sualları təqdim etmişdir**:**

Pada liburan sekolah, saya pergi ke Yogyakarta. Saya naik kereta api bersama keluarga. Di sana, saya mengunjungi Candi Prambanan. Candi itu sangat besar dan indah. Saya juga membeli oleh-oleh di Malioboro. Liburan di Yogyakarta sangat menyenangkan.

1. *Ke mana penutur pergi saat liburan*?
2. *Dengan siapa penutur pergi*?
3. *Naik apa penutur ke Yogyakarta*?
4. *Tempat wisata apa yang dikunjungi penutur*?
5. *Apa yang dibeli penutur di Malioboro*?

Daha sonra çatbot yuxarıdakı mətn əsasında audiofayl hazırlamağı təklif etmişdir. Bu təkliflə razilaşsaq da, o, bu xidmətin hazırda mümkün olmadığını söyləmiş və bu işi icra etmək üçün bizi başqa platformalara yönəltmişdir.

Çatbotun yaratdığı dinləmə materialındakı sözlərin və cümlələrin quruluşu başlanğıc dil səviyyəsinə uyğundur. Verilmiş suallar da mətni tam əhatə edir.

Yazı bacarığı üzrə tapşırıq hazırlamaq üçün verilmiş komanda: *Buatkan tugas menulis untuk tingkat pemula tentang pariwisata*! ('Başlanğıc dil səviyyəsi üçün turizmlə bağlı yazı bacarığı üzrə tapşırıq hazırla!')

Çatbot aşağıdakı tapşırığı təqdim etmiş və turizmlə bağlı bir inşa nümunəsi vermişdir: *Pilih satu tempat wisata di Indonesia yang kalian suka atau ingin kunjungi*! (İndoneziyada xoşladığınız və ziyarət etmək istədiyiniz görməli bir yer seçin!'):

Bali adalah salah satu tempat wisata terkenal di Indonesia. Bali terletak di pulau Bali. Tempat ini dikenal dengan pantainya yang indah, seperti Pantai Kuta dan Pantai Sanur. Banyak wisatawan datang ke Bali untuk berlibur, berselancar, atau menikmati pemandangan matahari terbenam. Selain itu, Bali juga terkenal dengan budaya dan tradisi yang unik. Banyak orang suka mengunjungi Bali karena suasana yang tenang dan pemandangan alam yang menakjubkan.

Yuxarıdakılardan belə nəticəyə gəlmək olar ki, müəllim çatbotun təqdim etdiyi materiala tənqidi yanaşmalı, materialın dilöyrənənlərin ehtiyaclarını ödəyib-ödəmədiyinə əmin olmalı, verilmiş məlumatın etibarlılığını yoxlamalıdır.

3. *ChatGPT* çatbotunun köməyilə qiymətləndirmə aparılması

ChatGPT yalnız tapşırıqların hazırlanmasında deyil, onların yerinə yetirdiyi işlərin nəticəsini qiymətləndirməkdə də kömək edə bilir. Əvvəlki bölmədə verilmiş tapşırıqların hər birinin *ChatGPT* çatbotunda qiymətləndirilməsini aparmışdıq. O, tapşırıqlarda bilərəkdən buraxdığımız səhvləri dərhal müəyyən edə bilmiş, işi uyğun balla qiymətləndirmişdi.

Bundan başqa, İndoneziya dilini öyrənən bir tələbənin turizmlə bağlı qısa yazısının *ChatGPT* çatbotunda qiymətləndirilməsini apardıq. Bunun üçün yazını çatbota daxil edərək aşağıdakı komandanı verdik: *Berikan penilaian terhadap tulisan tingkat pemula ini*! ('Başlanğıc dil səviyyəsi üzrə yazılmış bu inşanı qiymətləndir!').

Tələbənin yazdığı inşa:

Liburan terakhir saya adalah ke Perancis. Saya pergi ke sana bersama keluarga saya. Kami pergi ke Perancis dengan pesawat. Kami terbang dengan pesawat selama 10 jam. Sesampainya di bandara, kami pergi ke hotel.

Pada hari berikutnya, kami pergi ke Taman Champ de Mars. Taman itu terletak di Avenue Anatole France dan lokasinya dekat dengan Sungai Seine. Taman itu sangat indah. Di sana ada banyak wisatawan dan juga banyak merpati. Kami bisa memberi makan merpati di sana. Setelah itu, kami pergi ke restoran. Di Perancis ada banyak makanan khas, tetapi saya tidak suka makan siput. Karena sudah malam, kami kembali ke hotel.

Pada hari kedua, kami pergi ke taman itu lagi karena di daerah taman tersebut terletak Menara Eiffel. Menara itu tinggi dan besar. Menara tersebut dibangun pada tahun 1887 dan memiliki tiga lantai. Tinggi menara itu 330 meter. Saya juga membeli souvenir Menara Eiffel kecil di toko oleh-oleh. Kami juga banyak berfoto di sana.

Pada hari terakhir, kami membeli croissant, berjalan-jalan di kota, dan keesokan paginya pergi ke bandara. Saya sangat menikmati tiga hari di sana. Saya suka Perancis.

Çatbot yazını aşağıdakı kimi redaktə etmişdir:

Liburan terakhir saya adalah ke Prancis. Saya pergi ke sana bersama keluarga saya. Kami pergi ke Prancis dengan pesawat dan terbang selama 10 jam. Sesampainya di bandara, kami langsung pergi ke hotel.

Pada hari berikutnya, kami mengunjungi Taman Champ de Mars. Taman itu terletak di Avenue Anatole France dan lokasinya dekat dengan Sungai Seine. Taman itu sangat indah. Di sana ada banyak wisatawan dan juga banyak merpati. Kami bisa memberi makan merpati di sana. Setelah itu, kami pergi ke restoran. Di Prancis, ada banyak makanan khas, tetapi saya tidak suka makan siput. Karena sudah malam, kami kembali ke hotel.

Pada hari kedua, kami pergi ke taman itu lagi karena di daerah taman tersebut terdapat Menara Eiffel. Menara itu tinggi dan besar. Menara tersebut dibangun pada tahun 1887 dan memiliki tiga lantai. Tinggi menara itu adalah 330 meter. Saya juga membeli suvenir Menara Eiffel kecil di toko oleh-oleh. Kami juga banyak berfoto di sana.

Pada hari terakhir, kami membeli croissant, berjalan-jalan di kota, dan keesokan paginya pergi ke bandara. Saya sangat menikmati tiga hari di sana. Saya suka Prancis.

O, yazını aşağıdakı kimi qiymətləndirmişdir:

"Yazıda müəyyən dəyişikliklər etmişəm. İndoneziya dilinin orfoqrafiya qaydalarını rəhbər tutub *Perancis* və *souvenir* sözlərini müvafiq olaraq *Prancis* və *suvenir* sözləri ilə əvəzləmişəm. *Kami pergi ke Prancis dengan pesawat* və *Kami terbang selama 10 jam* cümlələrini birləşdirirək bir cümlə düzəltmiş, fikri daha təbii şəkildə ifadə etmişəm. Daha sonra *terletak Menara Eiffel* ('Eyfel qülləsi yerləşir') ifadəsini *terdapat Menara Eiffel* ('Eyfel qülləsi vardır') ifadəsi ilə əvəz etmişəm.

Başlanğıc dil səviyyəsi üzrə fikirləriniz çox yaxşı və aydın şəkildə ifadə olunmuşdur. Cümlələr ahəngdar və anlaşıqlıdır. Qrammatik səhvlər çox azdır, onlar nəzərdə tutulmuş fikri anlamağa mane olmur. Bəzi sözlərin (məsələn, *taman*)

dəfələrlə təkrar olunmasına ehtiyac yoxdur. Yazı 10 ballıq şkala üzrə 8,5 balla qiymətləndirilə bilər".

Çatbotun tələbənin yazısını obyektiv şəkildə yoxladığını deyə bilərik. O, iradlarını kifayət qədər əsaslandıra bilmişdir. Özünün təqdim etdiyi yazıda da o, orfoqrafiya qaydalarına riayət etmiş, mətni üslubi cəhətdən bir qədər təkmilləşdirmiş, onun ekspressivliyini artırmaq üçün alternativ sözlər təklif etmişdir. Lakin yazının müəllifini tanıdığımız üçün onu bir qədər fərqli şəkildə qiymətləndirərdik. Tələbəyə verilmiş leksik və qrammatik material həcmcə çox olsa da, onun inşada istifadə etdiyi söz ehtiyatı xeyli məhduddur. İnşada mürəkkəb qrammatik konstruksiyalardan da istifadə edilməmişdir.

Tələbənin yuxarıdakı inşasının əl yazısının da eyni komanda ilə qiymətləndirilməsini yoxladıq. Bunun üçün yazının şəklini çəkərək onu çatbota yüklədik. Tələbənin xətti o qədər də səliqəli və anlaşıqlı olmasa da, çatbot onu oxumaqda çətinlik çəkmədən qiymətləndirə bildi. Onun bu yazıya aid söz seçimi, qrammatika və orfoqrafiya ilə bağlı verdiyi şərhlər inşanın elektron variantına verilmiş şərhlərdən o qədər də fərqlənmir. Sadəcə tələbənin əl yazısında bəzi hərflər aydın yazılmadığından (məsələn, ***a*** hərfi ***o*** hərfinə bənzəyir) çatbot bəzi sözlərin səhv yazıldığını hesab etmişdir.

Çatbotdan eyni şəkildə əvvəlki bölmədəki tapşırıqların da əllə yazılmış cavablarının qiymətləndirilməsini xahiş etdik. Bu dəfə də yazı aydın göründüyü üçün qiymətləndirmədə yanlışlıq olmadı. Bu isə onu deməyə əsas verir ki, qiymətləndirmə prosesində müəllim amili vacibdir. *ChatGPT* daxil edilmiş məlumata münasibətdə müxtəlif meyarları nəzərə alsa və qiymətləndirmədə obyektiv davransa belə, bu proses mütləq müəllimin nəzarəti altında aparılmalıdır. Müəllim dilöyrənənin əl yazısını oxumağın öhdəsindən daha yaxşı gələ bilər və ya anlaşılmaz məqamlarda nə yazdığını birbaşa onun özündən öyrənə bilər.

Yuxarıdakı inşanın *ChatGPT* vasitəsilə yazılıb-yazılmadığını müəyyən etmək üçün elə onun özünə müraciət etdik. O, cavabında inşanı insanın yazdığını, lakin bəzi hissələrin *ChatGPT* və ya başqa süni intellekt vasitələrinin köməyilə hazırlandığının mükünlüyünü, bununla belə, bunu sübut edə bilən dəlil olmadığını bildirdi. Bu məsələni tələbəyə bildirdikdə, o, inşasının bəzi hissələrinin redaktəsi üçün çatbota müraciət etdiyini etiraf etdi.

Nəticə. Süni intellektin son zamanlar geniş populyarlıq qazanmış vasitəsi olan *ChatGPT* çatbotunun xarici dillərin tədrisinə inteqrasiyası ilə təhsilverənlərin fəaliyyətində yeni dövr başlayır. Xarici dillər üzrə tədris materialının hazırlanmasında onun imkanları olduqca genişdir. Ona görə də müasir müəllim süni intellektin imkanları ilə tanış olmalıdır. Lakin süni intellektin də imkanları hüdudsuz deyildir.

ChatGPT çatbotunun üstünlükləri və çatışmazlıqlarını aşağıdakı kimi ümumiləşdirmək olar. O, hər kəs üçün əlçatandır, müəllimin işini yüngülləşdirir, vaxta qənaət etməyə imkan verir, bir çox dillərdə ünsiyyətə girə və verilən komanadaları dəqiq icra edə bilir. Lakin o heç də bütün komandaları, hətta bəzən özünün belə, təklif etdiklərini yerinə yetirə bilmir. Tədris materialının hazırlanması tamamilə onun öhdəliyinə buraxıla bilməz, ona görə də müəllim onun icra etdiyi işlərin nəticəsinə nəzarət etməlidir.

Texnologiya davamlı şəkildə inkişaf etdiyindən gələcəkdə *ChatGPT* çatbotunun və ya ona alternativ vasitələrin təkmilləşdirilərək daha dəqiq işləyəcəyi

mümkündür. *ChatGPT* çatbotunun tədris sahəsində faydası danılmaz olsa da, bu gün süni intellekt vasitələri müəllimi əvəz edə bilməz, sadəcə onun işlərini yüngülləşdirə bilər.

Ədəbiyyat:

1. ChatGPT Timeline. https://chatgpt.com/c/6808c13d-9b58-800b-9caf-1969afe1f720
2. New York City Schools Ban AI Chatbot that Writes Essays and Answers Prompts. https://www.theguardian.com/us-news/2023/jan/06/new-york-city-schools-ban-ai-chatbot-chatgpt
3. Stewart, J. Noam Chomsky Says ChatGPT is a Form of "High-Tech Plagiarism". https://mymodernmet.com/noam-chomskychatgpt/#:~:text=Chat GPT%20is%20basically%20high%2Dtech,to%20avoid%20doing%20the%20work
4. Supported Languages Overview. https://chatgpt.com/c/680a8700-00fc-800b-832e-a9e1577ae853

Laura Zarbaliyeva

Summary

ARTIFICIAL INTELLIGENCE IN FOREIGN LANGUAGE EDUCATION: TECHNIQUES FOR DEVELOPING TEACHING MATERIALS FOR THE INDONESIAN LANGUAGE USING *ChatGPT*

The integration of ChatGPT – a widely recognized artificial intelligence tool – into foreign language teaching marks the beginning of a new chapter in pedagogical practice. Its ability to generate teaching materials is remarkably extensive. As such, modern educators must familiarize themselves with the vast potential of AI. However, it is essential to acknowledge the inherent limitations of such technologies.

The advantages and disadvantages of the ChatGPT chatbot can be summarized as follows: it is widely accessible, saves educators time, supports multiple languages, and executes prompts with notable accuracy. Nevertheless, it may fail to execute certain prompts, including those that it suggests. Therefore, it cannot be solely relied upon for the preparation of teaching materials. Educators must remain involved in supervising and evaluating the output it generates.

The ongoing development of technology indicates that ChatGPT and similar tools are likely to become more accurate and reliable. The pedagogical benefits of ChatGPT are undeniable, yet it is important to be aware that while AI can be highly supportive, it cannot replace the role of educators.

Лаура Зарбалиева

Резюме

ПРИМЕНЕНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ: СОЗДАНИЕ УЧЕБНОГО МАТЕРИАЛА ПО ИНДОНЕЗИЙСКОМУ ЯЗЫКУ С ПОМОЩЬЮ ЧАТБОТА *ChatGPT*

Интеграция ChatGPT – широко признанного средства искусственного интеллекта (ИИ) в преподавание иностранных языков открывает новую главу в педагогической практике. Его возможности в создании учебных материалов исключительно обширны. Поэтому современным педагогам необходимо ознакомиться с огромным потенциалом ИИ. В то же время важно признать присущие этим технологиям и ограничения.

Преимущества и недостатки чат-бота ChatGPT можно представить следующим образом: он обладает широкой доступностью, помогает преподавателям экономить время, поддерживает множество языков и выполняет запросы с высокой точностью. Тем не менее, он может и не справляться с некоторыми задачами, включая те, которые предлагает сам. Поэтому при создании учебных материалов не следует полностью полагаться на него. Педагоги должны продолжать контролировать и оценивать результаты, которые генерирует ИИ.

Непрерывное развитие технологий предполагает, что ChatGPT и аналогичные средства станут более точными и надежными. Педагогические преимущества ChatGPT очевидны, однако несмотря на его значительную помощь, ИИ не может заменить учителя.

Rəyçi: dos. K.Hacıyeva

Leyla Məhərrəmova
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0000-0001-6720-177X

10.30546/2518-752X.1.601.085

AŞAĞI KURSLARDA İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ İNNOVATİV TEXNOLOGİYALARIN ROLU

Açar sözlər. *Innovativ texnologiyalar, süni intellekt, CLT, ağıllı məktəb, multimedia vasitələri*

Keywords: *innovative technologies, artifical intelligence, CLT, smart school, multimedia tools*

Ключевые слова: *инновационные технологии, искусственный интеллект, CLT, умная школа, мультимедийные инструменты*

Giriş. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı təhsil sahəsində də vacib dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə də, xarici dil dərslərində innovativ texnologiyalardan istifadə tədris prosesini daha səmərəli və motivasiyaedici vəziyyətə gətrib çıxarmışdır. Onlayn dərslər, sinif otağında innovativ texnologiyalardan istifadə, Aİ əsaslı proqramların tədris prosesinə inteqrasiyası və ağıllı məktəb modelinə keçid zərurətə çevrilmişdir.

Rəqəmsallaşma dövründə informasiya-kommunikasiya texnologiyalarının inkişafı təhsil sferasında da vacib dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə də, dil dərslərində innovativ texnologiyalardan istifadə tədris prosesini daha efektiv, səmərəli və motivasiyaedici vəziyyətə gətrib çıxarmışdır. Innovativ tətbiqlər, dərsdə mobil telefondan səmərəli istifadənin mümkünlüyü, rəqəmsal resurslar və interaktiv tədris proqramları tələbələrin dil bacarıqlarının inkişafına səbəb olmuşdur.

Bildiyimiz kimi ingilis dili müxtəlif məqsədlərlə öyrənilir. Məsələn, xaricdə təhsil üçün, akademik məqsədlər üçün, yeni bir dil öyrənmək üçün və ya ingilis dilli hər hansı bir ölkəyə inteqrasiya üçün və s. İnnovativ texnologiyaların tədrisə inteqrasiyası bütün bu məqsədlərə çatmağa gedən yolu daha da asanlaşdırır[1, s.121].

Ənənəvi tədris metodu texnologiyanın inkişafı ilə daha efektiv və interaktiv yanaşmalarla əvəz edilmişdir. Bu dəyişikliklər xüsusilə xarici dillərin tədrisində təsirini daha çox göstərir. Texnoloji vasitələr tələbələrə xarici dostlar əldə etmək, xaricdə təhsil almaq, işləmək imkanlarını əldə etməyə kömək edir.

Bunlarla yanaşı, texnoloji vasitələr tələbələrin hər birinin öz dil səviyyəsinə uyğun materiallar və tapşırıqlar əldə edə bilirlər.

Texnoloji vasitələrin dərslərə inteqrasiyası pandemiya dövründə daha da genişlənmiş, hətta zərurətə çevrilmişdir. Artıq, texnoloji vasitələrin dərsdə istifadə olunmasını qəbul etməyən müəllimlər də bu vasitələrdən geniş istifadə etməyə başladılar. Bəzi müəllimlər kompüterdən, Ms Teams, Zoom kimi proqramlardan

istifadə etməyi öyrənmək üçün təlimlərə qoşuldular. Bütün bunlar dərslərin texnoloji vasitələrlə onlayn şəkildə istifadəsinin geniş yayılmasına səbəb oldu.

Artıq texnoloji vasitələrdən əyani dərslərin daha məhsuldar və maraqlı keçməsi üçün istifadə olunur. Artıq, dil dərslərinin texnologiyasız tədrisini düşünmək çətindir. Çünki, bu vasitələr müəllimlərə geniş metodiki imkanlar verir.

Texnoloji vasitələrin tətbiq olunma forma və bacarıqların inkişafına görə bir-neçə növü var.

- **Videokonfranslar və virtual siniflər**. Bu tip proqramlara pandemiya dövründə də ən çox istifadə etdiyimiz Zoom, Microsoft Teams, Skype və s. texnoloji vasitələr aiddir[2, s.195]. Sinxron dətrslərin keçirilməsi üçün bu proqramlar əvəzsizdir. Sinxron dərslər dedikdə müəllimlə tələbələrin eyni anda onlayn olub canlı şəkildə tapşırıqlar edib, qiymətləndirmə aparılması nəzərdə tutulur.
- **Tədrisin idarəetmə sistemləri(LMS).** Bu platformalar dərs materiallarının təşkili, tapşırıqlar və onların yoxlanılıb qiymətləndirilməsi üçün əlverişli mühit yaradır. Bu sistemlərə Moodle, Google Classroom, Edmodo və s. aiddir. Bu sistemlər tələbə və müəllim arasında davamlı ünsiyyəti dəstəkləyir.
- **Mobil tətbiqlər.** Bu tətbiqlər tələbələrə gündəlik məşqlərlə istənilən yerdə dil öyrənməyə kömək edir. Bu tətbiqlərə Duolingo, Quizlet, Busuu və s. misal göstərə bilərik.
- **Multimedia vasitələri** dedikdə audio, video, vizual materiallar nəzərdə tutulur ki, bu materiallar eşitmə, görmə, eləcə də, kinestetik tipli tələbələr üçün uyğundur. Bu vasitələrə daxil olan filmlər, tətbiqlər, oyunlar və s. tələbələrin dərsə olan marsaq və motivasiyasını artırır. Filmlər və mahnıların köməyilə tələbələr ingilis dilinin müxtəlif danışıq nümünələrini eşidir, onların mədəniyyəti ilə tanış olur və nitqində istifadə edə bilir. Beləliklə də, multimedia vasitələri dinləmə və tələffüz bacarıqlarını təkmilləşdirir. Hətta, bu tətbiqlərin bəziləri dərhal düzəliş və ya cavab verir. Ted talks, BBC learning kimi platformaları bu vasitələrə aid edə bilərik.
- **Süni intellekt.** Son zamanlar süni intellekt əsaslı alətlər tədrisdə geniş istifadə edilir. Xüsusilə də, öz-özünə öyrənmə(self-study) üçün bu vasitələrdən istifadə əvəzsiz rol oynayır. Süni intellekt(AI) alətlərinə *ChatGPT, Grammarly, SpeakPal, Socratic by Google, Microsoft Copilot(Power Point/Ms Word), Quillbot* və s. aiddir. Bu alətlərin hər birinin özünəməxsus yardımedici xüsusiyyətləri vardır. Məsələn,

ChatGPT tətbiqi maraqlandığımız istənilən mövzu haqqında məlumat verir, yazıları yoxlayır, mövzunun izahın, müqayisəsin verir, mətnləri tərcümə edir, istənilən mövzu haqqında dərs planı qura bilir, esse yazır və s. kimi bacarıqlara malikdir.

Grammarly. Bu proqrama yazılı mətn yüklənir və proqram mətndəki qrammatik, leksik səhvləri Aİ ilə düzəldir.

Speak Pal danışıq və tələffüz üçün nəzərdə tutulub. Tələffüzdə edilən səhvlərin doğru variantını irəli sürür.

Socratic by google. Bu vasitə ilə tələbələr şəkil yükləyərək, tapşırığın cavabını ala bilir.

Microsoft Copilot(Power Point/Ms Word). Aİ ilə verilən mövzuda prezentasiyalar, testlər, dərs planı və s. hazırlayır.

Quillbot. Verilən mətni yenidən daha sadə və öyrədici formada yazır.

Bütün bu texnoloji vasitələrin tədrisdə üstünlükləri ilə yanaşı mənfi təsirləri də mövcuddur.

İlk öncə, texnoloji vasitələrin dil dərslərində olan üstünlüklərini araşdıraq.

Bu vasitələr, interaktiv alətlər, dərsin oyun əsasında qurulması və multimedia materialları tələbələrdə dərsə olan marağı artırır.

Əgər tələbələrin ağıllı telefonu və interneti varsa, o zaman, istənilən məlumat əldə etmək, tapşırıq etmək, kitab oxumaq, ingilis dilində film izləmək, xarici dostlarla kommunikasiya yaratmaq və s. hər zaman əlçatandır[3].

Bu vasitələrlə öyrəncilər öz dil və təhsil səviyyəsinə uyğun fərdiləşdirilmiş öyrənmə imkanı əldə edir.

Bütün bunlarla yanaşı, dil dərsləri üçün ən önəmli anlayış olan dil bacarıqlarının hər biri birlikdə inkişaf etdirilə bilər.

Bütün bu üstünlüklərlə yanaşı müəyyən *məhdudiyyətlərlə* də qarşılaşa bilərik.

Sinif otaqlarında texnoloji vasitələrin olmamağı və ya xarab olması, internetin zəifliyi və s. bu kimi problemlər dərsin plana uyğun irəliləməsində məhdudiyyətlər yarada bilər.

Bəzən sinif otaqları texnoloji vasitələrlə tam təchiz olunsa da, bəzi müəllimlərin bu vasitələrdən düzgün istifadə edə bilməməsi nəticəni zəiflədə bilər. Buna görə də, müəllimlər bu vasitələrin dərsdə istifadəsini öyrənmək üçün təlimlərdən keçməlidirlər.

Hər dərsi 90 dəqiqə ərzində texnologiyadan istifadə edilərsə, tələbələrdə klassik öyrənmə üsullarına maraq azalaraq, texnoloji vasitələrə bağlanır.

Video konfranslarda, Zoom, Microsoft Teams kimi virtual dərslərdə canlı və emosional ünsiyyət çətinləşir. Ünsiyyətlə yanaşı bu dərs formasında müəllimin tələbələrə nəzarəti də azalır. Bəzi tələbələr kameranı söndürüb başqa işlərlə məşğul olur. Bu problemlə pandemiya dövründə bir-çox müəllimlər qarşılaşmışdır. Buna görə də, bu vasitələrlə patok dərslərində hər bir tələbəyə diqqət göstərmək çətin olur. Lakin, bu problemi bir-neçə yolla həll edə bilərik.

İlk öncə, onlayn dərslərdə iştirakın həm müəllim, həm də dekanlıq tərəfindən yoxlanılması təşkil edilməlidir.

Dərs müddətində daimi olaraq hər biri tələbəyə əlavə suallar, feedback vermək müəllimin nəzarətini gücləndirir.

Dərsdə fəal təlim üsullarından istifadə də müəllimin bu problemini həll edə bilər.

Bütün bu yollarla yanaşı, müəllim öz qaydaları və onlara əməl edilmədikdə verilən cəza sistemi ilə tələbələri əvvəlcədən tanış etməlidir. Bu öyrəncilərdə məsuliyyət hissi yaradacaq.

İnnovativ texnologiyalarla, süni intellekt və rəqəmsal alətlərlə yüksək səviyyədə təchiz olunmuş interaktiv təhsil müəssisələri *"Ağıllı məktəb(Smart school)" modelini* yaradır. Ağıllı məktəb, artıq, ənənəvi məktəbin transformasiyası deməkdir.

Ağıllı məktəbi ənənəvi məktəbdən fərqləndirən özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, bu model ağıllı lövhələrlə, kompüterlərlə təşkil olunmuş interaktiv sinif otaqlarından ibarətdir. Sinifdə istifadə olunan rəqəmsal resurslar, yəni, dərsliklər, prezentasiyalar, test tapşırıqları və onlayn dərslər elektron platformalarda istifadə edilir. Onlayn dərslərlə yanaşı onlayn jurnal və gündəliklərdən istifadə olunur. Artıq, valideynlər müəllimlə əlaqə saxlamadan innovativ texnologiyalar vasitəsilə öyrəncilərin dərs nəticələrini izləyə bilirlər. Eləcə də, bu tip platforma-

larda valideynlər müəllimlər, onların setrifikasiya balı və uğurları haqqında da məlumat əldə edə bilirlər.

Aİ vasitəsilə öyrəncilərin datada olan zəif və güclü yönlərini analiz edərək onlara şəxsi tədris planı hazırlaya bilərlər.

Bütün bu xüsusiyyətlərlə yanaşı, kağız test və dərs materiallarının azalması ekoloji cəhətdən müəyyən üstünlüklərə malikdir.

Ağıllı məktəb təhsil və ekoloji xüsusiyyətlərlə yanaşı təhsil müəssisəsinin təhlükəsizlik sistemlərinin düzgün qurulmasına da kömək edir. Kameralar, ağıllı kartlar vasitəsilə təhsil müəssisələri daha təhlükəsiz məkana çevrilir.

Ağıllı məktəb modeli tələbələ və müəllimlərin rəqəmsal savadlılıq dərəcəsini artırır. Bu isə onlarda həm dərsi tədris etməyə, həm də öyrənməyə marağı artırır.

İnnovativ texnologiyalar və innovativ tədris metodları sayəsində dərs, artıq, sıxıcı və qeyri-məhsuldar olmur. Dərsin daha efektiv olmağının digər səbəbi isə bu dərs modeli vasitəsilə tədrisin adaptiv və fərdiləşdirilmiş formaya düşməsidir. Tədris daha fərdiləşdirilmiş olduğu üçün hər bir öyrənciyə fərdi yanaşılır, valideyn↔müəllim, müəllim↔tələbə münasibətləri daha da güclənir. Ağıllı gündəlik və jurnallar vasitəsilə valideynlər övladlarının nəticəsini öyrənə bilərlər.

Lakin, Ağıllı məktəb modelində bütün bu müsbətlərlə yanaşı mənfiliklərlə də qarşılaşa bilərik. Belə ki, bu model dərsi innovativ texnologiyalara əsaslanaraq qurur. Lakin, bəzi təhsil müəssisələri və ailələrdə bu vasitələri əldə etməyə imkan olmur. Buna görədə sinifdəki bu tip öyrəncilər digərlərindən geri qalır. Texnoloji vasitələr zəif olan müəssisələr isə ənənəvi metodda dərsi tədris etməyə məcbur olur. Bu isə rəqəmsallaşma dövründə dünya təhsilindən geri qalmaq deməkdir. Buna görə də, bu kimi problemlərin həlli prioritet məsələlərdən biri hesab olunur.

Qarşılaşa biləcəyimiz digər çətinliklərdən biri isə müəllimlərin rəqəmsal bacarığının zəif olmasıdır. Çünki, orta və yaşı 50-dən çox müəllimlər ənənəvi, eləcə də, qrammatik-tərcümə metoduna öyrəşdikləri üçün onlara kompüter və digər texnoloji vasitələrdən istifadə etmək çətin olur. İstifadə edən yaşlı müəllimlərin dərsinin yarsı bu alətlərin quraşdırılmasına gedir. Buna görə də, müəllimlər rəqəmsallaşma dövrünə ayaq uydurmaq üçün təlimlərə qoşularaq bu bacarıqlarını formalaşdırmalıdırlar. Bu yolda ilk addımlar pandemiya dövründə atılmışdır. Çünki, dərslər bir müddət onlayn təşkil olunurdu. Artıq, bu dövrdə texnoloji alətləri öyrənmək məcburiyyətə çevrilmişdir. Yaşından və ya istəyindən asılı olmayaraq hər bir müəllim dərsi onlayn təşkil edirdi.

XXI əsr təhsil sisteminin əsas hissələrindən biri olaraq ağıllı məktəb modeli dərsdə innovativ yanaşmalar və innovativ texnologiyaları tətbiq edir. Azərbaycan məktəb və universitetlərində rəqəmsallaşdırma və resursların gücləndirilməsi, eləcə də, müəllimlərin təkmilləşdirilməsi prosesi sürətlə davam edir. Yaxın gələcəkdə bütün təhsil müəssisələrinin infrastrukturu və müəllim hazırlığı yüksək səviyyəyə qalxacaq.

Texnoloji vasitələr dilin dörd bacarığına da eyni səviyyədə inkişafına kömək edir.

İlk öncə texnoloji vasitələrin dinləmə bacarığının inkişafına hansı yollarla təsir etməsindən danışaq.

Dinləmə bacarığı öyrəncilərin eşidib anlama səviyyəsini yüksəldən kompetensiyadır. Bu kompetensiya tələbələr tərəfindən çətin bacarıq hesab olunur. Çün-

ki, ingilis dilinin bir-çox formaları var ki, bizim tələbələrin onların hər birinə aid filmləri, mahnıları, podkastları və s. eyni səviyyədə dinləyib anlamaqda çətinlik çəkirlər. Bu çətinliyi aradan qaldırmaq üçün texnoloji vasitələrin köməyi əvəzsiz hesab olunur. Dinləmə bacarığının inkişafına kömək edən texnoloji tətbiqlərə "Ted talks", "BBC Learning English" və s. daxildir. Ted çıxışları tələbələrin həm dinləməsini, həm də görmə yaddaşını gücləndirir. Bunlarla yanaşı, süni intellekt əsaslı tətbiqlərdən biri "LingQ" tətbiqidir. Bu tətbiq tələbələrə podkastlar, məqalələr kimi dinləmə və oxu materialları verir. Tələbələr materialları oxuyub və ya dinləyərkən qarşılaşdıqları yeni sözləri proqramda saxlayıb sonra tərcümə edə və ya təkrarlaya bilərlər[4].

Produktiv bacarıqlardan biri olan danışıq bacarığı dil öyrənmə prosesinin ən çətin və aktiv etapı hesab olunur. Bunun səbəbi isə öyrəncilərə dili öyrənən gündən qrammatik tərcümə metodundan istifadə olunmasıdır. Bu metodda müəllim qrammatik qaydanı ana dilində izah edir. Daha sonra, öyrəncilərə tərcümə etmək üçün cümlələr verir. Keçilən fəsildə olan mətn müəllim tərəfindən tərcümə edilirdi. Bu metod tələbələrin oxu və yazı bacarıqlarını formalaşdırırdı. Digər bacarıqlar isə tələbələrdə zəif inkişaf edirdi.

Kommunikativ dil tədrisi(CLT) yanaşmasından istifadə dil dərslərində dörd bacarığın da eyni anda istifadəsinə və formalaşdırılmasına imkan yaradır. Bəzi mütəxəssislər iddia edir ki, dörd bacarığın hər birini eyni dərsdə eyni dərəcə istifadə etmək və formalaşdırmaq mümkün deyil. Yalnız, dərs müddətində dərsin məqsədinə uyğun iki əsas bacarıq digər iki bacarıqların köməyilə formalaşdırıla bilər.

Təcrübələrimə əsasən deyə bilərəm ki, aşağı kursda ingilis dilinin tədrisi zamanı dərs planıma əsasən 80 dəqiqə ərzində hər dörd bacarıqdan istifadə edə bilmişik.

Belə ki, dərsin ilk dəqiqələrində ingilis dilində keçirilmiş mövzularla bağlı lövhədə beyin həmləsi(brainstorming) üsulu ilə ümumi sual cavab edilir. Tələbələr sualları ingilis dilində eşidir, suallara şifahi şəkildə cavab verir və lövhədə dairə çəkərək cavabı yazır. Daha sonra, yeni dərsin mövzusu ilə əlaqəli motivasiya sualı qoyulur, müzakirə edilir və prezentasiya ilə izah olunur. Tələbələr prezentasiyadakı slaydları həm oxuyur, həm də geniş izahını dinləyirlər. Mövzunun möhkəmləndirilməsi üçün müəyyən qrup və ya cütlər şəklində müəyyən tapşırıqlar edilir. Və qruplar müəllimlə bərabər bir-birlərinin tapşırıqlarını oxuyub yoxlayırlar.

Bu nümunədə gördüyümüz kimi, 80 dəqiqə müddətində bütün kompetensiyalar bir-birilə əlaqəli şəkildə istifadə edildi, dərs interaktiv keçdi və innovativ təlim üsulları da dərsdə öz yerini aldı.

İnnovativ texnologiyalarından bəzi Aİ əsaslı tətbiqlər (Mondly), onlayn söhbət platformalarından olan Zoom, Speaky, SpeakPal kimi tətbiqlər tələbələrin real insanlarla və ya süni intellekt botları ilə ingilis dilində danışmaq imkanları onları inkişaf etdirir. Hətta Mondly proqramı tələbənin tələffüzünü təhlil edərək, səhvlərini göstərir.

Digər kompetensiyaya oxu bacarığı aiddir. Oxu bacarığı tələbələrin söz ehtiyatını artır, eləcə də, onlarda qrammatik anlayışı formalaşdırır[5, s.136]. Hal-hazırda e-book platformalarına real kitabxanalardan daha çox müraciət olunur. Bunlara Oxford Reading Tree, Rewordify, Kindle kimi platformaları misal göstərə bilərik. Bu tətbiqlərin hər birinin özünəməxsus funksiyaları vardır. Belə ki, Rewordify tətbiqi mətni sadələşdirərək tələbələrin anlamasını asanlaşdırır. Oxford

Reading Tree tətbiqi hər bir tələbənin dil səviyyəsini yoxlayaraq öz səviyyəsinə uyğun kitab məsləhət görür.

Bəzi funksiyalarına görə digər bacarıqlardan fərqlənən kompetensiya yazı bacarığıdır. Belə ki, yazı digər bacarıqlardan ilk öncə, prestijinə görə fərqlənir. Çünki, digər bacarıqlar zamanla ətraf mühitə uyğun olaraq qazanıla bilər. Yazını öyrənmək üçün təhsil almaq lazımdır. Eləcə də, yazı qalıcıdır və zaman asılılığı yoxdur.

Yazını formalaşdırmağa kömək edən texnoloji vasitələrə Ms Word, WordPress kimi tətbiqləri misal göstərə bilərik. Süni intellekt tətbiqlərindən olan ChatGpt, Grammarly kimi alətlər öyrəncilərin qrammatik səhvlərini düzəldərək, onların doğru versiyasını göndərir.

Məqalənin predmeti aşağı kurslarda ingilis dili dərslərini innovativ texnologiyalarla təşkilinin səmərəli yollarını tədqiq edərək hazırlamaqdır.

Elmi yenilik. Bu məqalədə innovativ texnologiyalar, Aİ əsaslı platformalar və onların aşağı kurslarda ingilis dilinin tədrisində oynadığı rollar tədqiq edilmişdir. Bunlarla yanaşı, mövzuda "Ağıllı məktəb" modeliylə "ənənəvi məktəb" modelinin fərqləri təqdim edilir. Eləcə də, dil dərslərinin əsasını təşkil edən dil bacarıqlarının tələbələrə aşılamağın innovativ texnologiyalarla daha efektiv və motivasiyaedici yolları irəli sürülmüşdür.

Nəticə. Texnologiyanın sürətli inkişafı və tədris prosesinə sürətli inteqrasiyası dil öyrənmə prosesini də rəqəmsallaşdırır. Xüsusilə də, pandemiya dövründən sonra innovativ texnologiyaların bütün təhsil müəssisələrində rolu aktual mövzuya çevrilmişdir.

Məqalənin nəticələri elm və təhsil sahəsində çalışan tədqiqatçılar üçün faydalı ola bilər. Eləcə də, bu nəticələr tələbələrin dil dərslərinə olan marağını, motivasiyasını və dörd bacarığın da texnoloji vasitələrlə düzgün istifadə edilməsinə kömək edir.

Ədəbiyyat:

1. Motteram, G. (2013). Innovations in learning technologies for English language teaching. British Council.
2. Harmer, J. (2015). The practice of English language teaching. Pearson Longman.
3. Godwin-Jones, R. (2011). Mobile apps for language learning. Language Learning & Technology, 15, 2–11.
4. TalkPal. (n.d.). What is LingQ? A complete guide to language learning with LingQ. https://talkpal.ai/what-is-lingq-a-complete-guide-to-language-learning-with-lingq/
5. Ur, P. (2012). A course in English language teaching. Cambridge University Press.
6. Richards, J. C., & Rodgers, T. S. (2014). Approaches and methods in language teaching. Cambridge University Press.
7. Stanley, G. (2013). Language learning with technology: Ideas for integrating technology in the classroom. Cambridge University Press.

Leyla Maharramova

Summary

THE ROLE OF INNOVATIVE TECHNOLOGIES IN ENGLISH LANGUAGE TEACHING IN UNDERGRADUATE COURSES

The rapid development of innovative technologies in the era of digitalization has led to important changes and innovations in the process of teaching English. Already traditional

teaching methods (grammatical translation method, audiolingualism) have been replaced by technological and interactive (CLT) based approaches. Each of the four skills – reading, writing, listening, speaking – which are the basis of foreign language teaching, can be developed at a high level using innovative technologies. The article examines ways to improve English and four language skills of undergraduate students with innovative technologies.

Лейла Магеррамова

Резюме

РОЛЬ ИННОВАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ НА НЕБОЛЬШИХ КУРСАХ

Быстрое внедрение инновационных технологий эпоху цифровизации стремительное развитие привело к важным изменением и нововведениям в поцессе преподавания английского языка. Традиционные методы обучения (грамматика – переводной метод, аудиолингвистика) в настоящее время заменены подходами, основанными на технологических и интерактивных методах(CLT) Каждый из четырех навыков, составляющих основу обучения иностранному языку-чтение, письмо, аудирование, говарение-можно развить до высокого уровня, используя инновационные технологии. В статье рассматриваються способы развития четырех языковых навыков английского языка у студентов бакалавриата с использованием инновационных технологий.

Rəyçi: ped.f.d., dos. G.X.Şirəliyeva

Venera Mustafayeva
Azərbaycan Dillər Universiteti
https://orcid.org/0009-0005-4410-9010

10.30546/2518-752X.1.601.092

DİL ÖYRƏNMƏ PROSESİNDƏ QEYRİ-VERBAL VASİTƏLƏRİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *Qeyri-verbal ünsiyyət, dil öyrənmə prosesi, mədəni fərqlər, kommunikativ tədris metodları, onlayn təhsil və bədən dili*

Keywords: *Non-verbal communication, language learning process, cultural differences, communicative teaching methods, online education and body language*

Ключевые слова: *Невербальное общение, Процесс изучения языка, Культурные различия, Коммуникативные методы обучения, Онлайн-образование и язык тела*

Giriş. Müasir dövrdə yeni bir dili öyrənmək yalnız qrammatik qaydalar və söz ehtiyatını mənimsəməklə kifayətlənmir. Dil, eyni zamanda, cəmiyyətin, mədəniyyətin və emosional ifadənin daşıyıcısıdır. Bu baxımdan, qeyri-verbal ünsiyyət – yəni jestlər, mimikalar, bədən dili, səs tonu və baxışlar – dil öyrənmə prosesində mühüm rol oynayır. Xüsusilə kommunikativ yanaşmaların ön plana çıxdığı XXI əsr təhsil mühitində bu qeyri-verbal vasitələr artıq yalnız tamamlayıcı deyil, öyrənmənin ayrılmaz hissəsinə çevrilmişdir. Bu məqalədə qeyri-verbal ünsiyyətin dil öyrənmə prosesinə təsiri həm nəzəri, həm də praktik aspektdən araşdırılır.

Yeni bir dili öyrənmək sadəcə sözlərin mənimsənilməsi və qrammatik qaydaların əzbərlənməsi ilə məhdudlaşmır. Əksinə, bu proses çoxşaxəli sosial, psixoloji və mədəni faktorların qarşılıqlı təsiri ilə baş verir. İnsanlar arasında effektiv ünsiyyətin böyük hissəsi sözlərdən kənar – yəni **qeyri-verbal** vasitələrlə formalaşır. Mimikalar, jestlər, bədən dili, baxışlar, duruş, səs tonu kimi qeyri-verbal komponentlər insanların fikirlərini daha təsirli və emosional çatdırmalarına imkan yaradır.

Dil öyrənmə mühitində bu vasitələrin rolu çox vaxt yetərincə vurğulanmır. Halbuki bir çox hallarda sözün özündən çox onun **intonasiyası** və **bədənlə müşayiət olunması** mənanı dəyişə bilir. Məsələn, "yaxşı" sözünün səs tonu və mimika ilə "razılıq", "lağ", "təəccüb" və ya "nifrət" ifadə etməsi mümkündür. Bu nüansları bilmədən xarici dilin təbii istifadəsi çətinləşir.

Qeyri-verbal ünsiyyətin əsas özəlliklərindən biri də onun **mədəniyyətə bağlı olmasıdır**. Yəni hər mədəniyyətin özünəməxsus jest və mimika sistemi mövcuddur və bu sistemlər bir-birindən tamamilə fərqlənə bilər. Bu baxımdan, dil öyrənmək istəyən şəxs yalnız sözləri deyil, eyni zamanda o dilin daşıyıcılarının **qeyri-verbal kodlarını** da öyrənməlidir.

XXI əsrdə dil öyrətmə yanaşmaları dəyişmiş, daha çox **kommunikativ və interaktiv** modellərə üstünlük verilmişdir. Bu yanaşmalar çərçivəsində qeyri-verbal ünsiyyət yalnız tamamlayıcı vasitə deyil, bəzən əsas öyrədici funksiya daşıyır.

Xüsusilə vizual öyrənənlər üçün bədən dili, göz kontaktı və mimikalar yeni məlumatların qavranmasında və yadda saxlanmasında çox mühüm rol oynayır.

Bu məqalədə qeyri-verbal ünsiyyətin dil öyrənmə prosesindəki əhəmiyyəti nəzəri və praktik cəhətdən təhlil ediləcək. Əsas məqsəd – bu vasitələrin: **tədris prosesində necə istifadə olunduğunu**, **şagirdlərin yaddaş və motivasiyasına necə təsir etdiyini**, **mədəni fərqliliklər kontekstində necə adaptasiya olunduğunu** ortaya qoymaqdır.

Eyni zamanda, müasir təhsil mühitində – xüsusilə **onlayn dərslər** və **multimodal resurslarla zənginləşdirilmiş təlimlərdə** – qeyri-verbal ünsiyyətin yeni formaları da müzakirə olunacaq. Məqalənin sonunda isə müəllimlər və tədris dizaynerləri üçün **praktiki tövsiyələr** veriləcək.

1. Qeyri-verbal kommunikasiya nədir?

Qeyri-verbal kommunikasiya danışmadan, yəni sözlərdən istifadə etmədən məlumat ötürmə üsuludur. Bu, jestlər, mimikalar, bədən hərəkətləri, baxışlar və səsin tonu vasitəsilə həyata keçirilir. Mehrabianın (1971) araşdırmasına görə, insanlar arasında emosional ünsiyyətin yalnız 7%-i sözlərlə, 38%-i səs tonu ilə, 55%-i isə bədən dili ilə ötürülür.

Qeyri-verbal kommunikasiya insanın dilə gətirmədən ötürdüyü informasiya formasını əhatə edir. Buraya aşağıdakılar daxildir:

Jestlər – əl-qol hərəkətləri ilə fikir ifadəsi

Mimikalar – üz ifadələri ilə emosiyaların göstərilməsi

Bədən dili və duruş – insanın vəziyyəti və münasibətini əks etdirən hərəkətlər

Göz kontaktı – diqqət və əlaqə yaratma üsulu

Səs tonu – eyni sözlərin fərqli tonlarla fərqli mənalar daşıması

Proksemika – insanlar arasındakı fiziki məsafənin kommunikasiya vasitəsi kimi istifadəsi

Haptika: toxunma ilə ünsiyyət.

Kinezika: bədənin hərəkətləri ilə bağlı kommunikasiya.

2. Qeyri-verbal vasitələrin dil öyrənməyə təsiri

https://orcid.org/0000-0002-0373-9404

10.30546/2518-752X.1.601.0109

İBTİDAİ SİNİFLƏRDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİNİN PEDAQOJİ ƏSASLARI

Açar sözlər: *ingilis dilinin tədrisi, rəqəmsal texnologiyalar, fəal təlim metodları, interaktiv dərs, kommunikativ bacarıqlar, təhsildə innovasiya, koqnitiv inkişaf*

Keywords: *english language teaching, digital technologies, active learning methods, interactive lesson, communication skills, educational innovation, cognitive development*

Ключевые слова: *преподавание английского языка, цифровые технологии, методы активного обучения, интерактивный урок, коммуникативные навыки, инновации в образовании, когнитивное развитие*

Giriş. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı təhsilin bütün səviyyələrində əhəmiyyətli dəyişikliklərə yol açıb. Bu, tədris metodlarının, dərs vəsaitlərinin və müəllim-şagird münasibətlərinin yenidən qiymətləndirilməsini tələb edir. Xüsusilə ibtidai təhsildə bu dəyişikliklər mühüm rol oynayır, çünki bu mərhələ şagirdlərin gələcək təhsil təcrübəsinin əsasını formalaşdırır. Bu kontekstdə, rəqəmsal texnologiyaların ingilis dili dərslərində tətbiqi tədris prosesinin daha interaktiv, vizual və əyləncəli şəkildə təşkili üçün yeni imkanlar yaradır. Ənənəvi təlim metodlarının məhdud imkanlarından fərqli olaraq, rəqəmsal vasitələr şagirdlərə xarici dili eşitmə, görmə və hətta hərəkət etməklə öyrənmək fürsəti təqdim edir. Bu yanaşma dil öyrənmə prosesini daha çox real həyatla əlaqəli kontekstə əlaqələndirdiyi üçün daha səmərəli olur.

Xüsusilə ibtidai sinif yaş dövrü pedaqoji baxımdan öyrənməyə yüksək marağın və aktivliyin olduğu bir mərhələdir. Bu yaşda uşaqlar yeni məlumatları oyun, vizual təqdimat və təcrübə vasitəsilə daha asan mənimsəyirlər. Məhz bu səbəbdən rəqəmsal texnologiyaların tətbiqi onların öyrənməyə olan marağını artırır, tədris prosesini monotonluqdan uzaqlaşdırır və individual yanaşmanı təmin edir. Mövzu üzrə aparılan təhlillər nəticəsində aydın olur ki, müasir rəqəmsal vasitələr (interaktiv lövhələr, mobil tətbiqlər, onlayn platformalar, rəqəmsal lüğətlər, video və audio materiallar və s.) şagirdlərin dinləmə, danışıq, oxu və yazı bacarıqlarının

kompleks şəkildə inkişafına imkan yaradır. Eyni zamanda, müəllimlərin bu texnologiyalardan effektiv istifadə etmə bacarığı və təhsil müəssisələrinin texniki imkanları da bu prosesdə mühüm rol oynayır. Bu səbəbdən, müəllimlərin peşəkar inkişafı və təhsilin rəqəmsallaşdırılması sahəsində atılacaq addımlar təlimin keyfiyyətinə birbaşa təsir göstərir. Beləliklə, məqalədə ibtidai siniflərdə ingilis dili dərslərinin müasir tələblər əsasında təşkili baxımından rəqəmsal texnologiyaların rolu və tətbiqi sahələri geniş şəkildə təhlil olunur və bu istiqamətdə mövcud olan imkanlar araşdırılır.

Müasir təhsil sistemində rəqəmsal texnologiyaların rolu danılmazdır. Texnoloji vasitələr yalnız təlimin təşkili və idarə olunmasında deyil, eyni zamanda təlimin məzmununda və öyrənmə üsullarında da köklü dəyişikliklərə səbəb olmuşdur. Xüsusilə ibtidai siniflərdə bu texnologiyaların tətbiqi təlimin daha maraqlı, dinamik və şagird yönümlü həyata keçirilməsinə şərait yaradır. Rəqəmsal texnologiyalar təhsil prosesində məlumatların vizual (şəkil, qrafik, animasiya və video) və audial (audio fayllar, dinləmə tapşırıqları, interaktiv səsləndirmələr və s.) şəkildə təqdim olunmasını təmin edir. Bu isə şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların dərs materialını daha yaxşı anlamasına və yadda saxlamasına kömək edir. İnsan beyninin görmə və eşitmə vasitəsilə məlumatları daha effektiv mənimsədiyi nəzərə alındıqda, bu texnologiyaların istifadəsi tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. İnteraktiv lövhələr, planşetlər, kompüter proqramları, rəqəmsal oyunlar və onlayn platformalar kimi vasitələr müəllimlərə dərsləri daha çevik planlamağa və fərdiləşdirilmiş təlim imkanları yaratmağa şərait yaradır. Məsələn, interaktiv lövhədə sözlərin tələffüzünü eşidərək təkrar etmək, şəkillərlə yeni sözləri öyrənmək, video ilə real situasiyaları izləmək, animasiyalarla dil qaydalarını izah etmək şagirdlərin dərsə aktiv qoşulmasını və motivasiyalarının artmasını təmin edir. Rəqəmsal texnologiyalar, həmçinin təlimin fərdiləşdirilməsinə imkan verir. Hər bir şagirdin bilik səviyyəsinə uyğun tapşırıqlar, oyunlar və materiallar təqdim edilə bilər. Bu, təlimin daha inklüziv və hamı üçün əlçatan olmasına (məsələn, qismən zəif şagirdlər üçün sadələşdirilmiş interaktiv vəsaitlər, daha fəal şagirdlər üçün isə kompleks öyrənmə resursları tətbiq edilə bilər) şərait yaradır. Digər tərəfdən, rəqəmsal texnologiyalar müəllimlərin dərs materiallarını daha səmərəli şəkildə təqdim etməsinə, həmçinin dərsdə şagirdlərin nailiyyətlərini dərhal izləməsinə və qiymətləndirməsinə imkan yaradır. Onlayn testlər, dərs simulyasiyaları və elektron portfoliolar bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Nəticə etibarilə, rəqəmsal texnologiyalar ibtidai siniflərdə tədris prosesini daha fərdiləşdirilmiş və interaktiv edir. Bu texnologiyalar şagirdləri passiv dinləyici olmaqdan çıxarıb, onları öyrənmə prosesinin fəal iştirakçılarına çevirir və onların praktik bacarıqlarını sistemli şəkildə inkişaf etdirir. J. Harmer qeyd edir ki, "müasir dövrdə ingilis dilinin tədrisi yalnız qrammatik qaydaların öyrədilməsi ilə məhdudlaşmamalı, əksinə, şagirdin aktiv iştirakını, maraq və motivasiyasını artıracaq interaktiv və texnoloji vasitələrlə zənginləşdirilməlidir". Tədqiqatçının fikrincə, texnologiyalar dil öyrənməni vizual, dinamik və fərdiləşdirilmiş formaya salaraq daha səmərəli nəticələrin əldə olunmasına imkan yaradır [3]. Həmçinin G.Dudeney və N.Hockly texnologiyanın dil tədrisinə inteqrasiyasını "XXI əsr bacarıqlarını inkişaf etdirmək üçün əsas vasitə" adlandırır. Onlar qeyd edirlər ki, rəqəmsal vasitələr şagirdin təlimə cəlb olunmasını və fərdi öyrənmə tempinə uyğunlaşmanı təmin

edir. Müəlliflərə görə, texnologiyanın düzgün seçilməsi və məqsədəuyğun tətbiqi müəllimin peşəkarlığı ilə birbaşa əlaqəlidir [2]. M. Varşauerin fikrincə isə, "kompüter əsaslı dil tədrisi xüsusilə aşağı yaş qruplarında dil bacarıqlarının formalaşmasında mühüm rol oynayır". O, texnologiyanın yalnız texniki deyil, eyni zamanda pedoqoji məqsədlərlə uyğunlaşdırılmış şəkildə istifadə edilməli olduğunu vurğulayır [5].

İbtidai sinif şagirdləri yeni informasiyaları maraqla qəbul edən, öyrənməyə meyilli və əylənərək öyrənən yaş qrupuna aiddirlər. Bu xüsusiyyətləri nəzərə alaraq, ingilis dili dərslərinin təşkilində ənənəvi metodlardan fərqli olaraq, innovativ və yaradıcı təlim yanaşmalarının tətbiqi böyük əhəmiyyət daşıyır. İnnovativ yanaşmalar şagirdlərin aktivliyini artırır, onların motivasiyasını gücləndirir və dil bacarıqlarının təbii mühitdə inkişafına şərait yaradır. Vıqotskinin "yaxın inkişaf zonası" nəzəriyyəsinə əsasən, uşaqların öyrənmə prosesi sosial mühitlə, müxtəlif vasitələr və daha təcrübəli şəxslərlə (məsələn, müəllim və ya bələdçi) qarşılıqlı əlaqədə baş verir [7]. Bu baxımdan, rəqəmsal texnologiyalar müasir vasitəçi rolunu oynayaraq şagirdin inkişafına təkan verir və interaktiv mühitin yaradılmasına şərait yaradır. Bu kontekstdə aşağıdakı innovativ üsul və texnologiyaların tətbiqi ingilis dili dərslərinin daha səmərəli təşkilinə imkan verir:

1. ***Multimedia resurslarının istifadəsi.*** Multimedia vasitələri videoçarxlar, audio materiallar, animasiyalar və slaydlar dərs materialını daha canlı və efektiv formada təqdim etməyə imkan yaradır. Şagirdlər xarici dilin səslənməsini eşidərək, mimika və hərəkətlərlə müşahidə edərək, sözləri daha yaxşı yadda saxlayırlar. Bu tip materiallar həm görmə, həm də eşitmə yolu ilə qavranıldığından, informasiyanın yadda qalma ehtimalı artır.

2. ***Rəqəmsal oyunlar və mobil tətbiqlər.*** Uşaqlar oyun oynayaraq öyrənməyə daha çox maraq göstərirlər. Bu xüsusda "Kahoot!", "Wordwall", "Quizlet", "Duolingo Kids" kimi mobil və veb-əsaslı tətbiqlər dərsdə motivasiyaedici mühit yaradır. Şagirdlər bu kimi vasitələrlə söz ehtiyatını genişləndirir, qrammatik qaydaları praktik şəkildə mənimsəmək imkanı əldə edirlər.

3. Layihə və problem əsaslı öyrənmə. İbtidai siniflərdə kiçik layihələr və sadə problem tapşırıqlar (məsələn, sevdikləri heyvan haqqında təqdimat hazırlamaq, sinif daxili sadə dialoq canlandırmaq) şagirdlərin tənqidi təfəkküründü və ünsiyyət bacarıqlarını inkişaf etdirir. Bu yanaşma həm dil biliklərini praktik kontekstdə tətbiq etməyə, həm də komanda şəklində işləməyə imkan yaradır.

4. Virtual və artırılmış reallıq (VR və AR). Texnologiyanın imkanlarından istifadə edərək, ibtidai sinif şagirdləri "səyahətə çıxmış" kimi müxtəlif ölkələri, təbiət hadisələrini və situasiyaları virtual olaraq izləyə və həmin mövzularda ingiliscə danışıq bacarıqlarını tətbiq edə bilərlər. Bu texnologiyalar şagirdin öyrəndiyi informasiyanı həyatla əlaqələndirərək yaddaşda daha uzun müddət saxlanmasına səbəb olur.

5. Kommunikativ yanaşma və situativ təlim. İngilis dili dərslərində şagirdlərin gündəlik həyatla bağlı ifadələrdən istifadə etdiyi dialoqların qurulması (məsələn: mağazada alış-veriş, məktəbdə müəllimlə söhbət, dostlarla salamlaşma və s.) onların danışıq bacarıqlarını inkişaf etdirir. Beləliklə, dil yalnız qaydalar toplusu kimi deyil, real ünsiyyət vasitəsi kimi qavranılır.

6. Fərdiləşdirilmiş tədris və adaptiv texnologiyalar. Rəqəmsal platformalar vasitəsilə hər bir şagirdin fərdi dil və bilik səviyyəsinə uyğun dərs materialları və tapşırıqlar təqdim etmək mümkündür. Bu yanaşma həm zəif, həm də güclü şagirdlər üçün uyğun inkişaf trayektoriyası yaradır. Müəllimlər şagirdlərin inkişafını onlayn şəkildə izləyə və fərdi rəy verə bilirlər.

S. Papert hesab edirdi ki, şagirdlər öyrənməni yalnız qəbul edən deyil, həm də yaradan və tətbiq edən subyekt kimi mənimsəməlidirlər. Onun konstruktivist yanaşmasına əsasən, təlim prosesində şagirdin aktiv iştirakı və yaradıcı təcrübəyə cəlb olunması öyrənmənin dərinləşməsinə xidmət edir [6]. Rəqəmsal texnologiyalar bu yaradıcı təcrübənin təşkili üçün geniş imkanlar yaradır, vizual, eşitmə və kinestetik yolla təqdim edilən məlumatlar şagirdin marağını artırır və fərdi yanaşma üçün şərait formalaşdırır. Vəziyyəti daha aydın təhlil etmək və bu nəzəri yanaşmanı praktik müstəvidə nümayiş etdirmək üçün ibtidai siniflərdə ingilis dili dərslərində rəqəmsal texnologiyalardan istifadə ilə həyata keçirilən bir dərs nümunəsi (keys) təqdim edilmişdir. Aşağıda cədvəldə qeyd olunan nümunə real dərs şəraiti üçün nəzərdə tutulmuş praktiki modeldir və interaktiv təlim metodları, oyun texnologiyaları, həmçinin rəqəmsal resursların məqsədyönlü istifadəsinə əsaslanır.

Cədvəl. İbtidai sinifdə İngilis dili dərsi üzrə nümunə dərs planı

İbtidai sinifdə İngilis dili fənni üzrə dərs planı nümunəsi
Mövzu: Colors (Rənglər)
Sinif: II sinif
Dərsin müddəti: 45 dəqiqə
Məqsəd: Əsas rəng adlarını öyrətmək, onların düzgün tələffüzünü təmin etmək və sadə cümlələrdə istifadə edərək ifadə etmə bacarıqlarını inkişaf etdirmək.
Nəticə: Şagirdlər əsas rəng adlarını tanıyır, sadə cümlələrlə ifadə edir və interaktiv fəaliyyətlərdə tətbiq edirlər.

№	Mərhələ	Vaxt	Fəaliyyətin məzmunu	Rəqəmsal texnologiyalar	Nəticə
1.	**Motivasiya**	5 dəq.	"Learn Colors with Songs" adlı animasiyalı video göstərilir. Şagirdlər videodakı mahnıya qoşularaq ritmik şəkildə əl çalır və rənglərin adlarını təkrarlayırlar. Bu fəaliyyət şagirdlərin dinləmə, tələffüz və interaktiv öyrənmə bacarıqlarının inkişafına xidmət edir.	YouTube Kids, interaktiv lövhə	Dərsə emosional baximdan hazır olur və mövzuya maraq göstərir.
2.	**Tədqiqat aparılması**	8 dəq.	Şagirdlər planşetlərdə rəng və obyektlərə dair interaktiv oyunu oynayır ("Find the color" və s.).	Planşetlər, "ABC Kids" tətbiqi	Təqdim olunan vizual materiallara əsaslanaraq rənglər haqqında ilkin fərziyyələr irəli sürür.

3.	**Məlumat mübadiləsi**	7 dəq.	Cütlərlə iş: Şagirdlər bir-birlərinə obyektləri göstərərək "What color is it?" sualını verir və cavablayır.	Fiziki obyektlər (rəngli qələm, kitab və s.)	Rəng adlarını sadə dialoqlarda və qarşılıqlı ünsiyyətdə tətbiq edir.
4.	**Məlumat müzakirəsi**	7 dəq.	Müəllim interaktiv təqdimatla rəngləri təkrar edir, slaydlarla rəng-obyekt əlaqəsi qurulur. Suallar: "Why is the apple red?" və s.	PowerPoint, səsləndirmə funksiyası olan təqdimatlar	Yeni öyrəndikləri məlumatları sinif müzakirəsi zamani izah edir, aydınlaşdırır və əsaslandırır.
5.	**Ümumiləşdirmə və nəticə**	6 dəq.	Müəllim lövhədə rənglərə dair sorğu-sual təşkil edir. Şagirdlər düzgün rəngi seçərək lövhəyə yaxınlaşır və təqdim edir.	Smart lövhə	Mövzu üzrə əsas anlayışları **ümumiləşdirir** və nümunələr üzərində **möhkəmləndirir**
6.	**Yaradıcı tətbiqetmə**	7 dəq.	Şagirdlər kağız və ya Paint tətbiqi ilə sevdikləri əşyaları rəngləyir, sonra təqdim edir: "This is my red car."	Rəqəmsal rəsm alətləri və illustrativ materiallar	Rənglər haqqında öyrəndiklərini yaradıcı şəkildə tətbiq edir və danışıq vərdişlərini inkişaf etdirir
7.	**Qiymətləndirmə və refleksiya**	5 dəq.	Padlet vasitəsilə refleksiya: "What color did you like?", "Which part was fun?" – emoji və ya sözlə cavablandırılır.	Padlet (rəqəmsal interaktiv lövhə)	Dərsə münasibətlərini ifadə edir, öz fəaliyyətlərini qiymətləndirir.

Yuxarıda göstərdiyimiz nümunə müasir dərs prosesində rəqəmsal texnologiyaların pedaqoji dəyərini və fəal öyrənmə mühitinin qurulmasında oynadığı rolu nümayiş etdirir. Burada keys vasitəsilə həm müəllimlərin planlaşdırma bacarığı, həm də rəqəmsal resursların didaktik məqsədlərlə necə əlaqələndirildiyi aydın şəkildə müşahidə olunur. Bu dərs modeli, fəal təlimin mərhələlərinə əsaslanaraq qurulmuş bir nümunədir. Hər mərhələdə rəqəmsal vasitələrin məqsədyönlü istifadəsi şagirdin öyrənmə prosesində iştirakını gücləndirir. Nümunəyə əsasən qeyd etmək olar ki:

– *Rəqəmsal texnologiyaların istifadəsi sayəsində şagirdlər vizual və eşitmə kanallarını aktivləşdirərək daha effektiv şəkildə öyrənməyə nail oldular.*

– *Fəal iştirak və oyun vasitəsilə dərs əyləncəli və mənalı keçdi.*

– *Şagirdlər illustrativ vasitələrlə işləyərək cümlə qurmaq bacarığını inkişaf etdirdilər.*

– *Fərdi və cütlərlə iş forması vasitəsilə şagirdlərin kommunikativ bacarıları gücləndirildi* [4].

Rəqəmsal təlim vasitələrinin effektiv tətbiqi üçün bir neçə əsas şərtin təmin olunması mühüm əhəmiyyət daşıyır. İlk növbədə, bu texnologiyaların səmərəli istifadəsi üçün məktəblərin texniki-infrastruktur imkanlarının yetərli səviyyədə olması vacibdir. Kompüter otaqlarının mövcudluğu, sinif otaqlarında proyektor, interaktiv lövhələr, stabil internet bağlantısı və planşetlər kimi vasitələrin təmin edilməsi rəqəmsal resurslardan istifadəyə şərait yaradır. Lakin bir çox hallarda, xüsusilə region məktəblərində bu infrastrukturun tam formalaşmaması və texniki dəstəyin məhdud olması rəqəmsal texnologiyaların tətbiqini çətinləşdirir. İkinci mühüm amil müəllimlərin rəqəmsal savadlılıq səviyyəsi və texnologiyalardan istifadə bacarığıdır. Müasir dövrdə müəllim yalnız bilik ötürən deyil, eyni zamanda informasiya texnologiyalarını dərs prosesinə inteqrasiya edə bilən fasilitator rolunu oynamalıdır. Bunun üçün müəllimlərin İKT sahəsində sistemli biliklərə malik olması və rəqəmsal alətlərlə işləmə bacarıqlarının daim yenilənməsi vacibdir. Təəssüf ki, bəzi hallarda müəllimlər bu vasitələrdən istifadədə özlərini qeyri-müəyyən və ya narahat hiss edir, bu da onların texnologiyaya qarşı müqavimət göstərməsinə səbəb olur. Bununla əlaqədar olaraq, müəllimlər üçün mütəmadi və praktik yönümlü təlimlərin təşkili vacibdir. Bu təlimlər yalnız proqramların texniki istifadəsini deyil, həm də onların didaktik və pedaqoji aspektlərini əhatə etməlidir. Yəni müəllim bilməlidir ki, konkret bir tətbiq və ya platforma hansı dərs mərhələsində və hansı məqsədlə istifadə olunmalıdır. Üçüncü mühüm amil şagirdlərin texnologiyaya münasibəti və texniki hazırlıq səviyyəsidir. Əksər hallarda ibtidai sinif şagirdləri rəqəmsal texnologiyalara böyük maraq göstərir və onları daha sürətlə mənimsəyir. Lakin bu alətlərin istifadə qaydalarının onlara yaş səviyyəsinə uyğun və pedaqoji baxımdan düzgün şəkildə öyrədilməsi vacibdir. Həmçinin nəzərə almaq lazımdır ki, bəzən ailələrin texnoloji təminat səviyyəsi də fərqli ola bilər, bu da bərabər imkan prinsipinin pozulmasına səbəb ola bilər. Beləliklə, rəqəmsal təlim vasitələrinin effektiv tətbiqi üçün yalnız texniki avadanlığın mövcudluğu kifayət etmir. Bu prosesin uğurlu həyata keçirilməsi üçün infrastruktur, müəllim hazırlığı, pedaqoji metodika və şagird ehtiyacları qarşılıqlı şəkildə nəzərə alınmalı, təhsil siyasətində bu istiqamətlər üzrə sistemli yanaşma təmin edilməlidir.

Aparılan təhlillər və praktiki nümunələr göstərir ki, **ibtidai siniflərdə ingilis dili dərslərinin rəqəmsal texnologiyalar vasitəsilə təşkili** təlimin keyfiyyətinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Bu texnologiyalar tədris prosesini daha **interaktiv**, **cəlbedici** və **şagird yönümlü** etməklə, öyrənmənin yalnız mətnə və təkrara deyil, həm də vizual, səsli və fəaliyyətə əsaslanan formalarına keçidini təmin edir. Rəqəmsal vasitələrin tətbiqi sayəsində şagirdlərin **dil öyrənməyə olan marağı artır**, onların **dinləmə, danışma, oxuma və yazma** kimi əsas dil bacarıqları daha təbii və ardıcıl şəkildə formalaşır. Eyni zamanda, bu alətlər uşaqların **fərdi öyrənmə tempinə** uyğunlaşmaqla yanaşı, onların **yaradıcılığını**, **tənqidi təfəkkürünü** və **komanda ilə işləmək** bacarıqlarını da inkişaf etdirir.

Lakin bu prosesin uğurla həyata keçirilməsi üçün bir sıra əsas şərtlərin təmin edilməsi vacibdir. **İnnovativ yanaşmaların tətbiqi** yalnız texnologiyanın istifadəsi ilə məhdudlaşmamalıdır. Bu yanaşmaların səmərəsi birbaşa olaraq **müəllimlərin peşəkarlıq səviyyəsi**, **rəqəmsal savadlılığı** və **təlim strategiyalarını düzgün seçmə bacarığı** ilə sıx bağlıdır. Müəllimlər yeni texnologiyaları dərsin məqsədinə uyğun şəkildə seçməli və onların tədris prosesində didaktik dəyərini

düzgün müəyyənləşdirməlidirlər. Bununla yanaşı, **məktəblərin maddi-texniki bazasının gücləndirilməsi** və bərabər təhsil imkanlarının yaradılması da əsas prioritetlərdən biri olmalıdır. Müasir texnologiyalarla təchiz olunmuş sinif otaqları, sürətli internet bağlantısı, planşet və kompüterlər, interaktiv lövhələr və digər vasitələr olmadan rəqəmsal təlimin tam tətbiqi mümkün deyil.

Nəticə etibarilə, ibtidai təhsildə ingilis dili dərslərinin rəqəmsal texnologiyalarla təşkili, ənənəvi tədris modellərindən fərqli olaraq, **şagirdin aktivliyini, motivasiyasını və funksional dil biliklərini** artırmağa xidmət edir. Bu istiqamətdə aparılan islahatların uğurla həyata keçirilməsi üçün **pedoqoji kadr hazırlığı, infrastruktur dəstəyi və davamlı təkmilləşmə mexanizmləri** birlikdə planlaşdırılmalı və mərhələli şəkildə həyata keçirilməlidir.

Ədəbiyyat:

1. Cambridge Assessment. (2021). Digital tools and approaches in language education. https://www.cambridge.org
2. Dudeney, G., & Hockly, N. (2012). How to teach English with technology (pp. 20–78). Pearson Longman.
3. Harmer, J. (2015). The practice of English language teaching (5th ed., pp. 95–134). Pearson Education Limited.
4. UNESCO. (2019). ICT in education: A critical literature review and its implications (pp. 5–42). UNESCO Publications.
5. Warschauer, M. (2004). Technological change and the future of CALL. In S. Fotos & C. Browne (Eds.), New perspectives on CALL for second language classrooms (pp. 15–25). Routledge.
6. https://www.scirp.org/reference/referencespapers?referenceid=435124
7. https://www.simplypsychology.org/zone-of-proximal-development.html

Gulnar Abdullayeva

Summary

PEDAGOGICAL FOUNDATIONS OF THE APPLICATION OF DIGITAL TECHNOLOGIES IN PRIMARY SCHOOLS

The article examines the pedagogical foundations of the application of digital technologies in teaching English in primary schools. The rapid development of technologies in the modern educational environment necessitates the integration of new approaches and innovative methods into the teaching process. In this regard, the purposeful use of digital technologies in English lessons in accordance with the age characteristics of primary school students plays an important role in the development of their language skills. The article analyzes the impact of the use of interactive whiteboards, mobile applications, online platforms and multimedia resources on student motivation, learning activity and communicative skills. At the same time, the role of increasing teachers' digital literacy, the ability to effectively use technological resources in teaching and material and technical support is also considered. As a result, it is noted that the pedagogically justified application of digital technologies not only enriches the learning process, but also develops the student's creative thinking, interest in language and independent learning skills.

Гюльнар Абдуллаева

Резюме

ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ПРИМЕНЕНИЯ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ В НАЧАЛЬНЫХ КЛАССАХ

В статье рассматриваются педагогические основы применения цифровых технологий в обучении английскому языку в начальной школе. Стремительное развитие технологий в современной образовательной среде обуславливает необходимость интеграции новых подходов и инновационных методов в процесс обучения. В этой связи целенаправленное использование цифровых технологий на уроках английского языка в соответствии с возрастными особенностями учащихся начальной школы играет важную роль в развитии их языковых навыков. В статье анализируется влияние использования интерактивных досок, мобильных приложений, онлайн-платформ и мультимедийных ресурсов на мотивацию, учебную активность и коммуникативные навыки учащихся. При этом рассматривается роль повышения цифровой грамотности учителей, умения эффективно использовать технологические ресурсы в обучении и материально-техническое обеспечение. В результате отмечается, что педагогически обоснованное применение цифровых технологий не только обогащает процесс обучения, но и развивает у учащихся творческое мышление, интерес к языку и навыки самостоятельного обучения.

Rəyçi: ped.f.d. Ş.Tahirova

Günay Seyidova
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.0116

BAKALAVRİAT SƏVİYYƏSİNDƏ TƏHSİL ALANLARIN MƏNİMSƏMƏ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *mənimsəmə xüsusiyyətləri, akademik nailiyyətlər, koqnitiv inkişaf, sosial öyrənmə, pedaqoji yanaşmalar, innovativ tədris metodları.*

Keywords: *learning characteristics, academic achievement, cognitive development, social learning, pedagogical approaches, innovative teaching methods*

Ключевые слова: *особенности усвоения, академические достижения, когнитивное развитие, социальное обучение, педагогические подходы, инновационные методы обучения*

Giriş. Bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətləri, onların akademik nailiyyətlərini müəyyən edən əsas amillərdən biri hesab olunur. Təhsil sistemində tətbiq edilən müxtəlif innovativ metodlar, tələbələrin idraki inkişafı, motivasiya səviyyəsi və sosial amillərlə sıx bağlıdır. Müasir dövrdə tələbələrin mənimsəmə xüsusiyyətləri qloballaşma, texnologiya və yeni pedaqoji yanaşmaların təsiri ilə dəyişməkdədir. Məhz bu səbəbdən, bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə prosesinin daha dərindən öyrənilməsi və bu prosesin təkmilləşdirilməsi üçün effektiv metodların tətbiqi vacibdir.

Mənimsəmə prosesi tələbələrin fərdi xüsusiyyətləri ilə yanaşı, onların təhsil aldıqları mühit və istifadə edilən pedaqoji metodlarla da sıx əlaqəlidir. Bakalavriat təhsilinin əsas məqsədlərindən biri tələbələrə bilik və bacarıqları effektiv şəkildə öyrətməklə onların gələcək peşəkar inkişafına töhfə verməkdir. Bu məqsədə nail olmaq üçün ənənəvi və innovativ tədris metodlarının balanslı şəkildə tətbiqi, rəqəmsal resurslardan səmərəli istifadə və tələbələrin aktiv öyrənmə prosesinə cəlb edilməsi mühüm rol oynayır. Bakalavr səviyyəsində təhsil alan tələbələrin öyrənmə xüsusiyyətləri təhsil və inkişaf nəzəriyyələri sahəsində müxtəlif alimlər tərəfindən tədqiq edilmiş və onlar öz əsərləri ilə bu mövzuya töhfə vermişlər.

Jan Piaje – *"Koqnitiv İnkişaf Nəzəriyyəsi"* → Piaje uşaqların və gənclərin öyrənmə və inkişaf proseslərini təhlil etmişdir. Onun "konstruktivizm" nəzəriyyəsi tələbələrin təcrübə və mövcud biliklər əsasında yeni bilikləri necə mənimsədiklərini açıqlayır. Piaje'nin nəzəriyyəsinə bakalavriat səviyyəsində tələbələrin koqnitiv inkişafını izah etmək üçün geniş müraciət olunur.

Lev Vıqotski – *"Sosial İnkişaf Nəzəriyyəsi"* → Vıqotski öyrənmənin sosial və mədəni kontekstini vurğulayaraq, tələbələrin təhsil prosesində sosial qarşılıqlı əlaqələrin və dilin rolunu araşdırmışdır. Onun "Proksimal İnkişaf Zonası" anlayışı bakalavriat tələbələrinin təhsil mühitində öz potensial və dəstəklərindən necə istifadə etdiklərini izah edir.

Jerom Bruner – *"Aktiv Öyrənmə"* → Bruner vurğulamışdır ki, öyrənmə təkcə bilik əldə etmək deyil, həm də tələbələrin fəal şəkildə məlumat axtarmaq və öz

təcrübələrindən öyrənməkdir. O, "şəxsi təcrübə yolu ilə öyrənmə" prinsipini tətbiq edərək bakalavriat səviyyəsində tələbələrin öyrənmə metodlarını və nəzəriyyə ilə əlaqələrini təhlil etmişdir.

Devid Kolb – "Təcrübəli öyrənmə nəzəriyyəsi" → Kolb öyrənmənin dörd mərhələsini təsvir edən bir model hazırlamışdır: *təcrübə, refleksiya, konseptuallaşdırma və təcrübə*. Bu nəzəriyyədən tələbələrin fərqli öyrənmə üslublarını və təcrübə əsasında mənimsəmə xüsusiyyətlərini başa düşmək üçün istifadə olunur.

Albert Bandura – "Sosial Öyrənmə Nəzəriyyəsi" → Bandura sosial öyrənmə nəzəriyyəsini inkişaf etdirərək, insanların başqalarının davranışlarını müşahidə edərək öyrəndiklərini vurğulamışdır. Onun nəzəriyyəsi bakalavriat tələbələrinin təhsil mühitində sosial qarşılıqlı əlaqələrdən necə faydalandığını və bilikləri hansı yollarla mənimsədiklərini izah edir.

Hovard Qardnerin – "Çoxşaxəli intellekt nəzəriyyəsi" → Qardner müxtəlif zəka tiplərinin (məsələn, riyazi-məntiq, vizual-məkan, musiqi-ritmik və s.) insanların öyrənmə prosesini fərqli şəkildə təsir etdiyini göstərmişdir. Onun nəzəriyyəsi bakalavriat səviyyəsində tələbələrin fərdi öyrənmə üslublarını və mənimsəmə xüsusiyyətlərini açıqlamaq üçün əhəmiyyətlidir.

Con Dyui – "Təcrübə və təhsil" → Dyui təhsilin təcrübə və fəaliyyətlə əlaqəli olduğunu qeyd etmişdir. Onun yanaşması tələbələrin təcrübələrini tədris prosesində necə istifadə etdiklərini və bu təcrübələrin onların mənimsəmə qabiliyyətinə necə təsir etdiyini izah edir.

Karol Dvek – "Çevik Zəka" nəzəriyyəsi" → Dvek, "böyümə zəkası" anlayışını inkişaf etdirərək, tələbələrin öz bacarıqlarını inkişaf etdirmək və uğursuzluqlardan öyrənmək qabiliyyətlərini vurğulamışdır. Onun araşdırmaları bakalavriat tələbələrinin motivasiyası və daxili amillərinin mənimsəmə prosesinə təsir etdiyini göstərir [3, s 654-658].

Yuxarı adları qeyd olunan alimlərin əsərləri bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətlərini və onların təhsil prosesindəki inkişafını izah etməkdə mühüm rol oynayır. Onların nəzəriyyələri innovativ pedaqogikanın əsas prinsiplərini formalaşdırır. Bakalavriat səviyyəsində tələbələrin mənimsəmə xüsusiyyətlərinə təsir edən əsas amillərə daxildir:

1. **Fərdi xüsusiyyətlər:** *Zəka, yaddaş, diqqət, öyrənmə tərzi və düşüncə tipləri, kreativ və analitik düşünmə qabiliyyəti, motivasiya və emosional intellekt, emosional intellekt və stressə dözümlülük.*

– *Zəka və idrak qabiliyyəti*. Tələbənin zəka səviyyəsi yeni məlumatları nə dərəcədə sürətlə və effektiv şəkildə mənimsədiyini müəyyən edir. İdrak qabiliyyəti yüksək olan tələbələr daha yaxşı analitik bacarıqlara malikdirlər və məlumatı daha sürətli anlamağa meyl edirlər.

– *Yaddaş və diqqət.* Yaddaşın gücü tələbənin öyrəndikləri məlumatı uzun müddət yadda saxlama qabiliyyətini təyin edir. Diqqət isə tələbənin dərsə nə dərəcədə fokuslandığını göstərir və bu, onun öyrənmə prosesinin effektivliyinə təsir edir.

– *Öyrənmə tərzi və düşüncə tipləri.* Hər tələbənin öz öyrənmə üsulu (vizual, kinestetik, audial və s.) vardır. Tələbənin düşüncə tərzi (analitik və ya yaradıcı düşünmə) onun öyrənmə metodlarını və məsələlərə yanaşma formasını müəyyən edir.

– *Kreativ və analitik düşünmə qabiliyyəti*. Kreativlik tələbənin yeni və qeyri-adi həllər tapmasına kömək edir. Analitik düşünmə isə tələbəyə məlumatı təhlil etmə və müvafiq nəticələr çıxarmaq qabiliyyəti verir.

– *Motivasiya.* Motivasiya, tələbənin öyrənmə prosesinə olan yanaşmasını və əzmini müəyyən edən əsas amildir. Tələbənin öyrənməyə olan marağı və həvəsi onun akademik uğurlarını təsir edir. Maraqlı bir təhsil mühiti tələbənin daha çox öyrənmək istəyini artırır.

– *Emosional intellekt və stressə dözümlülük:* Emosional intellect tələbənin öz və başqalarının hisslərini başa düşməsi və idarə etməsi bacarığıdır. Bu, tədris mühitində tələbənin sosial münasibətlərini və öyrənmə prosesini asanlaşdırır. Stressə dözümlülük isə tələbənin çətinliklərlə qarşılaşdıqda müsbət qalmasına kömək edir [3, s.654-658].

2. Sosial və akademik mühit: *Təhsil müəssisəsinin imkanları, müəllim-tələbə münasibətləri, ailə və cəmiyyətin rolu, sosial dəstək və tələbə təşkilatları, tələbənin məqsəd və gözləntiləri, tədris materialına yanaşma və aktiv iştirak, akademik nailiyyət və karyera hədəfləri.*

– *Təhsil müəssisəsinin imkanları:* Təhsil müəssisəsinin təklif etdiyi resurslar (laboratoriyalar, kitabxanalar, onlayn təhsil platformaları) tələbələrin tədris materialına daha asan və effektiv şəkildə daxil olmalarına imkan verir. Bu mühitin zəngin olması tələbənin öyrənmə təcrübəsini yaxşılaşdırır.

– *Müəllim və tələbə münasibətləri*. Müəllimlə tələbə arasındakı münasibət, tədrisin effektivliyini artırır. Yaxşı və motivasiyaedici müəllimlər tələbələrin öyrənmə prosesinə daha çox dərinləşmələrinə şərait yaradırlar.

– *Ailə və cəmiyyətin rolu.* Ailənin və cəmiyyətin təhsilə yanaşması, tələbənin təhsilinə olan motivasiyasını və şəraitini təsir edir. Təhsil sahəsinə olan diqqət və dəstək tələbənin uğurlu olmasına kömək edir.

– *Sosial dəstək və tələbə təşkilatları:* Tələbələr arasında qurulan sosial əlaqələr, onların qarşılıqlı dəstəyi və əməkdaşlıq etməsi onların öyrənmə prosesini gücləndirir. Tələbə icmaları, müzakirə və təcrübə paylaşma mühiti yaradır.

– *Tələbənin məqsəd və gözləntiləri:* Hər tələbənin təhsilə dair şəxsi məqsədləri və gözləntiləri vardır. Bu məqsədlər akademik uğurlarına və öyrənmə prosesinə yanaşmalarına təsir edir. Məqsədli tələbələr motivasiyalı olur və məqsədlərinə çatmaq üçün daha çox əzmkarlıq göstərirlər.

– *Tədris materialına yanaşma və aktiv iştirak:* Tələbənin dərslərə yanaşması, dərs materialına necə reaksiya verməsi və müzakirələrdə aktiv iştirak etməsi onun öyrənmə səviyyəsini müəyyən edir.

– *Akademik nailiyyət və karyera hədəfləri:* Tələbənin gələcək karyera planları və akademik uğurlarına olan bağlılığı onu daha çox motivasiya edir. Gələcək məqsədlərini müəyyən edən tələbələr dərslərə daha çox diqqət ayırır və daha uğurlu olurlar.

3. Pedaqoji metodlar və texnologiyalar: *İnteraktiv təlim metodları, problem əsaslı öyrənmə, rəqəmsal texnologiyalar və distant təhsil imkanları.*

– *İnteraktiv təlim metodları.* İnteraktiv təlim tələbələrin təlim prosesində aktiv iştirakını təmin edən yanaşmadır. Əsas məqsəd təlimin müəllim mərkəzli deyil, **tələbə mərkəzli** olmasıdır. Bu metodlar tənqidi düşünmə, əməkdaşlıq və yaradıcılığı təşviq edir. Tələbələr arasında qrup işləri, müxtəlif ideyaların mübadiləsi və əməkdaşlıq tələbənin öyrənmə prosesini inkişaf etdirir. Bu metod daha dərin təhlili və problemi birlikdə həll etmə bacarığını gücləndirir.

– *Problem əsaslı öyrənmə.* Bu metod **real problemlərin** həllinə yönəlmiş, araşdırma və analizə əsaslanan təlim növüdür. Tələbələrə hazır biliklər verilmək-

dənsə, onlar problemi araşdıraraq və düşünərək real və ya simulyasiya olunmuş situasiyalar əsasında öyrənərək özləri nəticəyə gəlirlər.

– ***Rəqəmsal texnologiyaların tətbiqi***. Müasir təhsil mühitində rəqəmsal alətlər tədrisin ayrılmaz hissəsinə çevrilmişdir. Bu texnologiyalar dərslərin effektivliyini və əlçatanlığını artırır. Əsas **tətbiqi sahələrinə interaktiv lövhələr və proyektorlar, təhsil platformaları (Moodle, Google Classroom, Teams və s.)**, **multimedia vasitələri (video dərslər, animasiyalar, simulyasiyalar)**, **əlavə reallıq (AR) və virtual reallıq (VR) texnologiyaları** v s daxildir.

– ***Distant təhsil imkanları.*** Distant təhsil – müəllim və tələbələrin eyni məkanda olmadan tədris prosesini həyata keçirməsinə imkan verən bir formatdır. Xüsusilə pandemiya dövründə bu modelin rolu daha da artmışdır [1, s.47-52].

Bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətləri, bu prosesə təsir edən amillər və tədris keyfiyyətinin yüksəldilməsinə xidmət edən innovativ metodlar vasitəsilə təhlil olunur. Məqsəd, tələbələrin daha effektiv mənimsəmə strategiyaları ilə təchiz olunmasını təmin etmək və onların akademik müvəffəqiyyətini artırmaq üçün təhsil prosesinin optimallaşdırılması yollarını araşdırmaqdır. Mənimsəmə prosesi tələbələrin fərdi xüsusiyyətləri, tədris metodları və təhsil mühitinə bağlı olaraq dəyişir. Bu amillərin inteqrasiyası tələbənin mənimsəmə prosesinə necə təsir etdiyini və hansı yollarla bu prosesi optimallaşdırmaq olduğunu başa düşməyə kömək edir. Müasir pedaqoji yanaşmalar, bu amilləri nəzərə alaraq, daha səmərəli və fərdi tələblərə uyğun tədris metodlarının tətbiqini təmin edir. Mənimsəmə prosesi daha effektiv şəkildə həyata keçirilmək üçün müxtəlif yanaşmalardan istifadə edilir. Bu yanaşmalar arasında fasilitasiyaedici təlim mühüm rol oynayır. Belə ki:

"Fasilitasiyaedici təlim tələbənin öz bilik və bacarıqlarını inkişaf etdirməsinə, müstəqil düşünmə və problem həll etmə qabiliyyətinə malik olmasına şərait yaradır. Müəllimlər bu yanaşmada rəhbər rolunu oynayır və tələbələrin suallar verməsini, problemləri həll etməsini və öz ideyalarını sərbəst ifadə etməsini təşviq edirlər" [1, s. s. 47-52].

Tələbələrin real problemləri həll etməsi üçün düşüncə və araşdırma bacarıqlarını inkişaf etdirmək məqsədilə bir çox yanaşmalar tətbiq edilir. Bu yanaşmalardan Layihə əsaslı təlim yanaşması tələbələrin tənqidi düşünmə qabiliyyətini və analitik bacarıqlarını artırır. Eyni zamanda tələbələrə konkret layihə üzərində işləmək və nəzəri biliklərini praktikada tətbiq etmək imkanı qazandırır. Bu metod tələbələrin komandada işləmək, məsuliyyət daşımaq və öz fikirlərini əsaslandırmaq bacarıqlarını inkişaf etdirir.

Müasir təhsildə fərdiləşdirilmiş yanaşmanın ən qabaqcıl formalarından biri adaptiv öyrənmədir. Adaptiv Öyrənmə tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq onların öyrənmə tempinə uyğun məzmun təqdim edir. Hər bir tələbənin fərdi öyrənmə üslubuna, bilik səviyyəsinə, sürətinə və tələbə ehtiyaclarına uyğun olaraq dinamik şəkildə məzmunun, tapşırıqların və resursların təqdim olunmasını nəzərdə tutur. Tələbənin cavablarına və fəaliyyətinə əsasən sistem dərhal yönləndirmə edir. Tapşırıqların çətinlik səviyyəsi və təqdim olunan mövzular tələbənin performansına uyğun dəyişir. Süni intellekt və "big data" texnologiyalarının tətbiqi bu metodun səmərəliliyini artırır.

Bakalavriat səviyyəsində tələbələrin mənimsəmə səviyyəsini qiymətləndirmək üçün müxtəlif ölçmə və dəyərləndirmə metodlarından istifadə edilir:

- *Test və imtahanlar*
- *Portfolio və layihə əsaslı qiymətləndirmə*
- *Davamlı formativ qiymətləndirmə*
- *Reflektiv esse və tələbə gündəlikləri*
- *Mütəxəssislər tərəfindən verilən rəy və fiks-feedback mexanizmləri*

Son dövr bu istiqamətdə aparılan tədqiqatlarda təhsil keyfiyyətinin artırılması və tələbələrin daha yaxşı mənimsəməsi üçün aşağıdakı təkliflər irəli sürülür:

- Fərdi yanaşma metodunun genişləndirilməsi;
- Tələbələrin aktiv iştirakı üçün motivasiyaedici metodlardan istifadə edilməsi;
- Müəllimlərin innovativ tədris metodları ilə təlimatlandırılması;
- Rəqəmsal texnologiyaların daha geniş tətbiqi;
- Praktik və interaktiv tədris üsullarının inkişaf etdirilməsi;
- Multidissiplinar yanaşmaların təhsil prosesinə inteqrasiyası [7].

İşin Aktuallığı. Bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətlərinin öyrənilməsi müasir təhsil sistemində prioritet istiqamətlərdən biridir. Qloballaşma, texnologiyanın inkişafı və yeni pedaqoji yanaşmalar təhsil prosesinə ciddi təsir göstərir. Bu baxımdan tələbələrin fərdi öyrənmə üslublarının, idraki qabiliyyətlərinin, motivasiya səviyyələrinin və sosial mühitlə qarşılıqlı təsirlərinin analizi vacibdir. Təhsil müəssisələrində innovativ metodların və rəqəmsal texnologiyaların tətbiqi tələbələrin akademik və peşəkar inkişafını daha səmərəli şəkildə təmin edir. Mənimsəmə prosesinin optimallaşdırılması həm təhsil keyfiyyətinin yüksəldilməsinə, həm də tələbələrin fərdi potensialının reallaşdırılmasına xidmət edir.

Elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi tələbələrin mənimsəmə xüsusiyyətlərinin kompleks yanaşma əsasında araşdırılmasında və müasir pedaqoji texnologiyaların tətbiqinin təhlilində özünü göstərir. Buraya adaptiv öyrənmə, fasilitasiyaedici təlim, layihə əsaslı öyrənmə və rəqəmsal texnologiyaların istifadəsi daxildir. Tədqiqat bakalavriat səviyyəsində fərdi öyrənmə xüsusiyyətlərinin akademik nəticələr və tədris metodları ilə əlaqəsini sistemli şəkildə göstərir, mənimsəmə prosesini daha effektiv etmək üçün metodoloji tövsiyələr təqdim edir. Beləliklə, bu iş həm təhsil elminə, həm də praktik pedaqoji fəaliyyətə töhfə verir.

Nəticə. Bakalavriat səviyyəsində təhsil alan tələbələrin mənimsəmə xüsusiyyətləri onların akademik və peşəkar inkişafında mühüm rol oynayır. Müasir tədris metodları və innovativ yanaşmalar bu prosesi daha effektiv və məhsuldar edə bilər. Belə ki, mərkəzli təhsil strategiyalarının tətbiqi, tədris keyfiyyətinin artırılması və tələbələrin fərdi xüsusiyyətlərinin nəzərə alınması təhsilin səmərəliliyini daha da yüksəldəcəkdir. Mənimsəmə prosesini daha səmərəli etmək üçün innovativ metodların tətbiqi və adaptiv yanaşmaların inkişaf etdirilməsi təhsil sektorunda uğurlu nəticələrə səbəb olacaqdır. Bu sahədə aparılan araşdırmalar və yeni texnologiyaların tətbiqi bakalavriat səviyyəsində tədrisin keyfiyyətini artırmağa mühüm töhfə verəcəkdir.

Ədəbiyyat:

1. Komarraju, M., Karau, S. J., & Schmeck, R. R. "*Learning and Individual Differences",* 19(1), 2009, p. 47-52.
2. Noftle, E. E., & Robins, R. W. "*Journal of Personality and Social Psychology",* 2007, 93(1), 116–130.
3. John, O. P., Robins, R. W., & Pervin, L. A. *Handbook of Personality: Theory and Research (3rd ed.).* The Guilford Press., 2008, p. 654-658

4. Roberts, B. W., & Hogan, R. (Eds.). "*Personality Psychology in the Workplace".* American Psychological Association., 2001, p.440
5. Schunk, D. H., Pintrich, P. R., & Meece, J. L. (2014). *Motivation in Education: Theory, Research, and Applications (4th ed.).* Pearson Higher Ed., 2014 p.504
6. https://www.researchgate.net/publication/390224047_Personality_Traits_and_Learning_Styles_in_Undergraduate_Students
7. https://collegejourney.ai/blog/thriving/describe-students-personality
8. https://www.sciencedirect.com/science/article/abs/pii/S1041608008000587
9. https://www.researchgate.net/publication/353276690_The_Big_Five_Personality_Traits_and_Academic_Performance_A_Meta-Analysis

Gunay Seyidova

Summary

LEARNING CHARACTERISTICS OF UNDERGRADUATE STUDENTS

The acquisition characteristics of undergraduate students are investigated within the framework of various pedagogical approaches, cognitive development models and social learning theories. Studies show that students' academic achievements are closely related to their learning styles, motivation levels and the use of interactive teaching methods. The application of innovative educational technologies, problem-based learning and project-based approaches in the modern educational process increases students' cognitive activity and independent thinking skills. At the same time, the social learning environment, teacher-student and student-student interaction, as well as differential approaches create conditions for students to form more effective acquisition strategies. The use of interactive methods in the educational process has a positive effect on students' integration of theoretical knowledge with practical skills and the development of critical thinking abilities.

Гюнай Сеидова

Резюме

ОСОБЕННОСТИ УСВОЕНИЯ ЗНАНИЙ СТУДЕНТАМИ БАКАЛАВРИАТА

Особенности усвоения знаний студентами бакалавриата рассматриваются в рамках различных педагогических подходов, моделей когнитивного развития и теорий социального обучения. Исследования показывают, что академическая успеваемость студентов тесно связана с их стилем обучения, уровнем мотивации и использованием интерактивных методов обучения. Применение инновационных образовательных технологий, проблемного обучения и проектного подхода в современном учебном процессе повышает познавательную активность и самостоятельность мышления учащихся. Кроме того, социальная среда обучения, взаимодействие учителя и ученика и ученика и ученика, а также дифференцированные подходы позволяют учащимся формировать более эффективные стратегии обучения. Использование интерактивных методов в образовательном процессе оказывает положительное влияние на интеграцию теоретических знаний с практическими навыками и развитие у студентов способностей критического мышления.

Rəyçi: b/m. G.Abdullayeva

Aynur Miriyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti

10.30546/2518-752X.1.601.0125

DİNLƏYİB-ANLAMA PROSESİNDƏ MÜASİR TƏLİM STRATEGİYALARININ ROLU

Açar sözlər :*audivizual materiallar, multimedia texnologiyaları, motivasiya və interaktivlik, kommunikativ situasiya*

Keywords: *audiovisual materials, multimedia technologies, motivation and interactivity, communicative situation*

Ключевые слова: *аудиовизуальные материалы, мультимедийные технологии, мотивация и интерактивность, коммуникативная ситуация*

Giriş. Müasir dövrdə ingilis dili yalnız əlavə bilik sahəsi deyil, əksər sahələrdə – kompüter texnologiyaları, iqtisadiyyat və siyasət kimi – əsas ünsiyyət vasitəsinə çevrilmişdir. İngilis dili artıq qlobal ünsiyyətin əsas aləti kimi çıxış edir. Bu şəraitdə, müasir dövlət təhsil standartlarında xarici dilin öyrədilməsinin əsas məqsədi kimi kommunikativ kompetensiyanın formalaşdırılması irəli sürülür.

Kommunikativ kompetensiyanın komponentləri

Bu kompetensiya kompleks və inteqrasiyalı bir anlayış olaraq aşağıdakı komponentləri özündə birləşdirir:

Danışıq, dinləmə, oxu və yazı bacarıqları üzrə kommunikativ qabiliyyətlər;

Dil materialına dair biliklər və həmin materialdan istifadə bacarığı – informasiya yaratmaq və onu anlamaq üçün zəruri olan dil vərdişləri;

Ölkəşünaslıq bilikləri – başqa ölkənin reallıqlarını, mədəniyyətini mənimsəmədən kommunikativ kompetensiyanın formalaşdırılması mümkün deyil. Kommunikativ kompetensiyanın əsas tərkib hissələrindən biri kimi ölkəşünaslıq biliklərinin tədrisə daxil edilməsi, şagirdlərin digər xalqların mədəniyyəti və reallıqları ilə tanışlığını artırmaqla yanaşı, onların ümumi dünyagörüşünü genişləndirir, ingilis dilinə marağını artırır və dayanıqlı motivasiya yaradır.

Xarici dilin öyrənilməsində ən mühüm amil dil mühitidir. Digər metodik vasitələr isə yalnız bu dil mühitinin mümkün qədər real və canlı təəssüratını yaratmaq məqsədi daşıyır. Bu vasitələr şagirdlərin təbii dil şəraitinə yaxınlaşdırılması üçün vacib rol oynayır.

Son illər dinləmə bacarığının tədrisi metodistlərin xüsusi diqqət mərkəzinə çevrilmişdir. Elmi-metodik ədəbiyyatda bu mürəkkəb prosesin təhlili və öyrənilməsi sahəsində ciddi araşdırmalar aparılır. Tədqiqatlar göstərir ki, hətta ingilis dilini kifayət qədər yaxşı bilən şəxslər belə təbii danışıq nitqini başa düşməkdə çətinlik çəkirlər. Psixoloji araşdırmalar da göstərir ki, səslənən nitqin qavranılması və başa düşülməsi mürəkkəb psixi fəaliyyətdir.

Beləliklə, dinləyib-anlama bacarıqları arasında ən çətinlərindən biri hesab olunur və müasir metodistlərin fikrincə, bu bacarıq digər dil bacarıqlarından daha yüksək səviyyədə inkişaf etdirilməlidir. Çünki danışıq və dinləmə qarşılıqlı ünsiyyətin əsasını təşkil edir. Ünsiyyət isə iki tərəfli prosesdir – digər şəxslərin dediklərini başa düşmək bacarığı olmadan real ünsiyyət mümkün deyil. Bu həm birbaşa ünsiyyət, həm də telefon, televiziya, radio və digər media vasitələri ilə baş tutan əlaqələrə aiddir.Dinləmənin əhəmiyyətinin qiymətləndirilməməsi, dil hazırlığına mənfi təsir göstərə bilər. Bu bacarığın tədrisi həm də onunla çətinləşir ki, tələbə müxtəlif sürət, intonasiya, qrammatik düzgünlük səviyyəsinə malik nitqləri tam və dərin şəkildə başa düşməyi bacarmalıdır. Danışıq və dinləmə bir-biri ilə sıx bağlı olsa da, hər iki bacarığın tarazlı inkişafı yalnız xüsusi sistemləşdirilmiş təlim vəsaitləri və tapşırıqları vasitəsilə mümkündür. Dinləyib- anlama həm tədrisin məqsədi, həm də təlim vasitəsi kimi çıxış edir. Dərs zamanı bu iki funksiya bir-birini tamamlayır. Dinləmə vasitəsi ilə tələbələr yeni leksik və ünsiyyət materialı ilə tanış olur, həmçinin danışıq, yazı və oxu bacarıqlarını da formalaşdırırlar.

Dinləyib-anlama bacarığının inkişafı üçün metodik yanaşmalar

Dinləyib-anlama bacarığının formalaşdırılması üçün müxtəlif metodik yanaşmalar mövcuddur. Operativ yaddaşın xüsusiyyətləri nəzərə alınaraq, şagirdlərin eşitdikləri informasiya içərisindən əsas olanı ayırd etmə bacarığını inkişaf etdirmək məqsədilə xüsusi tapşırıqlar tətbiq olunur. Bu tapşırıqlar xüsusi adların, coğrafi terminlərin, tarixlərin və rəqəmlərin yadda saxlanmasına yönəldilə bilər. Eyni zamanda, dil təxminləri və ehtimallı proqnozlaşdırma üzərində qurulan üsullar dinləmə prosesində tələbələrin məzmunu qabaqcadan təxmin etməsinə kömək edir. Belə təlim strategiyaları tələbənin növbəti hadisələrin inkişafını öncədən təxmin etməsinə, mətnin ümumi məğzini anlamağa imkan verir. Tədrisdə geniş istifadə olunan və effektiv nəticə verən məşq növlərinə aşağıdakılar daxildir:"Bir paraqrafın məzmununu bir cümlə ilə ifadə et", "Verilən sözləri sinonimlərlə əvəz et", "Aşağıdakı fikirləri parafraz et". Bu cür tapşırıqlar tələbələrin nitqin məzmununu bütövlükdə başa düşmək, təfərrüatları seçmək, önəmli faktları ayırd etmək, sinonimlərlə əvəzləmə, fikri ümumiləşdirmə, təkrar ifadə etmə kimi bacarıqlarını inkişaf etdirir.

Bundan əlavə, tələbələr dinləmə mətnlərinin mənasını anlama strategiyasını təşkil edən kompleks nitq və qeyri-nitq bacarıqlarına yiyələnirlər. Bu strategiyalar çərçivəsində tədris və kompensator (adaptiv) bacarıqlar xüsusi əhəmiyyət daşıyır. Ümumi tədris bacarıqları aşağıdakılardır:

– zəruri və mühüm informasiyanın seçilməsi və ayırd edilməsi;

– informasiyanın müəyyən tədris tapşırığına uyğun şəkildə müqayisə edilməsi və təsnifatı;

– əldə edilən məlumatın ümumiləşdirilməsi və qiymətləndirilməsi;

– eşidilən məlumatın yazılı şəkildə qeyd olunması və s.

Dinləmə bacarığının formalaşdırılması müəllim və tələbə fəaliyyətində ardıcıllığın qorunmasını tələb edir. Bu fəaliyyətə əvvəlcədən verilən təlimatlar, dinləmə tapşırığına hazırlıq mərhələsi, dinləmə prosesinin özü və başa düşülən məzmunun yoxlanılması mərhələsi daxildir. Kommunikativ vəzifə (tapşırıq forması) bu mərhələdə mühüm rol oynayır. Belə tapşırıqlar tələbələrin diqqətini əsas məzmuna yönəldir, onların diqqətini cəmləməyə kömək edir, verilmiş fikirlərin təsdiqi və

ya təkzibinə imkan yaradır. İngilis dilində eşidilən nitqin mənasını anlama bacarığının öyrədilməsi zamanı tələbələrin qarşılaşdığı çətinliklər nəzərə alınmalı və onların aradan qaldırılması məqsədilə uyğun tədris üsulları tətbiq olunmalıdır. Bu çətinliklər aşağıdakılardır:

– naməlum sözlərin və mürəkkəb sintaktik konstruksiyaların başa düşülməsi;
– yüksək tempdə danışıq və müxtəlif danışanların nitqini anlama;
– yalnız bir dəfə təqdim edilən və böyük həcmli audioinformasiya ilə işləmək;
– vizual dəstəyin olmaması və fon maneələrinin mövcudluğu.

Bu çətinliklərin aradan qaldırılması üçün dinləmə və audiovizual mənbələrin geniş tətbiqini nəzərdə tutan müxtəlif məşqlərdən istifadə olunmalıdır.

Diləyib-anlam bacarığının qiymətləndirilməsi.

Dinləyib-anlama bacarığının formalaşdırılması səviyyəsini qiymətləndirmək də xüsusi əhəmiyyət daşıyır. Bu məqsədlə ən geniş yayılmış qiymətləndirmə üsulları aşağıdakılardır:

– mətnə uyğun təsvir və ya illüstrasiya seçmək;
– mətnin plan hissələrini düzgün ardıcıllıqla düzəltmək;
– dinlənilən məlumat əsasında xəritədə marşrutu göstərmək;
– təklif olunan başlıqlar arasında uyğun olanı seçmək;
– mətnin semantik hissələrinin sayını müəyyən etmək;
– dinlənilən mətn üzrə plan tərtib etmək;
– əsas məzmunu müəyyənləşdirmək və ötürmək;
– tam məzmunu təqdim etmək;
– dinlənilən mətnə dair suallara cavab vermək;
– müxtəlif növ test tapşırıqlarını yerinə yetirmək və s.

Dinləmə bacarığının tədrisində istifadə olunan materialların seçimi mühüm metodoloji amildir. Bu zaman danışıq üslubunda qurulmuş, gündəlik qeyri-rəsmi ünsiyyəti əks etdirən autentik materiallara üstünlük verilməlidir. Yazılı mənbə kimi isə müasir xarici dərsliklərdən götürülmüş mətnlər, publisistik və ölkəşünaslıq mövzusunda yazılar, habelə bədii əsərlərdəki dialoqlar və monoloqlar istifadə edilə bilər. Bu mətnlərdə gündəlik danışıq dilinə xas söz və ifadələrin işlədilməsi vacibdir. Belə leksik vahidlər dinləmə prosesindən əvvəl təqdim olunmalı, onların ədəbi ekvivalentləri ilə birgə izahı təmin edilməlidir.

Bundan əlavə, tələbələrə müxtəlif janr və mətn tiplərinin nümunələri təqdim olunmalı, həmin mətnlərin məntiqi-kompozisiya və dil xüsusiyyətlərinin öyrədilməsi təmin edilməlidir. Bu yanaşma tələbələrin müxtəlif formatlı mətnləri daha düzgün və dərin qavramalarına, həmçinin dinləmə prosesində daha məqsədyönlü olmalarına şərait yaradır.Dinləyib-anlama bacarığını formalaşdırmaq üçün tələbələr müxtəlif janr və mətn tiplərində təqdim olunan nitq nümunələri ilə tanış olmalıdırlar. Bu janrlara hekayə, təsvir, məlumatvermə, izah, rəy bildirmə, söhbət, müsahibə, sorğu, sübutetmə, mübahisə və diskussiya daxildir. Bu janrların öyrənilməsi tələbələrin real kommunikativ situasiyalarda istifadə edilən danışıq tiplərinə uyğunlaşmasına, onların semantik və struktur xüsusiyyətlərini mənimsəməsinə şərait yaradır.

Multimedia texnologiyalarının rolu

Nəticə. Yuxarıda deyilənlərə əsasən qeyd etmək olar ki, təhsilin səviyyəsi tələbələrin peşəkar və şəxsi keyfiyyətlərinin, onların səriştə və öyrənmə qabiliyyətinin inkişafında əsas aspektlərindəndir. Onun artmasına müasir informasiya texnologiyaları, xüsusən də elektron informasiya və təhsil mühiti kömək edir. Bu, bir tərəfdən, səriştəli mütəxəssisin hazırlanmasına, digər tərəfdən, yüksək informasiya səriştəsinə və inkişaf etmiş tənqidi təfəkkürə malik şəxsiyyətin formalaşmasına gətirib çıxarır.

Ədəbiyyat:

1. Бадарч, Д. (2013). Информационные и коммуникационные технологии в образовании: монография. Институт ЮНЕСКО по информационным технологиям в образовании.
2. Иашвили, М. В., & Макарова, О. Б. (2014). Использование цифровых лабораторий в школьном и вузовском образовании. Вестник педагогических инноваций, (3/35), 82-85.
3. Сергеева, И. В. (2016). Цифровой педагог в онлайн образовании. Научные труды Института непрерывного профессионального образования, (6/6), 117-122.
4. Шпитцер, М. (2012). Антимозг: цифровые технологии и мозг. АСТ.

Saida Pashayeva

Summary

DIGITAL PEDAGOGY: IMPACT ON EDUCATION AND THE ROLE OF THE TEACHER

The development of technology has an impact on all areas of human activity. Education, which is responsible for the future of the younger generation, cannot lag

behind in its development. As you know, a teacher strives to provide high-quality knowledge and skills that would enable graduates of educational institutions to meet the requirements of the time. The article discusses the possibilities and capabilities of digital pedagogy, which can improve the quality of education.

The goal of any pedagogy is to form the necessary knowledge and skills in learners, and the goal of 21st century pedagogy is to develop the knowledge and skills needed in a rapidly changing digital society.

Despite the fact that today we continue to defend the value of progressive pedagogy, on the other hand, it is now clear to everyone that now no one can predict what skills will be needed for a successful person in at least five years. It is known that technology is developing rapidly. Therefore, the concept of "21st century skills" appeared, which expresses precisely this problem area.

Саида Пашаева

Резюме

ЦИФРОВАЯ ПЕДАГОГИКА: ВЛИЯНИЕ НА ОБРАЗОВАНИЕ И РОЛЬ ПЕДАГОГА

Развитие технологий оказывает влияние на все сферы деятельности человека. Образование, отвечающее за будущее подрастающего поколения, не может отставать в своем развитие. Как известно, преподаватель стремиться дать качественные знания и навыки, которые давали бы возможность выпускникам учебных заведений соответствовать требованиям времени. В статье рассматриваются возможности и способности цифровой педагогики, способной улучшить качество образования.

Цель любой педагогики – сформировать у обучающихся необходимые знания и навыки, а цель педагогики XXI века – развить знания и навыки, востребованные в быстро меняющемся цифровом обществе.

Несмотря на то, что сегодня мы продолжаем отстаивать ценность прогрессивной педагогики, с другой стороны, теперь всем ясно, что никто не может предсказать, какие навыки понадобятся успешному человеку как минимум через пять лет. Известно, что технологии стремительно развиваются. Поэтому и появилось понятие «навыки XXI века», которое выражает именно эту проблемную область.

Rəyçi: dos. V.Bəşirov

Sevda Xaspoladova
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.0135

AZƏRBAYCANDA İKT-nin TƏHSİLƏ İNTEQRASİYASI: İNKİŞAF DİNAMİKASI VƏ PERSPEKTİVLƏR

Açar sözlər: *İnformasiya-kommunikasiya texnologiyaları (İKT), interaktiv tədris materialları, elektron dərsliklər, süni intellekt, təhsil*

Keywords: *Information and communication technologies (ICT), interactive educational materials, electronic textbooks, artificial intelligence, education*

Ключевые слова: *Информационно-коммуникационные технологии (ИКТ), интерактивные учебные материалы, электронные учебники, искусственный интеллект, образование*

Giriş. Azərbaycanda İKT-nin inkişafı ilə bağlı mühüm qanunvericilik bazası formalaşdırılmış və bu sahədə bir sıra dövlət proqramları qəbul edilmişdir. 1998-ci ildə qəbul edilmiş "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun ölkədə informasiya texnologiyalarının hüquqi əsaslarını müəyyən edən ilk sənədlərdən biri olmuşdur. Daha sonra İKT-nin təhsilə inteqrasiyasını gücləndirmək məqsədilə "2008-2012-ci illərdə təhsildə İKT-nin inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmişdir [2]. Bu proqram çərçivəsində ümumtəhsil məktəbləri kompüter və digər texnoloji avadanlıqlarla təmin olunmuşdur. Bundan sonra "Elektron Azərbaycan" və "Elektron hökumət" kimi layihələr də dövlət tərəfindən dəstəklənmişdir. Bu təşəbbüslər Azərbaycanın təhsil sistemində rəqəmsal transformasiyanın başlanğıcı oldu və sonrakı illərdə daha da müasir yanaşmalarla davam etdirildi. Hazırda isə təhsil sahəsində süni intellekt, rəqəmsal platformalar və distant təhsil imkanlarının genişləndirilməsi məsələləri aktuallıq daşıyır. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan respublikasının sosial-iqtisadi inkişaf strategiyası uğurla davam etdirilmiş və yeni çağırışlara uyğun modernləşdirilmişdir. Xüsusilə, iqtisadiyyatın diversifikasiyası, innovativ texnologiyaların tətbiqi və rəqəmsal transformasiya sahəsində ciddi addımlar atılmışdır. **"Rəqəmsal Azərbaycan"** konsepsiyası çərçivəsində elektron hökumət sisteminin genişləndirilməsi, startap ekosisteminin inkişafı və süni intellektin tətbiqi istiqamətində mühüm layihələr həyata keçirilir. Prezident İlham Əliyevin müəyyən etdiyi texnologiyaya əsaslanan iqtisadi model və informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı Azərbaycanın dayanıqlı inkişafını təmin edən əsas amillərdəndir. İKT-nin təhsil sektoruna inteqrasiyası biliklərin əlçatanlığını artırır, innovativ öyrənmə metodlarını tətbiq etməyə imkan yaradır və rəqəmsal iqtisadiyyatın inkişafına töhfə verir. Bu istiqamətdə həyata keçirilən strategiyalar ölkənin qlobal rəqabət qabiliyyətini artırmaqla yanaşı, müasir texnologiyalara əsaslanan cəmiyyətin formalaşmasına şərait yaradır.

Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, elm və təhsilin İKT ilə inteqrasiyası iqtisadi artımı sürətləndirir, cəmiyyətin sosial rifahını yüksəldir və innovativ düşüncə tərzini formalaşdırır. Azərbaycan Respublikasında İKT-nin inkişafı üzrə dövlət siyasəti beynəlxalq təcrübəyə əsaslanır. Bu sahədə "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Rəqəmsal Azərbaycan" və "Elektron hökumət" kimi strateji proqramlar həyata keçirilir. Xüsusilə, təhsil sektorunda rəqəmsallaşmanın genişləndirilməsi, "ağıllı məktəblər" modelinin tətbiqi və distant təhsil imkanlarının artırılması göz önündədir. Son illərdə ölkədə **rəqəmsal transformasiya, innovasiya ekosisteminin inkişafı və iqtisadiyyatın diversifikasiyası** istiqamətində mühüm addımlar atılmışdır. Xüsusilə, **"Rəqəmsal Azərbaycan"** strategiyası çərçivəsində e-hökumət xidmətlərinin genişləndirilməsi, süni intellekt və "big data" analitikası kimi texnologiyaların tətbiqi diqqət mərkəzindədir [1].

Müasir dövrdə informasiya texnologiyalarının (İT) tədris prosesinə inteqrasiyası təkcə təhsilin keyfiyyətini artırmaqla qalmır, eyni zamanda öyrənənlərin **fərdi inkişafını**, **yaradıcılıq qabiliyyətlərini** və **məntiqi təfəkkürünü** də formalaşdırır. Xüsusilə **rəqəmsal resursların** (e-dərsliklər, interaktiv tədris platformaları, virtual laboratoriyalar və s.) geniş istifadəsi, tədris prosesini **maraqlı, innovativ və daha əlçatan** edir. Bundan əlavə, qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, **adaptiv öyrənmə texnologiyaları** fərdi yanaşma üçün yeni imkanlar yaradır. İKT-nin təhsildə tətbiqi ilə bağlı əsas üstünlüklərə nəzər yetirək:

– ***Fərdiləşdirilmiş təhsil****. Hər bir tələbənin fərdi potensialına uyğun material təqdim edir.*

– ***Müəllim-tələbə interaktivliyi****. Daha çevik və səmərəli ünsiyyət qurmağa kömək edir.*

– ***Biliklərin vizuallaşdırılması****. Çətin mövzuların izahını sadələşdirir və daha anlaşılan edir.*

– ***Tədqiqat və yaradıcı düşüncənin inkişafı****. Tələbələrə müstəqil araşdırmalar aparmaq və kreativ həllər tapmaq imkanı yaradır.*

Bu baxımdan, Azərbaycanın təhsil sistemində də **tədrisin rəqəmsallaşdırılması**, **STEM (STEAM) yanaşmalarının tətbiqi** və **təhsil proqramlarının qabaqcıl dünya standartlarına uyğun yenilənməsi** xüsusi əhəmiyyət kəsb edir [5]. Qeyd etdiyimiz bu üç əsas məqam İKT-nin tədris prosesinə inteqrasiyasının çoxşaxəli və dinamik bir proses olduğunu göstərir. İKT inteqrasiyasının dəqiq tərifinin olmaması, həm nəzəri yanaşmaların müxtəlifliyi, həm də texnologiyanın inkişaf sürəti ilə əlaqədardır. Bu səbəbdən, təhsildə İKT-nin tətbiqi ilə bağlı tədqiqatlar fərqli modellər və yanaşmalar çərçivəsində aparılır. Təhsil sistemində İKT-nin tətbiqini çətinləşdirən əsas problemlərin həlli yolları üçün aşağıdakı strategiyaları təklif oluna bilər:

1. Müəllimlərin rəqəmsal bacarıqlarının artırılması:

– *Müəllimlər üçün davamlı peşəkar inkişaf proqramları təşkil edilməli;*

– *Rəqəmsal texnologiyalardan istifadə bacarıqlarını inkişaf etdirmək üçün interaktiv təlimlər keçirilməli;*

– *İnnovativ pedaqoji metodların mənimsənilməsinə dəstək verilməlidir.*

2. Təhsil proqramlarının uyğunlaşdırılması:

– *Mövcud kurikulumların İKT-nin inteqrasiyasına uyğun şəkildə yenilənməsi;*

– *Rəqəmsal tədris materiallarının hazırlanması və istifadəyə verilməsi;*

– *Tələbələrin fərdi öyrənmə tərzlərinə uyğun texnoloji həllərin tətbiqi təmin edilməlidir.*

3. İnfrastrukturun təkmilləşdirilməsi:

– *Məktəblərdə internet bağlantısı və texnoloji avadanlıqların əlçatan olması təmin edilməli;*

– *İKT-nin istifadəsi üçün lazımi texniki dəstək və resurslar yaradılmalı;*

– *Bulud texnologiyaları və virtual sinif platformalarının istifadəsi genişləndirilməlidir.*

4. İnteqrasiya modellərinin lokal adaptasiyası:

– *Hər bir təhsil sisteminə uyğun model seçilməli və tətbiq olunmalı;*

– *SAMR, TPACK, TIM kimi modellərdən ən uyğun olanı müəyyən edilməli və tətbiq olunmalı;*

– *Beynəlxalq təcrübədən istifadə edərək, yerli reallıqlara uyğun innovativ yanaşmalar inkişaf etdirilməlidir.*

5. Adaptiv və çevik siyasətlərin tətbiqi:

– *Təhsil siyasəti yeni texnologiyalara uyğunlaşacaq şəkildə çevik olmalı;*

– *İKT-nin tətbiqi ilə bağlı davamlı monitorinq aparılmalı və inkişaf strategiyaları hazırlanmalı;*

– *Yeniliklərə açıq təhsil strategiyaları ilə təhsil müəssisələri arasında uğurlu təcrübələr paylaşılmalıdır.*

Yuxarıda qeyd etdiyimiz həllər İKT-nin təhsil sisteminə uğurla inteqrasiyasını təmin edərək daha səmərəli və innovativ bir öyrənmə mühiti yaratmağa kömək edə bilər. Texnologiya-təhsil əlaqəsinin **dinamik və çoxölçülü** olması bu prosesin **mənşəyini, əsas faktorlarını və inkişaf trayektoriyasını** araşdırmağı vacib edir. İKT-nin təhsilə inteqrasiyasının haradan qaynaqlandığını müəyyən etməklə **səmərəli tətbiq yollarını**, **ən yaxşı təcrübələri** və **mümkün çağırışları** daha dəqiq analiz etmək mümkündür. İKT-nin təhsilə inteqrasiyası **müxtəlif mərhələlərdə formalaşmış və inkişaf etmişdir**:

1. **Ənənəvi təhsildən rəqəmsal təhsilə keçid –** XX əsrin sonlarında kompüterlərin və multimedia vasitələrinin tədrisdə istifadəsi ilə başlamışdır.

2. **İnternetin təhsilə təsiri –** Onlayn resurslar, elektron kitablar və açıq təhsil resursları bu mərhələdə tədrisə daxil edilmişdir.

3. **Mobil texnologiyalar və adaptiv öyrənmə –** Planşetlər, interaktiv lövhələr və süni intellekt dəstəyi ilə fərdiləşdirilmiş öyrənmə modellərinin inkişafı ilə bağlıdır.

4. **Süni intellekt və rəqəmsal transformasiya –** Təhsil texnologiyaları **süni intellekt, virtual reallıq və böyük verilənlər (Big Data)** kimi sahələrə inteqrasiya olunmağa başlamışdır.

İKT-nin təhsilə inteqrasiyasının **mənbəyini və inkişaf istiqamətini** anlamaq, bu sahədə **uğurlu strategiyalar hazırlamaq** və **təhsil sistemini rəqəmsal dövrün tələblərinə uyğun qurmaq** üçün vacibdir. Azərbaycanda da bu sahədə ciddi addımlar atılmaqdadır və rəqəmsal transformasiya strategiyası təhsilin keyfiyyətini yüksəltmək üçün vacib amillərdən biridir. **İKT-nin təhsilə inteqrasiyası** sadəcə texnologiyadan istifadə etmək deyil, onun **öyrənmə prosesini effektivləş-**

dirməsinə və dərinləşdirməsinə necə təsir etdiyini anlamaqdır. **İKT-nin təlim və tədrisə inteqrasiyasını təsir edən** faktorları üç əsas kateqoriyaya bölmək olar:

– **Texnoloji amillər** → *İnfrastruktur, internetə çıxış, avadanlıqların əlçatanlığı və proqram təminatı.*

– **Pedaqoji amillər** → *Müəllimlərin rəqəmsal bacarıqları, təlim metodologiyaları və İKT-dən düzgün istifadənin öyrənilməsi.*

– **Psixoloji və sosial amillər** → *Tələbələrin texnologiyaya adaptasiyası, motivasiya və öyrənmə yanaşmaları.*

İKT təlim prosesinə müxtəlif formalarda inteqrasiya edilə bilər:

– **Əlavə model –** texnologiya ənənəvi dərsləri dəstəkləyən əlavə vasitə kimi istifadə olunur.

– **Transformativ model –** İKT öyrənmənin mərkəzi hissəsinə çevrilir və öyrənmə metodlarını dəyişdirir.

– **Fərdiləşdirilmiş model –** Süni intellekt və adaptiv öyrənmə texnologiyalarından istifadə etməklə tələbələrin fərdi ehtiyaclarına uyğunlaşdırılır [4].

Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının (İKT) təhsilə inteqrasiyası son illərdə sürətli inkişaf yolu keçmişdir. Dövlət proqramları və strateji təşəbbüslər sayəsində rəqəmsal təhsil mühiti formalaşdırılmış, məktəblər müasir texnologiyalarla təchiz edilmiş və onlayn təhsil imkanları genişlənmişdir. Bu sahədə "Elektron hökumət", "Rəqəmsal Azərbaycan" və "Ağıllı məktəb" konsepsiyaları təhsil sistemində innovativ yanaşmaların tətbiqini təşviq etmişdir [2]. Bununla belə, İKT-nin təhsil sistemində tam inteqrasiyası üçün hələ də həll olunması vacib olan məsələlər mövcuddur. Rəqəmsal bacarıqların artırılması, müəllimlərin İKT biliklərinin inkişaf etdirilməsi, regional məktəblərin texnoloji təminatının gücləndirilməsi və süni intellekt əsaslı fərdiləşdirilmiş tədris modellərinin genişləndirilməsi bu istiqamətdə əsas prioritetlərdən hesab olunur. Gələcəkdə İKT-nin daha geniş miqyasda tətbiqi ilə Azərbaycan təhsil sistemi beynəlxalq standartlara uyğunlaşacaq, öyrənmə prosesinin effektivliyi artacaq və ölkənin rəqəmsal transformasiya strategiyasına mühüm töhfə verəcəkdir. Bu inkişaf, həmçinin təhsil-alanların XXI əsrin tələblərinə cavab verən bilik və bacarıqlara yiyələnməsinə imkan yaradacaqdır.

Elmi yeniliyi. Tədqiqat Azərbaycan təhsil sistemində İKT-nin inteqrasiyasının nəzəri və praktiki aspektlərini birləşdirərək yeni konseptual yanaşma təqdim edir. Rəqəmsal texnologiyaların fərdiləşdirilmiş öyrənmə, müəllim-tələbə interaktivliyi, biliklərin vizuallaşdırılması və yaradıcı düşüncənin inkişafı imkanlarını sistemli şəkildə nəzərdən keçirir. Həmçinin "Ağıllı məktəb", "Rəqəmsal Azərbaycan" və süni intellekt əsaslı tədris modellərinin tətbiqi üçün metodoloji əsasları müəyyən edir.

İşin aktualığı. Müasir dövrdə İKT təhsildə yalnız texnologiya istifadəsi deyil, öyrənmə prosesinin effektivliyini artırmaq, fərdi inkişafı və yaradıcılığı təmin etmək baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycanın rəqəmsal transformasiya strategiyası çərçivəsində İKT-nin təhsilə inteqrasiyası ölkənin innovativ inkişafına və beynəlxalq standartlara uyğun təhsil sisteminin formalaşmasına töhfə verir.

Nəticə. Tədqiqat göstərir ki, İKT-nin inteqrasiyası təhsilin keyfiyyətini yüksəldir, öyrənənlərin fərdi və yaradıcı bacarıqlarını inkişaf etdirir və təhsil müəssi-

sələrində innovativ öyrənmə mühitinin yaradılmasına imkan verir. Rəqəmsal bacarıqların artırılması, müəllimlərin təlim kompetensiyasının gücləndirilməsi və adaptiv öyrənmə modellərinin tətbiqi İKT-nin səmərəli istifadəsinin əsas təminatıdır.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası,* Bakı, 2013
2. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. *2022-2026-cı illər üçün rəqəmsal transformasiya strategiyası.* Bakı, 2022
3. Əliyev, A., Məmmədova, S. *Təhsildə innovativ texnologiyalar və onların tətbiqi.* Bakı: Təhsil Nəşriyyatı, 2021
4. Anderson, J., Weert, T. "*Information and Communication Technology in Education: A Curriculum for Schools and Programme of Teacher Development".* UNESCO Publishing, 2002
5. OECD. *Digital Education Outlook 2021: Pushing the Boundaries with AI, Blockchain, and Robots.* OECD Publishing, 2021
6. Voogt, J., Knezek, G. *Technology Integration in Education: International Perspectives.* Springer, 2018
7. UNESCO. *ICT in Education: A Global Perspective on Teaching and Learning Technologies.* Paris: UNESCO Publishing, 2020
8. http://www.anl.az/down/meqale/kitabxanashunasliqbiblioqrafiya/2_2014/663.htm
9. https://unec.edu.az/application/uploads/2022/04/Babayev-S-yyad-M-bariz.pdf
10. http://anl.az/down/meqale/palitra/2016/sentyabr/504919.htm
11. https://www.nmi.edu.az/wp-content/uploads/2024/05/Kurikulum-2019.pdf

Sevda Khaspoladova

Summary

INTEGRATION OF ICT INTO EDUCATION IN AZERBAIJAN: DEVELOPMENT DYNAMICS AND PROSPECTS

In modern times, the integration of information and communication technologies (ICT) into education is one of the main factors ensuring that the learning process is more effective and innovative. The application of ICT in education includes various tools such as multimedia resources, digital teaching materials, online courses, virtual laboratories and interactive textbooks. These technologies allow students to participate more actively in the learning process, increase their knowledge with an individual approach and develop practical skills. However, the effective application of ICT depends on a number of important factors. First of all, the establishment of technological infrastructure is one of the main conditions. Educational institutions should be provided with fast internet connection, modern computer equipment and digital resources. The second important factor is to increase the digital skills of teachers and students. Teachers should be involved in relevant trainings to effectively apply new technologies, and students should develop their skills in using digital resources. In addition, it is important to align educational programs with technology. Matching digital technologies with content, applying interactive and adaptive learning methods ensures that the educational process is more interesting and effective. At the same time, pedagogical approaches should also be changed, and traditional educational models should be combined with technological innovations. A strategic approach is required for the purposeful and effective use of ICT in education. State policies and educational strategies should support development in this area, and educational institutions should be encouraged to implement innovative

technologies. As a result of implementing these steps, the education system can become a model that provides more flexible, inclusive and personalized learning opportunities.

Севда Хасполадова

Резюме

ИНТЕГРАЦИЯ ИКТ В ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ: ДИНАМИКА РАЗВИТИЯ И ПЕРСПЕКТИВЫ

В наше время интеграция информационно-коммуникационных технологий (ИКТ) в образование является одним из основных факторов, делающих процесс обучения более эффективным и инновационным. Применение ИКТ в образовании охватывает различные инструменты, такие как мультимедийные ресурсы, цифровые учебные материалы, онлайн-курсы, виртуальные лаборатории и интерактивные учебники. Эти технологии позволяют студентам более активно включаться в процесс обучения, расширять свои знания за счет индивидуального подхода и развивать практические навыки. Однако эффективное внедрение ИКТ зависит от ряда важных факторов. Прежде всего, одним из главных условий является создание технологической инфраструктуры. Образовательные учреждения должны быть обеспечены скоростным интернетом, современной компьютерной техникой и цифровыми ресурсами. Вторым важным фактором является повышение цифровых навыков преподавателей и студентов. Преподаватели должны проходить соответствующее обучение для эффективного внедрения новых технологий, а учащиеся должны развивать свои навыки использования цифровых ресурсов. Кроме того, важно согласовывать образовательные программы с технологиями. Сочетание цифровых технологий с контентом, внедрение интерактивных и адаптивных методов обучения делает образовательный процесс более интересным и эффективным. В то же время необходимо менять и педагогические подходы, а традиционные образовательные модели следует сочетать с технологическими инновациями. Для целенаправленного и эффективного использования ИКТ в образовании необходим стратегический подход. Государственная политика и образовательные стратегии должны поддерживать развитие в этой области, а образовательные учреждения следует поощрять к внедрению инновационных технологий. В результате реализации этих шагов система образования может стать моделью, предлагающей более гибкие, инклюзивные и персонализированные возможности обучения.

Rəyçi: dos. O.Abbasov

Mirshod Uralov
Uzbekistan State World Languages University

10.30546/2518-752X.1.601.0145

FROM ISOLATION TO INTERACTION: DEVELOPING COMMUNICATIVE COMPETENCE IN HOSPITALIZED CHILDREN

Keywords: *hospital pedagogy, hybrid learning, communicative competence, inclusive education, resilience*
Açar sözlər: *xəstəxana pedaqogikası, hibrid öyrənmə, kommunikativ səriştə, inklüziv təhsil, davamlılıq*
Ключевые слова: *госпитальная педагогика, гибридное обучение, коммуникативная компетенция, инклюзивное образование, устойчивость*

Introduction. Hospital pedagogy has emerged as a vital field within inclusive education, ensuring that children undergoing medical treatment are not deprived of their right to learning. Prolonged hospitalization often disrupts academic progress, peer interaction, and emotional development, which can lead to educational and social exclusion if left unaddressed [1, p.1]. Hospital schools, sometimes referred to as *Mehrli maktab* in Uzbekistan, provide specialized instruction tailored to the needs of children with chronic or temporary illnesses. These institutions combine pedagogical expertise with healthcare support, thereby safeguarding continuity in both academic and social development [2, p.143]. In recent years, attention has increasingly shifted toward communicative competence as a central aim of hospital pedagogy. Communicative competence, originally defined by Hymes (1972) as the effective and context-appropriate use of language, has been expanded to include pragmatic, intercultural, and emotional dimensions of interaction. For hospitalized children, the ability to communicate is not only essential for academic success but also for maintaining resilience, building relationships, and navigating healthcare environments [3, p.1123]. Hybrid methods of teaching, which blend in-person and digital modes, have further transformed hospital pedagogy, opening new opportunities for interaction and inclusivity [4, p.45]. This article examines how communicative competence can be cultivated through hospital pedagogy, with a focus on hybrid learning approaches. Drawing on both Uzbek and international scholarship, the study explores the theoretical foundations, inclusive practices, emotional dimensions, teacher roles, healthcare communication, and cultural considerations that shape communicative competence in hospital schools.

Foundations of Communicative Competence. The notion of communicative competence emphasizes the social and functional aspects of language use, extending beyond grammar to include pragmatic and intercultural abilities [5, p.269]. In hospital settings, this competence plays a dual role: it enables children to participate meaningfully in learning while also offering therapeutic support in coping with illness

[1, p.2-3]. Vygotsky's (1978) sociocultural perspective reinforces this view, positioning communication as a medium for both cognitive development and emotional regulation. Research confirms that hospital-based instruction, when designed around interaction and dialogue, promotes self-expression and sustains students' sense of identity during treatment [3, p.138].

Hospital Pedagogy as Inclusive Educational Practice. Hospital pedagogy is fundamentally inclusive, as it ensures that medical conditions do not become barriers to education. International research highlights the importance of flexible curricula, collaborative work between teachers and healthcare staff, and individualized learning plans [4, p.45-62]. In Uzbekistan, the establishment of *Mehrli maktab* represents a localized effort to embed these principles into the national system, reflecting both global commitments and cultural contexts [6, p.1880-1882]. Such practices not only secure academic continuity but also foster social belonging, enabling hospitalized students to maintain a connection with peers and the wider learning community [1, p.4].

Resilience and Social-Emotional Learning (SEL). Hospitalization often exposes children to stress, anxiety, and isolation, making resilience a critical outcome of hospital pedagogy. Integrating social-emotional learning (SEL) into educational programs helps children build emotional regulation, empathy, and social skills [3, p.1123-1138]. Empirical studies suggest that SEL-oriented practices enhance psychological well-being and facilitate reintegration into mainstream schooling after recovery [7, p.9-12]. Teachers in hospital schools contribute to resilience by creating supportive environments where students feel safe to communicate and express themselves. In this way, hospital pedagogy balances academic goals with the emotional and psychological needs of learners.

Teachers' Roles, Professional Development, and Hybrid Learning. Teachers in hospital schools assume multifaceted roles that combine instruction, counseling, and coordination with medical professionals [1, p.3]. Their effectiveness depends on specialized training that develops skills in inclusive pedagogy, empathy, and the use of educational technologies [6, p.1882-1884]. The shift toward hybrid learning, accelerated during the COVID-19 pandemic, has further expanded teachers' responsibilities. Digital tools such as Zoom and Google Classroom allow hospitalized children to remain engaged with lessons and peers despite physical isolation [3, p.1123-1138]. Research from Uzbekistan highlights that hybrid formats not only ensure academic continuity but also strengthen communicative competence through interactive digital tasks [8, p.255-257]. Thus, teacher training and technological adaptation are essential pillars of modern hospital pedagogy.

Communication Insights from Healthcare & Cultural Competence. Effective communication in hospital pedagogy parallels practices in healthcare, where clarity, empathy, and trust are central to patient well-being [9, p.22-28]. Similarly, teachers must adjust communication strategies to meet the linguistic, cognitive, and emotional needs of hospitalized learners. Cultural competence further enhances these interactions, ensuring inclusivity across diverse backgrounds [1, p.1-3]. In Uzbekistan's multilingual and multicultural context, teachers who integrate cultural awareness into their practice foster greater trust and participation among students [10,

p.323-325]. Such cross-disciplinary insights underscore the interdependence of healthcare and education in hospital environments.

Synthesis: Toward Communicative Competence in Hospital Pedagogy. Taken together, the literature demonstrates that hospital pedagogy extends beyond academic support to encompass communicative, emotional, and social dimensions of child development. Building communicative competence involves not only linguistic instruction but also fostering resilience, emotional intelligence, and cultural sensitivity [4, p.45-62]. Uzbek scholarship adds unique perspectives by contextualizing these global insights within the *Mehrli maktab* framework, which integrates inclusivity, digital innovation, and cultural awareness [2, p.143-150]. Overall, communicative competence emerges as both the goal and the mechanism of hospital pedagogy, positioning it as a transformative model of inclusive education.

Research Design. This study employed a qualitative research design to investigate the role of hybrid learning in developing communicative competence among hospital school students. Qualitative methods provide rich, descriptive insights into learners' lived experiences and are especially appropriate in medical and inclusive educational contexts [10, p.323-325]. This design aligns with hospital pedagogy research, which emphasizes individualized learning and the emotional dimensions of education in medical environments.

Participants. The participants consisted of hospital school students and teachers directly engaged in hybrid education. Students were selected through purposive sampling, focusing on those with extended hospitalization or long-term home-based instruction due to chronic illness. They represented various age groups within primary and lower-secondary education.

Teachers were included based on their professional experience in **hospital pedagogy, inclusive education, or blended learning**, ensuring informed perspectives on pedagogy in hybrid settings. This balance of student and teacher voices aimed to create a holistic view of communicative competence development [11, p.273-276].

Data Collection

Data were collected using three complementary methods:

- **Semi-structured interviews**: Conducted with both students and teachers. Student interviews explored self-expression, peer communication, and confidence in hybrid environments. Teacher interviews examined pedagogical strategies, challenges, and digital tool use.
- **Classroom and online observations**: Carried out in hospital classrooms and virtual sessions to capture real-time communication, participation, and engagement strategies.
- **Document analysis**: Lesson plans, instructional materials, and digital platform logs were reviewed to assess how hybrid methods embedded communicative goals.

Data Analysis. Thematic analysis was employed to analyze interview transcripts, observation notes, and documents [12, p.77-101]. Codes were generated to identify recurring themes, which were then grouped into broader categories reflecting aspects of communicative competence: listening, speaking, peer interaction, and digital communication. Triangulation across interviews,

observations, and document analysis strengthened reliability. Findings were also compared with existing literature on hospital pedagogy and hybrid learning.

Ethical Considerations. Strict ethical standards were maintained due to the vulnerability of the study population. Approval was secured from educational and medical authorities. Informed consent was obtained from parents or guardians, and assent was sought from students with age-appropriate explanations. Anonymity and confidentiality were guaranteed, and participants could withdraw at any time. Care was taken to ensure research activities did not interfere with medical treatment or emotional well-being [2, p.143].

Findings. Analysis of interviews, observations, and lesson materials highlighted several consistent themes. First, hybrid learning environments provided hospital school students with greater opportunities for communication compared to traditional bedside or classroom-only models. Students expressed feeling more connected when digital tools allowed them to participate in group discussions, interact with peers, and maintain contact with teachers during extended treatment periods. Teachers reported that hybrid methods made it easier to personalize learning, encourage self-expression, and integrate communication-focused tasks, such as online presentations or collaborative projects.

Observations confirmed that communicative competence – particularly listening and speaking skills – was strengthened when students engaged in both in-person and online interaction. Digital platforms facilitated confidence-building, as shy or withdrawn students often felt more comfortable participating through chat functions or smaller breakout groups. Document analysis further revealed that teachers were intentionally embedding communicative objectives into lesson plans, reflecting a shift from purely academic instruction toward holistic development.

Discussion. These findings resonate with previous studies emphasizing the psychosocial role of hospital pedagogy. Lucas Ávalos (2020) demonstrated that hospital education ensures continuity and supports resilience by fostering social interaction. The current study extends this perspective, showing that hybrid learning adds a new dimension by enabling consistent and flexible communication channels, even when hospitalization isolates students physically.

The results also align with Ernazarova's (2023) emphasis on hospital pedagogy as a tool for inclusive development, where education must address emotional and social needs alongside academic ones. By integrating hybrid tools, teachers were not only preserving continuity but actively cultivating communicative competence as a form of empowerment. This competence is essential for reintegration into mainstream schooling and for maintaining peer relationships, both of which are critical for psychological well-being.

Nevertheless, challenges emerged. Teachers highlighted difficulties related to digital infrastructure, unequal access to devices, and the need for specialized training to effectively design communication-focused hybrid lessons. These challenges mirror broader concerns in hybrid and inclusive education, suggesting that hospital pedagogy must be supported by institutional investment in technology and professional development.

Conclusion. This study demonstrates that hybrid learning methods significantly enhance communicative competence in hospital school contexts by

enabling ongoing interaction, fostering self-expression, and bridging physical isolation. The integration of digital tools allows hospital pedagogy to move beyond continuity of academics, positioning communication as a central outcome of education in medical environments.

Practically, the findings suggest that hospital schools should invest in digital infrastructure, provide teacher training in hybrid methodologies, and design lessons that prioritize communicative goals. Future research may extend these results by examining long-term outcomes of communicative competence, including its role in reintegration to mainstream schooling and broader social participation.

In conclusion, hospital pedagogy, when supported by hybrid learning, not only protects the right to education but also empowers students through communication – a critical skill for resilience, recovery, and lifelong learning.

References:

1. Ávalos, L., & Fernández, M. B. (2021). Teachers of hospital pedagogy: a systematic review. *Paidéia (Ribeirão Preto), 31*, e3139. https://doi.org/10.1590/1982-4327e3139
2. N.B.Goipova (2024). Inklyziv ta'lim. Gospital pedagogika: darslik / N.B.Goipova – Namangan, 143-150 bet.
3. Gajda, M., et al. (2022). *Hospital schools during COVID-19: Teachers' perspective*. International Journal of Inclusive Education, 26(10), 1123–1138.
4. Rodrigues, F., & Mora, L. (2024). Hybrid learning in inclusive education: Developing communicative skills in hospital schools. *International Journal of Educational Technology, 21*(3), 45–62.
5. Hymes, D. (1972a). 'On communicative competence.' In Pride J B & Holmes, J. (eds.) Sociolinguistics. Harmondsworth:Penguin. 269–285.
6. Hakimova, N. (2022). Gospital maktab o'quvchilarini ona tili va adabiyot faniga bo'lgan qiziqishlarini oshirish [Increasing the interest of hospital school students in the study of native language and literature]. *Science and Innovation International Scientific Journal, 1*(8), 1880–1884. https://doi.org/10.5281/zenodo.7441772
7. Musaeva, D. (2025). - "MEHRLI MAKTAB"NING FAOLIYATIDA GOSPITAL TA'LIM. *Technical Science Research in Uzbekistan, 3*(1), 9-12. https://inlibrary.uz/index.php/tsru/article/view/64766
8. Uralov, M. (2025). Gospital maktabda innovatsion ta'lim metodlarining samaradorligi. Xalqaro ilmiy-amaliy anjuman "ta'lim maydoni tendensiyalari: kompetentsiyalar, innovatsiyalar va texnologiyalar", 1(1), 255-257. Https://doi.org/10.5281/zenodo. 15385207
9. Why Children's Hospitals Are Unique and So Essential. (2021). *Hospital Care Review, 12*(4), 22–28.
10. Uralov M.D. (2024). "Gibrid o'qitish metodikasi asosida gospital maktab o`quvchilarining kommunikativ kompetentsiyasini rivojlantirish" "Ilm-fan va innovatsiya 2024" xalqaro ilmiy-amaliy konferentsiya, O`zDJTU, 25.05.2024, Toshkent, B. 232-325.
11. THE ESSENCE OF HOSPITAL PEDAGOGY. (2024). *Web of Humanities: Journal of Social Science and Humanitarian Research, 2*(12), 273-276. https://webofjournals.com/index.php/9/article/view/2778
12. Braun, V., & Clarke, V. (2006). Using thematic analysis in psychology. *Qualitative Research in Psychology, 3*(2), 77-101. https://doi.org/10.1191/1478088706qp063oa

Миршод Уралов

Резюме

ОТ ИЗОЛЯЦИИ К ВЗАИМОДЕЙСТВИЮ: РАЗВИТИЕ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНЦИИ У ГОСПИТАЛИЗИРОВАННЫХ ДЕТЕЙ

Госпитальная педагогика обеспечивает непрерывность образования для детей, проходящих длительное медицинское лечение, помогая им сохранять не только академический прогресс, но и эмоциональную стабильность и социальные связи. Болезнь и госпитализация часто нарушают коммуникацию и взаимодействие, поэтому развитие коммуникативной компетенции является центральной целью госпитального обучения. В последние годы гибридные методы обучения, сочетающие очное и цифровое обучение, открыли новые возможности для поддержки таких учащихся. В исследовании использовался качественный подход, включающий интервью, наблюдения и анализ учебных документов, чтобы изучить, как гибридные методы способствуют развитию коммуникации у школьников, находящихся на лечении. Результаты показывают, что гибридная среда создаёт гибкие каналы взаимодействия, позволяя учащимся оставаться на связи с преподавателями и сверстниками, несмотря на физическую изоляцию. Учителя отмечали, что цифровые инструменты поддерживают индивидуализацию обучения и развитие уверенности, а наблюдения подтверждали улучшение навыков слушания, говорения и совместной работы. При этом сохраняются проблемы, такие как неравный доступ к технологиям и ограниченная подготовка преподавателей. В целом, результаты исследования показывают, что гибридное обучение укрепляет коммуникативную компетенцию, развивает устойчивость и поддерживает инклюзию в госпитальной педагогике. Практические рекомендации включают усиление цифровой инфраструктуры, повышение квалификации учителей и интеграцию коммуникативных целей в учебные программы госпитальных школ.

Mirşod Uralov

Xülasə

TƏCRİDDƏN QARŞILIQLI ÜNSİYYƏTƏ: XƏSTƏXANAYA YERLƏŞDİRİLMİŞ UŞAQLARDA KOMMUNİKATİV KOMPETENSİYANIN İNKİŞAFI

Xəstəxana pedaqogikası uzunmüddətli tibbi müalicə alan uşaqlar üçün təhsilin davamlılığını təmin edir, onlara təkcə akademik tərəqqini deyil, həm də emosional sabitliyi və sosial əlaqələri qorumağa kömək edir. Xəstəlik və xəstəxanaya yerləşdirmə tez-tez ünsiyyət və qarşılıqlı əlaqəni pozur, buna görə də kommunikativ səriştənin inkişafı xəstəxana təhsilinin əsas məqsədidir. Son illərdə əyani və rəqəmsal öyrənməni birləşdirən hibrid tədris metodları bu tələbələri dəstəkləmək üçün yeni imkanlar açıb. Bu tədqiqatda müalicə alan məktəblilərdə hibrid metodların ünsiyyətin inkişafına necə dəstək verdiyini araşdırmaq üçün müsahibələr, müşahidələr və təhsil sənədlərinin təhlili daxil olmaqla keyfiyyətli yanaşmadan istifadə edilmişdir. Nəticələr göstərir ki, hibrid mühit tələbələrə fiziki təcrid olunmalarına baxmayaraq müəllimlər və həmyaşıdları ilə bağlı qalmağa imkan verən çevik qarşılıqlı əlaqə kanalları yaradır. Müəllimlər qeyd etdilər ki, rəqəmsal alətlər öyrənmənin fərdiləşdirilməsini və inamın inkişafını dəstəkləyir, müşahidələr dinləmə, danışma və əməkdaşlıq bacarıqlarında irəliləyişləri təsdiqləyir. Bununla belə, texnologiyalara qeyri-bərabər çıxış və məhdud müəllim hazırlığı kimi problemlər qalmaqdadır. Ümumilikdə, tədqiqatın nəticələri göstərir ki, hibrid öyrənmə kommunikativ səriştəni gücləndirir, davamlılığı inkişaf etdirir və xəstəxana pedaqogikasına daxil olmada inklüzivliyi dəstəkləyir. Praktiki tövsiyələr rəqəmsal infrastrukturun gücləndirilməsi, müəllim hazırlığının təkmilləşdirilməsini və kommunikativ məqsədlərin xəstəxana məktəbi kurikulumlarına inteqrasiyasını özündə ehtiva edir.

PSİXOLOGİYA

Gültəkin İsmayılova
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu

10.30546/2518-752X.1.601.0156

TƏHSİL VƏ ELMİN TƏŞƏKKÜLÜNDƏ PSİXOLOJİ VƏ SOSİAL-KULTUROLOJI YANAŞMALAR

Açar sözlər: *təhsil, elm, inkişaf, şəxsiyyət, qloballaşma*
Keywords: *education, science, development, personality, globalization*
Ключевые слова: *образование, наука, развитие, личность, глобализация*

Giriş. Həm təhsil, həm də elm səviyyəsi cəmiyyətin inkişaf meyarıdır. Elmin inkişafı olmadan insan fəaliyyətinin hər hansı bir sahəsində yeniliklərin meydana çıxması, müvafiq olaraq, onun innovativ inkişafı mümkün deyil. Öz növbəsində, təhsil olmadan cəmiyyətin ixtisaslı kadrlarla təmin edilməsi problemi yaranır. Elmin yaranması cəmiyyətin və mədəniyyətin inkişafının, insanların praktik ehtiyaclarının nəticəsidir. Lakin burada mədəniyyət və sivilizasiyanın elmlə əlaqəsi kontekstində onların əlaqəsi məsələsi aktuallaşır. Elmin mənşəyi mədəni inkişaf kontekstində deyil, sivilizasiyanın formalaşması kontekstində nəzərdən keçirilməlidir, çünki elm yeniliklərlə səciyyələnir, bu da cəmiyyətdə tərəqqi haqqında fikirlərin mövcudluğunu nəzərdə tutur. Təhsil və elm bir insanın şəxsiyyətinin formalaşmasının, davamlı inkişafının və ətraf aləmin dərk edilməsinin, eyni zamanda insan fəaliyyətinin bir formasıdır. Hər hansı bir elmin əsasını sistemləşdirilmiş faktlar, nəzəriyyələr, məntiqi təsdiqlənmiş fərziyyələr, qanunlar, tədqiqat metodları təşkil edir. Elmi biliklərin başqa bir vacib xüsusiyyəti obyektivlikdir, baxmayaraq ki, mədəni həyatda obyektivlik anlayışı şərtlidir. Lakin elm həm dünya haqqında bilik sistemi, həm də ona əsaslanan praktik fəaliyyətdir [4].

Elm və təhsil fərdin və cəmiyyətin inkişafında əsas rol oynayan bir-biri ilə əlaqəli iki anlayışdır. Hər iki istiqamət bir-birinə təsir edir və birlikdə bəşəriyyətin ümumi tərəqqisinə kömək edir. Bu, məktəbəqədər yaşdan başlayaraq elmi səviyyələrə qədər bütün mərhələlərdə yüksək keyfiyyətli tədrisi təmin edəcək effektiv təhsil metodlarının yaradılması zərurətində əks olunur. Elmin inkişafına müxtəlif sahələrdə kadr bazası və mütəxəssislər yetişdirən təhsil sistemi təsir göstərir. Təhsil səviyyəsi nə qədər yüksəkdirsə, elmin inkişafı o qədər intensiv olur, bu da öz növbəsində yeni fikirlər, kəşflər və yenilikləri təmin edir. Öyrənmə prosesi zamanı insanlar lazımi bilikləri əldə edir, öz baxışlarını formalaşdırmağa imkan verən tənqidi düşüncə tərzini inkişaf etdirirlər. Digər tərəfdən, elm birbaşa təhsilə və

mütəxəssislərin biliklərinin artmasına təsir göstərir. Beləliklə, elm və təhsil cəmiyyətin keyfiyyətli inkişafını təmin etmək üçün daim inkişaf edən və bir-birini zənginləşdirən, bir-birindən asılı sahələrdir. Elm və təhsilin inkişafı iqtisadi artım, həyat keyfiyyətinin yaxşılaşdırılması və cəmiyyətdə tənqidi baxışların formalaşması üçün vacibdir. Bütün bunlar elm və təhsili bəşəriyyətin uğurlu gələcəyini inkişaf etdirmək və təmin etmək üçün əsas prioritetlərə çevirir [6].

Bundan əlavə, elm və təhsil iqtisadi inkişafın hərəkətverici qüvvələridir. Əhalinin bilik və bacarıq səviyyəsi ölkənin rəqabət qabiliyyətini və qlobal dəyişikliklərə effektiv uyğunlaşma qabiliyyətini müəyyənləşdirir. Elm və təhsildə irəliləyiş xəstəliklər, enerji və ya qidalanma bərabərsizliyi kimi sosial problemlərin həllinə gətirib çıxarır. Alimlərin elmi tədqiqat və inkişaf nəticələri keyfiyyətli təhsil, səhiyyə, texnologiya və infrastruktur təmin etmək üçün istifadə olunur, bu da insanların həyatını daha yaxşı və təhlükəsiz edir. Təhsil insanlara səhvlərindən nəticə çıxararaq vəziyyəti aydın şəkildə qiymətləndirməyə imkan verən rasional düşüncəni inkişaf etdirir. Bu, yaranan münaqişələri həll etməyə və konstruktiv həll yolları tapmağa qadir olan tolerant, yaradıcı və sivil bir cəmiyyətin formalaşmasına gətirib çıxarır [2].

İnsanın şəxsiyyəti obyektiv və subyektiv, təbii və sosial, daxili və xarici, müstəqil və kortəbii, müəyyən məqsədlərə yönəlmiş, iradə və şüurundan asılı olan çoxsaylı amillərin təsiri nəticəsində formalaşır. Şəxsiyyətin məqsədyönlü inkişafını elmi əsaslarla təşkil edilmiş təlim təmin edir. Tərbiyəni yalnız təsir kimi səciyyələndirən pedaqoqlar P.P.Blonski və A.P.Pinkeviç bunu müəllimlərlə şagirdlərin fəal qarşılıqlı əlaqədə olduğu ikitərəfli proses, şagirdlərin həyat və fəaliyyətinin təşkili, onların sosial təcrübəsinin toplanması kimi təsəvvür etmirdilər. Uşaq onların konsepsiyalarında ilk növbədə təhsil obyekti kimi çıxış edirdi. Müasir təlim konsepsiyasına əsasən, müəllimlə təhsil alan şəxsin sosial qarşılıqlı əlaqələri, onların inkişaf edən münasibətlərini əks etdirir. Müəllimin qarşısına qoyduğu məqsədlər şagird fəaliyyətinin müəyyən nəticəsi kimi üzə çıxır. Bu məqsədlərə nail olmaq prosesi həm də şagird fəaliyyətinin təşkili ilə həyata keçirilir. Müəllimin fəaliyyətinin uğurunun qiymətləndirilməsi yenə də şagirdin şüurunda və davranışında keyfiyyət dəyişikliklərinin nədən ibarət olduğuna əsaslanır [10].

Hər bir proses müəyyən bir nəticə əldə etməyə yönəlmiş müntəzəm və ardıcıl hərəkətlər toplusudur. Tərbiyə prosesinin əsas nəticəsi ahəngdar inkişaf etmiş, sosial cəhətdən fəal şəxsiyyətin formalaşmasıdır. İlk növbədə qeyd etmək lazımdır ki, "təhsil" anlayışı müxtəlif mənalarda işlədilir: gənc nəslin həyata hazırlanması, təşkil olunmuş təhsil fəaliyyəti və s. Amma müxtəlif hallarda "təhsil" anlayışı fərqli mənalar daşıyacaqdır. Xüsusi təşkil edilmiş təhsil fəaliyyətlərindən danışırıqsa, adətən bu fəaliyyət müəyyən bir təsir, inkişaf edən şəxsiyyətə təsir ilə əlaqələndirilir. Məhz buna görə də bəzi pedaqoji dərsliklərdə tərbiyə, ənənəvi olaraq, cəmiyyət tərəfindən müəyyən edilmiş sosial xassələrin və keyfiyyətlərin formalaşdırılması məqsədi ilə şəxsiyyətə xüsusi psixoloji təsir kimi müəyyən edilir. Digər mənbələrdə təhsil şəxsiyyət inkişafının idarə edilməsi kimi şərh olunur. Təhsilin təsiri insanda daxili müsbət reaksiyaya səbəb olur və öz üzərində işləməklə fəaliyyətini stimullaşdırır. Bu təcrübə bir çox nəsil insanların əmək və yaradıcılıq səyləri nəticəsində formalaşdığından, onların müxtəlif əmək, idrak və mənəvi fəaliyyətlərinin nəticələri birgə yaşamaqla müəyyən edilir. Bütün bunlar təhsil üçün çox

əhəmiyyətlidir. Gənc nəsil bu təcrübəni "mənimsəməsi" və öz dəyərlərinə çevirməsi üçün onu bu və ya digər şəkildə təkrarlamalı, zənginləşdirməli, daha da inkişaf etmiş bir formada nəsillərə ötürməlidir. Yalnız öz fəaliyyətinin, öz yaradıcı səylərinin və münasibətlərinin mexanizmləri sayəsində insan sosial təcrübəni və onun müxtəlif struktur komponentlərini mənimsəyir[8].

Təhsil prosesi mədəniyyətin əsas dəyərləri ilə tanışlığı əhatə edir, təlim və təhsili birləşdirir. Bunun nəticəsində idrak subyektinin daxilində istiqamətlənmiş və onun həyat mövqeyinə, dünyagörüşünə, inanclarına, davranış və sosial seçimlərinə təsir edən semantik sfera formalaşmalıdır. Bu davamlı proses onun institusional və qeyri-institusional formaları vasitəsilə, yəni, həm rəsmi təhsil müəssisələri daxilində, həm də onlardan kənarda insanların həyat fəaliyyəti prosesində baş verir. Müasir şəxsiyyət tipinin formalaşması yalnız müəyyən biliklərin ötürülməsi şəklində deyil, həm də şəxsiyyətin inkişafının inteqrativ proses kimi özünü göstərir. O, öyrənmə, yaradıcılıq və axtarış fəaliyyətinin inkişafını nəzərdə tutan komponenti ehtiva edir. Məntiqə, yönəlişlərə, prinsiplərə və standartlara malik olan bu proses kortəbii öyrənmədən fərqli olaraq məqsədyönlüdür [1].

Təhsil insanı sosial və peşəkar rolları yerinə yetirməyə hazırlayır. Elm və texnikada baş verən dəyişikliklər təhsil sistemində elmi-texniki tərəqqinin nailiyyətlərinə əsaslanan dəyişikliklərin zəruriliyini diktə edir. Təhsilin keyfiyyətini və səviyyəsini yüksəltmədən müasir texnologiyalardan səmərəli istifadə etmək, onun davamlı inkişafı və yeni nailiyyətlərin tətbiqi mümkün deyil. Çoxistiqamətli təbiətinə görə elmin tövsiyə etdiyi standartlardan əhəmiyyətli dərəcədə uzaqlaşa bilən özünüinkişaf zonasının müəyyən edilməsi də aktualdır. Bu baxımdan tədqiqatçılar faktiki və potensial təhsil zonalarının mövcudluğunu qeyd edirlər. Elm təhsil prosesinə yönəldilmiş təsiri nəzərdə tutur və zəruri hallarda bütün təlim strukturunun dəyişməsinə səbəb ola bilər. Elmi yanaşmalar tədris prosesinin bütün məzmununu əhatə edir. Təhsil prosesinin öz texnologiyaları mövcuddur, bunlar arasında informasiya texnologiyaları prioritet yer tutur. Elmin təhsil prosesinə təsiri operativ, taktiki, strateji, qlobal səviyyələrin müəyyənləşdirilməsinə gətirib çıxarır. Operativ səviyyə fənnin məntiqinin mənimsənilməsini, taktiki səviyyə başa çatmış fənnlər əsasında məzmunun formalaşmasına cavabdehdir, strateji bilik potensialının şəxsiyyətin daxili semantik quruluşuna inteqrasiyası vəzifələrini qoyur, qlobal səviyyə inteqrativ təhsil prosesinin nəticəsi kimi şəxsiyyətin mahiyyətini göstərir. Müasir təhsil metodları arasında iş oyunları, təlimlər, situasiya kontekstinin təhlili, tipik və atipik vəziyyətlərin öyrənilməsi, kompüter texnologiyaları aktuallaşır [2].

Təhsil dinamik xarakterli prosesdir, belə ki, elmlərin sürətli inkişafı təhsilin məzmununu əhəmiyyətli dərəcədə üstələyir. Hal-hazırda, qloballaşmaya güclü meyllər fonunda, elmi təhsilin şəxsiyyət yönümlü modeli, təhsil prosesində milli və dünyavi mədəni – tarixi ənənələrinə qayıdış müşahidə olunur. Müasir elm, humanitar komponentinin əhəmiyyətli olacağı, tolerantlığa, elmi və humanist məzmunun tarazlaşdırılmasına yönəlmiş təhsil prosesinin modellərinin yaradılmasına yönəlmişdir. Cəmiyyətdəki dəyişikliklər şəxsiyyətin inkişafına yönəlmiş təhsil sistemindəki dəyişikliklərə də səbəb olur. İnkişaf etmiş ölkələrdə ümumi milli məhsulun 5-8%-i təhsil prosesinə yatırılır. Ölkənin inkişaf dərəcəsi həm də əhalinin savadlılıq səviyyəsi və təhsil müəssisələrində vətəndaşların təhsil illərinin orta sayı ilə müəyyən edilir. Müasir təhsil prosesi humanistləşmə ilə xarakterizə olunur,

ona görə də insanları qarşılıqlı anlaşmaya aparan və müxtəlif mədəniyyətləri birbirinə yaxınlaşdıran bir qüvvəyə çevrilə bilər [4].

Təhsilin demokratik və humanist təbiəti onu deməyə əsas verir ki, onun yolunda əsaslı məhdudiyyətlər yoxdur. Bununla birlikdə, müasir təhsil prosesində, xüsusən də kommersiyalaşdırma və bürokratiya kimi çoxsaylı mənfi hadisələri qeyd etmək olar. Təhsil sistemi ziyalıların sosial təbəqəsinin genişlənməsinini, istedadlı, çalışqan şəxsiyyətlərin ən yaxşı nailiyyətləri əsasında bütün cəmiyyətin yeni intellektual səviyyəyə yüksəlməsini təmin edən "sosial lift"ə çevrilməlidir. Müstəqil həyata başlayan şəxs fərdi formalaşma və sosial seleksiya yolundan keçir. Elmin cəmiyyətdəki mədəni funksiyası insanın fəaliyyət və idrak subyekti kimi formalaşması prosesidir. Gündəlik həyata dərindən nüfuz edən, insanların dünyagörüşünün vacib əsasını təşkil edən elmi biliklər, şəxsiyyətin formalaşmasının baş verdiyi sosial mühitin ayrılmaz hissəsinə çevrilmişdir. Sosial tənzimləmə amilinin funksiyası elmin cəmiyyətin ehtiyaclarına təsiridir, rasional idarəetmə üçün zəruri şərt olur. Elm dövrümüzün qlobal problemlərinin (təbii ehtiyatların tükənməsi, atmosferin çirklənməsi, ekoloji vəziyyət və s.) həllində sosial güc funksiyasında özünü göstərir. Təbiətin qorunmasına və insan varlığı üçün ən əlverişli və ahəngdar ekoloji şəraitin təmin edilməsinə yönəlmiş elmin ekoloji funksiyasını da xüsusi qeyd edə bilərik [11].

Müasir təhsil prosesinin əsasında dünyanın elmi mənzərəsi dayanır. Təhsil sahəsinin özü elmi cəhətdən sınaqdan keçirilmiş və tövsiyə olunan metodlara, vasitələrə, məqsədlərə, prinsiplərə əsaslanır. Müasir təhsil sistemi tədris prosesinin subyektlərinin neyrofizioloji, zehni və emosional-iradi fəaliyyət sahəsinin xüsusiyyətlərini nəzərə alan elmi əsaslı yanaşmalardan istifadə edir. Təhsil prosesi fərdin və elmin birləşdiyi başlanğıc sahə, habelə müəyyən bir cəmiyyətdəki həyata hazırlığı və yetkin bir şəxsiyyətin formalaşması kimi çıxış edir. Elmin əsas məqsədi həmişə obyektiv biliklərin sistemləşdirilməsi ilə əlaqəli olduğundan, elmin zəruri funksiyalarının tərkibinə elmin kəşf etdiyi qanunlar əsasında reallıq proseslərinin və hadisələrinin təsviri, izahı və proqnozlaşdırılması daxil edilməlidir. Məşhur ictimai xadim V.İ.Vernadski vurğulayırdı ki, elmin məzmunu dünyanın mənzərəsi ilə elmin yaratdığı elmi nəzəriyyələr, fərziyyələr, modellərlə məhdudlaşmır; əsas məzmun canlı insanların elmi işidir. Elm - elmi cəmiyyətin üzvləri, idrak prosesinin subyektləri arasında müəyyən bir əlaqə sistemi olaraq normalar və dəyərlər toplusuna əsaslanır. Ancaq elmin çox sayda insanın öz peşəsini tapdığı bir qurum olması inkişafın nəticəsidir [7].

Müasir cəmiyyət mürəkkəb, dinamik və ziddiyyətlidir. Məlumat iqtisadi inkişafın əsasını təşkil edən əsas sosial amilə çevrilir Bu, təhsilin ictimai həyatın quruluşundakı yerini kökündən dəyişdirir. Cəmiyyətin dəyişməsi ilə təhsili anlamaq üçün yanaşmalar da dəyişir. Bu gün savadlı bir insan formalaşmış bir dünyagörüşü olan “bilikli bir insan” deyil, həyata hazır olan, müasir mədəniyyətin mürəkkəb problemlərinə sərbəst yönəlmiş, həyatdakı yerini dərk edə bilən bir insandır. Təhsil sistemi yeni nəsillərdə cəmiyyətin hansı nümayəndəsini formalaşdırmaq istədiyini aydın şəkildə ifadə etdiyi zaman öz funksiyalarını səmərəli şəkildə yerinə yetirmiş olur. Ətrafdakı dünya, insan, cəmiyyət dəyişir, buna görə təhsil sistemi də təkmilləşdirilməlidir. İndi dəyişikliklər sürətli baş verir, yaradıcı səriştəni, yenidən

öyrənməyə hazırlığı formalaşdıra bilən davamlı təhsil sisteminin yaranması zərurətə çevrilir [3].

Mövzunun aktuallığı. Mədəni ənənələrin, adətlərin, normaların qavranılmasında yönəlişlər, dəyərlər, dini inanclar mühüm rol oynayır. Bununla birlikdə, onun zəruri və tam şəkildə həyata keçirilməsinə mane olan bir sıra amillər var. Belə amillər, xüsusən də müxtəlif ölkələrin geosiyasi, iqtisadi və hərbi maraqları arasındakı mövcud ziddiyyətlərdir. Buna baxmayaraq, bu şəraitdə də müxtəlif ölkələrin elmi potensiallarının inteqrasiyası prosesi özünü aydın şəkildə göstərir. Bu strukturun formalaşması və işləməsi empirik olaraq daim izlənilir, həmçinin dünyanın bütün inkişaf etmiş ölkələrinin elmi məlumat institutları tərəfindən yaradılan müxtəlif məlumat bazaları şəklində qeyd olunur. Müasir elmi informasiya institutlarının eyni dərəcədə vacib vəzifəsi elmi kommunikasiyaların təhlili əsasında dünya elminin inkişafının ən məhsuldar və perspektivli sahələrini müəyyənləşdirməkdir. Xarakterikdir ki, bu gün yeni, irəliləyən elmi sahələrin yaranması müxtəlif ölkələrin alimləri arasında qeyri-rəsmi koqnitiv kommunikasiya prosesində baş verir [12].

Elm haqqında bibliometrik məlumatlar mühüm **praktik əhəmiyyətə** malikdir, çünki elmin inkişafına nəzarət etmək və bu prosesi idarə etmək üçün istifadə edilə bilər. Xüsusilə, bu, yeni perspektivli elmi istiqamətlərin maliyyələşdirilməsini qabaqlamaq, iştirakçılara lazımi təşkilati və hüquqi dəstək verməklə həyata keçirilir. Bibliometrik məlumatların praktik tətbiqinin vacib sahələrindən biri də şüurlu şəkil-də təşkil olunan informasiyanın lazımi istiqamətdə ötürülməsi prosesi ola bilər. Bu baxımdan, bu gün "informasiyaya sahib olan dünyaya sahibdir" ifadəsinin, daha müasir bir şəkildə belə ifadə etmək olar: "idarəetmənin zirvəsində məlumat haqqında biliyə sahib olanlar durur". Elmi məlumatların sürətli toplanması insana biliklərin inkişafı ilə bağlı mürəkkəb vəzifələr qoyur. Elmdəki innovasiyaların sivilizasiya prinsipləri ilə birləşməsi, biliklərin əldə edilməsi sürəti sivilizasiyanın və dövlətin inkişaf dərəcəsinə təsir edir. Nəhayət, sivilizasiya sistemindəki elm sosial və texniki mühitə keyfiyyətcə təsir edən fəaliyyət sahəsinə çevrilir və bu qədər sürətlə yığılan yeniliklər insanların həyat şəraitinin sürətlə dəyişməsinə səbəb olur. Nəticədə o, yaşayış şəraitinə daimi uyğunlaşma problemi ilə qarşılaşır [5].

Nəticə. Müasir dövrdə dəyişikliklər getdikcə qlobal xarakter daşıyır: sivilizasiya, texnologiyalar inkişaf edir, təbiət dəyişir, insanlar arasında yeni qarşılıqlı əlaqə formaları yaranır. Bu, insandan yalnız peşə fəaliyyəti ilə əlaqəli olmayan yeni xarakter xüsusiyyətləri, universal bilik tələb edir.Bu şəraitdə insan iqtisadi və siyasi həyatın fəal subyekti kimi çıxış edir. Buna görə də, informasiya məkanında sərbəst hərəkət etməli, çevik, təşəbbüskar olmalı, ünsiyyət bacarıqlarına sahib olmalı, şüurlu seçim etməli və bunun üçün məsuliyyət daşımalıdırlar. Müasir dünyada təhsil cəmiyyətin sosial institutlarının, qarşılıqlı şəxsiyyətin formalaşmasında inteqrativ rol oynayır, insan fəaliyyətinin aparıcı motivi kimi çıxış edir, qarşılıqlı əlaqəni, cəmiyyətdə inteqrasiyanı müəyyənləşdirir. Beləliklə, cəmiyyətin inkişaf perspektivləri, sosial və iqtisadi tərəqqi təhsildən asılıdır, buna görə cəmiyyətin ən vacib dəyəri yeni bilikləri mənimsəməyə, bəzən qeyri-standart qərarlar qəbul etməyə qadir bir insandır. Ancaq dünya ilə empatiya qurmaq, onu qiymətləndirmək

qabiliyyətini itirməmək çox vacibdir, buna görə bir insanın ümumi mədəni, fərdi inkişafını təmin etmək lazımdır.

Ədəbiyyat:

1. Бондырева, С. К. (2003). Психолого-педагогические проблемы интегрирования образовательного пространства: Избранные труды (352 с.).
2. Байденко, В. И. (2003). Болонский процесс: структурная реформа высшего образования Европы (128 с.).
3. Вернадский, В. И. (1981). Избранные труды по истории науки. Наука.
4. Гребенкина, Л. К. (2000). Формирование профессионализма учителя в системе непрерывного педагогического образования: Монография. РГПУ.
5. Григорович, Л. А., & Марцинковская, Т. Д. (2003). Педагогика и психология: Учебное пособие для студентов вузов (475 с.). Гардарики.
6. Корнетов, Г. Б. (2004). Теория и практика образования: Учебное пособие (220 с.).
7. Куликов, Л. В. (2009). Психология личности в трудах отечественных психологов (2-е изд., с. 7). Питер.
8. Мовчанюк, С. В. (2006). Образование как социально-культурный феномен. In Научный потенциал студенчества – будущему России (pp. 212). Ставрополь: СевКавГТУ.
9. Павлов, А. К. (n.d.). Образование – ключ к развитию личности: как образование формирует наши ценности, убеждения и мировоззрение. https://infourok.ru/pavlov-a-k-rol-nauki-v-sovremennom-obrazovanii-nauchnaya-statya-5651821.html
10. Крупнов, Ю. В. (Ed.). (2000). Практика персонального образования (pp. 3-20).
11. Роль образования в современном обществе. https://kopilkaurokov.ru/vsemUchitelam/prochee/rol-obrazovaniia-v-sovriemiennom-obshchiestvie
12. Штурба, В. А., & Васильев, С. С. (2009). Образование как социально-культурный феномен. Историческая и социально-образовательная мысль, (1), 32-38.

Gultekin Ismailova

Summary

PSYCHOLOGICAL AND SOCIOCULTURAL APPROACHES IN THE ORGANIZATION OF EDUCATION AND SCIENCE

In the modern era, the systems of science and education develop in close connection with sociocultural and psychological factors. This article examines the changing role of education in the context of globalization, its impact on the formation of personality and the main directions of scientific development. Factors such as multiculturalism, social inequality, motivation and lifelong learning are examined. The contribution of education to the sustainable development of society with a humanistic approach and innovative methods is emphasized.

Гюльтекин Исмаилова

Резюме

ПСИХОЛОГИЧЕСКИЕ И СОЦИОКУЛЬТУРНЫЕ ПОДХОДЫ В ОРГАНИЗАЦИИ ОБРАЗОВАНИЯ И НАУКИ

В современную эпоху системы науки и образования развиваются в тесной связи с социокультурными и психологическими факторами. В данной статье рассмат-

ривается меняющаяся роль образования в условиях глобализации, его влияние на формирование личности и основные направления научного развития. Рассматриваются такие факторы, как мультикультурализм, социальное неравенство, мотивация и обучение на протяжении всей жизни. Подчеркивается вклад образования в устойчивое развитие общества с применением гуманистического подхода и инновационных методов.

Rəyçi: prof. Q.Vəliyev

Müşviq Mustafayev
Bakı Dövlət Universiteti

Şəfəq Şahmməmədova
Azərbaycan Dillər Universiteti

Ramin Allahverdiyev
Bakı Dövlət Universiteti
Respublika Narkoloji Mərkəzi

Aytac Zeynalova
Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi

10.30546/2518-752X.1.601.0167

PSİXOAKTİV MADDƏ ASILILARININ MÜALİCƏSİNDƏ PSİXOTERAPEVTİK YANAŞMALAR

Açar sözlər: *Narkomaniya, alkoqolizm, psixoterapiya, asılılıq, komorbid xəstəliklər, psixotik pozuntu, psixi sağlamlıq, reabilitasiya, resosializasiya*
Keywords: *Drug addiction, alcoholism, psychotherapy, addiction, comorbid diseases, psychotic disorder, mental health, rehabilitation, resocialization*
Ключевые слова: *Наркомания, алкоголизм, психотерапия, наркомания, коморбидные заболевания, психотическое расстройство, психическое здоровье, реабилитация, ресоциализация*

Giriş. Narkomaniya və alkoqolizm həm fiziki, həm də psixoemosional səviyyədə özünü göstərən, davranış və psixi pozuntulardır. Formalaşmış asılılıq adətən şəxsiyyətin müəyyən inkişaf mərhələlərində yol verilən müxtəlif boşluqların nəticəsində meydana gəlir. Sonradan davranış şablonuna çevrilən bu boşluqlar məktəbdən, ailədən, ümumilikdə cəmiyyətdə irəli gəlmiş mənfi təcrübə ola bilər. Narkotik asılılığı olan xəstələrin reabilitasiya problemlərinin həllinə sistemli yanaşma tibbi, psixoloji və sosial aspektləri özündə birləşdirən metodoloji reabilitasiya konsepsiyasının işlənib-hazırlanmasını, təkmilləşdirilməsini və praktikada tətbiqini nəzərdə tutur. Bu işdə ən mühüm vəzifələrdən biri də narkoloji müalicə və profilaktika müəssisələrində (ambulatoriyalarda, stasionarlarda, mərkəzlərdə, terapevtik cəmiyyətlərdə və s.) psixoterapevtik metodlardan istifadə edilməsi ilə reabilitasiya proqramlarının tətbiqidir. Psixoterapevtik texnologiyaların effektivliyi xəstələrin fəaliyyət göstərdiyi xüsusi sosial-psixoloji (psixoterapevtik) və müvafiq olaraq reabilitasiya mühitinin yaradılmasından asılı olduğu kimi, həm də psixoterapevtik reabilitasiya proqramlarında iştirak edən şəxslərin seçilməsindən asılıdır. Metodiki tövsiyələrdə narkoloji müalicə-profilaktika müəssisələrində nar-

koloji xəstələrin reabilitasiya sistemində psixoterapevtik texnologiyaların istifadə xüsusiyyətləri ətraflı izah edilmişdir.

Problemin təhlili əsasında təqdim edilən metodiki tövsiyələrdə narkoloji xəstələrin psixoterapevtik reabilitasiyasının tibbi və təşkilati aspektləri nəzərə alınaraq, elmi-praktiki əsasların sistemli işlənib-hazırlanması təklif edilir. Narkotik asılılığı olan xəstələrin şəxsiyyət xüsusiyyətləri, asılılıq formalaşmasının psixoloji mexanizmləri və narkoloji xəstələr üçün nəzərdə tutulan psixoterapiyanın əsas metodları izah edilir. Həmçinin metodiki tövsiyələrdə asılılığı olan və narkoloji müalicə keçən xəstələr üçün müxtəlif müalicə-reabilitasiya mühitlərinin yaradılması prinsipləri təqdim edilmişdir. Təklif olunan prinsiplər narkoloji müəssisələrin müalicə-reabilitasiya mühiti şəraitində müalicə və reabilitasiyaya fərqli yanaşmanı həyata keçirməyə imkan verir [8].

Metodiki tövsiyələr psixiatr-narkoloq həkimlər, psixiatr həkimlər, psixoterapevt həkimlər, tibbi (klinik) psixoloqlar və ixtisaslaşmış narkoloji müalicə-profilaktika müəssisələrində və reabilitasiya mərkəzlərində çalışan sosial iş üzrə mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

İXTİSARLARIN SİYAHISI VƏ ƏSAS ANLAYIŞLAR

İxtisarların siyahısı:
MRM-müalicə-reabilitasiya mühiti
PAM-psixoaktiv maddə
PST-psixososial tədbir
MPM-müalicə-profilaktika müəssisəsi

Narkomaniya (narkotik maddə istifadəsinə meyl)-təhlükəli nəticələrə baxmayaraq, narkotik maddəyə qarşı qarşısıalınmaz meyllilik və narkotik qəbuluna nəzarətin zəifləməsidir. Narkomaniya diaqnozu xəstəliyin klinik əlamətləri mövcud olduqda qoyulur: narkotik maddələrdən müntəzəm istifadə və onlara qarşısıalınmaz meyllilik, bu narkotikin təsirinə orqanizmin dəyişmiş reaktivliyinin formalaşmış sindromu (müdafiə reaksiyaları, tolerantlıq, istifadə forması, sərxoşluq forması, psixoloji asılılıq sindromu, obsessiv meyllilik, intoksikasiya zamanı psixoloji rahatlıq, fiziki asılılıq sindromu, kompulsiv meyllilik, dozaya nəzarətin itirilməsi, abstinensiya sindromu, intoksikasiya zamanı fiziki narahatlıq).

Psixoterapiyadan narkoloji xəstəliklərin müalicəsində reabilitasiya tədbirləri kompleksində istifadə olunur. Narkologiyada reabilitasiya dedikdə, xəstənin fiziki və psixoloji vəziyyətini bərpa etməyə, onun sosial qəbul edilə bilən davranış, şəxsiyyət və sosial keyfiyyətlərini düzəltməyə, bərpa etməyə və ya formalaşdırmağa, mühitə uyğunlaşma qabiliyyətini bərpa etməyə, narkotik maddələrdən, narkoloji xəstəlik yaradan psixoaktiv maddələrdən istifadə etmədən cəmiyyətdə tam işləmə qabiliyyətini əldə etməyə yönəlmiş tibbi (müalicəvi), psixoloji, sosial, təhsil və əmək tədbirlərinin məcmusu nəzərdə tutulur [6].

Narkologiyada reabilitasiya müalicənin ən erkən mərhələlərində, xəstənin tibb işçiləri ilə ilk təmasından başladığı üçün fizioterapevtik və psixososial təsirlə, dərmanlarla müalicə ilə ayrılmazdır və müalicə texnologiyaları (dərman, fizioterapevtik və s.), öz növbəsində, reabilitasiyanın bütün mərhələlərində istifadə olunur.

Narkotik asılılığının əmələ gəlməsinin etiopatogenetik mexanizmləri haqqında müasir anlayışlar.

Nəzəriyyəçilər insanlarda psixoaktiv maddələrdən (PAM) asılılığı və onların istifadəsinin yaranma səbəblərini sosial-mədəni, bioloji və psixoloji aspektlər kimi müxtəlif baxış bucaqlarından izah edirlər. Lakin bu yanaşmaların heç biri araşdırmalar üzərindən dəqiqliklə təsdiqlənməmişdir. Bir çox digər xəstəliklər kimi, psixoaktiv maddələrdən aşırı və davamlı istifadə daha çox bütün bu faktorların qarşılıqlı təsirinin nəticəsi kimi qəbul edilir.

Sosial amillər arasında cəmiyyətin iqtisadi inkişaf səviyyəsini, infrastrukturun səviyyəsini, cəmiyyətdə narkotik istifadəsinin yayılmasını və s. bu kimi amilləri qeyd etmək olar. Sosial-mədəni mövqedən PAM istifadəsi və onlara qarşı asılılığın yaranma səbəbləri müxtəlif cəmiyyət təbəqələrindən və mədəniyyətlərdən olan insanların maddə istifadəsinin müqayisə edildiyi geniş araşdırmalarla təsdiqlənmişdir. Lakin digər psixi xəstəliklərdə olduğu kimi, sosial-mədəni baxış bucağı əlverişsiz sosial şəraitlə üzləşən insanların yalnız bir qismində PAM istifadəsi və asılılıqla bağlı pozuntuların inkişaf etdiyinin səbəbini izah edə bilmir.

Bioloji amillər ailənin psixopatoloji yüklülüyü və «bioloji meyllilik»lə sıx əlaqəlidir. Asılılıq formalaşmasının bioloji mexanizmlərinin öyrənilməsində PAM istifadəsi zamanı klinik simptomların oxşarlığını vurğulamış A.İ.Anoxinanın əhəmiyyətli rolu olmuşdur. Belə ki, narkotik qəbulu güclü katexolamin ifrazına səbəb olur. Narkotiklərdən davamlı istifadə isə neyromediator ehtiyatlarının tükənməsinə, "məntiqsizliyin" yaranmasına səbəb olur ki, bu da psixoloji asılılıq sindromunun ifadə olunmasını şərtləndirir. Qandakı dopamin səviyyəsi abstinensiya sindromunun şiddəti ilə mütənasibdir. Narkotiklərə qarşı uzun müddət davam edən patoloji meylliliyin əsası da məhz dopamin çatışmazlığıdır ki, bu da, nəticə etibarilə, təkrarlama ehtimalının yüksəlməsinə gətirib çıxarır [7].

Narkotiklərin insan orqanizminə, həyat fəaliyyətinə və funksiyalarına təsiri üç fərqli aspektdə özünü göstərir: birincisi, beynə güclü təsir edərək, asılılıq sindromunun inkişafına səbəb olur; ikincisi, demək olar ki, bütün daxili orqanlara toksik təsir göstərir; üçüncüsü isə valideynlərin narkoloji patologiyasının gələcək nəsillərə təsiridir.

Psixoloji amillər. Ailənin (deformasiyalı struktur, təhsil səviyyəsinin aşağı olması, nataraz tərbiyə mühiti və s.), eləcə də yeniyetmələrin sosiallaşma prosesi ilə bağlı amillərin (aktiv dərrakə, formalaşmış peşə seçimi, motivasiyalar) narkoloji problemlərin yaranmasında əhəmiyyətli rol oynayır.

Psixodinamik nöqteyi-nəzərdən, PAM istifadə edən şəxslərin asılılığa qarşı güclü ehtiyacları vardır və bu ehtiyacın izləri erkən uşaqlıq dövründən başlamış ola bilər. Bu nəzəriyyə modelini dəstəkləyən bir sıra mütəxəssislər bəzi insanlarda PAM istifadəsinə meylliliyə səbəb olan xüsusiyyətlərin mövcud olduğunu, bunun da onlarda narkotik maddələrə asılılıq meyli yaratdığını hesab edirlər. Bu yanaşmamanın əsasında isə psixoaktiv maddə istifadəsinin gərginliyi azaldaraq, əhval-ruhiyyəni yaxşılaşdırdığı fərziyyəsi dayanır.

Narkotikə qarşı reaksiyanı müəyyən edən səbəblərdən biri olaraq, şəxsi meyllilik də mühüm amillərdəndir. Adətən PAM istifadəsinin iki səbəbi vardır ki, bu səbəblər müxtəlif kateqoriyalardan olan insanlarda müşahidə olunur. Birinci səbəb PAM istifadəsinin süni olaraq kimyəvi yolla yaratdığı yüksək əhval-ruhiy-

yə, eyforiya, aktivliyin artırılması düşüncəsidir. İkinci səbəb isə kimyəvi maddələr vasitəsilə neqativ düşüncələrdən, bədbinlikdən, ünsiyyət çətinliklərindən qurtulmaq cəhdidir.

Asılı davranış daha çox əvvəlcədən mövcud olan iradə problemləri ilə – kompulsivliklə əlaqələndirilir. Belə ki, Mikman və Frosch (1992) fərdin qorunma davranışının tərzi ilə əlaqədar fərdi meyllilik və spesifik narkotikin seçilməsi fərziyyəsini irəli sürmüşlər. Məsələn, heroinin güclü yuxugətirici təsiri var ki, bu da insanda uzaqlaşma və təcrid olunma meylini gücləndirir. Stimullaşdırıcı narkotiklər isə ətrafdakılarla aktiv qarşılıqlı əlaqəni gücləndirir. Müəlliflər bu qənaətə gəlir ki, narkomaniyanın qeyri-spesifik profilaktikasının əsasını həmin xəstə qrupunun sosiallaşma prosesinin stimullaşdırılması və istiqamətləndirilməsi təşkil etməlidir.

Davamlı meyllilik şəraitində şəxsiyyət dəyişikliklərini şərtləndirəm əsas amillərdən biri həm də psixoloji müdafiə mexanizmlərinin təsiridir. Adətən bu müdafiə mexanizmləri insanın qərarsız olduğu, məsələn, ehtiyacını təmin etmək və ya ümumi qəbul edilmiş normalara əməl etmək seçimi qarşısında qaldığı vaxtlarda yaranan gərginliyi azaltmağa xidmət edir. Meyllilik obyektinə düşkün münasibət formalaşmış şəxsin meylliliyinə (ən azından onun xoşagəlməz nəticələrinə) görə cəmiyyət və ya yaxın ətrafı tərəfindən müəyyən dərəcədə qınanacağı riski olduğundan, onda inkar, sıxışdırılma, proyeksiya, rasionallaşdırma kimi müdafiə mexanizmləri işə düşür [1].

Asılı şəxs cəmiyyət tərəfindən müsbət qiymətləndirilməyəcəyini dərk etdiyindən, davranışını gizlətməyə çalışır ki, bu da onda yalançılıq, uydurmaçılıq kimi mənfi keyfiyyətlərin inkişafına səbəb olur. Eyni zamanda, hər an ifşa olunacağı qorxusundan dolayı narahatlığı və psixoloji gərginliyi də artır. Beləliklə, şəxsiyyətin əxlaqi-etik sahəsində pozuntular müşahidə olunur.

Psixoaktiv maddələrdən istifadə zamanı müşahidə olunan müdafiə mexanizmlərinə, məsələn, narkotikə müsbət yanaşma, təsəvvürlər və məlum dərəcədə elə şəxsin özü tərəfindən cəmiyyət arasında narkotiklərin aktiv təbliğatı; PAM-ın "xəstəlik zamanı kömək edən", "yorğunluğu" azaldan bir vasitə olduğuna inam, "bəzi hallarda istifadə etməmək olmur" kimi izaholunmaz bir təsəvvürlər aiddir. Beləliklə, bu kimi hallar getdikcə artaraq, demək olar ki, bütünlüklə şəxsin həyatına sirayət edir və şəxs PAM-a meylliliyi özünün bir düşkünlüyü kimi deyil, xarici amillərlə əlaqələndirməyə başlayır ("imtina edə bilmədim", "qəbul etməliydim" və s.).

Asılılığın inkişafının son mərhələsində asılı şəxsin psixikasında onun meyllilik obyekti ilə əlaqəsi olmayan bütün düşüncə və təsəvvürlər sıxışdırılıb çıxır. O, artıq öz davranışına bəraət axtarmır. Davranışını izah edə biləcək hər hansı bir fəaliyyət onda lovğalıqla, özünün «çox böyük üstünlükləri», cəmiyyətin qərəzli yanaşması kimi uydurmalarla əvəzlənir.

Davranış aktlarının qiymətləndirmə mexanizmlərinin müdafiə reaksiyalarının güclənməsi nəticəsində pozulması adaptasiya pozuntularına, frustrasiyaya gətirib çıxarır, şəxsin özgüvənini əhəmiyyətli dərəcədə azaldır, onda fəaliyyətinin obyektiv məzmunundan asılı olmayaraq, özündən narazılıq kimi hisslər doğurur.

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, hazırda psixoloji asılılığın bütün xüsusiyyətlərini izah edə biləcək vahid bir nəzəriyyə mövcud deyildir. İlk növbədə bu fenomenin yaranma səbəbləri və şərtləri barədə birmənalı

fikirlər yoxdur. Tədqiqatçılar çox vaxt onları şəxsiyyətin meyllilik xüsusiyyətləri, psixoaktiv maddələrin təsir xüsusuiyyətləri və ya sosial mühitin təsiri ilə əlaqələndirirlər. Eyni zamanda, keçirilmiş təhlil psixoloji asılılığın istənilən formasının formalaşması ilə inkişafının fərdin şəxsiyyət strukturunda baş verən dəyişikliklərlə sıx əlaqədar olduğunu göstərir [5].

Beləliklə, uzun müddət insanın psixikasına eyforik təsir göstərən hər hansı bir obyektdən psixoloji asılılıq şəxsiyyət xüsusiyyətlərinin aşağıdakı dəyişiklikləri ilə müşayiət olunur: şəxsiyyətin ehtiyac və motivasiya quruluşunun deformasiyası (asılılıq obyektinə ehtiyacın üstünlüyü və maraqlar dairəsinin daralması) və nəticə etibarı ilə, öz davranışına nəzarətin itirilməsi, asılı davranışın müdafiə mexanizmlərinin işə düşməsi (inkar, rasionallaşdırma, proyeksiya, sıxışdırılma); ali hisslərin (vicdan, məsuliyyət, altruizm, mənəvi hisslər və s.) tənəzzülü; özgüvənin azalması; affektiv qərarsızlığın yaranması.

Narkoloji xəstələrin reabilitasiyası ilə bağlı təşkilati və tibbi aspektləri.

Narkologiyada reabilitasiya prosesinin təşkili üç əsas bir-birilə qarşılıqlı əlaqədə olan tədbirlər kompleksindən ibarətdir: a) reabilitasiyaöncəsi (bərpaedici) tədbirlər; b) abilitasiya tədbirlərinin özü (müalicə-reabilitasiya prosesinin əsas hissəsi); c) profilaktik postrabilitasiya tədbirləri. Beləliklə, narkoloji xəstənin bir-birilə əlaqəli tibbi, psixoloji-psixoterapevtik və sosial problemlərinin mərhələli həlli nəzərdə tutulur.

Vahid müalicə-reabilitasiya prosesinin strukturunda r*eabilitasiyaöncəsi tədbirlər kompleksi (bərpaedici, əsas etibarı ilə tibbi dövr)* PAM-dan istifadənin yaratdığı xroniki (və ya kəskin) intoksikasiya kimi kəskin və yarımkəskin vəziyyətlərin diaqnostik müayinəsini və müalicəsini nəzərdə tutur. Demək olar ki, tam həcmdə neytrallaşdırıcı terapiya və gələcəkdə postpsixotik və postabstinent pozuntularının müalicəsi həyata keçirilir. Reabilitasiyaöncəsi dövr həm narkoloji stasionar və ya mərkəzlərdə (ağır xəstələr üçün), həm də ambulator şəraitdə həyata keçirilə bilər. Həmin dövrün psixoterapevtik işi əsasən xəstələrin müxtəlif reabilitasiya proqramlarında iştirak etmələri üçün motivasiyanın gücləndirilməsinə, cəmiyyətdə bərpaolunmalarına və PAM istifadəsindən imtina etmələrinə yönəlib.

Müalicə-reabilitasiya prosesinin növbəti dövrü (reabilitasiyanın əsas hissəsi) üç bir-biri ilə əlaqəli mərhələdən ibarətdir: adaptasiya, inteqrasiya və stabilizasiya mərhələləri. Bu dövrün ümumi müddəti altı aydan iki ilə qədər nəzərdə tutulur. Müalicə-reabilitasiya prosesinin bu dövrü ərzində intensiv dərman müalicəsi, fizioterapiya və digər müalicə növləri, eləcə də reabilitasiya mühitinin təsiri ilə yanaşı, psixoterapevtik proqramların həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. Çünki adətən adaptasiya mərhələsində PAM-a olan patoloji meyl kəskinləşir, emosional, davranış, astenik (nevrastenik), intellektual yaddaş və digər pozuntular müşahidə olunur. Bu pozuntuların müddəti və dinamikası xəstələrin reabilitasiya potensialı səviyyəsi ilə (RPS) əlaqəlidir. Reabilitasiyanın bu mərhələsinin müddəti RPS yüksək olanlarda 2 həftəyə qədər, RPS orta və aşağı olanlarda isə 4-6 həftədir.

Bir qayda olaraq, adaptasiya mərhələsi xəstələrin fiziki və psixoloji vəziyyətlərinin yaxşılaşması, normal davranışın formal əlamətlərinin yaranması ilə başa çatır. Sonrakı bərpa dinamikası, xəstələrin reabilitasiya potensialı səviyyəsi ilə müəyyən olunur. RPS yüksək olan xəstələrdə PAM-dan asılılığa tənqidi münasibət nisbətən tez bərpa olunur və etik davranış funksiyaları əhəmiyyətli dərəcədə

normallaşır. PAM-dan uzun müddət istifadə ilə əlaqəli şəxsi və sosial problemlərin dərk olunur. RPS orta və aşağı olan xəstələrdə isə bərpa prosesləri qeyri-sabitliklə xarakterizə olunur, PAM-a olan meylin artması, emosional və davranış pozuntuları ehtimalı yüksəlir.

Reabilitasiyanın inteqrasiya mərhələsində xəstələrin fiziki və psixoloji vəziyyətini bərpa edən, onların kommunikasiya bacarıqlarını yaxşılaşdıran və ailə münasibətlərini normallaşdıran tədbirlər kompleksinin həyata keçirilməsi davam edir. Psixoterapevtik iş şəxsi problemlərin həllinə dair üsul və vasitələrin öyrənilməsinə, xəstəliyin təkrarlanması səbəb ola biləcək xəstəlik və stresli vəziyyətlərə qarşı mübarizə aparılmasına yönəlmişdir. RPS-i yüksək olan xəstələr üçün inteqrasiya mərhələsinin müddəti 1-1,5 ay, orta və aşağı olan xəstələr üçün isə 2-2,5 ay təşkil edir.

Reabilitasiyanın stabilləşmə mərhələsi əvvəlki mərhələlərdə əldə olunmuş nəticələrin möhkəmləndirilməsinə yönəldilmişdir. Bu mərhələdə xəstələrin tədricən müstəqil fəaliyyətə keçidini təmin edən tibbi, psixoterapevtik və sosial tədbirlər kompleksi tətbiq edilir. Müalicə-reabilitasiya, o cümlədən psixoterapevtik yardımın müddəti 6 aydan 2 ilə qədər təşkil edir (RPS-dən və remissiyanın sabitləşməsindən asılı olaraq).

Reabilitasiyanın III mərhələsi (profilaktik post-reabilitasiya tədbirlər kompleksi) psixoterapevtik və sosial dəstək sisteminin ambulator şəraitdə həyata keçirilməsinə yönəlmişdir. Qeyd edək ki, narkoloji xəstələrin vəziyyətinə və sosial adaptasiyasının xüsusiyyətlərinə uyğun olaraq müəyyən edilən bu mərhələnin müddəti bir ildən az olmamalıdır. Təkrarlanma hallarının qarşısının alınması proqramının koordinatoru psixoterapevt və ya sosial iş üzrə mütəxəssis ola bilər [4].

"Reabilitasiya potensialı" anlayışı reabilitasiya tədbirlərinin planlaşdırılması və həyata keçirilməsi üçün olduqca vacib bir məqamdır. Reabilitasiya potensialı (RP) xəstənin düçar olduğu xəstəliyə və onun nəticələrinə qalib gəlməsində, onun ailəyə və ictimai faydalı fəaliyyətə qayıtmasına səbəb olacaq, cəmiyyət tərəfindən qəbul edilmiş şəxsi keyfiyyətlərinin bərpa edilməsində fiziki, psixoloji, sosial və mənəvi imkanlarının cəmidir. Praktiki baxımdan bu, terapevtik və sosial-reabilitasiya perspektividir.

RP-nin əsas komponentləri şərti olaraq 4 bloka bölünə bilər:

1) premorbid;

2) narkomaniya xəstəliyinin klinik xüsusiyyətləri;

3) narkomaniyanın sosial statusu və sosial nəticələrinin xüsusiyyətləri;

4) xəstənin şəxsiyyət xüsusiyyətləri.

RP-nin əsas komponentlərinin ifadə dərəcəsindən asılı olaraq, narkomaniya xəstələri üç qrupa bölünə bilər: reabilitasiya potensialı (RPS) yüksək, orta və aşağı olan xəstələr. Xəstəliyin premorbid xüsusiyyətlərdən və fərdi meyillərdən tutmuş, dəqiq klinik diaqnoz, şəxsi və sosial statusa qədər olan bütün formalaşma və şəxsiyyətin inkişaf mərhələlərini qiymətləndirən bir tərif olan RPS həm də xəstənin fərdi kognitiv, emosional, motivasiyaedici, kommunikativ, mənəvi-etik xüsusiyyətlərini və şəxsi və sosial inkişafın əsas istiqamətini, eləcə də dəyər yönümlərini özündə birləşdirir. RPS xəstəliyin və xəstənin sosial funksionallığının bütün mər-

hələlərini əhatə edən və MRP-nin intensivliyi ilə müddətindən asılı olaraq dəyişən dinamik klinik diaqnostika,o cümlədən xəstənin şəxsi sosial xarakteristikasıdır.

Narkotik asılılığın müalicəsində psixoterapiyanın rolu.

Narkologiyada psixoterapevtik reabilitasiya tədbirləri aşağıda göstərilən prinsiplərə uyğunolaraq həyata keçirilməlidir:

*** fərqlilik** (alkoqolizmin şiddəti, müalicəyə hazırlıq və ümumilikdə içki aludəçiliyindən qurtulmaq istəyinin olması, alkoqolizmin və narkomaniyanın mənfi sosial təsirinin əlaqəsi və s.);

*** komplekslik** həm psixoterapevtik reabilitasiya tədbirlərini, həm də xəstələrin reabilitasiyasına yönəlmiş mdikamentoz müalicə üsullarını əhatə edir;

*** mərhələli aparılan tədbirlər**, kəskin halların başlanğıcında ikən zəruri olan psixoterapevtik-reabilitasiya yanaşması elementlərinin daxil edilməsi;

*** xəstənin şəxsiyyətinə tuşlanma.**

Hesab olunur ki, narkomaniya və alkoqolizmə düçar olmuş xəstələrin psixoterapevtik tədbirlərlə reabilitasiyası sosial təsir-narkotik qəbulunun tamamilə dayandırılması şərtilə, əvvəlki sosial statusun bərpası və yeni makrososial mühitə adaptasiya olmadan, daha az effektivdir. Beləliklə, narkomaniya üzrə reabilitasiya tədbirlərinin effektivliyi təcrid olunma, psixokorreksiya və sosial nəzarət tədbirləri ilə müəyyən ediləcəkdir.

Narkomaniya üzrə psixoterapiyanın əsas prinsipləri narkomaniyanın müalicəsi ilə bağlı müasir yanaşmalarla birgə nəzərdən keçirilir və könüllülük, fərdilik, komplekslik və narkotik istifadəsindən imtina kimi addımları əhatə edir. Effektiv psixoterapevtik proqramlar psixoterapiyanın müxtəlif metod və formalarını əhatə edən bir sıra yanaşmaların istifadəsini nəzərdə tutur və mütəxəssislərdən ibarət qrup tərəfindən psixofarmakoterapiya və digər qeyri-dərman müalicə üsulları ilə birgə tətbiq edilir.

Məlumdur ki, narkomaniyanın bütün klinik hallarında müəyyən dövrlər müşahidə olunur: intoksikasiya, kəskin abstinensiya, postabstinensiya pozğunluqları dövrü, terapevtik remissiyanın formalaşması mərhələsi. Beləliklə, psixoterapiya xəstəlik mərhələsi nəzərə alınaraq təşkil olunmalıdır. [3].

Müalicə zamanı tətbiq edilən psixoterapiya üsulları.

Narkoloji xəstələrin müasir psixoterapiyası müxtəlif konseptual və metodoloji yanaşmaların inteqrasiyasına meyllilikl seçilir ki, bu da onların kompleks psixoterapevtik proqramlarda birləşməsi ilə nəticələnir. Bundan əlavə, xəstələrin şəxsiyyətinə və terapevtik dinamikasına uyğun olaraq, psixoterapevtik metodların tətbiqinin müəyyən ardıcıllığı da böyük əhəmiyyət kəsb edir ki, bu da narkologiyada müalicə prosedurlarının qurulmasında digər bir əsas prinsipin-dinamik yanaşmanın həyata keçirilməsidir. İnteqrativ yanaşma ilə birgə bu prinsip proqramın ümumi effektivliyini təmin edir.

Narkoloji xəstələrin psixoloji reabilitasiyası sahəsindəki müasir tədqiqatçıların əksəriyyəti psixoterapevtik dövrlərin birgə və ya ardıcıl keçirilməsinin üstünlüklərini vurğulayırlar. Bu dövrlər üç əsas modal qrupa ayrılır: kognitiv-davranış, şəxsiyyətə yönəlmiş və sosio-terapevtik və mənəviyyat yönümlü humanitar.

Kognitiv-davranış psixoterapiyası səylərini addiktiv davranışın patoloji obrazının aradan qaldırılmasına, təmiz həyat tərzinin saxlanılmasına və təkrarlanma

hallarının profilaktikasına yönəldir. Bu, daha çox intensiv müalicə modelinə uyğundur və xəstəlik impulsları üzərində koqnitiv özünənəzarətin, yeni, sağlam davranış nümunələrinin yaranmasının təmin edilməsinə yönəlir.

Humanistik və mənəviyyatyönümlü psixoterapiya elementləri xəstələrin yerli şəraitə uyğunlaşması,qruo şəklində aparılması üzərində qurulur. Burada nəticələr xəstələrin qarşılıqlı yardımlaşma qruplarında, təşkilatçıların və "həmdərdlərin" qayğısı və diqqətli yanaşması ilə əldə edilir.

Bir sıra psixodinamik prinsip və anlayışların tətbiqi olmadan, tamdəyərli müayinə və ümumilikdə psixoterapevtik prosesin aydın təsviri mümkün deyil.

Yuxarıda sadalananlara önəmli əlavə olaraq ailə psixoterapiyası böyük əhəmiyyət kəsb edir. Belə ki, narkoloji xəstəlik ailədaxili münasibətlər, vahid bir sistem kontekstində nəzərdən keçirilir [2].

Beləliklə, koqnitiv-davranış, psixodinamik və humanistik psixoterapiya üsulları bir-birini tamamlayaraq, bu modeli alkoqolizm, narkomaniya və toksikomaniya kimi bəlalarda bir çox parametrlər baxımından perspektivli bir model kimi ortaya qoyur.

Təbii ki, burada aversiv yönümlülüyün hionosuggestiv və şərti-reflektor üsulları da öz praktiki əhəmiyyətini itirmir. Onların məqsədəuyğun texniki üsullarının arsenalı durmadan zənginləşəcəkdir. Lakin burada psixoterapiya olduğu mənada yalnız özlərinin ən azından müvəqqəti olaraq koqnitiv-davranış səviyyəsində müsbət dəyişiklikləri formalaşdırdıqları dərəcədə müşahidə olunur.

Narkotik asılılığının müalicəsində tətbiq edilən psixoterapiya formaları.

Fərdi psixoterapiya

Fərdi psixoterapiya istənilən fərdipsixoterapevtik proqramın əsasını təşkil edir. Fərdi psixoterapiya reabilitasiyanın ən erkən mərhələlərindən başlayıb, müalicə-reabilitasiya proqramının axırına qədər davam edir. Fərdi psixoterapiya formasında müxtəlif aversiv, suggestiv və davranış simptomlarına nəzarət metodikalarından istifadə edilir. Həmçinin asılılıq formalaşmasının intrapsixi mexanizmlərinin korreksiyasına yönəlmiş şəxsiyyətyönümlü üsullardan da istifadə olunur.

Xüsusi olaraq narkoloji xəstələr üçün xüsusi psixoterapevtikmüalicəüsulları işlənib-hazırlanmışdlr.

Narkomaniyaların və PAM-dan asılılıq psixoterapiyasında inteqrativ yanaşma çərçivəsində Y.V.Valentik tərəfindən Kontinual terapiya adlandırılan psixoterapiya işlənib hazırlanmışdır. Bu konsepsiya çərçivəsində o, bir sıra psixoterapiya sistemləri üçün də invariant olan prinsiplərə əsaslanır. Davamlı və diskret təsirlərin birləşdirilməsi prinsipi psixoterapiyada davamlı yanaşmanın spesifikliyini böyük ölçüdə əks etdirir.

Ailə psixotrapiyası

Psixoaktiv maddələrdən asılılığı olan xəstələrin müalicəsində xəstələrin sağalma mexanizmlərinin aktivləşməsinə və xəstələrin adaptasiyasına, habelə bu pozuntularla müşayiət olunan tez-tez ailə böhranlarının aradan qaldırılmasına kömək edəcək mikrososial mühitin yaradılmasına yönəlmiş müxtəlif ailə psixoterapiya modellərindən istifadə edilə bilər.

Kimyəvi asılılığı olan xəstələrin ənənəvi üsullarla müalicəsinin kifayət qədər aşağı effektivliyi onların müalicə kursundan sonra əvvəlki mühitə qayıtmaları ilə əlaqədardır. Kimyəvi asılılıq ailə xəstəliyidir. Alkoqolizm və narkotik asılılığı

olan bir xəstənin yaxın ətrafında, ailə üzvlərində qarşılıqlı asılılığın (yəni bir-birindən asılılığın) olması xəstəliyin yeni residivinin daimi risk faktorudur.

Bundan əlavə, bir-birindən asılı olan bütün qohumların özlərinin alkoqol və ya narkotikə aludə olacaqları ehtimalı daha yüksəkdir. Qarşılıqlı asılılığın nəsildən-nəslə keçdiyi, hətta alqokolizm və ya narkomaniya xəstələri olan şəxslərin nəvə-nəticələrində belə təkrar oluna biləcəyi faktı sübut edilmişdir. Qarşılıqlı asılılıq onun daşıyıcılarında psixosomatik xəstəliklərin və depressiyanın inkişafı üçün münbit bir mühitdir.

Alkoqoldan və narkomaniyadan əziyyət çəkən şəxslərin və qarşılıqlı asılılığı olan qohumların olduğu ailə qeyri-funksionaldır. Burada:

* problemin mövcudluğu inkar edilir, əsas "ailə sirri" başqalarından gizlədilir;
* inam, səmimiyyət və qarşılıqlı anlaşma olmur;
* düşüncə və davranışda çeviklik yoxdur, ailə qaydaları və rolları ciddi şəkildə müəyyən edilir;
* şəxsi sərhədlər ya qarışıqdır, ya da görünməz hasarlarla ayrılır;
* ailə üzvlərinin ehtiyacları nəzərə alınmır və təmin olunmur.

Belə bir ailənin üzvləri sağlam inkişaf etmir, belə bir mühitdə əqli və fiziki cəhətdən sağlam övladlar yetişdirilə bilməz. Bütün bunlardan belə qənaətə gəlinir ki, narkomaniyanın müalicə sisteminə təkcə alkoqolizm və narkomaniyadan əziyyət çəkən xəstələrin müalicəsi deyil, həm də onlardan asılı olan şəxslərin müalicəsi də daxil edilməlidir. Qarşılıqlı asılılığın aradan qaldırılması üçün aşağıdakıların ehtiva olunduğu proqram tətbiq edilir:

1) qohumlar üçün mühazirələr, asılılıq və qarşılıqlı asılılıq məsələləri üzrə özünütəhsil;

2) qarşılıqlı asılı olan şəxslər üçün fərdi və qrup terapiyası;

3) ailə, ər-arvad üçün və s. formatlı psixoterapiya;

4) psixoterapiya kursundan sonra qarşılıqlı asılılığı olan şəxslər alkoqolizm və narkomaniyadan əziyyət çəkən xəstələrdən asılı qohumlarının könüüllü olaraq qoşulduqları anonim qarşılıqlı yardım və özünəyardım qruplarına göndərilirlər.

Qrup psixoterapiyası

Psixoterapiyanın qrup forması rahat və qənaətcil, eyni zamanda yüksək korreksiya potensialına malik olduğu üçün bir çox psixi pozğunluqların, o cümlədən asılılıq xəstəliklərinin müalicəsində geniş istifadə olunur. Psixoterapevtik fəaliyyətin qrup forması ədəbiyyatda təsvir olunan və narkomanlarla işləməyə yönəlmiş bir çox müalicə proqramları üçün xarakterikdir.

Psixoterapevtik işin qrup üsulları xəstələrin şəxsi resurslarının aşkara çıxarılmasına və səfərbər edilməsinə, onların şəxsi, ailə və sosial problemlərinin həllinə, zehni (psixofizioloji) özünütənzimləmə bacarıqlarını inkişaf etdirilməsinə və müxtəlif problemli, o cümlədən narkotikləşməyə qoşulma riskinin yüksək olduğu vəziyyətlərdə adekvat davranışın formalaşdırılmasına yönəldilmiş ola bilər. Məşğələlərdə effektiv-adekvat şəxslərarası, konstruktiv, mənalı ünsiyyət ünsiyyət, həmçinin hisslərin tanınması, obyektiv qiymətləndirilməsi və tənzimlənməsi bacarıqları möhkəmləndirilir. Xəstələr özlərinin narkomaniya xəstəsi olduqlarını dərk etməyə, onlarda narkomaniya xəstəliklərinin inkişaf mexanizmləri, onların nəticələri və fəsadları haqqında adekvat təsəvvürlər formalaşmağa başlayır. Xəstənin reabilitasiya prosesində fəal rolu gücləndirilir, onun effektivliyinə görə məsuliyyə-

ti, habelə xəstələrin narkotiksiz (alkoqol, digər psixoaktiv maddələr) həyata fərdi hazırlığı təmin edilir.

Həmçinin xroniki alkoqolizmdə olduğu kimi, narkoloji xəstələrin reabilitasiyasının təsirli formalarından biri də onların "Anonim narkomanlar" qruplarına cəlb edilməsidir.

Müalicə və reabilitasiya mühiti

Müalicə və reabilitasiya sistemlərinin təsirinin strateji məqsədi patogenezin psixososial amillərinin korreksiyası və şəxsi sanogenetik resursların aktivləşdirilməsidir (stabilləşdirilməsi).

Müalicə və reabilitasiya mühiti psixoaktiv maddələrdən asılılığı olan xəstələrin narkoloji müalicə və reabilitasiya şəraitinə adaptasiyasını təkmilləşdirmək üçün, şəxsin özünə, xəstəliyinə və müalicəsinə münasibətini, həmçinin adaptiv kommunikativ və problem həll edən davranışların formalaşdırılmasını optimallaşdıraraq təşkil edilən tibb-bioloji, psixoterapevtik, tibbi-psixoloji və psixosoyal tədbirlər kompleksidir.

Praktiki olaraq, **müalicə və reabilitasiya mühitinin məqsədi** xəstələrin özlərinə, öz xəstəliklərinə, mikrososial mühitə və ətraf mühitə olan münasibətlərinin düzəldilməsinə yönəlmiş psixoterapevtik və psixososial tədbirlərin kompleksinin təşkil edilməsidir.

Əsas istiqamətindən və müalicə-reabilitasiya tədbirlərinin siyahısından, bioloji, psixoloji və sosial təsirlərin nisbətindən, eləcə də xəstələrin yönləndirilmə göstərişlərindən asılı olaraq, narkoloji tibb müəssisələri (MPM) üçün dörd növ müalicə-reabilitasiya mühiti nəzərdən keçirilir:

* "Birinci epizodun" müalicə-reabilitasiya mühiti (A tipli MRM)
* Korreksiya-rekonstruktiv müalicə-reabilitasiya mühiti (B tipli MRM)
* Residivə qarşı müalicə-reabilitasiya mühiti (Ctipli MRM)
* "Böhranlı readaptasiya" müalicə-reabilitasiya mühiti (D tipli MRM)

Bundan əlavə, iki əsas tələbin yerinə yetirilməsi təmin edilməlidir:

1. Xəstəyə qarşı biologiya orientasiyalı müdaxilələr üzrə mütəxəssislər (psixiatr-narkoloq, həkimlər və s.), psixoloji müdaxilələr üzrə mütəxəssislər (kliniki psixoloqlar, psixoterapevtlər, humanitar könüllülər və s.), sosial müdaxilələr üzrə mütəxəssislər (sosial işçilər, sosial psixoloqlar, sosial pedaqoqlar və sosial işçilər) tərəfindən koordinasiya olunmuş və ziddiyyətli olmayan qarşılıqlı əlaqənin təmin edilməsi. Bu tələb yalnız bioloji, psixoloji və sosial faktorların istər asılılıq xəstəliklərinin patogenezində, istərsə də müalicə-reabilitasiya yardımının müxtəlif mərhələlərində rolu barədə vahid bir təsəvvürə əsaslana bilər.

2. Hər bir konkret xəstəyə qarşı psixoterapevtik mühitlərin dörd əsas növü arasında davamlılığın təmin edilməsi. Minimal təşkilati şərtlərdən (bir xəstəlik tarixçəsi, kompleks funksional diaqnoz (kliniki, psixoloji, sosial sahələri ehtiva edən) amillərdən) əlavə, psixoterapevtik və psixososial tədbirlərin effektivliyinin razılaşdırılmış müşahidə meyarlarının-müxtəlif psixoterapevtik mühit növləri üçün fərqləndirilmiş meyarların mövcudluğu da vacib əhəmiyyət kəsb edir [1].

İşin aktuallığı. Narkomaniya və alkoqolizm həm fiziki, həm psixoloji, həm də sosial səviyyədə ciddi problemlər yaradır. Asılılığın formalaşması şəxsiyyətin inkişaf mərhələlərindəki boşluqlardan, ailə və məktəb təsirlərindən qaynaqlanır. Xəstələrin

reabilitasiyası yalnız tibbi müalicə ilə deyil, həmçinin psixoterapevtik və sosial tədbirlərin kompleks tətbiqi ilə mümkün olur. Bu səbəbdən narkoloji xəstələrin psixososial adaptasiyası və cəmiyyətə reinteqrasiyası məsələsi müasir tibbdə aktualdır.

Elmi yeniliyi. Təqdim olunan tədqiqatda narkoloji xəstələrin reabilitasiyasında psixoterapevtik metodların mərhələli tətbiqi, fərdi və qrup terapiyası, həmçinin ailə psixoterapiyasının rolu bir sistem olaraq göstərilmişdir. Reabilitasiya potensialı (RPS) əsasında xəstələrin fərdi yanaşma ilə qiymətləndirilməsi və müalicə-reabilitasiya mühitlərinin optimallaşdırılması metodologiyası işlənib hazırlanmışdır.

Nəticə. Narkoloji xəstələrin müalicəsində psixoterapevtik yanaşmaların tətbiqi fiziki və psixoloji vəziyyətin bərpasına, sosial adaptasiyanın yaxşılaşdırılmasına və PAM-dan istifadənin dayandırılmasına töhfə verir. Müalicə-reabilitasiya prosesinin mərhələli quruluşu, RPS səviyyəsinə görə fərdiləşdirilməsi və mühitin uyğunlaşdırılması xəstələrin effektiv reabilitasiyasını təmin edir.

Ədəbiyyat:

1. Buja, A., Mortali, C., Mastrobattista, L., et al. (2019). Pathways connecting socioeconomic variables, substance abuse and gambling behaviour: A cross-sectional study on a sample of Italian high-school students. BMJ Open, 9(11), 45-49.
2. Gordon, A. (2008). Comorbidity of mental disorders and substance use: A brief guide for the primary care clinician. Adelaide, South Australia: Drug and Alcohol Services South Australia (DASSA).
3. Madson, M., Schumacher, J., Baer, J., & Martino, S. (2016). Motivational interviewing for substance use: Mapping out the next generation of research. Journal of Substance Abuse Treatment.
4. Mustafayev, M. H., & Allahverdiyev, R. F. (2020). Psixoaktiv maddə istifadəçilərinin sosial-psixoloji reabilitasiyasında həyata keçirilən terapiya üsulları və müasir yanaşmalar. Psixologiya Jurnalı, Bakı Dövlət Universiteti.
5. Городнова, М. Ю. (2013). Когнитивная психотерапия в работе с наркологическими больными: учебное пособие (48 с.). СЗГМУ им. И. И. Мечникова.
6. Декало, Е. Э., & Курпатов, В. И. (2014). Готовность к лечению больных опийной наркоманией как актуализация антинаркотической устойчивости: эффективность мотивационных методов психологической интервенции. Вестник психотерапии, 49(54), 125–134.
7. Москаленко, В. Д. (2014). Зависимость: семейная болезнь (7-е изд., 352 с.). Институт консультирования и системных решений.
8. Дудко, Т. Н., Арзуманов, Ю. Л., Огурцов, П. П., et al. (2008). Основные технологии лечебно-реабилитационной помощи больным наркоманией: методические рекомендации (68 с.). ННЦ наркологии Росздрава.

Mushvig Mustafayev, Shafag Shahmammadova,
Ramin Allahverdiyev, Aytaj Zeynalova

Summary

PSYCHOTHERAPEUTIC APPROACHES IN THE TREATMENT OF PSYCHOACTIVE SUBSTANCE ADDICTION

The article analyzes the psychotherapeutic approaches used in the treatment of psychoactive substance addiction. It is noted that a systematic approach to solving the problems of rehabilitation of patients with drug addiction involves the development, improvement and practical application of the methodological concept of rehabilitation,

including medical, psychological and social aspects. one of the important tasks. At the same time, it was clarified which psychotherapeutic approaches play an important role in this process, and issues related to the creation of a favorable psychotherapeutic environment for treatment and treatment were analyzed. The success of this process depends both on the creation of a special socio-psychological (psychotherapeutic) and, as a result, rehabilitation environment for patients, and on the selection of persons participating in rehabilitation psychotherapeutic programs. Ideas about various psychotherapies, including individual, family and group psychotherapy, were put forward and their comparative analysis was conducted. In addition, the article provides information about the psychotherapy methods used during treatment and explains the rules for conducting them.

Мушвиг Мустафаев, Шафаг Шахмамедова,
Рамин Аллахвердиев, Айтадж Зейналова

Резюме

ПСИХОТЕРАПЕВТИЧЕСКИЕ ПОДХОДЫ В ЛЕЧЕНИИ ЗАВИСИМОСТИ ОТ ПСИХОАКТИВНЫХ ВЕЩЕСТВ

В статье анализируются психотерапевтические подходы, применяемые при лечении зависимости от психоактивных веществ. Отмечено, что системный подход к решению проблем реабилитации больных наркоманией предполагает разработку, совершенствование и практическое применение методической концепции реабилитации, включающей медицинские, психологические и социальные аспекты. Является одной из важных задач. Кроме того, было выяснено, какие психотерапевтические подходы играют важную роль в этом процессе, а также проанализированы вопросы, связанные с лечением и созданием благоприятной психотерапевтической среды. Успешность этого процесса зависит как от создания специальной социально-психологической (психотерапевтической) и, в конечном итоге, реабилитационной среды для деятельности пациентов, так и от подбора лиц, участвующих в реабилитационных психотерапевтических программах. Были предложены различные виды психотерапии, включая индивидуальную, семейную и групповую психотерапию, и проведен сравнительный анализ. Кроме того, в статье дана информация о методах психотерапии, используемых в ходе лечения, и разъяснены правила их проведения.

Rəyçi: dos. C.Alıyev

UOT 6114.01

Sevinc Sarıyeva
Fəlsəfə və Sosliologiya İnstitutu

10.30546/2518-752X.1.601.0178

AİLƏ SSOSİAL MÜHİTİN KOMPONENTİ KİMİ

***Açar sözlər**: ailə, sosial mühit, sosiallaşma, şəxsiyyətin formalaşması, psixoloji inkişaf*
***Keywords:** family, social environment, socialization, personality formation, psychological development*
***Ключевые слова:** семья, социальная среда, социализация, формирование личности, психологическое развитие*

Giriş. İnsan həyatını formalaşdıran əsas amillərdən biri də sosial mühitdir. Bu anlayış insanın yaşadığı cəmiyyət, əhatəsindəki insanlar, ailə, məktəb, iş mühiti, mədəni və mənəvi dəyərlər, həmçinin sosial institutlar vasitəsilə müəyyən edilir. Sosial mühit insanın şəxsiyyətinin formalaşmasında, sosiallaşmasında və psixoloji inkişafında mühüm rol oynayır. Sosial mühit insanın formalaşmasında və inkişafında mühüm rol oynayan bir amildir. Bu mühitin əsas komponentlərindən biri də ailədir. Ailə yalnız bioloji əlaqələrdən ibarət olmayan, sosiallaşma prosesinin ilk və ən təsirli institutu kimi çıxış edir. Ailə sosial münasibətlərin qurulduğu, dəyərlərin ötürüldüyü, psixoloji sabitliyin və şəxsiyyətin formalaşdığı əsas məkandır. Bu baxımdan, ailənin sosial mühitin komponenti kimi öyrənilməsi cəmiyyətin sağlam inkişafının təməl prinsiplərindən biridir.

Sosial mühit dedikdə, fərdin ətrafında mövcud olan sosial münasibətlər şəbəkəsi və bu münasibətlərin baş verdiyi fiziki və sosial kontekst nəzərdə tutulur. Bu mühit fərdin dünyagörüşünə, davranış modellərinə, emosional reaksiyalarına və motivasiyasına birbaşa təsir göstərir. Sosial mühit təkcə fiziki şəraitdən deyil, həm də insanın qarşılıqlı münasibət qurduğu ailə üzvləri, dostlar, müəllimlər və digər ictimai təsir qruplarından ibarətdir.

Məlum olduğu kimi, şəxsiyyətin sosiallaşması prosesi insanın bütün həyatı boyu həyata keçirilir. Sosiallaşmanın dəyər və normalarının mənimsənilməsi prosesi insanın yaş, sosial və əmək fəaliyyətinin mərhələlərindən asılı olaraq inkişaf etməsilə əlaqədardır. İnsanlar erkən uşaqlıq yaşlarından başlayaraq sosial davranış, ünsiyyət, qarşılıqlı əlaqə normalarını, sosial və mənəvi qadağaları, tələbləri mənimsəyir. Bu baxımdan haqlı olaraq hesab etmək olar ki, insanın sosiallaşmasının ən mühüm institutu ailədir. İnsanlar cəmiyyətlə ilk qarşılıqlı əlaqə təcrübəsini məhz ailədə qazanırlar. Sonra uşaq bağçası, məktəb, küçə kimi sosial qurumlar insanın həyatına daxil olur. Lakin bu zaman da ailə fərdin sosiallaşmasında ən mühüm amillərdən biri olaraq qalır. Ailə fərd üçün əsas həyat təliminin modeli və forması kimi qəbul edilə bilər. Ailədə sosiallaşma həm məqsədyönlü təhsil prosesi nəticəsində, həm də sosial təlim mexanizmilə baş verir. *"Sosializasiya prosesinin özünəməxsus mexanizmləri var. Onlardan ikisi – imitasiya və identifikasiya xüsu-*

silə önəmlidir. İmitasiya müəyyən sosial modelin şüurlu surətdə yamsılanması kimi özünü göstərir. İdentifikasiya prosesində isə uşaq özünü təqlid obyekti ilə eyniləşdirir və bu yolla sosial təcrübəni mənimsəyir"[1,s.100] Qeyd edək ki,insan həyatının ilk sosial təmaslarını qurduğu və əsas psixoloji, emosional, sosial davranışlarını mənimsədiyi mühüm institutlardan biri ailədir. Ailə yalnız bioloji nəsilvermə funksiyasını yerinə yetirmir, həm də fərdin şəxsiyyət kimi formalaşmasında, sosiallaşmasında və cəmiyyətə inteqrasiyasında mühüm rol oynayır. Bu baxımdan, ailə sosial mühitin əsas və ilkin komponenti kimi çıxış edir. Sosial mühit fərdin xarici dünyayla qarşılıqlı təsirini təmin edən bütün obyektiv və subyektiv amilləri əhatə edir ki, bunlar arasında ailə xüsusi yer tutur.

Sosial mühit insanın düşüncə tərzini, davranışlarını, motivasiyasını və ümumilikdə kimliyini formalaşdıran əsas amillərdən biridir. Bu mənada, sosial qarşılıqlı əlaqələrin insan psixologiyası və sosial davranışlarının öyrənilməsində xüsusi yeri vardır. Sosial ühitin insanın daxili dünyasına və şəxsiyyətinə təsirini anlamaq üçün bir çox nəzəriyyələr irəli sürülmüşdür ki, onların arasında Corc Herbert Midin simvolik interaksionizm nəzəriyyəsi xüsusi önəm daşıyır. C.Midə görə", *insan şüurunun və şəxsiyyətin yalnız fərdi inkişaf nəticəsində deyil, sosial qarşılıqlı təsir vasitəsilə, yəni insanların bir-biri ilə ünsiyyəti və simvolik əlaqələri nəticəsində formalaşdığını əsaslandırır. Ona görə də, sosial mühit və onun tərkibindəki müxtəlif sosial qurumlar fərdin "mən" anlayışının yaranmasında və onun sosiallaşmasında mərkəzi rol oynayır. Sosial təsir – fərdin sosial münasibətlər sistemində öz yerini müəyyən etməsi və digərləri ilə qarşılıqlı münasibət əsasında "mən" anlayışını formalaşdırması prosesidir. O, insan davranışlarını bioloji instinktlərdən daha çox simvolik qarşılıqlı təsir əsasında izah edir"* [7, s. 236]. Beləliklə, fərd həm cəmiyyət tərəfindən formalaşdırılır, həm də cəmiyyətə təsir göstərir, eyni zamanda bu təsirə cavab verərək sosial reallığın formalaşmasında iştirak edir.

Sosial mühit insana güclü təsir göstərir, onun şəxsiyyətinin inkişafına sosial normalar, dəyərlər, rollar aşılayan mənbədir. İnsan həyatının sosial tərəfi doğum anından başlayır və bu prosesin ilk və ən təsirli mühiti ailədir. Ailə təkcə fərdin fizioloji ehtiyaclarını qarşılayan struktur deyil, həm də onun psixoloji, emosional və sosial inkişafının əsas dayağıdır. Fərd ilk sosial öyrənmələrini, dəyərləri, davranış modellərini, münasibət qurma bacarıqlarını ailə daxilində qazanır. Bu səbəbdən, ailə yalnız şəxsi həyatın deyil, eyni zamanda geniş mənada sosial mühitin əsas komponentlərindən biri kimi çıxış edir.

Sosial mühit fərdin həyatına təsir edən bütün obyektiv və subyektiv amillər toplusudur. Bu amillərə cəmiyyətin quruluşu, mədəni dəyərlər, sosial institutlar, iqtisadi vəziyyət, ictimai münasibətlər və fərdin daxil olduğu mikromühitlər – xüsusən ailə daxil olur. Ailə bu mühitdə ən kiçik, lakin ən fundamental sosial vahid kimi çıxış edir və burada formalaşan münasibətlər insanın gələcək sosial təcrübəsinin təməlini qoyur.

Ailənin strukturu, dəyərlər sistemi, münasibətlər modeli və tərbiyə üsulları fərdin şəxsiyyətinin formalaşmasına, onun emosional zənginliyinə, özünə güvən səviyyəsinə və motivasiya dərəcəsinə birbaşa təsir göstərir. Xüsusilə uşaq yaş dövrlərində ailənin rolunun böyüklüyü daha da artır, çünki bu dövrdə insan xarici dünyanı ailə vasitəsilə dərk edir və öyrənir.

Sosial mühit insan həyatının bütün mərhələlərində mühüm əhəmiyyət kəsb edir. Fərdin şəxsiyyətinin formalaşmasında və motivasiyasının inkişafında sosial münasibətlərin, sosial institutların və mədəni dəyərlərin rolu danılmazdır. Sağlam sosial mühitin yaradılması, həm fərdlərin, həm də cəmiyyətin ümumi rifahına müsbət təsir göstərir.

İnsan həyatının sosial tərəfi doğum anından başlayır və bu prosesin ilk və ən təsirli mühiti ailədir. Ailə təkcə fərdin fizioloji ehtiyaclarını qarşılayan struktur deyil, həm də onun psixoloji, emosional və sosial inkişafının əsas dayağıdır. Fərd ilk sosial öyrənmələrini, dəyərləri, davranış modellərini, münasibət qurma bacarıqlarını ailə daxilində qazanır. Bu səbəbdən, ailə yalnız şəxsi həyatın deyil, eyni zamanda geniş mənada sosial mühitin əsas komponentlərindən biri kimi çıxış edir.

Ailə aşağıdakı əsas funksiyaları yerinə yetirərək sosial mühitin ayrılmaz bir hissəsinə çevrilir:

1. Sosiallaşma funksiyası: Ailə uşağın ilk sosiallaşma mühitidir. Uşaq ailədə dil öyrənir, davranış qaydalarını mənimsəyir, dəyərləri və normativləri qəbul edir.

2. Dəyərlərin ötürülməsi: Ailə milli-mənəvi dəyərlərin, əxlaq normalarının və mədəniyyətin nəsildən-nəslə ötürülməsində vasitəçi rolunu oynayır.

3. Emosional dəstək və psixoloji təhlükəsizlik: Ailə uşağın emosional inkişafı üçün təhlükəsiz və stabil bir mühit təmin edir.

4. Nəzarət və tənzimləmə. Fikrimizcə, ailənin psixoloji rifahı onun üzvləri arasında mehriban, hörmətli, səmimi münasibətlərlə xarakterizə olunur. Belə bir atmosfer ailə funksiyalarını bütün ailə üzvləri tərəfindən dərk etməsini və vicdanla yerini yetirməsini təmin edir. Firavan ailələr öz funksiyalarının öhdəsindən uğurla gəlirlər, praktiki olaraq bir mütəxəssisin dəstəyinə ehtiyac duymurlar, çünki maddi, psixoloji və digər daxili imkanlarına əsaslanan qabiliyyətləri sayəsində uşağın ehtiyaclarını onun tərbiyəsi və inkişafı problemlərini uğurla həll edirlər. Risk qrupuna daxil olan ailələr obyektiv və subyektiv səbəblərdən (məsələn, tək valideynli ailə, aztəminatlı ailə, çoxuşaqlı ailə, əlilliyi olan ailə və s.) bəzi funksiyaların yerinə yetirilməsində çətinliklərlə xarakterizə olunur. Qeyd etmək lazımdır ki, "risk" termini bu ailələrin problem içində olduqlarını ifadə etmir, lakin bu, onların həyat şəraitlərinin pisləşdiyi təqdirdə onların disfunksiyalı ola biləcəyini göstərir.

Ailə sosial davranışların formalaşmasında tənzimləyici rol oynayır. A.Q. Xarçevin fikrincə, "*ailənin spesifik funksiyaları onun mahiyyətindən irəli gəlir və sosial hadisə kimi onun xüsusiyyətlərini əks etdirir, qeyri-spesifik funksiyalar isə müəyyən tarixi şəraitdə ailənin onları həyata keçirməyə məcbur olduğu, yaxud uyğunlaşdığı funksiyalardır*"[5, s. 29-37]. Ailənin funksional strukturu – valideynlər arasındakı münasibətlər, ailədaxili kommunikasiya səviyyəsi, emosional dəstək sistemləri, sosial və iqtisadi status – fərdin psixososial inkişafını formalaşdıran mühüm göstəricilərdir.

Müsbət və sağlam ailə mühiti uşağın empatiya, tolerantlıq, özünəinam və müstəqil qərarvermə bacarıqlarını gücləndirir. Əksinə, disfunksional ailələrdə yetişən uşaqlar psixoloji gərginlik, sosial adaptasiya çətinliyi və davranış pozuntuları ilə qarşılaşa bilərlər. Bundan əlavə, ailə ilə cəmiyyət arasında qarşılıqlı münasibətlər sistemi də diqqətə layiqdir. Ailə, bir tərəfdən cəmiyyətin mədəni və mənəvi dəyərlərini özündə daşıyaraq yeni nəslə ötürür, digər tərəfdən isə cəmiyyətin sosial-siyasi və iqtisadi şəraitindən təsirlənərək öz strukturunda dəyişikliklərə uğrayır.

Bu qarşılıqlı təsir, ailəni həm cəmiyyətin məhsulu, həm də onun formalaşdırıcısı kimi xarakterizə etməyə imkan verir.

Uşaq ailədə gördüyü emosional münasibətlər fonunda şəxsiyyətini qurur. Ata-anaların münasibəti, onların davranış tərzi, uşağın özünü dəyərli və qəbul olunmuş hiss etməsinə səbəb olur. Ailədə baş verən zorakılıq, laqeydlik və ya həddindən artıq nəzarət uşağın özünəgüvəninin azalmasına və sosial əlaqələrdən çəkinməsinə səbəb ola bilər.

Ailənin tipi və strukturu fərdin formalaşmasına və onun sosial mühitlə münasibətlərinə təsir edən əsas amillərdəndir.

– Tam ailə (ata və ana ilə birlikdə): Bu ailə tipində uşağın həm kişi, həm də qadın modeli ilə tanış olması mümkün olur.

– Natamam ailə (valideynlərdən biri ilə): Bu halda uşaqda emosional boşluq və sosial davranış pozuntuları müşahidə oluna bilər.

– Çoxuşaqlı və geniş ailə modelləri: Bu mühitlərdə uşağın sosial bacarıqları daha erkən inkişaf edir. Ailənin iqtisadi vəziyyəti, təhsil səviyyəsi və sosial statusu da mühüm rol oynayır. Sonya Rouds ailənin inkişafında əsas mərhələni müəyyən etmişdir.

• "Yaxınlıq. Ər-arvad münasibətlərinin formalaşması mərhələsidir. Hər bir partnyorda real qiymətləndirməni inkişaf etdirmək.

• Doldurma. İlk uşağın doğulmasından son uşağın məktəbə getdiyi vaxta qədər olan mərhələ. Bütün ailə üzvlərində tərbiyəvi nümunələri inkişaf etdirməkdir.

• Yoldaşlıq, ünsiyyət. Yeniyetmə uşaqları olan ailənin mərhələsi. Uşağın artan müstəqilliyinin dərk edilməsinə və yoldaşlığa əsaslanan "Valideyn-yeniyetmə" münasibətlərini inkişaf etdirmək.

• Yenidən qruplaşma. Yetkin uşaqların ailəni tərk etməsi mərhələsi. Nəsillər arasında münasibətləri dəyişdirmək, uşaqlar və valideynlər arasında "böyüklər-böyüklər" münasibətlərinə keçiddir.

• Bərpa. Valideyn qayğılarının ailədən tamamilə yox olduğu mərhələ. Uşaqsız evli cütlüyün münasibətlərini bərpa etməkdir" [6, s. 89].

Qeyd etmək lazımdır ki, ailə statik deyil, dinamik bir strukturdur. Onun üzvləri yaşlandıqca və sosial rollar dəyişdikcə ailənin funksiyaları və daxili münasibətləri də dəyişir. Bu mərhələlər psixoloqlar və pedaqoqlar üçün də praktik baxımdan əhəmiyyətlidir – çünki fərqli yaş və inkişaf dövrlərində ailəyə dəstək strategiyalarını düzgün planlamağa imkan yaradır.

Ailənin sosial mühitə və fərdin inkişafına təsiri yalnız sosial deyil, həm də psixoloji mexanizmlərlə baş verir. Ailə həm də psixoloji sağlamlıq mənbəyidir. Uşaq ətrafındakı dünya və özü haqqında ilkin məlumatları valideynlərindən alı. Bundan əlavə, valideynlər uşağa fiziki, emosional və sosial təsir etmək üçün unikal imkana malikdirlər. Sosiallaşma institutu kimi ailənin özünəməxsus xüsusiyyətləri ondan ibarətdir ki, bir tərəfdən cəmiyyətin struktur elementi, digər tərəfdən isə kiçik bir qrup kimi qəbul edilə bilər. Müvafiq olaraq, ailə sosiallaşma institutu kimi, şəxsiyyətə münasibətdə öz funksiyasını yerinə yetirərək, bir tərəfdən, makrososial təsirlərin, xüsusən də mədəni təsirlərin dirijoru, digər tərəfdən, özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunan mikrososial qarşılıqlı təsir mühitidir.

Uşağın xoşbəxtliyi ailədən, valideynlərdən asılıdır. Uşaqlara ən güclü təsir göstərən valideynlər – onların ilk tərbiyəçilərdir. *"Şəxsiyyətin psixoloji cizgiləri bir qayda olaraq şəxsiyyətlərarası münasibətlərdə əmələ gəlib, ətə və cana dolur. Başqa sözlə, uşaq sosial normaları öz-özünə deyil, ilk növbədə ana ilə ünsiyyət şəraitində sistemli tərbiyə işinin nəticəsində yiyələnir"*[3, s. 74]. Ailə tərbiyəsinin özünəməxsus üsulları vardır. Bunlar şəxsi nümunə, etibar, sevgi, empatiya, simpatiya, tərif və s. Metodların seçilməsi konkret situasiya şərtləri nəzərə alınmaqla ciddi şəkildə fərdi olur [8, s. 91]. Müxtəlif tərbiyə stilləri (avtoritar, demokratik, laqeyd və s.) uşağın özünəgüvən səviyyəsini, sosial adaptasiya qabiliyyətini və motivasiyasını formalaşdırır. Ailə konfliktləri,davamlı münaqişələr psixoloji travmalara, sosial fobiyalara və davranış pozuntularına səbəb ola bilər. Uşaqlar çox vaxt valideynlərinin davranış modelini təqlid edərək sosial rollarını müəyyənləşdirirlər. *L. Qurbanovanın fikrincə, "ailə münasibətləri uşağın özünə güvən hissinin, sosial bacarıqlarının və davranış normalarının yaranmasında əsas rol oynayır. Əgər ailədə qarşılıqlı anlayış, mehribanlıq və dəstək varsa, uşaq cəmiyyətə qarşı müsbət münasibət formalaşdırır və ətraf mühitlə uğurlu ünsiyyətə girə bilir. Əksinə, ailədə konfliktli münasibətlər, soyuqluq və laqeydlik mövcud olarsa, bu, uşağın psixoloji inkişafına mənfi təsir göstərir və onun şəxsiyyətində müxtəlif problemlərə yol açа bilər"* [4, s. 139-141. Qeyd etmək lazımdır ki, ailə həm sosial institut, həm də psixoloji mühit kimi də önəminlidir. Bu isə ailə tərbiyəsinin keyfiyyətini artırmaq və sağlam cəmiyyətin təməlini qoymaq baxımından olduqca əhəmiyyətlidir.

Ailə yalnız davranış deyil, həm də psixoloji inkişafın təməlini qoyur. Ailədə sevgi və qayğı ilə böyüyən uşaqda yüksək özünəinam, empatiya və sosial məsuliyyət hissi inkişaf edir. Əksinə, ailə mühitində zorakılıq və ya laqeydlik varsa, uşaqda daxili gərginlik və sosial fobiyalar formalaşa bilər. Ailədə sosiallaşmanın psixoloji mexanizmləri fəaliyyət göstərir. Bu da ailənin uşaa təsirinin məzmun və xarakterini təmin edir. *"Sosiallaşmanın psixoloji mexanizmlərinə möhkəmləndirmə və identifikasiya daxildir*" [10, s. 84]. Belə ki, valideynlər uşaın davranışına müəyyən şəkildə reaksiya verirlər. Uşaqlar bəzi qaydaları pozduqlarına görə valideynlər onlarıa ya irad bildirir, ya cəzalandırırlar. Beləliklə, uşaq nəyin yaxşı, nəyin pis olduğu haqqında ilk biliklərini, davranış normalarını inkişaf etdirir. Uşaqlar valideynlərini təqlid edərək, şüurlu və ya şüursuz olaraq onlardan nümunə götürürlər. Uşaqda sosial rollar, davranış normaları haqqında fikirlər edir.

Nəticə olaraq demək olar ki, ailənin sosial mühitdəki rolu nə qədər sağlam və funksional olarsa, cəmiyyətin inkişaf səviyyəsi və insan resurslarının keyfiyyəti də bir o qədər yüksək olar. Ailənin sosial mühitdəki yerinin düzgün başa düşülməsi və ona dəyər verilməsi, gələcək nəsillərin psixoloji rifahı və sosial uyğunlaşması baxımından strateji əhəmiyyət kəsb edir.

Sosial mühit anlayışı insanın həyatında və psixoloji inkişafında mühüm rol oynayan sosial-iqtisadi, mədəni və psixoloji amillərin birgə fəaliyyətini əhatə edir. Bu mühit insanın şəxsiyyətinin formalaşmasına, davranış normalarının mənimsənilməsinə və dəyərlər sisteminin qurulmasına təsir göstərən mühüm bir sahədir. Cəmiyyət isə insanların birgə yaşayış formasını təşkil edən və sosial münasibətlərin sistemli şəkildə həyata keçirildiyi sosial struktur olaraq çıxış edir. Cəmiyyətin strukturunda fərqli sosial institutlar – ailə, məktəb, kütləvi informasiya vasitələri,

dini qurumlar və digər ictimai təşkilatlar sosial mühitin əsas komponentlərini təşkil edir. Bu institutlar vasitəsilə fərd cəmiyyətə inteqrasiya olunur, sosial rolları mənimsəyir və sosiallaşma prosesindən keçir. Sosial mühitin keyfiyyəti, yəni onun təhlükəsizliyi, sabitliyi, mənəvi dəyərlərlə zənginliyi və emosional dəstək imkanları cəmiyyətin inkişaf səviyyəsi ilə birbaşa bağlıdır. Müsbət sosial mühit fərdin psixoloji rifahını artırır, onun sosial adaptasiyasını asanlaşdırır və şəxsiyyət inkişafına zəmin yaradır.

Digər tərəfdən, sosial mühitin neqativ təsirləri də mümkündür. Əgər cəmiyyətdə sosial bərabərsizlik, ayrı-seçkilik, zorakılıq və ya mənəvi deqradasiya halları geniş yayılıbsa, bu zaman fərdlərin sosial mühitə qarşı inamı azalır, emosional gərginlik artır və sosial davranışda mənfi yönümlər müşahidə olunur. Belə hallarda cəmiyyətin yenidən təşkilatlanması və sosial institutların gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Sosial mühitin cəmiyyətlə əlaqəsi həm də sosial siyasətin formalaşmasında mühüm rol oynayır. Dövlətin təhsil, səhiyyə, məşğulluq və sosial müdafiə sahələrində apardığı islahatlar sosial mühitin daha sağlam və funksional olmasına yönəlmiş tədbirlər kimi çıxış edir. Cəmiyyətin inkişafı və sosial rifahın təmin edilməsi üçün sosial mühitin tənzimlənməsi və təkmilləşdirilməsi vacibdir. Bu, həm fərdi inkişafı, həm də ümumi ictimai sabitliyi təmin edən əsas mexanizmlərdən biridir.

Ailə və cəmiyyət qarşılıqlı təsir şəraitində mövcuddur. "*Ailə cəmiyyətin ayrılmaz hissəsidir, şəxsiyyətin formalaşması qabiliyyətidir"*[9,s. 247-251]. Cəmiyyətin dəyərləri ailəyə ötürülür, eyni zamanda ailənin tərbiyə etdiyi fərdlər gələcəkdə cəmiyyətin üzvünə çevrilərək bu dəyərləri ya davam etdirir, ya da dəyişdirir.

Ailə və cəmiyyət bir-biri ilə qarşılıqlı təsir və əlaqə içində olan iki fundamental sosial institutdur. Ailə cəmiyyətin ilkin və ən kiçik vahidi olmaqla, insanın sosial həyata inteqrasiyasının baş verdiyi ilk mühitdir. Hər bir fərd ilk sosial təcrübəsini ailədə qazanır və burada formalaşan dəyərlər, davranış modelləri və normativ yanaşmalar onun gələcəkdə cəmiyyətdə tutacağı mövqeyə ciddi təsir göstərir.

Cəmiyyət isə ailələrin ümumi birliyindən ibarət olan daha geniş sosial strukturdur. Ailələr cəmiyyətin dayağını təşkil etməklə yanaşı, cəmiyyətin ideoloji, iqtisadi, hüquqi və mədəni sistemlərinin daşıyıcısı rolunu oynayır. Cəmiyyətin verdiyi qanunlar, iqtisadi imkanlar və sosial dəstək mexanizmləri ailənin rifahını və funksional fəaliyyətini birbaşa təsir altında saxlayır.

Ailə cəmiyyətdə mövcud olan dəyərləri və sosial normaları nəsildən-nəslə ötürərək cəmiyyətin davamlılığını təmin edir. Eyni zamanda, cəmiyyətdə baş verən dəyişikliklər (məsələn, urbanizasiya, texnoloji inkişaf, iqtisadi böhran və s.) ailə modelinə və funksiyalarına da təsir göstərir. Bu baxımdan ailə və cəmiyyət arasında dialektik əlaqə mövcuddur. Ailənin sosial statusu, təhsil səviyyəsi və mədəni mühiti, cəmiyyətin inkişaf səviyyəsi ilə birbaşa əlaqəlidir. Sağlam və funksional ailələrdən ibarət olan cəmiyyətlər daha davamlı, etik dəyərlərə söykənən və sosial məsuliyyətli fərdlər yetişdirir.

Nəticə etibarilə, sosial mühit və cəmiyyət arasında qarşılıqlı təsir əlaqəsi mövcuddur. Ailə və cəmiyyət bir-birini qarşılıqlı şəkildə formalaşdıran və gücləndirən iki əsas strukturdur. Ailə cəmiyyətin təməlini təşkil edir, cəmiyyət isə ailənin formalaşması və qorunması üçün sosial çərçivə yaradır. Bu iki institut ara-

sında olan ahəng və koordinasiya cəmiyyətin sosial sabitliyi və inkişafı üçün həyati əhəmiyyət daşıyır.

Sosial mühitin keyfiyyəti cəmiyyətin ümumi sağlamlığının göstəricisi olduğu kimi, cəmiyyətin quruluşu və dəyərlər sistemi də sosial mühitin formalaşmasında əsas faktorlardandır. Bu baxımdan, sosial mühitin elmi tədqiqi cəmiyyətin davamlı inkişafı üçün zəruri şərtlərdən biridir.

İnsanın dünyaya, insanlara münasibəti, həyata baxışı onun böyüdüyü sosial mühitdən asılıdır. Uşaq üçün ailə onun doğulduğu yer və onun əsas yaşayış yeridir. Ailəyə uşaığı olduğu kimi anlayan və qəbul edən yaxın adamlar daxildir. Ailədə uşaq böyütmək valideynlərin borcudur. Uşağın müxtəlif fəaliyyətlərdə uğur qazanması ata və ana arasındakı ailə münasibətlərinin xarakterindən asılıdır. D.İ.Feldshteynə görə "*uşaq üçün valideynlər eyni zamanda fəaliyyət, qarşılıqlı əlaqə və ümumi sosiallıq modelini təyin edirlər"* [12, s. 42].. Valideynlər uşaqlarda öyrənməyə müsbət münasibət aşılamalı, onları ictimai faydalı fəaliyyətə hazırlamalı, fəallığı, müstəqilliyi stimullaşdırmalı, onları nizam-intizamlı olmağa alışdırmalı, sağlamlıqlarına qayğı göstərməyi öyrətməli, fəal həyat mövqeyi formalaşdırmalıdırlar. Ailənin məqsədi övladının fiziki, əqli, əxlaqi və sosial sağlamlığını dəstəkləmək, onun şəxsi keyfiyyətlərinin inkişafı üçün optimal şərait yaratmaqdır.

Şəxsiyyətin formalaşması və inkişafının bütün yaş mərhələlərində ailə həm böyüklərin, həm də uşaqların tərbiyəsində aparıcı amildir. R.M. Çumiçevin fikrincə, "Ailənin sosial mühit kimi uşağı böyütmək üçün ötürdüyü dəyərlər uşaqlıq subkulturasını dəyişdirir" [11, s. 39]. Fikrimizcə, ailə uşağın ilkin sosiallaşma mühiti kimi onun davranış, düşüncə və dəyərlər sisteminin formalaşmasında mühüm rol oynayır. Uşağa ailə vasitəsilə ötürülən mədəni norma və dəyərlər onun mənsub olduğu subkulturanın tərkibini dəyişə bilər. Məsələn, ailəsi tərəfindən fərqli dəyərlərlə böyüdülən uşaq ümumi cəmiyyətin dominant mədəniyyətindən fərqli bir subkultura nümayəndəsinə çevrilə bilər. Belə hallarda: – Ailə milli-mənəvi dəyərlərə üstünlük verərsə, uşaq bu xətti öz subkulturasında əsas götürə bilər. – Ailə liberal, individualist və ya dini dəyərlərə əsaslanırsa, bu da uşağın fərqli bir subkultura mənsubu kimi yetişməsinə gətirib çıxarar.Yəni, ailə dəyərləri uşağın hansı dəyərlər sistemində böyüyəcəyini, hansı norma və davranışları qəbul edəcəyini müəyyənləşdirərək onun subkulturasına təsir göstərir. Ailənin ötürdüyü dəyərlər uşağın dünyagörüşünə, ətrafla münasibətinə və identikliyinə birbaşa təsir edir. Lakin bu təsir digər sosial institutlarla qarşılıqlı təsirdə formalaşır.

Ailə insanın inkişaf etdiyi, formalaşdığı sosial mühitin əsasıdır, Ailədə uşağın sosializasiyası özünə ikitərəfli prosesi daxil edir: bir tərəfdən valideynlərin və digər ailə üzvlərinin uşağa təsiri, digər tərəfdən uşağın valideynlərə və digərlərinə təsiri. Bu o deməkdir ki, uşaq sosializasiyanın müəyyən amillərinin təsirini passiv mənimsəmir. Ailə – qan qohumluğu, nikah və ya övladlığa götürmə əsasında formalaşan, birgə yaşayış, qarşılıqlı məsuliyyət və mənəvi dəstəyə əsaslanan kiçik sosial qrupdur. Sosial mühit isə insanın yaşadığı cəmiyyət, münasibətlər sistemi və ətraf mühitin bütövlüyünü əhatə edir. Ailə bu mühitin ilkin və daimi komponentidir. *"Ailə fərdin həyatının ilkin mərhələlərində onun gələcək inkişafı üçün yeganə və vacib, daha sonralar isə onun cəlb edildiyi daha vacib sosial qrupdur. Ailədə baş verən hadisələr bir qayda olaraq əmək fəaliyyəti, qonşuluq münasibətlərindən fərqli olaraq fərdin "ürəyinə daha yaxın" hadisələr kimi qəbul olunur"*

[2, s. 64]. Təbii ki,hər bir fərdin ilk sosial təcrübəsi ailədə başlayır və bu proses onun gələcək sosiallaşma səviyyəsinə birbaşa təsir edir.

Sosial mühitin dəyişməsi ailəyə birbaşa təsir edir. Məsələn: Maddi çətinliklər ailə münasibətlərinə və tərbiyə prosesinə mənfi təsir göstərə bilər. – Texnoloji inkişaf: Rəqəmsal aləmin ailədaxili ünsiyyətə və tərbiyə prosesinə təsiri həm müsbət, həm də mənfi ola bilər.

Eyni zamanda ailənin də cəmiyyətə təsiri vardır. Sağlam ailələr sağlam cəmiyyətin əsasını təşkil edir. Ailədə formalaşmış sosial dəyərlər və davranışlar ictimai münasibətlərə transfer olunur.Qloballaşma və informasiya cəmiyyətinin inkişafı ailə institutunun qarşısında yeni çağırışlar yaradır. Valideynlərin məşğulluq səviyyəsinin artması, boşanma hallarının çoxalması, uşaq tərbiyəsində virtual aləmin rolu kimi faktorlar ailənin sosial funksiyalarını zəiflədə bilər. Buna görə də ailə institutunun sosial müdafiəsi və gücləndirilməsi dövlət və cəmiyyət üçün prioritet məsələ olmalıdır.

İşin aktuallığı. Ailə institutunun rolu müasir dövrdə xüsusilə aktuallaşır. Qloballaşma, texnoloji inkişaf, urbanizasiya və informasiya cəmiyyətinin yaratdığı yeni çağırışlar ailənin sosial funksiyalarına təsir göstərir. Ailənin sosial mühitdəki rolu və cəmiyyətlə qarşılıqlı təsiri gələcək nəsillərin psixoloji rifahı, sosial uyğunlaşması və davamlı cəmiyyət inkişafı baxımından strateji əhəmiyyət kəsb edir. Bu baxımdan ailənin funksional strukturunun qorunması və disfunksional ailələrin yaranma risklərinin azaldılması dövlət və cəmiyyət üçün prioritet məsələlərdəndir.

Elmi yeniliyi. Bu məqalənin elmi yeniliyi ailənin sosial mühitdəki rolunu psixososial və davranış aspektləri ilə sistemli şəkildə tədqiq etməsidir. Burada yalnız ailənin bioloji funksiyaları deyil, həm də fərdin şəxsiyyətinin formalaşması, emosional stabilliyi və sosiallaşması üzərindəki təsiri analiz olunur. Məqalə ailənin struktur və tərbiyə modellərinin fərdin dəyərlər sistemi və sosial bacarıqlarına necə təsir etdiyini göstərir. Bu yanaşma mövcud tədqiqatlardan fərqli olaraq, ailə və sosial mühitin qarşılıqlı təsir mexanizmlərini hərtərəfli şəkildə işıqlandırır.

Nəticə. Ailə cəmiyyətin əsas struktur vahidi olmaqla, insanın sosiallaşma prosesində əvəzolunmaz rol oynayır. Ailə təkcə bioloji ehtiyacların ödənildiyi yer deyil, həm də mənəvi, psixoloji və sosial ehtiyacların qarşılandığı bir mühitdir. Bu baxımdan ailə sosial mühitin mühüm komponenti kimi çıxış edir. Beləliklə, ailə insanın sosial mühitlə ilk və ən əhatəli təmas nöqtəsidir. Fərdin şəxsiyyət kimi formalaşması, davranış qaydalarını öyrənməsi, sosial bacarıqlar qazanması və psixoloji tarazlığının inkişafı məhz ailə mühitində baş verir. Ailə sosial mühitin ən mühüm və təsiredici komponenti olmaqla, fərdin gələcək həyatında cəmiyyətlə münasibətlərini müəyyən edən ilkin baza rolunu oynayır.

Ailənin funksional strukturu – valideynlər arasındakı münasibətlər, ailədaxili kommunikasiya səviyyəsi, emosional dəstək sistemləri, sosial və iqtisadi status – fərdin psixososial inkişafını formalaşdıran mühüm göstəricilərdir. Müsbət və sağlam ailə mühiti uşağın empatiya, tolerantlıq, özünəinam və müstəqil qərarvermə bacarıqlarını gücləndirir. Əksinə, disfunksional ailələrdə yetişən uşaqlar psixoloji gərginlik, sosial adaptasiya çətinliyi və davranış pozuntuları ilə qarşılaşa bilərlər.

Bundan əlavə, ailə ilə cəmiyyət arasında qarşılıqlı münasibətlər sistemi də diqqətə layiqdir. Ailə, bir tərəfdən cəmiyyətin mədəni və mənəvi dəyərlərini özün-

də daşıyaraq yeni nəslə ötürür, digər tərəfdən isə cəmiyyətin sosial-siyasi və iqtisadi şəraitindən təsirlənərək öz strukturunda dəyişikliklərə uğrayır. Bu qarşılıqlı təsir, ailəni həm cəmiyyətin məhsulu, həm də onun formalaşdırıcısı kimi xarakterizə etməyə imkan verir.

Nəticə olaraq demək olar ki, ailənin sosial mühitdəki rolu nə qədər sağlam və funksional olarsa, cəmiyyətin inkişaf səviyyəsi və insan resurslarının keyfiyyəti də bir o qədər yüksək olar. Ailənin sosial mühitdəki yerinin düzgün başa düşülməsi və ona dəyər verilməsi, gələcək nəsillərin psixoloji rifahı və sosial uyğunlaşması baxımından strateji əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Bayramov, Ə. S., & Əlizadə, Ə. Ə. (2003). Psixologiya. Bakı.
2. Çələbiyev, N. Z. (2015). Ailə psixologiyası. Mütərcim.
3. Qurbanova, L. (2013). Ailə psixologiyası (pp. 139-141). Bakı.
4. Sarıyeva, S. (2024). Müasir təhsil mühitində emosional münasibətlər. Mütərcim.
5. Кирилова, Н. А. (2000). Ценностные ориентации в структуре интегральной индивидуальности старших школьников. Вопросы психологии, (4), 29-37.
6. Кричевский, Р. Л. (2001). Социальная психология малой группы (89 с.).
7. Николаев, В. Г., et al. (Eds.). (2010). Интеракционизм в Американской социологии и социальной психологии первой половины XX век: Сборник переводов (с. 236). РАН ИНИОН.
8. Миниерова, В. М. (Ed.). (2006). Психология семейного воспитания (с. 91). Влвдос.
9. Полещук, Н. Е. (2021). Роль современной семьи в развитии духовно-нравственных качеств у детей младшего дошкольного возраста. In Нравственные ценности и будущее человечества: сборник статей 22 Международных аксиологических чтений (pp. 247-251). Омск.
10. Хоментаускас, Г. Т. (2003). Семья глазами ребенка (с. 84). РИПОЛ-КЛАССИК.
11. Чумичева, Р. М. (2003). Антропологический взгляд на ребенка как открытую систему. In Л. Л. Редько & Е. Н. Шиянова (Eds.), Теоретические и прикладные проблемы детской антропологии (ч.1, p. 39). Ставрополь.
12. Фельдштейн, Д. И. (2009). Психология развития человека как личности: Избранные труды (429 с.). МПСИ, Воронеж.

Sevinc Sariyeva

Summary

THE FAMILY AS A COMPONENT OF THE SOCIAL ENVIRONMENT

This article examines the role and importance of the family as a key component of the social environment. It analyzes the family's influence on individual socio-psychological development, personality formation, and integration into society. The study discusses the functions of the family, its structural characteristics, and its role in the socialization process.

Objective: The main objective of this article is to deeply examine the effects of technological development on society and state structures, particularly on legal systems. The article will explore the application of artificial intelligence and its impact on the legal environment, as well as how technology integrates into the social dynamics of society and its effects on state and legislative processes.

Methodology: This article is to investigate the impact of the family, as a key component of the social environment, on human psychosocial development. Basically, the family, as the first socialization environment of an individual, plays an important role in the formation of his personality, emotional balance and social behavior. The family environment also plays a fundamental role in terms of transmitting social norms and values, providing psychological support and adapting the individual to social life.

Research results: This article emphasizes the crucial role of the family as a key component of the social environment in shaping society and supporting individual development. It analyzes the influence of the family on a child's emotional, psychological, and social growth, including the formation of behavior patterns, values, and motivation.

Севиндж Сарыева

Резюме

СЕМЬЯ КАК КОМПОНЕНТ СОЦИАЛЬНОЙ СРЕДЫ

В данной статье рассматривается роль и значение семьи как ключевого компонента социальной среды. Анализируется влияние семьи на социально-психологическое развитие личности, формирование характера и интеграцию в общество. Обсуждаются функции семьи, её структура и роль в процессе социализации.

Цель: Основная цель этой статьи – исследовать влияние семьи как ключевого компонента социальной среды на психосоциальное развитие человека и научно оценить роль семьи в формировании личности ребенка, поддержании эмоциональной стабильности и адаптации к социальным отношениям.

Методология: Эта статья основана как на существующих теоретических подходах в области психологии и социальных наук. В основном семья, как первая среда социализации индивида, играет важную роль в формировании его личности, эмоционального равновесия и социального поведения. Семейная среда также играет основополагающую роль с точки зрения передачи социальных норм и ценностей, оказания психологической поддержки и адаптации индивида к социальной жизни.

Результаты исследования: В статье подробно анализируется важная роль семьи, как одного из компонентов социальной среды, в формировании общества и развитии личности. Анализируется влияние семьи на эмоциональное, психологическое и социальное развитие ребенка, ее функция в формировании его поведения, ценностей и мотивации.

Rəyçi: prof.Q.Vəliyev

Fəridə Şükürlü
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu

10.30546/2518-752X.1.601.0175

SOSİAL TƏSİRİN PSİXOLOGİYASI: İNSAN DAVRANIŞLARINA TƏSİR MEXANİZMLƏRİ

Açar sözlər: *Sosial təsir, Uyğunlaşma, Qrup təsiri, Sosial normalar, Konformizm , Məcburi sosial normlar, Təsviri sosial normlar*

Keywords: *Social influence, Adaptation, Group influence, Social norms, Conformity Prescriptive social norms, Descriptive social norms*

Ключевые слова: *Социальное влияние, Адаптация, Групповое влияние, Социальные нормы, Конформизм, Обязательные социальные нормы, Описательные социальные нормы*

Giriş. Sosial təsir, insanların başqalarının davranışlarına, fikirlərinə və emosiyalarına təsir etməsi prosesidir. Bu təsir, insanlar arasında ünsiyyət, müşahidə, təzyiq və ya sosial qrupların normasına uyğunlaşması nəticəsində ortaya çıxır. Başqalarının aşkar davranışını dəyişdirmək məqsədilə edilən birbaşa cəhdlər adətən "riayət etmək" (və ya riayət etməyi istəmək) olaraq adlandırılır; bunlar, onlara cavab olaraq "Bəli", "Xeyr" və ya "Bəlkə" deyə bilən şəxslərə edilən konkret xahişlərdir. Çox vaxt, başqalarının davranışını dəyişdirmək cəhdləri, müəyyən bir vəziyyətdə hansı davranışın uyğun və ya tələb olunduğunu göstərən qaydaların və göstərişlərin təsirini əhatə edir. Bunlar rəsmi ola bilər, məsələn, sürət hədləri, oyunlar və ya idmanlar üçün qaydalar, geyim qaydaları (əgər hələ də mövcuddursa!); və ya qeyri-rəsmi ola bilər, məsələn, "İctimai yerlərdə yad adamlara baxma" kimi ümumi qayda. Bu cür təsirə "uyğunlaşma" deyilir və sosial həyatın mühüm bir hissəsidir. Nəhayət, dəyişiklik başqalarından verilən birbaşa əmrlər və ya göstərişlərlə – itaətlə də həyata keçirilə bilər. Bu mövzuda biz bu sosial təsirin rolunu araşdıracağıq. Sosial təsirin təbiəti və gücü haqqında geniş bir ümumi baxış vermək üçün aşağıdakı addımlarla davam edək. İlk olaraq, sosial psixologiya tərəfindən araşdırılan ilk sosial təsir aspektlərindən biri olduğu üçün uyğunlaşmanı incələyirik, sonra bir qrup tərəfindən qəbul edilən və ya uyğun görülən şəkildə davranmaq üçün tətbiq olunan təzyiqlər.

Ümumilikdə, biz riayət etməyə keçirik başqalarının davranışını konkret şəkildə dəyişdirmək üçün edilən birbaşa cəhdlər (Cialdini, 2006; Sparrowe, Soetjipto, & Kraimer, 2006). Bundan sonra, sosial təsirin ən maraqlı formasını araşdırırıq başqa insanların bizim davranışımıza təsir etmək üçün heç bir birbaşa cəhd etmədikləri halda baş verən təsirlər (məsələn, Fitzsimons & Bargh, 2003). Biz belə təsirləri simvolik sosial təsir adlandırırıq, çünki bu təsir, başqalarının faktiki mövcudluğundan və ya aşkar hərəkətlərindən çox, onlara dair zehni təsəvvürlərimizdən yaranır. Sonra, başqa sosial təsiri: itaət bir şəxsin sadəcə olaraq digərlərinə

istədiklərini etməyi əmr etməsi ilə baş verən sosial təsir formalarını açmağa çalışacağıq.

Uyğunlaşma: Fəaliyyətdə Qrup Təsiri

Bu başlıq, uyğunlaşmanın, yəni insanların qrupun tələblərinə və gözləntilərinə uyğun olaraq davranmalarını araşdırır. Bu, sosial təsirin güclü bir formasıdır və insanların davranışlarını başqalarının gözləntilərinə uyğunlaşdırmağa vadar edir. Qrupların üzvləri, hər hansı bir vəziyyətdə müəyyən davranışların "doğru" və ya "yanlış" olduğuna dair qaydalara və normalara riayət edirlər. Uyğunlaşma, insanların başqalarının təsirinə qarşı necə reaksiya verdiklərini və necə qrup dinamikalarının və sosial təzyiqlərin təsiri altında öz davranışlarını dəyişdirdiklərini göstərir. Belə bir vəziyyətdə iştirak edən insanlar, potensial olaraq bir çox fərqli şəkildə davranış göstərə bilərlər. Lakin, çox güman ki, nə edəcəklərini böyük bir dəqiqliklə proqnozlaşdıra bilərsiniz. Məsələn Dərs zamanı telefonu zəng çalan tələbə dərhal telefonunu söndürəcək və bəlkə də yaxınlıqdakı digər sinif yoldaşlarından üzr istəyəcək. Və ya yolda təcili yardım səsini eşidəndə dərhal maşını sağa çəkib yol verirsən. Normaların daha aydın olduğu vəziyyətlərdə, çox insanın uyğunlaşma göstərəcəyini görmək olar, amma bu kimi normaların daha az aydın olduğu vəziyyətlərdə, hansı hərəkətin "düzgün" olduğunu göstərmək çətin ola bilər. Bu və bir çox başqa situasiyalarda başqalarının davranışlarını (və özümüzün də) kifayət qədər inamla proqnozlaşdıra bilməyimiz, onların güclü və ümumi təsirlərini göstərir. Yəni, uyğunluğa qarşı təzyiqlər müəyyən bir vəziyyətdə bizdən gözlənilən həərəkəti etməyə sövq edir. Başqa sözlə, uyğunlaşma, bizim qaydalara uyğun şəkildə necə davranmağımız üçün tətbiq olunan təzyiqləri ifadə edir. Bu qaydalar sosial normalar olaraq bilinir və tez-tez davranışımıza güclü təsir göstərir[7].

Bəzi hallarda, sosial normalar açıq şəkildə ifadə edilir və olduqca ətraflı olur. Məsələn, ümumiyyətlə hökumətlər yazılı konstitusiyalar və qanunlarla fəaliyyət göstərir; şahmat və digər oyunların çox spesifik qaydaları var; və bir çox ictimai yerdə (məsələn, avtomobil yolları, parklar, hava limanlarında) gözlənilən davranışları ətraflı şəkildə təsvir edir (məsələn, Dayan!; Üzmək Qadağandır; Avtomobil Park Etmək Qadağandır; Otlaqda Gəzinti Qadağandır vs). Digər situasiyalarda normalar səssiz və ya gizli ola bilər və ya, tamamilə qeyri-rəsmi şəkildə inkişaf etmiş ola bilər. Məsələn, biz hamımız qeyd edilməmiş qaydaları tanıyırıq "Konsert zamanı səs-küy salmayın" və "İşdə etik qaydalara əməl edin" Sosial normaların açıq və ya gizli, formal və ya qeyri-rəsmi olmasından asılı olmayaraq. Lakin bir fakt aydındır ki insanların çoxu əksər zaman buna tabe olurlar. Məsələn, şəxsi siyasi inanclarından asılı olmayaraq, demək olar ki, hər kəs öz ölkələrinin milli himni idman tədbirlərində və ya digər ictimai yığıncaqlarda çalındıqda ayağa qalxır. Eynilə, az sayda insan restoranlara gedəndə, xidmətçiyə bahşiş qoymadan çıxır. Əslində, bu sosial norma o qədər güclüdür ki, insanlar göstərilən xidmətin keyfiyyətindən asılı olmayaraq bunu edir.

İlk baxışdan, bu güclü uyğunlaşma meyli cəmiyyətin və ya qrupun müxtəlif vəziyyətlərdə necə davranmalı olduğumuz barədə gözləntilərə, uyğun gəlmək etiraz doğura bilər. Bu, şəxsi azadlığa məhdudiyyətlər qoyur. Lakin, əslində, bu qədər uyğunluq üçün güclü əsas var: onun olmaması halında biz sosial xaosla qarşılaşardıq. Təsəvvür edin ki, əgər insanlar "Sıra təşkil edin və növbənizi gözləyin" normasına əməl etməsələr, kinoteatrların, stadionların və ya supermarket kassala-

rının qarşısında nə baş verərdi. Və əgər aydın və geniş şəkildə tətbiq olunan yol hərəkəti qaydaları olmasaydı, sürücülər və piyada üçün yaranan təhlükəni nəzərə alın. Beləliklə, bir çox vəziyyətdə uyğunlaşma çox faydalı bir funksiyanı yerinə yetirir [9]. Əgər heç vaxt, yol hərəkəti qaydalarının geniş şəkildə nəzərə alınmadığı və ya sadəcə təkliflər kimi görüldüyü bir ölkədə sürücülük etmək qeyri mümkün olardı. İnsanlar sosial qaydalara əməl etmədikdə, onların hərəkətləri qeyri-müəyyəndir və təhlükəli ola bilər!

İnsanların uyğunlaşmasının bir başqa səbəbi də sadəcə olaraq başqalarına yaxşı görünməkdir onlarda müsbət təəssürat yaratmaqdır. Məsələn, iş yerində bir çox işçi, şirkətlərin dəyərləri və məqsədləri ilə razıymış kimi görünən, amma əslində belə olmayan uyğunlaşmanı qəbul edirlər (Hewlin, 2009). Məsələn, onlar həqiqətən inandıqları şeyləri demirlər, şirkətlərin dəyərlərindən fərqli olan şəxsi dəyərlərini basdırırlar və özləri haqqında müəyyən şeyləri gizli saxlayırlar. Bunu etməyi sevməsələr də, karyeralarını irəlilətmək üçün zəruri hesab edirlər. Bu addımları, işlərinin necə idarə olunduğuna (öz işləri də daxil olmaqla) az təsirləri olduqda və işdən çıxmağı planlaşdırdıqları zaman bu addımı ata bilirlər beləliklə, müsbət bir tövsiyə alacaqlarına əmin olurlar! Qısacası, insanlar tez-tez uyğunlaşmanı özünü təqdim etmə taktiki olaraq istifadə edirlər.

Konformizm sosial həyatın bir faktıdır: Biz dostlarımızla eyni paltar üslublarını geyinir, eyni musiqiləri dinləyir, eyni filmləri izləyir və ya eyni kitabları və jurnalları oxuyuruq. Ümumilikdə, biz dostlarımız və ailəmizlə oxşar olduqda özümüzü daha çox rahat hiss edirik, nəinki onlardan fərqli olduqda. Lakin biz bu qədər çox təsirləndiyimizi nə qədər dərk edirik? Araşdırmanın nəticələri göstərir ki, biz bunu başa düşmürük. Əksinə, biz özümüzü bir növ "quzu sürüsündən" fərqlənən kimi düşünürük! Digərləri konformist ola bilər, amma biz? Heç vaxt! Bir çox Avropa olkələrində, biz özümüzü müstəqil hesab edirik və "öz yolumuzu gedirik", başqalarının hərəkətlərindən asılı olmayaraq. Bizim başqalarına nisbətən daha az konformizm təzyiqinə tabe olduğumuzu düşündürən dəlil, Pronin, Berger və Molouki (2007) tərəfindən aparılan tədqiqatlarda göstərilir. Onlar belə bir nəticəyə gəlmişdilər ki, insanlar sosial təsirin öz hərəkətlərinə olan təsirini çox kiçik qiymətləndirirlər, çünki bu hərəkətləri başa düşməyə çalışarkən, açıq-aydın hərəkətlərə deyil, daxili məlumatlara fokuslanırlar. Biz hər birimiz öz düşüncələrimiz və hisslərimizi yaxşı bilirik, amma başqalarının düşüncə və hisslərindən xəbərdar deyilik, buna görə də başqalarının və bizim konformizm təzyiqinə nə qədər tabe olduğumuzu qiymətləndirərkən, sosial təsirin öz hərəkətlərimizi formalaşdırmaqda başqalarına nisbətən daha az əhəmiyyətli olduğunu düşünürük. Məsələn, biz "populyar" üslublarda geyinirik, çünki bunu bəyənirik başqaları onları geyindiyinə görə yox. Lakin digər insanlara eyni münasibəti göstərməyə bilirik, onların "quzu" olub, sürüyü izlədiklərini düşünürük [3]. Pronin və həmkarları buna introspeksiya illüziyası adlandırırlar, çünki tez-tez konformizm qeyri-şüurlu şəkildə baş verir və buna görə də bizim introspeksiyamızdan (diqqətimizdən) qaçır.

Muzafer Sherifin (1937) avtokinetik fenomenlə bağlı araşdırması:

Normalar necə yaranır?

Sosial təsirin şəxsi qəbulunun aydın bir nümunəsi, sosial psixologiyanın digər bir qurucusu olan Muzafer Sherif (1937) tərəfindən illər əvvəl təqdim edilib. Sherif bir neçə sualla maraqlanırdı, amma bunlardan ikisi ən önəmlisi idi: **1) So-**

sial qruplarda normalar necə yaranır? və **2) Normalar meydana çıxdıqdan sonra onların davranışa təsiri nə qədər güclüdür?** Bu məsələləri araşdırmaq üçün o, çox maraqlı bir vəziyyətdən istifadə etdi, bu, **avtokinetik** fenomeni ilə əlaqəli idi. Bu fenomen, tam qaranlıq bir otaqda yerləşdirildikdə və sabit bir işıq nöqtəsinə baxıldıqda, əksər insanların işığın hərəkət etdiyini qavraması faktını ifadə edir. Bunun səbəbi, qaranlıq otaqda məsafə və yerə dair heç bir aydın işarənin olmamasıdır. Qavranan hərəkət isə avtokinetik fenomen kimi tanınır.

Sherif (1937) başa düşdü ki, o, bu vəziyyəti sosial normaların yaranmasını öyrənmək üçün istifadə edə bilər. Bunun səbəbi, işığın nə qədər hərəkət etdiyi ilə bağlı əhəmiyyətli bir qeyri-müəyyənliyin olmasıdır və müxtəlif insanlar bunu müxtəlif məsafələrdə hərəkət edirmiş kimi qəbul edirlər. Beləliklə, bu vəziyyətdə bir neçə digər insanla bir araya gəldikdə və onlardan işığın nə qədər hərəkət etdiyini bildirmələri istəndikdə, onlar bir-birinə təsir edirlər və tezliklə müəyyən bir hərəkət miqdarı üzərində razılaşırlar; bu razılaşma bir növ qrup normasını təşkil edir. Əgər eyni insanlar sonra yalnız bu vəziyyətə salınarsa, onlar qrup normasına uyğun olaraq işığın hərəkətini qiymətləndirməyə davam edirlər, buna görə də aydın olur ki, belə normaların təsiri davam edir. Bu, göstərir ki, bu təsirlər, tədqiqatlarda iştirakçıların əslində hansı dəyişiklikləri əks etdirdiyini göstərir şəxsi qəbul və ya öhdəlik; onlar artıq qrupda olmasalar da, qrup normasına tabe olmağa davam edirlər[8].

Sherif'in tapıntıları, sosial normaların bir çox vəziyyətdə xüsusən də qeyri-müəyyən halda necə inkişaf etdiyini izah etməyə kömək edir. Bizim "düzgün" olmaq, uyğun bir şəkildə davranmaq kimi, vacib bir istəyimiz var və sosial normalar bu məqsədə çatmağa kömək edir. Yuxarıda qeyd etdiyimiz kimi, bu, sosial təsirin əsas təməlidir; başqa bir təməl isə başqaları tərəfindən qəbul olunmaq və onlara xoş gəlmək istəyidir ki, bu bəzən Hewlin (2009) tərəfindən araşdırılan və müzakirə edilən "uyğunluq fasadlarını" ilə əlaqədardır. Birlikdə, bu iki faktor sosial təsirin güclü bir qüvvə olmasını təmin edir və bu qüvvə çox vaxt davranışımıza güclü təsir edə bilir.

Asch'in tədqiqatı sosial psixologiyada çox sayda fəaliyyətin başlanğıcı oldu, çünki bir çox digər tədqiqatçılar konformizm təbiətini araşdırmaq, ona təsir edən amilləri müəyyənləşdirmək və onun sərhədlərini müəyyən etmək üçün çalışdılar (məsələn, Crutchfield, 1955; Deutsch & Gerard, 1955). Həqiqətən də, belə tədqiqatlar bu gün də davam edir və sosial təsirin bu vacib formasını təsir edən amillər haqqında anlayışımızı genişləndirməyə davam edir (məsələn, Baron, Vandello& Brunsman, 1996; Lonnqvist, Leikas, Nissinen, & Verkasalo, 2006).

Uyğunluğa Təsir Edən Amillər: Bizim "Göstəriş" Səviyyəmizi Müəyyən Edən Dəyişənlər Bəzi tədqiqatlar uyğunlaşmağa güclü təzyiqlərin mövcudluğunu göstərdi, uyğunluq bütün şəraitlərdə eyni dərəcədə baş vermir. Niyə? Başqa sözlə, fərdlərin uyğunluq təzyiqinə nə qədər tabe olmalarını və ya ondan nə qədər müqavimət göstərmələrini müəyyən edən amillər hansılardır? Araşdırma nəticələri göstərir ki, bu prosesdə bir çox amil rol oynayır; biz isə ən vacib olanları araşdırırıq. Bu suallar sosial psixologiyada insanların qrup təzyiqlərinə necə reaksiya verdiklərini və bu reaksiya dərəcəsini nəyin müəyyən etdiyini anlamağa çalışır. Müxtəlif faktorlar, məsələn, şəxsi inam, qrupun böyüklüyü, həmçinin sosial və mədəni kontekst, bu uyğunlaşma prosesinə təsir edir[1].

Birlik və uyğunluq: bəyəndiyimizdən təsirlənmək.

Bizim uyğunlaşma meyilimizə güclü təsir edən amillərdən biri qrupun birləşməsidir: bu, sosial bir qrupa nə qədər cəlb olunduğumuzu və ona daxil olmaq istədiyimizi göstərir (məsələn, Turner, 1991). Qrupun birləşməsi nə qədər güclü olarsa, biz o qədər çox qrupun normalarına (yəni, qaydalarına) riayət etməyə meylli olarıq. Bu, təəccüblü deyil: biz qrupun üzvü olmağı nə qədər dəyərli hesab edirik və digər üzvlər tərəfindən qəbul edilməyi istəyirik, bizi onlardan ayıracaq heç bir şeyi etməməyə çalışırıq. Buna görə də, nüfuzlu yoldaşlıq, dostluq çox zaman özlərinə qoşulmaq istəyən üzvlərdən yüksək uyğunlaşma səviyyələri gözləyir, çünki bu üzvlər yüksək seçici qruplara qoşulmaq üçün çox həvəsli olurlar. Eynilə, başqalarına bənzəmək və onlara oxşamaq, onların razılığını qazanmaq üçün yaxşı yoldur. Başqa sözlə, qrupun birləşməsi və qəbul olunmaq istəyi, uyğunlaşma meyilini gücləndirən amillər kimi qiymətləndirilə bilər.

Uyğunluq və qrup ölçüsü: Sosial təzyiq baxımından niyə daha yaxşıdır.

Sosial təzyiq və uyğunlaşma arasındakı əlaqəni anlamaq üçün qrupun böyüklüyü mühüm bir faktordur. Araşdırmalar göstərir ki, qrupun sayı artdıqca, uyğunlaşma meyili də artır. Yəni, bir qrupa nə qədər çox insan daxil olarsa, o qədər çox təzyiq yaranır və bir fərd bu təzyiqə tabe olmaq istəyir. Bu fenomenin əsas səbəbi, insanların qrupun normlarına uyğun davranma ehtiyacı və qəbul edilmə arzusudur. Qrup böyüdükcə, hər bir üzvün öz yerini qorumaq və sosial bağlarını gücləndirmək istəyi də artır. Beləliklə, daha böyük qruplarda uyğunlaşma təzyiqi daha güclü olur. Bu, xüsusilə insanlar çoxluğun fikrini daha çox dəyərləndirəndə və qrupdan kənar qalmaqdan çəkinəndə daha aydın hiss edilir. Həmçinin, qrup böyüdükcə, fərdlərin bir-birinə təsir etmə gücü də artar, bu da uyğunlaşma səviyyəsini yüksəldir. Lakin, qrupun ölçüsü bir müddətdən sonra müəyyən bir həddə çatdıqda, uyğunlaşma təzyiqi artmır, çünki artıq hər bir fərd daha az fərdi rola sahib olur və qrup normlarını qəbul etmək daha az təsirli olur.Bu səbəbdən, sosial təzyiqin güclü olduğu qruplarda uyğunlaşma daha yüksək olur, xüsusilə də qrup böyüdükcə. Başqa bir faktor isə, təsir göstərən qrupun ölçüsüdür. Asch (1956) və digər erkən tədqiqatçılar (məsələn, Gerard, Wilhelmy, & Conolley, 1968) aşkar etmişdilər ki, uyğunlaşma qrupun ölçüsü artdıqca artır, amma təxminən üç və ya dörd üzvədək; bundan sonrakı nöqtədə isə bu təsir sabitləşir və hətta azalır. Lakin, daha sonrakı tədqiqatlar qrup ölçüsü ilə bağlı bu erkən nəticələri təsdiqləyə bilməmişdir (məsələn, Bond & Smith, 1996). Bunun əvəzinə, yeni tədqiqatlar göstərdi ki, uyğunlaşma qrupun ölçüsü artdıqca, yəni qrupda səkkiz və ya daha çox üzv olduqda artmağa davam edir. Qısacası, qrup nə qədər böyükdürsə, yəni müəyyən bir şəkildə davranan insanların sayı nə qədər çox olarsa, bizim uyğunlaşma meylimiz və "onların etdiyi kimi davranmaq" meylimiz də o qədər artır[11].

Təsviri və Məcburi Sosial Normalar: Normaların Davranışa Necə Təsir Edilməsi

Sosial normalar, insanların müəyyən bir qrup və ya cəmiyyətdə necə davranmalı olduqlarını müəyyən edən qaydalardır. Bu normalar iki əsas kateqoriyaya bölünə bilər: **təsviri (descriptive)** və **məcburi (injunctive)** sosial normalar. Hər biri fərqli şəkildə insan davranışına təsir edir.

Təsviri Sosial Normlar: Bu normalar, insanların necə davrandığını və ya başqalarının hansı şəkildə davrandığını göstərir. Başqa sözlə, bunlar qrup üzvləri-

nin ən çox izlədiyi davranışları təmsil edir. Məsələn, bir qrupun üzvləri arasındakı qaydalara görə, çoxu sərbəst şəkildə dostları ilə birlikdə vaxt keçirirsə, bu davranış təsviri bir sosial norm olur. İnsanlar bu davranışı izləyirlər, çünki başqalarının bunu etdiyini görürlər və özləri də eyni şəkildə davranmağa meyllidirlər. **Məcburi Sosial Normlar**: Bu normalar, insanların necə davranmalı olduqlarını və hansı davranışların qəbul edilmədiyini göstərir. Yəni, bunlar cəmiyyətin və ya qrupun gözləntilərinə uyğun davranışları vurğulayan qaydalardır. Məsələn, bir məclisdə nəzakətli olmaq və yüksək səslə danışmamaq məcburi sosial normalardır. Bu tip normalar, cəmiyyətin və ya qrupun üzvlərinin istəkləri və qanunları əsasında formalaşır və insanların müəyyən davranışları etməkdən çəkinmələrini və ya müəyyən hərəkətləri etmələrini tələb edir.

Normaların Davranışa Təsiri:

- **Təsviri normalar** insanların özləri üçün düzgün gördükləri davranışları müəyyən edir. İnsanlar, başqalarının necə davrandığını gördükdə, bu davranışları özləri də mənimsəyir.
- **Məcburi normalar** insanların sosial təzyiq nəticəsində doğru və ya yanlış hesab edilən davranışlara uyğunlaşmalarını təmin edir. İnsanlar, qrup tərəfindən təzyiq altında olduqda və ya cəmiyyətdə qəbul edilməməkdən qorxduqda, bu normalara əməl etməyə çalışırlar[7].

Bu normaların hər biri insanları müəyyən sosial standartlara uyğun davranmağa təşviq edir və hər iki növ norma fərqli şəkildə insan davranışlarını idarə edir.

Simvolik Sosial Təsir: Başqaları Olmadığı Zaman Belə Necə Təsirlənirik

В рамках международных отношений безопасность традиционно отождествлялась с «существованием государства», то есть с обеспечением его жизнеспособности. В традиционном понимании безопасности появление внешних факторов, угрожающих территории, правительственной структуре или обществу государства, рассматривалось как законное основание для принятия государством мер, зачастую с применением силы. В этом широком смысле объектом военной угрозы обычно выступает государство, тождественное своим границам. Под политической безопасностью подразумеваются угрозы принципам, суверенитету и иногда идеологии государства. С другой стороны, когда речь идёт об экологической безопасности, определение становится гораздо шире и охватывает всё – от сохранения отдельных видов живых существ до глобального потепления и климатических изменений.

В экономическом смысле сложно определить как объект, так и источник угроз. Для компаний главной угрозой существованию является банкротство или, в результате изменения законов или условий, превращение некоторых видов деятельности в незаконные (например, азартные игры) или бессмысленные (например, устаревание из-за технологического прогресса). В рыночной экономике рождение и гибель фирм – обычное явление и редко воспринимается как угроза существованию. Национальные экономики более чувствительны к вопросу выживания, однако угроза, например национального банкротства или неспособности обеспечить основные потребности населения, как правило, возникает редко и неотделима от других проблем безопасности, таких как войны. Традиционно «хорошее» или «плохое» состояние национальной экономики не воспринималось как угроза существованию, если только речь не шла о жизни всего населения или его значительной части. Однако в последние годы государства стали воспринимать такие вопросы как угрозу национальному существованию, например, в случае энергетической безопасности.

«Безопасность» – это понятие, выходящее за рамки обычных правил политического процесса, и то, какие вопросы будут «безопасностными», варьируется от государства к государству. В период Холодной войны такие государства, как СССР и США, «секьюритизировали» культуру, тогда как сегодня государства, например Саудовская Аравия и Иран, «безопасностят» религию. Выбор сферы для «секьюритизации» (то есть определения как вопроса безопасности) является важным, поскольку после включения в эту категорию вопрос становится приоритетом для государства [2]. При маркировке проблемы как «вопроса безопасности» подразумевается применение к ней ряда исключительных (сверхнормальных) методов, вплоть до войны.

Для демократий это порождает проблемы «чрезмерной секьюритизации», «идеализации безопасности» и «незаконных методов обеспечения безопасности». Поэтому в эпоху глобализации вопрос о расширении понятия безопасности должен рассматриваться очень осторожно, чтобы не упустить возможные негативные последствия.

Глобализация быстро размывает не только границы между внутренним устройством государства и его внешними связями, но и традиционные границы между экономикой и безопасностью. Несмотря на растущую роль рынка, правительства остаются важными акторами. Уже с самого начала для того, чтобы через глобализацию могло утвердиться экономическое развитие, демократия и многопартийные общественные образования, необходима в первую очередь мирная и безопасная среда, создаваемая именно правительствами.

В рамках либерализма понятие «экономической безопасности» является сложным из-за природы экономических отношений. В рыночной системе ощущение угрозы среди участников является важным элементом – иначе система не сможет эффективно функционировать. Поэтому вопрос экономической безопасности должен рассматривать загадочную и сложную природу взаимосвязи между политической структурой анархической международной системы и экономической структурой рынка.

Существуют разные точки зрения на этот счёт. Меркантилистские и неомеркантилистские подходы ставят во главу угла политику и рассматривают государство как представителя социальных и политических целей, для которых благосостояние необходимо, а также как гаранта безопасности, необходимой для деятельности рынка и фирм. Либералы же делают акцент на экономике, утверждая, что экономика должна быть основой социальной структуры и максимально свободной от вмешательства государства. Государство отвечает за обеспечение правовой базы и политико-военной безопасности. С этой точки зрения, основная цель экономической безопасности – установить и поддерживать общие правила, обеспечивающие функционирование национальной экономики. Социалистический взгляд, в свою очередь, представляет собой нечто среднее между двумя предыдущими. Он утверждает, что экономика является основой социальной структуры, но одновременно считает, что государство должно контролировать экономику для достижения социальных и политических целей, таких как равенство и социальная справедливость, насколько это возможно независимо от экономики.

При этом безопасность в экономическом плане – это защита слабых от сильных. В этом контексте меркантилисты и социалисты, несмотря на разные причины и цели, могут рассматриваться как часть экономического национализма, поскольку подчёркивают превосходство государства над экономикой. Тем не менее ясно, что эти подходы указывают на различные, зачастую несовместимые понятия «экономической безопасности».

Завершение Холодной войны перевело этот спор в академическую плоскость и практически утвердило либеральное понимание экономической безопасности. Причём современный либерализм отличается от оригинального XIX века. Сегодня он гораздо меньше внимания уделяет национальной экономике и даже выходит за рамки структуры, созданной системой Брет-

тон-Вудс после 1945 года, формируя другой либерализм, в котором социальные ценности подчинены рынку – так называемый «глобальный либерализм» [3]. С другой стороны, на практике экономический национализм, периодически проявляющийся в виде торговых войн, сохраняется во многих частях мира. В такой ситуации понятие экономической безопасности сегодня возникает из напряжённости и конкуренции между глобальной либеральной повесткой и национальными сопротивлениями, возникающими в ответ на попытки навязать эту повестку через торговлю, производство и финансы государствам-нациям.

В этой общей рамке некоторые вопросы становятся определяющими для понятия экономической безопасности. Во-первых, важна связь между способностью государств сохранять независимые военные производственные мощности на глобальном рынке или, шире говоря, военной мобильностью государства и его экономикой. Во-вторых, растущая значимость проблемы «безопасности поставок» – зависимости от внешних ресурсов вследствие неспособности государств обеспечивать самообеспечение, особенно в энергетическом секторе, где экономические зависимости могут использоваться по политическим причинам. Страх, что глобальный рынок создаст не столько победителей, сколько проигравших и усилит существующее неравенство, также влияет на формирование рамок понятия экономической безопасности в новом времени. Это проявляется на международной арене в страхе США потерять гегемонию на вершине и в опасениях развивающихся стран быть эксплуатируемыми, столкнуться с долговыми кризисами и маргинализацией, а внутри – с постоянной безработицей и растущей социальной поляризацией.

После окончания холодной войны всё более усиливающаяся глобализация, сопровождаемая регионализацией и локализацией, каждая из которых по-своему порождает различные экономические, социальные и политические проблемы безопасности, стала очевидным фактом. Тренд глобализации влияет на функционирование международной торговли через чрезмерное многонациональное корпоративное влияние, в то время как регионализация, с появлением таких торговых блоков, как НАФТА и ЕС, ограничивает свободную торговлю. Локализация же, связанная с коллапсом национальных экономик, не имеющих доступа к международным рынкам, ведёт к локализации экономики, примитивизации производства и переходу к бартерной экономике.

В этой среде экономические приоритеты безопасности государств формируются следующим образом:

– Обладать независимыми производственными мощностями, необходимыми для военной мобилизации;

– Обеспечивать безопасность и непрерывность поставок;

– Занимать позицию победителей в разделении на выигравших и проигравших от глобализации;

– Защищаться от опасностей, связанных с незаконной торговлей наркотиками и оружием, организованной преступностью и торговлей оружием массового уничтожения;

– Предотвращать кризисы в международной экономической системе и чрезмерное потребление, разрушающее окружающую среду.

Для того чтобы успешно реализовать всё это и добиться успеха в новом «глобальном порядке», а также избежать ущерба от глобализации, государства прежде всего должны обеспечить более тесную и эффективную координацию между экономическими, политическими, безопасностными, экологическими, научными и технологическими органами и структурами принятия решений. Потому что глобализация заставляет государства принимать решения быстрее, эффективнее и действовать решительнее [4]. В этом контексте более тесное общение между правительственными подразделениями, формирование комплексной политики и более высокий уровень стратегического руководства становятся необходимостью. В таких условиях долгосрочное стратегическое прогнозирование и планирование приобретает ещё большее значение, чем когда-либо прежде. Очевидно, что государства, не способные осуществить это, в будущем окажутся в числе проигравших.

Кроме того, государства должны не просто реагировать на глобализацию, а стремиться формировать её структуру и оказывать на неё влияние. Как уже отмечалось, глобализация – динамический процесс, и защититься от её потенциального вреда с помощью статичных оборонительных мер невозможно. Защита возможна лишь посредством активного планирования и гибкой стратегии, направленных на управление глобализацией. Для этого необходимо установить более тонкий баланс между традиционной силой и «мягкой силой». В таких условиях усиленные элементы мягкой силы становятся всё более важными, поскольку они дают государствам возможность эффективно вмешиваться в проблемы до того, как они перерастут в серьёзные вопросы безопасности. Например, программы развития гражданского общества, верховенства права и демократии, а также простые экономические реформы могут предложить национальным государствам недорогие и низкорисковые, но при этом эффективные и продуктивные меры безопасности. Аналогично, немилитарные методы предотвращения кризисов и обучение сил безопасности для миротворческих операций можно рассматривать как инструменты, способствующие подобной эффективности.

Актуальность исследования. Актуальность исследования обусловлена усилением экономических и экологических рисков в условиях глобализации, ростом зависимости государств от внешних ресурсов и нестабильностью глобальных рынков. Экономическая безопасность сегодня рассматривается как ключевой элемент национальной безопасности, требующий согласованной политики в экономической, экологической и социальной сферах.

Заключение. В заключение следует ещё раз подчеркнуть, что глобальный мир требует усиленных, гибких и интегрированных процессов принятия решений и правительственных структур, способных отвечать на требования и темпы информационной революции. В этом мире лица, принимающие решения и формирующие политику, должны обладать гораздо более глубокими знаниями об исторических, технологических, культурных, религиозных, экологических и других аспектах мира, чем когда-либо прежде. Кроме того,

формирование и поддержание коалиций, обладающих способностями управлять глобализацией, должны стать первостепенными задачами. Ни одно государство не может самостоятельно защититься от негативных последствий глобализации или направлять её развитие. Это возможно лишь при совместных действиях с союзниками и партнёрами на основе общих целей.

Литература:

1. Ибрагимов, Э. Х. (2021). Экономическая безопасность государства и согласование национальных интересов в эпоху глобализации. Шелковый путь, (3), 48. https://www.au.edu.az/upload-files/menu/ipekyolu/2021_03/5IbrahimovE.pdf
2. Мусаев, С. К. (2023). Особенности обеспечения экономической безопасности в условиях глобализации. Журнал «Экономика», (2), 78. https://www.researchgate.net/publication/367757841_QLOBALLASMA_SRAITIND_IQTISADI_THLUKSIZLIYIN_TMIN_OLUNMASININ_SPESIFIK_XUSUSIYYTLRI
3. Рустамов, И. С. (2019). Экономическая безопасность Азербайджана в условиях глобализации. Журнал «Научные новости» UNEC, 7, 59. http://anl.az/down/meqale/adiu_elmixeb/2019/oktyabr-dekabr/792216(meqale).pdf
4. Сафаров, Т. Н. (2024). Глобализация или регионализация: что происходит или что эффективно? Журнал «Политика», (1), 37. https://crossmedia.az/az/article/5814

Kəmalə Yusifova

Xülasə

QLOBALLAŞMANIN TƏHLÜKƏSİZLİK VƏ İQTİSADİYYAT ÜZRƏ TƏSİRLƏRİ

Qloballaşma müxtəlif sahələrdə: iqtisadiyyat, siyasət, mədəniyyət və texnologiyada ölkələr arasında qarşılıqlı əlaqənin dərinləşməsi prosesidir. Qloballaşmanın əsas xüsusiyyətlərinə malların, xidmətlərin, kapitalın və məlumatın sərbəst hərəkəti, eləcə də beynəlxalq institutların artan təsiri daxildir. Bu prosesin hərəkətverici qüvvələri elmi-texniki tərəqqi, rəqəmsal texnologiyaların inkişafı, transmilli korporasiyaların fəaliyyəti və qlobal ticarətin artmasıdır.

Kamala Yusifova

Summary

IMPACTS OF GLOBALIZATION ON SECURITY AND ECONOMY

Globalization is a process of deepening interconnectedness between countries across various spheres: economics, politics, culture, and technology. Key characteristics of globalization include the free movement of goods, services, capital, and information, as well as the growing influence of international institutions. The driving forces behind this process are scientific and technological progress, the development of digital technologies, the activities of transnational corporations, and the growth of world trade.

Rəyçi: dos. Ə.Abdıyeva

TİBBİ BİLİKLƏR

Səfurə Mirsalamova

Sevda Musayeva
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.0194

BAL VƏ ONUN MUALİCƏVİ XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *bal, xəstəlik, qida maddələri, müalicə*
Key words: *honey, illness, nutrients, treatment*
Ключевые слова: *мёд, болезнь, питательные вещества, лечение*

Giriş: Baldan qədim zamanlaradan indiki dövrə qədər həm keyfiyyətli qida maddəsi kimi, həm də müxtəlif xəstəliklərin mualicəsində dərman vasitəsi kimi geniş istifadə edilir. Təmiz təbii bal orqanizmin böyümə və inkişafında mühüm rol oynayır. İmmuniteti gücləndirir, antioksidant və mualicəvi təsir göstərir, ürək qan-damar sistemini gücləndirir, mədə-bağırsaqların işini normallaşdırır. Balı bir çox otlara, çiçəklərə, dəmləmələrə, bişirmələrə qatmaqla çox gözəl effekt verən dər-man maddəsi kimi də istifadə edilir.

Bal bal arıları tərəfindən hazırlanan şirin və qatı bir maddə olub tərkibi çox zəngindir. Şirin olmasının səbəbi tərbibində yüksək konsistensiyada fruktoza və qlükoza monosaxaridlərindən ibarət olması hesabınadır. Xalq təbabətində bal ən çox orqanların sağlam olması, enerjinin, əhval ruhiyyənin yaxşılaşması, gümrah-laşdırılması, yaşlanmaya qarşı ömür uzadan bir qida kimi baxılır. Bal duru və xar-lanmış formada ola bilir (xarlanmış balın tərkibindəki maddələrin pozulmasına tə-sir etmir). Arı balı çox zəngin biokimyəvi tərkibə malik olub orqanizmə antioksi-dant və antibakterial təsir göstərir.

Qədim zamanlarda arıçılıq ən çox Fələstində – qayalarda arı pətəyinin tapılması ilə başlayıb. Yay zamanı orada balın süzülməsi Fələstin torpağının bal və süd torpağı adlandırılmasına gətirib çıxarıb. Əvvəllər balı Allahın möcüzəsi kimi hesab edib onu xüsusi eleksir adlandırırdılar. Bundan başqa balçılıq Yunanıstanda da inkişaf etmişdir. Aristotel (bizim eradan 750 il əvvəl) balçılıq elminin banisi sa-yılır. Yunanıstan mifalogiyasında balın sehri haqqında əfsanələr yaranmışdır. Dahi Qomer öz əsərlərində "İliada" və Odisseya" əsərlərində balın qiymətli qidalandırıcı qabiliyyəti olması haqqında yaxılmışdır, onun yunan döyüşçülərinin (əsgərlərin) sinir sisteminin və yuxusuzluğunun mualicə eleksiri kimi qeyd olunmuşdur.

Hippokrat (bizim eradan 460-377 il əvvəl) arıların həyatı haqqında balçılığın, onların hazırladığı balın qida və mualicəvi xüsusiyyəti haqqında yazmışdır. Hətta Hippokrat baldan mədə-bağırsaq, qaracıyər, ağciyər xəstəliklərində, irinli yaraların sağalması üçün də məsləhət görmüşdür.

Sonralar balçılıq Roma imperiyası zamanıda inkişaf etməyə başlamışdır. Roma alimi Vaqon (bizim eradan əvvəl 116-26 il) kənd təsərrüfatı işlərində balçılığa geniş yer vermişdir. Balın mənbəyinə görə çiçək və şirə növləri, rənginə görə açıq və tünd olur. Məsələn: açıq – günəbaxan, akasiya, müxtəlif çiçəklərdən, tünd – qarabaşaq, şabalıd. Balın faydaları – bal antibakterial xüsusiyyətinə görə boğaz ağrılarında, öskürək yumşaldıcı kimi, bağırsaq gücləndiricisi kimi istifadə olunur. Güclü probiotik sayılır. Bal oraqnizmi iltihabdan qoruyur, bağırsaq sağlamlığına kömək göstərir, mədə pozğunluqlarını yaxşılaşdırır. Yaddaşı gücləndirir, ürək-damar sistemində damar genişləndirici xüsusiyyəti antioksidant olduğu üçün orqanizmdə sərbəst radikallarda mübarizə aparır.

Balda insan orqanizminə lazım olan 300-dən çox maddə aşkar edilmişdir (çox mürəkkəb biokimyəvi tərkibə malikdir), kimyəvi analizlər göstərir ki, bal müxtəlif komponentlərin toplusundan ibarətdir. Keçmiş zamanlardan indiki dövrümüzə qədər baldan müxtəlif xəstəliklərin mualicəsində istifadə edilir. I Dünya müharibəsi zamanı alman cərrahı Ceys öz əsərlərində balın travmatik və irinli yaralarda xüsusi əhəmiyyətini göstərmişdir. Yaraların təmizləndikdən sonra həmin nahiyəyə balın çəkilməsi yaraların sağalmasına gətirib çıxarır. Bundan başqa baldan uzun sürən dəri xəstəliklərində, ekzemalarda da mualicə məqsədi ilə istifadə edilib.

Sovet cərrahı Kriniçkiy (Я.М.Криницкий 1938) bal – piy qarışıqlı mazlardan 52 xəstəni mualicə etmişdir (onlardan 12 ostiomielit, 7 – hidroadenit, 3 nefrit, 30 yanıq xəstələri olmuşdur)

Bundan başqa E.A.Konkova bal məcunlarından (maz) uzun sürən trofik xoralarda, nekrozlarda, qanqrenalarda istifadə etmiş və bu mualicə üsulunun daha effektiv olmasını sübuta yetirmişdir.

Həzm sistemi xəstələrində – qastritlərdə mədənin selikli qişasına təsir göstərir. Pavlov (Павлов) itlər üzərindəki eksperiment nəticəsində balın təsiri nəticəsində mədə şirəsinin zəif turş və ya qələvi mühitli olması aşkara çıxdığını müşahidə etmişdir. Eksperimentlər nəticəsində sübut olunmuşdur ki, bal hipertrofik qastritlərdə mədə şirəsinidə turşuluğun azalması və ya mədə şirəsinin azalması – mədə axiliyası zamanı pepsinin və turşuluğun artmasına səbəb olur. Balın 90-120 dəqiqə qidadan əvvəl qəbul edilməsi turşuluğun azalmasına, pepsinin sintezinə səbəb olur. Balı təmiz və ya ilıq suda həll edib istifadə etmək məsləhət görülür.

Bal mürəkkəb tərkiblidir – tərkibində şəkər, su, dekstrin, zülal, qeyri-zülal azotlu maddələr, fermentlər (amilara diastaza, katalaza, qlükogenaza), üzvü turşular, amin turşuları, minerallar (kalsium, maqnezium, natrium, dəmir, kükürd, yod, xlor, fosfor, radium, mis), vitaminlər B2, B6, N, K, C, E, PP, karbohidrat vardır. Bir standart xörək qaşığı balda (15 ml) təxminən 46 kilokalori qida enerjisi var. Antibakterial, antivirus xüsusiyyətlərinə görə balda mikroorqanizmlərin çox hissəsi inkişaf edə bilmədiyinə görə bal xarab olmur. Hətta arxioloji kontekslərdə tapılan bal nümunələrinin normal olması sübut olunmuşdur.

Balın növlərinin müxtəlif mualicə xüsusiyyətləri vardır. Bunlardan cökə balı tənəffüs yolları xəstəlikləri zamanı – bronxit, bronxial astma, laringit, faringit, tra-

xeit, anginalarda daha çox istifadə edilir. Cəmən balı – ürək qan-damar sistemi xəstəliklərində və profilaktikasında, irinli yaralarda, yanıqlarda, soyuqdəymə, zökəmin mualicəsində istifadə edilir. Çiçək balı sinir sistemi xəstəliklərində – sakitləşdirici, depressiyaya qarşı istifadə edilir. Bundan başqa çiçək balından iştahsızlıqda, parazit (qurd) xəstəlikləri zamanı, immun sisteminin zəifləməsi zamanı məsləhət görülür. Dağ balı aterosklerozda, ürək-damar xəstəliklərinin profilaktika və mualicəsində istifadə edilir. Meşə balı – ən zəngin bal növü olub tərkibində A, B1, B2, B6, C və vitaminlər var. Bu baldan anemiyalarda (Hb artır) immuniteti gücləndirmək üçün istifadə edilir. Qaratıkan balı – qaratikan bitkisinin nektari olub ən çox qaraciyər öd yolları xəstəliklərində, ürək-damar xəstəliklərində istifadəsi məsləhət görülür.

Yaxşı olar ki, balı səhər və axşam 30 qr, günorta 40 qr. qəbul edilsin. Əgər qəbul etdiyiniz bal mədənizi qıcıqlandırırsa başqa növ baldan istifadə etməniz məsləhət görülür, yəni başqa növ bal ilə əvəz etmək lazımdır. Balı 1 stakan suda həll edib qəbul etsəz bal mədədən tez sovrular və turşuluğu azaldar, mədəni qıcıqlandırmaz. Əgər balı soyuq su ilə qəbul etdikdə mədənin nəzəri funksiyası artar mədə və bağırsaqların sekretor funksiyasının artmasına səbəb olar. Qastritlərin müalicəsində ən çox dağ balı, şabalıd balı, nanə balı, lavanda balı və s. istifadə edilir. Mədə xoralarının bal ilə mualicəsi qədim xalq təbabətindən hal-hazırki vaxta qədər istifadə olunur. Əsasən gündə 2 dəfə yeməkdən əvvəl 1 qaşıq, gecə yarısı 1 qaşıq istifadə etmək məsləhət görülür.

Böyrək xəstəliklərində bal ilə mualicə kəskin və xroniki böyrək xəstəliklərində istifadə edilir. (Balın tərkibindəki C və P vitaminin hesabına). Bal böyrək çatışmazlığında müsbət təsir göstərir. Bunun səbəblərindən birincisi balda az miqdar protein və müxtəlif duzların olması, ikincisi isə balın sidikqovucu təsiri olmasıdır. Böyrək xəstəliklərində diurez pozulur (əsas orqanizmdəki toksiki maddələrin xaric olması zəifləyir). Arı bal nəticəsində (qlukoza və vitamin) diurez düzəlməsi və bədəndən toksinlərin çıxmasına səbəb olur. Böyrək xəstəliklərində profilaktika və mualicə məqsədi ilə 80-120 qr. bal qəbulu (sutka ərzində) lazımdır. Böyrək xəstəliklərində ən çox şabalıd, balkan və s. növündən istifadə olunur. Balın mikrobəleyhinə əsasən qrammənfi bakteriyalara təsirinə görə sidik ifrazı xəstəliklərində geniş istifadə edilir.

Qaraciyər xəstəliklərində baldan geniş istifadə edilir. Qaraciyər orqanizmin biokimyəvi labaratoriyası olduğuna görə muasir tibbdə də balın mürəkkəb bioloji xüsusiyyətinə görə baldan istifadə olunması tövsiyə edilir. Baldakı karotin – A vit. çevrilməsi və vitamin K-nın iştirakı ilə protrombin sintez olunur bu da qanın laxtalanması üçün vacibdir. Bal qaraciyər maddələr mübadiləsi sistemini aktivləşdirir, tərkibindəki qlükoza və fruktoza bağırsaqlar tərəfindən tez sovrulur qan dövranı vasitəsi ilə qidalandırır, qaraciyərdə qlikogen ehtiyatını çoxaldır. Bu da öz növbəsində toxumaların və orqanizmin müdafiə funksiyalarını yaxşılaşdırır.

Xalq təbabətində ürək qan-damar xəstəliklərində də baldan geniş istifadə olunur. Hətta Avisenna ürək xəstələrinə vitamin C ilə zəngin bal qarışıqlı nar suyu içməyi tövsiyə edirdi. Balın tərkibindəki 35% şəkər ürək xəstəliyi üçün klassik müalicə xarakteri daşıyır. Balın qəbulundan sonra qlükoza qana sovrulur və ürək əzələləri üçün energetik material sayılır.

Ürək qan-damar xəstəliklərində turşu-qələvi müvazinatının pozulası nəticəsində depressiv hallar baş verir. Balın mürəkkəb tərkibi sinir sistemini tənzimləyə bilir. Əgər yorğun bir şəxs bir çay qaşığı bal qəbul edərsə onun əhval ruhiyyəsi yaxşılaşır və yorğunluğu azlır. Bu xüsusiyyətlərinə görə baldan sinir sistemi xəstəliklərində istifadə edirlər. Qədim çinlilər, hindlilər, yunanlar, romalılar baldan sakitləşdirici və yuxugətirici kimi istifadə edirdilər. Balın qəbulu zamanı sinir hüceyrələrinin qidalanması yaxşılaşır, hüceyrələrdəki toksiki maddələri zərərsizləşdirir və yuxunun sakitləşməsi müşahidə edilir, insanlarda qıcıqlanma azalır, görmə qabiliyyəti yaxşılaşır, əmək qabiliyyəti və gümrahlıq artır. Bütün bunlar baldakıı vitamin və minerallar hesabına olur. Bal ilə mualicənin ən yaxşı effekti nevrasteniya xəstəliyində özünü biruzə verir. Nevrasteniya xəstəliyində yuxusuzluq, başağrıları, başgicəllənmə, əsəbilik, ətraflarda tremor (əsmə), tərləmə müşahidə edilir. Nevrasteniya zamanı çiçək balından 100-120 qr.(sutka ərzində) 1-2 ay müddətində qəbul etmək lazımdır. Bu xəstələr balı yatmazdan əvvəl ilıq su və ya süd ilə qəbul etdikdə xəstələrdə yuxu sakit və dərin olur, sonrakı günlər gümrahlıq, əmək qabiliyyətinin artması müşahidə edilir. Xəstələrin şikayəti azalır. Hətta xəstələr bal ilə vanna qəbul etdikdə (həftədə 2 dəfə 100 qr. bal-1 vannaya) çox gözəl nəticə alırlar.

Venalarda varikoz genişlənməsində və profilaktikasında həmin nahiyəyə bal çəkilmiş tənzif qoyub sarımaq lazımdır. 1-ci gün kompes – 2 saat, 3-4 gün 4 saat, sonrakı günlır 12 saata qədər saxlamaq olar.

Tənəffüs yolları xəstəliklərində öskürək əleyhinə, bəlğəmgətirici kimi istifadə edilir. Bunun üçün 1 xörəl qaşığı balı 1 stakan isti su ilə qarışdırıb gün ərzində 2 dəfə qəbul etmək lazımdır. Qrip zamanı təbii balı sarımsaq ilə qarışdırıb qəbul etdikdə orqanizmin immun sistemi güclənir xəstəliyin tez sağalmasına səbəb olur, ağırlaşmaların qarşısı alınır. Baldan sətəlcəm (pnevmoniya) zamanı da istifadə edilir. 1 xörək qaşığı moruq 2 st. isti suda 5 dəq. qaynadılır 2 qaşıq bal ilə qarışdırılıb gündə 3-4 dəfə hər dəfə 1/2stakan qəbul edilir.

Boğaz ağrılarında anginalarda balı su ilə qarışdırıb qarqara etmək lazımdır (antibakterial təsirə görə). Ümumiyyətlə balın mualicəvi xüsusiyyəti çoxdur. Ondan faringitlərdə, laringitlərdə, oynaq xəstəliklərində, irinli yaralarda, yanıqlarda istifadə edilir. Hətta ginekalogiyada baldan geniş istifadə edilir. Əsasən uşaqlıq yolunun eroziyalarında, iltihabı proseslərdə tampon kimi təyin edilir.

Balın anemiyalarda çox böyük əhəmiyyəti var, çiçək balı vasitəsi ilə müalicə zamanı (20-30 gün ərzində) sutkada 100-150 qr.bal qəbulu anemiyanın müalicəsinə gətirib çıxarır. Yəni eritrositlərin və hemoqlabinin artmasına səbəb olur.

Göz xəstəliklərində – katarakta, görmə zəifliyində baldan istifadə edilir. Ümumiyyətlə təbii balın antibakterial, antivirus xüsusiyyətinə görə bütün növ iltihabi xəstəliklərdə istifadəsi zamanı gözəl nəticələr alınır. Baldan sadəcə daxili deyil, xaricə də istifadə edilir. Bu çox vaxt kasmetalogiya xüsusi maskaların tərkibinə də daxil edilir. Dərinin yenilənməsinə və nəmlənməsinə səbəb olur. Bundan başqa saçların tökülməsində, saçların gec uzanması zamanı bal ilə massaj və ya kompreslər edilir. Bunun üçün bal ilə suyu qarışdırıb saçı yumazdan əvvəl (1 saat) kompres edib, sonra yaxalanır.

Dərinin gözəlləşdirmə xüsusiyyətinə görə Bolqariyanın xalq təbabətində "şirintəhər məcun" (maz) adlanan baldan hazırlanmış kremlərdən istifadə edirlər. Bu

kremlər dərinin elastikliyini yaxşılaşdırır, dərinin gözəlləşməsinə səbəb olur. Bir sözlə bal hal hazırki dövrə qədər çoxlu mualicəvi xüsusiyyətinə görə dərman vasitəsi kimi istifadə edilir və ediləcək.

Nəticə: Bu məqalədə balın tərkibindən, növündən, balçılığın əmələ gəlmə tarixindən, mualicəvi xüsusiyyətlərindən bəhs olunur. Bal orqanizmi iltihabdan qoruyur, bağırsaqların normal fəaliyyətini bərpa edir, mədə pozğunluğunu yaxşılaşdırır, yaddaşı gücləndirir, antioksidant təsir edir, ürək-damar sistemini gücləndirir, sərbəst radikallarla mübarizə aparır. Hər bir bal növü ayrı-ayrı xəstəliklərin müalicəsində istifadə edilir. Qədim zamanlardan bəri hal-hazıra qədər xalq təbabətində kəskin və xroniki xəstəliklərin mualicəsində geniş istifadə olunur.

Ədəbiyyat:

1. Стоймир Младенов – «Мед и медолечение»
2. Yusif Əlibədyəvi. Ərəb dilindən tərcümə R.Ömərov – “Bal və mualicə”
3. Nurəddin İsmayılov “Balın mualicəvi xüsusiyyəti”
4. A.Pirojko (А.Пирожко) – «Мед»

Safura Mirsalamova, Sevda Musayeva

Summary

HONEY AND ITS HEALING PROPERTIES

This article talks about the history of beekeeping, the composition and type of honey, and its therapeutic properties in the treatment of many diseases. Honey protects the body from inflammation, restores the normal functioning of the intestines, eliminates stomach disorders, strengthens memory, and has an antioxidant effect. In addition, it strengthens the heart and blood-vascular system, fights free radicals, strengthens immunity. Each type of honey is used in the treatment of different diseases. Since ancient times, honey has been widely used in the treatment of acute and chronic diseases in folk medicine.

Сафура Мирсаламова, Севда Мусаева

Резюме

МЕД И ЕГО ЛЕЧЕБНЫЕ СВОЙСТВА

В данной статье рассказывается об истории пчеловодства, составе и видах меда, а также его лечебных свойствах при лечении многих заболеваний. Мед защищает организм от воспалений, восстанавливает нормальную работу кишечника, устраняет расстройства желудка, укрепляет память, оказывает антиоксидантное действие. Кроме того, он укрепляет сердце и кровеносную систему, борется со свободными радикалами, укрепляет иммунитет. Каждый вид меда используется при лечении разных заболеваний. С древних времен мед широко использовался при лечении острых и хронических заболеваний в народной медицине.

Rəyçi: dos. S.Zamanova

Sevda Zamanova

Nahidə Məmmədova
Azərbaycan Dillər Universiteti

10.30546/2518-752X.1.601.0197

ELEKTROMAQNİT SAHƏLƏRİNİN İNSAN SAĞLAMLIĞINA TƏSİRİ

Açar sözlər: *elektromaqnit sahəsi, elektromaqnit dalğaları, radiodalğaları, bioloji və istilik təsir, dictoniya, asteniya, astenovegetativ sindrom, diensefalik sindrom*

Keywords: *electromagnetic field, electromagnetic waves, radio waves, biological and thermal effects, dystonia, asthenia, asthenovegetative syndrome, diencephalic syndrome*

Ключевые слова: *электромагнитное поле, электромагнитные волны, радиоволны, биологические и тепловые эффекты, дистония, астения, астеновегетативный синдром, диэнцефальный синдром*

Təbiətdə baş verən bütün fiziki hadisələr bu və ya digər qarşılıqlı təsirlərlə əlaqədardır. Bizi əhatə edən aləmin quruluşu haqqında geniş bilik əldə etmək üçün elektrik və maqnit hadisələrinin xüsusi əhəmiyyəti vardır.

Elektromaqnit sahəsi (EMS) elektrik yüklü hissəciklər arasında qarşılıqlı təsirlərin baş verdiyi xüsusi bir materiya formasıdır. Elektromaqnit sahəsi - elektrik və maqnit sahələrindən yaranan fiziki sahədir.

EMS iki komponentdən ibarətdir: kosmosda yüklü hissəciklərin elektrik yükləri ilə yaranan elektrik sahəsi və elektrik yükləri keçirici mühitdə hərəkət edərkən yaranan maqnit sahəsi. Elektrik və maqnit qüvvələri də qravitasiya qüvvələri kimi müəyyən məsafədən ötürülə bilər. Qravitasiya sahəsinin mənbəyi kütlə olduğu halda elektromaqnit sahəsinin mənbəyi elektrik yüküdür. Elektrik yüklü cisimlər və ya zərrəciklər arasında elektromaqnit sahəsi yaranır. Bizi əhatə edən təbiət elektrik hadisələri ilə zəngindir. Biz yerin elektrik sahəsində yaşayırıq.

Elektrik sahəsi elektrik sahəsinin gücü (E, V/m), maqnit sahəsi isə maqnit sahəsinin gücü (N, A/m) ilə xarakterizə olunur.

EMS-nin mövcudluğunun fiziki səbəbi, zamanla dəyişən elektrik sahəsinin maqnit sahəsini, maqnit sahəsinin isə burulğan elektrik sahəsini həyəcanlandırmasıdır. Daim dəyişən hər iki komponent elektromaqnit sahəsinin mövcudluğunu qoruyur. Dəyişən elektrik sahəsi ilə dəyişən maqnit sahəsi arasında əlaqə elektromaqnit sahəsini yaradır. Elektromaqnit sahəsinin fəzada dalğa şəklində yayılmasını ilk dəfə alman alimi Hers təcrübi olaraq təsdiq etmişdir. EMS dalğa uzunluğu (m) və tezlik (Hs) ilə xarakterizə olunur.

Yer kürəsi mənfi yüklə yüklənmişdir. Atmosferin yuxarı təbəqələri isə müsbət elektrik yükünə malikdir. Yüklü zərrəciklərin nizamlı hərəkətinə isə elektrik cərəyanı deyilir. Elektrik cərəyanı maqnit sahəsinin mənbəyidir. Maqnit sahəsi hə-

rəkətdə olan elektrik yüklərinin yaratdığı materiya növüdür. Yerə də böyük maqnit kimi baxmaq olar.

Yerdəki bütün müxtəliflik və həyat planetin maqnit sahəsi ilə əlaqədardır. Planet maqnit sahəsini yenidən bərpa etməsəydi, günəş radiasiyası atmosferi və okeanları məhv edərək, hər yeri çölə çevirərdi.

Yerin maqnit sahəsinin yaranması onun öz oxu ətrafında fırlanması ilə bağlıdır. Bu baxımdan yerin 2 maqnit sahəsi var. Bu sahələr atmosferin yuxarı qatlarında maqnitosfer təbəqəsini yaradır. Bu təbəqənin yerdə həyatın mövcud olmasını şərtləndirən əsas amillərdən biridir.

Yerin maqnit qütbü – maqnit qüvvəsinin təsiri ilə bizim planeti əhatə edən sahədir. Bu sahənin yaranması alimlər arasında hələ də mübahisə mövzusu olsa da, tədqiqatçıların əksəriyyətinin fikrincə, maqnit sahəsini yer kürəsinin nüvəsi yaradır. Onlar iddia edirlər ki, Yerin öz oxu ətrafında fırlanması maye şəkilli nüvənin axmasına səbəb olur. Bu zaman yüklü elektrik hissələrinin yerdəyişməsi baş verir və onların ətrafında maqnit sahəsi yaranır.

Maqnit sahəsinin şimal qütbü cənub yarımkürəsində, cənub qütbü isə şimal yarımkürəsində yerləşir. Maqnit sahəsi insanları və süni peykləri kosmik hissəciklərin məhvedici təsirindən qoruyur. Buna günəş küləyinin ionlaşmış (yüklənmiş) hissəciklərini misal göstərmək olar. Maqnit sahəsi onların istiqamətini dəyişərək yer kürəsini ölümcül şüalanmadan xilas edir. Maqnit sahəsinin gözlə görünməməsinə baxmayaraq bəzi canlılar onları hiss edə bilirlər. Köçəri quşlar onunla istiqaməti müəyyənləşdirərək öz yollarını tapırlar.

Yerin maqnit sahəsi qoruyucu qalxan rolunu oynayır. Əgər belə olmasaydı Yer kürəsində həyat tamam başqa şəkil alardı.

Elektromaqnit dalğaları, elektromaqnit şüalanma – fəzada yayılan elektromaqnit sahəsinin vəziyyətinin dəyişməsidir. Elektromaqnit dalğası ikili təbiətə malikdir. Bir tərəfdən kosmosda yayılan bir sahədir, digər tərəfdən elementar hissəciklərdir (kvant və ya cisimciklər). Elektromaqnit dalğaları kosmosda işıq dalğalarının sürəti ilə yayılır. Gözə görünən işıq da müəyyən uzunluqdakı elektromaqnit dalğasıdır. İstənilən elektromaqnit dalğası (sahə) insan orqanizminə təsir edə bilən enerjidir. Planetin təbii elektromaqnit fonu təbiətin özündə mövcud olan elektromaqnit dalğalarıdır. Məsələn, Yerin daimi elektrik və maqnit sahəsi, tufan zamanı atmosferdəki elektrik sahəsi və s.

Müxtəlif diapazonlu elektromaqnit dalğaları sənayedə, elmdə, texnologiyada, təbabətdə geniş tətbiq tapmışdır: metalların, ağacın və digər materialların istiliklə işlənməsində, radio yayımında, televiziya və rabitədə, dielektriklərin qızdırılmasında və qaynaqlanmasında və s. ultra yüksək tezlikli (UYTD) elektromaqnit dalğaları isə radarda, radiometeorologiyada, radionaviqasiyada, kosmosda, radiofizikada və s. tədqiqatlarda əhəmiyyətli tətbiq tapmışdır.

Elektromaqnit şüalanmasının təsiri onu yaradan ötürücünün gücündən asılıdır. Fizika qanununa görə, elektromaqnit sahəsinin gücü mənbəyə olan məsafənin kvadratına tərs mütənasibdir.

